NAZİM TAPDIQOGLU (VƏLİŞOV)

# XOCAVƏND ENSİKLOPEDİYASI

Bakı - 2009

-15934-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Nazim Tapdıqoğlu (Vəlişov). «**Xocavənd ensiklopediyası**». «Zərdabi LTD» MMC, Bakı, 2009,544 səh.

Kitabda Xocavənd rayonunun bütün oykonimləri (*yaşayış məntəqələri*), yüzlərlə oronimləri (*yer adları*), hidronimləri (*arx, bulaq, kəhriz, çay, göl*) haqqında məlumat xarakterli qısa bilgilər öz əksini tapmışdır. Müəllif arxiv sənədlərinə, mənbələrə, müxtəlif elmi əsərlərə istinad edərək toponimlərin mənşəyinin elmi izahına, onun yaranması tarixinə, keçmiş və indiki adına, düzgün yazılış variantının təyininə xüsusi diqqət yetirmişdir. Rayonun tarixi, arxeologiyası, etnoqrafiyası, coğrafiyası ilə bağlı olan bu ensiklopedik məlumat kitabında kəndlərin adları - orada yaşamış və yaşayan tayfaların, rayonla bağlı dağ, dərə, qaya, düz, təpə, çay, qobu, bulaq və s. adların mənşəyi, mənsubiyyəti haqqında izahlı şərhlər, eləcə də, rayonun Qarabağ müharibəsində şəhid olmuş, girov götürülmüş, itkin düşmüş sakinləri, həm də tanınmış şəxsiyyətləri, ziyalıları haqqında əlifba sırası gözlənilməklə məlumat verilmişdir. Xocavənd rayonunun toponimləri ilk dəfədir ki, bu cür sistemli şəkildə tədqiq olunur. Rayonun tarixi və memarlıq abidələri haqqında əsl həqiqəti çatdırmağa xidmət edən «*Xocavənd ensiklopediyası*» Xocavəndin müstəqillik dövründə elmi şəkildə öyrənilməsinin, onun təbliğinin dəyərli nümunəsidir. Ensiklopediyada müəllifin Xocavənd toponimi haqqında 500-dən çox məqaləsi dərc edilmişdir. Geniş oxucu kütləsi və elmi auditoriya üçün nəzərdə tutulan bu kitab tədqiqatçılar üçün də bir tarixi mənbə ola bilər.

$V\frac{05005000000}{024-2009}$ Qrifli nəşr

© N. Tapdıqoğlu, 2009



# MÜƏLLİFDƏN ÖN SÖZ ƏVƏZİ

***Əziz oxucular!*** *Sizinlə hər bir görüş mənim üçün həmişə unudulmazdır, fərəhlidir. Şəxsən mən bundan qürur duyur və zövq alıram...*

Son illərdə mühüm elm sahələrindən olan toponimikanın ayrı-ayrı sahələrinin araşdırılması geniş miqyas almışdır. **Toponimika** bir çox problemlərin öyrənilməsinə kömək edir. Onun bir sıra problemləri hərtərəfli tədqiqata cəlb olunur. **Toponim yaradıcılığı** xalqımız üçün əlbəttə ki, çox gərəklidir. Azərbaycanda ayrı-ayrı adamların, xüsusilə də, tarixçilərin öz təşəbbüsləri və istəkləri ilə bu və ya digər şəkildə toponimləri toplamaqlarını ancaq alqışlamaq olar. Amma bu da vacibdir ki, toplanan bu toponimlər, onomastik vahidlər elmi, tarixi, hüquqi, coğrafi, dil, üslubiyyat baxımından qruplaşdırılaraq Dövlət səviyyəsində nəşr olunub oxuculara çatdırılmalıdır.

Hər hansı bir regionun, rayonun və s. qədim və müasir toponimlərinin toplusu həmin regionun, rayonun və s. toponimik fondu sayılır. Çox təəssüf ki, Azərbaycanda hələ də elmin tələb etdiyi formada yaradılmış belə fond yoxdur. Belə fondun yaradılması dövlət əhəmiyyətli vacib bir işdir. Bu mənada Xocavənd rayonunun da toponomik fondunun yaradılması gözəl bir iş olardı...

***Toponimlər*** dilçiləri, coğrafiyaçıları, tarixçiləri daha çox maraqlandırır. Xalqımızın minillik yaddaşı, mifik düşüncəsi keçmişi bu günə çatdırmağına görə bizim hər birimiz də bizə bəxş olunan tale dünyamızda, əgər belə ifadə etmək düzgündürsə, böyük və ulu tariximizin bir hissəsini, müəyyən parçasını yaşadırıq.

Toponimçinin işinin xüsusiyyəti həm də toponimləri toplayarkən müxtəlif insanlarla, ziyalılarla, ağsaqqallarla görüşməkdir. Çünki, bu cür dəyərli, böyük, ulu insanların

söhbətlərində, fikirlərində bəzən tarixi təcrübənin sınağından çıxmış ölçülübiçili həqiqətlər də faydalı olur. Bu mənada onların gücü keçmişimizə körpü olmalarında, tarixin bəzi dərin və qaranlıq səhifələrinə işıq salmalarındadır. Hər hansı bir coğrafi obyektə müxtəlif səbəblərdən müəyyən ad verilir: iqliminə, rənginə, relyefinə, xarici görünüşünə, bitki və heyvanat aləminə və s. görə. Toponimçinin vəzifəsi məhz bu adları düzgün izah etməkdir.

Əzəli Azərbaycan torpaqlarını itirə-itirə gəldiyimiz bir dövrdə toponimik araşdırma və tədqiqatların toplanıb öyrənilməsi, çapı, Azərbaycan toponimik lüğəti, eləcə də, xalq coğrafi terminləri lüğətinin tərtib edilməsi, respublikanın toponimik fondunun yaradılması **millət** olaraq qarşımızda duran həlli vacib məsələlərdəndir.

**Tarix** uydurulmur, o, yazılır. Yazılmayan səhifələr isə zamanın diqtəsinə uyğun olaraq ağılla, şüurla araşdırılır, öyrənilir, aşkarlanır. ***Toponim tarixi*** də belədir. Onu tədqiq edən də həqiqətləri üzləşdirir, tutuşdurur, çünki ***Tarix*** adına yazılan hər bir fikrin möhürlü arayış qədər etibarlı olması şübhəsizdir. Coğrafi adlar tarixi abidələrdir. Respublikamızın müxtəlif coğrafi adlarına aid kifayət qədər tədqiqat əsərləri və mənbələr var. Onların bir hissəsini bu kitabın ədəbiyyat siyahısına da daxil etmişəm. Coğrafi adların öyrənilməsində, tədqiqində böyük xidmətləri olan alimlərimiz çoxdur...

Bu gün toponimlərin öyrənilməsinin əhəmiyyətini, gərəkliyini şərh etmək, məncə, artıqdır. İndiyədək Azərbaycanın qədim sakinləri, onların etnik mənsubiyyəti haqqında müxtəlif sənəd və materiallarda çoxlu ziddiyyətli fikirlər səslənməkdədir. Bu cür müxtəlifliyin aydınlaşması üçün elmi və hüquqi söykəncəyi olan təhlil və tədqiqatlar demək olar ki, aparılmamışdır. Əlbəttə, bu və ya digər dərəcədə müəyyən tədqiqat işləri var, amma bütün bunlar, əgər belə





demək mümkündürsə, şəxsi təşəbbüs müstəvisindən o yana qalxa bilmir. Təbii ki, bu kimi tədqiqatlar Dövlət müstəvisində, necə deyərlər, Dövlətin qayğısı, köməyi ilə aparılmalıdır. Məsələn, sübut olunmuşdur ki, miladdan öncə II minilliyin ortalarında Qafqazdakı, o cümlədən, Azərbaycandakı dəfn mərasimləri, müxtəlif qəbir əşyaları qədim Mesopatomiya mədəniyyəti ilə oxşardır. Amma çox təəssüf ki, böyük əhəmiyyət kəsb edən bu kimi məsələlərə münasibətdə dövlətin əlaqədar institutları, təşkilatları nədənsə daha çox susmağa üstünlük verirlər.

Belə nümunələri çox sayda misal gətirmək olar. Məsələn: qədim azərbaycanlıların soykökü, adətləri haqqında danışarkən orada yaşayan oturaq, köçəri sakların, massagetlərin, skiflərin, sarmatların müxtəlif əsası olmayan ehtimallarla irandilli və s. hesab olunması, əlbəttə ki, qəbuledilməzdir. Əslində, bu cür böyük əhəmiyyət kəsb edən məsələlər məncə, **Dövlət Proqramına** daxil edilməlidir...

Toponimlər müəyyən bir xalqın, tayfanın adından və həmin xalqın dillərindəki coğrafi obyekt ünvanlı sözlərdən ibarət olduğu üçün ***Tarix, Coğrafiya, Dilçilik*** elmləri ilə, xüsusilə, sıx bağlıdır. Aydındır ki, ayrı-ayrı **tayfalar** xalqların yaranmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, *etnogenez* problemi elə mürəkkəb məsələdir ki, onun həllində təkcə müəyyən elm sahəsinə aid olan mənbələrə əsaslanmaq düzgün deyildir.

Toponimikanın tarix, coğrafiya və dilçiliklə bağlılığına baxmayaraq, onları bir-biri ilə eyniləşdirmək olmaz. **Toponimika** konkret bir regionun oronimlərini, oykonimlərini, hidronimlərini tədqiq etməklə bərabər, eyni zamanda, insanlar tərəfindən mənimsənilmiş və ya mənimsənilməyən mənbələri, mətləbləri də öyrənir. Hər bir toponimçi tədqiq etdiyi coğrafi adların, xüsusilə, Qədim Azərbaycan mənşəli toponimlərin etimologiyası, tarixi və dil mənsubiyyətinin,

qruluşunun öyrənilməsinə ciddi fikir verməlidir. Toponimçi istənilən bir sözün mənşəyi və mənası haqqında deyilmiş mübahisəli fikirləri qeyd etməklə bərabər, öz fikrini də deməli, bunları elmi şəkildə təhlil etməlidir.

Respublikamızın ərazisində, müxtəlif rayonlarda yaşayan xalqlar etnik tərkib baxımından qarışıq olduğu üçün ona uyğun oronimlərin tərkibindəki terminlər də müxtəlif dillidir. Tədqiqatlar göstərir ki, türkdilli oronimlər Azərbaycan xalqının etnogenezində, formalaşmasında iştirak etmiş qədim türk tayfalarının adlarını özündə qoruyub saxlaya bilmişdir. Çoxtəbəqəli ***Azərbaycan oronimiyası*** Azərbaycan, türk, avar, ləzgi, talış, tat, ərəb, fars, kürd, saxur, rus, udin, gürcü və başqa dillərdədir.

Azərbaycan ərazisində lap qədim dövrlərdən məskən salan xalqların və müxtəlif tayfaların dil tarixinin öyrənilməsində oronimlərin xüsusi yeri vardır. Bilirik ki, xalqımızın etnogenezində türkdilli tayfalar daha yaxından iştirak etmişlər. Bununla bağlı olan oroqrafik obyekt adlarının mənşəyinin həqiqətə yaxın elmi izahı xalqımızın tarixi keçmişinə aid qiymətli faktlar aşkara çıxarır. İndiyə qədər müəyyən təşəbbüs və böyük həvəslə toplanılan oronimik məlumatlar respublikamızda yaşayan xalq, etnik qrup, qəbilə və tayfaların tarixinə, dillərinə, adət-ənənələrinə, təsərrüfat həyatına aid qiymətli mənbələrdir.

Coğrafi adların tədqiqinin əhəmiyyəti çox böyükdür. Aydındır ki, heç bir xəritəni coğrafi adsız, hər toponimi də adını daşıdığı obyektsiz təsəvvür etmək çətindir. Toponimlərin əksəriyyəti yerin landşaft komponentlərini özündə əks etdirdiyinə görə coğrafi adları **coğrafiyanın açarı** adlandırmaq olar. Coğrafi adların linqvistik, tarixi və coğrafi baxımdan böyük əhəmiyyəti vardır. Toponimlərin müxtəlif növləri arasında tarixi genetik əlaqələr mövcuddur.





***Hər bir toponim tarixi sənəddir***, bizə keçmişdən xəbər verən mənbədir. Qədim mənbələri nəzərdən keçirmədən, tarixi heç olmasa müəyyən səviyyədə bilmədən hər hansı bir coğrafi adın, toponimin mənşəyi haqqında tam əhatəli, düzgün söz demək olmaz. Bu mənada toponimiyanın tədqiqində tarixçilərin rolu danılmazdır, əvəzsizdir. Hər bir coğrafi adın etimologiyasının tədqiqi zamanı tarixi və linqvistik faktlar mütləq nəzərə alınmalıdır. Çox təəssüf ki, Azərbaycanımızda qədim toponimlərə bəzən həvəskar münasibət hallarına da rast gəlirik. Coğrafi adlar hər bir xalqın milli və mənəvi sərvəti hesab edilir. Coğrafi adların tədqiqi, yuxarıda qeyd etdiyim kimi, çox böyük əhəmiyyətə malikdir. Ən azı ona görə ki, bu adlarda keçmişimizin - dədələrimizin, nənələrimizin nəfəsi, torpağımızın, xalqımızın həm ruhu, həm də dili yaşayır. Coğrafi adları tədqiq edən **Toponimika** özlüyündə ***Onomastika*** elminin bir qoludur, şaxəsidir. **Topos** yunan sözü olub **"*relyef, yer, ərazi, sahə*"**, **onoma** isə **"*ad*"** mənasını bildirir.

Coğrafi adları məhz **Toponimika** elmi toponimik səviyyədə - metod və prinsiplər əsasında araşdırır. Elə coğrafi adlar var ki, onların yarandığı tarix məlumdur; amma elə toponimlər də var ki, onların yaşını dəqiq müəyyən etmək mümkün deyildir. Əlbəttə, bu qəbildən olan toponimlərə bəzi qədim coğrafi adları da aid etmək olar. Bəzən coğrafi adları bəşəriyyətin zaman və məkan daxilində yer üzərinə səpdiyi qiymətli almaz dənələrinə bənzədirlər. Bu ifadənin özündə, doğrudan da, bir həqiqət vardır.

Əslində "*pis*" coğrafi ad yoxdur. Onlar müqəddəs sayılmalı, qətiyyən dəyişdirilməməlidir. Coğrafi adlara "*yamaq vurmaq*", o adın mənsub olduğu xalqa, onun mənşəyinə, kökünə zərbə endirmək deməkdir. Heç bir coğrafi adı "*elə-belə*" - özbaşına dəyişmək olmaz. Əgər bu cür hallar baş vermişsə, belə mənəvi zərbələrin qarşısı hökmən alınmalı,

onun kökü kəsilməlidir. Erməni tədqiqatçılarından – M.Barxudaryan və A.Köçəryan ermənilərin Qarabağa XIX, XX əsrlərdə və haradan gəlmələrini öz yazılarında göstərib etiraf etmişlər. Yeri gəlmişkən, ermənilər işğal etdikləri ərazilərdə türk toponimlərini dəyişdirməklə, həqiqi tarixi faktları baltalamaqla əslində tarixin əleyhinə getmişlər və bu gün də *"gedirlər"*. Əlbəttə, bunu onlara heç **Tarix** də bağışlamaz.

Yuxarıdakı fikirlərimi ümumiləşdirib belə deyə bilərəm ki, hər bir yaşayış məntəqəsi ərazisində (rayonlarda, qəsəbələrdə, kəndlərdə) olan bütün coğrafi adları toplayaraq onların keşiyində möhkəm durmaq lazımdır. İnsan öz adını özü ilə ömrü boyu gəzdirdiyi kimi əslində ana torpağa verilən coğrafi adları da özü ilə daşıyır. Valideynlərinin adı kimi doğulub boya-başa çatdığı yerdə, ərazidə olan coğrafi adlar da insan ürəyində fərəh doğurmalı, sevinc hissi, xoş əhval-ruhiyə yaratmalıdır.

Dərindən düşünsək, görərik ki, mənası olmayan coğrafi ad yoxdur. Coğrafi adları öyrənən hər bir şəxs tarix, coğrafiya və dilçilik elmlərini mükəmməl bilərsə, deməli, onları yaxşı tədqiq edə bilər. Hər bir toponimin arxasında sirli bir məna durur. Deməli, onlar adi söz ola bilməz. Toponimlər təbii ki, xalqın keçmişi, məişəti və dili ilə sıx bağlıdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Qədim Azərbaycan əhali-sinin etnik tərkibi və dili haqqında əlimizdə hələlik o qədər də çox tutarlı mənbə yoxdur.

Hər bir toponimi insan yaratdığı üçün ***"coğrafi adlar yerin yaddaşıdır"*** desək, heç də səhv etmərik. Müəyyən zaman müddətində verilmiş bu adlar illər, əsrlər boyu lazımi səviyyədə izah və tədqiq olunmalıdır, çünki, etno-genetik bilgilərin araşdırılmasında toponimikanın əvəzsiz xidməti danılmazdır.





1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunun nəzdində yaradılmış ***Toponimika şöbəsi*** toponimik lüğətlər tərtib etmək, ***toponimika fondu yaratmaq,*** coğrafi adların transkripsiya və unifikasiyası ilə məşğul olmaq vəzifələrini qarşıya məqsəd qoymuşdur. Burada aparılan tədqiqatlar nəticəsində Azərbaycanın toponimik lüğəti və xalq coğrafi terminləri lüğəti tərtib edilmiş, respublikanın **toponimik fondu** yaradılmışdır.

İnsan tarixi yaratdığı üçün **tarix** insanı həmişə yaşadacaqdır. İnsanları yaşadan bilmədiklərini öyrənmək həvəsidir. İnsan üçün hara gedir-getsin, **Vətən**, yenə elə Vətəndir. **Vətən havası** onu ürəyinə çəkənlər üçün **can dərmanıdır**. Vətən elə **Vətən** olduğu üçün gözəldir.

Doğru deyirlər ki, **ömür** beşikdən başlanır. *"Geniş yolların kökü xırda cığırlardır"* - deyənlər yanılmırlar. Hər birimiz kiçik evlərin astanasından **Böyük Vətən** dünyasına düşürük. Yollar bizi ***"Böyük Dünyaya"*** apardıqca, balaca **Vətən dünyası** yadımızdan çıxmır. Bəli, doğulduğumuz ocağı duymadan, sevmədən, öyrənmədən **Böyük Vətənimizi**, yurdumuzu, duya, sevə, öyrənə bilmərik. Haralardasa ondan, **Vətəndən**, yaxşı yer olub-olmamasının **Vətən** sevgisinə qətiyyən dəxli yoxdur. Vətəninin, xalqının, doğulduğu **Yurdun** tarixi keçmişini bilmək, öyrənmək hər bir Vətən övladı üçün həm borc və həm də şərəfdir.

**Vətən** də, **millət** də, **dövlət** də torpaqdan başlanır. Ağacın barını haradan aldığı məlumdur. **İnsan, Tarix** isə araşdırılmalıdır, ən azı ona görə ki, onun kökləri müxtəlif istiqamətlərə gedib çıxır. Hər şeyin aydın olması üçün **köklərə** baxmaq lazımdır. Bu, həm də vacibdir. Biz millət olaraq əgər yurdumuzun, Vətənimizin tarixini yaxşı öyrənməsək, bilməsək, onda gələcəkdə də hələ başımıza çox faciələr, bəlalar gələ bilər. Bilməyəndə isə susuruq. Susanda da düşmənlərimiz üstümüzə ayaq alırlar...

Aydındır ki, xalqın tarixi kimi, sözün də **tarixi** var. Bu mənada düşünürəm ki, tarixi-toponimik araşdırmalar keçmiş və ötənlər haqqında olsa da, keçmiş üçün yox, bu gün üçün - bu günü dərk etmək və sabahlara yol açmaq üçündür. Onu da unutmamalıyıq ki, HƏQİQƏT bütün kitablardan böyük və ucadır. Bəzən elə olur ki, kiçicik bir sübut, balaca bir dəlil, adi bir fakt xalqın tarixinin bütöv bir qaranlıq dövrünü işıqlandırır. Məlumdur ki, yazıya düşməyən adlar yavaş-yavaş tarix səhnəsindən silinir, itib-batır. Adı yazıya düşən coğrafi adlar isə çox yaşayır, tarixdən silinmir.

Azərbaycan Respublikasının **26 noyabr 1991**-ci il tarixli, **279-XII** nömrəli Qanununa əsasən **DQMV** ləğv edilərək Martuni və Hadrut rayonlarının bazası əsasında **Xocavənd rayonu** yaradılmışdır. Rayonun ümumi sahəsi **1458** km$^2$, əhalisi **41.500** (o cümlədən azərbaycanlılar – 10.500) nəfərdir. **Xocavənd rayonu** Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.



Bəşər sivilizasiyasının beşiklərindən biri olan Xocavənd bölgəsi antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu





bölgədə ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, müxtəlif dövrlərdə inşa edilmiş türbələrə, daş-qoç heykəllərə – ümumiyyətlə, nadir mədəniyyət nümunələrinə tez-tez rast gəlirik.

Artıq elmi şəkildə tam sübut olunmuşdur ki, Xocavənd ərazisi ilk insan məskənlərindən biridir. Bu ərazilərdə Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hssəsi olan Xocavənd ərazisində çoxlu sayda dünya əhəmiyyətli tarixi-memarlıq abidələri vardır. Bunlar Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir. Azərbaycanın sosial, siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Xocavəndin hər daşı, hər qayası, hər mağarası... tarixin əsl canlı şahididir.



Rayonun relyefi əsasən dağlıqdır. Şərqdə və cənub şərqdə əsasən dağətəyi düzənliklərdir. İqlimi çox yerdə qısa quraq keçən mülayim isti, qışı quraq keçən soyuqdur.

Çayları (*Xonaşençay, Köndələnçay, Qozluçay, Quruçay, Çaxmaqçay, Allıçay, Ataqutçay, Binəçay* və s.) Kür-Araz hövzələrinə aiddir.

Bitki örtüyündə kolluq və seyrək meşəli çəmənlər üstünlük təşkil edir. Kolluqlar və enliyarpaq meşələri var.

Rayonda **1** şəhər (Xocavənd şəhəri-rayon mərkəzi), **2** iri qəsəbə (Qırmızı Bazar və Hadrut), **82** kənd var. Bu kəndlərdən **10**-u azərbaycanlılar yaşayan kəndlərdir. Məlum Qarabağ müharibəsi zamanı rayonun bütün azərbaycanlılar yaşayan kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdur.

**Xocavənd rayonunun kəndlərinin işğal tarixləri:**

| | |
|---|---|
| Tuğ, Salakətin | - 30.10.1991-ci il; |
| Xocavənd | - 19.11.1991-ci il; |
| Axullu | - 09.01.1992-ci il; |
| Qaradağlı | - 17.02.1992-ci il; |
| Muğanlı, Əmirallar, Kuropatkin | - 02.10.1992-ci il; |
| Günəşli | - 23.07.1993-cü il; |
| Xətai | - 20.08.1993-cü il; |

***Xocavənd rayonu*** üzümü və yaşıl mərməri ilə məşhurdur. Rayonda əsas təsərrüfat sahələri heyvandarlıq, üzümçülük, quşçuluq, taxılçılıq, bostançılıq və tərəvəzçilikdir. Rayonda arpa, buğda, qarğıdalı, soğan, kartof, yem çuğunduru və bostan-tərəvəz bitkiləri yetişdirilir. Rayon ərazisində *Bağırxan, Qırmızı Bazar, Mədə Bulağı, Baba Bulağı, Ballı Bulaq* və s. onlarla istirahət zonaları var.

Xocavənd rayonu ərazisində, Salakətin kəndinin yaxınlığında (Quruçay vadisində) **1,5** milyon il yaşı olan **Azıx mağarası**, həmçinin qədim tarixə malik ***Tağlar mağarası,*** Tuğ kəndi ərazisində yerləşən V-VIII əsrlərə aid «*Ritiş*» qalası, Ərgünəş dağının yamacında sıldırım qayalar





üzərində yerləşən «*Ərgünəş*» qalası, Düdükçü kəndi ətrafında XIII əsrə aid «*Rzaqulu Bəy*» türbəsi, Xocavənd kəndi yaxınlığında «*Aşıqlı Qoşa*» kümbəzi, Böyük Tağlar kəndində «*Alban*» məbədi (1241-ci il), Tuğ kəndindəki «*Qırmızı*» məbəd X əsrə aid adlı tarixi memarlıq və incəsənət abidələri və s. var.

Erməni təcavüzü nəticəsində rayonun dağıntıya məruz qalmış mədəni və dini abidələrinə nümunə olaraq Tuğ kəndinin 5 kilometrliyindəki V əsrə aid *Alban kilsəsi*, I-V əsrlərə aid *Alban qəbiristanlıqları*, Salakətin kəndi ərazisindəki *Dəmirov* və *Dağdağan* ocaqları, Xocavənd kəndi ərazisində yerləşən *Cicim ocağı*, Qaradağlı kəndinin ərazisində qeydə alınan və III-VI əsrlərə aid olan *Alban qəbiristanlıqları*, Əmirallar kəndi yaxınlığındakı (keçmiş Bəhrəmli kəndi ərazisində) *Bəhrəmli piri*, Muğanlı kəndində yerləşən *Seyid Rza günbəzi*, Qaradağlı kəndi ərazisindəki *Yel piri* və neçə-neçə qiymətli maddi memarlıq abidələrini göstərmək olar.

Xocavənd torpağı ölkəmizə çoxlu sayda tanınmış siyasətçilər, mədəniyyət xadimləri, rəssamlar, şairlər, yazıçılar, jurnalistlər, müğənnilər, idmançılar, sərkərdələr, igidlər bəxş etmişdir.



**2 oktyabr 1992**-ci il tarixdə Xocavənd rayonu Ermənistan ordusu tərəfindən işğal olunmuşdur. Təcavüz nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş rayon sakinləri respublikanın **40** rayon və şəhərində müvəqqəti məskunlaşmışlar.

Beyləqan bölgəsində Xocavənd rayonundan olan məcburi köçkünlər üçün **500** ailəlik yeni qəsəbə salınmışdır. 2008-ci ilin 4 oktyabrında ölkə rəhbəri özü də qəsəbənin açılış mərasimində iştirak etmişdir...

**1988**-ci ilin fevralından başlayan Qarabağ müharibəsində **Xocavənd rayonu 145** şəhid (onların **15** nəfəri qadın, **13** nəfəri uşaqdır) vermişdir. Müharibənin əsas ağırlığını rayonun Tuğ, Salakətin, Xocavənd, Axullu, Qaradağlı, Muğanlı, Əmirallar, Kuropatkin, Günəşli və Xətai kəndlərinin əhalisi çəkmişlər. Hazırda rayonun bütün yaşayış məntəqələri erməni tapdağı altında zillət çəkir.

Qarabağ müharibəsində, torpaqlarımızın müdafiə olunmasında xocavəndlilər qəhrəmanlıqla döyüşmüşlər. Xocavənddə və ayrı-ayrı kəndlərdə təşkil olunmuş hərbi dəstələr fədakarlıqla vuruşmuş və Xocavənd torpağının bir hissəsini işğaldan azad edərək qoruyub saxlamışlar. Eyni zamanda Xocavənd rayon polisi uğurlu döyüş əməliyyatları apararaq Azərbaycanın üç rəngli bayrağını Horadiz qəsəbəsində ucaldaraq bərpa etmişlər.







Erməni hərbi birləşmələri **17 fevral 1992**-ci ildə xarici ölkələrdən gətirilmiş muzdlu və Xankəndindəki Rusiyaya məxsus **366**-cı mexanikləşdirilmiş atıcı alayın köməyi ilə Qaradağlı kəndini işğal edərək, orada **soyqırım** törətdi. Kəndin **54** nəfər sakini bir günün içərisindəcə şəhid oldu (ümumilikdə kəndin **77** nəfər şəhidi var). Bəlkə də məşəqqətli 17 fevral 1992-ci il tarixindəki erməni qaniçənlərinin törətdikləri vəhşiliklə zəngin olan olaylardan xəbərimiz olsun deyə Qaradağlı kəndindən əsir düşmüş Vidadi Hüseynovu Ulu Tanrı özü əsirlikdən qaçırmış və yollarda onu ölümdən qoruyub hifz etmişdir?.. Üzücü Qarabağ müharibəsində Vətən torpağı uğrunda canından keçənlərin hamısına, o cümlədən *xocavəndli şəhidlərə* Allahdan rəhmət diləyirəm, onların ailə üzvlərinə başsağlığı verirəm.

*"Ağırdır dünyanın siyasət yükü"* - deyənlər görünür, hardasa haqlıdırlar. Xocavəndin qeyrətli övladları dünən də olub, bu gün də var, sabah da olacaqlar. Mən tez-tez onlarla görüşürəm, birlikdə fikir mübadiləsi aparırıq. Bu oğuz yurdunu azad etməyə hazır olan qəhrəman xocavəndlilər də siyasət tərəzisinin o biri gözündəki *"ağırlığı"* gözləyirlər. Amma çox təəssüf ki, siyasətin əksər hallarda məkrli oyunları da olur. Kaş Ulu Tanrı bütün qaçqın və məcburi köçkünlərimizi, o cümlədən də, xocavəndliləri tezliklə doğma yurd yerlərinə qovuşdursun!..

**Amin!..**

**Nazim Tapdıqoğlu (Vəlişov)**

## MÜQƏDDƏS QARABAGIM

*Əzizim Qarabağı,*
*Günümün qara bağı.*
*Gorbagor olsun yağı,-*
*Kor qoydu Qarabağı...*

**Qarabağım!**

**Sən mənim doğan Günəşimsən! Ulularımızın ulu məskəni! Döyünən ürəyim, görən gözümsən. Müqəddəs yanğımsan, içimsən, özümsən. Səni məndən ayırmaq, qoparmaq, almaq istəyirlər...**

**Qarabağ** Azərbaycanın Kiçik Qafqaz dağlarının cənub-şərq ətəklərindən başlayaraq Kür və Araz çayları arasındakı ərazisini əhatə edən tarixi bir vilayətdir. "***Qarabağ***" sözü mənbələrdə **VII** əsrdən başlayaraq öz əksini tapmışdır.

Tarixi gerçəkliyi nəyəsə və kiməsə görə təhrif etmək, bir millətin dirçəlişini, səadətini başqa bir xalqın, millətin tarixini məhdudlaşdırmaq üçün fərqləndirmək cəhdi hər cür vətəndaşlıqdan və alimlikdən kənar hərəkətdir. Təəssüf ki, erməni alimləri bizə qarşı belə bir yol tutublar.

**Qarabağ** qədim dövrlərdə və erkən orta əsrlərdə Qafqaz Albaniyasının tərkibində olub. Qarabağda həmişə alban tayfaları yaşamışlar. **XX** əsrə qədər **Dağlıq Qarabağ** anlayışı mövcud olmayıb. ***Artsax*** adlanan yer Albaniyanın əyaləti olmuş, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu dövlətlərinin tərkibində **Qarabağ** adlanmışdır. Səfəvilər dövründə **Qarabağ** Azərbaycanın 3 bəylərbəyiliyindən biri idi. XVIII əsrin **40**-cı illərində o,



15934



Azərbaycanın son feodal dövlətlərindən biri olan **Qarabağ xanlığı** adlanmışdır. **14 may** 1805-ci il «***Kürəkçay***» müqaviləsinə görə, Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçmiş, **1822**-ci ildə isə rəsmi olaraq ləğv edilib **Qarabağ əyalətinə** çevrilmişdir. **1840**-ci il islahatı ilə **Qarabağ əyaləti** ləğv olunaraq, əvəzində **Şuşa qəzası** yaradılmış, qəza əvvəl Kaspi vilayətinin, **1868**-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olmuşdur, **1920**-ci ildən isə Azərbaycan SSR-in tərkibinə qatılmışdır.

XIX əsrin **20**-ci illərində Yermolovun tələbi və təkidi ilə keçirilən siyahıyaalmada Qarabağ regionunda yaşayan **18.563** ailədən yalnız **1559**-u (8%-i ) erməni ailəsi olmuşdur. Bundan cəmi bir neçə il sonra aparılan 1832-ci ildəki kameral sayıma görə, İran və Türkiyədən köçürülən erməni ailələrinin hesabına Qarabağda ermənilərin sayı artdı...

Fevral ayının ikinci həftəsindən (*1988*-ci il) etibarən Dağlıq Qarabağ erməniləri müxtəlif əsassız arqumentlərlə Azərbaycana qarşı açıq surətdə ərazi iddialarına başladılar. **Fevralın 20**-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçən növbədənkənar sessiyası vilayəti "Azərbaycanın tərkibindən çıxarıb, Ermənistanın inzibati ərazi bölgüsünə daxil etmək haqqında" qərar qəbul etdi. Əlbəttə, Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin bu qərarını Konstitusiyaya zidd qəbul etdi.

**1988**-ci ilin fevralından Xankəndini (Qarabağ xanlığı Rusiyaya birləşdikdən sonra Xankəndi Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanmışdır), eləcə də, DQMV-nin digər yaşayış məntəqələrini ermənilərin hay-küylü mitinqləri bürüməyə başladı. Moskvanın bu məsələlərdə ikiüzlü mövqeyi Ermənistanın məkrli planlarının

Azərbaycan Respublikası Prezidentinin
PREZİDENT KİTABXANASI

həyata keçməsinə rəvac verdi. **21 iyun 1988**-ci il tarixdə DQMV XDS-nin sessiyası yaranmış vəziyyətlə bağlı SSRİ Ali Sovetinə müraciət etdi. Vilayətə rəhbərlik Moskvanın səlahiyyətli nümayəndəsi, ermənipərəst Arkadi Volskiyə tapşırıldı. Onun rəhbərliyinin təkcə ikinci həftəsində (**18-21 sentyabr 1988**-ci il) Xankəndindən **12** mindən çox azərbaycanlı qovuldu, onların evləri yandırıldı.

Artıq **1988**-ci ilin sonunadək bütün azərbaycanlılar Ermənistandan da çıxarıldı. Çox keçmədi ki, müxtəlif dövlətlərdən dəstək alan bədnam qonşularımız **Tuğ** (30.10.1991), **Cəmilli** (16.12.1991), **Meşəli** (23.12.1991), **Kərkicahan** (28.12.1991), **Malıbəyli** (11.02.1992), **Qaradağlı** (17.02.1992), **Xocalı** (26.02.1992), **Şuşa** (08.05.1992), **Kosalar** (09.05.1992) faciələrini törətdilər; onlar DQMV-ni azərbaycansızlaşdırdılar. Bütün bunlardan həvəslənən erməni daşnakları Azərbaycanın **Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Ağdam, Cəbrayıl, Füzuli** rayonlarını da işğal etdilər. Qarabağ ərazisində bütövlükdə Azərbaycanın 880 yaşayış məntəqəsi zəbt olundu. Bir milyona yaxın azərbaycanlı öz torpağında *qaçqına, köçkünə* çevrildi. Bunlardan biri də **mənəm**... Budur bizim acı taleyimiz!.. Sovetlər birliyi zamanı biz beynəlmiləlçiliyə aludə olanda ermənilər öz körpələrinin də gözündə türk düşməni yaratdılar...

Taleyin diktəsi ilə Qarabağın "*qara*" keçən günləri, illəri bizim payımıza düşdü, tez-tez yuxularımızda gördüyümüz həmin "*bağ*"da isə ermənilər neçə illərdir yeyib-içir, şənlənirlər. "*Babək, Koroğlu, Qaçaq Nəbi nəsliyik*" düşünəndə utanıb xəcalət çəkirikmi? Bəlkə, ayılmağın, oyanmağın, birləşməyin, mübarizə aparmağın vaxtı çoxdan çatıb? Yoxsa?..

Müxtəlif dövrlərə aid qədim *Qarabağ ərazilərində, Quruçay sahillərində, Qaraköpəktəpə, Günəştəpə, Xantəpə, Uzuntəpə, Meynətəpə, Zərgərtəpə, Şomutəpə, Kültəpə, Qarabulaq kurqanlarında* və başqa yerlərdə yaşamış qədim tayfaların tarixi öyrənilib sübut olunmuşdur. **Qarabağ** zonasında Eneolit dövrü b.e.ə. VI-V minilliklərdən başlanmışdır. Tarixi qaynaqlardan aydın olur ki, bu dövrdə regionda qədim əkinçilik, maldarlıq təsərrüfatı və oturaq əkinçilik mədəniyyəti təşəkkül tapmışdır.





**Əziz oxucu,** nə gizlədim, son vaxtlar mən belə bir qənaətə gəlmişəm ki, **Qarabağ** artıq bizim deyil: nə qədər ki, **Xankəndinə, Şuşaya, Xocalıya, Malıbəyliyə, Quşçulara, Kosalara, Cəmilliyə, Qaradağlıya, Xocavəndə, Qacara, Füzuliyə, Tuğa, Veysəlliyə** və s. yerlərə əlimiz çatmır, addımımız dəymir, demək, **Qarabağ** hələ bizim deyil. Bakıda oturub "*Qarabağ bizimdir*" - demək asandır. Bizim Qarabağın bizimki olması üçün biz də gərək **BİZ** olaq... Qəlbimə doğma olan Qarabağdan danışıb Azıx mağarasından, Quruçay dərəsindən söhbət açmasam, günaha batmış olaram...

**XX** əsrin 60-cı illərinin ortalarında Azərbaycanın qədim daş dövrü tarixinin tədqiqi sahəsində mühüm elmi addım atıldı. Görkəmli arxeoloq-alim Məmmədəli Hüseynov 1968-ci ilin yayında Füzuli rayon mərkəzindən 15 km aralıda, Xocavənd rayonunun Tuğ, Salakətin və Azıx kəndləri yaxınlığında yerləşən Azıx mağarasında apardığı qazıntı işləri zamanı **Preneandertal - Azıxantrop** adamının (**19-20** yaşlı qadının - *N.T.*) alt çənə sümüyünü aşkar etmişdir.

Məlumdur ki, ən qədim insan qalıqları planetin dörd guşəsində Cənub-Şərqi Asiyada (Yava adası, **Pitekantrop,** 1891, Yevgeni Dyuba), Almaniyada, Heydelberq şəhəri yaxınlığında (**Heydelberq adamı**, 1907, Şeatenzak), Çində, Pekin yaxınlığında (**Sinantrop** - "*Çin*

*adamı*", 1927, Devitsov Bleyk), Afrikada, Tanzaniyada (**Allantrop - Prezincantrop**, Olduvay) aşkar edilib. Azıxantropun (yaşı təxminən **400** min ildir) tapıntısı ilə yeni bir kəşf də qədim insan məskənlərinə aid edildi. Bu, Azərbaycan arxeologiya elminin nailiyyəti olan böyük elmi bir kəşf idi. Bu abidə Azərbaycanda, Qarabağda qədim paleolit dövrünün mövcud olduğunu sübut etdi...

Mağara Tuğ kəndi ərazisində yerləşir. Uzunluğu 250 metr, hündürlüyü 20-25 metr, ümumi sahəsi 1200 kvadrat metrdir. Mağaradan tapılan materialların tədqiqi göstərdi ki, ***Azıx mağara paleolit düşərgəsi*** öz qədimliyinə, çox təbəqəliliyinə, stratiqrafit ardıcıllığına, arxeoloji zənginliyinə görə dünyada yeganə abidədir. Mağara düşərgəsi M.Hüseynovla, yanaşı, Ə.Cəfərovun, D.Hacıyevin, V.Hacıyevin, M.Süleymanovun, N.Şirinovun, V.Veliçkonun və başqa tədqiqatçıların da diqqətini cəlb etmişdir. Qədim daş dövrünə aid tapıntıların tədqiqi bunu deməyə əsas verir ki, **Mustye mədəniyyəti** Azərbaycanda, Qarabağda ən azı **150 min** illik bir dövrü əhatə edir (orta paleolit - *N.T.*).

Azıxantropun məskəni olan ***Azıx mağarası*** Quruçayın sol sahilində yerləşdiyinə görə mağaradan aşkar edilən Qədim daş dövrü nümunələrinin təhlilini tədqiqatçılar "**Quruçay mədəniyyəti**" adlandırırlar. Azıx mağarasında **Quruçay mədəniyyəti dövrü** özünün uzunmüddətli inkişafından sonra qədim Aşel mədəniyyəti ilə əvəz olunmuşdur. ***Azıx mağarası*** Fransada Qədim İnsan İnstitutunun keçmiş SSRİ ərazisində xəritəyə aldığı başlıca daş çağı məskənidir.

XX əsrin 20-ci illərinin ortalarında görkəmli arxeoloq, etnoqraf Ə.Ələkbərov Quruçay və Köndələnçay vadisində yerli əhalinin həyat tərzini öyrənmək məqsədi





ilə tədqiqat işləri aparan zaman çoxlu sayda küp qəbirlərinə rast gəlmişdir. Ə.Ələkbərov bununla da tarixi ədəbiyyatda ilk dəfə olaraq küp qəbirlərin yayılmasının tarixi coğrafiyası haqqında əvvəllər mövcud olan ehtimalları xeyli dəqiqləşdirmişdir.

Ş.Mkrtıçyan "Dağlıq Qarabağın tarixi və memarlıq abidələri" əsərində (Yerevan, 1986-cı il) yazır ki, guya Azıx mağarasında Aşel dövrünə aid erməni qadınının heykəli var. Hətta guya onun paltarı da müasir erməni qadınının paltarına bənzəyir. S.Xanzadyan həmin kitaba yazdığı rəydə göstərir: "*Azıx mağarasında Azərbaycan alimlərinin apardıqları tədqiqatlardan aydın olmuşdur ki, bu həqiqətən Aşel dövründə yaşamış erməni qadınının heykəlidir*". Əlbəttə, bu, heç bir elmi əsası olmayan cəfəngiyyatdan, tarixi bilərəkdən saxtalaşdırmaqdan başqa bir şey deyildir.

Erməni millətçi siyasətbazları şantaj dolu əsərlərində Qarabağı həyasızcasına özününküləşdirirlər. Amma bu "*elmi*" şantajlara qarşı bizim də söykənəcək olan kifayət qədər elmi mənbələrimiz, dəlillərimiz vardır. Lakin nədənsə gözləmə mövqeyi tutmuşuq və bunun acı nəticəsidir ki, Qarabağı hissə-hissə "*pay veririk*", M.M.Nəvvabın, X.B.Natəvanın, Q.B.Zakirin, N.B.Vəzirovun, Ə.B.Haqverdiyevin, F.B.Köçərlinin, Y.V.Çəmənzəminlinin, S.S.Axundovun, M.C.Qarabağinin, M.M.Xəzaninin, Mirzə Adıgözəl bəyin, Əhməd bəy Cavanşirin, Məşədi İsinin, Bülbülcanın (Ə.Zülalov), Qaçaq Süleymanın, Üzeyir bəyin, Niyazinin, Seyidin, Xanın, Bülbülün, Cabbarın, Sadıqcanın, Hacı Hüsünün, Keçəçi oğlu Məhəmmədin və daha minlərlə qarabağlı kimlərin ruhları bizi nəyəsə, harasa səsləmirmi?.. Aslan və Hatəm Məlik məscidləri, Ağoğlan və Qanzasar məbəd-

ləri, Xotavəng, Babı, Mirəli, Bərdə, Axsadanbaba türbələri, Qarabulaq xanlarının sarayları, dünyada analoqu olmayan Ağdam Çörək muzeyi, Qaraköpəktəpə, Məngələnata, Qarabulaq kurqanları, Tərtərçay, Qarqarçay, Köndələnçay, İncəçay, Qozluçay, Quruçay, Bərgüşad, Həkəri, Oxçuçay ... bizi çağırmırmı?..

Suverenliyi o xalq qazanır ki, suverenliyə layiq olsun. Tarixi təcrübədən məlumdur ki, ***milli lovğalıq*** milli heysiyyətsizliyə gətirib çıxarır. Bəzən deyirik ki, müasir təfəkkür səviyyəmizin dünya xalqları səviyyəsindən geri qalmaması üçün onu qaldırmalı, inkişaf etdirməliyik. Özümüz də qardaş-bacılarımızı ali məktəblərə pulun gücü ilə daxil edirik, diplomu onlara rüşvətlə alırıq; tarixi keçmişimizi müxtəlif millətlərin müəlliflərinin yazılı mənbələrindən öyrənirik...

**Qarabağ** toponiminə yazılı mənbələrdə yuxarıda qeyd etdiyim kimi, ilk dəfə **VII** əsrdə (Samuel Anili) rast gəlinir. **XIII** əsrdə F.Rəşidəddin (**1284**-cü ildə) "*Cami ət Təvarix*" əsərində **Qarabağ** sözünü **Aran Qarabağı** şəklində işlədir. Əslində **Qarabağ** adının neçənci əsrdən foromalaşması hələ tam yəqinləşməyib...

M.C.Cavanşir Aran məmləkətinin bir hissəsi olan **Qarabağ** vilayətinin ərazisini (sərhəddini) Xudafərin körpüsündən Sınıq körpüyə, şimaldan Gəncə ilə sərhədi Kür çayına qədər olan Goran çayı, şərqdən Kür və Araz çaylarının qovuşağına, qərb tərəfdən isə Salvartı, Kazbek, Ərikli dağlarına qədər göstərmişdir. **Qarabağ xanlığı** zamanı orada **250**-dən çox kənd olmuşdur.

**Qarabağ** adı həm düzən, həm də dağlıq hissəyə aiddir. Konstantin Baqryanarodnıya görə, peçeneq tayfalarından birinin adı **Karabaq/karaboq** olmuşdur. İ.Şopen **Qarabağ** adını **Xaraba** sözü ilə bağlayır. Ş.Sədiyev





göstərir ki, **Qarabağ** adı **qara** və **bağ** sözlərindən ibarətdir. Ə.Fərzəli qeyd edir ki, **qara** - "*böyük, nəhəng, qaranlıq, xalq, qəm, sevinc, yaraşıq...*" mənasındadır; **bağ, baq, boq** - "*Tanrı*" anlamındadır. M.Seyidovun fikrincə, qara - "*rəng, pis, bədbəxt, şimal, böyük, başçı, güclü...*", **bağ** - "*meyvə ağacı əkilmiş sahə, ip, düyün...*" deməkdir. S.Aşurbəyliyə görə, toponim **bağı** qəbiləsinin adından yaranmışdır... Mənbələrdə **bak, baq, bağ** tayfa adına da rast gəlinir. Belə fikir də işlətmək olar ki, **Qarabağ** sözü ("***böyük bağ***") tayfa adından törənmiş etnotoponimdir...

Ş.Cəmşidov **Qarabağ** sözünü "*şimal-qərb bağı*" kimi izahlandırır. Onun fikrincə, Qarabağ düzünə ad Beyləqandan verildiyi üçün (Qarabağ düzü Beyləqan şəhərinin şimal-şərqində olmuşdur) o, belə adlandırılmışdır. Bir çox mütəxəssislər ərazidə qara üzüm yetişdirildiyindən, çox yarpaqlı bağlar olduğundan onun **Qarabağ** adlanması fikri üzərində dayanırlar. **Qara** sözünün "*böyük, rəng, qərb, ağır, nəhəng, dərin, uca, uzaq, güclü, çoxluq, tünd, sıx, qalın*" və s. mənaları da var. "***Qara***" qədim türkdilli xalqlarda "***böyük***" mənasında, "***bağ***" sözü isə fars dilində "***bağçılıq***" mənasında işlənir.

**Qarabağ** adı iki komponentdən - **Qara** və **bağ** sözlərindən əmələ gəlmişdir. **Qara** sözünün çoxlu məna çalarları vardır. Onlardan biri də "*çoxluq*", "*çox sıxlıq*" mənası olduğu üçün **Qarabağ** toponimini "*çoxlu bağlı-bağatlı yer*" (**qora** "*üzüm*") kimi mənalandırmaq olar.

Praazərbaycan toponimlərindən olan **bağ** toponimi slavyan dillərində **boq, boğ, boh, biq** formalarında işlənir. Bu sözün ilkin mənasını bəzi tədqiqatçılar "*tanrı*", "*vardövlət*" anlamındakı "***boqat***" (boqatstvo) sözü ilə əlaqələndirirlər. **Baq** sözünün qədim hind dilində "*paylayan*" anlamı da məlumdur. Uzun illərdir ki, **baq\boq** sözünün

İran dilli və ya slavyan mənşəli olması ilə bağlı mübahisələr getməkdədir. **Orxon-Yenisey** abidələrində **bağa** sözü teonim determinativi (*"bağa"*) kimi işlədilmişdir. Mənbələrə istinad etsək, görərik ki, Midiyada Tanrıya **Bağa** deyilirmiş. Bir çox xalqların qədim mifologiyasında **bağa** (*tısbağa*) müqəddəs yerin, torpağın rəmzidir. **Bağa** Azərbaycanda indi də müqəddəs heyvan hesab olunur.

**Baq** teonimi daha çox türk xalqları və onlarla kontaktda olan tayfaların dillərində işlədilir. **Baq** teoniminin sonrakı semantik dəyişmələri onun **maq, mağ, bağ, bah, bağa, beq, bay** və s. fonetik variantını ortaya çıxarmışdır. Yeri gəlmişkən, S.Aşurbəyli **Bakı** toponimini haqlı olaraq qədim **baq, bak** qəbilələrinin adı ilə bağlamışdır.

**Qarabağ** sözündəki **bağ** komponenti bəzi araşdırıcılara görə, Orxon-Yenisey abidələrində adı çəkilən ***Sir*** tayfalarının **buqu** (***buq, buk***) elinin adının təhrif edilmiş formasıdır. Qədim «*Yevlax Qaramanlı*»dakı **Buk** (***Bük***) kəndinin adını da bu qismə aid etmək olar. Əvvəllər Ağdərə, Qarannıq və s. adlanmış rayonun əzəli adlarından biri ***Sir*** olmuşdur. ***Sir şəhəri*** oradakı ***Sir*** çayı sahilində mövcud olub. Qədim Xocalı və digər qonşu yaşayış məntəqələrinin nəsilləri igid və məğlub edilməz sir tayfa birliyinin nəsillərindəndir.

**Qara *buqlar*** (*buqular*) Qarabağın ən qədim sakinləri olan **kart** və **saq** (***sak***) – **Kartsaq** (***Artsaq, Arsax***) ellərini sıxışdırdıqdan sonra ərazi *qarabuqların* adı ilə əlaqədar olaraq **Qarabuqlar** adlanmışdır. Güman ki, ***kartlilər*** (*kartelilər, kartvelilər*) sonradan dinə görə gürcüləşmişlər. Bü fikirlərin təsdiqi üçün «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri XVI-XVIII əsrlər*» (Şuşa nəşriyyatı, Bakı, 2000-ci il) kitabına baxmaq kifayətdir. Belə bir fikir də var ki, ***Kartsaq*** (*Artsaq*) adının dəyişib **Qarabağ** olmasına səbəb ***sir*** tayfasından olan ***budu*** tirəsi adı olub. Bu mənada **Qarabağ** sözü **qara** – «*güclü*», «*qüdrətli*», «*yenilməz*» və **buq** (*buuq*) tayfa adı ilə bağlıdır: **Qara + buq**. Sonralar bu söz sənəd və materiallarda **Qarabağ** kimi yazılmışdır...





Türkiyədə, Türkmənistanda, Özbəkistanda və s. ərazilərdə də **Qarabağ** sözü ilə bağlı çoxlu toponimlər qeydə alınmışdır.

**Qarabağ...** Qədim vaxtlardan bu ərazi Qafqaz Albaniyasının tərkib hissəsi idi. IV əsrin 30-40-cı illərində baş verən hadisələrdən danışan erməni tarixçisi Favstos Buzantsi Habaid torpağının adını (Yuxarı Qarabağın böyük bir hissəsini) Albaniyada yerləşən bir ərazi kimi çəkir (*F.Buzandtsi: "Ermənistan tarixi"*, Yerevan, 1953-cü il). Alban hökmdarı Cavanşir haqqında məlumat verən *M.Kalankatlı və K.Trever* Cavanşirin *"İberiyadan Hunna"* (Dərbəndə) və Araza qədər *"Əla və müstəqil hökmdarlığını"* göstərirlər (*M.Kalankatlı:* Albaniya tarixi, Bakı, *"Elm"*, 1993-cü il; *K.V.Trever:* Qafqaz Albaniyasının tarixi və mədəniyyəti oçerkləri, Moskva-Leninqrad, 1959-cu il)...

Müasir erməni tarixçiləri Qarabağı və Naxçıvanı qoparmaqla olmayan *"Böyük Ermənistan"* yaratmaq xəyalına düşüblər. Erməni millətçiləri özləri də bunu gizlətmirlər. Hətta bəzi erməni millətçiləri belə deyirlər ki, Kür-Araz çaylararası torpaqları Ermənistanın şimal-şərq hissəsinin özünün ərazisidir və *"erməni Albaniyasının bu hissəsinin əhalisi də ta qədimlərdən ermənilərdən ibarət olmuşdur."* Onlar dünyanın müxtəlif mətbuat orqanlarında böhtanlı və saxta yazılar çap etdirərək, ədalətsiz ərazi iddialarını əsaslandırmaqdan ötrü dəridən-qabıqdan çıxırlar.

Tarixə müraciət etsək, görərik ki, "*Qarabağ məsələsi*" Sovet dönəmində həmişə Ermənistan SSR tərəfindən qaldırılmışdır. Bu qayda ilə Ermənistan başqa bir suveren respublikanın daxili işlərinə qarışmaqdan çəkinməmişdir. Erməni müəlliflərinin haqsız olduğunu elmi dəlillərlə aydınlaşdırmaq üçün Azərbaycan tarixçiləri dəfələrlə elmi diskussiyalar aparılmasını təklif etsələr də, erməni tarixçiləri buna razılıq verməmişlər. Ümumiyyətlə, onlar bu məsələlərdə hər hansı Dəyirmi Masaya yaxın düşmək belə istəmirlər.

Erməni tərtibçiləri "*Tarixi arayış*"da (Yerevan, 1988-ci il) həyasızcasına göstərirlər ki, Utilərin (Udinlərin - *N.T.*) də yaşadıqları **Artsax** "*Yerevandidt Ermənistanın tərkibində*" olmuşdur. Bu günə qədər də bu faktın hələ heç bir elmi əsası yoxdur və təbii ki, ola da bilməz.

Tarixdən məlumdur ki, alban tayfaları Kürün həm sol, həm də sağ sahilində yaşamışlar. Cənub-Şərqi Zaqafqaziyadakı albanlar (alban tayfa ittifaqları - *N.T.*) yerli idilər. Ermənilər isə Cənubi Qafqaz vilayətlərinə ən yaxşı halda miladın V əsrində gələ bilərdilər. Başqa sözlə desək, **ermənilər** Cənubi Qafqaza **gəlmədirlər**.

Erməni millətçiləri çoxlu təkid və səylər nəticəsində rus din qardaşları ilə birgə Sovetlər İttifaqının "*mənəm-mənəmçi*" zamanında Moskvada tərtib etdikləri xəritələrdə qonşu ölkələrə olan ərazi iddialarını gizli siyasi xətlərlə həyata keçirirdilər (Narodı i peredvijeniya Yevrope V, IV-VII vv. M.-1960), "Rus knyazlığı XII əsrdə və XIII əsrin əvvəllərində" (*Batının hücumuna qədər*) - M., 1968, "Rus knyazlığı və Qızıl Orda XII əsrdə" - M., 1960, "XVI əsr Rus dövləti" - M., 1981. "Rus dövləti XVII əsrdə" - M., 1980-ci il və s.





Qarabağın həm dağlıq, həm aran hissəsi birlikdə tarixən Azərbaycan feodal dövlətlərinin - **Albaniya, Girdiman, Şəddadi, Atabəylər, Hülakülər,' Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər** dövlətlərinin, sonralar **Qarabağ xanlığının** ərazisi olub...

Bir sıra keçmiş sovet və erməni tarixçiləri (*Trever, Novoselsev, Yeremyan, Akopyan, Ulubabyan, Ter-Gevondyan, Sumbatyan və b.*) Kürdən cənubdakı Azərbaycan ərazisinin eradan əvvəl II əsrdən **387**-ci ilə qədər Böyük Ermənistanın tərkib hissəsi olduğunu qeyd etsələr də, görkəmli alimlərimiz Z.Bünyadov, İ.Əliyev, F.Məmmədova və başqaları bu çürük konsepsiyaları haqlı olaraq tənqid etmişlər.

"*Alban tarixi*"ni erməni dilindən rus dilinə tərcümə etmiş Ş.İ.Sumbatyan bir neçə yerdə "*şərq*" sözündən sonra mötərizədə "*əyalət*", "*ölkə*" sözlərini əlavə etmişdir. Bu da "*Şərq əyaləti*" ifadəsinin alınmasına, Qarabağın "*Ermənistanın şərq əyaləti*" kimi mənalandırılmasına gətirib çıxarır.

Albanşünas alimlərimiz öz əsərlərində "***Şərq***" ifadəsinin "*Ermənistanın şərqi*" kimi başa düşülməsinin səhvliyini tutarlı faktlarla əsaslandırırlar. Alban tarixçisi Musa Kalankatlı xristian olduğu üçün əsərlərində əsasən, albanların xristian hissəsinin tarixini verir. "*Şərq*" və "*bizim Şərq*" isə "*alban xristianlarının şərqi*" mənasında başa düşülməlidir. Əsərdəki ***Qərb*** sözü də "*Ermənistanın qərbi*" kimi yox, "*xristian dünyasının qərbindəki Bizans*" kimi başa düşülməlidir.

"*Alban tarixi*" əsərində heç yerdə "*erməni*" adı çəkilmədiyi halda, erməni tarixçiləri coğrafi adları təhrif edərək, Aralıq, Qara və Xəzər dənizləri arasında yerləşən ərazini **Ermənistan**, orada yaşayan əhalini isə "***ermənilər***"

adlandırırlar. Əgər doğrudan da, Albaniya Ermənistanın tərkib hissəsi olsaydı, bütün qədim erməni mənbələrində də bu ölkənin adı "*Ağvan*" yox, "*Hayastan*" olardı...

**Ermənistan** erməni etnosunun vətəni deyildir. Həmin etnos Ermənistana gəlmədir. Herodotun vaxtında **ermənilər** Erməni yaylası deyilən ərazinin yalnız Qərb hissəsində məskunlaşmışlar. Ksenefont da Herodotun bu məlumatlarını təsdiq edir.

Tarixdən məlumdur ki, Albaniya dövləti təxminən b.e.ə. III əsrdə meydana gəlib. Bizim eranın birinci əsrindən Albaniyanı mənşəcə parfiyalı Arşagidlər sülaləsi idarə edib. Bu dövr haqqında məlumat verilən mənbələrdə göstərilir ki, Araz çayı Albaniyanın cənub sərhəddidir. Başqa sözlə, Kür və Araz çayarası ərazisi **Albaniya** dövlətinin tərkibində idi.

Moisey Xorenski təsdiq edir ki, utilər (*indiki udinlərin əcdadları*), hardmanlar, savdeylər, qarqarlar və s. Aranın nəsillərindən mənşə götürmüşlər. Bunlar alban tayfalarıdır və tarixən Qarabağ zonasında yaşamışlar. Deməli, Qarabağ ərazisində yaşayan tayfaların alban mənşəli olması faktını təsdiq edən kifayət qədər mənbələr vardır...

Bizim eradan əvvəl **56**-cı ildə romalılar II Tiqranı darmadağın etdikdən sonra "*Ermənistan dövləti*" heç cür təcavüzkarlıq siyasəti apara bilməzdi, çünki o, növbə ilə Romadan və Parfiyadan asılı olmuşdur.

Albaniya isə I-V əsrlərdə bəzən Roma və Parfiya oriyentasiyasına tabe olmuşsa da, o, Ermənistandan fərqli olaraq öz müstəqilliyini itirməmişdir. I əsr numizmatika materialları Ermənistanın siyasi taleyi haqqında mühüm məlumatlar verir: o dövrün pullarında Ermənistan Roma imperatorunun ayaqları altında oturmuş qadın obrazında, aman istəyən erməni döyüşçüsü və s. şəkildə təsvir





edilmişdir. Elə həmin əsrdə Ermənistan imperator Avqustin tərəfindən Atropatenanın hakimlərinə verilib. Dion Kassinin və Tatsitin məlumatlarına görə, 30-50-ci illərdə Ermənistanda İberiya şahzadələri hökmranlıq edirdilər.

Suren Ayvazyan "*Erməni taleyi*" romanında sübut etməyə çalışır ki, guya nə qədim zamanlarda, nə də onun təsvir etdiyi XVII-XVIII əsrlərdə Azərbaycan adlı xalq olmayıb. O, göstərir ki, Naxçıvanın, Qarabağın həqiqi sahibləri qədim ermənilərdir. Azərbaycanlılar isə bura gəlmədirlər...

Vardhes Petrosyanın "*Erməni eskizləri*" kitabında başkəsən, zalım, Çiçerinin "*Antantanın casusu*" adlandırdığı qəddar Andronik ***milli qəhrəman*** səviyyəsinə qaldırılır. Zori Balayan "*Ocaq*" kitabında həyasızcasına özgə əraziləri haqqında əsassız, fitnəkar ruhlu iddialarını irəli sürür. B.A.Ulubabyan lap ağ edərək b.e.ə. II əsrdə Kür-Araz ərazisində yaşayan əhalinin erməni dilində danışması fikrini də irəli atır.

Erməni tarixçilərinin bəzi əsərlərində tarixi hadisələr, faktlar "***Böyük Ermənistan***" ideyası naminə təhrif olunur. Guya "*Böyük Ermənistan*" yüz illər boyu Xəzər dənizindən Qara dənizədək sahəni əhatə edirmiş. Ermənilərə görə, "*Ermənistan dövləti*" b.e.ə. II-I əsrlərdə yaradılıb. Bizə görə isə, bu dövlət nə Ermənistandır, nə erməni torpağıdır, nə də ermənilərin məskun olduqları torpaqlardır. O, erməni çarlarının qonşulardan silah gücünə, zorakılıqla, işğal nəticəsində aldıqları torpaqlardır...

Kürdən aşağı Azərbaycan torpağını "*İçəri Ermənistan*" adlandıran A.Ş.Mnatsakanyan yazır ki, bura da "*Ermənistan dövləti*"nə daxil idi. Mnatsakanyana görə, ("*Qafqaz Albaniyasının ədəbiyyatı haqqında*" Yerevan,

1969-cu il) *Qarabağın* Ermənistan torpağı olduğunu sübut edən *"bütöv buket"* toponimlər var. Əlbəttə, müəllif həmin adların mənalarını açmır. Adların əksəriyyəti Artsaxdandır. Yeri gəlmişkən, **Artsax (Arsak, Arsaq)** haqqında fikirlərimi hörmətli oxucularla bölüşmək istəyirəm:

Albaniyanın **Artsax vilayəti** Kür çayının sahilində **12** kiçik inzibati ərazi vahidindən ibarət olub. İlk vaxtlarda əhalini əsasən qarqarlar, hunlar, bassillər, xəzərlər və utilər təşkil edirdi. Bu əyalətin əhalisinin dili xalqımızın indi danışdığı dilin fövqündə duran müxtəlif soy ləhcələri idi.

E.ə. I əsrdə yaşamış yunan tarixçi və sərkərdəsi Arrian **Arsaq** adlı tarixi şəxsiyyət haqqında maraqlı məlumat verir. O, göstərir ki, *Arsaq* Mərkəzi Asiyada yaşayıb. Onun mənsub olduğu sülalə makedoniyalılara qarşı çıxaraq yadelli işğalçıları ölkədən qovmuşdur. Ölkə azad olandan sonra bu görkəmli sərkərdə öz hakimiyyətini qurur...

Yunan coğrafiyaçısı Strabon da qüdrətli hökmdar olan **Arsaq** haqqında təxmini də olsa, bir sıra qiymətli məlumatlar vermişdir. Strabona görə, mənşə etibarı ilə skif olan, dailərin bir hissəsinə yiyələnən və özünü parna adlandıran **Arsaq** Parfiyaya daxil olaraq, onu özünə tabe edir. Sonrakı mübarizələrdə o, yeni uğurlar qazanaraq Dəclə çayı sahili boyu bütün torpaqlara sahib olur. Antik dövr tarixçisi Plini (*I əsr*) də Strabon kimi **Arsaq** sülaləsinin kökünü dailərlə bağlamışdır.

VIII əsrdə yaşamış Bizans müəllifi Georgi Singel ***Arsaqın*** Tridat adlı qardaşı olduğunu bildirir. O, göstərir ki, bu qardaşlar Baktriyanın satrapları olmuş və Makedoniyanın İrandakı canişini Aqafokla qarşı çıxmışlar.





Türk xalqlarının fəxri sayılan Arsaqın tarixi şəxsiyyət, sərkərdə və dövlət başçısı olması haqqında dövrümüzə əlbəttə, çox az məlumat gəlib çatmışdır. **Arsaq** haqqında Roma tarixçisi Pompey Troq da 44 kitabdan ibarət olan *"Filippin tarixi"* əsərlərində məlumat verərək onun Makedoniyalı İskəndər dövründə yaşadığını və böyük şöhrətə malik olduğunu göstərir. Onun mülahizələrinə görə, **Arsaq** Selevkilərin və baktriyalıların hökmdarı olan Feodot tərəfindən təhlükəni, gözlənilən yürüşü dəf etmək üçün qoşun toplayır. Feodot öləndən sonra, **Arsaq** onun oğlu ilə müqavilə bağlayır və çox keçmir ki, Selevkə qalib gəlir...

Roma tarixçisinin də verdiyi məlumatdan aydın olur ki, **Arsaq** qüdrətli bir imperiyanın hökmdarı olub. Amma onun hökmdarlıq illəri barədə məlumatlar azdır. Ümumilikdə bu da məlum olur ki, *Arsaq* türkdilli **Saq** (***sak***) tayfasına məxsus olmuşdur. Bu ada mənbələrdə **Arsaq, Ərsaq, Arşaq** və s. formalarda rast gəlirik. **Arsaq** sözü *"sak igidi"*, *"saq kişisi"* kimi mənalandırılır...

Tədqiqatçılar **Arsak** (***Ərsak***) toponimlərini **Ər** və **Sak** sözlərinə ayırırlar. *Saklar* bu ərazidə ilk dəfə Azərbaycan ərazisində məskunlaşdığı dövrdən - bizim eradan əvvəl VII yüzillikdə məskən salmışlar. ***Artsax*** xaçpərəstlikdən sonra Albaniyanın siyasi və ideoloji həyatında mühüm rol oynamışdır. Burada bir neçə yepiskopluq olmuşdur.

Hunların, xəzərlərin arasında xaçpərəstliyi yaymaq üçün alban çarları öz nümayəndələrini məhz Artsaxdan göndərilirdi. Hunların, xəzərlərin nümayəndələri getdikləri yerin əhalisi ilə qanbir, dilbir qardaş idilər. Bu isə xaçpərəstliyi yaymaq üçün kiçik amil deyildir. Yerevanın *"Sovetakan Qrok"* nəşriyyatı 1984-cü ildə Zori Balayanın

"*Ocaq*" kitabını rus dilində çapdan buraxmaqla bu məqsədi həyata keçirmişdir. Müəllif Qarabağın bütünlükdə Odlar yurdunun əzəli sakinlərinin – azərbaycanlıların milli heysiyyatını alçaldan sözlərdən çəkinməyərək, onları öz oxucusuna *köçəri, barbar* və *gəlmə* elementi kimi tanıtdırır.

"*Ermənistan dövləti*" anlayışı iki mənada - siyasi və coğrafi mənada işlədilir. Bu anlayış ("*Böyük Ermənistan*") XVIII əsrdə Şərq məsələsinin tərkib hissəsi kimi meydana gəlmişdir. Bu anlayışın tərəfdarları Xəzərlə Qara dəniz arasındakı torpaqları "*Böyük Erməni dövləti*" adı altında birləşdirərək, "*Böyük Erməni imperiyası*" yaratmaq iddiasındadırlar. Qafqazşünas və Albanşünas olan S.T.Yeremyanın əsərlərində, xüsusilə, "*SSRİ tarixinin oçerkləri*" (Moskva, 1958-ci il) əsərində "*Böyük Ermənistan*" anlayışına faktların, tarixi gerçəkliyin saxtalaşdırılması zəmini əsasında "*haqq qazandırmaq*" məqsədi güdülür.

Məlum olduğu kimi, "*Ermənistan dövləti*" siyasi anlayış kimi **e.ə. 66**-cı ildə II Tiqranın ordusunun Roma sərkərdəsi Pompey tərəfindən darmadağın edilməsindən sonra süqut etmişdir...

Tarixi araşdırmalar göstərir ki, Ermənistanın bölüşdürülməsi prosesini Qafqaz Albaniyasına, onun ərazi sərhəddinə heç bir təsiri olmamışdır. Onun ərazi bütövlüyü e.ə.IV əsrdən eramızın VIII əsrinə qədər sabit olmuş, heç bir əsaslı sərhəd dəyişikliyi olmamışdır.

Azərbaycan əhalisinin Qarabağda yaşayan ermənilərlə alban xətti ilə qohum olduqlarını qeyd edən qafqazşünas A.P.Novoselsev yazır ki, "*Qarabağ və Azərbaycanın başqa vilayətlərinin erməniləri onun (alban əhalisinin) nəsilləridir. Deməli, qədim Albaniya əhalisi həm də müasir azərbaycanlı və ermənilərin bir hissəsinin ümumi əcdadıdır*".





Son odontoloji tədqiqatlar bir daha sübut edir ki, Yuxarı Qarabağın ərazisində ermənilər gəlmə elementdir. Erməni tarixşünaslığında artıq çoxdan belə nisbi ideya var ki, DQMV ərazisi Ermənistanın "*ayrılmaz*" hissəsidir. Bu ideyanın nəzəri əsası keçən əsrdə M.Çamçyan, K.Şahnazaryan, İ.Emin, K.Patkanov və başqaları tərəfindən qoyulmuş, sonralar Y.A.Manandyan, M.A.Kevorqyan, L.S.Xaçikyan, S.Kaputikyan, S.T.Yeremyan tərəfindən konseptual cəhətdən işlənib sabitləşmişdir. Hələ indi də erməni şərqşünas tarixçiləri həmin mövqelərdən çıxış edirlər. Təhrif olunan faktlar və inandırıcı olmayan erməni mühakimələri əsasən iki tezisin sübutuna xidmət edir:

1. Kürün sağ sahili az qala 600 il (*b.e.ə. II əsrdən- b.e. IV əsrinədək*) Ermənistanın tərkibində olub. Həmin dövrdə oranın əhalisi nə etnik, nə də dil cəhətdən ermənilərdən fərqlənmirdi;

2. Kürün sağ sahili ərazisində lap qədimlərdən erməni əhalisi yaşamışdır. Bu əhali indiyədək erməni xalqı ilə etnik-mədəni birliyini saxlamışdır;

Kür və Araz çayları ətrafındakı etnik birliklərin yerləşdirilməsi Mnatsakanyanın, Akopyanın, Sumbatyanın və başqalarının şərhləri ilə uyğun gəlmir. Burada etnik kütlə utilər adı ilə hələ Herodota məlum olardı. Utilər Uti və Artsax əyaləti əhalisinin müəyyən hissəsini təşkil etmişlər. Şübhə yeri qalmır ki, DQMV-nin erməni dilli əhalisi erməniləşdirilmiş yerli əhalinin müxtəlif Alban tayfalarının - utilərin, tsodların nəsilləridir...

**387**-ci il müqaviləsinə görə imperator Roması ilə Sasani İranı *Arşaqid Ermənistanını* bölüşdürmüşlər. Ermənistanın təxminən dörddə üç hissəsi İrana, dörddə

bir hissəsi Romanın payına düşmüşdür. IV-VI əsrlərdə Qarabağda xristianlıq yayılmağa başladı. VII əsrdə də Qarabağın ulu əcdadlarımıza məxsus olması barədə kifayət qədər faktlarımız var. Ərəb işğalından sonra Qarabağın düzənlik hissəsində və şəhərlərində yaşayan əhali islam dinini qəbul etdi. Qarabağın dağlıq hissəsi olan Artsaxda yaşayan əhalinin çoxu **xristianlığı** qoruyub saxladı...

**VII-VIII** əsrlərdə Artsax Albaniyası Mehrani sülaləsi çarlarına tabe idi. Mehranilərin axırıncı çarı Varaz Tridat **821**-ci ildə Artsaxda öldürülüb. Bundan sonra Artsaxda Syuninin hakimi, Zarmixrə mənsub alban çar sülaləsindən olan Səhl oğlu Sumbat hakimiyyətə keçir. Lakin o, Artsaxa bütünlüklə sahib deyildi. Ərazinin müəyyən hissəsi Alban knyazı Stepan Ablasadın, ondan sonra İsayi Əbu Musanın hakimiyyəti altında olmuşdur. **866**-cı ildə Mehranilər sülaləsindən Hammam da Albaniyanın xristian əhalisi yaşayan hissələrinin knyazı olmuşdur.

**VIII** yüzillikdə Artsax ərəblər tərəfindən azad edildikdən sonra da Artsax camaatının bir hissəsi öz xaçpərəst dinlərini qorudular. Mənbələrin məlumatına görə, **IX** yüzilliyin məşhur **Babək hərəkatı** Qarabağı da bürümüşdü. Alban kilsəsinin zəifləməsi, erməni kilsəsinin xilafətlə ittifaqı nəticəsində Artsax əhalisinin qriqoriyanlaşdırılması xaçpərəstliyin ermənilərə məxsus məzhəbinə keçməsinə, onların dilinin itirilməsinə səbəb oldu. Artsax əhalisinin bir hissəsinin erməniləşdirilməsi X-XIII yüzilliklərdə başa çatdırıldı. Ərəb xəlifələrindən sonra (**VII-IX** əsrlər) bütün orta əsrlər boyu əvvəllərdə olduğu kimi **Qarabağ** Azərbaycan hökmdarlıqlarının ərazisi olmuşdur...

X əsrdən **Qarabağ** Şəddadilərin, **XI** əsrin ortalarından Səlcuqların hakimiyyətinə keçdi. **XIII** əsrin II yarısından





isə **Qarabağ** Eldəgəzlər dövlətinin tərkibində idi. XII-XIII əsrlərdə Dağlıq Qarabağın ərazisi Xaçın feodal xanlığının tərkibində olmuşdur. Bu xanlığın (*knyazlığın*) hökmdarı Həsən Cəlal bəzi mənbələrdə göstərildiyi kimi, erməni yox, "*Alban hökmdarı*" adını daşıyırdı. Bu knyazlıq özündə **5** məlikliyi (Xəmsə) birləşdirirdi. Bu knyazlığın görkəmli nümayəndəsi Həsən Cəlal (**1215-1261**) Mehrani çar sülaləsinin nəslindən idi.

Beləliklə, X-XIII əsrlərdə "***erməniləşdirilmiş***" Artsax əhalisi Alban knyazlığına, Qafqaz dilləri qrupuna daxil olan əhali deyil, indi bizim danışdığımız Azərbaycan dilinin kökünə uyğun ləhcə ilə danışan əhali olmuşdur. Tarixi məlumatlar göstərir ki, Artsaxın ərəb işğallarından sonra Ermənistanla ərazi birliyi olmayıb, amma xristian albanların erməniləşməsi prosesi gedirdi.

**1136-1225**-ci illər Azərbaycan Atabəylər dövlətinin (Eldəgizlər sülaləsinin) hakimiyyəti illəridir. Bu dövrdə də Qarabağın ərazisi Erməni dövlətinin tərkib hissəsi ola bilməzdi, çünki, Ermənistan (Qərbi Azərbaycan) torpağının özü Eldəgizlərin ixtiyarında idi. XIII əsrdə Azərbaycan ərazisi indiki **Qarabağ** da daxil olmaqla Xarəzmşah Məhəmmədin oğlu Sultan Cəlaləddin tərəfindən tutulmuşdur. O dövrün tarixçisi Şəhabəddin Məhəmməd ən-Nəsəvi məhz indiki ***Dağlıq Qarabağ*** ərazisini "***Aran***" kimi göstərmişdir.

**XIII** əsrin **30**-cu illərində Qarabağı monqollar işğal etdilər. **1239**-cu ildə monqollar tərəfindən Azərbaycanın işğalı demək olar ki, başa çatır. **1258**-ci ildə Azərbaycan Hülakülər dövlətinin tərkibinə qatılır. Bu dövrdən **Qarabağ** adı artıq sırf coğrafi ərazi kimi çəkilir. Yuxarıda qeyd etdiyim kimi, F.Rəşidəddinin "*Came ət-təvarix*" əsərində "***Arran Qarabağ***" adı **1284**-cü il hadisələrinin

şərhi ilə əlaqədar xatırlanır. XIII-XIV əsrlərdə **Qarabağ** Hülakülər dövlətinin siyasi tarixində mühüm rol oynamışdır. Sonralar Qarabağ paytaxtı Təbriz olan Azərbaycan **Qaraqoyunlu** (1410-1467) və Ağqoyunlu (1468-1501) dövlətlərinin ərazisi olmuşdur.

**XIV** əsrin sonlarından Qarabağda Teymurun varisləri ağalıq edirdilər. Teymur xristian albanların böyük bir hissəsini Qarabağdan Qəndəhara köçürür... XIV əsrin sonlarında ***Qarabağ*** Teymurilərin hakimiyyətinə keçdi. Onun ölümündən (1405-ci il) sonra xalq kütlələrinin Teymurilərə qarşı çıxışlarından istifadə edən Şirvanşah I İbrahim (1382-1417) Qarabağın düzənlik hissəsini Şirvana birləşdirdi. Amma 1412-ci ildə Qaraqoyunlularla Kür sahilində baş verən vuruşmadan sonra **Qarabağ** tamamilə Qaraqoyunlu dövlətinə qatıldı. Səfəvilərin hakimiyyəti dövrünə qədər ***Qarabağ*** monqolların, Qaraqoyunlu və Ağqoyunlu hakimlərinin idarəsi altında idi.

**XV** əsrdə ***Qarabağ*** Azərbaycan Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1501) dövlətlərinin tərkibində olmuşdur. Qarabağ bu dövrdə də Azərbaycanda mövcud olan üç bəylərbəyiliyindən biri olmuşdur, mərkəzi də Gəncə şəhəri idi (1501-1736).

**XVI** əsrdə **Qarabağ** Səfəvilər dövlətinin hakimiyyətinə keçdi. Səfəvilər Azərbaycanda **4** bəylərbəyilik yaratmışdır ki, onlardan da biri **Qarabağ** və ya **Gəncə bəylərbəyliyi** idi. **1593**-cü il məlumatına görə, Gəncə-Qarabağ əyaləti **7** sancaq, **36** nahiyəyə bölünürdü. Burada qeydə alınan **1,3** mindən çox toponimik vahidlərin demək olar ki, hamısı (təxminən **96%**-i) Azəri türkcəsində idi.

Səfəvilər dövründə Azərbaycan bəylərbəyliklərə bölünmüşdü ki, bu inzibati bölgü XVIII əsrin ortalarına qədər davam etmişdir. Bəylərbəyliklərdən biri də





**Qarabağ bəylərbəyliyi** adlanırdı. O vaxt Yuxarı Qarabağda özlərini erməni hesab edənlər əslində erməniləşmiş xristian albanları idilər. Onlar özləri də bilə bilməzdilər ki, erməni yox, albandırlar. Çünki onları bu günə salan **erməni xristian kilsəsi** idi...

**XVII** əsrin əvvəllərində Qarabağda kəndli hərəkatı genişləndi. **1671**-ci ildə burada antifeodal üsyan baş verdi. Səfəvilər dövründə Qarabağı qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi. Bu dövrdə Qarabağda əkinçilik, bağçılıq, ipəkçilik geniş yayılmışdı. **XVIII** əsrin **40**-cı illərində burada **Qarabağ xanlığı** yarandı. Xanlıq dövründə iqtisadiyyatda mühüm dirçəliş oldu. Şuşa şəhəri Azərbaycanın mədəni və ticarət həyatında əhəmiyyətli rol oynayan şəhərə çevrildi.

**1747**-ci ildən **1828**-ci ilə qədər Kür və Araz çayları arasındakı bütün torpaqlar, həmçinin **Qarabağ** Azərbaycan feodal dövlətini təşkil edirdi. 1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xan ilə P.D.Sisianov arasında bağlanmış "***Kürəkçay***" müqaviləsinə əsasən **Qarabağ** Rusiyanın tərkibinə daxil edildi. **1805**-ci ildə, **mayın 14**-də İbrahimxəlil xan Gəncə yaxınlığında tarixə "***Kürəkçay***" adı ilə düşmüş bu andlı öhdəliyi imzaladı. Az sonra bağlanmış "***Gülüstan***" sülh müqaviləsinə (**1813**-cü il) görə, **Qarabağ** da Şimali Azərbaycanın tərkibində Rusiyaya birləşdirildi...

**1810**-cu ilə aid rəsmi məlumata görə **Qarabağ** vilayətində **12.000** əhali olub ki, bunun da cəmi **2500**-ü erməni idi (Prisoedinenie Vostoçnoy Armenii k Rossii, I t. Erevan, 1973, s.562).

**1823**-cü ildə "*Qarabağ əyalətinin 1823-cü ildə həqiqi statski müşavir Mogilyovski və polkovnik Yermolov tərəfindən tərtib edilmiş təsviri*" (Tiflis, 1866) vergi reyestrinə

görə xanlıq ləğv edilən zaman (**1822**-ci il) orada **90.000** əhali (**20.095** ailə; **15.729** - azərbaycanlı ailə, **4.366** - erməni ailə) yaşayırdı. Xanlıq dönəmində **1** şəhər, **610** kənd (cəmisi **140** kənddə erməni yaşayırdı) vardı. Şuşa şəhərində **1048** ailə vardı ki, bunun da cəmi **474**-ü erməni ailəsi idi. Kəndlərdə **12.902** (**43.311** nəfər) azərbaycanlı ailə yaşayırdı.

**XIX** əsrin 20-30-cu illərində Zaqafqaziyaya, o cümlədən, Qarabağa **200.000** erməni köçürülür (N.İ.Şavrov: Novaya uqroza russkomu delu v Zaqafkaze: predstoyaşaya rasprodaja Muqani i narodtsam. SP b.1911, s.59). Çar hökumətinin Qafqazda **10 aprel 1840**-cı il tarixli inzibati-islahatına əsasən az sonra (**01.01.1841**-ci il) Kaspi vilayəti tərkibində mərkəzi Şuşa şəhəri olan **Şuşa qəzası** yarandı.

**1840**-cı ildən sonra **Dağlıq Qarabağ** ərazisi Kaspi vilayətinin Şuşa qəzasına; **1846**-cı ildən isə Şamaxı (**1859**-cu ildən **Bakı**) quberniyasına daxil olub. **1868**-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yarananda həmin ərazi Şuşa və Zəngəzur qəzalarının tərkibinə daxil oldu.

Qarabağda ermənilərin çoxalması, yuxarıda qeyd etdiyim kimi, əsasən, XIX əsrin 20-ci illərində baş verdi. Rus-İran və Rus-Türk müharibələrinin qələbəsindən sonra Cənubi Qafqaza İrandan və Türkiyədən on minlərlə erməni axışıb gəldi. "***Türkmənçay***" sülh müqaviləsində (1828-ci il, 10 fevral) də bu, nəzərdə tutulmuşdur. **Yuxarı Qarabağ** əhalisinin milli tərkibinə gəlincə isə, bu, **1832**-ci ildə ermənilər İran və Türkiyədən köçürüldükdən sonra ilk dəfə verilən məlumatlara görə, **65** faiz azərbaycanlılardan, **35** faiz ermənilərdən ibarət olmuşdur ("*Rusiyanın Zaqafqaziya hissəsinə aid tədqiqatlar*," III hissə, Peterburq, 1836, V cədvəl).





Rus müstəmləkəçiliyinin İran və Türkiyədən erməni ailələrinin köçürülməsi sayəsində **1880**-ci ildə Yuxarı Qarabağda ermənilər əhalinin **53** faizini, azərbaycanlılar **42** faizini təşkil etmişdir ("**1896**-cı il üçün Qafqaz təqvimi, V bölmə"). **1897**-ci ildə bu rəqəmlər müvafiq olaraq **53-45** faiz idi ("*Əhalinin öyrənilməsi sayəsində ilk tədqiqat*", Peterburq, 1904). **1897**-ci il üçün Şuşa qəzasının **4911** kvadrat kilometr sahəsi, **140.740** nəfər əhalisi olmuşdur.

**XX** əsrin ilk ilində ermənilər Cənubi Qafqaz əhalisinin **19** faizini təşkil edirdilərsə, **1921**-ci ildə bu rəqəm **22** faizə çatdı. "*Bu artımın səbəblərindən biri Türkiyədən ermənilərin Qafqaza köçürülməsidir*" (B.İşxanyan, "Qafqaz millətləri", Peterburq, 1916, səh.33)...

**XX** əsrin əvvəllərində Azərbaycanda, eləcə də, Qarabağda inqilabi mübarizə gücləndi. **1907**-ci ilin iyununda Şuşa ipək fabrikinin fəhlələrinin tətili oldu. **1917**-ci ilin iyununda bolşeviklər RSDF(b)P-nin Şuşa təşkilatını yaratdılar.

**25 oktyabr** (*7* ***noyabr***) - 1917-ci il tarixdə Rusiyada dövlət çevrilişi oldu - Böyük Oktyabr Sosialist İnqilabı baş verdi. Stepan Şaumyan İcraiyyə Komitəsinin sədri seçildi. Az sonra Bakıda güclü erməni silahlı qüvvələri cəmləşdirildi. **1918**-ci ilin mart ayının son günlərində Bakıda ermənilər qırğın törətdilər.

**29 martda** - Bakı limanında Lənkəran əksinqilabçılarına köməyə gedən "***Dikaya diviziya***" hissələri ora göndərilən Qırmızı qvardiyaçılara atəş açdı. Bakı Sovetinin tələbi ilə "*Dikaya diviziya*" əsgərləri tərksilah edildi...

**30 mart** - Müsavatçılarla Bakı Soveti arasında "Dikaya diviziya"nın silahlarını qaytarmaq haqqında danışıqlara başlandı. Danışıqlar zamanı müsavatçılarla sovet qoşun hissələri (ermənilər) arasında Şamaxı

(*C.Cabbarlı*) və Tatarski (*N.Krupskaya*) küçələrində atışma oldu. Azərbaycanda vətəndaş müharibəsi başlandı. Mart qiyamının (?) yatırılmasına rəhbərlik üçün **martın 30-dan 31-nə** keçən gecə N.Nərimanov, S.Şaumyan, P.Caparidze və başqalarından ibarət ***İnqilabi Müdafiə Komitəsi*** (İMK) yarandı.

**31 mart** - Sovet qoşunları qəti hücuma keçdilər. Müsavatçılar danışıq təklif etdilər. **İMK** müsavatçılardan Bakı Sovetinin hakimiyyətini danışıqsız tanımağı, hərbi hissələrini Bakıdan və onun rayonlarından çıxarmağı və s. tələblər irəli sürdü. Müsavatçılar bu şərtlərlə razılaşdılar. **Mart qiyamı**(?)nın yatırılması Bakıda vətəndaş müharibəsinə son qoydu, Sovet hakimiyyətini möhkəmləndirdi, Bakını tutmaq istəyən xarici müdaxiləçilərin planları pozuldu. Bakı və onun rayonlarında hakimiyyət Sovetlərin əlində cəmləndi...

**26 may 1918**-ci il tarixdə Zaqafqaziya Seymi süqut etdi...

**28 may 1918**-ci il - Azərbaycan Müvəqqəti Milli Şurası Azərbaycan Xalq Cümhuriyyətinin "*İstiqlal bəyannaməsi*"ni elan etdi. Azərbaycan bütün türk və müsəlman dünyasında ilk ***Respublika*** oldu. Bu hökumət tez bir zamanda Türkiyə ilə ittifaqa girdi. Vəziyyətin gərgin anında Osmanlı qoşunları Azərbaycana gəldi. Milli Şura və hökumət Gəncəyə köçdü. Yeni hökumət yarandı. Azərbaycan hökuməti Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasının tərkibindən ayırıb mərkəzi Şuşa şəhəri olan **Qarabağ general-qubernatorluğu** yaratdı...

S.Şaumyan ADR-nı yıxmaq üçün Gəncəyə hücum planı hazırladı. **10 iyun**da başlayan bu hücum **27 iyun**da Göyçay yaxınlığında Osmanlı hərbi qüvvələrinin köməyi





ilə məğlubiyyətə uğradı. Xalq Cümhuriyyətinin qoşunları əks-hücumla **20 iyul**da Şamaxını tutdu. Avqustda başda general Denstervil olmaqla ingilis qoşunları Bakıya gəldi. AXC qoşunları Türk hərbi qüvvələri ilə bərabər Bakıya hücum etdi. Sentyabrın ortalarında Bakı azad edildi. AXC Gəncədən Bakıya köçdü. **7 dekabr**da **120** deputatdan ibarət Parlament yaradıldı. Belə çətin tarixi şəraitdə hərbi səfərbərlik başladı. Bu zaman Azərbaycan Respublikasının ərazisi **97,3** min kvadrat kilometr (bundan başqa **15,6** kv.km mübahisəli ərazi) idi. Az zaman içərisində **10** min süvari, **30** min piyadadan ibarət qoşun toplandı.

**1918**-ci il **sentyabrın 25**-də Türkiyə qoşunları Azərbaycana gəlib Şuşanı tutdular.

1919-cu ilin yayında bolşeviklərin Qarabağ Mahal Partiya Komitəsi yarandı.

**1920**-ci il **yanvarın 11**-də Paris sülh konfransının Ali Şurası tərəfindən ADR-ın defakto tanınması elan olundu. Bakıda bəzi ölkələrin səfirlikləri, konsulluqları açıldı. **11 fevral 1920**-ci ildə Azərbaycan kommunistləri I qurultayda Azərbaycan Kommunist Partiyasını yaratdılar. Mikoyan və başqalarının köməyi, təhriki ilə Qarabağda **erməni qiyamı** baş verdi. **27 aprel**də XI Qızıl Ordu Azərbaycan sərhədini keçdi, az sonra - **28 aprel**də Bakıya daxil oldu. Beləliklə, Azərbaycan yenidən işğal olundu.

**1920**-ci il **aprelin 29**-da Qaryagində, **aprelin 30**-da Şuşada kommunistlər hakimiyyətə gəldilər. **30 aprel**də Şuşada Qəza İnqilab Komitəsi təşkil edildi. **Mayın 20**-də Qarabağ Vilayət İnqilab Komitəsi yarandı. **1920**-ci ilin **mayın 25**-də hakimiyyət artıq bütünlüklə Qarabağ Vilayət İnqilab Komitəsinin əlində idi. **İyunun 5**-də musavatçılar türk generalı Nuru Paşanın rəhbərliyi ilə qiyam qaldırıb Ağdamı, Tərtəri, Şuşanı, Bərdəni ələ keçirsələr

də, bir həftə sonra XI Qırmızı Ordu hissələri onları Qarabağdan çıxmağa vadar etdi. Nuru Paşa və başqaları Azərbaycanı tərk etməyə məcbur oldular... Sovet hakimiyyətinin qələbəsindən sonra Qarabağda da bir sıra *sosialist tədbirləri* həyata keçirildi...

XX əsrin Müsavat hökuməti (ADR) dövründə də **Qarabağ** Azərbaycanın tərkibində olmuşdur. **1918**-ci ildən **Qarabağ** Azərbaycan Demokratik Respublikasının, **1920**-ci ildən isə Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olmuşdur. Bütün bu qeyd etdiklərim, heç vaxt ermənilərə mənsub olmayan **Qarabağın qısa tarixi**dir...

**1920**-ci ilin **19 iyun**unda Q.K.Orconikidzenin Vladiqafqazdan V.İ.Leninə və Çiçerinə vurduğu teleqramda deyilir ki, Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edildikdən sonra adı çəkilən hər iki ərazi özünü Azərbaycanın tərkib hissəsi hesab edir. **Dağlıq Qarabağ** haqqında məsələ **1921**-ci ilin **27 iyun** tarixli AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunun yığıncağında müzakirə edildi.

**4 iyul 1921**-ci il tarixdə RK(b)P MK Qafqaz Bürosunda «*Dağlıq Qarabağ*» haqqında məsələ müzakirə edildi (protokol №11). Həmin gün Stalin, Kirov, Orconikidze, Nazaretyan, Nərimanov, Fiqatner, Maxaradze və Myasnikovun iştirakı ilə bir plenum da keçirildi. "*Dağlıq Qarabağ Azərbaycanın hüdudlarında saxlanılsın*" fikrinin lehinə Nərimanov, Maxaradze, Nazaretyan, əleyhinə isə Orconikidze, Myasnikov, Kirov, Fiqatner səs verirlər. Nəticədə belə bir qərar qəbul olunur ki, Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə qatılsın. N.Nərimanov bu ədalətsiz qərara etiraz etdikdən sonra Qafqaz Bürosu qəti qərar üçün məsələni RK(b)P MK-nin müzakirəsinə verdi.





**5 iyul 1921**-ci il tarixdə RK(b)P MK-nın Qafqaz Bürosunun Plenumunda (Stalin, Orconikidze, Maxaradze Kirov, Nərimanov, Myasnikov, Nazaretyan, Oraxelaşvili, Fiqatner-*protokol №12*) belə qərar qəbul edilir. "Müsəlman və ermənilər arasında milli sülhün, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqəsinin zəruriliyinə, onun Azərbaycanla daimi əlaqəsinə əsaslanaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudları daxilində saxlanılsın. Muxtar Vilayətin tərkibinə daxil olan inzibati mərkəzi Şuşa şəhəri olmaqla ona geniş vilayət muxtariyyəti verilsin.

**20 iyul 1921**-ci il tarixdə AK (b)P MK-nın Siyasi Təşkilat bürosu "***Qarabağ məsələsi***" üçün Komissiya yaratdı.

**26 sentyabr 1921**-ci il tarixdə AK(b)P MK-nin Siyasi və Təşkilat Bürosu öz iclasında Qarabağ məsələsini yenidən müzakirə etdi.

**14 dekabr 1922**-ci il tarixli RK(b)P-nin Zaqafqaziya Diyar Komitəsinin imzası ilə Dağlıq Qarabağın muxtariyyət məsələsi nəzərdən keçirildi.

**15 dekabr 1922**-ci il tarixdə AK(b)P MK Rəyasət Heyətinin qərarına uyğun olaraq Azərbaycan SSRİ XKŞ yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya yaradılır və A.Qaragözov başda olmaqla "*Dağlıq Qarabağ İşləri üzrə Komitə*" təsdiq olunur.

**1923**-cü iyunun axırında ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsinin iclasında Dağlıq Qarabağın muxtariyyət məsələsi yenidən nəzərdən keçirildi. Plenum Ə.H.Qarayevin sədrliyi ilə olan komissiyanın qərarı əsasında Dağlıq Qarabağın Muxtar Vilayətə çevrilməsi haqqında Zaqafqaziya Diyar Komitəsinin qətnaməsini qəbul etdi.

**1 iyul 1923**-cü il tarixdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Rəyasət Heyəti belə qərar çıxarır: "*Azərbaycan MİK-nə təklif olunsun ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi barədə dekret versin, İcraiyyə Komitəsi başda olmaq etibarı ilə ondan Xankəndi mərkəz olmaqla Qarabağ Muxtar Vilayətini yaratsın. Qarabağ Muxtar Vilayəti İcraiyyə Komitəsi yaradılana qədər bu vilayəti idarə etmək üçün 5 nəfərdən ibarət İnqilab Komitəsi və Vilayət Partiya Komitəsi yaradılsın*".

**7 iyul 1923**-cü il tarixdə Azərbaycan MİK "***Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında***" dekret verdi. Bu dekretlə 1923-cü ildə **DQMV** yarandı. DQMV yaradılması ilə əslində Azərbaycanın vahid ərazisi bölündü. Azərbaycan bolşevikləri ərazi bütövlüyü üçün yaradılan təhlükəni aradan qaldıra bilmədilər. Beləliklə, süni surətdə yaradılan "***Qarabağ məsələsi***" Qarabağın erməni əhalisinin xeyrinə müsbət həll olundu. Təəssüflər olsun ki, həmin zamanlarda Ermənistanda yaşayan on minlərlə azərbaycanlılara muxtariyyət verilməsi məsələsi yada düşmədi...

**DQMV** Qarabağın dağlıq hissəsində, Kiçik Qafqazın cənub-şərqində yerləşir. Ərazisi **4392** kvadrat kilometrdir. Sahəsi şimaldan cənuba **120** km, şərqdən qərbə **40-60** km-dir. Əhalisi **180** min (**130** min erməni, **48** min azərbaycanlı, **40**-dan çox millətin **2** min nümayəndəsi) nəfərdir. DQMV tərkibinə **5** rayon - Şuşa, Əsgəran (*Xocalı*), Mardakert (*Ağdərə*), Martuni və Hadrut (*Xocavənd*) rayonları daxildir. **26 noyabr 1991**-ci il **279-XII** nömrəli qanunla DQMV statusu ləğv edilib...

**1945**-ci ilin payızında da "**Qarabağ məsələsi**" yenidən gündəmə gəldi. Ermənistan KP MK-nin birinci katibi





Arutinov DQMV-nin Ermənistan SSR-nın tərkibinə daxil edilməsi haqqında təklifi ÜİK(b)P MK-nin sərəncamına verdi. M.C.Bağırov o zaman Arutinovun dəlillərinə qarşı sərt təkliflər irəli sürdü...

**Hörmətli oxucu**, müxtəlif mənbələrə əsaslanaraq işlədiyim elə bu qısa yazıdan da görmək olar ki, ermənilərin Kürdən cənubda ərazilərimizi qədim erməni torpaqları hesab edərək onu əlimizdən almaq ideyaları göydəndüşmə deyil. Bu, çoxdan düşünülmüş, "*elmi*" söykəyi olan bir ideyadır...

Əcdadlarımızın XX əsr nəsilləri nədənsə torpaqlarımızın bütövlüyünü saxlaya bilməyib. Göyçə mahalını, Zəngəzur qəzasını Ermənistana "*bağışladılar*". Bundan bir neçə onillik keçdikdən sonra "**Qarabağ məsələsi**" yenidən qalxdı və bu gün də Qarabağımız çətin sınaq qarşısındadır. Bugünki nəsillər gələcək nəsillər qarşısında məsuliyyət hissini unutmamalıdırlar. Bizə ulularımızdan miras qalan torpağı **sevmək, qorumaq və gələcək nəsillərə çatdırmaq** hamımızın müqəddəs amalımız olmalıdır...

Erməni tarixşünaslığının hakim konsepsiyasında "*sübut*" etməyə cəhd göstərilir ki, guya ermənilər Ermənistan ərazisinin köklü əhalisi, oradakı azərbaycanlılar (erməni millətçilərinin zorakılıq siyasəti, bizim millətin beynəlmiləlçiliyi, susması nəticəsində indi onlar doğma yurd-yuvalarından qovulmuşlar) isə XIII əsrdə Mərkəzi Asiyadan gəlmə köçəri türk və monqol-tatarların nəsilləridir.

Erməni tədqiqatçıları tarixi faktları saxtalaşdıraraq, tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş Zəngəzuru (*keçən əsrin 20-ci illərində Ermənistana verilib*), Qarabağı (*Artsaxı*), Qazax-Ağstafa zonasını (*qədim Girdmanı*) binayi-qədimdən erməni torpağı sayır, Kür-Araz ovalı-

...a b.e.ə. II əsrdən eramızın IV əsrinədək "*Ermәni dövləti" ərazisi*", sonralar isə "*Şərqi Ermənistan*"" adlandığını qeyd edirlər. Onlar müxtəlif xarici ölkələrdə çap etdirdiyi kitablarda bütün Qarabağın, hətta, Naxçıvanın da tarixən erməni torpağı olmasını elmi cəhətdən əsaslandırmaq üçün dəridən-qabıqdan çıxırlar...

**Əziz oxucu**, biz də əcəb millətik. **30**-cu illərdə (*XX* əsr) Ermənistanda azərbaycanlılar yaşayan kəndlərin adları dəyişdirildi; **40**-cı illərdə azərbaycanlıların bir hissəsi oradan qovuldu; **50**-ci illərdən başlayaraq, Azərbaycan torpaqları hesabına ərazisi genişləndirilmiş **Erməni dövləti**" yaratmaq ideyası ilə xəritələr cızıldı, kitablar yazıldı və bu ideyalar dərsliklərdə özünə yer tapıb ali və orta məktəblərdə tədris olundu...

Biz isə nədənsə susduq. Susdurulduq da deməzdim. Əvəzində erməniləri nazirliklərdə, raykomlarda, idarələrdə, nə bilim daha haralarda rəhbər vəzifələrə irəli çəkdik. "*Qardaş olub Hayastan-Azərbaycan*" nəğməsini qoşduq. Şaumyana qranitdən heykəl düzəltdik. Şaumyana, Avakyana, Osipyana, Əmiryana, nə bilim nə "*...yanlara*" adlarını əbədiləşdirmək üçün küçələr, daha nə bilim nələr verdik. Ermənilərin başbilənləri həmişə millətçilik hissilə yaşayırdılar, bizimkilər isə...

Qonşu torpaqlarını zəbt etmək, "*Böyük Ermənistan*" arzusunun sinəsində yuva saldığı Eçmiədzin kilsəsi üçün Qarabağı ələ keçirmək başlıca məqsəddir. Vazgen başda olmaqla Eçmiədzin **Qarabağ** üçün bütün milyardlarını qorumağa hazır, ixtiyarında güclü imkanı olan qorxulu bir qüvvədir.

İş elə gətirib ki, yalnız son vaxtlar bilirik ki, Şərqdə ilk parlamentli respublika yaradan bizim xalq olub. Sonralar bilirik ki, bəs müsavatçılar millət yolunda, Vətən uğrunda canlarından keçiblər. Bizim milli yaddaşımız korşalıbmı? Özümüzü pis günə özümüz salmamışıqmı?..





Qarabağlı şair Oruc Səda necə gözəl deyib:

*Qarabağ qaraldıb ağ günlərimi,*
*Edibdir sinəmə dağ günlərimi.*
*Xəstəhal eləyib sağ günlərimi,*
*Qəmdən havalanıb oynamalıyam.*

*Qafil, paya götür, dur döy dərdimi,*
*Yoxdur yetişdirən bu göy dərdimi.*
*Bişirə bilmirəm bu çiy dərdimi,*
*Deyəsən hələ çox qaynamalıyam...*

Şimali Azərbaycanda nəhayət, ***18 oktyabr 1991***-ci il tarixdə müstəqillik elan olundu. Şükür! Heyf ki, bu böyük hadisə namərd erməni qonşumuzun torpaqlarımıza ərazi iddiası ilə eyni vaxta təsadüf etdi. On illər "***böyük qardaş***" saydığımız ruslar da müxtəlif üsullarla bir növ bu təcavüz iddiasının tərəfdarı oldular. Keçmiş quruluş bizə az qala **1905-1918**-ci illərdəki xalqımıza qarşı ermənilərin törətdikləri vəhşilikləri, soyqırımlarını unutdurdu. Qarabağ torpaqları hərrac malına çevrildi...

**1992-ci il mayın 8-də** Qarabağın tacı olan **Şuşa** şəhəri də erməni işğalçıları tərəfindən zəbt olundu... Elan edilməmiş bu müharibədə yüzlərlə, minlərlə cavanlarımız, qocalarımız canlarını qurban verdilər. Onların adları xalqın tarixi yaddaşında əbədi qalacaqdır...

**Qarabağ** toponimi **türk** mənşəlidir. Əcəmlər lap qədimdən Qarabağa "***Sisaqan***" demişlər. ***Qarabağ*** sonralar yalnız Səlcuqlar tərəfindən belə adlanmışdır. Türkiyədə, Türkmənistanda, Özbəkistanda və başqa ərazilərdə də

**Qarabağ** sözü ilə bağlı çoxlu sayda oykonim və oronimlər qeydə alınmışdır...

Görkəmli alman səyyahı A.Olearinin (XVII əsr) "*İran səltənəti*" xəritəsində **Qarabağ şəhəri 39⁰** şimal en dairəsi ilə **82⁰ 21** şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə göstərilir. Həmin şəhər təxminən indiki Horadiz (Füzuli rayonu) dəmiryol stansiyasından şərqdə - İran ərazisindəki Aslandüz yaşayış məntəqəsindən azacıq şimalda mövcud olmuşdur. Doğrudan da, bəzi tarixi qaynaqlara əsaslanıb deyə bilərik ki, VII əsrdən XVII əsrin birinci yarısına qədər Araz çayının sol kənarında **Qarabağ** adında bağlı-bağatlı mühüm bir yaşayış məntəqəsi mövcud olmuşdur. Çox güman ki, tariximizdə adları çəkilən **Qarabağ əyaləti, Qarabağ vilayəti, Qarabağ mahalı, Qarabağ bəylərbəyiliyi, Qarabağ xanlığı, Qarabağ dağ silsiləsi, Qarabağ kanalı, Qarabağ düzü** və s. toponimlərdə öz adlarını Araz çayı qırağındakı həmin yaşayış məntəqəsinin adından almışdır (*İrandan Kiçik Qafqaza gedən böyük ticarət yolu bu şəhərin yanından keçirmiş*). Bir çox tədqiqatçı alimlərimiz indi də bu fikirdədirlər...

İsgəndər bəy Münşi həmin **Qarabağın** ab-havasının, meşə və bağlarının, bərəkətli çöllərinin, gözəl otlaqlarının dünyada misli-bərabəri olmadığını göstərir...

Yuxarıda qeyd etdiyim **Qarabağ** adı tarixdə VII əsrdən, bir əyalət kimi XIII əsrdən, bir xanlıq kimi XVIII əsrdən məlumdur. Mənim fikrimcə, **Qarabağ** toponimlərini öyrənmək üçün bu ərazinin toponimikasını da, bilmək başlıca şərtdir. Tədqiqatlar nəticəsində DQMV-dəki **230**-a qədər yaşayış məntəqəsinin **190**-dan çoxunun adının mənası aydınlaşmışdır. Onlar Azərbaycan dilində olan adlardır. Ərazidəki oykonimlərin **10** faizi hibrid, çox az hissəsi isə erməni adıdır. Vilayətdəki ermənilər yaşayan bir sıra kənd adları da Azərbaycan dilindədir...





Mən **Qarabağ toponimiyasını** tədqiq edən **qarabağlı** toponimçi kimi qətiyyətlə deyə bilərəm ki, hətta keçmiş DQMV ərazisindəki **230** yaşayış məntəqəsinin **80** faizdən çoxunun adı azəri türkcəsindədir. Vilayət ərazisindəki **23** çaydan **18**-i azərbaycanca olan adlardır (*onlardan biri hibrid, dördü isə mənası qismən aydın olan adlardandır*). Ərazidəki **7** gölün hamısı (*Zəligöl, Qaragöl, Qamışgöl, Qanlıgöl, Çallıgöl, Sarışıngöl, Köndələngöl*) Azərbaycan dilində mənası aydın olan adlardır. Ümumiyyətlə, DQMV ərazisində tədqiq etdiyim **3000** toponimin (**216** kənd adı, **8** şəhər və qəsəbə adı, **23** çay adı, **7** göl adı, **200**-dən çox zootoponim, **40** etnotoponim, **50** patronim, **80** antroponim, **15** paleotoponim və **2300** -dən çox oronimlərin (*dərə, dağ, təpə, quzey, güney, gədik, düz, qaya* və s.)) ümumilikdə **95** faizi (**2900**-ə yaxın) Azərbaycan dilində olan coğrafi adlardır. Mənə elə gəlir ki, bu tutarlı arqumentlərdən sonra daha heç bir əlavə şərhə ehtiyac qalmır...

Yuxarıdakı bütün qeydlərimi yekunlaşdırıb bir daha bildirmək istəyirəm ki, Xocavənd rayonunun da bütövlükdə daxil olduğu **Qarabağ** yarandığı gündən indiyədək Azərbaycanın tərkib hissəsi olmuşdur. Qarabağın *Azərbaycan torpağı* olması sübuta ehtiyacı olmayan aksiomadır. Dünyada elə bir qüvvə yoxdur ki, əzəli və **Müqəddəs Qarabağ** torpaqlarımızı doğma respublikamızdan qoparmağa nail olsun. Torpaqlarımızı yağı düşməndən qorumaq üçün isə xalqın həqiqi birliyinə nail olmaq gərəkdir.

***Nazim Tapdıqoğlu (Vəlişov)***








## ABDAL QIŞLAĞI

**Abdal qışlağı** oroqrafik obyekt Xocavənd rayonunda, Əmirallar kəndi yaxınlığında, keçmiş Bəhrəmli kəndi ərazisində qeydə alınmışdır.

İbn Durayd yazır: **Abdal** (tək halda **Badil**) *müqəddəslər nəslidir* (salehun), dünya onlardan əskik olmur. Onlar cəmi 70 nəfərdirlər; onlardan 40-ı Suriyada, 30-u isə digər ölkələrdə yaşayır. Onlara **pir** də deyirlər. **Abdal** (***badil***) sözü «*bogi eli*» deməkdir. Bu söz qədim türk dilində «*nurlanmış*» mənasında işlənmişdir.

## ABIŞIN BAĞI

**Abışın bağı** coğrafi adı Xocavənd rayonu ərazisində, Qaradağlı kəndi yaxınlığında qeydə alınmışdır. Orografik obyekt **Abış** şəxs adından və **bağ** sözündən əmələ gəlmişdir. Toponim "*Abışa məxsus olan bağ*" mənasındadır. Bu tipli patronimik oronimlərə Azərbaycanın başqa bölgələrinin ərazilərində də rast gəlirik.

## ADSIZ TƏPƏ

Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınmış obyektlərdən biri **Adsız təpə** adlanır. Buradan müxtəlif tarixi dövrlərə aid maddi-mədəniyyət nümunələri – bəzək əşyaları, gil qabları və s. də tapılmışdır. **Təpəyə** ad verilmədiyindən o, **Adsız təpə** kimi qeydə alınmışdır.

## AĞ CIĞIR

Xocavənd rayonu ərazisində, Xəzəz dağı yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Ağ cığır** adlanır. Bu **cığır** ağac və kolların arasındakı sahədə ot bitməyən kiçik, ensiz bir *yoldur*. **Ağ cığır** Xəzəz dağının zirvəsi ilə Qacar kəndini birləşdirir. Bu ensiz yola kiçikliyinə və ot bitmədiyinə görə əhali tərəfindən **Ağ cığır** deyilir.

## AĞ QOBU

Tuğ kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Ağ qobu** adlanır. **Qobu** sözü monqol mənşəli söz olub «*dərə*», «*çökəklik*», «*su basan yer*», «çox kiçik çay», «*axar su*», «*çayın dərin yeri*», «*çay sularının axdığı yer*», «*düzənlik*», «*sel sularının uzun müddət axması nəticəsində əmələ gələn çuxur*», «*kiçik dərə*», «*quru dərə*», «*kənarları tamamilə aşınıb, qırağından dibinə tədrici enişi olan dərə forması*» və s. mənalarda işlədilir.

**Qobu** termininin dialektlərimizdə ***qobı, kobı, qovu, qobi*** tələffüz formaları məlumdur. Tədqiqatçılar ***qobu*** termininin türk dillərində semantik izahını, fonetik xüsusiyyətlərini izah etmişlər. Tədqiqatlardan da görünür ki, ***qobu*** leksemi coğrafi termin kimi yer-yurd adlarının yaranmasında yaxından iştirak etmişdir.

Respublikamız ərazisində tərkibində **qobu** termini iştirak edən **900**-dən çox oronim qeydə alınmışdır. **Ağ qobu** oronimində **ağ** sözü *qobunun* kiçikliyini bildirir...





## AĞ YOXUŞ

Xocavənd rayonunun Muğanlı kəndi ərazisində, kənddən 4 kilometr aralıda geydə alınmış oroqrafik obyektlərdən biri. **Ağ yoxuş** adlanır. Bəzən bu adı ***Ağyoxuş*** kimi də yazırlar. Toponim **ağ** və **yoxuş** sözlərindən ibarətdir. Oronimiyada "*yolun dağa, təpəyə, yaylağa, hər hansı bir yüksəkliyə çıxan hissəsi*", "*yamacın aşağıdan yuxarıya kəsimi*", "*yuxarıya doğru meyilli dikələn səth*" yoxuş adlanır. **Yoxuş** müsbət relyef bildirən cografi terminінin iştirakı ilə Azərbaycanda çöl materialları içərisində **2.200** oronim toplanmışdır. Onlardan biri də Muğanlı kəndi yaxınlığındakı **Ağ yoxuş** coğrafi adıdır. Oronimin tərkibindəki ***ağ*** komponenti yoxuşun torpağının **ağ** rəngə çalmasını bildirir.

**Ağ yoxuş** oronimінə Azərbaycanın Qubadlı rayonunun Eyvazlı kəndi ərazisində, eləcə də Qaradağ, Zəngilan, Kəlbəcər, Füzuli və s. rayonların ərazilərində rast gəlirik. Azərbaycan oronimiyasında rəng mənasında işlənən ***ağ*** sözünün müxtəlif coğrafi terminlə birləşməsi nəticəsində yaranan **350** oroqrafik obyekt qeydə alınmışdır.

## AĞBAŞI DAĞI

Rayonun Güneyxırman kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Ağbaşı dağı** adlanır. **Dağ** - müsbət relyef forması bildirən coğrafi termindir. **Baş** termini heç şübhəsiz ki, «*dağın zirvəsi*» mənasındadır. **Baş** komponenti ilə bağlı Azərbaycanda çöl materialları içərisində **220** oronim qeydə alınmışdır. **Ağ** sözü rəng mənası ifadə edir. Tarixi mənbələrdən aydın olur ki, Azərbaycanda, o

cümlədən də Qarabağda oğuz mənşəli *ağbaş* tayfası yaşamışdır. Çox güman ki, oronim elə bu səbəbdən belə adlanmışdır. Füzuli rayonunun Yuxarı Veysəlli kəndi ərazisində də **Ağbaşı dağı** coğrafi adı qeydə alınmışdır...

**Ağbaş** sözünün *"Əxiyə məxsus əkin yeri"* mənası da var. Vaxtilə İrəvan əyalətinin Sisyan nahiyəsində və İrəvan xanlığının Qarnibasar mahalında **Ağbaş** adlı kənd mövcud olub. Dəvəçi rayonunda ***Ağbaş kəndi***, Tovuz rayonunda ***Ağbaşlar kəndi***, Naxçıvanda ***Ağbaş çayı*** və s. toponimlər də qeydə alınıb...

Ətraf düzən sahələrdən özünün ətəkləri, yamacları, daban xətti və zirvəsi ilə kəskin fərqlənən, nisbi hündürlüyü **200** metrdən çox olan müsbət relyef formasına **dağ** deyilir.

**Dag** arelyativi xüsusi ad yaradıcılığında geniş arealda işlənməkdədir. Öz relyef xüsusiyyəti ilə fərqlənən ***dağ*** anlayışı dəniz səviyyəsi ilə müqayisə olunur. ***Dağ*** sözü türk dillərində **taq, tau, toq, tou, too, tav, tu, tuu** və s. fonetik variantlarda işlənir. Qədim türklərin mifologiyasında ***dağ*** sözü *tanrı, allah* sözləri ilə paralel işlənmişdir. Türk dillərində **dağ/taq/tau** «*ucalıq*» anlamı bildirir.

Ümumtürk arealında ***dağ*** sözü etnonim kimi də diqqəti cəlb edir: ***Dağlı tayfası*** (*Oğuz xanın dördüncü oğlu* ***Dağ xanın*** *adı ilə formalaşıb*), ***Qaradağlı tayfası*** və s.

Dağlar mənşəyinə görə *tektonik, vulkanik* və *erozian* tipli olurlar. **Tektonik dağlar** özü də *qırışıq* və *qayma* dağlara bölünür.

***Qırışıq dağlar*** geosinklinal sahələrində bir neçə geoloji dövr (*epoxa*) ərzində toplanmış süxur çöküntülərinin qırışıb-qalxması nəticəsində əmələ gəlir. ***Qayma dağlar*** yer qabığının elastikliyini itirmiş zonalarda yaranır. Tektonik hərəkət nəticəsində yer qabığı ayrı-ayrı qaymalara parçalanır və bunlardan bəziləri horst formasında





yuxarı qalxaraq qayma dağları əmələ gətirir. Yer qabığının elastikliyini tam itirməmiş sahələrində tektonik dağların qırışıq tipi, yəni, qırışıq-yayma dağlar yaranır ki, belə dağların quruluşunda həm qırışıqlar, həm də faylar böyük rol oynayır. **Vulkanik dağlar** püskürmə materiallarının akkumilyasiyası nəticəsində əmələ gələrək tədric olunmuş vulkan konuslarının birləşməsindən yaranan silsilə formasında olur. **Erozion dağlar** tipi əsasən üfuqi geoloci struktura malik olan yüksək yaylaların dərin eroziya parçalanmasına məruz qalması nəticəsində əmələ gəlir.

Dağların mənşəyini, geoloji yaşını, ekzogen amillər tərəfindən dəyişdirilməsini nəzərə alaraq dağları **3** morfoloji tipə ayırmaq olar: mütləq hündürlüyü **800-1000** metrə qədər olan və relyef formaları nisbətən hamarlanmış dağlar (*alçaq dağlar*); mütləq hündürlüyü **2000** metrə çatan, lakin qar xəttinə çatmayan dəyirmi, yastı zirvələri və az meyilli yamacları ilə səciyyələnən dağlar (*orta dağlar*); qar xəttindən yuxarı qalxmış, mütləq hündürlüyü **2000** metrdən yüksək olan şiş zirvələri, dik yamacları və buzlaq relyef formaları ilə xarakterizə olunan dağlar (*yüksək* və ya *uca dağlar*).

Taksonomik əlamətinə görə dağlıq qurşaq, dağlıq ölkə, dağ sistemi, dağ qrupu və dağ silsilələri vardır. Bəzi dağlar düz xətt üzrə bir neçə yüz, hətta min kilometrlərlə uzanaraq sıra dağları təşkil edirlər (*məsələn: Himalay, Kordilyer, Ural, Böyük Qafqaz və s.*), bəziləri isə qövs şəklində yerləşmişlər (*məsələn: Alplar, Karpat dağları və s.*). Yerin geoloji tarixində paleozoy erasından dördüncü dövrə qədər olan vaxt ərzində 3 böyük dağ qırışıqlığı (*Kaledon, Hersin, Alp*) epoxası olmuşdur. Bu qırışıqlıq epoxalarında əmələ gəlmiş **dağlar** müvafiq olaraq *kaledonidlər, hersonidlər* və *alpidlər* adlanır...

## AĞBULAQ KƏNDİ

**Ağbulaq kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 25 kilometr cənub-qərbdə, dağlıq ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bostançılıq və baramaçılıqla məşğul olur.

Bu yaşayış məntəqəsi XIX əsrdə Cənubi Azərbaycanın Qaradağ mahalından siyasi hadisələrlə əlaqədar köçüb gəlmiş ailə və tirələrin **Ağbulaq** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. Toponim ***ağ*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Oykonimin tərkibindəki **ağ** sözü *bulağın* suyunun keyfiyyətli, içməyə yararlı olmasını bildirir. Xocavənd rayonunda iki **Ağbulaq kəndi** var (bax: ***Ağbulaq kəndi***).

Azərbaycanın Cəlilabad, Xocalı, İsmayıllı, Laçın, Tovuz rayonlarında **Ağbulaq** adlı kənd; Qax, Qəbələ, Şamaxı rayonlarında eyniadlı dağ, Qobustan rayonu ərazisində (*Mərəzə qəsəbəsi yaxınlığında*) mineral bulaq və s. coğrafi adlar qeydə alınmışdır. Vaxtilə (*işğala qədər*) Qərbi Azərbaycanda (*Ermənistanda*) **Ağbulaq** adlı **5** kənd var idi...

Quruluşca mürəkkəb toponim olan ***Ağbulaq*** oykonimi "*içməyə yararlı, keyfiyyətli su*" mənasındadır. **Ağbulaq** toponimi **bulaq** sözünün iştirakı ilə əmələ gələn hidro-oykonimlərdəndir. **Ağbulaq** oykonimi yunanca «*məskən, mənzil, ev, yurd*», «*hər cür yaşayış məntəqə adı*» mənasındadır.

**Ağbulaq** toponimi iki müxtəlif leksik mənaya malik olan **ağ** və **bulaq** "*yeraltı suların yer səthinə çıxdığı hissə*", "*çeşmə*", "*qaynaq*" komponentlərindən ibarətdir. Bu tipli bəzi toponimlərin tərkib hissəsi kimi çıxış edən **ağ** sözü yeraltı qaynaqların suyunun rəngini yox, bəzən başqa





suyun - arx, çay, kanal sularının rəngini bildirməyə xidmət edir. Aydındır ki, yerdən qaynayıb çıxan sular içməyə yararlı olub-olmasına, keyfiyyətinə görə 2 yerə *ağ* və *qara* sulara ayrılır: *Ağ sular* - içməyə tam yararlı, yüngül və keyfiyyətli olur; *Qara sular* isə içməyə müəyyən dərəcədə yararlı, amma ağır, ağ sularla müqayisədə qismən keyfiyyətsiz sular olur. Deməli, *ağ* və *qara* sözləri Ağbulaq, Qarabulaq toponimlərinin tərkibində suyun rəng və şəffaflığını yox, onların keyfiyyətini bildirməyə xidmət edir. Nəticə etibarı ilə deyə bilərik ki, ***Ağbulaq*** toponimi "*suyu içməyə yararlı, keyfiyyətli, yüngül sulu bulaq*" mənasındadır. Kənd də öz adını eyniadlı bulağın adından alıb. **Ağbulaq** hidronimik oykonimdir.

1727 -ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Vərəndə nahiyəsinə tabe olan yaşayış məntəqələri içərisində ***Ağbulaq kəndi*** adına rast gəlirik.

Əlavə məlumat üçün bax: **Ağbulaq (*Mısmına*) kəndi.**

## AĞBULAQ KƏNDİ

Xocavənd rayonunda, Qarabağ silsiləsinin ətəyində, yerləşən **Ağbulaq** kəndinin gözəl təbiəti və məhsuldar torpağı var. Rayonun o biri **Ağbulaq** kəndindən fərqli olaraq bu kənd daha qədim tarixə malikdir. XIX əsrdə - "*Gülüstan*" və "*Türkmənçay*" müqavilələrindən az sonra bu kənddə İrandan (*əsasən Qaradağ mahalından*) gəlmə ermənilər yerləşdirildi. Bu, o zamanlar idi ki, Azərbaycanın şimalı artıq Rusiya tərəfindən işğal edilmişdi...

Ermənilər *Ağbulaq* kəndinə köçəndən az sonra onun adını dəyişərək mənası məlum olmayan **Mısmına**

qoydular. Sovet dönəmində də kənd bu adla sənədləşdirildi. Azərbaycanın müstəqiliyyinin ilk aylarında (1992-ci ilin əvvəli) kəndin keçmiş adı özünə qaytarıldı.

Quruluşca mürəkkəb toponim olan **Ağbulaq** coğrafi adı *"içməyə yararlı, keyfiyyətli su"* mənasında işlənən ***ağ*** sözü ilə ***bulaq*** hidroniminin birləşməsindən əmələ gələn hidrotoponimdir. Vaxtilə Qərbi Azərbaycanın (Ermənistanın) Gorus, Hamamlı (Spitak), Çəmbərək (Krasnoselo), Vedi (Ararat ) rayonlarında da **Ağbulaq** adlı kənd mövcud idi...

## AĞBURUN DAĞI

Xocavənd rayonu ərazisində, Ağcaqoşun çayının sol sahilində qeydə alınan oroqrafik obyektlərdən biri də **Ağburun dağı** adlanır. Dağın hündürlüyü 196 metrdir. Oronim **ağ** və **burun** sözlərindən ibarətdir. **Ağburun dağı** malik olduğu özünəməxsus rənginə (**ağımtıl, ağ**) və **burun** (*"çıxıntı"*, *"qurunun dənizə, gölə sivri surətdə soxulan hissəsi"*, *"sıra dağlardan ayrılan qol"*) formasına görə belə adlandırılmışdır. **Dağ** nisbi hündürlüğü 200 metrdən çox olan yüksəklikdir. ***Dağ/tağ*** sözünə qədim (VI-VII əsrlər) türk yazılı abidələrində də rast gəlirik. Respublikamızın ərazisində 1400 oronim adında **dağ** sözü var.

**Dağ** sözü türk dillərində ***dağ, taq, toq, tav, tau, too, tuu, tu*** fonetik variantlarında işlədilir. Məsələn: Altay dilində **tuu** sözünün ekvivalenti kimi ***kir***, özbək dilində ***təpə***, yakut dilində ***qaya*** formasında işlənir. ***Dağ*** apelyativi toponim yaradıcılığında çox geniş areala malikdir. Relyef xüsusiyyəti ilə fərqlənən **dağ** anlayışı dəniz səviyyəsi ilə müqayisə olunur. Onomologiyada ***dağ*** adları *«oronim»* adı altında tədqiq olunur.





Abşeron yarımadasında, Lökbatan qəsəbəsindən bir qədər qərbdə də **Ağburun dağı** oronimi qeydə alınıb......

## AĞCAKƏND KƏNDİ

**Ağcakənd kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 75 kilometr cənub-qərbdə, Çaxmaqçayın sahilində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq və üzümçülüklə məşğul olur.

**1727**-ci ilə aid olan *"Gəncə - Qarabağ əyalətinin müfəssəl dəftəri"* adlı tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan kəndlər içərisində **Ağcakənd** adı da çəkilir.

Oykonim ***Ağca*** və ***kənd*** sözlərindən ibarətdir. Türk dilində **Ağca** sözü *"ağımtıl, quru, şumlanmamış, bozumtul yer, torpaq"* mənasındadır. Quruluşca mürəkkəb olan **Ağcakənd** toponimi *"ağımtıl, bozumtul yerdə kənd"* anlamındadır. Toponimi antroponimlə **kənd** coğrafi termininin (nomeninin) birləşməsindən əmələ gələn oykonim hesab edənlər də var.

Laçın və Kəlbəcər rayonlarında da **Ağcakənd** adlı kənd var...

Vaxtilə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda, Göydaş dağının şərq ətəyində azərbaycanlıların yaşadıqları **Ağcakənd** adlı kənd mövcud olmuşdur...

## AĞCAQOŞUN ÇAYI

Xocavənd rayonu ərazisində qeydə alınan hidronimlərdən biri **Ağcaqoşun çayı** adlanır. Çay Xocavənd və

Ağcabədi rayonlarının ərazisindən axır. Xonaşen çayının sol qolu olan **Ağcaqoşun çayının** uzunluğu 32 kilometrdir. Müvəqqəti axarlı olan bu çayın hövzəsinin sahəsi 32 kv. km-dir. Əsasən yağış suyu ilə qidalanan bu çayın suyundan suvarmada geniş istifadə olunur.

**Ağcaqoşun çayı** ərazisindən axdığı **Ağcaqoşun** adlı sahənin adını daşıyır. Hidronim ***ağca, qoşun*** sözlərindən və ***çay*** hidronimik apelyativindən ibarətdir. Toponimin tərkibindəki **ağca** komponenti rəng anlamı ifadə edir. **Qoşun** komponenti isə monqol dillərindəki **qaşun** sözündən olub, "*ağca şoran yer*" mənasındadır. **Ağcaqoşun çayı** hidronimi "*ağca şoran yerdə axan çay*" anlamındadır. **Qoşun / qaşun** sözü ilə yaranmış toponimlər çox geniş areallara malikdir. Onlara nümunə olaraq Çində ***Qaşun-Nur gölü, Qaşun Qobu, Qoşun Tsaqan,*** Rusiyanın Kalmık və Rostov vilayətllərində **Qaşun** yaşayış məntəqəsi və s. coğrafi adları göstərmək olar....

## AĞDAM KƏNDİ

**Ağdam kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 60 kilometr cənub-qərbdə, Ataqutçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi taxılçılıq, heyvandarlıq, baramaçılıq və bostançılıqla məşğul olur. XIX əsrdə burada gəlmə ermənilər məskunlaşmış, kəndin adı da o zamandan mənası məlum olmayan **Akak, Akaku** kimi sənədləşdirilərək rəsmiləşmişdir. Mənbələrdə **Ağdam** yaşayış məntəqəsi adına ilk dəfə **1357**-ci ildə rast gəlirik.

Oykonim **ağ** və **dam** sözlərindən ibarətdir. **Ağ** sözü "*rəng*", "*kiçik*" mənası bildirir. **Dam** sözü isə qədim türk uyğur dillərində mövcud olmuş, amma müasir Azərbaycan dilində saxlanılmayan **tam** formantının azacıq təhrifidir. **Tam** - "*qala*", "*qala divarı*", "*möhkəmləndirilmiş yer*", "*ev*", "*divar*", "*sədd*", "*istehkam*" anlamlarını daşımışdır. **Ağdam** toponimi " *kiçik qala*", "*ağ qala*", "*ağ rəngli qala divarı*", "*ağ ev*", "*ağ divar*" mənası ifadə edir. Toponim relyef əsasında yaranıb.

Azərbaycanda **Ağdam** adlı rayon, şəhər (*Ağdam rayonu, Ağdam şəhəri*), kənd (*Tovuz, Xocavənd rayonları*), dağ (*Tovuz rayonu*) və s. toponimlər qeydə alınıb. Zaqatala rayonunda **Ağdam Kələl** (bəzi sənəd və materiallarda adı səhvən **Ağdam Qalal** kimi də yazılmışdır) adlı kənd də var. Vaxtilə İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda bu qəbildən olan ***Ağdamlar kəndi*** də mövcud olmuşdur. 1905 -ci ildə həmin kəndin azərbaycanlı əhalisi erməni təcavüzü nəticəsində deportasiya olunmuşdur.

## AĞDAŞ

Süxurlarının rənginə və tərkibinə görə adlandırılmış oroqrafik obyektlər çoxdur. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınmış **Ağdaş** coğrafi adıdır. Toponimiyada **ağ** sözünün çoxlu sayda məna çaları olsa da, **Ağdaş** oronimində bu termin *rəng* anlamı ifadə edir. Doğrudan da bu ***daş*** (*dağ*) süxurunun rənginin və tərkibinin ***ağ*** olması ilə əlaqədar olaraq belə ad almışdır. Bu tipli oronimlərə Abşeron, Babək, Cəlilabad, Füzuli, Kəlbəcər, Qaradağ, Qazax və s. rayonların da ərazilərində rast gəlinir. Toponimin tərkibindəki **daş** komponenti mənbələrdə qeyd olunan qədim mənalarından birində - "*çöl, sahə, açıq yer, səhra*" mənasında işlənmişdir. Bu

mənada **Ağdaş** sözü Azərbaycan dilində "*ağ çöl, ağ səhra, ağımtıl boş sahə*" məna kompleksi əsasında formalaşan coğrafi adlardandır.

## AĞKƏND KƏNDİ

Xocavənd rayonunda, rayon mərkəzindən 10 kilometr şimal-qərbdə, Ağkənd inzibati ərazi vahidində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kəndlərdən biri **Ağkənd** adlanır. Bu kəndin əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq, bostançılıq, baramaçılıq və üzümçülük ilə məşğul olur.

XIX əsrdə, 1828-ci ildə İranın Xoy əyalətindən (Cənubi Azərbaycan) buraya ermənilər köçürüldü. Bu zaman Azərbaycanın şimalı artıq Rusiya tərəfindən işğal olunmuşdu. Kənddə məskunlaşan ermənilər kəndin adını dəyişərək (*erməni dilinə kalka edərək*) **Spitakşen** (***Ağkənd***) qoydular. **Spitak** - "*ağ*", **şen**- "*kənd*" deməkdir. 1992-ci ildən kənd yenidən **Ağkənd** adlandırılıb...

Azərbaycanın Xocalı, Zəngilan və Tərtər rayonlarında da **Ağkənd kəndi** vardır. Xocavənd rayonunda, rayon mərkəzindən 80 km cənub-qərbdə, Xoşgədikçay sahilində **Ağkənd** adlı başqa bir yaşayış məntəqəsi də var.

1917-ci ildə Gəncə və Şuşa qəzalarında da **Ağkənd** adlı yaşayış məntəqələri qeydə alınmışdır. XIX-XX əsrlərdə Ermənistanda (*Qərbi Azərbaycanda*) ***Ağkənd*** aldı **6** kənd olmuşdur.

Tərtər və Zəngilan rayonlarında da Ağkənd kəndi vardır.

Vaxtilə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda ***Ağkənd*** adlı kənd





mövcud olub. **1828**-ci ilə qədər kənddə azərbaycanlılar yaşamışdır. **1828-1829**-cu illərdə Xoy və Salmas vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmişdir. Azərbaycanlılar öz dədə-baba torpaqlarından deportasiya edildikdən sonra Ermənsitan SSR Ali Soveti RH-nin **17.04.1948**-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək **Aşotavan** qoyulmuşdur. Tarixi sənədlərdə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda da **Ağkənd** yaşayış məntəqəsi adına rast gəlirik. İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, Arpaçayın sağ sahilində, Səlim çayı yaxınlığında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda adı **Ağkənd kəndi** olan yaşayış məntəqəsi də olmuşdur. **1948**-ci ildə azərbaycanlı əhalisi (***621*** *nəfər*) zorla Azərbaycana köçürülmüşdür. **3 iyul 1968**-ci ildən Ermənistan SSR AS RH-nin fərmanı ilə kənd ***Ağırcagöz*** adlandırılmışdır.

**Ağkənd** toponim ***ağ*** və ***kənd*** komponentlərindən ibarətdir. **Ağ** sözü qədim türk dillərində "*kiçik*", "*balaca*", **kənd** sözü isə "*yaşayış məntəqəsi*" anlamındadır. **Ağkənd** oykonimi relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

## AĞQAYA

Respublikamız ərazisində bir sıra **qaya**, dağ, yoxuş, gədik, zirvə, təpə, dərə, çuxur və digər oroqrafik obyektlərə süxurlarının rənginə görə ad verilmişdir. Belə oronimlərin tərkibində rəng bildirən sözlər (***ağ***, *qara, qırmızı, sarı, boz və s.*) çoxluq təşkil edir. Bu tipli coğrafi ada - **Ağqaya** oroniminə Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində rast gəlirik. Azərbaycan dilində ***ağ*** sözünün

çoxlu məna çalarları olsa da, bu oroqrafik obyektdə ***ağ*** termini ***qaya*** (*daşlıq, uçurum*) süxurunun ***ağ*** rəngdə, ***ağımtıl*** olduğunu bildirir.

Babək, Cəbrayıl, Füzuli, Goranboy, Kəlbəcər, Qaradağ, Qubadlı, Tovuz, Şuşa və s. rayonların ərazilərində də süxurlarının rənginə və tərkibinə görə adlandırılmış **Ağqaya** coğrafi adına rast gəlirik. **Qaya** sözünə qədim türk abidələrində (VI-VIII əsrlər), Mahmud Kaşgari lüğətində (XI əsr) və "Kitabi-Dədə Qorqud" dastanlarında rast gəlinir...

## AĞOĞLAN ÇAYI, AĞOĞLAN PİRİ

Xocavənd və Füzuli rayonları ərazilərində qeydə alınmış hidronim **Ağoğlançay** adlanır. Hidronimin belə adlanması ilə bağlı el arasında müxtəlif rəvayətlər uydurulmuşdur. Onlardan birinin süjet xətti təxminən belədir: *ağappaq* gözəl, igid bir oğlan (bəlkə də **Ağoğlan** adı bu mənada işlədilmişdir) bu yerlərdə qeyri-bərabər bir döyüşdə öldürülür və elə buradaca dəfn olunur. Vaxtilə bu yerlərdə **Ağoğlan** adlı bir *monastır* da olub. Tarixdən məlumdur ki, *16 iyun 1905-ci il* tarixdə həmin **Ağoğlan** monastrında Azərbaycan nümayəndələri ilə ermənilərin (daşnaqların) birgə iclası keçirilmişdir...

**Ağoğlan** toponimi «*pak, təmiz, müqəddəs oğlan, övlad*» mənasındadır. Laçın rayonunda **Ağoğlan** adlı çay və kənd var.

**Ağoğlan piri** oroniminin tərkibindəki **Ağoğlan** və **pir** sözləri müqəddəslik bildirir. İ.Petruşevskiyə və R.Göyüşova görə, **Ağoğlan** coğrafi adları müqəddəsliklə, tapınaqla bağlıdır. O, belə bir fikir irəli sürür ki, ***Ağ oğlan*** mifi bitki (*Ağac*) və Günəş mifi ilə ilişgilidir. Onun eşitdiyi tarixi əfsanədə bildirilir ki, igid və yenilməz **Ağ oğlan** xalqını yağılardan qoruyurdu. Bir dəfə də yenə yağı dəstəsi hücuma keçir. *Ağ oğlan* onlarla vuruşur. Yağı çox idi. ***Ağ oğlan*** yaralanır və ölür. Onu döyüşüb öldüyü yerdə basdırırlar...

**Ağ oğlan** mif obrazı göy tanrısı, dünya ağacı ilə bağlıdır. ***Ağ oğlan*** tapınağı astrial miflə əlaqəlidir. Türk xalqları arasında geniş yayılmış əfsanədə **Ağoğlan** ilk insandır. Azərbaycan mif deyimində də deyilir ki, o, gündə 3 dəfə gözə görünər, günün qalan vaxtını isə meşəyə çəkilib tək yaşayarmış. Ümumiyyətlə, "*Ağ oğlan*" dastanları müxtəlif əfsanə və rəvayətlərdən ibarətdir. Məsələn, Azərbaycan və Yaqut (*Yakut*) ***Ağ oğlanı*** təkdir, yalqızdır, göydə doğulub. Ağac xaqanın döşünü əmən **Ağ oğlan** onun məsləhəti ilə yol gedir və Qaraxan ölkəsində cəhənnəmin yiyəsi Buura Dohsunu öldürür və orada evlənir. "*Ağ oğlan*"dakı Günəşlə ilişgili Dünya Ağacı da **Ağ oğlana** yardım edir...

Rayon ərazisində qeydə alınan bu tipli toponimlərdən biri də **Ağoğlan çayı** hidronimidir. Yağlıvənd kəndi ərazisində qeydə alınan bu hidronim Köndələn çayının qoludur. Hidronimin tərkibindəki ağ komponenti müqəddəslik bildirir. Ağoğlan sözü "*pak, təmiz, müqəddəs oğlan, övlad*" mənasındadır.

Professor Petruşevskiyə görə, **Ağoğlan piri** bütpərəstlik dövrünün abidəsidir. Bu fikri digər tədqiqatçılar da təsdiq edir. Sonrakı dövrlərdə ***Ağoğlan piri*** xristianlıq məbədinə və müsəlmanların ibadətgahına çevrilmişdir. Bu ərazilərdə islam dini yayıldıqdan sonra islamı qəbul edən müsəlmanlar bu *pir-qəbri* ibadətgah kimi tanımaqda davam etmişlər. İslam dini meydana gəldikdən sonra ***Ağoğlan abidəsi piri*** də müsəlmanların ziyarətgahına çevrilmişdir.

Bu qəbildən olan toponimlərə Xocavənd, Laçın, Cəbrayıl, Füzuli və başqa rların ərazilərində də rast gəlirik. Laçın rayonunda ***Ağoğlan*** ayon ***çayı, Ağoğlan abidəsi*** və digər bu tipli toponimlər də qeydə alınmışdır...

## AĞYOXUŞ DÜZÜ

Xocavənd rayonunun Muğanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Ağyoxuş düzü** adlanır. **Düz** mənfi relyef forması bildirən coğrafi termindir. Quruluş etibarı ilə mürəkkəb toponim olan **Ağyoxuş** oronimi **ağ** və **yoxuş** sözlərindən ibarətdir. **Ağ** termini «*torpağın ağımtıl rəngi*», «*çox da dik olmayan*», «*alçaq*», «*asanlıqla keçilən*» anlamını ifadə edir. **Yoxuş** coğrafi termini müsbət relyef forması bildirir. **Ağyoxuş düzü** oronimi «*asanlıqla keçilən dağ yolu düzü*» mənasındadır.

## AXMAZ

Xocavənd rayonu ərazisində, Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Axmaz** adlanır. Toponimin adından da göründüyü kimi, **Axmaz** dedikdə, su tutumu olan, amma «*axmayan su yığımı*» nəzərdə tutulur. Azərbaycanın digər rayonlarında da bu tipli oronimə rast gəlirik.

## AXULLU KƏNDİ, AXULLU BULAĞI

**Axullu kəndi** Qarabağ silsiləsinin ətəyində, Ərgünəş dağının yaxınlığında, rayon mərkəzindən 32 km cənubda





yerləşir. Əhalisinin sayı 600 nəfərdir. Əhali əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Kəndin ərazisində *Məscid yeri, Qırğın dərə, Suqovuşan, Nərgizlik, Üçtəpə, Quru qobu, Murguzlu yalı, Əhməd bəyin bağı, Məhərrəmin bağı, Qasım bağı, Şeyid gölü şırramı, Daş bulaq, Sarı bulaq, Qamış bulaq, Soyuqbulaq, Həmzə bulağı, Küp bulaq, Topal ağacın bulağı, Baxdik, Kötüklük, Qışlaq bağı, Alxan düzü, Molla dərəsi, Elçi yolu, Axullu bulağı, Qocabağ, Məşədi bulağı* və s. coğrafi adlar qeydə alınıb...

Kənddə *qulular, həsənxanlılar, sadıxlılar, alməmmədlilər, nəcəflilər, tanrıqulular, şadmanlılar, qulamlılar, feyzullauşağılar, vəlilər, paşabəylilər, qasımlılar, kəbirlilər, ağakişibəylilər* və s. tayfalar, tirələr, nəsillər yaşamışdır.

Bəzi tədqiqatçılara görə, **Axullu** toponimi təhrifə məruz qalmışdır. Əslində **Haxullu** və **Haxıllı** olmalıdır. **Haxıllı** etnonimdir. Yaşayış məntəqəsini **haxıllı** nəsli saldığı üçün kənd belə adlandırılmışdır. Yaşayış məntəqəsi şərti olaraq **Aşağı Axullu** və **Yuxarı Axullu** kəndlərinə ayrılır...

Bəzi araşdırıcılar **Axullu** adının fonetik dəyişikliyə uğradığını qeyd edirlər: **Axullu-Ağullu-Ağilli-Ağelli-Ağıllı**. Bu çevrilmə və uyuşmaların baş verə bilməsini ana dilimiz üçün bəzi məqamlarda xarakterik qanunauyğun hal hesab etmək olar. Digər türkdilli xalqların yaşadıqları ərazilərdə olduğu kimi Azərbaycanda eləcədə Qarabağda tərkibində **ağ** termini iştirak edən çoxlu sayda toponimlərə rast gəlirik. **Ağbulaq, Ağburun, Ağdam, Ağdaş, Ağkənd, Ağqaya, Ağoğlan** və s. Müasir dilimizdə **ağ** sözünün «*rəng*» anlamı bildirdiyi məlumdur. Bəzi araşdırıcılar **ağ** sözünü «*uca*», «*yüksək*» anlamı ilə də izah edirlər.

**Axullu** etnotoponimdir. **Akullar** (***Ağsullar***) Dağıstanın cənubunda (***Aqul*** *və Qurax rayonlarında*) yaşayan xalqın

adıdır. Onlar etnoqrafik cəhətdən ləzgilərə yaxındırlar. Kəndin ərazisində *Ləzgisuyu* adlı oroqrafik obyektin olması da bunu bir daha sübut edir. **Axu** (**a*xul***) Qafqaz xalqlarının (*abxaz və s.*) dilində «*təpə*», «*yüksəklik*» deməkdir.

**Axullu (Ağıllı)** sözünün ikinci hissəsi olan **ul** komponenti **il**, **el** termininin bir formasıdır və «*adamlar*», «*camaat*» mənasını bildirir. **İl/el** sözü tarixdən də məlumdur ki, «*başqa bir xalqa, dövlətə tabe olan*», «*vassal*» mənasında işlədilmişdir. Kəndin ərazisində **Axullu bulağı** hidronimi də qeydə alınıb.Yuxarı Qarabağda (keçmiş Ağdərə rayonu ərazisində) **Ortael** adlı toponimə də rast gəlirik.

M.S.Ordubadinin «*Döyüşən şəhər*» əsərində kəndin adı ***Naxullu***, «*Qanlı illər*» əsərində isə ***Haxullu*** kimi çəkilmişdir. Yaşayış məntəqəsinin adı bəzi sənəd və materiallarda ***Dərə Haqullu*** kimi də çəkilmişdir. Bəzi araşdırıcılar *Haxullu* sözünü *haqlı* («haqqın ulusu»), *ağıllı* kimi izah edirlər…

Yuxarıda deyilənləri ümumiləşdirib belə bir fikri vurğulamaq olar ki, **Axullu (Ağelli)** toponimi «*Xüsusi hörmətə malik uca, etibarlı, yuxarı eldən olanlar*» mənasını ifadə edir…

**9 yanvar 1992**-ci il tarixində **Axullu kəndi** ermənilər tərəfindən işğal edilmişdir…

## AKAKU KƏNDİ

**Akaku (Atayurd) kəndi** Xocavənd rayonunda, Tuğ inzibati ərazi vahidində dağətəyi ərazidə yerləşir. Əhalisi





heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin elmi izahı hələ dəqiqləşdirilməyib. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi mənbədə bu yaşayış məntəqəsinin adı **Həkəki** kimi çəkilmişdir. Oykonim sonralar **Ağoğlan**, **Ağdam** kimi rəsmiləşmişdir.

1933-cü il sənədlərində bu kənd **Ataqut** inzibati ərazi vahidinin tərkibində verilmişdir. **Aka** sözü türk dillərində «*baba, böyük qardaş, ata*» mənasını ifadə edir. **Ku** (*həm də **ut***) komponenti «*davamçı*», «*vəliəhd*», «*şahzadə*», «*arxasınca gedən*» anlamlarındadır. Əgər bu sinonimliyə **Ağoğlan** oykonimini də əlavə etsək, görərik ki, eyni ərazidə yerləşən **Ataqut**, **Akaku** yaşayış məntəqələrinin adları «*atanın oğlu*», «*atanın davamçısı*», «*kiçik şahzadə*» mənalarına uyğun gəlir. Kənd 1992-ci ildə **Ağoğlan** adlandırılmışdır…

## ALBAN KİLSƏSİ

Tuğ kəndindən 5 kilometr aralıda, Qarabağ silsiləsi ətəyində qeydə alınan **Alban kilsəsi** V əsrə aid olan tarixi memarlıq abidələrimizdəndir. Kilsənin **Alban** adlanması Qafqaz Albaniyasının qədim əhalisi olan ***albanlar*** ilə bağlıdır. **Kilsə** – xrisitan dinində ibadət binasıdır. Tuğ kəndinin işğalından (*30.10.1991-ci il*) sonra bu mədəni və dini abidə də dağıntıya məruz qalmışdır. Əvvəllər Alban kilsəsinin yerləşdiyi bu ərazilərdə yaşayan salakətinlilər, ermənilər burada məskunlaşdırıldıqdan sonra oranı tərk edib bir neçə kilometr aşağıda kənd salmışlar…

## ALBAN QƏBİRİSTANLIĞI

Qaradağlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Alban qəbiristanlığı** adlanır. Yerli məlumata və araşdırmalara görə bu ***qəbiristanlıq*** ərazisində ***albanlar*** dəfn olunmuşdur. Coğrafi ad **alban** və **qəbiristanlıq** sözlərindən ibarətdir. Toponim *«albanlara məxsus olan qəbiristanlıq»* mənasındadır.

Tarixi bilgilərə görə, ***albanlar*** 26 tayfadan ibarət (*Strabon və başqaları*) olmuşlar. Onlar Azərbacyan xalqının əsas etnik komponentlərini təşkil edir. Respublikamız ərazisində aparılan arxeoloji qazıntılar zamanı Qarabağ və Şirvan bölgələrində qədim və orta əsrlər dövrlərinə aid **Alban abidələri** aşkarlanmışdır.

Füzuli rayonunun ərazisində də ***Alban qəbiristanlığı*** coğrafi adına rast gəlirik.

Əlavə məlumat üçün bax: **Alban məbədi**.

## ALBAN MƏBƏDİ

Böyük Tağlar kəndi ərazisində qeydə alınmış oroqrafik abidələrdən biri **Alban məbədi** adlanır. XIII əsrə aid olan bu *məbəd* **1241**-ci ildə inşa olunmuşdur. **Alban məbədi** Xocavənd rayonunun qiymətli tarixi-memarlıq abidələrindən biri hesab olunur.

İbadət və dini mərasimlər keçirilməsi üçün nəzərdə tutulan tikiliyə **məbəd** deyilir. Məbədlərin əhəmiyyəti yerinə yetirdiyi dini funksiyalardan, həyata keçirdiyi dini ideyalardan daha genişdir. Milli memarlıq abidəsi hesab olunan ***məbədlər*** ictimai yığıncaq, təntənəli mərasim yeri olmuş və memorial xarakteri daşımışdır. **Məbəd** tikililəri





(*məscid, kilsə, iqamətgahlar, sinaqoqlar*) müxtəlif ölkələrdə memarlığın inkişafına uyğun olaraq tarixən formasını dəyişmiş və milli xüsusiyyət kəsb etmişdir.

Məbədin **Alban** adı alması Qafqaz Albaniyasının qədim əhalisi olan ***albanlarla*** əlaqədardır. Albanların adı ilk dəfə miladdan öncə IV əsr hadisələri (*Makedoniyalı İsgəndərlə Daranın döyüşlərində*) ilə bağlı çəkilmişdir (*II əsr müəllifi Arrian*). Strabonun verdiyi məlumata görə **26** alban tayfası olmuşdur. Qədim müəlliflər albanları formaca ucaboylu, yaraşıqlı, alagözlü, sarışınsaçlı kimi təsvir etmişlər. **Albanlar** Azərbaycan ərazisində formalaşmış Azərbaycan xalqının əsas etnik komponentlərindən biridir. Arxeoloji tədqiqatlar, qazıntılar zamanı Azərbaycan ərazisində çoxlu sayda qədim **Alban abidələri** üzə çıxarılmışdır...

## ALXAN DÜZÜ

Axullu kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Alıxan düzü** adlanır. **Düz** coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyada enişi, yoxuşu, təpəsi, çuxuru olmayan, ümumi fondan çox da kənara çıxmayan hamar relyef səthinə **düz** deyilir. **Düz** (***düzənlik***) geniş mənada platformaya uyğun gələn, səthi nisbətən hamar, yaxın məsafələrlə hündürlük fərqi kiçik olan materik yer qabığının morfostruktur sahəsidir. **Düz** coğrafi termini dar mənada dağarası düzənliyi, okean dibi düzənlik və s. kimi işlədilir.

**Alxan düzü** oroqrafik obyekti **Alxan** və **düz** sözlərindən ibarətdir. **Alxan** – şəxs adıdır. Toponim *«Alxana məxsus olan düzənlik»* mənasındadır.

## ALI TƏPƏSİ

Muğanlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Alı təpəsi** adlanır. Oronim **Alı** və **təpə** sözlərindən, eləcə də mənsubluq ifadə edən **–si** şəkilçisindən ibarətdir. **Alı** şəxs adıdır. Toponimin tərkibindəki **təpə** termini nisbi hündürlüyü **200** metrdən artıq olmayan yüksəklik anlamındadır. Bu termin Azərbaycan dilindən fars dilinə də keçmişdir. Azərbaycan oronimiyasında çöl materialları əsasında qeydə alınan **4000** coğrafi adın tərkibində **təpə** termini iştirak edir. **Alı təpəsi** toponimi *«Alıya məxsus olan təpə»* mənasındadır...

## ALIQULU QIŞLAĞI

Xocavənd rayonunun ərazisində qeydə alınan toponimlərdən biri *Alıqulu qışlağı* adlanır. Yerli camaatın dediklərinə görə, vaxtilə bu ərazilərdə **Alıqulu** adlı varlı bir kişi olub. Həmin bu ərazilər Alıquluya və onun oğlanlarına məxsus idi. Elə bu səbəbdən də obanın yerləşdiyi ərazi (*bəzən bu əraziyə* ***Kəndəlaşlıq*** *da deyilir*) *Alıqulu qışlağı* adlanır. Bu sahənin hər tərəfi *kəndəlaş* bitkisi ilə örtüldüyü üçün camaat buranı **Kəndalaşlıq** da adlandırır.

*Qışlaq* – mal-qaranın otladığı, qışladığı əraziyə deyirlər. **Qışlaqlar** maldarlıq təsərrüfatının meydana çıxması ilə əlaqədar yaranmışdır. Qarabağın ərazisi qoyunçuluğun qədim qışlaqları hesab olunur. Qışlaqlarda soyuqlarla bağlı olaraq mal-qara 7-8 ay qorunub-otarılır. Təxminən 6 min illik tarixi olan qışlaqlardan indi də geniş istifadə olunur...





## ALLIÇAY

Xocavənd rayonu ərazisində qeydə alınan hidronimlərdən biri **Allıçay** adlanır. Quruçayın sağ qolu olan **Allıçay** aşağı axınında **İkah** adlanır.

Uzunluğu 25 km olan bu çayın sahəsi **121** kvadrat kilometrdir. **Allıçay** Böyük Kirs dağından **2280** metr hündürlükdən başlanır. Əsasən yağış suyu ilə qidalanan bu çayın suyundan suvarmada istifadə edilir.

Hidronim iki sözdən – ***Allı*** və ***çay*** sözlərindən ibarətdir. **Çay** öz adını vaxtilə bu ərazidə mövcud olmuş **Allı** adlı yaşayış məntəqəsindən almışdır. Bu tipli toponimlərə Azərbaycanın bir çox ərazilərində də rast gəlirik...

1917-ci ildə Lənkəran qəzasında Alla adlı kənd də qeydə alınmışdır. ...

## AMARAS ÇAYI, AMARAS MONASTIRI, AMARAS ŞƏHƏRİ

Vaxtilə Qafqaz Albaniyasında mövcud olmuş yepiskopluq mərkəzi və *şəhəri* **Amaras** adlanırdı. Onun xarabalığı hazırda Xocavənd rayonu ərazisində, Xonaşen çayının sağ sahilindədir. Ekrən orta əsrlərə aid mənbələrdə *Amarasın* adı IV əsr hadisələri ilə əlaqədar olaraq çəkilir. Aparılan arxeoloji qazıntılar Amarasda hələ antik dövrdən yaşayış olduğunu göstərir. Burada antik dövrə aid yarımqazma evlər, küp qəbirlər qəbiristanı da aşkarlanmışdır. Amarasda IV əsrdə məbəd tikilmiş və burada alban yepiskoplarından *Qriqoris* dəfn olunmuş, snralar bu ərazi ziyarətgaha çevrilmişdir.

IX əsrdə Amarasda böyük *monastır* kompleksi inşa edilmişdir. XIII əsrdə baş verən monqol hücumları

zamanı **Amaras monastırı** dağıntıya məruz qalmışdır. **1858**-ci ildə **Amaras monastır kompleksi** bərpa edilmişdir. Tarixi mənbələr və sənədlərdən aydın olur ki, Amarasda daşişləmə, dulusçuluq, şüşə istehsalı və s. geniş inkişaf etmişdir.



***Amaras monastırı*** - bu qiymətli arxeoloji mədəniyyət abidəsi **1992**-ci ildən erməni əsirliyində zillət çəkir...

**Monastr** sözü yunan dilində «*zahidin hücrəsi*» anlamındadır. Bəzi dinlərdə vahid həyat tərzi qəbul etmiş rahib (*kişi Monastırı*) və rahibə (*qadın Monastırı*) icması **Monastır** adlanır. ***Monastır*** nizamnaməsi özünəməxsus dini əxlaq normalarını, o cümlədən tərkidünyalığı, dua etməyi, nikahsızlığı və s. rəhbər tutur. Ən qədim ***Monastır*** buddizmə aid olub miladdan öncə I minilliyin ortalarında Hindistanda yaranıb. *Xristian monastırları* zahid məskənləri şəklində ilk dəfə III əsrdə Misirdə meydana çıxmış, IV-V əsrlərdə Fələstin və Suriyaya,





sonralar bütün Aralıq dənizi rayonuna, daha sonralar isə Qalliyaya və İrlandiyaya yayılmışdır...

Xocavənd rayonu ərazisindəki ***Amaras monastırı*** *tarixi-mədəniyyət abidəsi* vaxtilə Qafqaz Albaniyası ərazisində mövcud olmuş **Amaras şəhərinin** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Rayon ərazisindən **Amaras çayı** da axır. Qədim Alban şəhəri olan ***Amarasın*** xarabalığı bu çayın sahilindədir. **Amaras** hidronimi **amar** və **as** sözlərindən ibarətdir. Qədim türk dilində **amar** sözü «*çay*» deməkdir; **as** komponenti «*böyük çay qolu*» anlamındadır. **Amaras** hidronimi «*böyük çayın qolu*» mənasındadır.

## ANABAT DÜZÜ

Azərbaycan oronimiyasında mənfi relyef forması bildirən **düz** (**"*düzənlik*"**) coğrafi termininin iştirakı ilə **11.000**-dən çox oronim toplanmışdır. Onlardan biri də Xocavənd rayonunun Tağaser kəndi ərazisində qeydə alınmış **Anabat düzü** (*adı bəzən sənədlərdə **Anabad düzü** kimi də yazılır*) oroqrafik obyektidir. Toponimin mənası ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. **Düz** termini "*düzənlik, düzən, düzəngah, hamar yer*" deməkdir. Bu termini vaxtilə Mahmud Kaşğari (XI əsr) də lüğətində qeydə almışdır...

Toponim yaradıcılığında **abad** sözü topoformant kimi fəal iştirak edir. Amma onun müstəqil şəkildə toponim yaratmaq faktını da inkar etmək olmaz. Farsdilli söz olan **abad** «*yaşayış üçün hər cür şəraiti olan*», «*yaxşı vəziyyətdə olan*», «*gözəl tərtibli*», «*çiçəklənən*» və s. mənalar bildirir. Azərbaycanda **Abat/Abad** komponentli toponimlər yüzlərlədir...

**Anabat düzü** coğrafi adının tərkibindəki **abat/abad** komponentini tarixdən bizə məlum olan **abat** (*avat*) türk tayfası adı ilə də əlaqələndirmək mümkündür.

**Abad** tərkibli onomastik vahidlərə Türkiyə, Türkmənistan, Tacikistan, Qırğızıstan, Ermənistan, İran, Əfqanıstan, Hindistan, Pakistan, Rusiya və digər ölkələrin ərazilərində də rast gəlirik. Asiyada çox geniş yayılmış **abad** məhsuldar topoformantı xüsusilə türk xalqlarının xüsusi ad yaradıcılığında yaxından iştirak etmişdir...

Əlavə məlumat üçün bax: **Müşkabad kəndi**.

## ARAKÜL KƏNDİ
## (Bax: Xətai kəndi)

## ARAN

Azərbaycanda Xocavənd rayonunun da daxil olduğu yayı isti, qışı mülayim iqlimli ovalıq və düzənlik əraziləri (Kür – Araz, Samur – Dəvəçi, Lənkəran ovalığı, Gəncə – Qazax, Arazboyu düzənliklər və s.) ***Aran*** adlanır. Azərbaycanın əsas pambıqçılıq rayonları və qışlaqları Arandadır. Azərbaycan dilində və onun dialektlərində ***aran*** sözü *«düzən yer»*, *«qışlaq yeri»*, *«isti yer»* və s. mənalarındadır. Qədim türk dillərində də *aran* termini *«isti yer»* deməkdir.

Tədqiqatçılar Qafqaz Albaniyasının başqa bir adı olan *Arran* toponimini də **aran** sözü ilə əlaqələndirirlər. Bu termin yeganə **Boz-Aran** (*Goranboy rayonu*) coğrafi adında əks olunmuşdur (bu oronimin tərkibindəki ***boz*** komponenti ərazinin torpağının ***boz*** rəngdə olmasını bildirir). **Aran** termini ilə bağlı Daşkəsən inzibati rayonunun ərazisində ***Aran görünən dağ*** və ***Aran görünən təpə*** (*həmin dağdan və təpədən baxanda **aranı**-Kür-Araz ovalığını görmək mümkündür*) kimi oronimlər də qeydə alınmışdır.





Erkən orta əsrlərdə Şimali Azərbaycanın adı ***Aran*** olub. İlk dəfə onun adı məşhur yunan alimi Klavdi Ptolomey (*87-165-ci il*) tərəfindən *«Coğrafi təlimnamə»* əsərində ***Tosaren*** (qədim türk dillərindəki **tus** - *«düz»* və **aran** *«qışlaq yeri»*, *«isti yer»* sözlərindən) kimi qeyd olunub. ***Aran*** adı qədim Suriya mənbələrində ***Aran, Arran***, ərəb mənbələrində *əl-Ran*, gürcü mənbələrində *Rani* kimi çəkilir. Qədim Azərbaycan dilində **aran** sözü *«isti, düzən yer»*, *«qışlaq yeri»* mənasındadır. İndi də Azərbaycan dilində və bəzi türk dillərində **aran** sözü məhz bu mənalarda işlədilir.

Qədim mənbələrdə *Albaniya ölkəsi* həm də **Aran, Arran** adlanır. **Aran** əvvəl Kür-Araz ovalığırnın adı olmuş, sonralar isə bəzi qonşu xalqlar Albaniyanı bütövlükdə **Aran** adlandırmışlar. VI əsrin ortalarına aid bir Suriya mənbəyində də ***Aran*** adına rast gəlinir...

Türkiyə ərazisinin Diqor mahalında, Araz çayı ilə Arpaçay arasındakı ovalıq sahə orta əsrlər dönəmində **Aran-Qarabağ** (*«Qarabağ tayfasının qışlaq yeri»*) adlanmışdır. Həmin yerin adını ***Aren*** şəklində VIII-IX əsrlərlə əlaqədar hadisələrdə tarixçi Katolikos İoohannes çəkmişdir. Orta əsrlərdə Türkiyədəki ***Qarabağ*** Ağcaqala sancağının mərkəzi idi...

Bəzi araşdırıcılara görə, *aran* toponimi mənşəcə qıpcaq tayfalarından olan türkdilli **aran/oran/ uran** etnoniminin təhrif olunmuş variantıdır. I əsr müəllifi Plini Şimali Qafqazda yaşayan **aran/oran** tayfaları haqqında qısa da olsa məlumat vermişdir. XIX əsrdə Gürcüstan ərazisində yaşayan *Göyüran, Ağuran,* Dağıstanda *Aran-*

*bulaq, Arankutan, Muq-Aran* (hazırda Məhərrəmkənd) adlı kəndlər qeydə alınmışdır.

Ağcabədi, Lerik və Tovuz rayonlarında **Aran** adlı kənd, Yevlax rayonunda ***Aran*** adlı qəsəbə, Tovuz rayonunda ***Aran*** adlı dağ, Qəbələ rayonunda *Aran silsiləsi* adlanan dağ silsiləsi vardır. Biləsuvar rayonunda ***Aranlı*** adlı kənd də var...

## ARGÜNƏŞ DAĞI

Xocavənd rayonu ərazisində, Xırmancıq kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Argünəş (*Ərgünəş*) dağı** adlanır. Dağın hündürlüyü **1468** metrdir.

**Argünəş** oronimi **ar** və **günəş** sözlərindən düzəlmişdir. Toponimik ədəbiyyatlarda **Ərgünəş** şəklində təqdim olunan bu oronim belə izah olunu: «*yaxınlığındakı dağlardan hündür olmasına və günəş şüası ilk dəfə həmin dağın zirvəsinə düşməsinə görə **dağ** belə ad almışdır*».

**Ar** sözü «*gözətçi, keşikçi*», «*quru çay dərəsi*» mənaları ilə yanaşı buryat, yakut və monqol dillərində «*qərb, arxa, tərəf, şimal, dağın kölgə düşən hissəsi, quzey*» mənalarını da ifadə edir. Onu da qeyd etmək yerinə düşər ki, Quba rayonu ərazisindəki hal-hazırda ***Dolanlar*** adlanan dağın da əvvəlki adı **Argünəş** olmuşdur. Bu oronimin coğrafi mövqeyi ikinci izahla üst-üstə düşür. ***Dolanlar*** adına gəlincə **dolan** qədim fars və tacik dillərində «*dağ keçidi*», monqol dilində (***dalın***), «*arxa tərəf*», «*yüksəklik*», «*yol*» deməkdir. Bu prizmadan izah etməli olsaq, **Argünəş** və *Dolanlar* oronimlərini sinonim hesab edə bilərik.

Qırğızıstanda *Dolon*, Tacikistanda *Dolona*, *Dolanabulak* yer adları bu oronimin türk dilləri üçün yad olmadığını sübut edir...

Əlavə məlumat üçün bax: **Ərgünəş dağı**.





## ARXAC DƏRƏSİ

Xocavənd rayonu ərazisində qeydə alınan oronimlərdən biri **Arxac dərəsi** adlanır. **Arxac dərəsi** coğrafi adı ***arxac, dərə*** sözlərindən və mənsubluq ifadə edən **-si** şəkilçisindən ibarətdir.

**Arxac** sözü türk dillərində *"dağın arxası", "dağın, təpənin gün düşməyən hissəsi, quzeyi"* mənasında işlədilir. Otlaq şəraitində həm gecələr, həm də hava isti olanda gündüzlər qoyun və qaramalın dincəlməsi üçün düzəldilmiş yerə **arxac** deyirlər. Arxacları baharın əvvəllərində və payızda külək tutmayan, yayda isə adətən bir qədər hündür yerdə düzəldirlər. Müəyyən zaman keçəndən sonra onların yeri dəyişdirilir.

**Dərə** coğrafi termini mənfi relyef forması ifadə edir. Oronimiyada relyefin dar və çökək forması **dərə** sözü ilə ifadə olunur. Azərbaycanda çöl materialları içərisində **30.000**-dən çox dərə adı vardır.

Qubadlı və Füzuli rayonlarında **Arxac dərəsi**, **Qara-arxac dərəsi**, Gədəbəy rayonu ərazisində **Qara Arxac**, Oğuz rayonunda **Qaynararxac** və s. bu kimi oronimlər də qeydə alınmışdır. XIX əsrdə İrəvan əyalətinin Şərur-Dərələyəz qəzasında **Arxactəpə** toponimləri də öz adlarında **arxac** termininin adını əks etdirir.

## ARPADÜZÜ KƏNDİ

**Arpadüzü kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Bir sıra tarixi sənəd və materiallara görə, azərbaycanlıların yaşadıqları **Arpadüzü** yaşayış məntəqəsinə XIX əsrdə müxtəlif ərazilərdən erməni nəsilləri köçürülmüşdür. Sovet Hakimiyyəti illərində **Arpadüzü** oykoniminin adı **Kolxozaşen** kimi *"erməniləşərək"* rəsmiləşdirilmişdir. Göründüyü kimi, **Kolxozaşen (Kolxozkənd)** adı tərkib etibarı ilə mənşəcə erməni sözü olmayıb, sadəcə o dilə tərcümədir. 1992-ci ildə kəndin əvvəlki **Arpadüzü** adı özünə qaytarılmışdır. Yaşayış məntəqəsi öz adını ərazidəki *«arpa əkilən düz, çöl»* mənalı eyniadlı sahədən almışdır. Mahmud Kaşğari (XI əsr) lüğətində **düz** sözünü qeydə almışdır...

Tarixdən məlumdur ki, Elxani tayfasının da ***Arpa*** adlı tirəsi olmuşdur. Bu etnotoponimin adı ilə əlaqədar vaxtilə Qərbi Azərbaycanda (*Ermənistanda*), İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (*Qukasyan*) rayonunda və keçmiş Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (*Yegeqnadror*) rayonunda **Arpa** adlı kənd var idi...

Əlavə məlumat üçün bax; **Arpagədik kəndi;**

## ARPAGƏDİK KƏNDİ

**Arpagədik kəndi** Qarabağ silsiləsinin yamacında, Xocavənd rayonunda, Çaylaqqala inzibati ərazi vahidində, rayon mərkəzindən 80 km cənub-qərbdə, Laçın rayonu ilə həmsərhəd ərazidə yerləşir. Kəndin yaxınlığında maksimal hündürlüyü 2095 metr olan eyniadlı dağ da var. Kəndin əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq və bostançılıqla məşğul olur.

Toponim **arpa** və **gədik** sözlərindən ibarətdir. **Gədik** coğrafi termini *"dağ belində batıq"*, *"dağ belində enli yarıq, uçuq, batıq yer"* anlamı ifadə edir. **Arpagədik** toponimi *"arpa əkilən gədik"* mənasındadır. İlk dəfə adı **Arpa** formasında XII əsrə aid mənbədə çəkilmişdir. **Arpagədik** yaşayış məntəqəsi öz adını salındığı yerin adından almışdır. Bu tipli toponimlərə Azərbaycanın müxtəlif bölgələrində rast gəlmək olar. **Arpagədik** coğrafi adı əkinçiliklə bağlı formalaşmış toponimlərdəndir.

**Arpagədik** oykonimi **arpa** (*etnonim*) və **gədik** (*«dağın yastı yeri», «dağarası yol»*) sözlərindən düzəlib. Yaşayış məntəqəsi öz adını yaxınlığındakı yüksəkliyin adından almışdır.

Bəzi mənbələrdə Qarabağ ərazilərində **Arpadöşü** oroqrafik obyekti də qeydə alınmışdır...

**Arpagədik** oykonimindəki **arpa** sözü, bəzi araşdırıcılara görə ***ər*** və ***pi*** komponentlərindən formalaşıb. Zaman ötdükcə **ərpi** qalınlaşaraq **arpa** sözünə çevrilib. Bu sözün mənası *"müqəddəs adam"* deməkdir. **Pir** sözünün özü də görünür **piər** formasında olmuş, sonralar **pir** şəklini almışdır...

## ARSAX

İndiki Xocavənd rayonunun ərazisinin bir hissəsini əhatə edən Qafqaz Albaniyasının vilayətlərindən biri **Arsax** adlanırdı. M.Kalankatlının və VII əsr coğrafiyaşünaslarının məlumatlarına görə erkən orta əsrlər dövründə **Arsaz** əslində **Ərsax** olmalıdır. O, **12** əyalətə bölünürdü. Arsaxda albanlar yaşayırdılar.

**Arsax** I-VI əsrlərdə Albaniya Arşakilərinin, VI-VIII əsrlərdə isə Mehranilərin hakimiyyəti altında olub. IV əsrədək **Arsax** əhalisi qədim bütpərəstlik etiqadlarını

saxlamışdır. Albaniyada dövlət dininə çevrilən xristianlıq Arsaxda da yayılmağa başladı. Bu prosesdə III Vaçaqanın mühüm xidməti olmuşdur. Bir neçə yepiskopluğu olan Arsaxın Albaniyada siyasi və dini cəhətdən böyük əhəmiyyəti vardı. Aquen (488-ci il) və Bərdə (705-ci il) məclislərində Arsax ruhaniləri və zadəganları da iştirak etmişlər. Hunların və xəzərlərin yanına göndərilən səfirliklər Arsaxın ruhani nümayəndələrindən təşkil olunurdu. Alban patriarx-katolikoslarının əksəriyyəti *Arsax* ruhanilərindən seçilirdi. III-IV əsrlərdə Arsaxda feodal münasibətlərinin inkişaf etməsi ilə yanaşı quldarlıq qalıqları da qalmaqda davam edirdi.

Tarixi mənbələrdə **Arsax** «*möhkəmləndirilmiş vilayət*», «*alınmaz ölkə*» kimi qeyd olunur. VIII əsrdə ərəblər Mehranilərin hakimiyyətinə son qoyduqdan sonra **Arsax** Əməvilər xilafətinin tərkibinə daxil edildi. IX əsrdə Qriqori Hamama (Hamam) tərkibinə Arsax da daxil olmaqla Alban çarlığını bərpa etdi. Q.Hamamanın ölümündən sonra **Arsax** Uti vilayəti ilə birlikdə onun oğlu Sahak Sevadın hakimiyyəti altına keçdi.

XII-XIII əsrlərdə Arsaxda «*alban çarı*» adlanan Həsən Calalın ***Xaçın knyazlığı*** yüksəlməyə başladı. Monqol hücumları zamanı Xaçın knyazlığına son qoyuldu. Ərəb xilafətinin və erməni qriqorian kilsəsinin təzyiqi nəticəsində Arsaxın əhalisi tədricən qriqorianlaşdı, erməni dilini qəbul etdi və erməniləşdi. Bu proses XIII əsrdə daha da gücləndi.

Arsaxın maddi və mədəniyyət abidələrindən üzərində dini motivlər əvəzinə məişət səhnələri təsvir edilmiş nadir xaçkarları (başdaşı), Qanzasar məbədini, Dizapaytdakı Katarovəng, Dadivəng ansamblını və s. göstərmək olar.

**Arsax** (***Arsak, Arsaq, Ərsaq***) toponimi **ər** və **saq** sözlərindən ibarət olub, «*saq kişisi*», «*saq igidi*» mənasındadır.





**Arsax** (***Arsak, Artsak, Ərsak, Ərsaq***) sözü Azərbaycan mənşəlidir. Bu söz Azərbaycan xalqının soykökündə iştirak edən bir qəbilənin adıdır. Tarixdən məlumdur ki, Azərbacyan xalqının soykökündə iştirak edən **saq** qəbilələri **2700** il bundan əvvəl Respubilkamız ərazisində, o cümlədən Qarabağ torpaqlarında da yaşamışlar.

Bəzi tədqiqatçılara görə, **Artsak** sözünün **art** komponenti «*od*» məzmunu daşıyır...

(Əlavə məlumat üçün bax: **Müqəddəs Qarabağım** fəsli)

## AŞAĞI BULAQ

Tuğ kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Aşağı bulaq** adlanır. Kəndin ərazisində *Yuxarı bulaq* və *Orta bulaq* hidronimləri olduğu üçün onlardan *aşağıda* yerləşən *bulaq* da yerli əhali tərəfindən **Aşağı bulaq** adlandırılmışdır. Bulağın buz kimi soyuq və göz yaşı kimi dumduru suyu var. Bu tipli toponimlərə Azərbaycanın bir sıra rayonlarının ərazilərində də rast gələ bilərik...

## AŞAĞI QARANLIQ

Xocavənd rayonunun 1923-cü ilədək adı **Aşağı Qaranlıq** olmuşdur. Oykonimin birinci komponenti olan **Aşağı** sözü yaşayış məntəqəsinin coğrafi mövqeyi ilə bağlıdır. Bu yaşayış məntəqəsi adını ərazidəki **Qaranlıq** dağından almışdır. Ərazidə **Aşağı Qaranlıq çayı** da vardır.

Vaxtilə Qərbi Azərbaycanda *(Ermənistanda)* Martuni rayonunun adı da 1946-cı ilədək ***Aşağı Qaranlıq*** olmuşdur.

Əlavə məlumat üçün bax: **Xocavənd qəsəbəsi**.

## AŞAN KƏNDİ

**Aşan kəndi** Xocavənd rayonunda, **Aşan** inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, Xonaşen çayının sol sahilindən bir qədər aralıda yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, bağçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Yaşayış məntəqəsi öz adını həmin ərazidəki **Aşandağ** adlanan dağın adından almışdır...

## AŞANDAĞ

Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Aşandağ** adlanır. **Aşandağ** oronimi **aşan** və **dağ** sözlərinin birləşməsindən biarət olub, *«dağ aşırımı»*, *«keçidi olan dağ»* deməkdir. **Aşan** komponenti *«aşırım»*, *«dağ keçidi mənasındadır»*.

## AŞIQLI QOŞA GÜNBƏZİ

Rayonun memarlıq, mədəniyyət və incəsənət abidələrindən biri **Aşıqlı Qoşa günbəzi** adlanır. Toponim **aşıq, qoşa** və **günbəz** sözlərindən ibarətdir. Bu ***günbəz*** Xocavənd kəndi yaxınlığındadır. Oroqrafik obyektin adındakı **qoşa** sözü orada *cüt* sayda günbəzin olması ilə əlaqədardır. **Aşıqlı Qoşa günbəzi** erməni işğalından (**19.11.1991**-ci il) sonra dağıntıya məruz qalmışdır...





## ATAQUT KƏNDİ

**Ataqut** (***Atayurd***) **kəndi** Qarabağ silsiləsinin ətəyində, Tuğ inzibati ərazi vahidində, Xocavənd rayonunda, rayon mərkəzindən 55 km cənub-qərbdə, Ataqutçay sahilində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, bağçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

**Ataqut** toponiminin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Oykonim öz adını ərazidəki eyniadlı çaydan almışdır. Oykonimin elmi izahı hələlik öz dəqiq təsdiqini tapmamışdır. Bəzi sənədlərdəyaşayış məntəqisinin adı **Ataqut** kimi də yazılıb...

**Ataqut** sözü ***ata*** və ***qut*** hissələrindən ibarətdir. Azərbaycanda **qut** komponenti ilə bağlı bir sıra yaşayış məntəqələri vardır: **Ataqut, Siyaqut, Qoçaqut** (Qarabağ), **Keşqutan** (Naxçıvan) və s.

Türk dillərində **qut** sözünün "*ruh*", "*can*", "*həyat*", "*xoşbəxtlik*", "*səadət*", "*uğur*", "*bərəkət*" və s. anlamları vardır. Görkəmli alim M.Seyidov əski türk inanclarından danışarkən belə bir fikri də vurğulayır: "*Türklərə görə, göydən uşaq ruhu – **qut** enib, gələcək atanın bədəninə daxil olur*". Deməli, qədimdən "***qut***"un ucadan, göydən, Tanrıdan gəlməsi haqqında türk inancları mövcud imiş... **Ataqut** totemi – "*başqut*", "*insanı, heyvanı qoruyan ata*", "*göydən, günəşdən gələn **qut***" anlamı ifadə edir. Buradan aydın olur ki, ***Ataqut*** oykonimi yaşayış məntəqəsinin həm islamdan, həm də xristianlıqdan əvvəlki adı olmuşdur.

Toponimin tərkibindəki **qut** sözünün *«öymə»*, *«istək»*, *«xahiş»*, *«yalvarmaq»* mənaları da var. Türk dillərinin çox qədim çağlarına gedib çıxan **qut** sözünün müxtəlif türk dillərində *«səadət»* (cığatay, qırğız, uyğur, qazax, teleut, çuvaş, saxa), *«xoşbəxtlik»*, *«bərəkət»*, *«həyat*

*qüvvəsi*», «*ruh*», «*uğurlu*», «*mübarək*» (türk, qədim türk, qaqauz, qırğız dillərində) anlamları da vardır. Saxa nağıllarına müraciət etsək görərik ki, orada şamanizmlə bağlı ifadələr də öz əksini tapıb: *ağa kut* («ata ruh»), *şur kut* («dirilik ruhu») və s. Burada **kut (qut)** termini «*ruh*», «*can*» mənası ifadə edir.

**Qut (kut)** sözünün derivatları da maraqlıdır: **kut+at (maq)** – «*xoşbəxt etmək*». Azərbacyan dilində işlənən «*Matım-**qutum** qurudu*», «***Qutlu** olsun*», «*Ürəkdə **qut** olmaq*» ifadəsi ayrı-ayrılıqda dilimizin mövqeyi, frazeologiya rolu və Orxon-Yenisey abidələrinin dilində işlənməsi **qut** sözünün əsl türk sözü olmasına bir əsasdır. Türk dillərində **qut** («*ruh*») sözü insan və heyvan qoruyan totem mənasında işlənir.

Tədqiqatçı Ə.Cavadov **qut** sözünün «*quş*» anlamlı izahını qəbul edir.

Tarixdən o da məlumdur ki, miladdan çox əvvəllər Azərbaycan ərazilərində yaşamış ***kuti*** adlı türkdilli tayfalar da var idi. Çox guman ki, elə bu tayfa adı da **kut / qut** söz kökü əsasında formalaşaraq **kuti** şəklinə düşmüşdür. ***Qut/kut*** kökü *yakut, telenqut* və s. türk tayfalarının adında da var...

## ATAYURD DƏRƏSİ

Tuğ kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Atayurd dərəsi** adlanır. Oronim **ata, yurd, dərə** sözlərindən və **–si** mənsubiyyət ifadə edən şəkilçidən ibarətdir. **Dərə** coğrafi termini mənfi relyef forması bildirir. Toponim «*ata yurdu olan dərə*» mənasındadır.





## AVDUR KƏNDİ

Xocavənd rayonunda, rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, dağətəyi meşəlik ərazisində qeydə alınan oykonimlərdən biri **Avdur kəndi** adlanır. Axar– baxarlı bir yerdə qərar tutan bu kəndin çox bərəkətli torpağı vardır. Kənd əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

**Avdur** yaşayış məntəqəsi bir sıra sənəd və materiallarda **Avdur Takır** kimi qeydə alınıb. Yerli məlumatlara görə, **Avdur kəndi** Buğuz qalasının ərazisində salınıb. Yaşayış məntəqəsinin ərazisində bu qalanın xarabalıqları qalır. Qala yaxınlığındakı köhnə müsəlman qəbiristanlıqlarının olması bu yerlərdə hələ çox-çox əvvəllər də müsəlman əhalinin məskunlaşmasından xəbər verir. Görünür kənd tarixi-siyasi şəraitlə əlaqədar olaraq bir neçə dəfə öz yerini dəyişmişdir. Axırıncı dəfə isə kənd XVIII əsrdə əvvəlki yerindən 5 kilometr aşağıda salınmışdır.

**Avdur** (***Abdur***) formasında tərjümə edilən bu yerin adı **Bəylik bulağı** olmuşdur. **Avdur** toponiminin elmi izahı araşdırıcılar tərəfindən tam elmi şəkildə hələlik aydınlaşdırılmayıb. Bir qisim tədqiqatçılar bu toponimin izahını ***ab*** və ***duru*** komponentləri ilə əlaqələndirib yozurlar. **Ab (av)** farsca "*su*" deməkdir. Bu yozumla **avdur (abdur)** toponimi "*duru, təmiz su*" anlamı ifadə edir. Toponimi qədim türk dillərində "*təpəlik yer*", "*kiçik təpə*", "*yüksəklik*", "*yamaclı yer*", "*sıldırım*", "*yarğan*" mənalarında işlədilmiş **adur** uyğur və **qirğız** dilində sözü ilə də əlaqələndirənlər vardır. Quba rayonunda **Adur** adlı kənd də var. Mənbələrə görə ilin bütün fəsillərində çılpaq, yalnız yazda seyrək otlar bitən təpəliklərə ***adur*** deyilir.

Oykonimi **avur** variantı ilə də yozanlar var; **ov** sözünün qədim *av* variantı da var; *ur* komponentinin qədim türk dillərində "*bol*", " *çox*" anlamı var.

Toponim bu yozumda "*ovlaq*", "*ov çox olan yer*" mənası daşıyır...

**Avdur Takur** toponiminə gəlincə, ikinci komponent olan **Takur** türk dillərində «*uğultu*», «*gurultu*» mənalarını ifadə edir.

Moldovanın ərazisində, Linqa çayının sağ, Yalpuq çayının sol qolu **Avdarma** (*Avdırma*) adlanır. Çayın kənarında qaqauzlar yaşayan eyniadlı yaşayış məntəqəsi də yerləşir. Qaqauz toponimikasında bu hidronim qıpçaq dilinin elementi kimi «*bulanıq, çevrilmiş, qarışmış*» mənalarında izah olunur. Xocavənd rayonunun ərazisindəki Qaranlıq çayının adı da bu mənanı əks etdirir...

## AVŞAR TAĞI

Xocavənd qəsəbəsinin **Avşar tağı** deyilən ərazisində əsasən azərbaycanlılar yaşayırdılar. Bu əhalinin böyük bir hissəsini **avşar** (*əfşar*) tayfasından olan sakinlər təşkil etdiyi üçün toponim belə ad almışdır.

Məlumdur ki, Azərbaycanlıların etnogenezində iştirak etmiş türk tayfalarından biri də *əfşarlar*dır. **Əfşarlar** əsasən, İranda (Cənubi Azəraycanda), Türkiyədə, Əfqanıstanda (Kabil ətrafında) və Azərbaycanda yaşayırlar. Onların hazırda dünyada ümumi sayları təqribən 10 milyondan çoxdur. ***Əfşarlar*** əsas etibarı ilə maldarlıq və əkinilikIə məşğuldurlar. Dindardırlar, müsəlmandırlar.

IX əsrədək Dəşti Qıpcaqda (XI-XV əsrlərdə Sır-Dəryanın mənsəbinədək uzanan çöllərin ərəb və fars mənbələrində adı) yaşayan **əfşarlar** sonralar Səlçuqların





tərkibində Xorasana, Azərbaycana və Kiçik Asiyaya gəlmişdir. Azərbaycanın və İranın siyasi həyatında mühüm rol oynamış **əfşarlar** qızılbaş tayfa birliyinin tərkibində Səfəvilər dövlətinin yaranmasında iştirak etmişlər. Səfəvilər dövründə qızılbaşların (xüsusi mühafizə dəstələrinin başçıları) çoxu əfşar əmirlərindən təyin oluurdu. 1727-ci ildə İrəvan əyalətinin Karni nahiyəsində *Afşar-Kələvan* adlı kənd olub. **Avşar** adlı kənd Vedibasar və Şirakel mahalarında da mövcud olub...

1727-ci ilə aid olan «Gəncə – Qarabağ əyalətinin müfəssəl dəfəri» adlı tarixi sənəddə *əfşarılar* Bərdə livasının Bayad nahiyəsinə tabe olan camaat kimi göstərilib. **Avşar** kəndinin *kalvanəcəfqulular, günəşli, yetimlər, araxlılar, mollalar, rəfilər, əmirgünəli, kəlbəcəfərlilər, qaralar, cəfərlilər, əmənqulular* və digər tayfa və tirələri var. Bu yaşayış məntəqəsi **əfşar** tayfasının adı ilə əlaqədar belə adlanmışdır.

Səfəvilər dövlətinin süqutundan sonra hakimiyyətə keçmiş Nadir şah (1736-1747-ci illər) əfşarlardan idi. Nadir şahın köçürmə və işğalçılıq siyasəti nəticəsində əfşarların xeyli hissəsi Əfqanıstan və Hindistana köçürüldü.

Xuzistan, Kuhgiluyə, Kazerun, Urmiya qruplarına bölünən *əfşarlar* əsasən, Urmiya, Səlmas, Qəzvin, Təbriz, Sultaniyyə, Qum, Zəncan və Kaşanda yaşayırdılar. ***Əfşarlar*** hazırda *Kirklu, Cəlayir, İnanlu, Ərəslu, Kosa Əhmədli, Alplu, İmirlu* və digər qollara bölünürlər. Əfqanıstanda yaşayan əfşarların dilini tədqiq edən məşhur macar alimi L.Ligeti onu Azərbaycan dilinin dialekti hesab edir...

F.Rəşidəddin («*Cəmi-ət-təvarix*»), Yazıçıoğlu Əli («*Səlcuqnamə*») və Əbülqazi Bahadır xan Xivəliyə («*Şəcərei-tərakəmə*») görə **Avşar** adının anlamı «*işlərini cəld görən və ova həvəsli*»dir.K.Vamberi bu adı əsərinin bir yerində «*toplayıcı*», digər yerində «*əfsər, zabit*» kimi

açıqlayır. K.Nemət isə *Avşar* adının «*itaətli*» mənasında olduğunu yazır.

Bu adın **Avşar** adlı Türk-Azərbaycan mənşəli etnonimdən törəməsi şübhə doğurmur. **Avşarlar** Azərbaycan xalqı və dilinin formalaşmasında əsas rol oynayan və Azərbaycan ərazisində onlarca eyni adlı toponimlərin yaranmasında fəal iştirak edən etnos olmuşlar. Türkdilli xalqların abidələrində bu tayfaların adı dönə-dönə çəkilir.

Məşhur türkoloq M.Kaşğari məlum «Divani-lüğəti-türk» əsərində **22** oğuz tayfalarından biri kimi *Əfşar//Avşar* tayfasının adını da qeyd etmişdir.

F.Rəşidəddin oğuzların boyları, damğası, geneologiyasını daha dəqiq və stabil təsnif etmişdir. Rəşidəddində oğuzların boyları Boz-ok və Üç-ok deyə iki qrupa ayrılır. *Avşar*, «çevik və vəhşi heyvan ovuna həvəsli» (F.Rəşidəddin, Oğuznamə, Bakı, 1987, səh.65). **Avşar bölüyü** Bozok qrupuna mənsub olub Ulduz xanın oğlu kimi təsvir olunmuşdur.

Yazıçıoğlu Əli bəy, Əbülqazi Bahadır xan Xivəli də oğuz tayfalarını **24** boya bölmüş, onların sırasında **Avşar** tayfasının da adını qeyd etmişlər. K.Kaşğaridən fərqli olaraq Rəşidəddin və Əbülqazi xan Xivəlidə bu söz «**avşar**» formasında işlənmişdir.

Bəzi tarixçilər qeyd edirlər ki, türk tayfaları olan qacar və **avşarlar** monqal istilaçıları ilə birlikdə Mərkəzi Asiyadan gəlmişlər. Azərbaycanda bu tayfanın yerləşməsi isə Əmir Teymur və Miranşah Mirzənin gəlişi ilə bağlıdır.

*Avşar* tayfalarının İranda geniş ərazidə yayıldığını V.İ.Savina da qeyd edir: «Avşarların İranın türk əhalisinin arasında hazırkı dönəmdə böyük qrupları vardır. Səfəvilərə qədər onlar Azərbaycanda (Cağatu çayından şərqdə) yaşayırdılar, sonra demək olar ki, hər tərəfə yayıldılar. İndi onlara Azərbaycandan kənarda da rast gəlmək mümkündür.Məlumdur ki, **avşar** tayfasından





1736-1747-ci illərdə İranda hakimiyyətdə olmuş Nadir şah da çıxmışdır. *Avşar* etnonimi İran toponimiyasında çox yayılmışdır: **Əfşar, Əfşarcıq** (Azərbaycanda), **Əfşaran, Təpəəfşar** (Kermanşahda), **Əfşarlı, Qışlaqəfşar** (Zəncanda), **Əfşarməhəmməd, Hüseynabadəfşar, Ərəbabadəfşar, Cərməəfşar, Cülgəəfşar, Siyahəfşar** (Mərkəzi İranda), **Qavəfşar** (Yəzddə), **Çəmənəfşar** (Kermanda)» (Bax: Onamastika Vostoka. Moskva, 1980, V.İ.Savina. Etnonimı i toponimı İrana; səh. 150, rusca).

**Avşar** etnoniminin paralellərinə Ermənistanın Ararat vadisində rast gəlirik. Belə bir nəticəyə gəlirik ki, türkdilli ***avşar//afşar*** adlı tayfa Orta Asiya, İran (Cənubi Azərbaycanda) və ümumən Qafqaz ərazisində geniş yayılmış, yayıldığı ərazinin toponimiyasında izini qoruyub saxlamışdır.

Təbiidir ki, bu etnonim yerləşdiyi ərazidə bəzi təsirin nəticəsində, eyni zamanda dilimizin monoformoloci qanunları, zonanın dialekt xüsusiyyətləri çərçivəsində müəyyən dəyişikliyə uğramışdır. **Afşar// Avşar//Əfşar** və s. variantları olan bu sözün özəyini müxtəlif formada izah edirlər. *Avşar eli* hamılıqla Qızılbaş tayfa ittifaqına qoşulmuşdur. Ünlü türkoloq Faruq Sümər Avşar elinin qızılbaşları təşkil etməsi haqqında yazır: «Səfəvi dövlətini quran ünsür tamamilə türklərdən ibarətdir. Bu ünsürün böyük əksəriyyətini də anadolulu köçəri və kəndli türklər meydana gətirirdi. Yuxarıda deyildiyi kimi, Şah İsmayıl Ərzincan yaxınlığında Anadolu türklərini başına yığaraq, buradan Azərbaycana yürüyərək öz dövlətini qurmuşdur. Bu halət Səfəvi dövlətinin başlıca dayağı olan boy və obaların yurdlarının bilinməsilə daha düzgün anlaşılmaqdadır. Qızılbaş ulusunu təşkil edən birinci dərəcəli oymaqlar bunlardır: ***ustacalı-ustahacılı*** (Səfəvi dövründə **ustaclı**), *rumlu, təkəlü, zülqədər, şamlı, əfşar, qacar*» (Bax: F.Sümər, Oğuzlar, Bakı, 1992, səh. 163).

***Avşarlar*** tariximizdə ən davamlı rol oynamış böyük bir boydur. Bu baxımdan heç bir oğuz boyu onunla müqayisə edilə bilməz. Burada **avşarlar** haqqındakı məlumatların xülasəsini vermək yerinə düşərdi:

1. F.Rəşidəddin «Türklərin tarixi» fəslində avşarların hökmdar yetirən **5** boydan biri olduğu yazılır. Buradan onların oğuzların islamiyyətdən əvvəlki tarixlərində də mühüm rollar oynamış boylardan biri olduğu nəticəsi çıxır.

2. Səlcuqlar dövründə öz fəaliyyətləri ilə qaynaqlarda iz buraxmış **3-4** boy var ki, onlardan biri də avşarlardır. Göründüyü kimi, **əfşarlar** XII əsrin ikinci yarısında Xuzistanda və ona qonşu yerlərdə 40 ildən artıq sürən bir bəylik qurmuşlar.

3. ***Avşarlar*** XVI əsrdə kayı boyundan sonra ikinci olmaq üzrə Anadoluda ən çox yer adına sahib boydur. Bu, onların Anadolunun fəth edilməsi və məskunlaşdırılmasında ən mühüm rol oynamış boylardan biri olduğunu göstərir.

4. Yazıçıoğlu Əliyə görə, Qaraman oğulları avşarlara mənsubdur. Bu da çox mümkündür...

5.***Avşarlar*** oynadıqları böyük tarixi rola baxmayaraq, XIV əsrdə Hələb bölgəsindəki qələbəlik türkman icmasını meydana gətirən üç boydan biri idi. XIV əsrdən son dövrlərədək Anadoluda və İranda fəaliyyət göstərən tayfalardan biri də əfşarlardır. Bu əfşarlar XIV əsrdə Zülqədərli bəyliyinin qurulmasında (imanlu avşarı), Sisin (Kozan) fəthində və məskunlaşdırılmasında iştirak etmişlər.

6. XV əsrdə *avşarlar* ağqoyunluların fəaliyyətində də iştirak etmişlər. Bunun nəticəsində onlardan bir qismi İrana getmişdir. Səfəvi dövləti qurulduqda isə Anadoludan İrana yeni avşar obaları köçdü, beləliklə, İranda qüvvətli bir ***avşar varlığı*** meydana çıxdı. Bu əfşarlara mənsub olan Nadir böyük uğurlar qazanaraq Səfəvi hakimiyyətini öz hakimiyyəti ilə əvəz etdi. Avşarlar öz siyasi hakimiyyətlərini itirdikdən sonra da varlıqlarını davam etdirdilər. Bu gün İrandakı qələbəlik türk ünsürünün mühüm bir qismi avşarların törəmələridir.





7. Anadoludakı avşarlara gəlincə, onlardan bəzi obalar hələ XVI əsrdən etibarən burada yerləşməyə başlamışdır. Onların böyük hissəsi XIX əsrin ikinci yarısına qədər köçəri olmuş, sonra əsasən Kayserinin Pınarbaşı, Sarız və Tomarza qəzalarında yerləşmişlər (Bax: F. Sümer, Oğuzlar, Bakı, Yazıçı,1992).

8.İranda Fars əyalətində (ostanında) yaşam sürən Qaşqay elinin tərkibində avşarların bir neçə tayfa – tirəsi var. Qaşqayların farsimədən, əmələ və böyük kəşkuli tayfaları arasındakı bulverdi, avşar-kermani, qırxlı, imirli, qasımlı, əmələ - qasımlı, arıxlı, papəti, qutlu və qutulu tirələrinin hamısı avşarlardır.

9. Şahsevən elinin aparıcı və nəcib oymağı sarıxanbəylilər **avşar** nəsilləridir.

10. Bir çox tarixçilər Cavanşir elini avşar köklü hesab edirlər.

11. XVIII yüzilə aid ərəb əlifbası ilə yazılmış sənədlərdə, həmçinin, məşhur Azərbaycan coğrafiyaçısı Qafur Rəşad Mirzəzadənin **1920**-ci ildən qabaq çap etdirdiyi bir xəritədə ***Abşeron*** adı **Əfşaran** şəklində yazılmışdır. Bu sözün anlamı «*Avşarların yaşadığı yer*» deməkdir.

***Avşar*** elinin *Adaxlı, Arallı, Araşlı, Alplı, Bəkişli, Qasımlı, Qutulu, Qırxlı (Kirklu), Qırıqlı, Qılıclı, Qənibəyli, Qarahəsənli, Davudlu, İmanlı, Kərəcli, Giləli, Gözüböyüklü, Gündüzlü, Günəşli Mahmudlu, Paplı, İrli, Calayir, Tutmaqlı, Tərzili, Əmirli, Əlibəyli, Yəhərli, Şahboranlı* adlı oymaqları vardır. Əhməd Kəsrəvi avşarları bir neçə qola ayırır. Həmin qollar bunlardır: qırxlı, babalı,

cəlayır, kosaəhmədli, gündüzlü, inallı, araşlı (ərəşli), alplı, imirli, bəkəşli (bəykişili). Nikitinə görə *avşarlar* şamlı, usalı, qasımlı, imanlı, araşlı (ərəşli), gündüzlü, bəkəşli, kuhgiluyəli qollarına bölünür. Oskan Mann avşarları qasımlı, araşlı, kosaəhmədli, qutulu, təkəli, inanlı, bəgəşli, qırxlı, imirli, gündüzlü, təkəlilər qollarına paylaşdırır. A.Düpreyə görə, Urmiya avşarları Araşlı və Qasımlı adlı oymaqlardan, kərəcli, imamlı, davudlu, usallı, qılıclı, qənibəyli, kiləli, tutmaqlı, adaqlı, qarahəsənli, əlibəyli, tərzili, şahburanlı, yəhərli, kuhgiluyəli tayfalarından təşkil olunub.

Ölkəmizin ərazisində arealı geniş maraq doğuran etnotoponimlərdən biri də ***Əfşardır.*** Bu etnooykonim son illərə kimi Ağcabədi rayonunda yaşamaqda idi. Təəssüflər olsun ki, türk oğuz tayfa adını yaşadan bu onomastik vahid dəyişdirilərək bir müddət **Üzeyirkənd** adlandırılmışdır. Ə.Abdullayev yazır ki, Ermənistan Respublikasının azərbaycanlılar yaşayan ərazisində *Əfşar* tayfasının adını mühafizə edib saxlayan **Avşar**, Azərbaycan Respublikasında, Ağcabədi rayonunda isə **Ovşar** (***Avşar***) oykonimi var ...

M.Vəliyev (Baharlı) göstərir ki, *Kailərin* başqa tayfalarından biri-Əbülqazi Bahadur xana görə, mənası «*tez yeriyən*» olan əfşarlar, yaxud da, «*uşarlar*» əvvəlcə Xorasanda, İraqda və Anadoluda məskunlaşmışdılar, lakin sonralar əsasən, Nadir şah dövründə həm də Azərbaycana köçürülmüşlər. Əfşarlar bir neçə nəsilə bölünürlər. Bunlardan da Azərbaycanda **Əfşarlar** və **Kraqlılar** yaşayırlar. İndi onlara Quba və Cavad qəzalarında *Kraqlı* kəndlərində və həmçinin Şuşa qəzasının *Əfşar* kəndində rast gəlirik. Başqa bir tədqiqatda qeyd olunur ki, türk tayfaları qacar və **avşar** Azərbaycana Orta Asiyadan monqol istilaçıları ilə birlikdə gəlmişlər. Avşar





tayfası bir neçə nəsil budağına bölünərək Azərbaycanda *Kraqlı* və *Avşar* adı ilə yaşayırdılar. Həmin tayfaların adları Kraqlı toponimləri Quba və Cavad qəzasında, eləcə də, Şuşa qəzasında Avşar kənd adında qalmaqdadır.

Qeyd olunduğu kimi, Ermənistanda ***Afşar*** etnonimini yaşadan yer-yurd adları var idi. «*Avşar*-1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd idi. O, **Qasımkənd** də adlanırdı. 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində **Avşar Mərdanqulu** adlı kənd adı da olub. Toponim «*Mərdanqulu adlı şəxsə (dövlət məmuruna, yaxud mülkədara) məxsus avşarlar*» mənasındadır. *Avşar* kəndi – (İrəvan xanlığının Vedibasar mahalında kənd adı) 1590-cı ildən məlumdur. 1728-ci ilə aid mənbədə «*Avşar-Yerli*» kimidir. O, Səlcuq oğuzlarının Avşar tayfasının adını özündə əks etdirir. Bu tayfanın adı Mahmud Qaşqarlının (XI əsr) və Fəxrəddin Mübarəkşahın (XIII əsr) əsərlərində ***Afşar***, F. Rəşidəddin (XIV əsr) və Əbülqazı xan Xivəlinin (XVII əsr) əsərlərində ***Avşar*** kimidir. XIV-XVII əsrlərdə Anadoluda bu etnonimin hər iki forması vardı. XVI əsrdə Səfəvilər dövlətinin Qızılbaş tayfasından biri kimi bu tayfanın adı yalnız ***Əfşar*** kimidir. XV-XVI əsrlərdə bu tayfanın bir hissəsi Qızılbaşlara qoşulduğuna görə Səfəvi şahları ona Azərbaycanda və Ermənistanda ərazilər vermişdilər. *Avşar Kələvan*-1728-ci ildə İrəvan əyalətinin Karni nahiyəsində kənd adı; «Kələvan kəndi yaxınlığında **Afşar** kəndi mənasındadır. O, Səlcuq oğuzlarının **Avşar (Afşar)** tayfasının adını özündə əks etdirir» .

Sisyan rayonunun türk köklü etnotoponimlərindən danışan V.Əliyev yazır ki, bu ərazidə **Havesdi // Havıslı** yaylaq, yurd adı qeydə alınmışdır. Qubadlı rayonunda eyni adda kənd mövcuddur. A.R.Rəhimovun fikrincə, **havısdı// havıslı** adında **-dı/-lı** komponentinin şəkilçi,

sözönü,«h» samitinin isə sonradan artırma olduğunu nəzərə alsaq, adın kökü, «avıs»dır ki, bu kökə İliç (indiki Şərur rayonu) rayonunun **Avış//Havuş** kənd adında da rast gəlinir. F.Rəşidəddin Ulduz xanın birinci oğlunun adını *Aveş* şəklində, digər müəlliflər isə ***Avşar*** şəklində yazmışlar. Türk etnonimlərində «**-ar**» sonluğu geniş yayıldığı üçün *avşar* adını *aveş +ar>av /e/ şar>avşar* şəklində izah etmək olar.

S.K.Karayev yazır: «Türk tayfa adları lap qədimdən toponimlərdə öz əksini tapmışdır. Mahmud Kaşgarinin «Divan»ında oğuz tayfası olan Əfşarların adı çəkilir. Bu mənada ərəb coğrafiyaçısı, alim Müqəddisinin Buxara yaxınlığında **«Ayşar» (Abşar)** kəndinin olması qeydləri xüsusi əhəmiyyət kəsb edir. Fikrimcə, Xarəzm vilayətinin Xazarasp rayonunda rast gəlinən «***Avşar***» adı da bu etnonimlə əlaqədardır.

F.Sümər yazır ki, XVI əsrdə Anadoluda **86** oykonim ***Avşar*** adını daşımışdır. Bunlardan isə ən böyük yaşayış məntəqəsi Şanlı Urfa şəhəri yaxınlığındakı ***Kanlıavşar***dır Türkiyə fiziki xəritəsi Kurbağalıdere Cad. Altunel İşhanı 51-43 81010, Kadıköy-İstanbul). D.E. Yeremeyev Türkiyə ərazisindəki kürdlər arasında oğuz-türkmən tayfalarının mövcudluğunu yazır. Müəllif onların sırasında **əfşar, barak, kirik, torun, badilli (beydili> bektili)** və digər tayfaların adlarını çəkir .

İran ərazisində **Əfşar** etnoniminin onomastik arealları da zənginliyi ilə diqqəti cəlb edir.V.İ.Savina yazır ki, **əfşarlar** İranda hal-hazırda böyük etnik qrup kimi təmsil olunurlar. Səfəvi dövlətinə kimi onlar Azərbaycanda (İran Azərbaycanı nəzərdə tutulur) yaşamış (Caqat çayının şərq hissəsində), sonradan bütün ölkəni əhatə etmişlər. İndi onlara İran Azərbaycanının hər yerində (Urmiya gölünün şimal-şərq sahillərində) eləcə də, Həmədan və





Kermanşahda, Muxrin Kürdüstanında, Xorasanda (Bocnurun cənubunda və Kuranda, Səbzəvar və Nişapurda, Cumendin şimalında) və Kermanın cənubunda, eləcə də, İranın başqa əyalətlərində rast gəlinir.

Məlum olduğu kmi, ***Əfşar tayfası*** İrana Nadir şahın hakimiyyəti illərindən qabaq (1730-1737-ci illər) gəlmişlər. **Əfşar** etnonimi İranın toponimiyasında fəallığı ilə diqqəti cəlb edir.*Əfşar, Əfşarçik* (İran Azərbaycanı), *Əfşaran, Təpəəfşar* (Kermanşah), Əfşarlı, Kışlakətəfşar (Zəncan), *Əfşarməhəmməd, Hüseynabadəfşar, Arababudəfşar, Cərimrəəfşar, Cüldəəfşar, Siaxəfşar* (Mərkəzi İran), *Qavəfşar* (Yezd), Çəmənəfşar (Kerman)...

B.Budaqov İran ərazisindəki **əfşar** etnotoponimlərinə öz münasibətini belə bildirmişdir: «İranda türkdilli tayfalardan biri də əfşarlardır. Cənubi Azərbaycanda *Əfşar* və *Əfşarçik* etnonimləri vardır. İranda ümumiyyətlə, 12-dən artıq **Əfşar** etnonimini əks etdirən (*Əfşaran, Əfşarlı, Sıaxəfşar, Çemenəfşarlar və s.*) coğrafi adları vardır. Azərbaycan dilinin şifahi xalq yaradıcılığının bir canrı olan «Bayatılar», muğam növü «*Bayatı-Qacar*», «*Kürd-Ovşarı*» və s. məhz bayat və **əfşarlarla (ovşarlarla)** əlaqədardır».

T.İbrahimov «*Qaşqaylar*» əsərində İran ərazisində türk əsilli etnik qruplar haqqında geniş məlumat vermiş və burada **əfşarlar** haqqında tarixi, etnoqrafik faktları dolğunlaşırmışdır. Müəllif yazır ki, Qaşqay elinin tərkibində *Əfşar* köçərilərindən də bir neçə tirə vardır. Qaşqayların farsimədən, əmələ və böyük kəşkuli tayfaları sırasında bulverdi, *Əfşar* kirmani, qırxlı, imirli, qasımlı,əmələ qasımlı, arıxlı, qutlı və ya qutlu, papəti tirələrinin hamısı əfşardır. Bu tirələrdən əlavə Fars əyaləti əhalisinin tərkibində köçəri və ya oturaq həyat tərzi keçirən çoxlu **əfşar** vardır.Təkcə fars əyalətində deyil,

ümumiyyətlə, İranın bir çox vilayətlərində əhalinin tərkibində **əfşarlar** əksəriyyət təşkil edir.

Əfşarlar farsın *Kuhkeyluyə* və *Kazerun* vilayətlərində əsrlərdən bəri sakin olmuş və onların başçıları bu vilayətdə hökmranlıq etmişlər. Səfəvilər hakimiyyəti dövründə əfşarların mühüm hissələri Azərbaycana köçürülüb İranın müxtəlif əyalət və vilayətlərində (Xorasan, Kerman, Tehran, Fars və s.) sakin edilmişlər. Şah İsmayıl Azərbaycan Əfşarlarından **qırxlı** qəbiləsini Xorasanın *Əbivərd* və *Mərv* vilayətində, Şah Təhmasib isə onların on min ailəlik araşlı qəbiləsini Farsın *Kuhkeyluyə* vilayətinə köçürdü. Araşlıların rəisi **Xəlil xan Əfşar** Kuhkeyluyə vilayətinə hökmran təyin edildi. *Əfşarlar* uzun müddət beləcə Kuhkeyluyəni idarə edirlər...

**Əfşarlar** iki əsr yarıma qədər (1592-1834) *Kazerun* vilayətində də hökmranlıq etmişlər. Bu müddət ərzində Kazerun vilayətində hökmranlıq edən Əfşar rəislərindən 13 nəfərinin adı məlumdur.

İran müəlliflərindən **Manuçehr Əfşar** 1925 -ci ildə çap etdirdiyi məqaləsində alman tədqiqatçılarından Şpinkelin yazılarına istinad edərək, İran əfşarlarının 88 min ailə olduğunu göstərmişdir. Onlardan Urmiya vilayətində 25 min, Sayınqala və Zəncan vilayətlərində 10 min, Həmədanda 7 min, Mazandaranda 7 min, Qəzvində 5 min, Tehran və Reyətrafı rayonlarda 7 min, Xorasanda 7 min, Kermanda 6 min, Xuzistanda 10 min və Farsda 5 min ailənin sakin olduğu qeyd edilmişdir. Bu rəqəmlər Avropa səyyahlarının və İran müəlliflərinin bir çoxunun verdikləri digər rəqəmlər kimi, ölkənin rəsmi hesablamalarına əsaslanmır.Bu rəqəmlər bəzi tayfa və qəbilə rəislərinin və ya dövlət məmurlarının məlumatına istinadən göstərilmiş rəqəmlərdir. Şpingel və Manuçehr Əfşar tərəfindən Fars əyalətində Əfşarların sayının 5 min ailə





göstərilməsi dəqiq deyildir. Çünki Farsda Əfşarlara mənsub olan təkcə inallı tayfası hələ əsrimizin 20-ci illərində 5 min ailə idi. Fars əyalətində inallılardan başqa keçmiş əsrlərdən bəri Kazerun, Kəmarəc və Kuhkeyluyə vilayətlərində, Farsın müxtəlif şəhərlərində **əfşar** tayfalarından olan on minlərlə əhali sakindir.

**Əfşarlar** Azərbaycan xalqının kökünü və əsasını təşkil edən oğuzların **24** tayfasından biridir.

R.Eyvazova yazır: «Əfqanıstanda **Əfşar** adı ilə bağlı çoxlu toponimlər mövcuddur. Məsələn: **Əfşar Nanəkçi kəndi**- Kabulda, **Əfşar xan kəndi**-Məzari-Şərifdə». Müəllif A.Abbasova istinad edərək, **Əfşarların** Əfqanıstan ərazisində yayılma tarixi şəraitini təhlil etmişdir. Bir sıra tarixi faktlar sübut edir ki, ***Əfşar*** tayfalarının Əfqanıstana köçürülməsi İran şahı Nadir Əfşarın yürüşləri ilə əlaqədardır. 1736-1747-ci illərdə indiki Əfqanıstan və Hindistan əraziləri Nadir şahın hakimiyyəti altında olmuşdur. Əfqanıstan ərazisində öz mövqelərini möhkəmləndirmək məqsədi ilə Nadir şah tərəfindən İranda yaşayan azərbaycanlılardan çox böyük bir hissə buraya köçürülmüşdür. Kabul əyalətindəki Əfşar-Nanəkçi kəndinin sakinləri təsdiq edirlər ki, onların əcdadları Əfqanıstana Qaradağdan və Təbrizdən gəlmişlər. Sonralar bəzi ailələr Qaradağa və Təbrizə qayıtmışlar...

*«Dairətül-maarif və Əfqanıstan»* adlı əfqan ensiklopediyasında Əfqanıstanın ərazisindəki azərbaycanlılar haqqında deyilir: «Azəri Azərbaycan türklərinin keçmiş tayfaları-çox hissəsi Nadir şahın hakimiyyəti dövründə Əfqanıstana köçürülmüşlər. Onlar, əsasən, Kabul ətrafındakı ***Əfşartəpə*** və Nanəkçi kəndlərində yaşayırlar. Onlar öz ana dillərində danışırlar...»

İctimai-siyasi vəziyyətlə əlaqədar olaraq Əbdürrəhman xanın hakimiyyəti dövründə (1880-1901) onun

əmri ilə *əfşarlar* yaşadıqları Kabul əyalətindən Əfqanıstanın müxtəlif rayonlarına köçürülmüşlər. Hazırda Əfşar ailələrinə Əfqanıstanın ayrı-ayrı şəhər və kəndlərində – Qəzni, Qarabağ, Herat, Dəreyi-Yusif, Məzari–Şərif, Aqçə, Şibirqan, Bamiyan, Çəhardehi - Qurbənd, Taşkurqan və s. yerlərdə rast gəlmək olur. Söz yox ki, tayfalar köçdükləri, yaşadıqları yerlərdə öz etnotoponimlərini yaratmaqla tarixin izlərini qoyurlar. Əfqanıstanda tərtib edilmiş bir sıra xəritələrdə əfşarların yaşayış yerləri qeyd edilmişdir.

Macar alimi Z.Zigeti Əfqanıstanda yaşayan əfşarların dilini tədqiq etmiş və onu Azərbaycan dilinin dialekti saymışdır. F.Xalıqov yazır ki,XVII əsrdə əfşarların əsas mərkəzi şəhəri Abiverd (Biverd) olmuşdur. Bu şəhərin xarabalıqları Tataristan Respublikası ərazisində bu gün də qalmaqdadır. **Əfşar tayfası** Doveyran tayfası ilə birlikdə Şahsevən qrupuna daxildir…

T.İbrahimov əfşarların Azərbaycanda məskunlaşması haqqında mövcud mənbələrə əsaslanaraq belə yazır: «Mirzə Mehdixan Astarabadi Əfşarlardan bəhs edərkən onların monqol yürüşləri zamanında Türküstandan köçüb ilk əvvəl Azərbaycana gəlmələri barədə məlumat vermişdir». Müasir müəlliflərdən bəziləri, o cümlədən, Nəsrullah Fəlsəfi ***Əfşarlar*** haqqında Mirzə Mehdi xan Astarabadinin yazdıqlarını təkrar edərək göstərmişdir: «Əfşarlar monqol yürüşləri dövründə Türküstandan köçüb Azərbaycanda sakin olmuşlar. Əhməd Kəsrəvi öz əsərində M.M. Astarabadinin yazılarına işarə edərək göstərir ki, Astarabadinin Türküstan deməkdə məqsədi Xəzər dənizinin şimalında yerləşən qıpcaq çölləridir. Qıpcaq çölləri Azərbaycana yaxın olduğuna görə əfşarlar ilk əvvəl Azərbaycana gəlmişlər.





Ümumiyyətlə, **Əfşar** elləri məsələsinin aydınlaşdırılması xeyli mühüm, eyni zamanda mürəkkəb məsələ olmaqla bərabər, Azərbaycan əfşarlarının qasımlı, imirli, inallı, alplı, qutlu, gündüzlü, araşlı, təkəli, kosa əhmədli, qırıxlı tayfalarının adları ilə Qaşqay eli tərkibində olan *əfşar* tirələrinin adları arasında müəyyən uyğunluq və eynilik Qaşqay adları əfşarlarının Azərbaycan mənşəli və Azərbaycan xalqına mənsub olmalarını sübut edən dəlillərdir. Özbəkistan alimləri yazırlar ki, bəzi etnonimlər fonetik dəyişikliyə uğrayır və antroponimə keçən zaman başqa fərqli semantik mahiyyət kəsb edirlər. Məsələn: **avşar-afşar-ovşar**; ***Ovsar*** hərfi mənada «*giçbaşər*», «*dəvə noxtası*» kimi tərcümə edilir ki, bu da etnonimin semantik izahından uzaqlaşmaya səbəb olur .

Z.Dusimov Xarəzmin etnotoponimiyasını tədqiq edərkən bir neçə etnonim haqqında məlumat vermiş, onların sırasında *Avşar* etnoniminə də münasibət bildirmişdir. Müəllif qeyd edir ki, **Avşar** etnonimi Xarəzmin şimalında **Avşar/Avsıl** formasında işlədilir…

B.Əhmədov yazır ki, tarixən müəyyən bir tayfa və xalqın həyatında böyük rol oynamış əşyalar, hadisələr sonralar başqa tayfa və xalqların dillərinə həmin tayfa və ya xalqın adı kimi daxil olur. Məsələn: **avşar//ovşar**- «qoyun sağma üsulu» (Ağcabədi) .

*Avşar* etnoniminin semantikası, etimologiyası ilə bağlı tədqiqatçıların maraqlı araşdırmaları vardır. Z.Muxamedova yazır ki, Rəşidəddinə görə ***Afşar*** –Ulduz xanın birinci oğludur. Bu ad «cəld, ovu və ovçuluğu sevən» deməkdir. Salar Babada isə *Avşar* gah Ay xanın ikinci oğlu, gah da Ulduz xanın ikinci oğlu kimi verilir; bu izah Rəşidəddinlə eynidir: «*Cəld, ova həvəsli*».Bu adın izahına Əbül-Qazidə də rast gəlinir. **Avşarlar** XIV əsrdən Səfəvilərin dayağı olan qızılbaşların tərkibinə daxil idilər.

«*Tarixi-Nadir*»də Mirzə Mehdi xan Nadir şahın türkmən tayfası avşarların bir hissəsi olan «Karaklü» nəslinə mənsubluğunu qeyd edirdi. Sözün «**avşar**» forması, Salar Babanın dediyinə yaxın olaraq, «*qöök leŋ*» tayfasının tərkibi kimi qeyd olunur: **avşar//afşar- qeök leŋ** in bölməsi.

D.M.Ovezov qeyd edir ki, bu tayfa Əfqanıstanda olanda **avşar//afşar** «mürçeli» tayfasının tərkibində olub. Göstərilən izahlara türkmən feli «***avşarmak***»- «*lovğalıq, lovğalanmaq, əkəbbürlük*» və Azərbaycan dialektində **avşar**-«*süd*», **avşarmay**-«*sağmaq*» mənasını əlavə etmək olar.

Anadolu dialektində **avşar** sözünün müxtəlif mənaları vardır. *Seyxan* və *Bursa* dialektlərində **avşar** «*noxta*» deməkdir, amma burada **s//ş** əvəz olunması görünür, müqayisə etdikdə türkməncə **ovsar**<farsca «*dəvə noxtası*» mənasına uyğun gəlir. Səlcuq Rumunun keçmiş paytaxtı *Konya* sakinlərinin dilində bu söz «bəhməzin bişmə zamanı bərk qaynaması» deməkdir. *Diyarbakır* deyimlərində «**afşar**» forması «*möhkəm*», «*məharətli*», «*etibarlı*» deməkdir. *Əziziyyə, Sivas, Konya* sakinlərinin dilində **avşar** sözü –«*işini cəld yerinə yetirən*», *Əzkipazar* və *Çankırda*- «*hər şeyin əksi*» mənasında işlənir. ***Avşar*** bərabərliyinin ziyafətlərində sultanın sağ tərəfində səkkizinci sırada əyləşərdi.

Əbülqazi Bahadır xanda oxuyuruq: «Ulduz xanın böyük oğlunun adı-*Avşar*, ikinci oğlu Qızıq, üçüncü Beqdieli, dördüncü Qarqın. Beşinci çadırda Ulduz xanın böyük oğlu **Avşarı** oturtdular; ona sağ ombanı verdilər: Qızıq onu kəsdi, Turunçi atları tutdu. **Afşarın** anlamı – «*işdə çevik olan*» deməkdir, tamğasının işarəsi, onqonu, - **ağ şahin** (tərlan-erkək), «*çere laçın*» mənasındadır…





Azərbaycan damğalarını tədqiq edən C.Cəfərov yazır ki, M.Kaşgarlının əsərində VI oğuz tayfası əfşarların damğası ilə Yazıçıoğlu Əlidə verilmiş eyni tayfa damğası tamamilə fərqlənir. Hər iki damğa olduğu kimi «Gəmiqaya» işlərinin sırasında və Duvannının şimal-qərbində, *Sofu Novruz* qəbiristanlığında qeydə alınmışdır.

S.Ataniyazov yazır ki, **Ovşar** (ədəbiyyatlarda-*avşar-afşar, əfşar*) - orta əsrlərdə oğuz-türkmən tayfası kimi xatırlanır, tayfa arsarı (qarkın nəsli) göklem, mürçeli və əski tirələrinə aiddir. Onlar Kaşkadərya vilayətinin Mübarək rayonunda yaşayırlar. Q.Vamberi **afşar** sözünü «*toplayan*» (sborşik) kimi izah edir. *Avşar, afşar* etnoniminə Azərbaycan, İran və Türkiyədə daha çox təsadüf olunur .

Y.Nemet oğuz etnonimi avşarın semantikası haqqında fikir yürütmüş və onu «*dinc, sakit*», «*sədaqətli*» kimi izah etmişdir. Müəllif eyni zamanda V.V.Radlova əsaslanaraq bu etnonimi «kiməsə meyl etmək, inanmaq», və ya «*davam gətirmək, özünü ələ verməmək*», «*güzəştə getmək*», «*razılaşmaq*» kimi mənalandırmışdır. F.Əliyev **avşar** toponiminin etimologiyası haqqında yazır: «*Linqvistik baxımdan təhlil etdikdə aydın olur ki,* ***Avşar (ovşar)*** *sözü* ***Av-çı-ar*** *komponentlərindən ibarətdir.* ***Av-ov*** *lekseminə sənət bildirən* ***-çı*** *şəkilçisi artırılaraq avçı-ovçu peşəsi ilə məşğul olan tayfanın adı əsasında əmələ gəlmişdir. –****Çı*** *şəkilçisi türk dillərində areal xarakterə malik olub,* ***peşə, məşğuliyyət*** *mənası ifadə edir:* ***avçı*** *(kumıq, tatar, türk),* ***avşı, avsı*** *(qazax),* ***avcı*** *(qaqauz, başqırd),* ***ovçu*** *(uyğur, Azərbaycan) və s.* ***-cı*** *şəkilçisinin* ***-şı, -cı, -sı*** *variantları da vardır.* ***-Ar*** *isə etnonim yaradan ünsürdür, cəmlik bildirir*». Müəllifin əsaslandırdığı bu etimoloji izah xeyli mübahisəli görünür.

F.Xalıqov N.A.Baskakova əsaslanaraq **əfşar** etnoniminin semantikası haqqında yazır ki, fars dilindəki «*Avşar*» («*təzyiq etmək, sıxmaq, sıxışdırmaq*») sözündən olan **əfşar** Azərbaycan dilinin dialektlərində **avşar** formasında «*süd*», həmin formada türkmən dialektlərində «*özünü yüksək tutmaq*», türk dilində «*möhkəm, cəld, etibarlı, işi tez yerinə yetirən*» mənasındadır. Müəllif davam edərək yazır ki, **əfşar** sözünün daşıdığı leksik məna haqqında qəti fikir deyilməmişdir. Çox güman ki, sözün kök hissəsi **əf //əv//of//ov** hissəciyi ilə bağlıdır. Qədim və müasir fars dilində *ov* «*su*» mənası verir; «**şar** hissəciyini isə Azərbaycan dilindəki peşə, sənət bildirən **-çu** şəkilçisinin sinonimi hesab etsək, «suçu, su ilə bağlı adam» mənası verdiyi qənaətinə gələ bilərik .

Tədqiqatçılarımızdan bir çoxu **Abşeron** coğrafi adının ***Əfşar*** etnonimindən yaranmasını iddia edirlər. N.Nəbiyev yazır: «*Ərazisində geniş yayılmış şor göllərdən qədimdən bəri duz çıxarıldığından «Abşeron»un farsca «şor sular», «şor göllər» mənasında olması güman edilir*». Bəziləri «***Abşeron***» sözünün farsca «**ab şirin**», yəni, «**şirin su**» mənasında olması fikrini irəli sürürlər. Bir sıra mülahizəyə görə toponim vaxtı ilə bu yerdə yaşayan **Əfşar** tayfasının adını özündə daşıyır. Həmin tayfanın ***Əfşar*** adlı şəhərdə yaşaması güman edilir...

**Əfşar** etnonimi hal-hazırda ölkəmizin antroponimlər sistemində soy adı kimi yaşamaqdadır...

## AZIX FAUNASI

Azərbaycan ərazisində, Xocavənd rayonunun Tuğ və Azıx kəndləri yaxınlığında Aşağı Paleolit dövründə vaxtilə mövcud olmuş onurğalı heyvanlar kompleksi





*Azıx faunası* adlanır. O, Azıx mağarasında Məmmədəli Hüseynovun rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar zamanı tədqiq olunmuşdur.

**Azıx faunası** hazırda Qafqaz regionunda nəsli kəsilmiş nəhəng maral, dama (lan), kərgədan, mağara kaftarı, mağara ayısı daxildir. Qazıntı yerində bunlarla yanaşı amfibiyaların, yunan tısbağasının, sərçəkimilər dəstəsindən kiçik quşların, oxlu kirpinin, müxtəlif gəmiricilərin və yarasaların; təkdırnaqlılardan vəhşi at və Avropa vəhşi eşşəyinin; cütdırnaqlılardan Qafqaz maralı, qaban, qaya keçisinin; yırtıcı məməlilərdən canavar, çaqqal, tülkü, bəbir, qamış pişiyi və porsuğun sümük qalıqları tapılmışdır.

Sümüklərin çaxmaqdaşından qayrılmış alətlərlə bir yerdə tapılması, onlarda yanıq izlərinin olması göstərir ki, indiki Azərbaycan ərazisinin cənub-qərb hissəsində Daş dövründə yaşamış ibtidai insanlar Azıx faunasına aid iri məməliləri ovlamışlar.

***Azıx faunası*** Aşağı Palleolit insanlarının yaşadığı təbii şəraiti öyrənməyə imkan verir.

## AZIX KƏNDİ

**Azıx kəndi** Xocavənd rayonunda, rayon mrkəzindən 42 km cənub-qərbdə, Quruçayın sol sahilindən 1,5 km aralıda, dağətəyi ərazidə yerləşir. Bu yaşayış məntəqəsi öz adını yaxınlığındakı Aşağı Paleolit dövrünə aid olan məşhur **Azıx mağarasının** adından almışdır. Kəndin əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq, üzümçülük və baramaçılıqla məşğul olur. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, kinoqurğu, tibb məntəqəsi, uşaq bağçası, rabitə şöbəsi, park, stadion və s. var.

XIX əsrin birinci yarısında Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş erməni ailələri burada məskunlaşmış və yaşayış məntəqəsini **Azox** adlandırmışlar. Mənbələrdə *Azıx, Azıq, Azuq, Azox, Adıq, Ayıq* («*ayı*») variantlarında qeydə alınmış bu coğrafi ad qədim qıpçaq dilindəki ilkin fonetik formasını mühafizə edib saxlamışdır.

**1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi mənbədə. Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında **Azıq kəndi**nin də adı vardır.

Qədim türk dillərində ***azıx*** sözü "*ayı*" mənasındadır. Kənd öz adını yaxınlığında yerləşən Aşağı Paleolit dövrünə aid nadir mağara tapıntılarından biri olan **Azıx mağarasının** adından almışdır.

Bəzi araşdırıcılar **azıq** toponimini «*azuqə yeri*», «*tərədük yeri*», «*anbar*» anlamları kimi izah edir. Amma mağaradakı **6** salon və **2** giriş qapısının olması, ocaq yerinin varlığı burada qədim qəbilələrin, insanların yaşadıqlarından xəbər verir. Bunları nəzər alsaq **Azıx** toponimini «*azılar*», «*böyük insanlar birliyi*» kimi mənalandıra bilərik.

Ə. Fərzəli göstərir ki, **Azıx** adı "*Az oymağı*", "*Azərbaycanlılar oymağı, yurdu, məskəni*" deməkdir. Nətijə etibarı ilə demək olar ki, Azıx/Azıq/Azox kənd və mağara adı «*az adamlar, azlar*» mənasını verən etnotoponimdir. Ümumiyyətlə, türklər yaşadığı ölkələrdə çoxlu sayda **Azıx (Azıq)** kəndləri vardır. Türk dünyasının görkəmli şəxsiyyəti, alim, tədqiqatçı, «*Divani-Luğəti Türk*» kimi qiymətli əsərin müəllifi Mahmud Kaşgari Çinin *Uyğur* muxtar vilayətindəki *Azıq* adlı kənddə doğulmuşdur...





**Azıx** oykoniminin paralellərinə Türkiyədə (***Elazıx***), Çinin *Uyğur* mahalında və digər ərazilərdə də rast gəlirik...

## AZIX MAĞARASI

Yer qabığının üst qatlarında əmlə gəlmiş və yer səthinə bir və ya bir neçə çıxışı olan yeraltı boşluğa **mağara** deyilir. Mağaralar əsasən suyun asanlıqla əritdiyi karslaşan süxurlarda (əhəngdaşı, dolomit, daşduz, gips) və ya suffoziya, abraziya prosesləri nəticəsində əmələ gəlir. Dünyanın ən iri mağaraları karst mənşəli olub, geniş zallardan, keçidlərdən, yan qollardan və s.-dən ibarət mürəkkəb sistemlər əmələ gətirirlər.



Azərbaycanda ən qədim və böyük karst mağarası olan **Azıx mağarası** Xocavənd rayonunun ərazisində, Füzuli şəhərindən **15** km qərbdə, Quruçayın sol sahilində, dəniz

səviyyəsindən **900** m hündürlükdə yerləşir. Mağaranın yerini ilk dəfə Tuğ kənd sakinləri Bəşir və Həzrətqulu Cahangirovlar tapmışlar. Böyük Tağ kəndində dil-ədəbiyyat müəllimi işləyən Bəşir müəllim (onun 40 ildən artıq pedaqoji stajı vardır) Tuğdan Böyük Tağ kəndinə hər gün 8 km.-lik yolu meşələrin içi ilə piyada gedib-gələrdi. Burada mağara olduğunu o, BDU-nun tarix fakültəsində dekan müavini işləyən qohumu Baxşalı Zülfüqar oğlu Yeqanova bildirmiş, o da öz növbəsində Tarix İnstitutunun Arxeologiya şöbəsinə bu barədə məlumat vermişdir. Məhz bundan sonra 1960-cı ildə tarixçi-arxeoloq M.Hüseynovun rəhbərliyi ilə mağarada tədqiqat işlərinə başlanılmışdır. Ümumiyyətlə, Azıx mağara düşərgəsində aparılan tədqiqat işləri nətijəsində **10** arxeoloji təbəqə qeydə alınmışdır.

**Azıx** poleolit düşərgəsində **1960**-cı ildən **1987**-ci ilə qədər aparılan arxeoloji qazıntılar zamanı müəyyən edilmiş ***arxeoloji təbəqələr*** illik hesabatlar və Azıx düşərgəsinin stratiqrafiyası haqqında çap edilmiş əsərlər əsasında təhlil edilmişdir. Çoxtəbəqəli Azıx paleolit düşərgəsində **1960-1986**-cı illərdə aparılan qazıntılar zamanı **10** təbəqə qeydə alınıb tədqiq olunmuşdur. Yaxın Şərq və Qafqaz ərazisində ən zəngin stratiqrafiyaya malik Azıx poleolit düşərgəsində qeydə alınmış arxeoloji təbəqələrin ümumi qalınlığı **14** metrdir. Aparılan arxeoloji qazıntılar zamanı Azıx poleolit düşərgəsində qeydə alınmış **arxeoloji təbəqələr** aşağıdakılardır:

**Birinci təbəqə** qara çöküntülü, bəzən isə sarı qarışıq torpaq təbəqəsindən ibarətdir. Qazıntılar zamanı burada orta əsrlərə aid gil qab qırıqlarına da rast gəlinir. 1962-1965-ci illərdə aparılan arxeoloji qazıntılar zamanı bu təbəqədən tunc və eneolit dövrlərinə aid gil qab qırıntıları





da aşkar olunmuşdur. Amma sonrakı illərdə aparılan arxeoloji qazıntılar zamanı eniolit dövrünə aid maddi mədəniyyət qalıqları qeydə alınmamışdır. Təbəqənin ümumi qalınlığı **77-125** sm-dir.

**İkinci təbəqə** açıq sarımtıl gillicə torpaqdan ibarətdir arxeoloji tədqiqatlar zamanı təbəqənin içərisində tək-tək qaya qırıntıları və gil qab parçaları qeydə alınmışdır. Gil qab qırıqları əsasən orta əsrlər, tunc və eneolit dövrlərinə aid olmuşdur. Təbəqənin ümumi qalınlığı **90-180** sm-dir.

**Üçüncü təbəqə** boz gillicə torpaq təbəqəsindən ibarətdir. Ayrı-ayrı əlamətlərə görə üçüncü təbəqənin tərkibində 1973-1974-cü illərdə aparılan arxeoloji qazıntılar zamanı **3** lay müəyyən edilmişdir: *Birinci lay* tünd-boz gillicə torpaqdan ibarətdir. Təbəqənin tərkibində xırda qaya qırıntıları da qeydə alınmışdır. Bu laydan ilk dəfə olaraq Mustye mədəniyyətinə aid daş məmulatı və ovlanmış heyvan sümükləri tapılmışdır. *İkinci lay* boz gillicə torpaqdan ibarətdir. Layın içərisində düşərgənin tavanından düşmüş qaya qırıntıları qeydə alınmışdır. Həmin layın içərisində bir neçə iri qaya daşı da aşkarlanmışdır. *Üçüncü lay* açıq-boz gillicədən ibarət olub, içərisində qaya qırıntılarına təsadüf edilir. Layın aşağı hissəsi isə sarı gillicə torpaq qatından ibarətdir.



Maraqlıdır ki, ilk dəfə olaraq 1973-cü ildə aparılan arxeoloji qazıntılar zamanı üçüncü təbəqənin aşağı layından Mustye mədəniyyətinə aid 2 ədəd əl çapacağı tapılmışdır. Bu tapıntı Mustye dövrü üçün çox nadir tapıntılardandır. Çünki əl çapacaqları Aşel mədəniyyəti üçün xarakterikdir. Üçüncü

təbəqənin ümumi qalınlığı **90-145** sm-dir.

**Dördüncü təbəqə** tünd-qonur gillicə torpaq layından ibarətdir. Təbəqənin içərisində xırda qaya qırıqlarına rast gəlmək olur. Həmin qırıqlar stalaqmit, stalaktit, stalaqnat parçalardan ibarətdir. 1973-cü il arxeoloji qazıntılarına qədər dördüncü təbəqədən heç bir maddi mədəniyyət nümunəsi qeydə alınmamışdır. Amma həmin ildə aparılan arxeoloji qazıntılar zamanı dördüncü təbəqədən son Aşel mədəniyyətinə aid bir neçə daş məmulatı və ovlanmış heyvan sümükləri tapılmışdır. Təbəqənin ümumi qalınlığı **1-1,2** metrdir.

**Beşinci təbəqə** sarı gillicə torpaq təbəqəsindən ibarətdir. Azıx düşərgəsinin stratiqrafiyasında ən zəngin və möhtəşəm qalınlığa malik olan çöküntü beşinci təbəqədən ibarətdir. 1963-1969, 1971-1986-cı illərdə beşinci təbəqədə aparılan arxeoloji qazıntılar zamanı çoxlu ovlanmış heyvan sümükləri və 300 ədəd daş məmulatı tapılmışdır. Bütün Qafqaz paleolit düşərgələri içərisində ən zəngin stratiqrafiyaya malik Azıx düşərgəsinin beşinci təbəqəsindən ocaq yerləri, ibtidai tikili qurğuları, xüsusi küncdə saxlanılan ayı kəllələri də aşkar edilmişdir. Bütün tədqiqat mövsümündə beşinci təbəqədən aşağıdakı kiçik laylar qeydə alınmışdır: ***Birinci lay*** tünd-qonur gillicə torpaq layından ibarətdir. İçərisində arxeoloji tapıntılarla bərabər qaya qırıqları da qeydə alınmışdır. Layın qalınlığı **30-43** sm-dir. ***İkinci lay*** açıq-qonur gillicə təbəqəsindən ibarətdir. Təbəqənin içərisindən daş məmulatı və fauna qalıqları tapılmışdır. Ayrı-ayrı qaya parçalarına da rast gəlmək mümkündür. Layın qalınlığı **28-44** sm-dir. ***Üçüncü lay*** açıq-sarı gillicə layından ibarətdir. Layın içərisində ayrı-ayrı qaya qırıqlarına təsadüfi hallarda rast gəliinr. Arxeoloji qazıntılar zamanı burada çoxlu ovlanmış heyvan sümükləri də aşkarlanmışdır. Layın qalınlığı





**48-62** sm-dir. ***Dördüncü lay*** tünd-sarı gillicə torpaq təbəqəsindən ibarətdir. İçərisində arxeoloji materiallarla bərabər xırda qaya qırıqları da qeydə alınmışdır. Layın qalınlığı **38-44** sm-dir. ***Beşinci lay*** boz-yaşıl gillicə torpaq təbəqəsindən ibarətdir. ·Maraqlıdır ki, 1972-ci ildə yay zamanı aparılan arxeoloji qazıntılar vaxtı ocaq yerləri və ibtidai tikili yeri qeydə alınmışdır. Tədqiqatlar zamanı buradan əmək alətləri və əmək alətləri ilə bərabər ovlanmış heyvan sümükləri aşkar olunmuşdur. Layın qalınlığı **44-56** sm-dir. ***Altıncı lay*** tünd-qonur gillicə torpaq layından ibarətdir. Arxeoloji qazıntılar zamanı altıncı laydan əmək alətləri ilə yanaşı, çoxlu fauna qalıqları aşkar olunmuşdur. Layın tərkibində düşərgənin tavanından düşmüş qaya qırıqlarına da rast gəlmək olur. Tədqiq olunan sahədə layın qalınlığı **42-56** sm-dir.

**Altıncı təbəqə** boz-gillicə torpaq təbəqəsindən ibarətdir. Lakin yuxarıda təsvir olunan təbəqələrdən fərqli olaraq altıncı təbəqə olduqca çoxlu çay və qaya daşları ilə zəngindir. Altıncı təbəqədə aparılan qazıntılar zamanı 3000-dən çox daş məmulatı tapılmışdır. Təbəqənin qalınlığı **55-87** sm-dir.

**Yeddinci təbəqə** açıq-göyümsov gillicə torpaq təbəqəsindən ibarətdir. 1974-cü ilin arxeoloji qazıntı işlərinə qədər çap olunmuş Azıx düşərgəsinə aid elmi məqalələrdə düşərgənin altıncı təbəqəsindən aşağıda olan təbəqələrdə arxeoloji materialların olmadığı qeyd olunurdu. Amma 1974-cü ildə altıncı təbəqədən altda olan düşərgənin çöküntülərində aparılan arxeoloji qazıntılar zamanı 4 arxeoloji təbəqə (VII-X) qeydə alınmış və həmin təbəqələrdən maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Təbəqənin qalınlığı **88-98** sm-dir.

**Səkkizinci təbəqə** nisbətən tünd-göyümsov gillicə torpaq təbəqəsindən ibarətdir. Arxeoloji qazıntılar zamanı

təbəqədən maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Eyni zamanda təbəqənin tərkibində mağaranın tavanından düşmüş tək-tək qaya parçaları qeydə alınmışdır. Təbəqənin qalınlığı **90-115** sm-dir.

**Doqquzuncu təbəqə** açıq-göyümsov gillicə torpaq təbəqəsindən ibarətdir. Arxeoloji qazıntılar zamanı təbəqədən maddi mədəniyyət nümunələri tapılmışdır. Təbəqənin tərkibində tək-tək qaya qırıntılarına rast gəlmək olur. Təsvir olunan sahədə təbəqənin qalınlığı **78-84** sm-dir.

**Onuncu təbəqə** sarı gillicə və nisbətən daşlı təbəqədən ibarətdir. Arxeoloji qazıntılar zamanı təbəqənin tərkibindən hazır daş alətlər tapılmışdır. Təbəqə qaya döşəməsi üzərində yerləşdiyindən olduqca bərkdir. Təbəqənin qalınlığı **78-83** sm-dir.

Buradan müxtəlif heyvanlara aid çoxlu daşlaşmış sümüklər aşkar edilmişdir. Daş məmulatını əsasən üç qrupa bölmək olar: istehsal alətləri, istehsal tüllantıları və Quruçay dərəsindən buraya əl ilə gətirilmiş təbii daşlar. Daş alətlər əsasən kobud və formaca primitiv əmək alətlərindən ibarətdir. Bunlardan çopperləri, çoppinqləri, baltavariləri və ibtidai formalı kobud əl çapacaqlarını nümunə göstərmək olar. Üzərində təbii qalığı olan müxtəlif qəlpələrdən hazırlanmış əmək alətləri də tapılmışdır. Qəlpələrin çoxu təbii qalıqla örtülmüş hamar vurma səthinə malikdir...

Maraqlıdır ki, VI təbəqədə ocaq qeydə alınıb tədqiq olunmuşdur. Ocaq mağaranın cənub hissəsində, qaya divarının yanında salınmışdır. Bu da mindel buzlaq dövrünün əvvəllərinə aid olmaqla ən qədim ocaqdır. Alətlərlə birlikdə düşərgədən müxtəlif heyvanlara aid çoxlu sümük qalıqları da tapılmışdır. Sümüklər olduqca daşlaşmış, çapılıb doğranılmış, bəziləri isə ocaqda yandırılmışdır. İbtidai insanlar əsasən iri heyvanları ovlamışlar.





Azıx sakinlərinin ovladıqları heyvanların tapılmış sümükləri əsasında müəyyən olunmuş heyvanat aləminin növləri göstərir ki, qədim aşel dövründə iqlim şəraitindən soyuqlaşmaya doğru dəyişikliklər baş verib. Azıxın qədim aşel fauna kompleksi Bakı çöküntülərinin yaranma dövrünə uyğun gəlir. Qədim aşel təbəqəsində tiraspol kompleksi nümayəndələrindən Şotenzaq bizonu, Merka kərgədanı və s. fauna qalıqlarının tapılması təbəqənin Bakı dövrünə aid olduğunu göstərir...

Çaydaşı alətləri mədəniyyətinə malik olan alt təbəqələr altıncı təbəqədə qədim aşel dövrü mədəniyyəti ilə əvəz olunmuşdur. Qədim aşel dövrü də öz növbəsində orta aşel mədəniyyətinə məxsus olan beşinci təbəqə ilə əvəz olunmuşdur. Arxeoloji qazıntılar nəticəsində beşinci təbəqədən tapılmış daş alətlərin əsasını çopperlər təşkil edir. Kompleksin içərisində əl çapacaqları müxtəlif klekton tipli daş məmulatı və kobud iti uclu alətlər də qeydə alınmışdır. Beşinci təbəqənin əmək alətləri qədim aşel dövrü daş məmulatlarının bəzi xüsusiyyətlərini özündə əks etdirir. Mədəni təbəqələrin müxtəlifliyi və həmin təbəqələrdən tapılmış materiallar göstərir ki, alətlərin hazırlanma texnikası, eləcə də, onların dəyişməsi tədricən inkişaf etmişdir.

Mağarada dar keçidlərlə birləşmiş **6** salon var. Ən böyüyü **3**-cü salondur. Mağaranın **2** girişi var. Mağara Aşağı Paleolit dövrünə aid nadir abidədir. Azıx mağara düşərgəsində aparılan arxeoloci qazıntılar zamanı **10** təbəqə qeydə alınmışdır. **1968**-ci ildə mağaradan (V təbəqədən) Aşel dövrünə aid ibtidai insanın – **Azıxantropun** (*19 yaşlı qadının - N.T.*) çənə sümüyünün (professor D.Hacıyev müəyyən edib ki, tapılmış bu çənə keçmiş SSRİ ərazisində ən qədim insan çənəsdir) bir hissəsi - alt

çənəsinin qırılmış hissəsi tapılıb. Bu qırılmış hissə alt çənənin sağ qanadıdır. Üstündə gövdənin arxa hissəsi və yüksələn şaxənin aşağı yarısı qorunub saxlanılmışdır. Dişlərdən yalnız **üçüncü azı** bütöv saxlanılmış, **ikinci azı** isə ortadan sınmışdır. **Birinci azı** isə tamamilə yoxdur, lakin onun diş yuvaqları, çənənin iri olması olduqca yaxşı nəzərə çarpır. Bu baxımdan *azıxantropun* alt çənəsi avstrolopiteklərdən fərqlənir və müəyyən cəhətlərinə görə arxantroplara bənzəyir.

*Azıx mağarasından* tapılmış çənənin quruluşundakı spesifik cəhətlərə görə, bu tapıntı bir tərəfdən pitikantroplara (*xüsusilə* ***mauer adamı*** *çənəsinə*) yaxınlıq təşkil etməklə yanaşı, digər tərəfdən də Fransadakı Araqonun aşel təbəqələrindən aşkar olunmuş preneandertallara daha yaxındır. Azıx mağarasının V təbəqəsindən kobud işlənmiş daş alətlər, çoxlu miqdarda mətbəx tullantıları, ocaqlar, xəlvət yer, daşdan tikinti hissəsi və s. aşkar olunmuşdur. Azıx sakinləri orta aşel dövründə ovçuluqla daha yaxşı məşğul olmuşlar. Qədim aşel dövründə **11** növ iri heyvan, orta aşeldə isə **45** növ heyvan və quş ovlanmışdır.

Qeyd etmək lazımdır ki, müxtəlif qaşovlar, dişli və gəzli alətlər, isgənə şəkillilər, itiuclular, limas tipli alətlərin hamısı hələ də kobuddur və çaydaşı alətləri məmulatına uyğün olaraq ibtidai görünüşlüdür. Ümumilikdə, bu kompleksin qədim aşel dövrü abidələri arasında oxşarı yoxdur. Arxeoloji material özündən aşağıdakı təbəqələrdə olan çaydaşı alətləri mədəniyyətinə və özündən yuxarıdakı (*V təbəqə*) orta aşelə yaxınlıq təşkil edir. **Quruçay mədəniyyəti** çaydaşı alətləri mədəniyyəti ilə aşel arasında keçid dövrünü təşkil edir.








Azıx paleolit düşərgəsi. Mustye mədəniyyəti. Əmək alətləri. III təbəqə

Onu da qeyd etmək lazımdır ki, azıxantropların həyatında ayı və maral ovu xüsusi yer tutmuşdur. Azıxantropların ovladıqları heyvanların əksəriyyəti mağara ayıları və müxtəlif maral növlərindən ibarətdir. Aşeldə aşkar olunmuş sümüklərin arasında kəmiyyət etibarı ilə çoxluğu bunlar təşkil edir ki, bu da görünür, azıxantropların yeməyində əsas yeri tutmuşdur. Azıxantroplar ovçuluq məhsulunun əhəmiyyətini aydın dərk etmişlər. Aşel dövründə ovçuluq özünün ən yüksək zirvəsinə çatmışdır. Ovçuluğun belə güclü inkişafı nəticəsində ibtidai adamlar torpaqda qazma üsulu ilə süni ocaqlar qurmağa başlamışdılar.

Təsadüfi deyil ki, orta aşel təbəqəsində **3** ocaq yeri qeydə alınmışdır. Ocaqlardan birinin sahəsi **10** kv.m-dir. Ocağın üç tərəfinə yandırılmış ağac külündən qalın sədd çəkilmişdir. Ocağın yanında əhəng daşlarından qurulmuş divar qalınlığı (hündürlüyü **30** sm) qeydə alınmışdır. Burada xırda ocaq yeri aşkar olunmuşdur. Ocağın hər iki tərəfi yastı əhəngdaşları ilə bərkidilmişdir. Böyük maraq doğuran cəhətlərdən biri də dövründən asılı olmayaraq orta aşeldə öyrənilmiş ocaqların mağaranın eyni sahəsində qeydə alınmasıdır. Bu, qohumluq ənənələrinin davamı üçün ən gözəl əsasdır.

Ocaqla eyni sahədə qaya divarları arasında *xəlvəti yerin olması* da təsadüfi deyildir. Həmin xəlvəti yerdə mağara ayılarının kəllələri gizlədilmişdir. Kəllələrin hamısı eyni üsul ilə çapılıb doğranılmış, onların alt və üst çənələri isə çapılaraq götürülmüşdür. Ayı kəllələrinin üzərində zədə izi qeydə alınmamışdır. Onların içərisində yalnız bir kəllə daha böyük maraq doğurur. Kəllənin üstündə **8** ayri xətt çəkilmişdir. Xətlərin ayrılıqda uzunluğu **15, 18, 20, 24, 45** və **47** mm-dir. Xətlərin aralığında





qoyulmuş məsafələr eyni deyildir. Ölçülərdən müəyyən olunur ki, burada xətlərin uzunluğunda və onların aralığında saxlanılmış məsafələrin ölçüsündə ümumi sistem yoxdur. Bu xətlərin hamısı daş alətlərin ağzı ilə kəsilmişdir. Buna bənzər tapıntı Almaniyanın Turinqi ərazisində Bilsinqslebendən də tapılmışdır.

Azıx mağarasında qeydə alınmış *xəlvətdə gizlədilmə üsulu* bəlkə də ibtidai dini təsəvvürlərlə əlaqədardır. Bu, mağara sakinlərinin düşüncələri haqqında təəccüb doğuran məsələlər qaldıra bilir. Burada çənə sümüyü iki yerə bölünmüş və bir-birinin üzərinə çarpaz vəziyyətdə qoyulmuşdur. Həmin vəziyyət xətlər vasitəsilə təkrar edilərək kəllənin üzərində çarpazlaşmış şəkildədir. Qeyd etmək lazımdır ki, göstərilən dövrə aid belə tapıntı heç bir aşel düşərgəsindən məlum deyildir. Ayı kəllələrinin belə xəlvəti yerdə gizlədilməsi, çox güman ki, o dövrdə dini təsəvvürlərin yaranmasını göstərən ilkin əlamətdir. Buna oxşar faktlar Gürcüstanda - Cənubi Osetiyada *Kudaro* mağarasının aşel təbəqəsində və Cənubi Fransada *Lazare* mağara düşərgəsində qeydə alınmışdır. Azıxantropun yaşı **350-400** min ilə bərabərdir. Azərbaycan arxeologiya elminin nailiyyəti olan bu tapıntı yaşının çoxluğuna görə dünyada **üçüncü** tapıntıdır.

**Azıx Paleolit düşərgəsi**ndə aşkarlanmış maddi mədəniyyət nümunələri özünün xüsusiyyətlərinə görə yeni bir mədəniyyət olduğunu söyləməyə imkan vermiş və **Quruçay mədəniyyəti** adlandırılmışdır. Quruçay mədəniyyətinin bir neçə inkişaf mərhələsi olması da elmi şəkildə aşkarlanmışdır.

Arxeoloji cəhətdən mağara **1960**-cı ildən öyrənilir. Mağaradan Preneandertal - Azıxantropun alt çənə sümüyünü mərhum arxeoloq-alim **Məmmədəli Hüseynov 1968-**

ci ilin yayında (*23 iyun*) aşkara çıxardı. Bu abidə Qarabağın Xocavənd və Füzuli bölgələrində paleolit dövrünün mövcudluğunu sübut edir. Aşağı Antropogen dövrünə aid yeganə çoxtəbəqəli abidə olan **Azıx mağarası** mağara tipli insan düşərgələrindən ən qədimidir. Xocavənd rayonunun ərazisində təxminən milyon il bundan əvvəl yaşayış olduğunu sübut edən **Azıx mağarası** arxantropların və daha qədim adamların məskəni olmuşdur.

Azıx mağarasının və onun ətraf zonasının paleocoğrafi şəraitinin tədqiqi nəticəsində elmi şəkildə sübut olunmuşdur ki, Azıx mağarasında ilk ibtidai insan **1,2 milyon il** bundan əvvəl məskunlaşmış, **120 min il** əvvəl isə mağaranı tərk etmişdir. Lakin insanlar **20 min il** keçdikdən sonra yenidən mağaraya qayıtmış və burada daha **50 min il** yaşamışlar. Paleolit dövrü arxeoloji abidələrindən sayılan **Azıx mağara düşərgəsi** dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir.

Çox təbəqəli Azıx düşərgəsinin üçüncü təbəqəsindən tapılmış daş məmulatının 1786 ədədi slanes, 1293 ədədi çaxmaq və 14 ədədi dəvəgözü daşından hazırlanmışdır. Düşərgənin üçüncü təbəqəsinin daş məmulatı içərisində 18 ədəd çay daşı qeydə alınmışdır.

Azıx düşərgəsinin Mustye mədəniyyətinə aid təbəqəsindən daş məmulatı içərisində 63 ədəd nüvə və 33 nüvə qırıqları qeydə alınmışdır. Azıx düşərgəsinin Mustye mədəniyyətinə aid olan təbəqəsindən tapılmış nüvələrin 31 ədədi slanes, 28 ədədi çaxmaq və 4 ədədi dəvəgözü daşından hazırlanmışdır. Tipoloji cəhətdən nüvələr disakşəkilli, birzərbəsəthli, ikizərbəsətli və levallua nüvələrinə bölünür. Qeyd etmək lazımdır ki, Mustye mədəniyyətinə aid təbəqədən tapılmış nüvələr qalıq nüvələrdən ibarətdir. Onların üzlərindən çoxlu qəlpə və lövhələr qoparılmışdır.





Azıx düşərgəsinin üçüncü təbəqəsindən tapılmış əmək alətlərini aşağıdakı tiplərə ayırmaq olar:

1) tipik levallua qəlpələri (39 ədəd);
2) atipik levallua qəlpələri (17 ədəd);
3) levallua itiucluları (68 ədəd);
4) dişəklənmiş levallua itiucluları (36 ədəd);
5) psevdolevallua itiucluları (12 ədəd);
6) mustye itiuclular (16 ədəd);
7) sadə birağızlı qaşovlar (23 ədəd);
8) sadə birağızlı qabarıq qaşovlar (27 ədəd);
9) sadə birağızlı batıq ağızlı qaşovlar (19 ədəd);
10) iki düz işlək ağızlı qaşovlar (18 ədəd);
11) iki düz işlək ağızlı batıq qaşovlar (9 ədəd);
12) iki işlək ağızlı qabarıq qaşovlar (6 ədəd);
13) iki işlək ağızlı batıq-qabarıq qaşovlar (7 ədəd);
14) konvergent qaşovlar (7 ədəd);
15) künclü qaşovlar (14 ədəd);
16) Tağlar tipli qaşovlar (4 ədəd);
17) enli qaşovlar (16 ədəd);
18) əl çapacaqları (2 ədəd);
19) kobud çapma aləti (1 ədəd);
20) kiçik ölçülü alətlər (55 ədəd).

Azıx düşərgəsinin Mustye mədəniyyətinə aid təbəqəsindən tapılmış daş məmulatının zənginliyi burada qədim insanların daimi və uzun müddət yaşadıqlarını göstərir. Eyni zamanda mağara sakinləri əmək alətlərinin bir hissəsini mağaranın özündə, digər hissəsini isə düşərgədən kənarda hazırlamışdır. **Azıx** Mustye düşərgəsinin daş məmulatının elmi təhlili göstərir ki, mağara sakinləri əmək alətlərinin bir hissəsini mağaranın özündə, digər hissələrini isə düşərgədən kənarda, yəni Quruçay dərəsində hazırlamış və sonralar düşərgəyə gətirib həmin

alətlərdən istifadə etmişlər. Eyni zamanda Mustye mədəniyyəti dövründə neandertal tipli insanlar Azıx düşərgəsində daimi yaşamışlar. Mustye mədəniyyəti dövründə qədim Azıx sakinlərinin əsas məşğulliyyəti ovçuluq və yığıcılıq olmuşdur.

Onu da qeyd etmək yerinə düşər ki, çaxmaqdaşı Azərbaycan Respublikasının **Qarabağ** ərazisində, dəvəgözü daşı isə Kəlbəcər rayonu ərazisində və Göyçə gölü ətrafında daha çox yayılmışdır. Mustye mədəniyyəti dövründə daşdan əmək alətləri hazırlamaq üçün xammal toplamaqla xüsusi insanlar qrupu məşğul olurdu. Digər insan qrupu isə düşərgələrə gətirilmiş çaydaşlarından əmək alətləri hazırlamaqla məşğul olurdular. Ona görə də daimi yaşayış yeri olan düşərgələrdə arxeoloji qazıntılar zamanı təbii çaydaşları ilə birlikdə onlardan hazırlanmış əmək alətləri, istehsal tullantıları qəlpələr, lövhələr və nüvələr aşkar olunmuşdur.

Azıx paleolit düşərgəsinin Mustye mədəniyyətinə aid olan üçüncü təbəqəsinin daş məmulatı içərisində zəngin əmək alətləri qeydə alınmışdır. Üçüncü təbəqənin əmək alətləri içərisində 68 ədəd levallua itiucluları müəyyən edilmişdir. Maraqlıdır ki, onların əksəriyyəti çaxmaqlaşmış slanes daşından (36 ədəd), 32 ədədi isə çaxmaqdaşından hazırlanmışdır. Levvallua itiucluları əsasən birinci və ikinci qoparma üsulu ilə hazırlanmışdır.

Azıxın Musye mədəniyyətinə aid alətləri içərisində 37 ədəd dişəklənmiş levallua itiucluları müəyyən olunmuşdur. Dişəklənmiş levallua itiuclularının 21 ədədi çaxmaqdaşından, 14 ədədi çaxmaqlaşmış slanes daşından, 2 ədədi isə dəvəgözü daşından hazırlanmışdır. Dişəklənmiş levallua itiucluları əsasən dk, yarımdik və bəzən də itiləyici dişəklə işlənmişdir.





Azıx düşərgəsinin Mustye mədəniyyətinə aid olan üçüncü təbəqəsinin əmək alətləri içərisində Mustye itiucluları xüsusi maraq doğurur. Daş məmulatı içərisində 16 ədəd Mustye itiuclusu qeydə alınmışdır. Bunların 13-ü çaxmaqdaşından, 3-ü isə dəvəgözü daşından hazırlanmışdır. Mustye itiucluları olduqca incə işlənmişdir. Levallua itiuclularından fərqli olaraq Mustye itiucluları daha geniş sahədə dişəklənmişdir. Uzunluğuna görə Mustye itiuclularının əksəriyyəti 5-9 sm-də olanlar təşkil edir. Eyni zamanda Mustye itiucluları levallua itiuclularına nisbətən daha qalın qəlpələr üzərində hazırlanmışdır.

Azıx paleolit düşərgəsinin Mustye mədəniyyətinə aid olan üçüncü təbəqəsinin əmək alətləri içərisində ikinci əsas yeri qaşov tipli alətlər tutur. Qaşov tipli alətlərin əksəriyyəti çaxmaqdaşından hazırlanmışdır. Tipoloji xüsusiyyətlərinə görə qaşov tipli alətləri bir neçə qrupa bölmək olar. Onların arasında sadə və bir ağızlı qaşovlar, sadə bir ağızlı düz qaşovlar, sadə düz ağızlı qabarıq qaşovlar, sadə düz ağızlı batıq qaşovlar, iki işlək ağızlı qaşovlar (*onların arasında düz ağızlı, qabarıq ağızlı və batıq ağızlı qaşovlar müəyyən olunmuşdur*), eyni zamanda daş məmulatı içərisində konvergent qaşovlar, künclü qaşovlar, enli qaşovlar, Tağlar tipli qaşovlar, tipik və atipik qaşovcuqlar, kəsici alətlər, bıçaq tipli alətlər, gəzli alətlər, dişli alətlər, çapma alətləri və əl çapacaqları qeydə alınmışdır.

Maraqlıdır ki, Azıx düşərgəsinin Mustye mədəniyyətinə aid təbəqəsindən iki ədəd əl çapacağı tapılmışdır. Tipoloji cəhətdən bu əl çapacaqları yarpaq və ürək şəkillidir. Əl çapacaqları orta paleolit dövrü üçün ən nadir tapıntılardan hesab edilir. Ümumiyyətlə, orta paleolit dövrü üçün əl çapacaqları xarakterik deyildir. İki ədəd əl çapacağının Azıx düşərgəsinin üçüncü təbəqəsindən

tapılması Azərbaycanın orta paleolit düşərgələri içərisində ən qədim Mustye düşərgəsinin Azıx mağarasının üçüncü təbəqəsindən müəyyən olunduğunu söyləməyə imkan verir. Aparılan kompleks elmi tədqiqat işləri də Azərbaycan ərazisində ən qədim Mustye mədəniyyətinə aid arxeoloji tapıntıların Azıx düşərgəsində olması qənaətinə gəlinir.

Azıx düşərgəsinin üçüncü təbəqəsində aşkar olunmuş daş məmulatının elmi təhlili göstərir ki, düşərgənin ən qədim sakinləri əmək alətlərinin bir hissəsini mağaranın özündə, digər hissəsini isə düşərgədən kənarda, yəni Quruçay sahillərində hazırlayıb düşərgəyə gətirmişlər. Eyni zamanda Mustye mədəniyyəti dövründə neandertal tipli insanlar Azıx düşərgəsində daimi yaşamışlar...

Azıx mağarasının kompleks tədqiqi ilə M.Hüseynov, D.Hacıyev, Ə.Məmmədov, N.Şirinov, V.Veliçko, Ə.Cəfərov, V.Hacıyev, S.Əliyev, M.Süleymanov və digər alimlər yaxından məşğul olmuşlar. Azıx mağara düşərgəsində aparılan elmi tədqiqat işləri nəticəsində orada əsas 10 arxeoloji təbəqə olduğu qeydə alınmışdır. Azıxdan aşkarlanmış arxeoloji materialların olduqca mühüm elmi əhəmiyyəti vardır. Mağarada qədim insanların ilk məskunlaşması məhz bu elmi-arxeoloji materiallar əsasında sübut olunmuşdur.



Arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, ***Quruçay mədəniyyəti*** dövründə qədim insanlar əsasən ovçuluq və yığıcılıqla məşğul olmuşlar. Tədqiqat işlərindən Azərbaycan ərazisində bəşər tarixinin *Quruçay mədəniyyəti* dövründən başlanması elmi dəlillərlə sübut olunmuşdur.





Qədim Azıx sakinləri torpaqda qazma üsulu ilə süni ocaqlar qururdular. Buradakı orta aşel təbəqəsindən 3 ocaq yeri qeydə alınmışdır. Bu ocaq yerləri ocağın qədim insanların həyatında mühüm rol oynadığını göstərir.



Azıx mağarasının IV təbəqəsindən arxeoloji materiallar tapılmayıb. Deməli, Azıx sakinləri bu vaxt mağarada yaşamamışlar. Sonralar *Mustye mədəniyyəti* dövründə onlar çox güman ki, yenidən mağarada yaşamağa başlamışlar. Bu, düşərgənin III təbəqə materiallarında öz əksini tapmışdır. Bu təbəqədən tapılmış 2 ədəd əl çapacağı ***Mustye dövrü*** üçün ən nadir tapıntılardandır...

Azıx paleolit düşərgəsində aşkar olunmuş maddi mədəniyyət qalıqlarının elmi təhlili ibtidai adamların ilk dini təsəvvürləri haqqında yeni fikirlər deməyə əsas verir. Azıxantrop spesifik xüsusiyyətlərinə görə pitekantropa, Heydelberq (Mauer) adamının çənəsinə, eləcə də Fransanın Araqo mağarasının Aşel təbəqələrindən tapılmış preneandertallara daha yaxındır...

Dünyada elə bir mağara düşərgəsi yoxdur ki, orada mədəni təbəqələr Azıxdakı kimi zəngin olsun və yaşayış uzun müddət davam etsin. Əfsuslar olsun ki, dünya

əhəmiyyətli **Azıx mağara düşərgəsi** neçə illərdir ki, erməni tapdağı altında inləyir...

Əlavə məlumat üçün bax: **Quruçay mədəniyyəti**.

## AZIXANTROP

**22 iyul 1968**-ci il tarixdə Odlar yurdunun qədim - qayım Qarabağ ərazisində, Xocavənd rayonunun Azıx və Tuğ kəndləri yaxınlığında Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası tərəfindən dünya elmini zənginləşdirən böyük bir elmi **kəşf** olundu...



**Azıx** sözündəki **Az** öncə ***od-ad-oz-odər-Azər*** – Azərbaycan yer və xalq adının baş komponenti kimi aydındır; **-ıx** komponenti isə **maq** kökünə bağlıdır...

Bəzi tədqiqatçılara görə **Azıx** yer adı **Azərbacyan** sözü ilə əlaqəlidir və «*Az oymağı, azərbaycanlılar oymağı, yeri, yurdu, məskəni, kəndi, mağarası*» deməkdir. **Azıx** sözünün ***Azox, Arux, Arix, Azax, Azex, Azöx, Azüx, Azəx, Arıq*** və s. variantlarının hamısı məna etibarı ilə məhz bu ulu məzmunu əks etdirir. Deməli **Azıxantrop-*Azıx adamı*** bütün variantlarda «*Az adamı*», «*Od adamı*», «*Azərbaycan adamı*» deməkdir...





Əlavə məlumat üçün bax: **Azıx mağarası** və **Müqəddəs Qarabağım**.

Yuxarıda qeyd etdiyimiz kimi **1968**-ci ildə Azıx mağarasında alt çənə sümüyünün bir hissəsi tapılmış və bununla da ibtidai insana verilən ad **Azıxantrop** kimi («*Azıx adamı*») rəsmiləşdirilmişdir. Onun çənə sümüyü qalın, dişləri isə xırdadır. ***Azıxantrop*** elmi məlumatlara görə təqribən **350-400** min il bundan əvvəl yaşamışdır. Antropoloji xüsusiyyətlərinə görə o, *Sinantrop* və *Heydelberq* adamlarına uyğun gəlir, eyni zamanda *Neandertal* adamına da yaxındır.

Professor D.V.Hacıyevin **azıxantrop** üzərində apardığı elmi araşdırmalardan məlum olmuşdur ki, **çənə** quruluşundakı xüsusiyyətlərə görə, bir tərəfdən pitikantroplara, xüsusilə Mauer adamının çənəsinə, digər tərəfdən isə Fransanın cənubunda olan Kondel-Araqo düşərgəsinin qədim Aşel mədəniyyətinə aid təbəqəsindən tapılmış preneandertal tipli insanlara daha çox yaxındır. Azıx mağarasından tapılmış ibtidai insana məxsus olan *çənə* tamamilə daşlaşmış və rəngini dəyişmişdir. Bu **çənə** ibtidai insanın alt çənəsinin sağ hissəsidir. Çənənin alveol hissəsində üçüncü ***azı*** (*ağı*) dişi tam şəkildədir, ikinci azı dişinin üst hissəsi sınmışdır.

Azıxantropun çənəsinin qalınlığı, dişlərinin quruluşu və ölçüləri paleantropoloji müqayisə üçün mühüm elmi əhəmiyyətə malikdir. Bu *alt çənə* avstralopitek, arxantrop, sinantrop və pitikantropla müqayisə edilmişdir. Ehtimal etmək olar ki, Azərbaycanda və Qafqaz dağlarında yaşamış Aşel dövrü adamları **azıxantrop** tipli insanlar olmuşlar.

**Azıxantrop** ilk paleantropa keçid pilləsini təşkil edir. ***Azıxantrop*** sümüyünün tapıldığı Aşel təbəqəsindən çoxlu daş alətlər də əldə edilmişdir...

## BABA BULAĞI

Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınmış hidronimlərdən bir **Baba bulağı** adlanır. **Baba bulağı** hidronimi ***Baba*** şəxs adından və ***bulaq*** hidronimik vahidindən ibarətdir. Soyuq və dumduru suyu olan bu *bulaq* və onun ətraf sahələri Qarabağın cənnət guşələrindən biridir. **Bulaq-** "*yeraltı suların səthə çıxdığı yer*", "*çeşmə*", "*qaynaq*" deməkdir.

## BABALI TAPI

Respublikamız ərazisində "*su çıxmayan düz yer*", "*dağ ətəyində su çıxmayan düz yer*", "*düzən yerdə təpə*", "*dağ döşündə düzənlik*", "*dağ düzənliyi*" anlamlarında işlənən **tap** termini ilə bağlı çöl materialları içərisində **500** coğrafi ad qeydə alınıb. Xocavənd rayonunun Tağaverd kəndi ərazisində qeydə alınan **Babalı tapı** oroqrafik obyekti də bu tipli oronimlərdəndir. Oronim **Baba** şəxs adından, **-li, -ı** şəkilçilərindən və **tap** termimindən ibarətdir. *Baba* antroponimindən ***babalı*** nəsil adı düzəlmişdir. **Babalı tapı** toponimi patronimik oronimdir. Toponim " *dağ döşündə Babalılara məxsus olan düzənlik*" mənasındadır.

## BADAR OYMAĞI

Vaxtilə Arazbar qəzasında, indiki Xocavənd rayonunun Əmirallar kəndinin yaxınlığında Qarabağın sayılıb-seçilən ellərindən olan Otuziki elinin **Badar** adlanan **oymağı** olmuşdur. Bu coğrafi ad indiki Füzuli rayonunun





Bəhmənli və Horadiz kəndləri yaxınlığında da qeydə alınmışdır. **Badar oymağı** toponimi öz adında otuziki elinə aid olan oymağın adını əks etdirir.

**1593**-cü ilə aid olan Osmanlı qaynağında Otuziki elinin oymaqlarının sırasında ***Badar*** (*Arazbar qəzası*) adına da rast gəlirik. **Badar** sözü türk dillərində "*kiçik tarla*" "*dağınıq sahə*", "*kiçicik ərazi*" mənalarında işlədilir...

## BAĞÇA YERİ

Axullu kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Bağça yeri** adlanır. Həmin sahədə ***bağça*** salındığı üçün toponim belə adlandırılmışdır. **Bağça yeri** deyilən sahədə çoxlu gül-çiçəklər və meyvə ağacları vardır...

## BAĞIRSAQ MEŞƏSİ

Cəmiyyət (Ningi) kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Bağırsaq meşəsi*** adlanır. Meşənin belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır...

## BAĞRIQAN DAĞI, MEŞƏSİ

Xocavənd rayonu ərazisində, Qarabağ silsiləsində, Gavahın kəndinin 10 kilometrliyində qeydə alınan **Bağrıqan dağı** və **Bağrıqan meşəsi** haqqında Qarabağda müxtəlif rəvayətlər dolanmaqdadır. Bəzən bu oroqrafik ob-

yekti yerli əhali **Bağırqan dağı, Baxır xan dağı, Bağır xan meşəsi** şəklində də tələffüz edirlər. Bu meşədə çoxlu bulaqlar var. Bu meşənin ərazisində baldırğan, böyütkan, çaqqala, meşə zoğalı, xınalouz, qulançar, əvəlik, yemlik, quzuqulağı, yarpız, quşəppəyi, əməkömənci, pəlpətöyün, cincilim, gicirtkan, təbibgülü, qanlı bənövşə və s. bitkilər bitir.....

***Dağ*** müsbət relyef forması bildirən termini nisbi yüksəkliyi 200 metrdən çox olan hündürlüyə deyilir. Qədim türk yazılı abidələrində də ( VI – VIII əsrlər) ***dağ/ tağ*** sözünə rast gəlinir...

Dağın ***Bağrıqan*** adlanması, məcazi məna (*bağrının qanlı olması*) daşıyır. **Bağır** türk sözü olub mənası "*ciyər*" deməkdir. Bu oronimin "*Günəşin doğması ilə dağın qırmızımtıl rəng alması*" fikri ilə yarandığını güman edənlər də var. **Bağrıqan** toponimi haqqında M.M.Nəvvab da xalq etimologiyasına əsaslanan rəvayət söyləmişdir:

"... Şuşa qalasının şərq tərəfində ***Bağrıqan*** deyilən bir uca qaya vardı. Həmin dağda Avan koxa adlı bir erməni yaşayırdı. O, öz tələbələrinə demişdi ki, harda əlinizə müsəlman düşsə, onun hüzuruna gətirsinlər. Avan Koxanın əmri ilə tutulmuş müsəlmanı çılpaqlayıb üzüüstə yerə yıxardılar, bundan sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla soyub boynundan qom ətinəcən iki tərəfdən xətt çəkirdilər, dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib budağı buraxardılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı o dağa düşərdi. Bu əhvalatı görənin də *bağrı qan-qan* olardı. Elə buna görə də həmin qayaya **Bağrıqan dağı** adı vermişlər..."





## BAXDİK

Axullu kəndi yaxınlığında, kənddən 5 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri **Baxdik** adlanır. Yerli sakinlər bəzən bu yerin adına **Hündür təpə** də deyirlər. **Baxdik** oronimini **bax** və **dik** komponentlərinə ayırmaq olar. **Dik** termini «*hündür*» anlamındadır. Əraziyə yaxın olan kəndəlrin sakinləri ***Baxdik*** toponimi ilə bağlı müxtəlif rəvayətlər uydurmuşlar. Toponimin tam elmi izahı hələlik verilməyib...

## BAKUR

Xocavənd rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri **Bakur** adlanır. Bu oroqrafik obyekt vaxtilə Alban keşişlərindən biri olmuş Nersesin əsl adı olan **Bakur** nomeni ilə bağlıdır. ***Bakur*** oykonimi quruluşca yalnız antroponimdən ibarət olan toponimlərdəndir.

## BALACA OYUQLU

Xocavənd rayonunun Əmirallılar kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Balaca oyuqluq** adlanır. Oradakı daş parçasının üzərindəki ***balaca oyuq*** olduğu üçün yerli əhali arasında belə ad almışdır...

## BALLI BULAQ

Rayonun istirahət zonalarından biri **Ballı bulaq** adlanır. Hidronim **bal** və **bulaq** sözlərindən, eləcə də **-lı**

mənsubluq ifadə edən şəkilçidən ibarətdir. Bu bulağın göz yaşı kimi dumduru, buz kimi soyuq və ***bal*** kimi şirin suyu var. Toponim bulağın suyunun **bal** kimi şirin olduğu (*«**bal** kimi şirin sulu bulaq»*) üçün belə ad almışdır...

## BALLI QAYA

Füzuli rayonunun Qacar kəndinin qərb sərhədi boyunca, Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Ballı qaya** adlanır. Oronim **bal** və **qaya** sözlərindən, eləcə də, **-lı** mənsubiyyət şəkilçisindən ibarətdir. **Qaya** - müsbət relyef forması bildirən coğrafi termindir. Oronimiyada dağların müəyyən hissəsində çətin keçilən yer, sıra dağlardan ayrılmış qol **qaya** termini ilə ifadə olunur. Çöl materialları içərisində ***qaya*** termini ilə bağlı Azərbaycanda **3000**-dən çox oronim qeydə alınıb.qaya sözünə VI-VIII əsrlər qədim türk yazılı abidələrində, XI əsr Mahmud Kaşğarinin lüğətində *«Kitabi-Dədə Qorqud»* dastanlarında rast gəlinir. Bu söz hazırda türk, uyğur, tatar (*qaya*), özbək (*kaya*), başqırd (*kaya*) dillərində də işlədilir.

**Ballı qaya** toponimi *"bal arısının yuvası olan qaya"* mənasındadır. ***Qayadakı*** kiçik təbii oyuqlarda vəhşi **bal** arılarının (*arı pətəkləri yuva saldıqlarına görə*) pətək salması ilə əlaqədar olaraq oronim belə ad almışdır. **Ballı** arıçılıqla bağlı olub *«balla zəngin»*, *«bal olan»* mənasındadır. Arılar qayada yuva qurub bal toplamışlar; həmin bal qayadan süzüldüyünə görə bu yer **Ballıqaya** adlandırılmışdır. ***Ballıqaya*** oroniminə Ağdam, Ağsu, Qubadlı, Goranboy, Füzuli, İsmayıllı, Laçın, Masallı, Oğuz, Xızı, Xocalı, Şamaxı, Şuşa rayonlarının ərazisində də rast gəlirik...





## BANAZUR KƏNDİ

(Bax: **Binədərəsi kəndi**)

## BAŞ BULAQ

Füzuli şəhərinindən 14 kilometr qərbdə, Xocavənd rayonunun Tuğ kəndi ərazisində, ecazkar təbiətin qoynunda, çoxlu bulaqlar əhatəsində qeydə alınan hidronimlərdən biri **Baş bulaq** adlanır.

Hidronim yaxınlıqdakı bulaqlardan azacıq yüksəklikdə, bir qədər **başda** yerləşdiyi üçün belə ad almışdır. Bulağın göz yaşı kimi çox duru, şəffaf və buz kimi soyuq suyu vardır...

Azərbaycan toponimiyasında **bulaq** hidronimik apelyativinin iştirakı ilə yüzlərlə hidronim qeydə alınmışdır...

## BAYRAM BULAĞI

Tuğ kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Bayram bulağı** adlanır. Hidronim **Bayram** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Bayram** bulağın gözünü təmir etdirib onun suyunu üzə çıxaran adamın adıdır. ***Bulaq*** da sonralar elə onun adı ilə adlandırılmışdır. Bayram bulağının çox soyuq və göz yaşı kimi dumduru suyu vardır...

## BAYRAMBƏYLİ KƏNDİ

Qarabağda, indiki Xocavənd rayonunun ərazisində, vaxtilə Dizaq nahiyəsi tərkibində mövcud olmuş kəndlər-

dən biri **Bayrambəyli kəndi** adlanırdı. **1593**-cü ilə bağlı olan osmanlı qaynağında kəndin adı **Bayrambəy** kimi çəkilib. **1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi qaynaqda yazılır: «***Bayram kəndi.*** *Kənddə heç kim yaşamır. Dənli bitkilərdən əldə edilən gəlir: 7200 axça*».

Xanlıq dönəmində bu kəndin ərazisində Cəbrayıllı elinin ***Əbdülrəhmanlı obası*** yerləşirdi. Qarabağ xanı İbrahimxəlil xan bu torpağı Hacı Ağası bəyə və onun ağıllı, gözəl arvadı Pəri xanıma bağışladı. *Əbdülrəhman bəy* onların övladıdır...

## BƏHRƏMLİ KƏNDİ, BƏHRƏMLİ QIŞLAĞI

Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında vaxtilə mövcud olmuş yaşayış məntəqəsi **Bəhrəmli** adlanmışdır. Son zamanlara qədər (*erməni işğalına kimi*) də bu kəndin xarabalığı dururdu.

**Bəhrəmli** oykonimi patronimik toponimdir. Bu kəndin ayrı-ayrı nəsilləri kənd boşaldıqdan sonra yaxınlıqdakı Əmirallar, Muğanlı kəndləri və digər yaşayış məntəqələrində məskunlaşmışlar. ***Bəhrəmli*** kəndinin ***qışlaq*** yeri (***Bəhrəmli qışlağı***) də ermənilər tərəfindən zəbt olunub. **Qışlaq** - qış aylarında mal-qaranın bəsləndiyi yerdir. Bu termin Azərbaycan dilindən fars dilinə də keçmişdir.

## BƏHRƏMLİ PİRİ

Xocavənd rayonu ərazisində, Əmirallar kəndinin yaxınlığında, keçmiş *Bəhrəmli* kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Bəhrəmli piri** adlanır. ***Bəhrəmli piri*** toponimi **Bəhrəm** şəxs adından, **-li** mənsubluq bildirən şəkilçidən və **pir** sözündən ibarətdir. Bu coğrafi ad **Bəhrəmli kəndi** oykonimi ilə əlaqədar belə ad almışdır. Toponim «*Bəhrəmlidə olan müqəddəs pir-ocaq*» mənasındadır.

Azərbaycanda **pir-ocaq** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarları olan **pirlər** adətən ziyarətgahlara çevrilmişdir. Adamlar onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan *atəşpərəstlik* və bura kənardan gətirilən *xristianlıq* və *islam* dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır, pirə gətirilən pul, paltar, çay, qənd və s. bəxşiş kimi orada qalır. **Pir** adlarında etnonimin işlənməsi hər bir ulusun, elin, tayfanın öz tapınağı olduğunu göstərir. **Pir** sözü farsca «*müqəddəs*», «*dini icmanın başçısı*», «*nurani qoca*» və s. mənalara malikdir. Azərbaycanda **pir** sözü ilə bağlı **37** yaşayış məntəqəsi və **300**-dən çox oronim qeydə alınmışdır.

## BƏYLİ BULAĞI

Avdur kəndi ərazisində qeydə alınmış hidronimlərdən biri **Bəyli bulağı** adlanır. Toponim **bəyli** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Bu bulağın göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır. Vaxtilə çox onillər öncə adlı-sanlı **bəylər** ətrafı ilə birlikdə burada, **bulaq** başında oturub dincələr, istirahət edər, yeyib-içərdilər. Elə o zamanlardan da bu bulağa el arasında **Bəyli bulağı** deyilmişdir...

## BƏYLİK BAĞI

Qaradağlı kəndinin yaxınlığında, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri **Bəylik bağı** adlanır. Bu səfalı təbiət qoynu olan bağın ərazisində çoxlu sayda meyvə ağacları da var. **Bəylik bağı** coğrafi adı **bəy** titulundan, **-lik** şəkilçisindən, **bağ** sözündən ibarətdir. Toponim «*bəyə məxsus olan bağ*» deməkdir. Yerli məlumata görə, vaxtilə ətraf ərazilərin adl-sanlı **bəyləri** ev tikdikdən sonra burada əylənər, dincələr və istirahət edərdilər. Elə buna görə də **bağ** belə ad almışdır. Bu tipli oronimlərə Azərbaycanın başqa bölgələrində də rast gəlmək olar.

Xocavənd rayonu ərazisində, *Bəylik bağı* yaxınlığında **Bəylik bulağı, Bəylik dağı, Bəylik qışlağı** adlı toponimlər də qeydə alınmışdır...

**17 fevral 1992**-ci il tarixdə Qaradağlı kəndi işğal edildikdə **Bəylik bağı** ərazisində erməni faşistləri əsir götürdükləri əksəriyyəti gənc olan azərbacyanlıları vəhşicəsinə qətlə yetirmişlər. Xalqımızın başına gətirilən bu faciə əsla unudulmamalıdır...

## BƏYLİK BULAĞI

Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində, Bəylik dağı yaxınlığında, kənddən 2 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri **Bəylik bulağı** adlanır. Bu oroqrafik obyekt titul bildirən **bəy** sözündən, **-lik** mənsubiyyət şəkilçisindən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Hidronim "*bəyə məxsus olan bulaq*" anlamı ifadə edir. Bu bulağın dumduru və soyuq suyu var. Yerli sakinlərin dediklərinə görə, onun suyu müalicəvi əhəmiyyətə malikdir.





**Bulaq**- "*yeraltı suların səthə çıxdığı yer*", "*çeşmə*", "*qaynaq*" mənasındadır.

Rayon ərazisində bu tipli toponimlərdən sayılan **Bəylik dağı** coğrafi adı da qeydə alınmışdır (Əlavə məlumat üçün bax: **Bəylik dağı**).

## BƏYLİK DAĞI

Qaradağlı kəndinin yaxınlığında, kənddən 3 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri **Bəylik dağı** adlanır. Oronim **bəylik** və **dağ** sözlərindən, eləcə də **–ı** şəkilçisindən təşkil olunmuşdur. **Bəylik** sözü **bəy** titulundan və **–lik** şəkilçisindən ibarətdir. **Dağ** coğrafi termini müsbət relyef forması ifadə edir. **Bəylik dağı** toponimi «*bəyə məxsus olan dağ*» mənasındadır.

## BƏYLİK QIŞLAĞI

Xocavənd rayonunda, Qarabağ silsiləsi ətəyində, rayon mərkəzindən 10 kilometr məsafədə, Muğanlı kəndinin yaxınlığında qeydə alınmış coğrafi adlardan biri **Bəylik qışlağı** adlanır. Toponim titul bildirən **bəy** sözündən, mənsubluq ifadə edən **–lik** şəkilçisindən və mal-qaranın qışladığı otlaq sahəsi olan **qışlaq** termindən ibarətdir. **Bəylik qışlağı** toponimi "*bəyə məxsus olan qışlaq*" mənasındadır. Bu qışlaq da vaxtilə *bəylərə*, sahibkarlara məxsus olduğu üçün belə adlandırılmışdır.

Xocavənd rayonu ərazisində bu qəbildən olan ***Bəylik bulağı***, Saatlı rayonunda **Bəylik kəndi** və s. toponimlər də qeydə alınmışdır.

## BƏYTƏPƏ DAĞI

Xocavənd rayonunun ərazisində dağ. Əsl adı **Bəytəpəsidir**. **Təpə** burada bir bəyə məxsus olmasına görə belə adlandırılmışdır. **Bəy** (***bay***) apelyativinin türk dillərində *"varlı"*, *"feodal"* anlamları var. Bəy sözünün türk dillərində *"böyük"*, *"uca"* mənaları da məlumdur. Azərbaycan oronimiyasında bir qrup obyektlərin adları titul və peşə bildirən sözlərin terminlərlə birləşməsindən meydana gəlmişdir. **Bəytəpə dağı** da bu qrupa daxil olan oronimlərdəndir. Astarada Bəydərə, Kürdəmirdə Bəyi kəndi də belə coğrafi adlardandır...

Bu tipli oronimlərdə birinci tərəf peşə, titul və vəzifə bildirən bir sıra sözlərlə ifadə olunur. Onlar obyektin və ya vaxtilə tabeliyində olduğu, ya da həmin obyektdə yaşayan və ya başına müəyyən bir hadisə gələn peşə... sahibini göstərməyə xidmət edir.

**Bəy** apelyativi qədim türk dilində *"hökmdar"*, *"rəhbər"* mənalarında da işlənib...

Astarada ***Bəydərə***, Kürdəmirdə ***Bəyi kəndi***, Dəvəçidə ***Bəyimdağ*** və s. də belə coğrafi adlardandır...

## BİNƏ KƏNDİ

Xocavənd rayonunda, rayon mərkəzindən 50 km cənub-qərbdə qeydə alınmış oykonimlərdən biri **Binə** adlanır. **Binə kəndi** Qarabağ silsiləsinin dağətəyi ərazisində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, baramaçılıq və bostançılıqla məşğul olur. Kəndin yerləşdiyi ərazi kurort iqliminə malikdir.

**Binə** sözü *"mal-qara saxlanılan yer"* deməkdir. Əsasən maldarlıqla məşğul olan əhalinin kənd yaxınlığında məskən saldıqları yer adətən **binə** adlanır. Maldarlar yaylaqlarda yurd salıb yaşadıqları yerləri də **binə** adlandırırlar. Bu yaşayış yerinin adı da **binə** ilə əlaqədardır.





**Binə** yaşayış məntəqəsi bir müddət **Domı, (*Domu, Tomu*)** adlanıb. **1992**-ci ildə kəndin əvvəlki adı (***Domu***) bərpa edilib...

**1727**-ci ilə aid *"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"* adlı tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında **Tomu kəndi** adına da rast gəlirik. **Tomu/Domu** sözü binə sözünə yaxın *«oturmaq, ayağını qatlayıb aşağı çökmək»* mənaları ilə bağlıdır.

Bakıda Əzizbəyov rayonunda **Binə** adlı qəsəbə (*1936-cı ildən*) də var...

## BİNƏÇAY

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri **Binəçay** adlanır. **Binəçay** Quruçayın sağ qoludur. Əsasən, yağış suları ilə qidalanan bu çayın suyundan suvarmada istifadə edilir. **Çay** təxminən 2400 metr hündürlükdən, Ziyarət dağının zirvələrindən başlanır. **Çay** ərazisindən axdığı **Binə kəndi**nin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Binə kəndi**.

## BİNƏDƏRƏSİ KƏNDİ

**Binədərəsi kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 52 km cənubda, dağətəyi ərazidə yerləşir. Əhalisi

əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bağçılıq və bostaçılıqla məşğul olur.

**1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələrinin adları sırasında **Banazur kəndi** adına da rast gəlirik. Kənddə o zamanlar azərbaycanlılar yaşayırdı.

XIX əsrdə gəlmə ermənilər burada məskunlaşdıqdan sonra bir müddət toponim təhrif olunaraq **Banazur** kimi qeydiyyata alınmışdır. **Banazur** sözü erməni dilində "*binə dərəsi*" deməkdir. **1992** -ci ildən kəndin indiki adı bərpa edilmişdir. Oykonim **binə** və **dərə** terminlərindən, **-si** mənsubiyyət şəkilçisindən ibarətdir. Binədərəsi oykonimi «*müvəqqəti yaşayış məntəqəsi olan dərə*» mənasındadır.

XX əsrin əvvəllərində Qubadlı qəzasında Binədərəsi kəndi də qeydə alınmışdır.

Azərbaycan toponimiyasında **dərə** termini ilə əlaqədar *30.000*-dən çox coğrafi ad qeydə alınıb...

## BOĞURXAN DAĞI

Qarabağ silsiləsində, Köndələnçayın yaxınlığında, Köndələnçay və Xonaşençay arasında Xocavənd rayonu ilə Xocalı rayonu sərhədində, Cəmiyyət kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Boğurxan dağı** adlanır. Dağın maksimal hündürlüyü **1584** metrdir. Bu coğrafi ada bəzi sənəd və materiallarda **Bağırxan, Bagırqan** kimi də rast gəlmək olar. Oronim orada müqəddəs sayılan **Boğurxan** qayasının adı ilə bağlıdır. Qırmızı rəngli, vulkan mənşəli süxurdan ibarət olan bu qayanın başında qədim məbəd xarabalığı var.





Yerli məlumatlara görə bu pirə sonsuz qadınlar gələrdilər. Çox güman ki, **Boğurxan** adlı şəxs din xadimi olmuş və orada dəfn edildikdən sonra qəbri sitayiş yerinə çevrilmişdir. Tarixi ədəbiyyatlarda **Boğarxan, Buğraxan** şəxs adlarına da rast gəlinir.

Şuşa rayonu ərazisində, Qarabağ silsiləsində bu qisimdən olan **Bağırqan (*Bağrıqan*) dağı** adlı oronimə də rast gəlirik. Dağın **Bağrıqan** adlanması məcazi məna (*bağrının qanlı olması*) daşıyır. **Bağır** türk sözü olub mənası "*ciyər*" deməkdir. Bu oronimin "*Günəşin doğması ilə dağın qırmızımtıl rəng alması*" fikri ilə yarandığını güman edənlər də var. M.M.Nəvvab **Bağırqan** toponimi haqqında xalq etimologiyasına əsaslanan rəvayət söyləmişdir:

"... Şuşa qalasının şərq tərəfində **Bağrıqan** deyilən bir uca qaya vardı. Həmin yüksəklikdə Avan Koxa adlı bir erməni yaşayırdı. O, öz tələbələrinə demişdi ki, harda kimin əlinə müsəlman düşsə, onun hüzuruna gətirsinlər. Avan Koxanın əmri ilə tutulmuş bir müsəlmanı çılpaqlayıb üzüüstə yerə yıxırlar. Sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla soyub boynundan qom ətinəcən iki tərəfdən xətt çəkirlər. Dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edir budağı buraxırlar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda yazıq müsəlmanın dərisi boynuna qədər soyulur və o, dağa düşür. Bu əhvalatı görənin də **bağrı qan-qan olardı.** Elə bu səbəbdən də həmin qayaya, dağa **Bağrıqan (Boğurxan) dağı** adı verilmişdir».

**Dağ-** nisbi yüksəkliyi *200* metrdən çox olan hündürlüyə deyilir. VI-VIII əsrlərə aid olan tarixi mənbələrdə,qədim türk yazılı abidələrində **dağ/tağ** sözünə rast gəlirik. Azərbaycan oronimiyasında **dağ** termini ilə bağlı **1400** coğrafi ad qeydə alınmışdır.

## BOSTAN YERİ

Axullu kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Bostan yeri** adlanır. Bu yerdə müxtəlif **bostan** bitkiləri əkildiyi üçün yerli əhali buranı ***Bostan yeri*** adlandırmışdır. XX əsrin ortalarında bu yeri *İdris* adlı şəxsin atası, sonralar isə o özü əkib-becərirdi...

## BOZ BAZI

Xocavənd rayonu ərazisində, Muğanlı kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də **Boz bazı** adlanır. Oronim rəng bildirən **boz** sözündən və müsbət relyef forması ifadə edən **bazı** terminindən ibarətdir. Toponim *"boz rəngli su çıxmayan hündür yer"* mənasındadır. Göyçay rayonunun Qızılağac və Sabirabad rayonunun Qaralar kəndlərinin ərazisində də **Boz bazı** coğrafi adı qeydə alınıb.

Əlavə məlumat üçün bax: ***Bozqobu dərəsi.***

## BÖYÜK KİRS DAĞI

Azərbaycanda, Qarabağ dağ silsiləsində ən yüksək zirvələrdən biri **Böyük Kirs dağı** adlanır. Bu **dağ** Orta Yuranın vulkanagen-çökmə süxurlarından təşkil olunmuşdur. Maksimal hündürlüyü **2725** metr olan **Böyük Kirs dağı** Xocavənd, Şuşa və Laçın rayonlarının sərhəd ərazilərini əhatə edir. Dağdan Xocavənd rayon mərkəzinə **55** km-dir.

Oronimin tərkibindəki **böyük** sözü onu digər coğrafi addan fərqləndirmək üçün əlavə edilmişdir. Qarabağ





silsiləsində **Kiçik Kirs dağı** (maksimal hündürlüyü **2346** metrdir) adlı yüksək zirvələr də vardır. Bu dağ Şuşa rayonu ərazisində yerləşir. O, Xocavənd rayonu ilə Şuşa rayonunu bir-birindən ayırır.

**Dağ** müsbət relyef ifadə edən coğrafi termindir. **Kirs** sözü dialektlərimizdə «*uca zirvə*», «*sıldırımlı olan dağ*», «*qar toplanan yer*», «*çöl*», «*sərhəd*», «*yayla*» və s. mənalarda işlədilir.

## BÖYÜK OXLU DAĞI

Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Böyük Oxlu dağı** adlanır. Oronim **böyük**, **oxlu** və **dağ** sözlərindən ibarətdir. **Dağ** coğrafi termini oronimiyada müsbət relyef forması bildirir. Oronimin tərkibindəki ***böyük*** sözü fərqləndirici xüsusiyyət daşıyır. Yəni, əgər **Böyük Oxlu dağı** coğrafi adı varsa, deməli həmin ərazidə ***Kiçik Oxlu dağı*** adlı oroqrafik obyekt də mövcuddur. Toponimin mənası ilə bağlı çoxlu fikir və mülahizələr mövcuddur...

## BÖYÜK TAĞLAR KƏNDİ

**Böyük Tağlar kəndi** Xocavənd rayonunda,Böyük Tağlar inzibati ərazi vahidində, rayon mərkəzindən 40 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, baramaçılıq, bostançılıq və bağçılıqla məşğul olur.

XIX əsrdə **Böyük Tağlar** kəndində gəlmə ermənilər yerləşdirildikdən sonra yaşayış məntəqəsinin adı tədricən

ermənniləşdirilərək **Metstağlar** (*"böyük məhəllə"*) adlandırılmışdır. **Mets** sözü erməni dilində *"böyük"* deməkdir. Bu adın özü də tərkibində Azərbaycan dilinə məxsus söz olan qarışıq toponimlərdəndir.

**Böyük Tağlar** toponiminin əsasını təşkil edən **taq/tağ** sözü türkcə *"sahə"*, *"yer"*, *"məhəllə"* mənası ifadə edir. Toponimin tərkibindəki **–lar** şəkilçisi cəmlik bildirir; **böyük** sözü isə fərqləndirici komponentdir. 1992-ci ildə kəndin adı özünə qaytarılmışdır.

## BÖYÜRTKƏNLİ DƏRƏ

Azərbaycan ərazisində olan müxtəlif növ bitki adlarının əksəriyyəti respublikamızın oronimiyasında öz əksini tapmışdır. Fitotoponimlər müsbət və mənfi relyef formaları ilə bağlı olduğuna görə bilavasitə oronimiya ilə bağlıdır.

**Böyürtkənli dərə** coğrafi adı Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində, kənddən 2 kilometr aralıda qeydə alınmışdır. Oronim gülçiçəklilər fəsiləsindən mürəkkəb yarpaqlı, tikanlı kol yarımcinsi olan **böyürtkən** bitkisi adından, **-li** şəkilçisindən və mənfi relyef forması bildirən **dərə** coğrafi terminindən ibarətdir. Toponim *"böyürtkən olan dərə"* mənasındadır. Bu tipli oroqrafik obyektlərə Azərbaycanın digər ərazilərində də rast gəlirik.

## BUĞUZ QALASI

Xocavənd rayonunun Avdur kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Buğuz qalası** adlanır.





Avdur yaşayış məntəqəsinin ərazisində bu qalanın xarabalıqları qalmaqdadır. **Buğuz** qalasının yaxınlığında köhnə müsəlman qəbiristanlığı olmuşdur. Buradakı qəbiristanlıqlar bu yerlərdə hələ çox-çox əvvəllər müsəlman əhalinin məskunlaşmasını bildirir. Görünür, vaxtilə buranın sakinləri siyasi şəraitlə əlaqədar olaraq öz yaşayış yerlərini dəyişmişlər. Avdur kəndinin özü XVIII əsrdə axırıncı dəfə əvvəlki yerindən 5 kilometr aşağıda salınmışdır.

**Buğuz** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponim dəqiq elmi izahı hələlik verilməmişdir...

## BULUTAN KƏNDİ

**Bulutan kəndi** Qarabağ silsiləsinin ətəyində, Xocavənd rayonunda, rayon mərkəzindən 40 km cənubda yerləşir. Bəzi sənədlərdə adı **Bolutan** kimi də yazılmışdır. Əhalisi taxılçılıq, üzümçülük, heyvandarlıq, baramaçılıq, bostançılıq və bağçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, kinoqurğu, tibb məntəqəsi və s. var. Bu kənd **1823**-cü ildə cəmi bir ailədən ibarət məntəqə olmuşdur.

Yerli məlumata görə, kəndin adı **Bultan** şəxs adındandır. **Bulutan** toponiminin elmi izahı hələlik tam dəqiqliklə müəyyənləşmədiyindən onun uzun şərhini verməyi məqsədəuyğun hesab etmirəm. Ancaq bu fikirləri bildirə bilərəm ki, **bulu (bolu balı)** sözü qədim türk dillərində *"igid"*, *"döyüşçü"* deməkdir.

Oykonimin tərkibindəki **tan** komponenti *"dan yeri"*, *"dan üzü"*, *"Dan ulduzu"*, *"üfüq"* anlamı ifadə edir. **Bulutan (Bolutan)** oykonimi **bulu/bolu** etnonimindən törəyən etnotoponimdir. **Bulutan/Bolutan** toponimi *"yüksək*

*igidliyə malik olan*", "*ən igid, qoçaq*" mənasındadır. **Bolu** etnonimi ilə bağlı Türkiyə, Türkmənistan, İran, Qərbi Azərbaycan (Ermənistan) və s. ərazilərdə də coğrafi adlar mövcuddur...

## BÜNYADLI KƏNDİ

**Bünyadlı kəndi** Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 60 km cənub-qərbdə, Xocavənd rayonunda yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülüklə məşğul olur.

**Bünyadlı** yaşayış məntəqəsi *1840*-cı ildə Cənubi Azərbaycanın Qaradağ mahalından köçüb gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Bünyadlı*** kəndin əsasını qoymuş nəslin adıdır. Kəndin adı bəzi sənədlərdə **Binnətli** şəklində də yazılmışdır.

Beyləqan rayonunda da **Bünyadlı** adlı kənd var.

## CAGADÜZ KƏNDİ

**Cağadüz (*Çağdüz, Cəğadis*) kəndi** Xocavənd rayonunda, Qarabağ silsiləsi ətəyində, rayon mərkəzindən 28 km cənub-qərbdə, Köndələnçay sahilində, meşəlik ərazidə yerləşir. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Ermənilər burada məskunlaşdıqdan sonra (XIX əsrin 20-ci illəri) yaşayış məntəqəsinin adını **Sərkisaşen (Sərkiskənd)** formasında rəsmiləşdirmişlər. Bu ad ilə toponim "*Sərkis kəndi*" anlamındadır. 1992-ci ildə kəndin köhnə adı olan **Cagadüz** bərpa edimişdir. Qədim monqol dilində **cağan (sağan)** sözü "*ağ*" deməkdir. **Cağadüz** toponiminin mənası "*ağ düz*" anlamı ifadə edir. Oykonim ***cağa*** ("*kiçik, balaca*") sözündən və mənfi relyef forması bildirən ***düz*** terminindən ibarət olub "*balaca, düz*" deməkdir. Kənd öz adını ərazidəki eyniadlı düzənlikdən almışdır.

**1727** -ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlanan tarixi qaynaqda Vərəndə nahiyəsinə tabe olan kəndlər sırasında **Cəğadiz** kənd adına da rast gəlir.





## CANAVARTƏPƏ

Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də **Canavartəpə** oroqrafik obyektidir. Qazıntılar zamanı buradan müxtəlif qədim dövrlərə aid çoxlu maddi mədəniyyət nümunələri aşkarlanmışdır.

**Canavartəpə** oronimi **canavar** və **təpə** sözlərindən ibarətdir. **Təpə**-müsbət relyef forması bildirən coğrafi termindir. Təpələrin ətəyi ilə zirvəsi arasındakı hündürlük adətən **200** metrədək olur. Azərbaycanda çöl materialları içərisində **təpə** termini ilə bağlı **4000**-dən çox oronim qeydə alınıb. **Canavartəpə** toponimi vaxtilə həmin təpədə **canavarın** görünməsi ilə əlaqədar belə ad almışdır...

Ağcabədi rayonunun Taynaq kəndi ərazisində də **Canavar təpəsi** coğrafi adına rast gəlirik.

## CƏBRAYILLI ELİ

Xocavənd rayonunun ərazisində də məskunlaşmış **Cəbrayıl eli**nin Qarabağın ictimai-siyasi tarixində mühüm

rolu olmuşdur. Orta əsrlərdə *Cəbrayıllılar* Dizaq nahiyəsində (*indiki Xocavənd rayonunun ərazisi də bu nahiyəyə daxil idi*) məskunlaşmış *Əhmədli el*inin oymaqlarından biri idi. 1588-ci ildə osmanlıların Qarabağa yürüşü zamanı *Əhmədli eli* sünnü olduqları üçün heç yana qaçmayıb yerində qalaraq Osmanlı ordusuna təslim oldu.

1606-cı ildə I Şah Abbas Səfəvi Qarabağı yenidən ələ keçirəndən sonra dönüklərə divan tutulmasını əmr etdi. Əhmədli elinin başçıları cəzalandırıldı. Qorçubaşı Allahqulu bəy Qəpanaoğlu-Qacar dönükləri talan və tarac etdi. 1615-ci ildə şah fərmanı ilə ***Cəbrayıl eli*** Mazandarana sürgün edildi. Sürgünə şahın iki adlı-sanlı ərkanı Lətifxan bəy davatdar Qacar və İsfəndiyar bəy Ərəbgirli-Şamlı başçılıq edirdilər. Əhmədli elinin əsas hissəsinin sürgünündən sonra bəzi oymaqlar, o cümlədən Cəbrayıl eli bu köçdən yayınaraq Qarabağda əkin-biçinlə məşğul oldu.

**1593**-cü ilə bağlı olan Osmanlı qaynağında ***Cəbrayıl eli*** 2 kənddən ibarət şenlik kimi qeyd olunur.

**1727**-ci ilə aid olan *"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"* adlı qaynaqda isə Dizaq nahiyəsinə tabe olan **Cəbrayıllı** adlı böyük bir kənd adına rast gəlirik. **1727**-ci ildə bir kənddən ibarət olan oymaq **1747**-ci ildə bir elə çevrildi. Cəbrayıllı oymaq başçıları **Cəbrayıl eli** adı altında keçmiş ellərini bərpa etdilər. Əhmədli camaatı oymaqlardan biri kimi **Cəbrayıllı** qurumunun tərkibinə daxil oldu. Sonralar bir neçə oba və kənd də cəbrayıllılara qoşularaq böyük bir *el* yaratdılar. İbrahimxəlil xanın ağalıq dönəmində ***Cəbrayıl elinin*** yaşadıqları ərazilər böyük bir mahala çevrildi. ***Cəbrayıllı*** elinə minbaşı, ***Dizaq Cəbrayıllı*** mahalına isə naib başçılıq edirdi.

Pənahəli xanın vəfatından sonra parçalanan xanlığın birləşməsində ***Cəbrayıllı elinin*** danılmaz rolu vardır...





Tarixdən məlumdur ki, İbrahimxəlil ağa Urmiyadan (girovluqdan) qayıdandan sonra xanlığı ələ keçirmiş kiçik qardaşı Mehrəli ağaya qarşı mübarizəyə başladı. O, kömək üçün ***Cəbrayyılı*** elinə müraciət etdi. ***Cəbrayyılılar*** İbrahimxəlil ağaya yardım göndərdilər. ***Cəbrayyılı***, Kəngərli, Cinli, Dəmirçihəsənli ellərindən təşkil olunmuş qoşun, eləcə də Cavanşir elinin Arazbar qrupundan ibarət atlı dəstə Mehrəli ağanın tərəfdarlarını yendilər. Qalib gələn İbrahimxəlil ağa Qarabağ xanlığının taxtında əyləşdi. O, ***Cəbrayyılı elinin*** kələntəri Nəbi ağanın qızı Nənəxanımla ailə quraraq bu el ilə qohum oldu. Bundan sonra *cəbrayyıllı* elinin çəkisi artdı. Xan ***Dizaq*** mahalının böyük bir kəsiyini bu elə verib yeni inzibati ərazi olan ***Dizaq-Cəbrayıllı*** mahalını yaratdı. *Cəbrayyıllı* elini xanın böyük oğlu Məhəmmədhəsən ağa idarə edirdi. Anası *cəbrayyıllı* qızı olduğundan el-oba camaatı onun xətrini əziz tuturdu.

1805-ci ildə Məhəmmədhəsən ağa ilə atasının incikliyi düşür. İbrahimxəlil xan digər oğlu Əbülfət xana sifariş göndərib onu Qarabağa dəvət edir. Fətəli şah da bundan sevinərək Əbülfət xanı 5 minlik qoşunla Qarabağa yola salır. Əbülfət xan Qarabağın sərhədinə çatıb şahın istəyini atasına yazır. Fətəli şah Əbülfət xana göstəriş verir ki, Məhəmmədhəsən ağanı Tehrana göndərib özü Qarabağda atasının qulluğunda qalsın. Məhəmmədhəsən ağa, Mehdiqulu ağa və Xanlar ağa atalarını məcbur edirlər ki, Əbülfət xanı geri dönməyə təhrik etsin. Əbülfət xan məktubdan hiss edir ki işin içində qardaşlarının barmağı var. Ona görə də geri dönməyib Qapan (Qafan), Güney (Mehri), Çulundur, Bərgüşad mahallarını tutur. *Dizaq, Xırdapara–Dizaq* və *Cavanşir–Dizaq* mahallarının naiblərini, el-oba başçılarını yanına çağırır.

Məhəmmədhəsən ağa və Mehdiqulu ağanın başçılığı ilə Qarabağ qoşunları ilə Əbülfət xanın qoşunları arasında döyüş baş verir. Əbülfət xan beş minlik qoşunundan 500 nəfərlə Arazı keçib Qaradağa çəklir. Məhəmmədhəsən ağanın ölümündən sonra *Cəbrayıl el*inin idarəsi böyük oğlu Cəfərqulu xana kecdi. Cəfərqulu xanın könlundən Qarabağın hakimliyi kecirdi. O bunu da yaxşı bilirdi ki, Cəbrayıl elinin köməyi olmadan bir iş görə bilməz...

Qraf Qudoviç Qafqazda vali olarkən Cəfərqulu ağa ilə Mehdiqulu ağanın aralarında inciklik baş verdi. Bu inciklik Abbas Mirzəyə catanda Cəfərqulu ağanın və onun dayağı olan *Cəbrayıllı elini* İrana dəvət etdi.

Cəfərqulu ağa 1812-ci ildə İrana keçmişdi. Onun İrana keçdiyini eşidən Qarabağ elləri hərəkətə gəldilər. Arazdan Goran çayınadək Qarabağ torpağı boş qaldı.

Abbas mirzə Cəfərqulu ağaya xan ünvanı verib, onu Qaradağa hakim təyin etdi. Ətrafında olan Qarabağ ellərinə, cəbrayıllılara Qaradağda yeyimlik yurd verdi...

Cəfərqulu xan 1815-ci ildə Qarabağa qayıtdı. *Cəbrayıllı eli* də xanla bərabər yurdlarına qayıdıb yerləşdilər.

1823-cü ilə bağlı qaynaqda, *"Qarabağ əyalətinin statistik təsviri"* adlı əsərdə Cəbrayıllı elinin Cəfərqulu xana aid olduğu göstərilir. Cəfərqulu xana bağlı Cəbrayıllı eli aşağıdakılardan ibarətdir:

1. *Cəbrayıllı obası* - 154 tüstü vergi ödəyirdi. Vergi ödəmə-yənlər: molla 1 tüstü, çavuş 1 tüstü, kor 3 tüstü, yetim 16 tüstü, kasıb 2 tüstü, dəli 1 tüstü.

2. *Feyzulla bəy və Mehrəli minbaşı cəbrayıllıları* - çoban, ilxıçı 9 tüstü, yetim 1 tüstü, rəncbər 5 tüstü, Qaradağdan gəlmə 5 ailə, kəndxuda 1 tüstü.





3. *Cəfər ağa və Fətəli bəy cəbrayıllıları* - çoban 6 tüstü, yetim və qeyri-müsəlmanlar 8 ailə.

4. *Hüseyn bəy cəbrayıllıları* - çoban, bağban və başqaları 11 tüstü, qeyri-müsəlman 12 ailə.

5. *Şıxəliağa cəbrayıllıları* - 10 tüstü vergi ödəyirdi.

6. *Əliəfəndi cəbrayıllıları* - 3 qardaşı, 1 rəncbər.

7. *Çullu-Cəbrayıllı obası* - 4 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: kəndxuda 1 tüstü, məaf 1 tüstü. Obanın başçısı Yaqub sərkar idi.

8. *Şayıflı obası* - 3 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: Allahverdi kədxuda 1 tüstü.

9. *Əhməd ağa cəbrayıllıları* - Əhməd ağanın 2 qardaşı, 1 rəncbər ailəsi.

10. *Maqsud ağa cəbrayıllıları* - 1 tüstü özü, 1 tüstü rəncbəri.

11. *Əli bəy Kazım ağa oğlu cəbrayıllıları* - 1 özü, bağban və rəncbər - 9 ailə.

12. *Nəbi ağa obası* - 1 tüstü, Məlik ağa 1 tüstü, 2 müsəlman və 2 qeyri-müsəlman ailəsi.

13. *Hafizli obası* - 4 tüstü vergi ödəyirdi.

14. *Əli ağa cəbrayıllıları* - 4 tüstü vergi ödəyirdi.

15. *Əbdürrəhman bəy cəbrayıllıları* - 46 tüstü vergi ödəyirdi.

16. *Abdulla bəy cəbrayıllıları* - 1 tüstü özü, 3 ailə.

17. *Əlipənah sultan Hüseyn bəy oğlu* - 1 tüstü.

18. *Şükürbəyli obası* - 20 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: kəndxuda 1 tüstü, rəncbər 5 tüstü, nökər 3 tüstü, dul 3 tüstü, kasıb 2 tüstü, molla 1 tüstü.

XVIII yüzilin ikinci yarısında *Cəbrayıllı* elinin el-oymaq başçıları: Nəbi kələntər Vəli ağa oğlu, Şeyxəli ağa Vəli ağa oğlu, Əhmədxan ağa Vəli ağa oğlu, Lütfəli ağa Fuğani ağa oğ-lu, Mehrəli bəy Fuğani ağa oğlu, Maqsud

ağa Fuğani ağa oğlu, Rüstəm bəy Fuğani ağa oğlu, Camalxan bəy Hüseyn bəy oğlu, Mir Hüseyn əfəndi Mir Əli əfəndi oğlu, Məsuməli ağa Mahmud ağa oğlu, Kazım ağa, Hümbətəli bəy, Hacı Ağası bəy və başqaları.

XVIII yüzilin sonlarında və XIX yüzilin önlərində *Cəbrayıllı* elinin el-oymaq başçıları: Nəbi ağa Şeyxəli ağa oğlu, Şıxəli ağa Nəbi ağa oğlu, Məmmədxan ağa Əhmədxan ağa oğlu, Əhmədxan ağa Məmmədxan ağa oğlu, Hüseyn bəy Lütfəli ağaoğlu, Feyzulla bəy Mehrəli bəy oğlu, Hacı bəy Rüstəm bəy oğlu, Məlik ağa Hacı bəy oğlu, Heydər bəy Məlik ağa oğlu,Yaqub ağa, Fətəli bəy Yaqub ağa oğlu, Əli ağa Maqsud ağa oğlu, Səfərəli bəy Əli ağa oğlu, Fuğani ağa Maqsud ağa oğlu, Maqsud ağa Fuğani ağa oğlu, Cəfər ağa, Məstalı bəy Cəfərağa oğlu, Hüseyn bəy Çamalxan bəy oğlu, Mir Əli əfəndi Mir Hüseyn əfəndi oğlu, Əhməd ağa Məsuməli ağa oğlu, Əli bəy Kazım ağa oğlu, Şükür bəy Hümbətəli bəy oğlu, Əbdürrəhman bəy Hacı Ağası oğlu, Əlipənah sultan Hüseyn bəy oğlu, Abdulla bəy Hüseyn bəy oğlu, Əli bəy Abdulla bəy oğlu, Əli bəy Hüseyn bəy oğlu, Yaqub sərkar Hacı yüzbaşı oğlu Çullu, Hüseyn bəy Əmir Yusif oğlu və başqaları.

XIX yüzilin ortalarmda ***Cəbrayıllı*** elinin oymaq və oba başçıları haqqında da qısa bir bilgi vermək yerinə düşər. Yarəhmədliyə Məhərrəm kədxuda Bəymurad oğlu, Hasanlıya Qəvliyalı kədxuda Yusif oğlu, Hacılıya Məmmədxan kədxuda Bəbirxan oğlu, Maşanlıya Əli kədxuda Vəli oğlu, Eyvatlıya İmamverdi kədxuda, Mirəkliyə Məmməd kədxuda Rəsul oğlu Çərəkənli, Veysəlliyə Bayramalı kədxuda Muradhasil oğlu, Mirzəcanlıya Niftalı kədxuda Seyidalı oğlu, Fuğanlıya Məhəmməd kədxuda, Mahmudluya Əli kədxuda Hümbətəli oğlu.





Çərəkənliyə Məmməd kədxuda Rəsul oğlu, Məzrəliyə Əbdürrəhman kədxuda Rüstəm oğlu, Alıkovxalıya Rəhim kədxuda Qılıc oğlu, Hərəküllüyə İmamverdi kədxuda, Hafizliyə Mehdiqulu yüzbaşı Əziz oğlu, Çulluya Abdulla yüzbaşı Hacı yüzbaşı oğlu, Əhmədliyə Əhməd yüzbaşı Mustafa yüzbaşı oğlu, Qurban yüzbaşı Məmməd ağa oğlu, Minbaşılıya (Feyzullabəyliyə) Həsənəli kədxuda Nağı oğlu, Məstalıbəyliyə (Cəfərağalıya) Səlimxan kədxuda Məmməd oğlu, Qovşutluya (Hüseynbəyliyə) Mirzə kədxuda Seyidəli oğlu, Şıxəliağalıya Qəhrəman kədxuda Əlicəfər oğlu, Əfəndilərə Mir Əli əfəndi Mir Hüseyn əfəndi oğlu, Əhmədağalıya Əmirmahmud ağa Məsuməli yüzbaşı oğlu, Alıbəyliyə (Kazımağalı-Kavdara) Musa kədxuda Allahverdi oğlu, Məlikliyə Məlik ağa Heydər bəy oğlu, Şükürbəyliyə Hüseyn kədxuda Bürcəli oğlu, Əbdürrəhmanlıya Hüseyn yüzbaşı Məmməd oğlu, Bukavulluya Əbdürrəhman kədxuda Rüstəm oğlu Məzrəli başçılıq edirdi...

**Cəbrayıl elinin obaları:**

1. *Abdullabəyli obası;*
2. *Cəfərağalı (Məstalıbəyli) obası;*
3. *Əbdürrəhmanbəyli obası* (Əbdürrəhmanlı obası indiki Füzuli bölgəsindəki Qacar, Qızoğlu, Bayrambəy, Rəbənd torpaqlarında yaşamışdır. *Sarılar* tayfası onun bir qoludur);
4. *Əhmədağalı obası;*
5. *Əliağalı obası;*
6. *Əliəfəndi (Əfəndilər) obası;*
7. *Feyzullabəyli (Minbaşılı) obası;*
8. *Hüseynbəyli (Qovşutlu) obası;*
9. *Kazımağalı (Alıbəyli, Kavdar) obası;*

*10. Maqsudağalı obası;*
*11. Məlikağalı obası;*
*12. Şıxəliağalı obası;*
*13. Şükürbəyli obası.*

**Cəbrayıl elinin oymaqları:**
1. Alıkovxalı oymağı;
2. Çərəkənli oymağı;
3. Çullu oymağı;
4. Eyvatlı oymağı;
5. Əhmədli oymağı;
6. Fuğanlı oymağı;
7. Hacılı oymağı;
8. Hafizli (Havuslu) oymağı;
9. Hasanlı oymağı;
10. Hərəküllü oymağı;
11. Mahmudlu oymağı;
12. Maşanlı oymağı;
13. Məzrəli oymağı;
14. Mirəkli oymağı;
15. Mirzəcanlı oymağı;
16. Şayıflı oymağı;
17. Veysəlli oymağı;
18. Yarəhmədli oymağı.

***Cəbrayıllı eli*** ümumilikdə Qarabağın, o cümlədən də Xocavəndin tarixində önəmli rol oynamışlar...

## CƏFƏR BULAĞI

Kuropatkino kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Cəfər bulağı** adlanır. Hidronim **Cəfər** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir. Bu





bulağın soyuq, şirin, dumduru suyu vardır. **Bulaq** vaxtilə onu təmir etdirib üzə çıxaran **Cəfər** adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Azərbaycanın əksər rayonlarında bu tipli toponimlərə tez-tez rast gəlirik.

## CƏFƏRİN YERİ

Salakətin kəndi ərazisində qeydə alınmış oronimlərdən biri **Cəfərin yeri** adlanır. Bu əkilmiş sahə **Cəfər** adlı bir şəxsə məxsus olduğu üçün toponim belə ad almışdır. Toponimin izahı «*Cəfərə məxsus olan yer*» anlamına uyğun gəlir. Bu tipli toponimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlinir...

## CƏMİYYƏT KƏNDİ

**Cəmiyyət kəndi** Xocavənd rayonunda, Cəmiyyət inzibati ərazi vahidində, Xonaşençay sahilində, rayon mərkəzindən 20 km qərbdə, Xocavənd-Xankəndi avtomobil yolu kənarında, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Bu yaşayış məntəqəsi keçmişdə azərbaycanlıların yaşadıqları kəndlərdəndir. Xeyli sonralar – XIX əsrdə burada vaxtilə Ermənistanın Ararat əyalətindəki **Ningi** mahalından köçüb gəlmə erməni ailələri məskunlaşdıqdan sonra kəndin adı dəyişdirilərək mənası aydın olmayan **Ninki** (***Ningi***) kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə yaşayış məntəqəsinin əvvəlki qədim adı bərpa edilmişdir...

Cəmiyyət sözü ərəbcə «*birlik*», «*camaat*», «*yığın*» mənasındadır.

## CİCİM OCAĞI

Xocavənd yaşayış məntəqəsi ərazisində qeydə alınan və erməni təcavüzü nəticəsində dağıntıya məruz qalan mədəni və dini abidələrimizdən biri də **Cicim ocağı** adlanır. Atəşpərəstlikdən üzü bəri Azərbaycanda çoxlu sayda **ocaq** inanışı tapınaqları mövcud olmuş və bu gün də onlar mövcuddur. **Ocaq** kultu tarixin çox dərin qatlarına gedib çıxır. İndi ziyarətgahlara çevrilmiş bu ocaqları insanlar müqəddəs tapınaq yeri hesab edirlər.

Laçın rayonunun *Cicimli kəndi* yaxınlığında da qəbirpir adı ilə adlanmış **Cicim ocağı** oroqrafik obyekti mövcuddur.

## CİLƏN KƏNDİ

**Cilən kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 55 km cənub-qərbdə, Hərəkül inzibati ərazi vahidində Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Yaşayış məntəqəsini **1840**-ci ildə Qərbi Azərbaycanın (*indiki Ermənistanın*) Qafan rayonunun Balx kəndindən və Cənubi Azərbaycanın Qaradağ mahalından köçüb gəlmiş erməni ailələri **Cilan** (***Cilən***) adlanan ərazidə saldıqları üçün kənd də belə adlandırılmışdır. **Cilan** sözü "*bataqlıq yer*", "*sucaq yer*" mənasındadır. Kənd öz adını salındığı yerin adından almışdır. **Cil** sözü «*bataqlıq*» deməkdir. Bataqlıqda, rütubətli yerdə, bitən bitki adlarından biri də **cil** adlanır. Ərazi bu bitki ilə örtüldüyü üçün yaşayış məntəqəsi də belə adlandırılıb.





Lənkəran rayonunda **Cil** adlı *çay* və *kənd*, Balakən rayonunda **Cillik kəndi** bu qəbildən olan coğrafi adlardır.

## CÜTÇÜ KƏNDİ

**Cütçü kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 21 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq, tərəvəzçilik və üzümçülüklə məşğul olur.

Məlumatlara görə vaxtilə yaşayış məntəqəsinin ərazisi *xırmanlıq* və *binə yeri* olmuşdur. XIX əsrdə Çar Rusiyası gəlmə erməni ailələrini burada məskunlaşdırdıqdan sonra bu daimi yaşayış məntəqəsi **Maçkalaş** adlandırılmışdır. *Maçkalaş* sözü ermənicə «*əkinçi kəndi*», «*gütçü*» anlamı ifadə edir. 1992-ci ildə bu yaşayış məntəqəsi **Cütçü** («*torpağı becərən, sürən*») adı kimi rəsmiləşdirilmişdir...

## ÇAXMAQÇAY

Xocavənd və Cəbrayıl rayonları ərazisində qeydə alınan hidronim **Çaxmaqçay** adlanır. **Çay** öz mənbəyini Ziyarət dağının zirvəsindən, yamajından götürür. Bu çayın digər bir adı **Quruçaydır**. **Çaxmaqdərə** adlı böyük bir dərədən axdığına görə çay **Çaxmaqçay** adlanmışdır. Həmin dərənin adı isə orada çoxlu **çaxmaq** daşlarının olması ilə bağlıdır. Hidronimi türkdilli **çaxmaqlı** etnonimi ilə də bağlayanlar var.

Şuşa rayonu ərazisində **Çaxmaq dağı**, Xaçmaz rayonunda **Çaxmaqlı kəndi**, Cəbrayıl rayonunda isə **çaxmaq-**

**çöl düzənliyi** toponimləri də öz adlarının tərkibində **çaxmaq** komponentini «*yaşadır*».

## ÇAQQAL QOBUSU

Azərbaycanda çöl-heyvan adları və oroqrafik terminlərdən düzəlmiş çoxlu sayda oronimlər mövcuddur. İtlər fəsiləsindən olan **çaqqal** yırtıcı məməli heyvan adı ilə də bir çox oronimlər qeydə alınmışdır. Bunlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınan **Çaqqal qobusu** coğrafi adıdır.

Respublikamızın əsasən aran düzənliklərində, cəngəlliklərində, bəzən isə səhra və dağətəyi ərazilərində çaqqallara rast gəlmək olar. Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığındakı qobuda tez-tez **çaqqal** çöl heyvanına rast gəlindiyi üçün oronim belə ad almışdır.

**Qobu** mənfi relyef forması bildirən coğrafi termindir. Onun çoxlu məna çalarları var: «*sel və çay sularının uzun müddət axması və ya zəlzələ nəticəsində əmələ gələn çuxur*», «*çayın dərin yeri*», «*düzən*», «*düzənlik*», «*həmişə su basan yer*», «*dərə, çökəklik*», «*çuxur yer*», «*kiçik quru dərə*», «*çökək yer*», «*susuz çay dərəsi*», «*quru və ya müvəqqəti su dərəsi*» və s.

Azərbaycan ərazisində **qobu/qovu** tərkibli onomastik vahidlər öz zənginliyi, çoxluğu ilə diqqəti cəlb edir. Əsas etibarı ilə Kür-Araz, Muğan, Mil, Salyan və digər düzənliklərdə, habelə dağətəyinə qovuşan ərazilərdə adının tərkibində **qobu** termini iştirak edən toponimlərə rast gəlirik. Müxtəlif sənəd və materiallarda, mənbələrdə bu terminə **qovu, kobu, kobı, qabı, qobi** və başqa yazılı formalar şəklində təsadüf edirik.





Respublikamızın ayrı-ayrı rayonlarında **qobı** termini müxtəlif anlayışlar ifadə edir: Qubada «*dərin arx*», «*böyük göl*», Şamaxıda «*çökək*», Şirvan şəhərində «*susuz çay dərəsi*», Qarabağda «*böyük arx*» və s. Azərbaycanda adının tərkibində **qobu** termini iştirak edən **900**-dən çox oroqrafik obyekt adları qeydə alınıb.

Qobulara əsasən mexaniki meşə çöl və çöl zonalarında rast gəlmək mümkündür. Ağcabədi, Ağsu, İmişli, Göyçay, Göygöl, Ucar rayonlarının ərazisində də **Çaqqal qobusu** oronimi qeydə alınıb.

*Çaqqal* heyvanın adı ilə bağlı Qəbələ rayonunda *Çaqqalı düz*, Ağsu, Füzuli, Göygöl, Ucar, Oğuz, Şəki rayonlarında *Çaqqalı dərə*, Beyləqan, Yevlax, Şəki, Göygöl, Şərur rayonları ərazilərində *Çaqqallı təpə* və başqa oroqrafik obyektlər də vardır.

## ÇAQQALLI DƏRƏ

Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında qeydə alınmış coğrafi adlardan biri də **Çaqqallı dərə** adlanır. Bu **dərədə** vaxtilə **çaqqalların** olması ilə əlaqədar oronim belə ad almışdır. Respublikamız ərazisində müxtəlif çöl heyvan adları və oroqrafik terminlərdən düzəlmiş çoxlu sayda zooronimlər mövcuddur. Xocavənd rayonu ərazisində qeydə alınan **Çaqqallı dərə** də bunlardan biridir. **Çaqqal** – itlər fəsiləsindən olan yırtıcı – məməli heyvandır. Azərbaycanda **Çaqqallara** əsasən aran düzənliklərinin sıx cəngəlliklərində, bəzən isə səhra və dağətəyi ərazilərdə rast gəlmək olar. **Dərə** – mənfi relyef forması bildirən coğrafi termindir.

Ağsu, Füzuli, Oğuz, Göygöl, Şəki, Ucar rayonları ərazisində də **Çaqqalı dərə** coğrafi adına rast gəlirik. **Çaqqal** çöl heyvanının adı ilə əlaqədar ölkəmizdə ***Çaqqal qobusu*** (Ağcabədi, Ağsu, Göyçay, Göygöl, Ucar rayonları), ***Çaqqalı dərə*** (Ağsu, İmişli, Oğuz, Göygöl, Şəki, Ucar rayonları), ***Çaqqalı düz*** (Qəbələ rayonu, Çuxur Qəbələ kəndi), ***Çaqqallı təpə*** (Beyləqan, Yevlax, Göygöl rayonları) və s. oronimlər də qeydə alınmışdır...

## ÇALLIGÖL

Xocavənd rayonunun qərb hissəsində qeydə alınan hidronimlərdən biri **Çallıgöl** adlanır. Qarabağ bölgəsində *«dağın kol-kosu olan aşağı hissəsi»* **çallar** adlanır. Çox ehtimal ki, **göl** yerləşdiyi ərazinin landşaftına uyğun olaraq belə adlandırılmışdır.

Zərdab rayounun *Çallı* kəndi ərazisində də ***Çallıgöl*** coğrafi adı qeydə alınmışdır...

## ÇANAQ BULAĞI

Xocavənd rayonunun Qaradağlı kəndindən bir neçə kilometr aralıda qeydə alınan hidronimlərdən biri **Çanaq bulağı** adlanır. Bulağın qaynayıb üzə çıxdığı yer qalın ağac materialından oyulub düzəldildiyi üçün hidronim belə ad almışdır. Bulağın soyuq və duru suyu bir sıra xəstəliklər üçün şəfa hesab olunurdu. Hidronim ***çanaq*** sözündən və ***bulaq*** hidronimik vahidindən ibarətdir. Bu tipli coğrafi adlara çox yerdə rast gəlmək olar.

Yardımlı rayonunda **Çanaqbulaq kəndi**, Xocalı rayonunda isə bu qəbildən olan **Çanaqçı kəndi** var.





## ÇAYDAĞILAN

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 5 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri **Çaydağılan** adlanır. *Çay* burada **dağılaraq** bir neçə meandr yaratdığı üçün yaxınlıqda məskunlaşan yerli əhali tərəfindən belə adlandırılmışdır.

## ÇAYLAQ ÇAYI

Qarabağ silsiləsi ətəyində, Xocavənd rayonu ərazisində qeydə alınmış hidronimlərdən biri də **Çaylaq çayı** adlanır. Hidronim ərazinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. **Çaylaq** hidronimi **Çaylax/Çaylıx** variantlarında da qeydə alınmışdır. Dilimizdə **çaylaq** sözü *«müvəqqəti axarlı çay yatağı»* mənasındadır. **Çaylaq** sözünü adətən "*çay yatağı*" mənasında işlədirlər.

Xocavənd rayonunun Muğanlı və Qarakənd kəndlərinin ərazilərində də **Çaylaq yeri** adlı mikrotoponimə rast gəlirik.

## ÇAYLAQQALA KƏNDİ

**Çaylaqqala kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 55 km cənub-qərbdə, Xoşgədikçay sahilində, Güllücə dağı yaxınlığında, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Oykonimin əsasını təşkil edən **çaylaq** sözü "*quru çay yatağı*" deməkdir. **Qala** termini relyef forması ifadə edir.

Əvvəllər azərbaycanlıların yaşadıqları bu kəndə sonralar – XIX əsrdə Cənubi Azərbaycanın (İran) Qaradağ mahalından erməni ailələri köçürülmüş və bu yaşayış məntəqəsi həmin gəlmə ermənilər tərəfindən **Xtsabert** (*"çınqıl daşı"*, *"çınqıl qala"*) kimi rəsmiləşdirilmişdir. **1992**-ci ildə kəndin adı özünə qaytarılmışdır. Oykonim **çaylaq** (*«çay yatağı»*) və **qala** (*«tikili»*) sözlərindən olub, *«çay yatağı yaxınlığında qala»* mənasındadır.

## ÇAYLIX ÇAYI
(Bax: **Çaylaq çayı**)

## ÇEYİL DAĞI

Xocavənd rayonu ilə Ağdam rayonu sərhədində qeydə alınan yüksəkliklərdən biri **Çeyil dağı** adlanır. **Çeyil dağının** maksimal hündürlüyü **416** metrdir. Coğrafi adın tərkibindəki **dağ** sözü müsbət relyef forması bildirir.

Azərbaycan dialektlərində **çeyil** sözünün *«billi»*, *«palçıqlı»* mənaları var. **Çeyil dağı** toponimi *«palçıqlı dağ»* mənasındadır.

Qarabağ rayonunda, Qobustan yaxınlığında **Çeyildağ qəsəbəsi**, Umbakı neft yatağından şimalda, Ceyrankeçməz depresiyasının qərbində **Çeyildağ** (***Çeyilaxtarma***) **palçıq vulkanı** coğrafi adlarının tərkibində də **çeyil** komponenti iştirak edir…





## ÇƏKƏT DÜZÜ

Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Çəkət düzü** adlanır. Azərbaycan oronimiyasında tərkibində **düz** termini olan *11.000* coğrafi ad qeydə alınmışdır. **Düz**- *"düzən"*, *"düzəngah"*, *"hamar yer"* deməkdir. Mahmud Kaşğari XI əsr "Türk dilləri lüğəti" əsərində bu termini qeydə almışdır. **Düz (düzənlik)** coğrafi termini mənfi relyef forması bildirir; **-ü** mənsubluq ifadə edən şəkilçisidir. **Çəkət** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr var…

## ÇƏMƏNDAĞ DAĞI

Qarabağ silsiləsi ətəyində, Xocavənd rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri **Çəməndağ dağı** adlanır. Dağda **çəmən sahələri** (***çəmənliklər***) çox olduğu üçün ona belə ad verilmişdir. Oronim Azərbaycan dilində *"yaşıllıq, otluq"* mənasında işlənən **çəmən** sözü ilə *"qayadan, daşdan ibarət hündür bir yer"* anlamı ifadə edən **dağ** sözündən yaranıbdır. Bu tipli coğrafi adlara Ağdam, Füzuli, Laçın və digər rayonların da ərazilərində də rast gəlmək mümkündür…

Bəzi araşdırıcılar **Çəməndağ** oroniminə etnotoponim kimi yanaşırlar. Məlumdur ki, türkdilli ***xələc*** tayfasının **çəmənli** adlı bir tirəsi də var…

1933-cü ilə aid bir sənəddə Füzuli rayounun Qoçəhməd inzibati ərazi vahidi tabeliyində **Çimən/ Çəmən** adlı yaşayış məntəqəsi də qeydə alınmışdır.

**Dağ** nisbi hündürlüyü **200** metrdən çox olan yüksəklikdir. VII-VIII əsrlərə aid qədim türk yazılı abidələrində ***dağ/tağ*** sözünə rast gəlirik. Azərbaycan oronimiyasında

çöl materialları əsasında dağ termini ilə bağlı **1400** coğrafi ad qeydə alınıb.

## ÇƏRŞƏNBƏT DAĞI

Xocavənd rayonunun Arpagədik kəndi yaxınlığında, rayon mərkəzində 83 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində qeydə alınan oronimlərdən biri **Çərşənbət dağı** adlanır. Oronimin tərkibindəki **dağ** sözü müsbət relyef forması ifadə edir. **Çərşənbət dağının** maksimal hündürlüyü **2335** metrdir.

**Çərşənbət dağı** coğrafi adının tərkibindəki **çər** sözü *«örüş»* anlamındadır. Bu terminlə əlaqədar Azərbaycan ərazisində **Çərəkə dağı** (Quba rayonu), **Çərəkə kəndi**, **Çərəcə kəndi** (Göyçay rayonu), **Çərəkən çayı** (Füzuli rayonu), **Çərəkən kəndi** (Cəbrayıl rayonu), **Çərəkən kəndi** (Kəlbəcər rayonu), **Çərəli kəndi** (Qubadlı rayonu), **Çərəlilər kəndi** (Bərdə rayonu), **Çərəmədağar dağı** (Abşeron rayonu), **Çərçiboğan kəndi** (Şərur rayonu), **Çərtəyəz kəndi** (Kürdəmir rayonu) və digər toponimlər mövcuddur.

Yerli məlumata görə, **Çərşənbət dağı** toponimi azacıq təhrifə məruz qalıb. Əslində **Çərşəmməd** olmalıdır. Əgər deyilənlərlə razılaşsaq toponim *«vaxtilə Şəmmədə məxsusu olmuş örüş və otlaq yeri»* anlamına uyğun gəlir. Əlbəttə ki, toponimin izahı ilə bağlı fərqli fikirlər də mövcuddur...

## ÇİÇƏKLİ BULAQ

Qaradağlı kəndindən 5 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri **Çiçəkli dağ** adlanır. Hidronim





**çiçək** sözündən, **bulaq** hidronimik apelyativindən və **–li** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. Toponim *«ətrafı gül-çiçək olan bulaq»* mənasındadır. Bu tipli toponimlərə Azərbaycanın digər ərazilərində də rast gəlmək olar...

## ÇİRAQUZ KƏNDİ

**Çiraquz kəndi** Qarabağ silsiləsində, Ərgünəş dağının ətəyində, Xocavənd rayonunda, rayon mərkəzindən 40 kilometr cənub-qərbdə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. **1727**-ci ilə aid olan *"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"* adlı tarixi qaynaqda kəndin adı **Cərəquş** kimi qeyd olunub.

**Çiraquz** oykonimi ilə bağlı, onun adının toponimik açımı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi araşdırıcılar belə güman edirlər ki, **çiraquz** toponimi *"Çiraq adlı yerdə yaşayan **uzlar** tayfası"* deməkdir. XIX əsrdə Qarabağda **Uz** kəndinin adı çəkilir və göstərilirdi ki, kəndin 15 ailədən ibarət əhalisini sahibkar Hacı Ağalar bəy kənardan gətirmişdir. **Uz** - qədim türk tayfalarından biridir. Tarixi bilgilərə görə, hələ erkən orta əsrlərdə Cənubi Rus çöllərində peçeneqlərlə sərhəddə yaşamış uzlar sonralar xəzərlərlə birləşərək peçeneqlərə qarşı mübarizə aparmışlar. Onların müəyyən hissəsi Azərbaycana çox güman ki, xəzərlərin tərkibində gəlmişlər.

**Çiraquz** oykonimi Qarabağda vaxtilə *siraqların* yaşamalarından xəbər verir. **Çıraquz** toponimi ***Çiraqlı, Çiraqlar*** toponimlərinin variantı olub, *«çiraq tayfasının yaşadığı kənd»*, *«çıraqlılara məxsus olan kənd»* mənasındadır. **Çiraquz** – *«Çiraq eli»*, *«Çiraq tayfası»* deməkdir.

**Çiraquz** oykonimi **çiraq** (***siraq***) və **uz** komponentlərindən ibarətdir. M. Seyidov yazır: *"VII əsr müəllifi A. Siraqasinin "Coğrafiya" əsəri üzərində aparılan araşdırmadan aydın olur ki, **çiraq/siraq** tayfası Ağvan və Arsak (Qarabağ) ərazilərində yaşamışlar; bu torpaqlar çoxdan onların adı ilə adlanırmış"*. Q.Qeybullayev **çiraq** (***sirak***) etnonimini türkdilli *sarmat* qəbiləsi ilə əlaqələndirir.

**Çiraq** termini ilə bağlı Azərbaycanın Daşkəsən, Göygöl, Kəlbəcər, Laçın, Şamaxı və s. rayonlarında çoxlu sayda coğrafi adlar qeydə alınmışdır. Mənbələrdə göstərilir ki, XIX yüzildə Azərbaycanda 79 ailədən ibarət **Siraq** (***Siraqlu***) tayfası yaşamışdır. Ermənistan deyilən Qərbi Azərabaycanda da **Çiraqlı** oykonimi vardır...

V.V.Vinoqradov **Çıraq/Sirak** tayfasından geniş bəhs edir. Müəllifə görə, onların Kuban çöllərində yaşamaları, II əsrdə Zaqafqaziyaya gəlmələri göstərilir. D.D.Paqirevin yazdığına görə **Çıraquz** (Şuşa qəzası), **Çıraqlu, Çirax, Çiraxtar, Çiraklu** (Cavanşir qəzası) yaşayış məntəqələri olmaqla bərabər, Zəngəzur, Terek vilayəti, İrəvan quberniyası, Şərur-Dərələyəz, Dağıstan, Qars, Şamaxı, Quba, Nalçik, Stavropol vilayəti, Lənkəran, Ərs və başqa yerlərdə də var...

## ÇİRİŞLİ, ÇİRİŞLİ BULAQ

Xocavənd rayonunun Muğanlı kəndindən 3 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri **Çirişli bulaq** adlanır. Toponim **çiriş** bitki adından, **-li** şəkilçisindən və **bulaq** hidronimik terminindən ibarətdir. **Çiriş-** zanbaq fəsiləsinə mənsub olub yabanı halda bitən bəzək bitkisidir. Toponimin tərkibindəki **–li** şəkilçisi mənsublüq





ifadə edir. Bulağın ətrafında **çiriş** bitkisi bitdiyindən hidronim (***Girişli bulaq***) və oronim (**Girişli**) belə adlandırılmışdır. **Bulaq-** *"yeraltı suların səthə çıxdığı yer"*, *"çeşmə"*, *"qaynaq"* deməkdir. *Bulaq* hidronimik vahidi ilə əlaqədar Azərbaycanda çoxlu sayda hidronim qeydə alınıb...

## ÇİTƏR YER

Rayon ərazisində qeydə alınan coğrafi adlardan biri **Çitər yer** adlanır. Əski türk dilində **çit** sözü *"sərhəd"*, *"səd"*, *"sərhədsınır"*, *"sipər"* anlamındadır. Əski türk dövlətlərində **çit-çəpər** qorumağa ən seçkin bahadırlar göndərilərdi. Dilimizdə işlədilən *"çəpər çitəmək"* ifadəsi də əski türklərin yaşam tərzləri ilə əlaqədar yaranmışdır.

Orta əsrlərə aid olan qaynaqlarda *"**Çete**"* adlı uc qorumağa təhkim olunmuş bir türk-monqol tayfa birliyinin də adı çəkilir. Pambıqdan və s.-dən sıx toxunan parça növünə də **çit** deyirlər...

## ÇOBANUÇAN

Baş vermiş hər hansı bir hadisəni tarixi fakt kimi özündə əks etdirən coğrafi adlarımız çoxdur. Onlardan biri də Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında, çay qırağında yerləşən **Çobanuçan** adlı oroqrafik obyektdir. Bu toponim vaxtilə bir **çobanın** qoyun otararkən yüksəklikdən yıxılması (*"uçması"*) ilə əlaqədar belə adlandırılmışdır.

Bu tipli coğrafi adlara Azərbaycanın müxtəlif bölgələrində çox rast gəlmək mümkündür. Bunların bəzisinə

nümunə olaraq Kəlbəcər rayonunun Baş Qaracanlı kəndi ərazisindəki **Astan ölən yal,** yenə də Kəlbəcər rayonu ərazisində qeydə alınmış **Öküzuçan, Qoyunuçan yamacı, Eşşəkuçan dağ** (*Abdullauşağı kəndi*), Şuşa rayonunun Malıbəyli kəndi ərazisindəki **Mehdiuçan qaya** və başqalarını göstərmək olar....

## ÇÖRƏKLİ KƏNDİ

**Çörəkli kəndi** Xocavənd rayonunda, Günəşli inzibati ərazi vahidində, rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Tarixi sənədlərə görə, bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində İrandan gəlmiş erməni ailələrinin **Çörəkli** adlanan ərazidə məskunlaşması nəticəsində yaranmışdır. Ermənilər burada məskən saldıqdan sonra yaşayış məntəqəsinin adı onlar tərəfindən dəyişdirilərək **Hatsi** (*Çörəkli*) kimi rəsmiləşdirilmişdir...

1992-ci ildə kəndin əvvəlki **Çörəkli** adı bərpa edilmişdir.

## ÇUXURYAL

Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri **Çuxuryal** adlanır. **Çuxuryal** toponimi mənfi relyef forması bildirən **çuxur** sözündən və müsbət relyef forması ifadə edən **yal** coğrafi terminindən ibarətdir. **Çuxur** termini "*çökəklik, çökək yer*" anlamındadır. Azərbaycanda çöl materialları içərisində toplanan və tərkibində ***çuxur*** termini iştirak edən ***600*** oronim var. Coğrafi adın tərkibindəki **yal** termini "*dağın ən hündür hissəsindəki yamacı*" mənasını bildirir. Respublikamız ərazisində toplanılan ***550***-dən çox coğrafi adın tərkibində ***yal*** termini iştirak edir. **Çuxuryal** toponimi "*çökəklikdə yerləşən dağ yamacı*" mənasındadır.





## DAĞAR YERİ

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndi yaxınlığında rast gəldiyim oroqrafik obyektlərdən biri ***Dağar yeri*** adlanır. **Dağar** sözü əski türklərdə «*çəki*», «*ölçü*» anlamı daşımışdır. Əvvəllər tərəkəmələr böyük ölçülü qaba **dağar**, kiçik ölçülü qaba isə *dağarcıq* deyərdilər...

Orta çağda türk qurumlarında ordunu ərzaqla təmin etmək üçün rəiyyətdən yığılan natural vergi növünə **tağar/dağar** da deyilmişdir. Əski qaynaqlarda **tağar** həm də çəki vahidi idi. Bir *tağar* təxminən **295** kq idi. **Tağar**la əsasən taxıl məhsullarını ölçüb hesablayardılar. Qarabağda belə bir giley-güzarlı məşhur ifadə var: «Keçən il şərikli buğda əkmişdik; bölgüdə özləri *dağar-dağar* götürdülər, bizə isə dırnaq ucu verdilər».

## DAĞDAĞAN OCAĞI

Salakətin kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Dağdağan ocağı** adlanır. **30 oktyabr 1991**-ci il

tarixdə erməni təcavüzü nəticəsində Xocavənd rayonunun dağıntıya məruz qalmış mədəni və dini abidələrindən biri də məhz **Dağdağan ocağı** tarixi abidəsidir. Yerli azərbaycanlı əhali bu **ocağı** müqəddəs tapınaq yeri kimi əziz tutar və tez-tez onu ziyarət edərdi. Toponim ***dağdağan*** və ***ocaq*** sözlərindən ibarətdir. Bu *ocaqda* **dağdağan** ağacı olduğu üçün toponim belə ad almışdır.

Qədim əcdadlarımız **dağdağan** ağacını şər qüvvələrdən körpələri qoruyan müqəddəs ağac kimi səciyyələndirmişlər. Adına bəzən **daşağac** dediyimiz qarağackimilər fəsiləsindən olan və çox vaxt həmişəyaşıl, yarpağı tökülən **dağdağan** ağacının adı ilə bağlı **Respublikamız** ərazisində çoxlu sayda oronimlər yaranmışdır. Bunlara nümunə olaraq *Dağdağan ağacı piri*, *Dağdağanlı düz* (Cəbrayıl rayonu), *Dağdağan dağı* (Göygöl və Şərur rayonları), *Dağdağan təpəsi* (Kəlbəcər, Füzuli rayonları), *Dağdağanlı dərə* (Cəlilabad, Qazax, Qəbələ, Qubadlı, Oğuz, Zəngilan rayonları), *Dağdağan çayı* (Ağdam, Ağcabədi rayonları), *Dağdağanlı qobu* (Şəki rayonu), *Dağdağan təpəsi* (Yuxarı Qarabağ, keçmiş Ağdərə rayonu) və başqalarını göstərmək olar. Xocalı rayonunda **Dağdağan** adlı kənd də var.

## DAĞDÖŞÜ KƏNDİ

**Dağdöşü kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 45 kilometr cənubda, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Yaşayış məntəqəsinin adı XIX əsrə aid olan sənədlərdə **Tağ** kimi qeydə alınmışdır. XX əsrdə Tyuak variantında işlənmişdir. Bəzi tədqiqatçılar bu adın yaranmasını türk dillərində "*sığınacaq*", "*koçəbə*", "*oba*" mənalarında işlədilən **töyək** sözü ilə əlaqələndirir. **Dağdöşü** adı kəndə 1992-ci ildə coğrafi mövqeyinə görə verilmişdir.





## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ

**Dağlıq Qarabağ Muxtar Vilayəti** Azərbaycanda, Kiçik Qafqazın şərq hissəsində yerləşir. **DQMV 7 iyul 1923**-cü il tarixində təşkil edilmişdir. **5** inzibati rayon, **2** şəhər, **222** kənd və qəsəbəni əhatə edir. Orta hündürlüyü dəniz səviyyəsindən **1100** metrdir. Şimali-qərbdən Murovdağ sıra dağları ilə əhatə olunmuşdur. Bu sıra dağları tədricən alçalaraq çay dərələri və çox parçalanmış yüksəkliklər şəklində Kür-Araz ovalığına qovuşur. **DQMV**-nin çayları tropik dağ çayları olub, Kür çayı hövzəsinə aiddir. İri çayları *Tərtər, Xaçın, Qarqar, Quruçay* və *Köndələnçaydır*.

Əlavə məlumat üçün bax: **Müqəddəs Qarabağım**.

## DAİNAKADZOR ÇAYI

Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdər biri **Dainakadzor çayı** adlanır. O, Kiçik Həkəri (*Əkərə*) çayının qoludur. Bu çay sənədlərdə ***Dainakadzor*** variantında da qeydə alınıb. Hidronim **dainak** («***daylax***» *sözünün təhrif olunmuş forması*) və **dzor** («*dərə*») komponentlərindən düzəlib, «***daylax dərəsi***» mənasındadır. **Daylaq** sözü dilimizdə «*birillik at balası*»na deyilir. Görünür vaxtilə bu çayın kənarında **daylaq** yetişdirildiyi üçün **çay** da bu adı daşıyır...

## DAMCI BULAĞI

Xocavənd rayonunun Qaradağlı kəndindən 4 kilometr aralıqa qeydə alınan hidronimlərdən biri **Damcı bulağı** adlanır. Hidronim **Damcı** sözündən və **bulaq** hidronimik vahidindən ibarətdir. Bulağın suyu çox soyuq və dumdurudur. Qaradağlı sakinlərinin dediklərinə görə, bu bulağın suyunun müalicəvi əhəmiyyəti var. *Bulaq* qaynayıb çıxdığı yerdən ***damcı-damcı*** düşdüyü üçün hidronim belə ad almışdır. **Damcı bulağı (*Damcıbulaq*)** coğrafi adına Azərbaycanın bir çox bölgələrində də rast gəlirik...

## DAŞ BULAQ

Axullu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Daş bulaq** adlanır. Hidronim **daş** və **bulaq** sözlərindən ibarət olub, «*daşlı yerdən çıxan bulaq*» mənasındadır. Bu bulağın buz kimi soyuq və göz yaşı kimi dumduru suyu vardır. **Daş bulaq** hidroniminə Xocalı, Kəlbəcər, Laçın, Gədəbəy, Şəki, Şəmkir, Şuşa və s. rayonların ərazilərində də rast gəlinir...

## DAŞBAŞI KƏNDİ

**Daşbaşı kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 55 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bostançılıq, baramaçılıq və üzümçülüklə məşğul olur.

Yerli məlumata görə, **Daşbaşı** yaşayış məntəqəsini indiki Xocalı rayonundakı **Daşbaşı** kəndindən köçüb gəlmiş bir qrup ailə burada saldığı üçün kənd belə adlandırılmışdır.

Toponim Azərbaycan dilində "*dağ, qaya*" mənasında işlədilən **daş** sözü ilə "*yuxarı*", "*zirvə*", "*yüksəklik*" anlamı ifadə edən **baş** terminindən əmələ gəlmişdir. **Baş** sözü toponimlərin tərkibində "*dağın zirvəsi*" mənasında işlənir. Kənd həqiqətən hündür bir yerdə, daşların üstündə qərar tutub. **Daşbaşı** sözündəki **daş** və **başı** komponentləri «*daşın ən hündür yeri - başı*» mənasındadır. **Daşbaşı** orotoponimi quruluşca mürəkkəb toponimdir.

Vaxtilə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda, Kığı çayının sol sahilində azərbaycanlılar yaşayan **Daşbaş** adlı kənd də mövcud idi...





## DAŞDƏMİR DƏRƏSİ

Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş relyef formaları mühüm yer tutur. Bu oronimlərin əksəriyyəti mikrooronimlərdir. Bu tip coğrafi adlar əsasən mənsubiyyət bildirən sonluqlarla bitirlər. Belə antroponimik oronimlərdən biri Xocavənd rayonunun Əmirallar kəndi ərazisində qeydə alınmış **Daşdəmir dərəsi** adlanır. Oronim **Daşdəmir** şəxs adından, **dərə** mənfi relyef formasından və **-si** mənsubiyyət şəkilçisindən ibarətdir. Toponim "*Daşdəmirə məxsus olan dərə*" mənasındadır.

**Dərə** termini relyefin uzunsov başlanğıcından qurtaracağına doğru meyillik forması bildirir. Bu termin türk, türkmən, özbək, tacik (dora) dillərində işlədilir. **Dərə** sözü türk dillərindən bolqar və ləzgi dillərinə də keçmişdir. Azərbaycan oronimiyasında **dərə** termini ilə əlaqədar *30.000*-dən çox coğrafi ad qeydə alınıb...

## DAŞLI DAĞ

Oronimiyamızda süxurlarının tərkibi ilə əlaqədar ad almış çoxlu sayda coğrafi adlara rast gəlirik. Xocavənd rayonu ərazisində qeydə alınmış **Daşlı dağ** oroqrafik obyekti də bu tipli coğrafi adlardandır. Bu **dağ** süxurlarının tərkibi **daşlı** olduğu üçün oronim belə ad almışdır. Toponim "*süxurları daşlı olan dağ*" anlamındadır. Bu tipli toponimlərə Daşkəsən, Goranboy, Kəlbəcər, Qubadlı, Tovuz və digər rayonların ərazilərində də rast gəlirik.

## DAŞLI TƏPƏ

Kuropatkino kəndi ərazisində, kənddən 4 kilometr aralıda qeydə alınan oronimlərdən biri **Daşlı təpə** adlanır. Oronim **daş** sözündən, **təpə** terminindən və **–lı** şəkilçisindən ibarətdir. Tədqiqatçılar sübut etməyə çalışırlar ki, **Daşlı təpə** 400 ildən çoxdur ki, mövcuddur.

**Təpə** coğrafi termini müsbət relyef forması ifadə edir. Azərbaycan oronimiyasında adının tərkibində **təpə** termini iştirak edən **4000** toponim mövcuddur. Adətən nisbi hündürlüyü **200** metrdən çox olmayan yüksəkliyə **təpə** deyirlər. ***Təpə*** əsasən **daşlı** hissələrdən ibarət olduğu üçün belə adlandırılmışdır...

## DAŞLIQ TƏPƏ

Süxurlarının tərkibinə görə ad almış oroqrafik obyektlərdən biri də Xocavənd rayonu ərazisində qeydə alınan **Daşlıq təpə** oronimidir. Oronim **daş** sözündən, **-lıq**





şəkilçisindən və **təpə** müsbət relyef forması bildirən coğrafi terminindən ibarət olub, "*süxurları daş olan təpə*" mənasındadır.

Füzuli rayonunun Dilağarda kəndi, Gədəbəy rayonunun Musayal kəndi, Kəlbəcər rayonunun Otaqlı kəndi, Qubadlı rayonunun Tarsovlu kəndi, Tovuz rayonunun Düz Cırdaxan kəndi və digər ərazilərdə də ***Daşlıq təpə*** oronimi qeydə alınmışdır.

**Təpə** coğrafi termini nisbi hündürlüyü 200 metrdən artıq olmayan yüksəklik anlamındadır. Bu termin Azərbaycan dilindən fars dilinə də keçmişdir. Azərbaycan oronimiyasında çöl materialları əsasında qeydə alınan **4000** coğrafi adın tərkibində **təpə** termini iştirak edir.

## DAŞTƏPƏ KURQANI

Xocavənd rayonunun Kuropatkino kəndinin 5 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri **Daştəpə kurqanı** adlanır. Burada maksimal hündürlük *208* metrdir. Coğrafi adın tərkibindəki **təpə** termini müsbət relyef forması bildirir. **Kurqan** – torpaq, daş və ağacdan düzəldilmiş, adətən müxtəlif böyüklükdə olan yarımkürə formalı qədim qəbirüstü abidə və ya süni təpədir.

Bu **abidə-təpə** el arasında müqəddəs hesab olunur. Yağış və qar suları zaman-zaman abidənin divarlarını uçurmuş, onun sərdabəsini dağıntıya məruz qoymuşdur. Sərdabənin yeri təsadüfən çobanlar tərəfindən tapılmışdır. Sonra türbənin sərdabəsini onun tavan hissəsindən vurub deşmişlər və beləliklə, türbənin yeraltı hissəsi məlum olmuşdur. Çox güman ki, vaxtı ilə sərdabədə insan skeletləri olub.

Abidənin yerüstü hissəsi adi çaylaq daşlarından dairəvi formada, sərdabəsi isə ağ əhəng daşından düzbucaqlı formada tikilmişdir. Sərdabəyə yeganə giriş baş tərəfdəndir. Giriş qapısı bayırdan bir sal *daşla* bağlıdır. **Daştəpə** (***Daşlıtəpə***) abidəsinin son orta əsrlərdə inşa olunduğu güman edilir...

## DƏDƏ DƏRƏ

Çöl materialları içərisində Respublikamız ərazisində tərkibində **dərə** termini iştirak edən *30 000*-dən çox oronim toplanmışdır. Bunlardan biri də Xocavənd rayonunun Banazur kəndi yaxınlığında qeydə alınan **Dədə dərə** oroqrafik obyektidir. **Dərə** coğrafi termini mənfi relyef forması bildirir. Oronim ***dədə*** sözündən və ***dərə*** terminindən ibarət olub, "*əsas dərə*" mənasını ifadə edir. Bu tipli toponimlərə Azərbaycanın digər bölgələrində də rast gəlirik.

## DƏHLİZ

Tuğ kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Dəhliz** adlanır. Əslən fars sözü olan **dəhliz** komponentinin müxtəlif məna çalarları (*«küçə qapısı ilə pilləkən arasında aralıq», «böyük otağın yanında olan kiçik otaq», «ev ilə bağça qapısı arasındakı üstü örtülü yol», «keçid», «qulağın içində olan boşluq», «orta qulaq». «atın ağzına keçirilən dəmir əşya, gəm»*) və s. vardır.

Tuğ ərazisində qeydə alınan **Dəhliz** toponimi *«ev ilə həyət arasındakı üstü örtülü yol, sahə, keçid»* anlamındadır.





## DƏHNƏ DƏRƏSİ

Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Dəhnə dərəsi** adlanır. **Dəhnə** sözü türk və fars dillərində "*arxdan ayrılan kiçik kanalın, arxın və s.-nin ağzı, başlanğıcı*", "*köhnə yatağında çayın düzənə çıxdığı yer*", "*dəyirman kanalında suyun toplandığı yer*" mənasını ifadə edir. Oronimin tərkibindəki ***dərə*** sözü mənfi relyef forması bildirən coğrafi termindir; ***-si*** mənsubiyyət bildirən şəkilçidir. Yerli məlumata görə, vaxtilə bu yerdə dəvə də batmışdır...

Quba və Şəki rayonlarının ərazilərindən axan çaylardan biri **Dəhnə** adlanır. Quba rayonunda **Dəhnə**, Ağdaş rayonunda isə **Dəhnəxəlil** adlı kəndlər də var.

**Dəhnə** hidroenergetika, su təchizatı, irriqasiya və s. məqsədlər üçün çay, göl, su anbarı və s.-dən sugötürən hidrotexniki qurğu anlamındadır. Adına bəzən **baş qurğu** da deyirlər. Əvvəllər Azərbaycanda əkinləri suvarmaq üçün çay və su anbarlarının düzənliyə çıxan hissəsinin qarşısını daş, kol-kos və ağacla tuturdular. Su öz axını ilə dəhnəyə verilərdi. Əgər su birbaşa bənd tikilmədən çaydan götürülürsə, bu növ dəhnəyə **bəndsiz dəhnə**, ərsinə isə **bəndli dəhnə** deyilir. **Dəhnə** növləri əsasən aşağıdakılardan ibarətdir:

1) Su elektrik stansiyasının dəhnəsi,
2) Su təchizatı sistemi dəhnəsi,
3) İrriqasiya dəhnəsi.

**Dəhnə dərəsi** toponimi həmin dərədə ***dəhnə*** sugötürən hidrotexniki qurğunun olması ilə əlaqədar belə adlandırılmışdır.

## DƏMİRÇİ DƏRƏSİ

Salakətin kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Dəmirçi dərəsi** adlanır. **Dərə** mənfi relyef forması bildirən coğrafi termindir. **Dərə** termini relyefin uzunsov başlanğıcından qurtaracağına doğru meyillik forması bildirir. Türk, türkmən, özbək, tacik dillərində də **dərə** termini işlədiliri. **Dərə** termini türk dillərindən bolqar və ləzgi dillərinə də keçmişdir.

**Dəmirçi dərəsi** toponimi «*dəmirçilər olan dərə*» mənasındadır.

Azərbaycanda çöl materialları içərisində adının tərkibində **dərə** termini iştirak edən **30 000** çox coğrafi ad qeydə alınmışdır.

## DƏMİRÇİHƏSƏNLİ ELİ

Qədim-qayım Qarabağda, Xocavənd rayonu ərazisində dövran keçirən ellərdən biri də **Dəmirçihəsənli** elidir. **Dəmirçihəsənli elinin** əksər oymaqları Qarabağa XVIII yüzilin ikinci yarısında Gürcüstan ağzından gəlib. Gürcüstan ağzında yaşayarkən onlar bir neçə oymaq, oba və camaatdan təşkil olmuşdu. 1727-ci ilə bağlı Osmanlı qaynağında bu el nahiyə kimi göstərilib və orada nahiyəyə bağlı şenliklərin adları, əhalisi verilib.

***Dəmirçihəsənli*** nahiyəsinin oymaqları və pərakəndə camaatları: dəmirçihəsənli tayfasının qoluqaralı camaatı, yüzbaşı camaatı, yüzbaşı tayfasının arıxlı camaatı, yüzbaşı tayfasının saatlı camaatı,yüzbaşı tayfasının qaramanlıhəsən camaatı,kəpənəkçi tayfasının qaraçılar camaatı, sarvan camaatı, şərəfəddin camaatı, şərəfəddin tayfasının qaramanlı vəli camaatı, dəmirçihəsənli tayfasına tabe olan **dəmirçihəsənli camaatı**, kəpənəkçi camaatı,





***muğanlı camaatı***, bayəhməd camaatı,sarı sabunçu camaatı, cığallı camaatı, yüzbaşı tayfasının qəmərli camaatı, əmirəhmədli camaatı, pirməhəmməd tayfası, keşəli camaatı, əmirhəsili tayfası, mustafaağalı camaatı, muğançı-məhəmməd camaatı, qararza camaatı, siraclı camaatı,qacarlı camaatı,sofulu camaatı, nəzərli camaatı...

Qarabağ xanı Pənahəli xan Sarıcalı – Cavanşir Gürcüstan ağzından Dəmirçihəsənli,Cinli ellərini, Borçalı, Baydar və Qazax nahiyələrindən bir çox oymaqları köçürüb onları Xonaşendən tutmuş şərqdən Kür qırağına, cənub-şərqdən Araz çayına çatan ərazilərdə, əsasən də Qarabağda yerləşdirdi.Bu ərazi az sonra **Dəmirçihəsənli mahalı** adlandı. Qarabağda yerləşən Dəmirçihəsənli elinin əhalisi **təklə** adlanırdı.Bu ad Gürcüstanın Ağcaqala nahiyəsində qərar tutan **təkəli oymaqları** ilə bağlıydı. Təkəli oymaqlarından da bir neçə camaat Qarabağa köçürülmüşdü.

XIX yüzilin birinci yarısında Dəmirçihəsənli elinin oymaqları: I Təklə, II Təklə, III Təklə,Təklə-Qaradolaq, Təklə-Muğanlı, Təklə-Xalaç, Təklə-Kərbalayıəhmədli, Təklə-Məhəmmədəliyüzbaşı obası (Təklə-Zəkrəşin), Təklə-Allahverən yüzbaşı və Hacıəliyüzbaşılı, Saatlı, Yümürlü, Mamayı, Əskiparalı, Xanməhəmmədsərkarlı və başqaları. Elə yerli Avşar, **Xocavənd**, **Vərəndəli**, Şahsevən obaları da bu oymağa qatıldılar.

**Dəmirçihəsənli elinin** nümayəndələri xanlığın siyasi yaşamında mühüm rol oynamışdılar. Molla Pənah Vaqif İbrahimxəlil xanın öncə eşikağası,sonra baş vəziri olmuşdu. Təklə-Muğanlı obasından Cəmil ağa Manaf ağa oğlu xanın oğlu Əbülfət ağanın lələsi idi. ***Muğanlı*** obasından Məhəmmədqulu bəy Hacı Mustafa bəy oğlu İbrahimxəlil xanın saray ərkanları arasındaydı...

İbrahimxəlil xanın hakimiyyətinin son dönəmlərində, Mehdiqulu xanın ağalıq çağında Dəmirçihəsənli elinin minbaşısı,mahal naibi Əlimərdan bəy Məhəmmədəmin

bəy oğlu Təklə olmuşdu.Əlimərdan bəy 1822-ci ildə Mehdiqulu xanla bərabər İrana qaçmışdı.Ondan sonra İmamqulu bəy Dərvişqulu bəy oğlu *Qaradolaq* elinə və mahala başçılıq etmişdi.Rus üsul-idarəsi dönəmində göstərdiyi xidmətə görə, praporşik rütbəsi almışdı.

İbrahimxəlil xanın dönəmində oba başçıları: Cahangir bəy Məmmədəmin bəy oğlu Təklə,Əmiralı bəy Əlimərdan bəy oğlu Təklə, Məmmədvəli bəy Əlimərdan bəy oğlu Təklə, Dərvişqulu bəy Məmmədqulu bəy oğlu Qaradolaq, Kərbəlayı Allahyar ağa Muğanlı, Qəmbər bəy Muğanlı, Qasım bəy Muğanlı, Xəlil bəy Xanıməli bəy oğlu Xalaç,Hacı Şərif bəy Abdulla bəy oğlu Mamaylı, Mürsəlqulu bəy Murtuzaqulu bəy oğlu Mamaylı və başqaları...

Mehdiqulu xanın dönəmində oba başçıları: Məmmədəli bəy Əmiralı bəy oğlu,Qəhrəman bəy Qasım bəy oğlu Təklə,Hacı Əli bəy Məmmədvəli bəy oğlu Təklə, Allahverən bəy Süleyman bəy oğlu Təklə, Əli bəy Cahangir bəy oğlu Təklə, İmamqulu bəy Dərvişqulu bəy oğlu Qaradolaq, Adıgözəl bəy Dərvişqulu bəy oğlu Qaradolaq, Vəli ağa Kərbəlayı Allahyar ağa oğlu Muğanlı, Məşədi Abbas bəy Qəmbər bəy oğlu Muğanlı, Məmmədəli bəy Muğanlı, Hüseyn bəy Muğanlı,Əlinağı bəy Xəlil bəy oğlu Xalaç, Kərim bəy Eyvaz bəy oğlu Xalaç, Rza yüzbaşı Əskiparalı, Niftalı yüzbaşı Əskiparalı, Hacı Məhəmməd bəy Hacı Şərif bəy oğlu Mamaylı, Cəfərqulu bəy Mürsəlqulu bəy oğlu Mamaylı və başqaları...

Rus üsul-idarəsi dönəmində Adıgözəl bəy Dərvişqulu bəy oğlu Qaradolaq Qarabağ atlı alayının 4-cü yüzlüyünün sultanı olmuşdu. Praporşik hərbi rütbəsi almışdı. Qarabağ atlı alayında ***Dəmirçihəsənli*** mahalından 4-cü yüzlükdə 40 süvari,5-ci yüzlükdə 10 süvari xidmət edirdi. Məhəmmədəmin bəy Əlimərdan bəy oğlu Təklə və Abbas bəy Qəmbər bəy oğlu Muğanlı 3-cü yüzlüyün vəkilləri idilər. Şahhüseyn bəy Ocaqverdi bəy oğlu Təklə kavaler idi.Bir çox döyüş ordenləri ilə təltif olunmuşdu.





Xanlıq dönəmində ***Dəmirçihəsənli*** mahalından bir neçə oba köçürülüb İyirmidörd mahalının ərazisində yerləşdirilmişdi. Bir neçə ailə də Şuşa şəhərində yaşayırdı. Mamaylı obası bütünlüklə şəhərə köçmüşdü. Əlimərdan bəyin oğlu Potu bəy obası ilə köçüb Muğanda məskunlaşdı. Həmin oba hazırda *Potubəyli* adlanır.

Qarabağda Dəmirçihəsənli elinin əhalisinə *Tərəkəmələr* deyilir. Sonrakı dönəmdə **Dəmirçihəsənli eli (tərəkəmə) 6** camaatdan (icmadan) ibarət idi. Bu camaatların ayrıntısı:

***Əmiralılar camaatı***: eyvazlılar, tatalılar, imamverdilər, allahyarlı, əmiralılar, aşıqlı, savalanlı, mollabinnətli...

***Təklə camaatı***: talıbxanlı, boşçalar, budaqlı, bulutlu, hacılı, avdallar, xəlfəqulular, ağamollalar, əlipənahlı, sarıxanlı, əliqulular, tarıqulular, muradxanlı, murtulu...

***Xalaç camaatı***: bərəzlər, fərzəlilər, hüseynlər, aşqalılar, bəylik, körpəbəylik, dünyamalılar, hacıallılar, hacıqurbanlı, hacıpaşalar (hüseynlərin qolu), əhmədli, gödəkli (hacıqurbanlı qolu).

***Çəmənli camaatı***: birinci çəmənli, ikinci çəmənli.

***Qaradolaq camaatı***: mehrablı, şahsevənli, adıgözəlli, ismayılbəyli, cahangirli,qulamlı,cancanlı, səfəralılar...

***Muğanlı camaatı***: nurəhmədli, təmişli, allahmədətli, cəfərli, kürdlər, mollalar, məhəmmədli, əxicanlı, bayramlı, təhmirazlı, oruclu, əliyetməzli...

Hazırda ***Dəmirçihəsənli elinin*** əhalisi kənd biçimində Ağcabədi, Beyləqan,Xocavənd və İmişli bölgələrində yaşam sürürlər...

**Təklə-Muğanlı** oymağı Qarabağda qərar tutan Dəmirçihəsənli elinin bir qoludur. Təklə-Muğanlı camaatının XVIII yüzilin ortalarında Gürcüstan ağzındakı **Dəmirçihəsənli** nahiyəsindən gəldiyi haqqında fərziyə var.

**Muğanlı** yaşayış məntəqələri əsasən *Muğan* düzündə yaşayan Türk - Azərbaycan tayfası olan **muğanlıların** adı ilə bağlı yaranmışdır. Araşdırmalardan da bəllidir ki, bu

camaat çox qədim tarixə malikdir. **Muğanlı** tayfa adı kimi isə XVI yüzildən məlumdur. *Muğanlılar* İ.H.Herberin məlumatlarına görə, Araz çayı boyunca, **Muğan** düzündə yaşayırdılar ki, buna görə də belə adlanırmışlar. Bu tayfalar yaylaq-qışlaq maldarlığı ilə məşğul olurdular, onların qışlaqları Xəzərsahili zolaqda yerləşirdi, Araz çayı ətrafının düzən sahillərində olan otlaqlar isə Osmanlı zonasına daxil idi. Rusiya-Osmanlı sərhəd çəkilməsindən sonra şahsevən və muğanlıların böyük hissəsi osmanlı işğal zonasında qalmışdı. Osmanlı hökuməti onların tayfa hakimini-Səfiqulu xanı öz vəzifəsinə təsdiq etmiş, ancaq muğanlılar və şahsevənlər üzərinə vergilər qoymaqla onların narazılığına səbəb olmuşdu.

**Muğanlıların** bir qolu XVIII yüzilin ikinci yarısında şahsevənlərin tərkibində müstəqil tayfa kimi qeyd olunmuşdur. XIX yüzilin sonlarında Qarabağdakı *muğanlılar* 12 tirədən ibarət olmuşlar. **Dəmirçihəsənli mahalı** ləğv olduqdan sonra **muğanlılar** Şuşa qəzasının Kəbirli sahəsinə bağlandılar.Bir az sonra muğanlıların bir hissəsi qədim qışlaqlarında,Muğan düzündə məskunlaşdılar.Bu ərazi **Mustafaxanlı pristavlığı** adlandı. Pristavlıq da ləğv olunandan sonra ərazini **Cavad qəzasına** bağladılar...

Belə qənaətə gəlirik ki, ***Təklə-Muğanlı*** tayfası orta çağda Muğan düzündə yaşadığına görə,həmin düzün adı ilə tanınmışdır. Azərbaycandakı **Muğanlı** kəndlərinin adı muğanlılarla bağlıdır. Bir fikrə görə, hələ orta əsrlərdə Qarabağ düzlərində *muğanlı* tayfasının tirələrinə məxsus nəsillər yaşamışlar.

Ağstafa, Bərdə, Qubadlı, Zaqatala, Zəngilan, Kürdəmir, Xocavənd, Şamaxı, Şərur rayonlarında da **Muğanlı kəndi** var. Şərur rayonunda **Muğancıq Mehrab** və **Muğancıq Müslüm** adlı kəndlər də vardır. Vaxtilə Qərbi Azərbaycanda Karbi, Xınzirək, Ərmus və Dərələyəz nahiyələrində **Muğanlı**, Eçmiədzin rayonunda Muğan, Zəngəzur qəzasında **Muğancıq** adlı kəndlər də mövcud olmuşlar...





Məlumdur ki, mənbələrdə 393-cü ildən ***Muğan düzünün*** də adı çəkilmişdir. Bir sıra mənbədə XI-XIII yüzillərdə **Muğan** adlı şəhərin də olması göstərilmişdir. Ümumiyyətlə,orta əsrlərdə tarixi hadisələrlə əlaqədar **muğanlılar** müxtəlif ərazilərə səpələnmişlər. XVIII-XIX yüzillərdə **muğanlı** adlı böyük bir oymaq Qazax-Borçalı bölgəsində də yaşamışdır. Gürcüstandakı *Yor-Muğanlı* (Saqareceo rayonu), *Taş-Muğanlı, Kirəc-Muğanlı* (Marneuli rayonu), *Muğanlı* (Qardabani və Bolnisi rayonları) kəndləri, Tiflis əyalətindəki Ağcaqala və **Dəmirçihəsənli nahiyələrində** yaşayan *muğanlı* camaatı, Borçalı bölgəsindəki *Muğanlı qışlağı, Muğanlı düzü* toponimləri də **muğanlı** tayfasının adı ilə bağlıdır.

## DƏMİROV DAĞI, DƏMİROV OCAĞI

Salakətin kəndi yaxınlığında, kəndin 200 adımlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Dəmirov dağı** və oradakı **Dəmirov ocağıdır**. **Dəmirov ocağı** (***Dəmirov dağı***) hələ çox-çox qədim zamanlarda təbabətin heç də geniş yayılmadığı bir dövrə təsadüf edir. Yerli əhalinin (Salakətin kənd sakinlərinin) mənə söylədiklərinə görə, kimin bədəninə **dəmirov** yarası düşərdisə, **Dəmirov dağı** ərazisinə gələrək oradan bir qədər torpaq götürüb həmin yaraya sürtməklə müalicə olunarmış. Görünür bu yerin doğrudan da müalicə əhəmiyyəti olmuşdur...

Adətən ziyarətgahlara çevrilmiş **ocaqlar** Azərbaycanın müxtəlif bölgələrində mövcuddur. İnsanlar keçmişin yadigarı olan bu ocaqları müqəddəs bilib onları tez-tez ziyarət edirlər. Azərbaycanda ***ocaq kultu*** tarixin çox qədim dövrlərinə gedib çıxır. Atəşpərəstlikdən üzü bəri

respublikamız ərazisində **ocaq** inanışı tapınaqları mövcuddur və bu gün də Azərbaycanda əhali tərəfindən müqəddəs tutulan **ocaq** yerlərinə tez-tez rast gəlirik...

## DƏRƏKƏND KƏNDİ

**Dərəkənd kəndi** Qarabağ silsiləsinin ətəyində, Dərəkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr cənub-qərbdə, Xocavənd rayonunda yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, baramaçılıq və bostançılıqla məşğul olur.

XIX əsrdə ermənilər burada məskunlaşdıqdan sonra yaşayış məntəqəsinin adı **Zamzur** kimi rəsmiləşdirilmişdir. **Zamzur** sözü qədim türk dillərində "*bataqlıq yer*", "*sucaq*" mənasında olan ***zam/çam*** komponentindən və İran mənşəli "*dərə*" anlamı bildirən **zur** terminindən ibarətdir. 1992-ci ildən bu yaşayış məntəqəsi yerləşdiyi coğrafi mövqeyə görə **Dərəkənd** adlandırılmışdır. Oykonimin tərkibindəki **dərə** termini mənfi relyef forması ifadə edir.

**Dərəkənd** oykonimi ***dərə*** *(«çökək»)* və ***kənd*** sözlərindən ibarətdir. **Dərə** termini "*iki dağ və ya təpə arasında dərin çuxur*" mənasını ifadə edir. Mürəkkəb quruluşlu **Dərəkənd** toponimi "*dərədə yerləşən kənd*", "*dərədə salınan kənd*" mənasındadır...

Azərbaycanın Qobustan və Şərur rayonlarında da **Dərəkənd** adlı kəndlər vardır. Vaxtilə Qərbi Azərbaycandakı (Ermənistanda) Sisyan, Quqark, Agin (Ani), Qafan, Paşalı (Əzizbəyov, Vayk) rayonlarında da azərbaycanlıların yaşadıqları **Dərəkənd** adlı yaşayış məntəqəsi mövcud olmuşdur.





## DƏVƏBATIRAN ÇAY

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndindən 2 kilometr aralıda qeydə alınan hidronim **Dəvəbatıran çay** adlanır. Deyilənə görə, əvvəllər bu çayın ərazisindən axdığı dərə kolluq və bataqlıq olmuşdur. Vaxtilə karvan yolu ilə buradan keçən **dəvələrin** boğularaq çayda ***batması*** ilə əlaqədar **çay** sonralar belə ad almışdır.

Bu qəbildən olan digər toponimə **Dəvəbatan** adlı çaya Göyçay və İsmayıllı rayonlarının ərazisində də rast gəlirik...

## DƏVƏBOYNU DAĞI

Oronimiyada **boyun** sözü "*dağın, qayanın, təpənin döşü ilə təpəsi arasındakı hissə*" mənasında işlədilir. Bəzən bu termin "*aşırım*" anlamı ilə də ifadə olunur. **Boyun** termini ilə əlaqədar Respublikamız ərazisində **300** oronim qeydə alınıb. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınan **Dəvəboynu dağı** coğrafi adıdır.

**Dağ** coğrafi termini müsbət relyef forması bildirir. Toponim "*dağın döşü ilə təpəsi arasında dəvə boynuna bənzər hissəsi*" mənasındadır.

Laçın və Ordubad rayonları ərazisində də **Dəvəboynu dağı** oronimi qeydə alınıb...

## DƏYƏ YERİ

Muğanlı və Əmirallar kəndləri yaxınlığında qeydə alınmış coğrafi adlardan biri **Dəyə yeri** adlanır. Dəyə

termini "*yonulmamış ağacdan, daşdan tikilən bir gözlü dam*" və ya "*keçə alaçıq*" anlamı ifadə edir. **Dəyə yeri** toponimi "*bir gözlü keçə alaçıqlı sahə*" mənasındadır. **Dəyə** sözü ilə bağlı Azərbaycan oronimiyasında çoxlu sayda coğrafi ad qeydə alınmışdır...

## DƏYİRMAN DƏRƏSİ

**Dəyirman** (*un dəyirmanı*) – un istehsalı edən müəssisəyə deyirlər. **Dəyirman** termini zaman ötdükcə oronimlərə, oykonimlərə, hidronimlərə çevrilmişdir. Azərbaycan ərazisində çöl materialları içərisində **90** oronim adında **dəyirman** sözünə rast gəlirik. Belə oronimlərdən biri də Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan **Dəyirman dərəsi** coğrafi adıdır. Oronim **dəyirman** sözündən, mənfi relyef forması bildirən ***dərə*** termininindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. **Dəyirman dərəsi** toponimi "*dərədə yerləşən dəyirman*" mənasındadır.

Ağdam rayonunun Maniklu, Cəbrayıl rayonunun Şəybəy, Füzuli rayonunun Böyük Bəhmənli, Qazax rayonunun Qaymaqlı, Qubadlı rayonunun Yusifbəyli, Laçın rayonunun Suarası, Şəki rayonunun Baş Zəyzit kəndlərinin ərazilərində də **Dəyirman dərəsi** coğrafi adına rast gəlirik.

## DIRBANABƏND

Salakətin kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Dırbanabənddir*.** **Dırmanabənd** sözünü müx-





təlif cür izah edən araşdırıcılar var. Coğrafi adın tərkibindəki **dır** sözü ərəb dilində «*məbəd, monastır*» mənasındadır. Toponimin tərkibindəki **bənd** komponentini **vənd** («*törəmə*», «*nəsil*») formantı kimi izah edənlər də var.

Toponimin **Dərbənd** coğrafi adı ilə bağlılığını bildirənlər vardır...

## DİBƏTLİ DAĞI

Qarabağ silsiləsində, Böyük Kirs dağının cənub-qərbində, Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Dibətli dağı** adlanır. Dağın hündürlüyü 2140 metrdir. Əslində oronimin adı **Dibəkli** formasında yazılmalıdır. **Dibək** - duz, yarma, çəltik və s. döymək üçün içi oyulmuş daş və ya kötüyə deyirlər. Yaylaqda daşlardakı təbii oyuqlardan heyvanlar üçün yem qabı kimi də istifadə edilir. Dağda belə təbii oyuqlar olduğuna görə o, **Dibəkli** adını almışdır. **Dağ** orada belə təbii daş **dibəklər** olmasına görə bu cür adlandırılmışdır. Oronim quruluşca düzəltmə toponimdir.

## DİZAQ MAHALI, DİZAQ MƏLİKLİYİ

**Dizaq mahalı** uzunu Əkərə (*Həkəri*) çayı və Kültəpədən başlayaraq Maltəpəyə qədər, eni Araz çayından Xurat dağına kimi olan əraziləri əhatə edirdi. Bu ərazilərdə əsasən pambıq, taxıl, çəltik və ipək yetişdirilirdi. **Dazaq mahalı** tərkibində olan kəndlər, yaşayış məntəqələri əsasən aşağıdakılardan ibarət olmuşdur:

*Tuğ, Toqan, Cəbrayıllı, Daşkəsən, Cudərud, Sor (Savr), Xamdazor (Xanıdazor), Yena-Tor (Bəsa-Tor),*

*Köndələn, Edil-Şah, Atayurd, Xəkəki, Koşbək, Aruq, Sələkətun, Hoqa, Siyavşan, Əudkişi, Süleymanlı, Susalıq (Şuşalıq), Tumi (Tomi), Xəkas, Naknud, Kamallı, Satak, Tor, Raç, Eqdilli, Dərə-Axunlu, Kəmərə-Qoç, Ağcakənd, Xark-Xarakənd, Pir-Əhmədli, Ereni, Kalaç, Əhmədli, Çiraquz, Seyidli, Taqazir, Tomaklu, Arazor, Murquzlu, Maralyan, Ergi, Qonan, Kurzanlı, Dövlətyar, Xanzadşahlu, Məzrə, Bulataq, Oxçu, Xorda-Hacı, Megilab-Terexi, Şəbihlər, Qaraxatunabad, Yasuyan, Şah Pirbəy, Qarğabazarı, Horadiz, Biləqan, Ərgünəş, Cıvarlı, Manxış, Həkərə, Xırmancıq, Nakladərə (Makladərə), Türkəş, Çoğay, Vəng, Manik, Noraşen, Mümməlcan, Cimənək...*

**Dizaq məlikliyi** orta əsrlər dönəmində Qarabağın dağlıq hissəsində yaranmış kiçik feodal hakimliyi olmuşdur. İndiki Xocavənd rayonunun ərazisi də vaxtilə **Dizaq** məlikliyinin ərazisi hesab olunurdu. Dizaq məlikliyini yerli hakimlər idarə edirdilər. Səfəvilər dönəmində Dizaq məlikliyinin ərazisi Qarabağ bəylərbəyiliyinə daxil idi. **XVIII** əsrin ortalarından Qarabağ xanlığının vassallığına çevrilən **Dizaq məlikliyi** Ağa Məhəmməd Şah Qacarın Qarabağa yürüşü zamanı ona ciddi müqavimət göstərmiş Qarabağ dəstələri tərkibində olmuşdur. **1813**-cü ildə "*Gülüstan*" müqaviləsi ilə **Dizaq məlikliyi** də Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirilmişdir.

Qarabağın qədim əyalətlərindən birinin adı **Dizaq** (***Dizak***) olub. Dahi şairimiz Nizami Gəncəvinin "*Xosrov və Şirin*" poemasında o, **Dizaknak** kimi xatırlanır. **Dizaq** toponimi "*Dizaq mahalından çıxanlar, dizaqlılar*" mənasındadır.

Azərbaycanda, Qəbələ rayonunda, rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, Ağdaş-Qəbələ şose yolundan 8 kilometr aralıda, Alazan-Həftəran vadisində **Dizaq** toponimi ilə bağlı olan **Dizaxlı** (***Dızaxlı***) adlı kənd





vardır. Vaxtilə Orta Asiyada da **Dizak** adlı qədim şəhər olmuşdur.

Bəzi araşdırıcılar (*professor Ə.Dəmirçizadə və başqaları*) **dizaq** sözünü **Duzlaq** sözünün təhrif forması kimi izah edirlər. Çox güman ki, **Dizaq** adını Orta Asiyadan gəlmiş türk tayfaları gətirmişlər...

## DOLANLAR KƏNDİ

**Dolanlar kəndi** Xocavənd rayonunda, Dolanlar inzibati ərazi vahidində, Qarabağ silsiləsinin yamacında, Teydağ silsiləsində, rayon mərkəzindən 70 kilometr cənub-qərbdə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq və bostançılıqla məşğul olur. Kənddə orta məktəb, klub, kitabxana, kinoqurğu, tibb məntəqəsi, məbəd, park, stadion və s. Var. Kəndin Ağdızı yaylasında e.ə. IX-IV əsrlərə aid qədim qəbirstanlıq vardır. Buradakı qəbirlərdən tunc bəzək şeyləri, munjuq, baş bəzəkləri, zəng şəkilli asmalar, bıçaqlar, cam, nizə ucları və s. tapılmışdır.

Yaşayış məntəqəsinin keçmiş adı **Ərgünəş** olub. **Ərgünəş** həm də yaşayış məntəqəsi yaxınlığında yerləşən dağın adıdır. **Dolanlar** oykonimi etnotoponimdir. **Dolanlar** oykonimi orada məskunlaşmış ailə və tirələrin etnik adıdır. **Dolanlar** sözü, tarixi sənədlərdən də məlumdur ki, XIII əsrdə monqol işğallarında iştirak etmiş **dolon** (***dolan***) tayfasının adını özündə əks etdirir. Qırğızlar və özbəklər arasında da **dolanlar** etnonimi geniş yayılmışdır.

**Dolanlar** toponimi ilə **Dolon/Dolan** troyalı adının bağlılığı vardır. Hər ikisi dol köklüdür. ***Dolon/Dolan*** tayfası adı türkdilli xalqların yaşadıqları əksər ərazilərdə ***Dolanlar*** və s. şəkildə toponimləşərək saxlanılmışdır.

Xocavənd rayonundakı **Dolanlar kəndi** 1828-ci ildən sonra Cənubi Azərbaycandan köçüb gəlmiş ailələrin **Ərgünəş** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır...

## DOLANLAR MƏBƏDİ

Xocavənd rayonunun Dolanlar kəndi ərazisində qeydə alınmış tarixi memarlıq abidələrindən biri **Dolanlar məbədi** adlanır. Bu memarlıq abidəsi bir qisim tədqiqatçılar tərəfindən orta əsr (XII-XIV əsrlər) abidəsi hesab olunur. Məbədin ərazisində aparılan qazıntı işləri zamanı müxtəlif tarixi dövrlərə aid nümunələr aşkar eidlmişdir.

Adətən ibadət və dini mərasimlər keçirilməsi məqsədilə nəzərdə tutulan tikili **məbəd** adlanır. *Məbədlər* ictimai yığıncaq və təntənəli mərasim yeri olmuş və memorial xarakter daşımışdır. Memarlıq abidəsi hesab edilən **məbəd** tikililəri (*məscidlər, kilsələr, sinaqoqlar, iqamətgahlar*) müxtəlif ölkələrdə memarlığın inkişafına uyğun olaraq tarixən formasını dəyişərək milli xüsusiyyət daşımışdır.

Məbədin **Dolanlar** adlanması ərazidəki *Dolanlar* kəndinin adı ilə əlaqədardır.

Əlavə məlumat üçün bax: **Dolanlar kəndi**.

## DOLANLARÇAY

Xocavənd və Cəbrayıl rayonları ərazisində (*arasında*) qeydə alınan hidronimlərdən biri **Dolanlarçay** adlanır. **Çay** öz adını ərazisindən axdığı **Dolanlar** kəndinin





adından almışdır. Hidronim Dolanlar (*etnotoponim*) və çay (*su hövzəsi*) komponentlərindən ibarətdir.

## DOMI ÇAY

Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri **Domı çayı** adlanır. O, Allı çayının sağ qoludur. **Domı** çayının suyundan suvarmada geniş istifadə olunur.

Azərbaycan dilinin qərb qrupu dialektlərində **domı/domu** «*qısa*», «*gödəkboy*», «*əyri*», «*qozbel*» mənalarında işlədilir.

Xocavənd rayonununda **Domı** adlı *kənd* də var.

Əlavə məlumat üçün bax: **Domı kəndi**.

## DOMI KƏNDİ

**Domı kəndi** Xocavənd rayonunda, Domı inzibati ərazi vahidində, Qarabağ silsiləsi yamacında yerləşir. Əhalisi taxılçılıq, heyvandarlıq, meyvəçilik və tərəvəzçiliklə məşğul olur.

Oykonimin belə adlandırılması haqqında müxtəlif fikir və mülahizələr vardır. **Domı** toponiminin hələlik dəqiq elmi izahı verilməyib. Ərazisindəki axdığı eyniadlı çayın əyildiyi, buruldluğu yerdə yerləşdiyi üçün yaşayış məntəqəsi belə adlandırılmışdır. Sonralar bu kəndin əvvəlki adı – **Binə** bərpa edilmişdir...

Əlavə məlumat üçün bax: **Binə kəndi**.

## DÜDÜKÇÜ KƏNDİ

**Düdükçü kəndi** Xocavənd rayonunda, Edilli inzibati ərazi vahidində, rayon mərkəzindən 37 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində, təbiət etibarı ilə çox səfalı bir ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Bu kənddən görkəmli siyasətçilər və idmançılar çıxmışdır...

**Düdükçü** yaşayış məntəqəsinin keçmiş adı **Kolatağ** olub. Yerli məlumata görə, vaxtilə bu yaşayış məntəqəsində ***düdükçü*** nəslinə mənsub olan ailələr məskunlaşdığı üçün kənd belə adlandırılmışdır. **Düdükçü** toponimini "*tütək hazırlayan sənətkarların kəndi*" mənası ilə yozanlar da var...

Əlavə məlumat üçün bax: **Dizaq mahalı, Dizaq məlikliyi**.

## DÜZAĞA YÜKSƏKLİKLƏRİ

Qarabağ dağ silsiləsində, Xocavənd rayonunun şımal hissəsində qeydə alınan dağ silsiləsi **Düzağa** adlanır. Oronim azacıq təhrifə məruz qalıb. Əslində **Dizaq** olmalıdır. Bu toponim Qarabağın qədim ***Dizaq*** mahalının adından yaranmışdır.

Nizami Gəncəvinin "*Xosrov və Şirin*" poemasında **Düzaknak** qalasının adı çəkilir. Qəbələ rayonunda da bu qəbildən olan **Dizaxlı kəndi** var...

Əlavə məlumat üçün bax: **Dizaq mahalı, Dizaq məlikliyi**.





## EDİLLİ KƏNDİ

**Edilli kəndi** Xocavənd rayonunda, Edilli inzibati ərazi vahidində, rayon mərkəzindən 37 kilometr cənubda, Qarabağ silsiləsinin cənub-şərq ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bağçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Kənddə orta məktəb, klub, kitabxana kinoqurğu, xəstəxana, rabitə şöbəsi və s. var.

Toponim çox guman ki, ***edil/adil/idil*** adlı qədim türk tayfasının (qırğızlarda **edil**, **edilli** qaraqalpaqlarda **adil**, başqırdlarda **idil**) adından və mənsubiyyət ifadə edən **-li** şəkilçisindən ibarətdir. Tarixdən məlumdur ki, xəzər tayfalarına daxil olan qəbilələr arasında **edel** (***edil***) qəbiləsinin də adı var. Vaxtilə xəzərlərin şəhərlərindən biri də bu tayfanın adı ilə ***İdil, İtil*** adlanırdı. İndinin özündə də türkdilli tatar və başqırdlar Volqa çayına **İdel/İtel** deyirlər...

**Edilli** oykonimi **Edil** etnonimindən düzələn etnotoponimdir. *Edilli* etnoniminin mənasını odla, Günəşlə bağlayanlar (**Udulu**- "*odu, Günəşi ilkin yaradıcı, müqəddəs sayanlar*") da var...

O.Süleymanov Şümər və türk dilləri paralellərindən danışarkən qeyd edir ki, **udu** sözü Şümər dilində «*qoç*», «*günəş tanrısı*» deməkdir. Qədim türk dillərində **iduk/uduk** sözü «*müqəddəs*» anlamda işlənmişdir.

Hal-hazırda Türkiyənin Qars əyalətində **Edilli** adlı kənd mövcuddur...

**1727**-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda **Edilli** kəndinin adı **Əydilli** şəklində çəkilmişdir.

## EDİLLİ YALI

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 35 kilometr cənub-qərbdə qeydə alınan oroqrafik obyekt **Edilli yalı** adlanır. **Yal** - müsbət relyef forması bildirən coğrafi termindir. Adətən, dağın ən hündür zirvəsinin yamacı oronimiyada **yal** adlanır. Azərbaycanda tərkibində **yal** termini iştirak edən **600**-dən çox coğrafi ad qeydə alınmışdır.

**Edilli** sözü **yal**dan bir neçə kilometr məsafədə yerləşən keçmiş Hadrut (Xocavənd) rayonundakı eyniadlı kənd adı ilə əlaqədardır. Respublikamızın ərazisində öz yaxınlığındakı oykonimlə əlaqədar ad almış yüzlərlə oronimlər vardır. **Edilli yalı** da bu tip oronimlərdəndir.

Toponim ehtimal ki, **edil** (***idil***) adlanan qədim türk tayfasının (başqırdlarda **idil**, qırğızlarda **edil**, qaraqalpaqlarda **adil**) adından və **-li** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. Türkdilli tatar və başqırdlar Volqa çayına indinin özündə də **İdel** (***İdil, İtil***) deyirlər. Vaxtilə xəzərlərin şəhərlərindən biri də bu tayfanın adı ilə **İdil** adlanırdı...

Əlavə məlumat üçün bax: **Edilli kəndi**.

## EDİŞƏ KƏNDİ

**Edişə kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 45 kilometr cənubda, Hadrut qəsəbəsi yaxınlığında, dağətəyi ərazidə yerləşir. Əhalisinin məşğuliyyəti heyvandarlıq, taxılçılıq, bağçılıq, baramaçılıq, bostançılıq və üzümçülükdür.

Bu oykonim Gürcüstandakı **Edisə** toponimi ilə eyni mənşəlidir. Məlumdur ki, XIX əsrdə Qars əyalətində də





**Edişe** adlı yaşayış məntəqəsi mövcud olmuşdur. **Edişə** toponimi türk mənşəli ***edişə*** tayfasının adı ilə bağlıdır. **Edişə** oykonimi etnotoponimdir.

XX əsrin əvvəllərində Şimali Qafqazda **Edişe** adlı **4** kənd qeydə alınmışdır. Şimalı Qafqazda noqayların tərkibində indi də **edişə** adlı tayfa var. **Edişlərin** XII-XIII əsrlərdə qıpçaqların tərkibində Şimali Qafqazdan Azərbaycana gəlmələri ehtimal olunur.

Azərbaycanın Cəlilabad rayonunda da **Edişə kəndi** var...

## ELÇİ DAŞI, ELÇİ YOLU

Xocavənd rayonunun Muğanlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Elçi daşı** adlanır. Bu coğrafi ad göründüyü kimi ***elçi*** və ***daş*** sözlərindən əmələ gəlmişdir. Kəndin yerli sakinləri daşın belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr söyləyirlər.Onlardan birinin də məzmunu təxminən belədir: ərə getməyə yaşı çatan və ailə qurmaq istəyən qız bu daşın üzərində otursaydı tez bir zamanda ona **elçi** göndərilərdi...

Xocavənd rayonunun Axullu kəndi ərazisində bu qəbildən olan **Elçi yolu** coğrafi adı da qeydə alınmışdır...

## ELİCƏ DAĞI

Xocavənd rayonu ərazisində qeydə alınan oronimlərdən biri **Elicə dağı** adlanır. Əksər araşdırıcılar bu toponimin təhrifə uğradığını qeyd edirlər. Əslində **Ellicə** olmalıdır. Keçmişdə burada maldarlıqla məşğul olmuş

ellərə məxsus olan yaylaqlar yerləşdiyi üçün dağın adı **el** sözü, **-li** və **-cə** şəkilçilərindən ibarət olub, "*el yurdu*" mənasında yozulmalıdır. Toponimin yozumu ilə bağlı müxtəlif fikir və mülahizələr də var.

**Dağ** coğrafi termini müsbət relyef forması bildirir. Adətən nisbi yüksəkliyi **200** metrdən çox olan hündürlüyə *dağ* deyilir.

***Dağ/tağ*** sözünə VI-VIII əsrlərə aid qədim türk yazılı abidələrində də rast gəlirik. Azərbaycan oronimiyasında adının tərkibində **dağ** termini iştirak edən **1400** coğrafi ad qeydə alınıb...

## ENLİ DÜZ

Oronimiyamızda **düz** coğrafi termini ilə bağlı **11.000** oroqrafik obyekt toplanmışdır. Bunlardan biri də Xocavənd rayonunun ərazisində qeydə alınmış **Enli düz** oronimidir. Bu coğrafi ad ***enli*** sözündən və mənfi relyef forması bildirən **düz** terminindən ibarətdir. **Düz** termini "*düzən*", "*düzəngah*", "*hamar yer*", "*düzənlik*" anlamındadır. Bu düzənlik ərazisi formaca **enli** olduğu üçün belə adlandırılmışdır. XI əsr müəllifi Mahmud Kaşgari lüğətində **düz** termininin də adını çəkib...

## ERGİ DÜZÜ

Xocavənd rayonunun Muğanlı, Kuropatkin və Əmirallar kəndləri yaxınlığında, Pirəbulaq tirəsindən şimalda qeydə alınan oroqrafik obyektlərdən biri **Ergi düzü** adlanır. **Ergi** düzünün mütləq hündürlüyü **100-150** metr





arasında dəyişir. Bu düzənliyin səthi müvəqqəti axarlı dərələrin prolyuvi çöküntüləri ilə örtülmüş və qobu yarğan şəbəkəsi ilə zəif parçalanmışdır. **Ergi** düzənliyindən qış otlaqları kimi istifadə edilir.

***Ergi düzü*** toponiminin mənası haqqında müxtəlif fikir və mülahizələr var. Toponim məncə azacıq təhrifə uğramışdır. Əslində *Erki (Ərki)* olmalıdır. *Ərk* sözü İran və Türk dillərində «iç qala», «möhkəm hasar» anlamındadır.

**Düz** coğrafi termini mənfi relyef forması bildirir. **Düz** termini «düzənlik» mənasındadır.*Düz* termininin iştirakı ilə oronimiyamızda 11000 oroqrafik obyekt qeydə alınmışdır.

## EYVAZLILAR YATAĞI

Patronimik oronimlər müxtəlif tayfalara mənsub olan nəsil və tirə adlarını özündə əks etdirir. Etnonimik oronimlərə nisbətən patronimik oronimlər üstünlük təşkil edir. Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında qeydə alınmış **Eyvazlılar yatağı** oroqrafik obyekti **Eyvazlı** nəslinin adı ilə əlaqədar yaranmışdır. **Yataq** termini "*davar və mal-qaranı saxlamaq üçün müxtəlif tikililəri olan xüsusi sahə*" deməkdir. *Yataqlar* adətən yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın yerlərdə salınır.

Təsərrüfat tikililəri içərisində **yataq** mühüm rol oynayır. **Yataq** - maldar ellərin qışlaq yerlərində müvəqqəti yaşayış yeri yaxınlığında təsərrüfat tikintisinin adıdır. Keçmişdə payızın ortalarında qoyun qışlaqda açıq havada öz kərməsində qalardı. Payızın son soyuq günlərində isə gecələr qoyunlar *yatağa* salınardı. Respublikamızın

ərazisində çöl materialları içərisində **yataq** sözü ilə bağlı **250** oronim qeydə alınıb.

Adətən yaşayış məntəqəsindən kənarda mal-qara saxlanılan yerə **yataq** deyirlər. Bu termin Azərbaycan dilindən fars dilinə də keçmişdir.

Laçın rayonunun Fərraş kəndi ərazisində **Eyvazlı aşırımı**, yenə də Laçının Nağdalı kəndində **Eyvazlı yaylağı,** Kəlbəcər rayonunun Cəmilli kəndi yaxınlığında **Eyvazlı yalı** oronimləri də öz adlarında ***Eyvazlı*** nəslinin adını ifadə edir...

## ƏHMƏD BƏYİN BAĞI

Axullu kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Əhməd bəyin bağı** adlanır. Bu **bağ** sahəsində çoxlu sayda gavalı, alça, armud, alma, qoz, gilas və digər meyvə ağacları vardır. **Bağ** onun yaradıcısı və sahibi olan **Əhməd bəyin** adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim «*Əhməd bəyə məxsus olan bağ*» mənasındadır. Yerli məlumata görə, bu bağın sahibi olan **Əhməd bəy** nüfuzlu şəxsiyyət olmuşdur. Bu tipli toponimlərə digər rayonlarımızın ərazilərində də rast gəlirik...

## ƏKBƏR DAĞI

Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş müsbət və mənfi relyef formaları mühüm yer tutur. Bu oronimlərin əksəriyyəti mikrooronimlərdir. Belə oronimlər əsasən mənsubiyyət bildirən sonluqlarla bitir. Xocavənd rayonunun ərazisində qeydə alınan **Əkbər dağı** adı da bu tipli oroqrafik obyektlərdəndir. Oronim **Əkbər**





**(*Hacı Əkbər*)** şəxs adından, ***dağ*** müsbət relyef forması bildirən coğrafi terminindən, eləcə də -ı mənsubluq ifadə edən şəkilçidən ibarətdir.

**Əkbər dağı** toponimi antroponimik oronimdir. Toponim rəmzi anlamda "*Əkbərə məxsus olan dağ*" mənasındadır. Bəzən sənəd və materiallarda bu coğrafi adın yazılışına **Hacı Əkbər dağı** şəklində rast gəlinir. Ermənilər bu adı təhrifə uğradaraq **Oxaxper dağı** formasında yazırlar...

## ƏLİ BULAĞI

Xocavənd rayonu ərazisində, Muğanlı kəndinin 6 kilometrliyində qeydə alınmış hidronimlərdən biri **Əli bulağı** adlanır. Bu bulağın göz yaşı kimi dumduru, şəffaf və buz kimi soyuq suyu var. Hidronim **Əli** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Bulaq** onun qurucusu olan **Əli** adlı bir əməlisaleh şəxsin adı ilə əlaqədar olaraq belə ad almışdır. Bu tipli coğrafi adlara Azərbaycanın digər bölgələrində də rast gəlmək mümkündür.

## ƏLİNƏZƏRLİ BULAĞI

Əmirallar kəndinin yaxınlığında, Mil-Qarabağ düzündə qeydə alınan hidronimlərdən biri **Əlinəzərli bulağı** adlanır. Bu **bulaq** vaxtilə **Əlinəzər** adlı şəxs tərəfindən təmir olunduğuna görə onun adı ilə də adlandırılmışdır. Toponim «*Əlinəzərliyə məxsus olan bulaq*» mənasındadır.

Beyləqan rayonunda ***Əlinəzərli*** adlı kənd də var...

## ƏMİRALLAR KƏNDİ

**Əmirallar kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 3 kilometr şimal-şərqdə, Ağdam-Füzuli şose yolu (*Bəzirgan*) kənarında, Qarabağ silsiləsinin ətəyində yerləşir. Kənd əhalisinin sayı **700** nəfərdir. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq, baramaçılıq, bostançılıq, bağçılıq və üzümçülüklə məşğul olur. Kənddə ***əmirallar, bəhrəmlilər, avşarlar, avdallar*** və s. adlı tayfa, tirə və nəsillər vardır. Əmirallar kəndi **2 oktyabr 1992**-ci il tarixdə ermənilər tərəfindən işğal olunmuşdur. Kəndin ərazisində ***Kor bulaq, Kəhrizli, Kəmər qaya, Qaraçı bulağı, Balaca oyuqlu, Bəhrəmli piri, Bəhrəmli qışlağı, Əyri meşə, Unus dərə, Əlinəzərli bulağı, Qurban kəl keçən dərə*** və s. Toponimlər qeydə alınmışdır.

**Əmirallar** oykoniminin bəzi sənəd və materillarda **Əmiranlar** formasında yazıldığının da şahidi oluruq. Əslində toponimin düzgün yazılışı **Əmiralılar** şəklində olmalıdır. Bu yaşayış məntəqəsini **əmiralı** nəslinə mənsub olan ailələr saldığı üçün kənd belə adlandırılmışdır. Başqa fikirdə olan araşdırıcılar da var.

Toponimi «*əmir alanlar*» kimi də yozanlar vardır. Deyilənə görə, bura çatdırılan **əmrlər**, fərmanlar ərazidə elan olunur, həm də onun icrasına nəzarət edilirmiş. Elə bəlkə də bu səbəbdən kənd **əmir alanlar**, yaxud azacıq təhriflə **əmirallar** adlanıb...

**Əmiralılar (eymuralılar)** etnonimdir.

## ƏRİK TƏPƏSİ

Meyvə ağacı növlərini bildirən sözlərdən düzələn oronimlərdən biri də Xocavənd rayonu ərazisində qeydə





alınan **Ərik təpəsi** coğrafi adıdır. Oronimin tərkibi **ərik** meyvə ağacı adından, **təpə** müsbət relyef forması bildirən coğrafi terminindən və mənsubluq ifadə edən **-si** şəkilçisindən ibarətdir. **Ərik təpəsi** toponimi "*təpədə ərik olan sahə*" anlamındadır. **Ərik** - gülçiçəklilər fəsiləsindən yarpaqları ellipsvarı olan ağac və ya kol cinsidir.

**Ərik** meyvə bitkisinin adı ilə Azərbaycanda çöl materialları əsasında çoxlu sayda coğrafi adlar qeydə alınıb. Onlara nümunə olaraq *Ərik dərəsi* (Şəmkir rayonu, Göyməmmədli kəndi), *Ərik düzü* (Şəmkir rayonu, Qaraqocalı kəndi), *Ərikli dərə* (Goranboy və Laçın rayonları), *Ərik tala* (Tovuz rayonu), *Ərikli kəndi* (Laçın rayonu) və bağqa toponimləri göstərmək olar.

## ƏRGÜNƏŞ DAĞ BELİ

Türkdilli ölkələrin toponimiyasında **bel** sözünün "*hündürlük*", "*yal*", "*dağ tirəsi*", "*alçaq və geniş dağ aşırımı*", "*dağ yalı boyunca uzanan zolaq*" və s. mənaları vardır. **Bel** metafor termininin iştirakı ilə Azərbaycan oronimiyasında **70** coğrafi ad qeydə alınıb. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınmış ***Ərgünəş dağ beli*** oroqrafik obyektidir. Oronim **Ərgünəş** adından, **dağ** müsbət relyef forması bildirən coğrafi terminindən və **bel** metafor formantından ibarətdir. **Ərgünəş dağ beli** toponimi "*Ərgünəş dağının hündür aşırımı*" mənasındadır.

## ƏRGÜNƏŞ DAĞI

**Ərgünəş** (*bəzən adı **Argünəş** formasında da yazılır*) **dağı** Füzuli rayonunun Xocavəndlə sərhəd ərazisində (Arış,

Qoçəhmədli, Xırmancıq, Edilli, Bulutan, Qırmızıqaya kəndləri yaxınlığında), rayon mərkəzindən 40 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində yerləşir. Dağın maksimal hündürlüyü *1462* metrdir.

**Ərgünəş** toponimindəki **"*ər*"** sözü türk dilində *"yüksək", "igid", "hündür"* və s. mənasındadır. Bəzilərinə görə, *"ər"* komponenti türk dillərində *"gədik"* mənasında işlədilən **"*ar*"** sözü ilə əlaqədardır. Yerli əhali dağın adını ***Argünəş*** formasında da tələffüz edir. **Ərgünəş dağı** yaxınlıqda olan dağlardan daha hündür olmasına və **günəş** şüasının daha tez onun zirvəsinə düşməsinə görə belə adlanmışdır...

Əlavə məlumat üçün bax: **Argünəş dağı**.

## ƏRGÜNƏŞ QALASI

Rayon ərazisində qədim tarixə malik memarlıq abidələrindən biri **Ərgünəş** dağının güney yamacında, sıldırım qayalar üzərində yerləşən **Ərgünəş qalası** adlanır. Bu ***qala*** ilə bağlı müxtəli əfsanələr dolaşmaqdadır. Toponim *«Ərgünəş dağında olan qala»* mənasındadır.

Əlavə məlumat üçün bax: **Ərgünəş dağı**.

## ƏPPƏKLİ DÖŞ, ƏPPƏKLİK

Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında, kənddən 2 kilometr aralıda, dağətəyi ərazidə qeydə alınmış oroqrafik obyektlərdən biri **Əppəkli döş** (adına bəzən **Əppəklik** də deyirlər) adlanır. Oronim ***əppək*** sözündən, ***-li*** şəkilçisindən və ***döş*** terminindən ibarətdir. Əski türk dillərində **əppəkli** sözünün *"çörəkli"* anlamı vardır. Vaxtilə bu yerlərdə əkilən taxıl bol, yaxşı məhsul verdiyi üçün yerli əhali tərəfindən oronim belə adlandırılmışdır. **Əppəkli döşün** torpağı həqiqətən də bərəkətli və məhsuldardır. Toponim *"dağətəyi yerdə çörəkli döş"* mənasındadır. Bu tipli toponimə Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində də (*Əppəkli*) rast gəlirik.

## ƏYRİ MEŞƏ

Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Əyri meşə** adlanır. Oronim **əyri** və **meşə** sözlərindən ibarətdir. Meşədə çoxlu sayda müxtəlif ağac və kollar vardır. ***Meşə*** zahiri görkəminə görə **əyri** olduğundan yerli camaat arasında belə ad almışdır...

## FINDIQLI BULAQ

Qaradağlı kəndindən 7 kilometr məsafədə, gözəl təbiət qoynunda qeydə alınan hidronim **Fındıqlı bulaq** adlanır. Meyvə ağacı növlərini bildirən sözlərdən düzələn coğrafi adlar toponimiyada üstünlük təşkil edir. Buradakı **bulaq** da **fındıq** ağacının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bulağın ətrafında **fındıq** meyvə ağacları vardır. Bu tip fitonimik toponimlərə Balakən, Cəbrayıl, Gədəbəy, Goranboy, Kəlbəcər, Füzuli, Laçın, Qəbələ, Şuşa, Zaqatala və digər rayonların ərazilərində də rast gəlirik...

## GARRAV

Tuğ kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri **Gərrav** adlanır. El arasında onun başqa bir adına da **Qırmızı məbəd** deyirlər. **Garrav** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr var. Toponimin mənası hələlik elmi şəkildə tam əsaslandırılmayıb...

## GAVAHIN KƏNDİ

**Gavahın kəndi** *(bəzi sənədlərdə yaşayış məntəqəsinin adı **Gavahan, Qavaxan, Kavahan, Kovaxan** kimi də yazılmışdır)* Xocavənd rayonunda, Gavahın inzibati ərazi vahidində rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Kənd əhalisi vaxtilə Ermənistanın Qafan mahalından gəlmişlər...

Oykonimin tərkibindəki **gav** sözü türk dilində "*eniş*", "*dağ yamacı*", "*sürüşkən yer*", "*od*" mənasındadır. **Gav** sözünün İran dillərində "*öküz*", "*mal*" anlamları da vardır.

Tarixi sənədlərdən aydın olur ki, XIX əsrdə Şuşa qəzasında **Gavahın** adlı kənd və dağ da qeydə alınmışdır. Həmin dövrün salnaməçisi olan M.C.Cavanşır oykonimi **Kovaxan** kimi göstərmişdir: «*Ağa Məhəmməd şah Qacar bütün İraq, Fars, Azərbaycan və Xorasan qoşunları ilə Şuşa qalasının üstünə gəlib, qalanın bir ağaclığında – Kovaxan düşərgəsində ordusunu yerləşdirdi*» (... 22, səh. 122).

**Gava/qava** komponenti ilə bağlı türkdilli xalqlarda çoxlu sayda antroponimlər mövcuddur. Tarixi mənbələrdə **gav/gava, qav/qava** adlı türk qəbiləsinin də adına





rast gəlmək mümkündür. **Gavahın** oykonimi **gav** etnonimindən və titul bildirən **xan** sözündən yaranan etnotoponimdir.

Bəzi araşdırıcıların fikirlərinə **Cavahın** oykonimi qədim türk dillərindəki **gav** və **ahın/axın** komponentlərindən ibarətdir. **Gav** – «*dağ yamacı*», «*eniş*», «*sürüşkən yer*» mənasındadır; **ahın** isə «*zirvə*», «*yüksəklik*» deməkdir. Bu prizmadan izah etdikdə **Gavahın** toponimi «*dağ ətəyi*» anlamına uyğun gəlir...

**Gavahın (Qavaxan)** toponimi (**gava/qava,** ***gav/qav*** – "*od*", "*yandırmaq üçün saxlanan od*", "***xan****-hun*") «*yandırmaq üçün saxlanan hun odu*» anlamı ilə də yozulur...

Ordubad rayonunda da bu tipli **Gavan** toponiminə rast gəlirik...

## GAVALLIQ

Axullu kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Gavallıq** adlanır. Oronim **gavalı** sözündən və **lıq** şəkilçisindən ibarətdir. Toponim «*gavalı meyvəsi çox olan yer*» mənasındadır. Doğrudan da həmin ərazidə çoxlu sayda **gavalı** meyvə ağacları vardır. Elə məhz bu səbəbdən də toponim belə adlandırılmışdır...

## GENDƏRƏ

Respublikamız ərazisində bir sıra relyef formaları onların xarici görünüşünə görə ad almışdır. Formalarına görə ad almış belə metafor oronimlərdən biri də Xocavənd rayonunun Xtsabert kəndi ərazisində qeydə alınmış **Gendərə** oroqrafik obyektidir. Toponim **gen** sözündən və

mənfi relyef forması bildirən *dərə* coğrafi terminindən ibarətdir. **Dərə** zahirən **gen**, *geniş* olduğu üçün belə adlandırılmışdır.

**Gendərə** toponiminə Azərbaycanda Cəbrayıl rayonunun Minbaşılı kəndi, Daşkəsən rayonunun Əmirvar kəndi, Goranboy rayonunun Zeyvə və Səfibəyli kəndləri, Göygöl rayonunun Danayer kəndi, Gədəbəy rayonunun Hacılar kəndi, Füzuli rayonunun Bəhmənli kəndi, Kəlbəcər rayonunun Şeyinli kəndi, Laçın rayonunun Minkənd kəndi, Qazax rayonunun Ağköynək kəndi, Şəmkir rayonunun Qaraqocalı kəndi, Şuşa rayonunun Aşağı Quşçular kəndi, Tərtər rayonunun Çaylı kəndi, Tovuz rayonunun Aşağı Mülkülü kəndi, Zəngilan rayonunun Qaragöz kəndi və digər ərazilərdə də rast gəlirik...

## GOVURARX

Xocavənd rayonu ərazisində qeydə alınan hidronimlərdən biri **Govurarx** adlanır. **Govurarx** elliptik coğrafi nomenli mürəkkəb hidronimdir. Adına bəzən **Gavurarx** da deyilir. Bu *arxdan* suvarmada istifadə edilir.

Məşhur şərqşünas İ.İ.Meşşaninovun fikrincə, bu tip kanalların tikintisinə eramızın ilk əsrlərində başlanmışdır. İslamın Azərbaycanda qəbulundan sonra bu fikirlər **Govurarx** (***Kovurarx***) adlanmışdır. Hidronim «*İslama sitayiş etməyənlərin (**kafirlərin**) arxı*», «*qeyri-islam dininə mənsub olanların arxı*» mənasındadır. Bəzi araşdırıcılar *arxın* hələ atəşpərəstlərin zamanında (onlara **kəbr** deyirdilər) salındığını qeyd edir. Lakin dini xarakterli sözlərdən düzələn bəzi hidronimlərin, o cümlədən,





**Govurarxın** (***Kovurarxın***) islamdan sonrakı dövrdə yarandığını göstərən tədqiqatçılar da vardır. Ağcabədi, Ağdaş, Beyləqan, Biləsuvar, İmişli, Salyan, Ucar rayonlarında da **Govurarx** hidronimi qeydə alınmışdır...

## GÖDƏK BAZI

Respublikamızın ərazisində **bazı** müsbət relyef forması bildirən coğrafi termini ilə əlaqədar təxminən **650** oronim qeydə alınıb. Onlardan biri də Xocavənd rayonunun Əmirallar kəndi ərazisində qeydə alınmış **Gödək bazı** oroqrafik obyektidir. **Bazı** sözü "*təpəcik*", "*tirə*", "*mərz*", "*dikdir*", "*su çıxmayan hündür yer*" mənalarında işlədilir. Əmirallar kəndi yaxınlığındakı **Gödək bazı** oronimi həmin ərazidəki təpəciyin gödək olması ilə əlaqədar olaraq belə ad almışdır. Bu tipli metaforik toponimlərə Azərbaycanın digər bölgələrində də rast gəlirik...

## GÖDƏKARX

Bir çox elliptik coğrafi nomenli hidronimlərin birinci, əsas komponentləri ölçü və həcm bildirən (gödək, uzun, böyük, kiçik və s.) ifadə olunaraq oroqrafik obyektləri təyin edir. Bu tip coğrafi adlara Azərbaycanın demək olar ki, əksər rayonlarında rast gəlmək mümkündür.

Xocavənd rayonu ərazisində bu qisimdən olan **Gödəkarx** hidronimi qeydə alınıb. Hidronim **gödək** və **arx** sözlərindən ibarətdir. **Arx** qısa və balaca olduğu üçün hidronim belə ad almışdır.

Ağdaş, Beyləqan, Göyçay, Qazax, Şəmkir, Ucar rayonlarının ərazilərində də **Gödəkarx** hidroniminə rast gəlirik...

## GÖLLÜ DƏRƏ

Tərkibində **göl** sözü iştirak edən hidronimlərdən düzələn oronimlər sırasında Xocavənd rayonunun Daşbaşı kəndinin ərazisində qeydə alınmış **Göllü dərə** oroqrafik adı da var. Oronim **göl** sözündən və mənfi relyef forması ifadə edən **dərə** termininden yaranmışdır; adın tərkibindəki **-lü** şəkilçisi mənsubluq bildirir. Toponim ərazinin landşaftı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

***Dərə*** mənfi relyef forması bildirən coğrafi termininin və ***göl*** apelyativinin birləşməsi yolu ilə Respublikamızın arazsində çoxlu sayda coğrafi adlar qeydə alınmışdır. **Göl** hidronimik vahidi ilə əmələ gələn **Göllü dərə** coğrafi adına Kəlbəcər rayonunun Yellicə kəndinin, eləcə də Ağcabədi, Hacıqabul, Kürləmir və Zərdab rayonlarının ərazilərində də rast gəlinir.

## GÖY TƏPƏ

**Göy təpə** oroqrafik obyekti Xocavənd şəhərinin 5 kilometrliyində qeydə alınıb. Burada aparılan arxeoloji tədqiqatlar nəticəsində müxtəlif tarixi dövrlərə (*mis, tunc, dəmir*) aid çoxlu maddi-mədəniyyət abidələri tapılmışdır.





**Təpə** müsbət relyef forması bildirən coğrafi termindir. Adətən **200** metrə qədər olan yüksəkliyə **təpə** deyirlər. Bu terminin iştirakı ilə Azərbaycanda çöl materialları içərisində **3000**-dən çox coğrafi ad qeydə alınmışdır. **Göy təpə** oronimi həmin təpənin daim yaşıllıq, ***göylük*** olduğuna görə belə ad almışdır. Bu tipli oronimlərə Azərbaycanın başqa ərazilərində də rast gəlirik.

## GÜLLÜCƏ AŞIRIMI, GÜLLÜCƏ DAĞI

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən təxminən 65 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, Ziyarət dağının (hündürlüyü *2478* metr) yaxınlığında qeydə alınan oronimlərdən biri **Güllücə aşırımı** və ya **Güllüjə dağı** adlanır. Oronimin tərkibindəki **dağ** sözü müsbət relyef forması ifadə edən coğrafi termindir. Dağın maksimal hündürlüyü **2388** metrdir.

Quruluş etibarı ilə düzəltmə toponim olan **Güllücə** fitotoponimi **gül** sözünə sifət düzəldən **-lü** və sifətin çoxaltma dərəjəsinin əlamətini bildirən **cə** şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir.

**Güllücə** sözü *«güllü, çiçəkli yer»*, *«çoxlu gül-çiçək olan sahə»*, mənasındadır. Bu fikri həmin ərazi üçün səjiyyəvi hesab etmək olar. Maldar ellərin yaylaq yurdlarından biri olan və Qarabağ dağ silsiləsində yerləşən **Güllücə aşırımı** da bu ərazidədir. Bəzi araşdırıcılara görə dağın adı *paxlalılar* fəsiləsindən olan **güllücə** bitkisinin adı ilə əlaqədardır. Bir sıra məlumatlara görə vaxtilə bu ərazidə **Güllücə** adlı kənd də olub. **Güllücə** oykonimini **qarapapaq** tirələri ilə bağlayan tədqiqatçılar da var...

Ağdam rayonunda **Güllücə kəndi** var. O da məlumdur ki, vaxtilə İrəvan əyalətinin Xınzirək və Şirakel nahi-

yələrində, İrəvan xanlığının Qırxbulaq mahalında, İrəvan quberniyasının Eçmiədzin, Sürməli qəzalarında, Qars əyalətində (sonralar Amasiya rayonunda), eləcə də Spitak (Hamamlı) və Abovyan (Ellər) rayonlarında **Güllücə kəndi** var idi...

## GÜLLÜTƏPƏ

Xocavənd rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Güllütəpə*** adlanır. ***Güllütəpə*** fitonimik oronimi ot bitkisi adından düzəlmiş coğrafi adlardandır. Toponim **güllü** və **təpə** sözlərindən ibarətdir. *Təpə* sözü müsbət relyef forması bildirən coğrafi termindir. *Güllütəpə* toponimi «*gülləri olan təpə*» mənasındadır.

Ağcabədi rayonu ərazisində də ***Güllütəpə*** toponiminə rast gəlirik.

## GÜNEYÇARTAR KƏNDİ

**Güneyçartar kəndi** Xocavənd rayonunda, Güneyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 10 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Yaşayış məntəqəsinin adı keçmiş ədəbiyyatlarda **Güneyçartaz** (***Güneyçarpaz***) kimi qeydə alınmışdır. Oykonimin tərkibindəki **çartar** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr var. **Çar** sözü bəzi türk dillərində "*yarğan*", "*uçurum*", "*sıldırım*" mənası ifadə edir. **Çartar/Çartaz** sözü «*dağda uçurum*», «*yarğan*» anlamındadır. Kənd





yerləşdiyi ərazinin coğrafi mövqeyi ilə bağlı belə adlanmışdır. ***Tar/taz*** komponenti qədim türk dilində "*daş*", "*dağ*", "*dağətəyi*", "*yüksəklik*" mənasındadır.

**Güney** coğrafi termini "*hər hansı bir yüksəkliyin – dağın, təpənin , günəş işığı olması üçün yaxşı işıq düşən tərəfi*", "*yamacı*", "*günəşli yer*", "*günəş işığı olan tərəf*", "*cənub*", "*güntutan*" mənalarında işlədilir. **Güneyçartar** toponimi "*günəşin çox düşdüyü sıldırımlı dağ*", "*günəşli, sıldırımlı yarğan*", "*günəşli dağətəyi uçurum*" anlamındadır.

Xocavənd rayonunda bu qəbildən olan **Quzeyçartar kəndi** də var. Bu yaşayış məntəqəsi **Güneyçartar kəndindən** şimalda, **quzeydə**, yəni günəş az düşən ərazidə yerləşdiyi üçün belə adlandırılmışdır.

Azərbaycanda adının birinci hissəsində **güney** termini iştirak edən yaşayış məntəqələrinə nümunə olaraq **Güneyxırman kəndi** (Xocavənd rayonu), **Güneyməhlə kəndi** (Quba rayonu), **Güneypəyə kəndi** (Kəlbəcər rayonu) oykonimlərini göstərmək olar.

## GÜNEYXIRMAN KƏNDİ

**Güneyxırman kəndi** Xocavənd rayonunda, Güneyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 10 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Yerli məlumata görə, **Güneyxırman** kəndini vaxtilə **Güneyçartar** yaşayış məntəqəsindən köçüb gəlmiş ailələr keçmiş əkin sahəsində salmışlar. Gəlmə ermənilər kəndin adını bir müddət **Güneyqaler** kimi rəsmiləşdirərək sənəd-

ləşdirmişlər. **Qaler** sözü ermənicə "*xırman*" deməkdir. 1992-ci ildən kəndin keçmiş adı özünə qaytarılmışdır. **Güneyxırman** toponimi "*cənub xırmanı*" deməkdir.

**Güneyxırman** oykonimi ***güney*** və ***xırman*** sözlərindən ibarətdir. **Güney** coğrafi termini "*dağın, təpənin, gün düşən tərəfi, cənubi*", "*gün tutan yer*" mənasındadır. ***Güneyxırman*** toponimi "*güneydəki, cənubdakı xırman*" anlamını ifadə edir. **Xırman** - "*taxıl döymək, təmizləmək və qurutmaq üçün hazırlanmış düzən yer, meydança*", "*taxıl zəmisi*" deməkdir. Adının tərkibində **xırman** komponenti olan yaşayış məntəqələrinə **Xırmancıq** (Xocavənd rayonu), **Xırmandalı** (Biləsuvar və Masallı rayonları), **Xırmanlar** (Laçın rayonu), **Xırmanqaynarbinə** (Zaqatala rayonu) və s. kəndləri nümunə göstərmək olar...

## GÜNƏŞLİ KƏNDİ

**Günəşli kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən təxminən 43 kilometr cənubda, dağətəyi düzənlikdə yerləşir. Əhalisi əsasən heyvandarlıq, üzümçülük, taxılçılıq və baramaçılıqla məşğul olur.

Yaşayış məntəqəsinin keçmiş adı **Noraşen** (*Norşen*) olub. **Noraşen** – "*Yeni kənd*" deməkdir. Yaşayış məntəqəsi XIX əsrdə Çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra Cənubi Azərbaycanın Qaradağ mahalından və Hörutdan köçüb gəlmiş erməni ailələrinin burada məskunlaşması nəticəsində yaranmışdır. Kənd rəmzi olaraq **Günəşli** adlandırılmışdır.

Bakıda və Dərbənddə **Günəşli** adlı yaşayış məntəqəsi var. Azərbaycanın Beyləqan, Dəvəçi, Gədəbəy, Xaçmaz, Şəmkir rayonlarında da **Günəşli** adlı kənd vardır.





**Günəşli** toponimi əsasında ***Gun*** kosmonimi durur. Lap qədim zamanlardan əski türklər *Günəşi* müqəddəs tapınaq hesab etmişlər. Rəvayətə görə Oğuz xanın oğlanlarından biri *Gün* idi. Ümumiyyətlə, türk mifologiyasında Günəşə tapınmanın xüsusi yeri var. Günə inamın nəticəsidir ki, "*O Gün haqqı*", "*Günəş haqqı*", "*Gün işığına kor baxım*" kimi andlar da içilir...

Məlumdur ki, Quba-Dərbənd bölgəsində **günəşli** adlanan nəsillər indi də var. Azərbaycanda və onun hüdudlarından kənarda **günəşli** qəbilə adı ilə formalaşmış etnotoponimlər çoxluq təşkil edir...

## GÜNGÖRMƏZ

Tuğ kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Güngörməz** adlanır. Oronim **gün** və **görməz** komponentlərindən ibarətdir. Həmin ərazi günəşli günlərdə «*gün görmədiyi*» üçün yerli sakinlər tərəfindən belə adlandırılmışdır.

## HACI BAĞI

Tuğ kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Hacı bağı** adlanır. Oronim **Hacı** və **bağ** sözlərindən ibarətdir. Bu bağda çoxlu sayda meyvə ağacları vardır. **Bağ** onun qurucusu, sahibi olan **Hacı** adlı (*titullu*) bir nüfuzlu şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toponim «*Hacıya məxsus olan bağ*» mənasındadır.

## HACI ƏLİKƏRƏM YATAĞI

Təsərrüfat tikililəri içərisində **yataq** mühüm rola malikdir. **Yataq** - maldar ellərin qışlaq yerlərində müvəqqəti yaşayış yeri yaxınlığında salınan təsərrüfat tikintisinin adıdır. Adətən əvvəllər payızın ortalarında qoyunlar qışlaqda, açıq havada öz kərməsində qalırdı. Payızın axırında isə, soyuqlar düşəndə, qoyunlar gecələr **yatağa** salınardı. **Yataq** termini "*davar və mal-qaranı saxlamaq üçün müxtəlif tikililəri olan xüsusi sahə*" deməkdir. *Yataqlar* adətən yaşayış məntəqələrindən kənarda, su mənbələri yaxınlığında salınır. Azərbaycan Respublikası ərazisində çöl materialları içərisində **yataq** termini ilə əlaqədar **250** oronim qeydə alınmışdır.

Xocavənd rayonunun Əmirallar kəndi ərazisində, kənddən bir neçə kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri **Hacı Əlikərəm yatağı** adlanır. **Hacı Əlikərəm yatağı** oronimi antroponimik toponimdir. **Hacı Əlikərəm** adlı şəxs həmin *yatağın* sahibi olduğu üçün **yataq** da onun adı ilə adlanmışdır; **"i"** şəkilçisi mənsubluq bildirir. Toponim "*Hacı Əlikərəmə məxsus olan yataq*" mənasındadır. Azərbaycanda bu tipli – antroponimlərdən düzəlmiş oronimlər üstünlük təşkil edir.

## HACIKƏRİM KƏHRİZİ

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 1 kilometr aralıda qeydə alınmış hidronimlərdən biri **Hacıkərim kəhrizi** adlanır. Bu kəhrizin suyundan təsərrüfat və məişətdə geniş istifadə olunur. Hidronim ***Hacıkərim*** şəxs adından və **kəhriz** sözündən ibarətdir; **-i** mənsubiyyət





bildirən şəkilçidir. Toponim "*Hacıkərimə məxsus olan kəhriz*" mənasındadır.

**Kəhriz-** qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün olan yeraltı qurğuya, başqa sözlə, quyu sularının yeraltı yolla axıdılması üçün əmələ gətirilən su obyektinə deyirlər. Adətən *kəhrizlər* peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. XIX əsrin ortalarında Azərbaycanda **900-** dən çox adlı **kəhriz** olmuşdur.

## HADRUT QƏSƏBƏSİ

**Hadrut şəhər tipli qəsəbəsi** Xocavənd rayonunda, Hadrut inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 45 kilometr cənubda, Qarabağ silsiləsində, Arqu dağının ətəyində, Qozluçayın dərəsində yerləşir. Yaşayış məntəqəsinin keçmiş adı **Ağoğlan** (*XIX əsrdə*) olub. 1939 -cu ilə qədər bu yaşayış məntəqəsi **Dizaq** adlandırılıb.

***Hadrut*** toponimi **ha, du** və **rut** komponentlərindən ibarətdir. **Ha-** İran dillərində "*ara*", **du** - "*iki*", **rut/rud** isə "*çay*" deməkdir. **Hadrut** toponiminin mənası "*iki çayın arası*" anlamını ifadə edir. Oykonimi "*aralıqda, ortada olan yer, yurd, sahə*" kimi də mənalandıranlar var...

**1727** -ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı mənbədə yaşayış məntəqəsinin adı **Haderud** şəklində çəkilmişdir...

## HAMAM DƏRƏSİ

Tuğ kəndinin ərazisində qeydə alınan coğrafi adlardan birinə **Hamam dərəsi** deyirlər. Oronim **hamam** və **dərə**

sözlərindən, eləcə də mənsubluq ifadə edən –si şəkilçisindən ibarətdir. **Dərə** coğrafi termini mənfi relyef forması bildirir. Vaxtilə həmin dərədə **hamam** olduğu üçün yerli əhali bu sahəni **Hamam dərəsi** adlandırır. Toponim «*hamam olan dərə*» mənasındadır.

## HARAMI DÜZÜ

Xocavənd rayonunda böyük bir sahəni əhatə edən ərazi **Haramı düzü** adlanır. Göründüyü kimi, toponim 2 sözdən ibarətdir. **Düz** coğrafi termini mənfi relyef forması ifadə edir. Oronimiyada enişi, yoxuşu, təpəsi, çuxuru olmayan, ümumi fondan çox da kənara çıxmayan hamar relyef səthinə ***düz*** deyilir. **Düz** (***düzənlik***) geniş mənada platformaya uyğun gələn, səthi nisbətən hamar, yaxın məsafələrlə hündürlük fərqi kiçik olan materik yer qabığının morfostruktur sahəsidir. **Düz** coğrafi termini dar mənada dağarası düzənliyi, abraziya düzənliyi, okean dibi düzənliklər və s. kimi işlədilir.

*Düzənliklər* mənşəyinə görə ***laylı*** (***ilkin***), ***akkumulyativ*** və ***denudasiya*** düzənlikləri tiplərinə bölünür. Mütəxəssislər səth formasına görə *düzsəthli, maili, batıq, qabarıq, təpəli, dalğalı, pilləli, uvallı* və s. düzənlik tiplərini qeyd edirlər. Dünya okeanında sualtı düzənliklərə abissal və şelf düzənliklərini aid edirlər.

**Haramı düzü** haqqında müxtəlif rəvayətlər danışılır...

Oronimin tərkibindəki haram sözü ərəbcə "*qadağan edilmiş*", "*yasaq olunmuş*", "*toxunulmaz*", "*haram mala əl uzadan*", "*yolkəsən*", "*quldur*", "*qaçaq*", "*soyğunçu*" mənalarındadır. Ərazi vaxtilə bu düzlərdə məskən salmış qaçaqquldurlara (Azərbaycanın bəzi zonalarında onlar





haramı adlanır) görə belə adlandırılmışdır. Bəzi araşdırıcılar isə oronimin tərkibində olan **haramı** sözünü İran dillərindəki **hor/har** ("*isti*") komponenti ilə əlaqələndirir. Amma doğrudan da bir həqiqət də var ki, bu yerlər xüsusilə yay aylarında çox isti olur.

Şamaxı rayonu ərazisində, Udulu kəndinin cənub-qərbində ***Haramı dağı***, Quba rayonu ərazisindəki Qudyal çayının sahilində yerləşən ***Haramtala dağı*** toponimləri də bu qəbildən olan coğrafi adlardandır...

Bəzi araşdırıcılar **Haramı** sözünü "*quldur*", "*qaçaq-quldur*" mənası ilə yozur; bəziləri isə bu sözü "*heyvan üçün hazırlanmış yer*" mənası verən ***oron, uran*** sözü ilə bağlayır: ***Oranı-Horanı-Horamı-Haramı***. S. Mollazadə yazır ki, **haramı** adında "*konkret sahibi olmayan oturaq, mal-heyvan saxlanılan çöl*" anlayışı var. **Haramı** oronimi sadə quruluşlu coğrafi nomensiz toponimdir.

## HATSİ KƏNDİ
**(Bax: Çörəkli kəndi)**

## HATUT DƏRƏSİ

Tuğ kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Hatut dərəsi** adlanır. Toponim **Hatut** və **dərə** sözlərindən, eləcə də **–si** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. **Dərə** coğrafi termini müsbət relyef forması bildirir. Oronimiyada relyefin dar və çökək forması **dərə** termini ilə ifadə olunur. Azərbaycanda çöl materialları içərisində adının tərkibində **dərə** komponenti iştirak edən **30000**-dən çox toponim qeydə alınmışdır.

**Hatut** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bu sözün elmi izahı hələlik tam dəqiqləşməyibdir...

## HEŞAN KƏNDİ

Xocavənd rayonunda bir-birinə yaxın 2 **Heşan** kəndi var. Heşan **kəndi** Xocavənd rayonunda, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin məşğuliyyəti taxılçılıq, heyvandarlıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Məlumatlara görə, **heşan** sözü "*taxil dərzlərinin vəllə döyülməsi*", "*dərzlərin döyüldüyü yer*", "*xırman*" deməkdir. Yaşayış məntəqəsi xırman yaxınlığında salındığı üçün belə adlandırılmışdır. ***Heşan*** coğrafi adı iqtisadi həyatla, əkinçiliklə bağlı formalaşıb yaranan toponimlərdəndir. Bu toponimin yaranması taxılçılıqla əlaqədardır. Taxıl biçildikdən sonra dərzlər xırmana daşınaraq üstündə vəl gəzdirmək üçün yerə sərilir ki, buna da **heşan** deyirlər. **1992**-ci ilədək yaşayış məntəqəsinin adı **Aşan** olub. **Heşan** oykonimi sadə toponimdir.

## HEYDƏRİN BAĞI

Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Heydərin bağı** adlanır. **Heydər** bu bağı salan şəxsin adıdır. Bağda çoxlu sayda meyvə ağacları var. Toponim «*Heydərə məxsus olan bağ*» mənasındadır. Bu tipli coğrafi adlara Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlmək olar.





## HƏMZƏ BULAĞI

Axullu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Həmzə bulağı** adlanır. Bu bulağın göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır. **Bulaq** onun yaradıcısı olan **Həmzə** adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toponim «*Həmzəyə məxsus olan bulaq*» mənasındadır. Bu tipli hidronimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlmək mümkündür.

## HƏRƏKÜL KƏNDİ
**(Bax: Xətai kəndi)**

## HƏZƏR BULAĞI

Salakətin kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Həzər bulağı** adlanır. Hidronim **həzər** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Həzər** ərəb sözü olub «*çəkinmə*», «*ehtiyat etmə*» anlamındadır; **həzər** sözünün ərəbcə «*şəhər mədəniyyəti*», «*şəhərdə yaşayan*», «*oturaqlıq*» mənaları da var. Bəzi araşdırıcılar **Həzər** sözünü **Xəzər** sözünün təhrif forması kimi qəbul edir...

## HİNTAĞLAR KƏNDİ
**(Bax: Köhnətağlar kəndi)**

## HORTER

Xocavənd rayonunun Müğanlı kəndi yaxınlığında, kənddən 3 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri **Horter** adlanır. Toponimin bağqa bir adı **Gölmədir**. Ərazidə kiçik *göllər, gölməçələr* olduğu üçün yerli əhali tərəfindən bu sahə belə adlandırılmışdır. **Horter** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır...

## HUNAN

**Hun** tayfasının adı ilə bağlı Azərbaycanda çoxlu sayda toponimlər qeydə alınıb ki, onlardan biri də Xocavənd rayonu ərazisində rast gəldiyimiz **Hunan** coğrafi adıdır. Bu yerlərdə erkən orta əsrlərdə **hunlar** yaşadıqları üçün toponim belə ad almışdır. Azərbaycanda əsası VI əsrdən qoyulmuş **hunan** adlı ***şəhər*** də mövcud olmuşdur...

## XAÇMAZ DAĞI, XAÇMAZ KƏNDİ

Qarabağ silsiləsində, Xocavənd rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri **Xaçmaz dağı** adlanır. Oronimin Qafqaz Albaniyasının şimal-şərqində yaşamış V əsrdən adı mənbələrdə qeyd olunan **xaçmatak** ("*xaç-pərəst*", "*xaçpərəst xalq*" deməkdir) tayfasının adı ilə əlaqədar olması güman olunur. Bir fikrə görə, ***Xaçmaz*** adı oradakı sütunda **xaç** formalı daşların olması ilə bağlıdır.

Vaxtilə **Xaçmaz dağı** yerləşən ərazinin yaxınlığında **Xaçmaz** adlı kənd də mövcud olmuşdur. Bu kəndin əhalisi əsasən Zəngəzur mahalının ermənilər tərəfindən dağıdılmış Köhnə Kötük kəndindən gələn nəsillərdən, ailələrdən ibarət olmuşdur.

Azərbaycanda **Xaçmaz** adlı şəhər, rayon və kənd (*Xocalı, Quba, Oğuz rayonları*) var. Oğuz rayonunda ***Xaçmaz-qışlaq*** adlı kənd də vardır.





## XANAŞENÇAY
(Bax: **Xonaşen çayı**)

## XANHÜSEYN DƏRƏSİ

Xocavənd rayonunun Əmirallar kəndindən bir qədər aralıda qeydə alınmış oroqrafik obyektlərdən biri **Xanhüseyn dərəsi** adlanır. Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş relyef formaları mühüm yer tutur. Belə oronimlərin əksəriyyəti mikrooronimlərdir. Bu qrupa daxil olan mikrooronimlər əsasən mənsubiyyət bildirən sonluqlarla bitirlər. ***Xanhüseyn dərəsi*** coğrafi adı da antroponimik oronimdir. **Xanhüseyn** şəxs adıdır; **dərə** - mənfi relyef forması ifadə edən coğrafi terminidir. Toponimin tərkibindəki -**si** şəkilçisi mənsubluq bildirir. **Xanhüseyn dərəsi** toponimi "*Xanhüseynə məxsus olan dərə*" mənasındadır.

## XANOBA KƏNDİ

**Xanoba kəndi** Xocavənd rayonunda, Kiş inzibati ərazi vahidində, dağətəyi ərazidə, rayon mərkəzindən 9 kilometr cənub-qərbdə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bostançılıq və baramaçılıqla məşğul olur.

**Xanoba** oykonimi **xan** və **oba** sözlərindən ibarət olub, «*xana məxsus olan oba*» anlamındadır. Yaşayış məntəqəsi Qarabağ xanlarına məxsus məntəqələrdən biri olub. XIX əsrin 20-ci illərində İrandan köçüb gələn erməni ailələri burada məskunlaşmışlar. Sovet dönəmində ermənilər yaşayış məntəqəsinin adını dəyişərək **Xnuşinak** qoymuşlar. **1992**-ci ildə kəndin keçmiş adı olan **Xanoba** özünə qaytarılmışdır...

## XAŞVAXT

Xocavənd rayonunun cənub-şərqində, Cəbrayıl rayonu ilə sərhəd yaxınlığında qeydə alınan sıra dağlar **Xaşvaxt** adlanır. Oronim **xaş** və **vaxt** (*zaman*) sözlərindən ibarətdir. **Xaş/qaş** komponenti «*axşam, tutqun*» anlamındadır. **Xaşvaxt** toponimi «*qaranlıq*» mənasındadır. Bu coğrafi ad vaxtilə ərazidə mövcud olmuş **Qaranlıq** (*Martuni*) yer adının sinonimidir.

## XƏRXAN KƏNDİ

**Xərxan kəndi** Xocavənd rayonunda, Her-her inzibati ərazi vahidində, rayon mərkəzindən 21 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülüklə məşğul olur.

Bəzi tədqiqatçılar oykonimin erkən orta əsrlərdə Qafqaz Albaniyasının Arsax əyalətində, keçmiş Ağdərə rayonu ərazisində mövcud olmuş *Xarx* qalasının adından və fars dilində məkan və cəmlik bildirən -**an** şəkilçisindən





ibarət olduğunu söyləyirlər. Əslində isə toponim "*xərk-lilər*" mənasındadır. **Xarx/Xərk** qalasının adı ilk dəfə XIII əsrə aid olan mənbədə çəkilibdir. **Xərxan** (***Xoraxan***) kəndi Qarabağın ən qədim yaşayış məskənlərindən biri hesab olunur.

Ağdərə rayonu ərazisində **Xərxan** adlı kənd mövcud olmuş, sonralar (orta əsrlərdə) dağıdılmışdır. Sonralar bu yaşayış məntəqəsinin əhalisi Xocavənd və Şuşa rayonları ərazisində **Xərxan** adlı **2** kənd salmışdır. **Xərx** komponentinin mənası hələlik tam mənada məlum deyildir. Bu sözlə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Xocavənd rayonunun ərazisində vaxtilə **Xərxan** adlı **qala** da mövcud olmuşdur...

**Xərxan** oykonimi türk dillərindəki **xarx** («*boş*», «*kimsəsiz*») və İran dillərindəki **an** («*yer*») komponentlərinin birləşməsindən düzəlib «*kimsəsiz, boş yer*» mənasındadır. Çox güman ki, ***qala*** XIII əsrdə artıq boşalmış və kimsəsizh olduğu üçün bu adla qeydə alınmışdır.

## XƏTAİ KƏNDİ

**Xətai kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 55 kilometr cənubda, Çaylaq çayının sol sahilində, Qarabağ silsiləsinin cənub-şərq ətəyində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Kəndin əhalisini əsasən vaxtilə Ermənistanın Qafan mahalının Bəlx kəndindən köçüb gələn nəsillər təşkil edir...

Yaşayış məntəqəsinin keçmiş adı **Hərəkül** (***Arakül***) olmuşdur. Hətta ermənilər tərəfindən kənd **Arakel** də adlandırılıb. **Hərəkül** (***Arakül***) adının mənası elmi şəkildə

tam mənada müəyyənləşdirilməmişdir. 1988-ci ildə Ermənistandan ermənilərin zorla qovduqları bir qisim azərbaycanlı ailələr burada da məskunlaşmışlar. Əhalinin xahişi ilə bu yaşayış məntəqəsi 1988-ci ildə məşhur Azərbaycan şairi və Səfəvilər dövlətinin görkəmli xadimi **Şah İsmayıl Xətainin** şərəfinə **Xətai** adlandırılmışdır. Kəndin əvvəlki adı **Qara Quzey** olub. **Arakel** (*Arakul*) oykonimi türk dillərindəki arak və el sözlərindən ibarət olub, «*su, çay kənarında yerləşən kənd, oba*» mənasına uyğundur.

Rusiya Federasiyasının Çelyabinsk vilayətinin Silaçski kəndi 1968-ci illədək **Arakulski** adlanırdı.

1917-ci ildə Cəbrayıl qəzasında **Birinci Arakul** və **İkinci Arakul** adlı 2 yaşayış məntəqəsi də qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda da **Xətai** adlı kənd vardır.

## XƏZƏR DAĞI

Xocavənd rayon mərkəzindən 1 kilometr cənub-qərbdə, Füzuli rayonunun Qacar kəndi yaxınlığında yerləşən dağ. Hündürlüyü **816** (bəzi sənədlərdə **862** metr də yazılıb) metrdir. Dağın adı türkdilli **Xəzər** tayfalarının adı ilə bağlıdır. Xəzərlərin Cənubi Qafqazda görünmələri barədə müxtəlif fikirlər var. Onların Azərbaycana axını I-III əsrlərdə daha da güclənib. II Şapurun (Sasani hökmdarı, 309-379-cu illər) və Xosrov Ənuşirəvanın (*531-579-cu illər*) dövründə on minlərlə *xəzər* ailəsi Azərbaycanda yerləşdirildi. Bəzi məlumatlara görə köçəri türk tayfası olan **xəzərlər** Azərbaycana e.ə. 193-cü ildə gəliblər (*M.Xorenski*).





Albaniya ərazisi tez-tez Şimali Qafqazda yaşayan xəzərlərin hücumlarına məruz qalmışdır. 965-ci ildə Kiyev knyazı Svyatoslav Xəzər xanlığına son qoyduqdan sonra **xəzərlər** siyasi fəaliyyət meydanından çıxdılar və müxtəlif türk xalq-ları, o cümlədən, azərbaycanlılarla qaynayıb-qarışdılar. Azərbaycanda məskunlaşan ***Xəzər tayfaları*** əsasən, maldarlıqla məşğul olmuşlar. Hətta, bir çox dağlarda, o cümlədən, Füzulidəki Xəzər dağında da xəzərlərin yaylaqları yerləşmişdir.

Bəzi sənədlərdə oronimin adı **Xəzəz dağı** (***Xazəz dağı***) kimi də qeyd olunmuşdur. Yerli məlumata görə, **dağ** orada bitən **xəzəz** bitkisinin adı ilə adlandırılıb. Qacar kəndinin 4 kilometrliyində olan bu ərazidə deyilənlərə görə, vaxtilə **Xəzəz** (*Xəzəz*) adlı yaşayış məntəqəsi də mövcud idi. Görünür, bu qədim kəndin əhalisi təxminən son orta əsrlər dönəmində (bəlkə də bir müddət sonra) müəyyən bir tarixi şəraitlə əlaqədar olaraq kəndi tərk etmişdir.

**Xəzər** etnonimi ilə bağlı çoxlu sayda oykonim, hidronim və oronimlər var. Aşağıda onlardan bəzi nümunələr verilmişdir:

***Xəzəryurd*** (Ordubad rayonu), ***Xəzərdərə dağı, Xəzərzirvə, Xəzərqluk*** (Babək rayonu), ***Xəzər kəndi*** (Neftçala rayonu), ***Xəzər dağı*** (Füzuli rayonu), ***Xəzərtəpə dağı*** (Laçın rayonu, Qırmızı Güney kəndi), ***Xəzərli kənd*** (Xaçmaz rayonu), ***Xəzər dənizi*** və s.

## XƏZƏZ DAĞI
**(Bax: Xəzər dağı)**

## XIRDA-PARA DİZAQ MAHALI

**Xırda-para Dizaq mahalı** Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazisini əhatə edirdi. **Xırda-para** sözü bəzi sənədlərdə **Xırdapara** formasında da yazılır. Mahalın inzibati mərkəzi əvvəllər bir müddət Pirəhmədli (*Füzuli rayonunda*) kəndi olub. Sonralar mərkəz Sarıcalı kəndi olmuşdur. Toponimin tərkibindəki **xırda** sözü "*kiçik*" mənasındadır.

**Xırda-para Dizaq mahalı** aşağıdakı kəndləri əhatə edirdi:

*Maralyan, Süleymanlı, Quycaq, Daşkəsən, Qaracallı, Qışlaq, Sirik, Çapand, Cəfərabad, Şəybəy, Karxulu, Mehdili, Mollalı (Qaradərə), Horovlu, Nüzgər, Çaxırlı, Zülfüqarlı, Balyand, Sarıcalı, Səfərşa, Xatınbulaq, Pirəhmədli, Saracıq, Qoçəhmədli, Gorazıllı, Güzdək, Qarğabazar, Qaradağlı, Horadiz, Hüngütlü, Babı, Mollaməhərrəmli, Mirzənağılı, Qazaxlar, Zülfüqaroğlu, Sərkarlı, Tumaslı, Qarakollu, Manaflar, Dördçinar, Təzəkçi, Kərimbəyli....*

**Xırda-para Dizaq mahalı** Qarabağın qədim mahallarından biri hesab olunur. Onun sərhədi güneydə *Araz çayı*, quzeydə *Dizaq mahalı*, günbatanda *Dizaq-Cəbrayıllı mahalı* və gündoğanda *Cavanşir-Dizaq mahalı* ilə çevrələnir. Bu mahal əski **Dizaq** nahiyəsinin və Arazbar qəzasının əraziləri əsasında yaranmışdır. Pənahəli xan bu mahalı **Dizaq mahalından**, bir az da Arazbar qəzasından kəsib ayırmışdır.

**Xırda-para Dizaq mahalının** nüfuzlu naibi Məlik Namazəli bəy Şəmil bəy oğlu Pirəhmədli olmuşdur. Ondan sonra mahalın başçısı Məlik Həsən bəy oğlu Saracığı olub. Ondan sonra oğlu Məlik Həmzə bəyin ağalığı dönəmində ruslar tərəfindən **mahal** inzibati ərazi vahidi





**1822**-ci ildə ləğv olunaraq ərazisi *Vərəndə* sahəsinə verildi. **Mahal** haqqında ilk doğlun məlumata polkovnik Yermolovun və mülki müşavir Mogilyevskinin **1823**-cü ildə tərtib etdikləri «*Qarabağın statistik təsviri*» adlı vergi dəftərində rast gəlirik...

## XIRMAN YALI

Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Xırman yalı** adlanır. Oronim **xırman** sözündən və müsbət relyef forması bildirən **yal** coğrafi terminindən ibarətdir. **Xırman** "*taxıl döymək, təmizləmək, qurutmaq və üyütmək üçün hazırlanmış düzən yer, meydança*" deməkdir. **Xırman yalı** toponimi "*taxıl döymək üçün yüksəklikdəki düzən meydança*" mənasındadır. Azərbaycan toponimiyasında **xırman** termini ilə bağlı çoxlu sayda coğrafi adlar qeydə alınmışdır...

**Yal** müsbət relyef forması bildirən coğrafi termini "*yamacın dağ belinə yaxın hissəsi*" anlamındadır.

## XIRMANCIQ KƏNDİ

**Xırmançıq kəndi** Xocavənd rayonunda, Bulutan inzibati ərazi vahidində, rayon mərkəzindən 36 kilometr cənubda, Ərgünəş dağının yaxınlığında, Füzuli rayonunun Arış kəndi ilə həmsərhəd sahədə, dağətəyi ərazidə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülüklə məşğul olur.

Bu yaşayış məntəqəsi 1826-1828-ci illərdə baş verən Rusiya-İran müharibəsindən sonra (*"Türkmənçay"* müqaviləsindən az sonra) Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş erməni ailələrinin Ərgünəş dağı yaxınlığındakı **Xırmancıq** adlanan ərazidə məskunlaşması nəticəsində yaranmışdır. **Xırmancıq** oykonimi sadə toponimdir. Toponim ***xırman*** sözündən və ***-cıq*** hissəciyindən ibarətdir. **Xırman** – *"taxıl döyülən yer"* deməkdir; - **cıq** komponenti *"kiçiklik"* anlamı ifadə edir. **Xırmancıq** toponimi *"kiçik xırman"* mənasındadır. Bu toponim iqtisadi həyatla, əkinçilklə bağlı formalaşaraq yaranmış toponimlərdəndir.

Azərbaycanda adının tərkibində **xırman** sözü olan yaşayış məntəqələri çoxdur. Onlara nümunə olaraq aşağıdakılarını göstərmək olar:

**Xırmandalı** (Biləsuvar və Masallı rayonları), **Xırmanqaynarbinə** (Zaqatala rayonu), **Xırmanlar** (Laçın rayonu), **Güneyxırman, Quzeyxırman** (Xocavənd rayonu) və s.

## XIŞQALASI DAĞI

Respublikamız ərazisində müxtəlif adlarla adlandırılmış çoxlu sayda dağlar vardır ki, onlardan da biri Xocavənd rayonu ərazisində qeydə alınan **Xışqalası dağı** oroqrafik obyektidir. Dağın maksimal hündürlüyü 1811 metrdir. Bəzi sənədlərdə dağın adın **Xış qalası** şəklində də yazılır.

Əslində dağın adı ***Kiş qalası dağı*** kimi yazılmalıdır. Bu **dağ** öz adını zirvəsində xarabalıqları indi də mövcud olan **Kiş** adlı erkən orta əsr alban monastırının adından almışdır. **Qala** və **dağ** terminləri müsbət relyef formaları ifadə





edir. ***Xışqalası dağı*** vaxtilə burada mövcud olmuş **Kiş** kəndinin ərazisində yerləşir...

**Kiş** sözünün etimologiyası ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Fars dilində **kiş** sözü *"sitayiş yeri"*, *"kult"* deməkdir. Alban tarixçisi M. Kalankatlı " Alban tarixi" əsərində **Kiş** (o, bu adı **Kis** kimi çəkmişdir) yaşayış məntəqəsinin adını çəkib. Onun yazdığına görə, ilk xristian missionerlərindən biri olan Yenisey təxminən 74-cü ildə Uti vilayətinin *Kis* kəndinə gəlib burada kilsə tikmişdir. Bu, bütün Cənubi Qafqaz ərazisində ilk xristianlıq məbədi idi. Kilsə əvvələr burada mövcud olmuş qədim sitayiş yerində tikilmişdir. Erkən orta əsrlərdə Albaniyada (indiki Xocavənd və İsmayıllı rayonları ərazilərində) **Kiş** adlı başqa toponimlərə də rast gəlinir. İndinin özündə Şəki rayonunda ***Kiş kəndi*** və ***Kiş çayı*** (Əyriçayın (Qanıx hövzəsi) qolu) vardır.

**Xışqalası dağı** Xocavənd rayonunun ərazisində vaxtilə mövcud olmuş **Kiş kəndi** xarabalığı yaxınlığında yerləşdiyi üçün belə adlandırılmışdır. Toponimi qədim şum aləti olan **xış** ilə də bağlayanlar var...

## XNUŞİNAK KƏNDİ

**Xnuşinak kəndi** Xocavənd rayonunda, dağətəyi ərazidə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin dəqiq elmi izahı hələ verilməmişdir. Mənası aydın olmayan coğrafi adlardan da biri **Xnuşinak** oykonimidir. Çox güman ki, adın tərkibindəki **xnu** formantı **hun** sözünün təhrif formasıdır.

## XOCALI ÇAYI

Xocavənd rayonu ərazisində qeydə alınan hidronimlərdən biri **Xocalı çayı** adlanır. Bu **çay** Badara çayının sol qoludur. *Çay* **Xocalı** şəhərinin yaxınlığından axdığı üçün belə adlanmışdır.

Azərbaycanda, Qarabağ silsiləsində **Xocalı** adlı *rayon* və *şəhər*, Salyan rayonunda *kənd*, Füzuli rayonu ərazisində isə *dağ* vardır...

## XOCAVƏND QƏSƏBƏSİ

**Xocavənd şəhər tipli qəsəbəsi** Xocavənd rayonunun inzibati mərkəzidir. Bu yaşayış məntəqəsinin qədim adı **Qaranluq** olub. XX əsrin 20-ci illərində Türkiyədən gətirilən ermənilər buraya köçürüldülər. Sonralar yaşayış məntəqəsi həm **Nijni Qaranluq,** həm də **Cüməbazarı** adlanmışdır. Daha sonralar bir müddət **Xonaşen** adlanan bu yaşayış məntəqəsinə **1940**-ci ildə A.F. Myasnikovun təxəllüsü ilə əlaqədar **Martuni** adı verilmişdir. **1991**-ci ildə yaşayış məntəqəsi nəhayət ki, öz tarixi **Xocavənd** adını almışdır. **26 noyabr 1991-ci il** tarixdə **Xocavənd rayonu** yaradılarkən **Xocavənd qəsəbəsi** onun inzibati mərkəzi kimi qəbul olunmuşdur.

Xocavənd yaşayış məntəqəsinin ərazisində **Xonaşen çayı, Xonaşen dərəsi, Cicim ocağı, Hacı Kərim kəhrizi, Gödək burun, İmmi bulağı, Damcı bulaq, Qoşa günbəz, Tut bağı, Narlıq** və s. coğrafi adlar qeydə alınmışdır. Kənddə əl ilə qazılmış çoxlu sayda su quyuları vardır...

**Xocavənd qəsəbəsi** erməni-rus hərbi birləşmələri tərəfindən **19 noyabr 1991**-ci il tarixdə işğal edilmişdir...







Ağcabədi rayonunda da **Xocavənd** adlı kənd var. Bəzi araşdırıcılar ***Xocavənd*** toponimini **Xaçabənd** (*"oda tapınan"*, *"odsevən"*) sözü ilə izah edirlər. **Xoca** sözünün *"müəllim"*, *"dini titul"* və *"tacir"* mənaları da var. **Xocavənd** oykonimi «*xocalı nəsli*» mənasındadır. *Xoca* sözünü **kuç** etnonimi ilə də bağlayanlar vardır. **Vənd** sözü İran dillərində *"törəmə"*, *"nəsil"*, *"tirə"* mənası daşıyır.

## XOCAVƏND RAYONU

Azərbaycan Respublikasının **26 noyabr 1991**-ci il tarixli, **279-XII** nömrəli Qanununa əsasən **DQMV** ləğv edilərək Martuni və Hadrut rayonlarının bazası əsasında **Xocavənd rayonu** yaradılmışdır. Rayonun ümumi sahəsi **1458** km$^2$, əhalisi **41.500** (*o cümlədən azərbaycanlılar – **10.500***) nəfərdir. **Xocavənd rayonu** Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.



Bəşər sivilizasiyasının beşiklərindən biri olan Xocavənd bölgəsi antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu bölgədə ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, müxtəlif dövrlərdə inşa edilmiş türbələrə, daş-qoç heykəllərə – ümumiyyətlə, nadir mədəniyyət nümunələrinə tez-tez rast gəlirik.

Azərbaycan ərazisində xristian dininin ilk yayım mərkəzlərindən biri indiki **Xocavənd** rayonunda olduğundan rayon ərazisində çoxlu sayda xristian abidələri qalmışdır. **Xocavənd rayonu** ərazisində qeydə alınıb siyahıya salınmış bu abidələrin tarixi IV əsrdən başlayaraq XIX əsrə qədər geniş bir tarixi dövrü əhatə edir. Onların içərisində ***Amaras*** monastır-kompleksinin xüsusi yeri var.

Artıq elmi şəkildə tam sübut olunmuşdur ki, Xocavənd ərazisi ilk insan məskənlərindən biridir. Bu ərazilərdə Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hssəsi olan Xocavənd ərazisində çoxlu sayda (72) dünya və





Respublika əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələri vardır. Bunlar Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənələrini göstərən abidələrdir. Azərbaycanın sosial, siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Xocavəndin hər daşı, hər qayası, hər mağarası... tarixin əsl canlı şahididir.



Rayonun relyefi əsasən dağlıqdır. Şərqdə və cənub şərqdə əsasən dağətəyi düzənliklərdir. Qarabağ dağ silsiləsinin cənub-şərq qolları bu rayonun ərazisində dağətəyi düzənliyə çevrilir. İqlimi çox yerdə qısa quraq keçən mülayim isti, qışı quraq keçən soyuqdur.

Çayları (*Xonaşençay, Köndələnçay, Qozluçay, Quruçay, Çaxmaqçay, Allıçay, Ataqutçay, Binəçay* və s.) Kür-Araz hövzələrinə aiddir.

Bitki örtüyündə kolluq və seyrək meşəli çəmənlər üstünlük təşkil edir. Kolluqlar və enliyarpaq meşələri var.

Rayonda **1** şəhər (***Xocavənd şəhəri***-rayon mərkəzi), **2** iri qəsəbə (***Qırmızı Bazar*** və ***Hadrut***), **82** kənd var. Bu kəndlərdən **10**-u azərbaycanlılar yaşayan kəndlərdir. Məlum Qarabağ müharibəsi zamanı rayonun bütün azərbaycan-

lılar yaşayan kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdur.

**Xocavənd rayonunun kəndlərinin işğal tarixləri:**

| | |
|---|---|
| **Tuğ, Salakətin** | **- 30.10.1991-ci il;** |
| **Xocavənd** | **- 19.11.1991-ci il;** |
| **Axullu** | **- 09.01.1992-ci il;** |
| **Qaradağlı** | **- 17.02.1992-ci il;** |
| **Muğanlı, Əmirallar, Kuropatkin** | **- 02.10.1992-ci il;** |
| **Günəşli** | **- 23.07.1993-cü il;** |
| **Xətai** | **- 20.08.1993-cü il;** |

***Xocavənd rayonu*** üzümü və yaşıl mərməri ilə məşhurdur. Rayonda əsas təsərrüfat sahələri heyvandarlıq, üzümçülük, quşçuluq, taxılçılıq, bostançılıq və tərəvəzçilikdir. Rayonda arpa, buğda, qarğıdalı, soğan, kartof, yem çuğunduru və bostan-tərəvəz bitkiləri yetişdirilir. Rayon ərazisində *Bağırxan, Qırmızı Bazar, Mədə Bulağı, Baba Bulağı, Ballı Bulaq* və s. onlarla istirahət zonaları var.



Xocavənd rayonu ərazisində, Salakətin kəndinin yaxınlığında (Quruçay vadisində) **1,5** milyon il yaşı olan





**Azıx mağarası**, həmçinin qədim tarixə malik ***Tağlar mağarası,*** Tuğ kəndi ərazisində yerləşən V-VIII əsrlərə aid ***«Ritiş» qalası***, Ərgünəş dağının yamacında sıldırım qayalar üzərində yerləşən ***«Ərgünəş» qalası***, Düdükçü kəndi ətrafında XIII əsrə aid ***«Rzaqulu Bəy» türbəsi***, Xocavənd kəndi yaxınlığında ***«Aşıqlı Qoşa» günbəzi***, Böyük Tağlar kəndində ***«Alban» məbədi*** (1241-ci il), Tuğ kəndindəki ***«Qırmızı» məbəd*** X əsrə aid adlı tarixi memarlıq və incəsənət abidələri və s. var.

Erməni təcavüzü nəticəsində rayonun dağıntıya məruz qalmış mədəni və dini abidələrinə nümunə olaraq Tuğ kəndinin 5 kilometrliyindəki V əsrə aid ***Alban kilsəsi***, I-V əsrlərə aid ***Alban qəbiristanlıqları***, Salakətin kəndi ərazisindəki ***Dəmirov*** və ***Dağdağan*** ocaqları, Xocavənd kəndi ərazisində yerləşən ***Cicim ocağı***, Qaradağlı kəndinin ərazisində qeydə alınan və III-VI əsrlərə aid olan ***Alban qəbiristanlıqları***, Əmirallar kəndi yaxınlığındakı (*keçmiş Bəhrəmli kəndi ərazisində*) ***Bəhrəmli piri***, Muğanlı kəndində yerləşən ***Seyid Rza günbəzi***, Qaradağlı kəndi ərazisindəki ***Yel piri*** və neçə-neçə qiymətli maddi memarlıq abidələrini göstərmək olar.

Xocavənd torpağı ölkəmizə çoxlu sayda tanınmış siyasətçilər, mədəniyyət xadimləri, rəssamlar, şairlər, yazıçılar, curnalistlər, müğənnilər, idmançılar, sərkərdələr, igidlər bəxş etmişdir.

**2 oktyabr 1992**-ci il tarixdə Xocavənd rayonu Ermənistan ordusu tərəfindən işğal olunmuşdur. Təcavüz nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş rayon sakinləri respublikanın **40** rayon və şəhərində müvəqqəti məskunlaşmışlar.

Beyləqan bölgəsində Xocavənd rayonundan olan məcburi köçkünlər üçün **500** ailəlik yeni qəsəbə salınmışdır.

2008-ci ilin oktyabrında ölkə rəhbəri özü də qəsəbənin açılış mərasimində iştirak etmişdir...

Rayonun təhsil və səhiyyə müəssisələri yaşayış yerlərini məcburi tərk etmiş rayon sakinlərinin müvəqqəti məskunlaşdığı yerlərdə (Xalac kökəltmə məntəqəsi, Xaçın, Meşəçilik, «*Örənqala*» ərazisi və digər məntəqələrdə) fəaliyyət göstərir. Rayonda ümumilikdə 19 məktəb (*12 orta, 2 əsas, 5 ibtidai*) var. Məktəbəqədər (*1*) və məktəbdənkənar (*2*) müəssisələr isə Bakı şəhərində, Ağcabədi. İmişli, Beyləqan rayonlarının ərazilərindədir...

**1988**-ci ilin fevralından başlayan Qarabağ müharibəsində **Xocavənd rayonu 145** şəhid (onların **15** nəfəri qadın, **13** nəfəri uşaqdır) vermişdir. Müharibənin əsas ağırlığını rayonun Tuğ, Salakətin, Xocavənd, Axullu, Qaradağlı, Muğanlı, Əmirallar, Kuropatkin, Günəşli və Xətai kəndlərinin əhalisi çəkmişlər. Hazırda rayonun bütün yaşayış məntəqələri erməni tapdağı altında zillət çəkir.



**Xocavənd** toponimi 2 hissədən - **Xoca** sözündən və **vənd** komponentindən ibarətdir. *Xoca* sözü türk dilində «*müəllim, öyrətmən*» anlamındadır. **Vənd** komponenti İran dillərində «*uşağı, nəsli, törəməsi*» mənası daşıyır...





## XONAŞEN ÇAYI

Xocavənd və Ağcabədi rayonları ərazisində axan çay **Xonaşen çayı** adlanır. Çay Orconikidze adına kanala çatmadan quruyur. Çayın uzunluğu 62 km-dir. Qarabağ silsiləsindən başlanan *Xonaşen çayı* əsasən, yağış suları ilə qidalanır. Suvarmada geniş istifadə olunan *Xonaşen* çayının hövzəsinin sahəsi 234 kv. km-dir. Bəzən adı **Xanaşençay**, **Xonaşençay** kimi də yazılır.

Hidronim **xona** («*hündür yer*», «*yüksəklik*»), **şen** («*ev*», «*mənbə*») və **çay** (*su hövzəsi*) sözlərindən ibarət olub, «***mənbəyini yüksəklikdən alan çay***» mənasındadır. **Çay** (*su hövzəsi*) öz adını keçmişdə **Xonaşen** (***Xonaşin***) adlanmış böyük yaylaq yerinin adından almışdır. Yaylağın adı isə bəzi tədqiqatçılara görə, V əsrdə Azərbaycanda məskunlaşmış türkdilli **hun** etnonimindən və **şen** ("*kənd, yer, ev, mənbə, ərazi*") sözlərindən ibarət olub, "*hun ölkəsi*", "*hunlar yaşayan ərazi*" mənasındadır.

Yerli məlumata görə *çay* öz adını vaxtilə onun yatağında yerləşən **Xan Uşun** obasının adından alıb. "*Kitabi-Dədə Qorqud*" dastanında adı çəkilən **Xan Uşun** adından-antroponimdən **Xanuşun** kənd adı yaranmış və əsrlər ötdükcə bu söz ermənilər tərəfindən **Xonaşın** və **Xonaşenə** çevrilmişdir. Ermənilər onu sonradan birdəfəlik **Xonaşen** şəklinə salıblar. Mənbələrdə göstərilir ki, Qarabağın əsas yazlaqları tarixən **Xonaşen** (35.000 desyatin) və **Gəyən düzü** (10.000 destatin) olmuşdur...

**1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda Vərəndə nahiyəsinə tabe olan yaşayış məntəqəsi içərisində **Xuneşin məzrəsi** coğrafi adı da çəkilmişdir...

Şəki rayonu ərazisində ***Xonaşenyeri dağı*** adlanan oronim də qeydə alınıb.

## XTSABERT KƏNDİ (Bax: Çaylaqqala kəndi)

## XUNEŞİN MƏZRƏSİ

Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Xuneşen məzrəsi** adlanır. **1727**-ci ilə aid olan *«Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»* adlı mənbədən Vərəndə nahiyəsinin tabeliyində olan yaşayış məntəqələri içərisində indiki Xocavənd rayonu ərazisindəki **Xuneşin məzrəsi** adlanan yer adına da rast gəlirik.

**Xuneşin** sözünün tərkibindəki **xun** komponenti bəzi tədqiqatçılara görə erkən orta əsrlərdə – V-VI əsrlərdə Azərbaycanda məskunlaşmış **hun** etnonimi ilə bağlıdır. **Hun** tayfalarının adı ilə əlaqədar Azərbaycanda onlarla coğrafi adlar qeydə alınmışdır. Toponimin tərkibindəki **şen** sözü *«kənd»*, *«yer»*, *«ərazi»* anlamındadır.

**Məzrə** sözü ərəb dilində *«əkin üçün yararlı yer»*, *«tarla»*, *«əkin yeri»*, *«əkin yerləri əsasında yaranan məntəqə, oba, kiçik yaşayış məntəqəsi»* mənasındadır. Cəbrayıl, Qubadlı, Ordubad rayonlarında **Məzrə**, İmişli rayonunda isə bu qəbildən olan **Məzrəli** adlı kəndlər vardır. **Xuneşin məzrəsi** toponimindəki **–si** şəkilçisi mənsubiyyət ifadə edir.

## İBADIN BAĞI

Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **İbadın bağı** adlanır. Oronim **İbad** və **bağ**





sözlərindən, eləcə də **–ın**, **-ı** şəkilçisindən ibarətdir. **İbad** həmin bağın yaradıcı və qurucusuna olan şəxsin adıdır. Toponim *«İbada məxsus olan bağ»* mənasındadır. Bu tipli toponimlərə Azərbaycanın demək olar ki, bütün rayonlarının ərazilərində rast gəlmək olar.

## İKOR DAĞI

Azərbaycan oronimiyasında tez-tez rast gəldiyimiz **ir** qədim türk sözü *«dərəli-təpəli»*, *«yüksəklik»*, *«çay döngəsi»* mənalarında işlədilir. Xocavənd rayonu ərazisində rast gəldiyimiz coğrafi adlardan biri **İkor dağı** adlanır. Bəzən bu oroqrafik obyekti sənədlərdə **Krikor dağı** kimi də qeyd edirlər. **Dağ** - müsbət relyef forması bildirən coğrafi termindir. **İkor** toponimi *«çay döngəsi ətrafında yerləşən dağ»* anlamı daşıyır.

Tərkibində **ir** termini işlənən coğrafi adlara nümunə olaraq ***İrdağ*** (Astara rayonu), ***İkar təpəsi*** (Kəlbəcər rayonu, Baş Qaracallı kəndi), ***İritkör yalı*** (Tərtər rayonu, Metsşen kəndi), ***Qarair dağı*** (Goranboy rayonu) və başqalarını göstərmək olar...

## İLANLI TƏPƏ

Əmirallar kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **İlanlı təpə** adlanır. Yaxınlıqdakı kəndlərin əhalisi vaxtilə həmin təpədə çoxlu **ilan** gördükləri üçün ona belə ad vermişlər.

Ümumiyyətlə, **təpə** müsbət relyef forması bildirən coğrafi termini nisbi hündürlüyü **200** metrdən artıq olmayan

yüksəklik anlamındadır. Bu termin Azərbaycan dilindən fars dilinə də keçmişdir. Azərbaycan oronimiyasında çöl materialları əsasında qeydə alınan **4000** coğrafi adın tərkibində **təpə** termini iştirak edir.

Bəzi bu tipli toponimlərdə **ilan** sözünün konkret mənalarını ayırd etmək çətindir. Bəzi araşdırıcılar Azərbaycandakı **İlanlı** adı ilə olan oykonim və oronimləri qədim türk mənşəli **alan** tayfaları adı ilə əlaqələndirirlər. Hazırda Şimali Qafqazda yaşayan qaraçaylar, balkanlar özlərini **alan** adlandırırlar. Çox güman ki, **alanlar** Azərbaycana miladdan öncə hunların və ya balqarların tərkibində gəliblər. Türkmənistanda Ersarı tayfasının bir qolu **İlanlar** adlanır...

Azərbaycanda **ilan** heyvan adı ilə bağlı çoxlu toponimlər vardır. Onlara nümunə olaraq İlanlı dağ (Culfa, Füzuli, Kəlbəcər, Qobustan, Şəmkir rayonları), **İlan qayası** (Laçın rayonu), **İlanlı təpə** (Ağdam, Xocavənd rayonları), **İlanlı qobu** (İmişli rayonu), **İlandağ** (Naxçıvan MR, Culfa rayonu), **İlanlı dərə** (Babək, Gədəbəy, Qazax, Masallı rayonları), **İlanlı güney** (Kəlbəcər rayonu) və başqalarını göstərmək olar. XVIII-XIX əsrlərdə İrəvan əyaləti ərazisində **İlanlı** adlı **6** yaşayış məntəqəsi mövcud olmuşdur...

## İNQDƏRƏ

Qədim türk sözlərindən biri olan **in** termini «*yataq*», «*mağara*», «yarğan», «*süxur*» və s. mənalarda işlənir. Bu terminin iştirak etdiyi coğrafi adlara Azərbaycan oronimiyasında tez-tez rast gəlmək olur. Belə oroqrafik obyektlərdən biri də Xocavənd rayonunun Arpadüzü





(Kolxozaşen) kəndi ərazisində qeydə alınmış **İnqdərə** coğrafi adıdır. Oronimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Coğrafi adın tərkibindəki ***q*** hərfi bitişdirici samit rolunu yerinə yetirir. Toponim «*yarğanlı dərə*» mənasındadır...

## İŞXAN ÇAYI

Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri **İşxan çayı** adlanır. O, Quruçayın sol qoludur. Hidronimin **işğın** sözünün təhrif forması olduğu güman edilir.

## İT UÇAN QAYA

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndindən bir qədər kənarda qeydə alınan oroqrafik obyektlərdən biri **İt uçan qaya** adlanır. Bəzən bu coğrafi ad ***İtuçan qaya*** şəklində də yazılır. Oronim vaxtilə buradakı yüksəklikdən **itin** yıxılmas ("*uçması*") ilə bağlı olaraq belə ad almışdır.

Baş vermiş hər hansı bir hadisəni ***(uçmaq)*** tarixi fakt kimi özündə, adında saxlayıb əks etdirən oronimlərimiz çoxdur. Bu tipli coğrafi adlara Azərbaycanın demək olar ki, bütün ərazilərində rast gəlinir. Bunlara nümunə olaraq **Mehdiuçan qaya** (Şuşa rayonu, Malıbəyli kəndi), **Öküzuçan yal** (Kəlbəcər rayonu) **Cobanuçan** (Xocavənd rayonu, Muğanlı kəndi), **Eşşəkuçan dağ** (Kəlbəcər rayonu, Abdullauşağı kəndi), **Qoyunuçan yamacı** (Kəlbəcər rayonu) və başqalarını göstərmək olar...

## KAFTARLI DAĞ

Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Kaftarlı dağ** adlanır. *Dağ* Əmirallar kəndinin şimalında yerləşir. Yerli məlumata görə, vaxtilə dağın ərazisi sıx meşəlik olmuşdur. Meşə orada tez-tez yırtıcı çöl heyvanı olan **kaftara** (*göreşenə*) təsadüf edildiyinə görə belə adlandırılmışdır. **Dağ** coğrafi termini müsbət relyef forması ifadə edir.

Bəzi araşdırıcılara görə quruluşca sadə olan **kaftarlı** patronimik toponimi eyniadlı nəsil əsasında əmələ gəlmişdir. Vaxtilə Qərbi Azərbaycanda (Ermənistanda), indiki Artik rayonunda əhalisi azərbaycanlılardan ibarət olan ***Kaftarlı kəndi*** var idi. 1810-cu ildə azərbaycanlılar kənddən sıxışdırılaraq çıxarılmış, burada həmin ildə Türkiyənin Alaşgert bölgəsindən köçürülən ermənilər yerləşdirilmişdir. 1924-cü ildə Ermənistan Torpaq Komitəsinin qərarı ilə kəndin adı dəyişdirilərək **Panik** kimi rəsmiləşdirilmişdir...

Adı qırmızı kitaba düşən, səhra və yarımsəhra ərazilərində yaşayan **kaftar** (*göreşen*) adlı yırtıcı məməlinin adını əks etdirən oronimlərə nümunə olaraq ***Kaftar çalası*** (Qəbələ rayonu, Çuxur Qəbələ kəndi), ***Kaftar qobusu*** (Qax rayonu), ***Kaftar yamacı*** (Cəbrayıl rayonu), ***Kaftaran dağı*** (Qazax və Qobustan rayonları), ***Kaftarlı dərə*** (Füzuli rayonu) ***Kaftarlı dərəsi*** (Ağdaş, Qəbələ, Qubadlı, Zəngilan, Zərdab rayonları), ***Kaftarlı düz*** (Qazax rayonu, Orta Salahlı kəndi), ***Kaftarlı qaya*** (Qazax rayonu), ***Kaftarlı qışlaq*** (Qaradağ rayonu) və digər coğrafi adları göstərə bilərik...





## KALAFALIQ

Çiraquz kəndi ərazisində qeydə alınmış coğrafi adlardan biri **Kalafalıq** oroqrafik obyektidir. **Kalafalıq** toponimi "*çala-çuxur yer*" mənasındadır. Oronim **kalafa** sözündən və **-lıq** şəkilçisindən ibarətdir. **Kalafa** - "*çala-çuxur*" anlamındadır. Mərkəzi Aran iqtisadi rayonunda bu tipli onlarla coğrafi adlara rast gəlmək mümkündür.

**Kalafalıq** mikrotoponimi Azərbaycan dilində "*dağılmış tikinti qalığı*", "*dağılmış yer*", "*xarabalıq*" mənasında işlənən **kalafa** sözünə **- lıq** şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. **Kalafalıq** oroqrafik obyekti relyef əsasında yaranan düzəltmə toponimdir.

Laçın rayonunda *Kalafalıq* adlı kənd də var...

## KARDAŞ, KARDAŞ BULAĞI

Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində, kənddən 3 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri də **Kardaş** adlanır. Yerli məlumata görə, həmin **daşa** toxunanda heç bir səs-səda vermir, nəticədə cingiltisiz alçaq, ***kar*** səs alınır. Elə bu səbəbdən də yerli sakinlər bu daşı **kardaş** adlandırmışdır.

Ərazidə eyni adlı **bulaq** da var. Toponim ***kar*** və ***daş*** sözlərindən, eləcə də **bulaq** hidronimik vahidindən əmələ gəlmişdir. Yerli sakinlərin məlumatlarına görə, həmin daşa toxunanda səs-səda gəlmir alçaq və cingiltisiz **kar** səs eşidilir. Məhz buna görə də yerli əhali bu daşı **Kar daş** adlandırıblar. Ətrafda yaşayan camaat bu ***kar daş*** və ***bulaq*** haqqında müxtəlif əfsanə və rəvayətlər danışırlar...

**Kardaş** haqqında çoxlu rəvayətlər danışılır... Füzuli rayonunun Horadiz kəndi ərazisində də **Kar daş** adlı

oroqrafik obyekt qeydə alınmışdır. Horadiz kəndindən eyniadlı qəsəbəyə gedən el yolundan azacıq aralıda üzüquylu yatmış adamı xatırladan *Kar daş* haqqında füzulili şair Oruc Səda belə bir gözəl şeir də qoşmuşdur:

*Bu daş üzüquyludur,*
*Yarı torpağa batıb.*
*Bu daş sirri özündə,*
*Bu daş daş kimi yatıb.*

*Bu daş üzüquyludur,*
*Yerdən bərk-bərk yapışıb.*
*Elə bil milyon illik*
*Həsrətlilər tapışıb.*

*Daşın lal harayından*
*Qulaq batar dinləsən.*
*Bu daşın daş kimliyi*
*Sənə çatar dinləsən.*

*Bu daş deyir: siz mənə*
*Kar deməyin, ayıbdır.*
*Mənə Kar daş deyənlər,*
*Qulağından mayıfdır.*

*Bu daş deyir, sanmayın*
*Nabələdəm, naşıyam.*
*Mən Qaraca çobanın*
*Sapandının daşıyam.*

*Bu daş deyir eşidin,*
*Sirli aham, amanam.*
*Məni heyrət dondurub,*
*Daşa dönmüş zamanam.*





*Bu daş üzüquyludur,*
*Dərdini xuda bilər.*
*Daşı daş yuxusundan*
*Tanrı oyada bilər...*

## KEÇİ DAĞI

Qaya *keçiləri* (dağ keçisi) və buruqbuynuz *keçilər* Respublikamız ərazisində əsasən dağlıq inzibati rayonlarda yaşayırlar. Hazırda onlar az olduqları üçün mühafiz olunurlar. **Keçi** heyvan adı ilə bağlı oroqrafik obyektlər əsasən *dağ*, qaya, yal və zirvə adlarıdır.

Xocavənd rayonunun Susanlıq kəndi ərazisində qeydə alınan **Keçi dağı** oronimi də bunlardan biridir. Oronim **keçi** heyvan adından və **dağ** müsbət relyef forması bildirən coğrafi termindən ibarətdir, **i** mənsubiyyət şəkilçisidir. Toponim «*keçi olan dağ*» mənasındadır. Adında **keçi** sözü olan oronimlərə nümunə olaraq ***Keçi dağı*** (Gədəbəy rayonu, Fərzalı kəndi; Tovuz rayonu, Almalıtala kəndi), ***Keçi yalı*** (Daşkəsən rayonu, Almalı kəndi), ***Keçi ayrıcı*** (Tovuz rayonu, Ağbaşlar kəndi), ***Keçi qayası*** (Daşkəsən, Gədəbəy, Kəlbəcər, Göygöl, Masallı, Tovuz rayonları) və başqalarını göstərmək olar...

## KEMRAQUÇ KƏNDİ

**Kemraquç kəndi** (bəzi sənəd və materiallarda adı Kəmərəkoç kimi də yazılıb) Xocavənd rayonunda. Kemraquç inzibati ərazi vahidində dağətəyi ərazidə yerləşir. Əvvəlki adı **Qırmızıqaya** olub. XIX əsrin 20-ci illərinin sonunda buraya gələn erməni ailələri sonralar kəndi

**Kemraquç** adlandırmışlar. 1992-ci ildə kəndin əvvəlki adı bərpa edilmişdir. Kəndin əhalisi taxılçılıq, heyvandarlıq, üzümçülük, bağçılıq, bostançılıqla məşğul olur. Bəzi sənədlərə görə. Kəndin əhalisi vaxtilə Ermənistanın Qafan mahalından köçüb gəlmişlər...

Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin elmi izahı hələlik dəqiqləşdirilməyib. **Kemraquç** oykonimi mənası aydın olmayan coğrafi adlardandır. Bəzi tədqiqatçılara görə bir qədər təhrifə uğramış bu oykonim Azərbaycan dilindəki **kəmrə** (*heyvan ağılı*) və **qoç** (*erkək qoyun*) sözlərinin birləşməsindən əmələ gəlib «*qoç saxlanılan ağıl*» mənasındadır.

**1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi qaynaqda kəndin adı ***Kəmərəköç*** kimi çəkilmişdir...

## KƏHRİZLİ

Əmirallar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Kəhrizli** adlanır. Hidronim **kəhriz** (*quyu, bulaq*) sözündən və **–li** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. **Kəhriz** – qrunt sularının toplanıb yer səthinə çıxarılması ilə bağlı yeraltı qurğudur. ***Kəhrizlər*** adətən peşəkar kankanlar tərəfindən qazılır. Məlumatlara görə XX əsrin ortalarında Azərbaycanda **1000**-dən çox **kəhriz** olub.

## KƏMƏR QAYA

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 6 kilometr aralıda, Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Kəmər qaya** adlanır.





Oronim **kəmər** və **qaya** sözlərindən ibarətdir. **Qaya** - müsbət relyef forması bildirən coğrafi termindir. Toponim zahiri formasına görə belə adlandırılmışdır. *Qaya* **kəmər** kimi dövrələndiyi üçün belə ad almışdır.

**Qaya** termini "*dağlıq*", "*uçurum*" mənası ifadə edir. VI-VIII əsrlərə aid qədim türk abidələrində, XI əsr müəllifi, olan Mahmud Kaşğari lüğətində, eləcə də "Kitabi - Dədə Qorqud" dastanlarında ***qaya*** terminınə rast gəlinir. Azərbaycan oronimiyasında çöl materialları əsasında adının tərkibində **qaya** termini iştirak edən 3.000 toponim qeydə alınıb...

## KƏND YERİ

Salakətin kəndinin ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Kənd yeri** adlanır. Bu sahədə, deyilənə görə, nə vaxtsa yaşayış məntəqəsi mövcud olduğu üçün toponim belə adlandırılmışdır. Həmin ərazi Salakətin kəndinin **yeri** olduğuna görə yerli camaat arasında bu cür adlanıbdır.

Tuğ kəndinin ərazisində də **Kənd yeri** coğrafi adı qeydə alınıb.

## KƏNDXURD KƏNDİ

**Kəndxurd kəndi** Xocavənd rayonunda, Kəndxurd inzibati ərazi vahidində, rayon mərkəzindən 16 km qərbdə, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşir. Əhalisi əkinçilik, heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi və s. var.

Yaşayış məntəqəsinin əhalisi XIX əsrdə Cənubi Azərbaycanın Qaradağ mahalından, Tiflisdən, eləcə də Türkiyənin Qars, Muş və Sarıqamış əyalətlərindən köçüb gələn nəsillərdən ibarətdir. **Kəndxurd** toponimi ***kənd*** və bəzi qədim türk dillərində işlədilən ***xurd*** komponentindən ibarətdir. **Xurd** sözü «*yüksəklik*» deməkdir. **Kəndxurd** toponimi «*yüksəklikdə yerləşən kənd*» mənasındadır.

## KƏRƏM ÇALI, KƏRƏM YERİ

Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında, kənddən 2 km aralıda qeydə alınan coğrafi adlardan biri **Kərəm çalı** adlanır. Bu oroqrafik obyekti bəzən **Kərəm yeri** kimi də adlandırırlar. Bir neçə hektarlıq otlaq sahəsini əhatə edən bu ərazi vaxtilə ***Kərəm*** adlı şəxsə mənsub olduğu üçün oronim belə ad almışdır. Toponim «*Kərəmə məxsus çal, yer*» mənasındadır.

## KİÇİK HƏKƏRİ ÇAYI

Xocavənd və Qubadlı rayonları ərazisindən axan, hövzəsinin sahəsi 124 kv.km olan çay **Kiçik Həkəri** adlanır. Uzunluğu 28 km olan **Kiçik Həkəri çayı** Qarabağ silsiləsinin cənub-qərb yamacından (1810 metr yüksəklikdən) başlanır. **Həkəri** çayının sol qolu olan və əsasən yağış suları ilə qidalanan **Kiçik Həkəri çayının** suyundan suvarmada geniş istifadə olunur.

**Kiçik Hərəki çayı** böyük çayın qolu olduğu üçün belə adlandırılmışdır. Hidronimin tərkibindəki **kiçik** sözü fərqləndirici xüsusiyyət daşıyır. **Həkəri** adına qədim





mənbələrdə rast gəlirik. Erkən orta əsr müəllifləri **Həkəri** adlı yerin adını çəkmişlər. Həkəri ilə bağlı toponimlər türkləşmiş kürddilli ***həkəri*** tayfasının adı ilə bağlıdır. Hazırda Türkiyə və İranda ***həkəri*** tayfaları yaşayırlar.

Laçın, Qubadlı və Zəngilan rayonları ərazisində qeydə alınmış ***Həkəri çayı***, Qubadlı rayonunda ***Həkəri kəndi***, Zəngilan rayonunda ***Həkəri qəsəbəsi*** bu tipli toponimlərdəndir...

## KİRİŞDİ DƏRƏ

Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Kirişdi dərə*** adlanır. Toponim **kiriş** və **dərə** sözlərindən ibarətdir. Oronimin tərkibindəki **kiriş** sözü bitki mənası ifadə edir. *Dərə-* coğrafi termini mənfi relyef forması bildirir. **Kiriş** sözünün sonunda gələn **–di** hissəciyindəki – **d** hərfi təhrifə uğramışdır; əslində **-d** yox, **–l** olmalıdır. Toponim həmin dərədə çoxlu **kiriş** bitdiyi üçün belə ad almışdır.

Ağcabədi rayonu ərazisində də **Kirişdi dərə** corğrafi adına rast gəlirik.

## KİRS BULAĞI

Xocavənd rayonu ərazisində, İşxan çayının dərəsində, qeydə alınan hidronimlərdən biri **Kirs bulağı** adlanır. Soyuq sulu, azdebitli turş bulaqdır. Hidronim **Kirs** («*çöl*», «*sərhəd*», «*yayla*», «*dağ*») sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Bulaq** yaxınlıqdakı ***Kirs*** dağının adı ilə əlaqədar olaraq belə ad almışdır.

Dialektlərimizdə **kirs** sözü *«uca zirvə»*, *«yumru, şiş»*, *«sıldırım olan dağ»* (Şuşa rayonu), *«qar toplanan yer»* (Quba rayonu) və s. mənalarda işlədilir. Qarabağ silsiləsində *Böyük Kirs, Kiçik Kirs* adlı yüksək zirvələr də vardır. Vaxtilə Qərbi Azərbaycanın Qafan rayonunda ***Kirs*** adlı kənd də mövcud olub...

## KİŞ KƏNDİ

**Kiş kəndi** Xocavənd rayonunda, Kiş inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr cənub-qərbdə, Qarabağ silsiləsi ətəyində yerləşir. Əhalisi taxılçılıq, heyvandarlıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

Yaşayış məntəqəsi uzun illər **Qiş** (*Qişi*) kimi tanınmışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Yuxarı Qarabağ ərazisində, indiki Xocalı rayonunuda ***Keş kəndi*** də mövcud olub. Mənası tam mənada aydın olmayan **kis** sözünü Alban tarixçisi M.Kalankatlı *«Alban tarixi»* əsərində işlətmişdir. Onun yazdığına görə, ilk xristian missionerlərindən biri olan Yelisey Uti vilayətinin ***Kis*** kəndinə gəlib kilsə tikmişdir. Bütün Cənubi Qafqaz ərazisində bu, ilk xristianlıq məbədi idi. Kilsə əvvəllər burada mövcud olmuş qədim sitayiş yerində tikilmişdir. Fars dilində **kiş** sözünün *«sitayiş yeri, kult»* mənası vardır. 1992-ci ildən kəndin adı Kiş kimi rəsmiləşdirilmişdir...

Erkən orta əsrlərdə Albaniyada (indiki Xocavənd və İsmayıllı rayonları ərazisində) **Kiş** adlı toponimlərə də tarixi sənəd və materiallarda rast gəlmək olur. Hazırda Şəki rayonunda bu qəbildən olan ***Kiş kəndi*** və ***Kiş çayı*** var. Xızı rayonu ərazisində **Keş çayı**, Gürcüstanda – 





Borçalı və Siqnaxda **Keşəli kəndi** (Marneuli və Saqareco rayonları), **Keştazlı kəndi** (Ağdam rayonu), **Keş-Qutan** (Naxçıvan Muxtar Respublikası) və s. toponimlər də ***kiş/keş*** formantı ilə əlaqədar yarnmış coğrafi adlardandır. İraqda, Babildən 18 km şimal-şərqdə **Kiş** adlı qədim şəhər də vardır. **Kiş** yer adı Türkmənistanda da var.

O.Süleymanov şumer-türk dilləri paralellərindən söhbət açarkən şumer dilindəki ***qiş/kiş/keş*** sözünün *«ağac»* mənası verdiyini göstərir. Bəllidir ki, ulu əcdadlarımız ağacı müqəddəs tapınaq hesab edərək ona insanı dünyaya gətirən qüvvə kimi baxmışlar. Bu anlamda ***kiş/keş/qiş*** mənası *«ağac»* olan etnotoponimdir...

## KOLANI YURDLARI

Yerli əhalinin məlumatlarına görə, vaxtilə Vərəndə mahalının tərkibində, indiki Xocavənd rayonunu ərazisində, Cəmiyyət və Qarakənd kəndləri arasında **kolanı** tayfalarının yaşadıqları yurd yerləri (*Kolanı yurdları*) mövcud olmuşdur. **Kolanılar** – qədim türk tayfalarındandır. XVIII əsrin ortaları və XIX əsrin birinci yarısında Qarabağ xanlığında yaşayan kolanıların ərazisi **Kolanı mahalı** adlanmışdır.

XIX əsr Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy Uşacıq kəndindən Göyçə sərhədinə qədər uzanan Tərtər çayı hövzəsini **kolanıların məskəni** adlandırmışdır. Tarixi sənədlərdən aydın olur ki, XIX əsrin ikinci yarısında Cavad qəzasında **282** ailədən ibarət ***kolanı tayfası*** yaşamışdır. Sonralar onlar müxtəlif yerlərdə məskunlaşmışlar. Orta əsrlər dönəmində bu tayfa Qarabağda daha çox yaşamışdır.

Tarixi mənbələrdə göstərilir ki, Ağa Məhəmməd şah Qacarın Qarabağa hücumu zamanı Qarabağ elatlarının bir qismi, o cümlədən **kolanılar** köçərək Naxçıvanda, Şirvanda. Muğanda. Gəncəbasarda və digər ərazilərdə yaşamışlar. Tədqiqatlardan bu nəticəyə gəlmək olar ki, **kolanı** etnonimi əsasən Qafqaz arealına məxsus olan etnotoponimdir. Hazırda Azərbaycanın Hacıqabul, Qobustan, Salyan, Siyəzən, Şahbuz və Yevlax rayonlarında **Kolanı** adlı kəndlər vardır. Vaxtilə indiki Ağdam rayonunun ərazisində də **Kolanı** adlı kənd mövcud olmuşdur...

Qobustan rayonunda **Dağ Kolanı** adlı kənd da var.

Gürcüstan Respublikasının Borçalı mahalında Bolnisi rayonun ərazisində də **Kolanı yurdu** adlı toponim qeydə alınmışdır.

Vaxtilə Qərbi Azərbaycanda **Kolanı kəndi** (*İrəvan xanlığının Göyçə mahalı*), **Kolanı Aralıq kəndi** (*İrəvan quberniyasının Eçmiadzin qəzası*), **Kolanıqıran kəndi** (*İrəvan quberniyasının Novobayazid qəzası*), **Kolanı kəndi** (*İrəvan əyalətinin Dərələyəz nahiyəsi*), **Kolanılı kəndi** (*İrəvan quberniyasının Eçmiadzin qəzası*), **Kolanılı kəndi** (*Vedi rayonu*) və s. bu qəbildən olan yaşayış məntəqələri mövcud olmuşdur.

**Kolanı** tayfasının adı ilə bağlı Azərbaycanda çoxlu sayda *oronimlər* qeydə alınmışdır. Onlara nümunə olaraq **Kolan dağ** (*Dübrar, Abşeron rayonu*), **Kolanıdağ** (*Goranboy rayonu*), **Kolandağ** (*Göygöl rayonu*), **Kolanı dərəsi** (*Goranboy rayonu, Tapqaraqoyunlu kəndi*), **Kolanı yataqları** (*Tərtər rayonu. Dəmirçilər kəndi*), **Kolanı yatağı** (*keçmiş Ağdərə rayonu, Umudlu kəndi*), **Kolanı kahası** (*Naxçıvan MR, Aşağı Qışlaq kəndi*), **Kolanı yeri** (*Şamaxı rayonu, Mərzəndiyə kəndi*), **Kolanı Camal yaylağı, Kolanı vulkanı, Kolanı qəbiristanlığı** (*Şamaxı rayonu*), **Kolanı obası yeri** (*Xocalı rayonu*) və digər coğrafi adları göstərmək olar.





## KOLATAĞ KƏNDİ
**(Bax: Düdükçü kəndi)**

## KOLXOZAŞEN KƏNDİ

**Kolxozaşen kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 20 km cənub-qərbdə, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, əkinçilik, üzümçülük və tərəvəzçiliklə məşğul olur. Kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi, park və s. var.

Yaşayış məntəqəsinin adı ermənilər tərəfindən dəyişdirilərək **Kolxozaşen** (***Kolxozkənd***) kimi rəsmiləşdirilmişdir. 1992-ci ildən əvvəlki **Arpadüzü** adı bərpa edilərək özünə qaytarılmışdır.

Əlavə məlumat üçün bax: **Arpadüzü kəndi.**

## KOR BULAQ, KOR BULAĞI

Qaradağlı kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri **Kor bulaq** adlanır. Hidronim **kor** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Azərbaycanın bəzi ərazilərində olduğu kimi, bu **bulaq** da yay aylarında, quraqlıq zamanlarda quruyur. Adətən gözü tez-tez tutulan, yəni, susuz qalan belə bulaqlara el ara-

sında **Kor bulaq** deyirlər. Əmirallar kəndinin ərazisində də bu tipli **Kor bulağı** adlı hidronim qeydə alınmışdır.

Ağdam, Füzuli, Kəlbəcər, Gədəbəy, Laçın, Xocalı, Şuşa rayonlarının ərazilərində də **Kor bulaq** coğrafi adına rast gəlirik...

## KÖÇBƏK KƏNDİ

(Bax: **Qoçbəyli kəndi**)

## KÖHNƏTAĞLAR KƏNDİ

**Köhnətağlar kəndi** Xocavənd rayonunda, Köhnətağlar inzibati ərazi vahidində, rayon mərkəzindən 65 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində yerləşir. Bəzi sənəd və materiallarda yaşayış məntəqəsinin adı **Köhnə Tağlar** şəklində də yazılır. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Kənddə orta məktəb, klub, kitabxana, xəstəxana və s. var.

**Köhnətağlar** oykonimi ***köhnə*** və ***tağlar*** (*silsilələr*) sözlərindən ibarətdir. Hələ VI-VII əsrlərə aid qədim türk kitabələrində ***dağ*** sözü «*tağ*» kimi yazıya alınmışdır. Oykonim «*silsilədə yerləşən köhnə kənd*» mənasındadır. **Köhnətağ** yaşayış məntəqəsi yerləşdiyi ərazinin coğrafi xüsusiyyətlərinə görə belə adlanmışdır. Sonralar burada yerləşdirilən ermənilər kəndin adını ***Hintağlar*** («*köhnə məhəllə*») kimi rəsmiləşdirməyə cəhd etmişlər. Bu adın özü də tərkibində Azərbaycan dilinə mənsub söz olan qarışıq toponimdir.





## KÖNDƏLƏNÇAY

Füzuli və Xocavənd rayonlarında çay. Xocalı rayonu ərazisindən, Qarabağ silsiləsindən, Çaxmaqdağın şimal yamacından, **1780** m yüksəklikdən başlayır. Arazın sol qoludur. Uzunluğu **100** km, hövzəsinin sahəsi **594** kv. km-dir. İllik axın həcmi **50** milyon kubmetrdir. Əsasən yağış və yeraltı sularla qidalanır. Suvarmada çayın suyundan geniş istifadə olunur. Daşqın dövründə suyu mənsəbə çatır. Yuxarı axarında üzərində su anbarı yaradılmışdır. Yayda aşağı axarında su olmur. Köndələnçayın hövzəsində son Tunc dövrünə və antik dövrlərə aid arxeoloji abidələr aşkar olunmuşdur.

**Köndələnçay** vadisində arxeoloji tədqiqatlar hələ tam başa çatmayıb. Bu vadinin yer altında qalan abidələrinin tarixi sirləri hələ açılmamış qalmaqdadır. Şübhəsiz ki, gələcəkdə burada aparılacaq tədqiqatlar nəticəsində xalqımızın uzaq tarixi keçmişinə aid neçə-neçə qiymətli tarixi mənbələr aşkarlanacaqdır.

**Köndələnçay** hidronimi ***köndələn*** və ***çay*** komponentlərindən ibarət olub «*eninə, tərsinə axan əyri çay*»" mənasındadır. **Çay** yerləşdiyi mövqeyinə görə belə adlandırılmışdır.

Azərbaycan ərazisində **Köndələnarx** (Göyçay), **Köndələn əkin yeri** (Qəbələ), **Köndələnyol** (Qax), **Köndələnyer** (Füzuli, Oğuz rayonları), **Köndələnçöl** (Zaqatala), **Köndələn kənd** (Şəki) və s. qeydə alınmışdır.

## KÖTÜK BULAQ

Salakətin kəndi ərazisində qeydə alınmış hidronimlərdən biri **Kötük bulaq** adlanır. Hidronim **kötük** sözün-

dən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Bu **bulaq** ağac kötüyündən sızıb çıxdığı üçün belə adlandırılmışdır. Kötük bulağın buz kimi soyuq, göz yaşı kimi dumduru və şəffaf suyu vardır...

## KÖTÜKLÜK

Axullu kəndinin 1 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri **Kötüklük** adlanır. **Kötüklük** coğrafi adı **kötük** sözündən və **-lük** şəkilçisindən ibarətdir. Həmin ərazidə çoxlu sayda ağac və kol kötükləri olduğu üçün oronim belə ad almışdır. Toponim *«çoxlu sayda kötük olan sahə»* anlamındadır.

## KUHUL YALI

Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında, kənddən 2 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri **Kuhul yalı** adlanır. Bu coğrafi ad azacıq təhrifə məruz qalmışdır. Əslində oronim **Kühül yalı** şəklində yazılmalıdır. **Kühül** – qədim mağara, ev tipidir. Adətən süni yolla düzəldilmiş yeraltı yaşayış məskənlərinə ***kühül*** deyirlər. Kühüllər keçmişdə Azərbaycanda geniş yayılmışdı. Sonralar yaşayış əhəmiyyətini itirmiş kühüllərdən təsərrüfat binaları kimi istifadə edilmişdir.

Oronimin tərkibindəki **yal** coğrafi termini müsbət relyef forması bildirir. Azərbaycanda **yal** termininin iştirakı ilə çöl materialları içərisində **650**-dən çox coğrafi ad qeydə alınmışdır.





## KUROPATKİNO KƏNDİ

**Kuropatkino kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 8 kilometr şimal-şərqdə, dağətəyi ərazidə yerləşir. Bəzən adı **Kurapatkino** kimi də yazılır. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, üzümçülük və bostançılıqla məşğul olur. Kənddə qaradağlılar, mərzililər, avşarlar və digər tayfalara mənsub nəsillər yaşayırlar. Kəndin ərazisində *Qaraçuq dağı, Nərgiztəpə, Daşlı təpə, Cəfər bulağı, Rus kəhrizi* və s. kimi toponimlər qeydə alınmışdır. **2 oktyabr 1992-ci il** tarixdə **Kuropatkino kəndi** ermənilər tərəfindən işğal edilmişdir...

Bu yaşayış məntəqəsini 1960-cı illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbərliyində təmsil olunan millətçi erməni şovinistləri yaşayış məntəqələrinin rəsmi siyahısından çıxarıb keçmiş **Martuni** (***Xocavənd***) qəsəbəsi ilə birləşdirmişdilər. Sonralar (1990-cı il) ona yenidən kənd statusu verilmiş və bundan sonra o, yaşayış məntəqələrinin rəsmi siyahısına daxil edilmişdir.

Yerli məlumata görə, kənd bu ərazidə çoxlu kəklik quşu (rus dilində ***kuropatka***) olduğu üçün belə adlanmışdır. Oykonimi **Kuropatkin** rus familiyası (soyadı) ilə də əlaqələndirirlər. Kəndin yaranma tarixi bəzi sənədlərdə **1920**-ci ilə aid olunur. Belə ki, o zamanlar kəndin yerləşdiyi bu əraziyə ruslar və digər millətlərdən sürgün edilmişlər. Yaşayış məntəqəsi də rus generalı **Kuropatkinin** adı ilə adlandırılmışdır. Ruslar tədricən öz vətənlərinə və digər ərazilərə qayıtdıqdan sonra qonşu Ağdam (əsasən Mərzili kəndinin sakinləri) və Ağcabədi (əsasən Avşar kəndindən olan əfşarlar) rayon sakinləri işləmək məqsədi ilə buraya gəlmiş və yeni yaradılmış üzümçülük sovxozunda çalışmaqla bu yaşayış məntəqəsində məskunlaşmışlar.

Son illərdə Xocavənd rayon İcra Hakimiyyətinin qərarı ilə bu yaşayış məntəqəsinin adı dəyişdirilərək ona ***Qaraçuq*** adı verilmişdir...

## KÜFÜL YER

Qarabağda qoyunçuluqla məşğul olan insanlar dağ və dağətəyi zonaların kəndlərində, qışlaqlarda ***küfüldən*** geniş istifadə edirlər. **Küfül** qazmaq üçün təpənin və ya dağın döşü küfülün en və hündürlüyü nəzərdə tutulan ölçüdə qazılır, qarşısı açılır, döşəməsi qarşıdakı yer səthi ilə eyni səviyyəyə endirilirdi. Küfüllərin eni 3-4 metr, hündürlüyü 2-2,2 metr olurdu. Dəvə saxlamaq üçün olan küfüllər təbii ki, bir qədər dərin qazılırdı. **Küfül** sahibkarların ehtiyacına görə müxtəlif ölçüdə (30-40 metr uzunluqda) qazılardı. Küfülün adətən son qurtaracağında, əgər uzun olardısa ortasında *baca* qoyulardı. Qapaq hava keçirən materialdan düzəldilərdi. Küfüldən digər təsərrüfat məqsədilə də istifadə olunmuşdur.

Xocavənd rayonunun Qaradağlı və Günəşli kəndlərinin ərazilərində qeydə alınan **Küfül yer** *(bəzən adı təhrif edilərək* ***Kühül yer*** *kimi qeyd olunur)* oroqrafik obyekti də yuxarıda qeyd etdiyimiz məqsəd üçün qazılmışdır...

## KÜP BULAQ

Axullu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Küp bulaq** adlanır. Hidronim **küp** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Bulağın yer səthinə çıxdığı hissə **küpə** bənzədiyi üçün toponim belə adlandırılmışdır.





## KÜR-ARAZ OVALIGI

Azərbaycanın mərkəzi hissəsində, Kür və Araz çaylarının aşağı araxları boyunda yerləşən ərazi ***Kür-Araz ovalığı*** adlanır. **Kür-Araz ovalığı** qərbdə Mingəçevir su anbarından başlayaraq, şərqdə Xəzər dənizinədək uzanır. Ovalığın mərkəzi hissəsində *Kür çayı* ilə *Araz çayı* qovuşur. Çaylar ovalığı Şirvan, Qarabağ, Mil, Muğan və Salyan düzlərinə ayırır.

**Kür-Araz** oronimi **Kür** və **Araz** çaylarının adından yaranmışdır. **Kür** sözü «*su, çay*», «*sürətli*», «*inadkar*», «*güclü*» mənalarındadır. Tarixi mənbələrdə **Kür** çayının adı ***Kor, Kur, Kir, Kiri, əl-Kurr, Mtkuari*** və s. kimi çəkilir.

**Araz** çayının adı mənbələrdə ***Arras, Rass, Rude-Aras, Eraks, Araks, Araş, Araz*** şəklində çəkilmişdir. Çayın adı qədim türk dillərindəki **oraz/uraz/əraz** («*sakit, dinc, xeyirxah, xeyir verən*») sözündəndir. **Ar** komponenti türk və monqol dillərində «*şimal*», «*dağın şimal yamacı*», «*qərb*», «*arxa tərəf*» və s. mənalarda işlədilir. **Aks/oks** komponenti türkdilli xalqların toponimiyasında **aksu/oksu** forması ilə yanaşı işlənərək həm müstəqil, həm də ikinci komponent mövqeyində «*axan su, çay*» mənalarını ifadə edir. **Araz** sözünü «*qərbdən axan su*» anlamı ilə də yozmaq olar...

## QABAQ DÜZ

Qədim türk dillərində **qabaq** (***kapak***) sözü «*təpə*», «*dağ silsiləsi*» mənasında işlədilir. Azərbaycan toponimiyasında **qapaq** termini **qabaq** sözü kimi işlənmişdir. Xocavənd rayonunun Dolanlar kəndi ərazisində qeydə

alınan **Qabaq düz** oronimi «*silsilə dağda düz*» anlamındadır. **Qabaq düz** coğrafi adının paralelinə Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində də rast gəlirik.

**Qabaq** termini ilə bağlı Azərbacyan oronimiyasında ***Qabaq gədik, Qabaq quzey, Qabaqdağ, Qabaqyal, Qabaqtəpə, Qabaqgüney*** və s. coğrafi adlara rast gəlmək olar.

## QACAR MEŞƏSİ

*Qırmızı Bazar kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri **Qacar meşəsi** adlanır. Bu füsunkar cənnətməkan diyarın əsrarəngiz gözəllikləri vardır. Sanki Tanrının əli ilə yaratdığı bu meşədə bütün ağaclar - fıstıq, palıd, qoz, alma, armud, alça, gavalı, şaftalı, nar, əzgil, ərik və s. var. Yaz və yay aylarında başdan-başa yaşıllığa bürünən **Qacar meşəsi** uzun illər (işğala qədər) sakinlərin, qonaqların, turistlərin istirahət yeri olmuşdur...*

**Qacar meşəsi** oronimi qajar etnonimindən və **meşə** sözündən ibarətdir; coğrafi adın tərkibindəki **-si** şəkilçisi mənsubluq ifadə edir. Toponim «*qacarlara məxsus olan meşə*» anlamındadır. Bərdə, Füzuli, Xızı və Zərdab rayonlarının ərazisində də **Qacar meşəsi** coğrafi adı qeydə alınmışdır. **Qacar** toponimi türk kökənli, nüfuzlu tayfalardan birinin adıdır. Qacar adı bəzi mənbələrə görə qaçardan götürülüb. Onun ilkin ad anlamı qasartorpaqdır. Qədim türklər və monqollar torpağa (yerə) qeser/qezer deyərmişlər. **Qacarın** (***Qaçarın***) bir anlamı da «*köçəri*», «*gəzərgi*» mənasındadır.

**Qacar** eli tarixən *Qızılbaşlar* tayfa ittifaqı içərisində sayılıb-seçilən bir qurum olub. Qarabağ, Gəncə, Çuxur-Səd, Astrabad əyalətlərinin, eləcə də Mərv vilayətinin





bəylərbəyləri, valiləri uzun illər bu eldən çıxıb. **Qacarlar** Gəncədə, İrəvanda, Astrabadda xanlıq, İranda imperatorluq yaradıblar. 1796-cı ildən 1925-ci ilə qədər İranın şahlıq tacının sahibi qacarlar olmuşlar. **Qacarlar** şiəcəfəri təriqətinə mənsub olan böyük bir xanədan idilər. Onlar Azəri-türk tayfalarına, Qızılbaş-səfəvi türk tayfalarına mənsub edilirlər. Areal xarakterli türk-Azərbaycan mənşəli qacar adı ilə bağlı coğrafi adlar türkdilli xalqların yaşadıqları regionlarda (Qırğızıstan, Türkmənistan, Türkiyə, İran, Ermənistan və s.) geniş yayılmışlar. **Qacar** etnotoponimi bu ərazilərdə ***qacar*** etnik qrupunun yaşaması, məskunlaşması ilə əlaqədardır.

**Qacar** türk etnosunun formalaşması Səfəvilər dövlətinin yaranması dönəmində başa çatmışdır. Azərbaycan xalqının etnogenezində iştirak edən ellərdən biri də **qacar** elidir. Azərbaycan ərazisindəki **Qacar** toponimləri türk-Azərbaycan mənşəli qajar tayfasının adı ilə bağlıdır. XIX yüzildə Cənubi Qafqazda **Qacar** adlı **10** kənd mövcud olmuşdur.

Qacarlarla bağlı rəvayətlərin birində deyilir ki, bu tayfa öz kökünü Çingiz xanın oğlu Kaan Lunun nəslindən götürür (*Çingiz xanın Cuci, Cıqatay, Ugədey, Tulu, Kulkan adlı oğlanları vardı*). Qacarların əcdadlarından biri öz oğluna Kaan Lunun qızını almış və sonralar həmin nəsil Kaan Lu Qacar adlanmışdır. Tayfanın başqa bir nəsli isə Qovanlı Qacar adlandırılıb. Tarixi sənədlərdən görünür ki, ***qacarlar*** sonuncu dəfə Ön Asiyaya XIII yüzildə Çingiz xanın nəvəsi Hülaku xanın (1256-cı il) qoşunlarının tərkibində gəlmişlər. Bu qrupdan olan **qacarlar** İrana, Elxanilər (İlxanilər) dövlətinin süqutundan sonra isə Suriyaya və indiki Ermənistana köçürülürlər. Teymurun zamanında onları Qarabağ, Gəncə,

İravan ərazilərində, öz tayfalarından olanların yanında məskunlaşdırırlar. Sonralar Şah İsmayıl qacarlara tutduqları ərazilərə sahiblik etmək haqqında sənəd verir. Beləliklə, qacarlar səfəvilərin Azərbaycanda və az sonra İranda öz hakimiyyətlərini möhkəmləndirməkdə arxalandıqları *qızılbaş* tayfalarından birinə çevrilirlər.

*Qacar* adı Azərbaycanın ağqoyunlu ***qacar*** tayfasının adı ilə bağlıdır. XIII-XIV əsrlərdə Ön Asiyada sulduz, cəlair və tanğıt tayfaları əsasında yaranmış qacarların bir qismi əvvəlcə Suriyada yaşamışlar. Sonralar Əmir Teymur (1370-1405) və oğlu Miranşah qacarları İrana köçürmüşdür.

Bir sıra tədqiqatçıların fikrincə, **Qacar** etnotoponimi qədim türk xalqlarının dillərində "*adam, ər, kişi*" anlamında işlədilən ar sözünün yardımı, iştirakı ilə yaranmışdır.

*Qaçar* (İran mənbələrində **Qacar** kimi yazılır) xanədanı uzun müddət İranda siyasi birliyə də nail oldu. 1925-ci ilə qədər davam edən *Qacar* xanədanı İrandakı son türk sülaləsidir. *Qacarlar* həmişə özlərini türk hesab etmiş, türkcə danışmış və öz əcdadlarının İrana Hülaku xanla birlikdə gəldiklərinə inanmışlar.

Bəzi tarixi qaynaqların verdikləri məlumatlara görə, **Qacarlar** XV əsrin axırlarına doğru Ağqoyunlular dövründə Anadoludan İrana gəlmiş və Azərbaycanda yurd salmışdılar. Qacarların Anadoludakı yurdları olan Bozox (Yozqat) bölgəsi üç əsas oymaqdan (Şam Bayatı, Yıva, Ağcaqoyunlu) ibarət idi. Belə olan təqdirdə xanədan bu 3 oymaqdan birinə (çox güman ki, Yıva) mənsub olmuşdur. **Qacar** sözü öz adını bu 3 oymağın başçısı olan bir bəyin adından almışdır. Çox ehtimal ki, qacarları da Anadoludan İrana gətirən elə bu bəy olmuşdur. İrandakı qacarlar sülaləsi də **qacarlar** tayfasından idi.





Qacarların bir hissəsi XVII əsrdə Qarabağa və Gəncəyə gələrək həmin ərazilərdə məskunlaşmışlar. XV əsrdə qızılbaşların tərkibinə daxil olan qacarlar Səfəvilərin hakimiyyətə keçmələrinə yaxından köməklik etmişlər.

XVI əsrdə və bu vaxta qədər qacarlar əsasən Azərbaycanın Bərdə və Gəncə bölgələrində yaşamışlar. Bu tayfanın bir qismi Şamdan gəlmişdr. "*Gəncə Təhrir dəftəri*"ndə XVIII əsrin birinci yarısında Gəncəyə bağlı kəndlərdən birinin adı Şambayatı kimi göstərilmişdir. Əbülhəsən Məhəmməd Gülüstani qeyd edir ki, Nadirin ölümündən sonra onun yerinə keçən Adil şahın böyük əmirlərindən biri olan Məhəmməd Əli xan əslən Şam Bayatından (Qacar boyu bayatı) olmuşdur.

Tarixdən məlumdur ki, Sultan Heydər öz tərəfdarlarını başqalarından fərqləndirmək üçün o zaman türkmanların geydiyi araqçını 12 yarıqlı qırmızı taja çevirib onu öz sülaləsinə məxsus olan papaq kimi elan edir və bu *papağı* qoymaqla bu sülaləyə mənsub olan adamları digərlərindən fərqləndirdi. Sonralar bu papağı qoyanlar *qızılbaş* adı ilə məşhur oldular. Qızılbaş papağı geymək bir müddət davam etmişdir. 7 tayfa *ustajlu, şamlu, rumlu, təklu, zülqədər, əfşar* və *qacar* tayfalarından təşkil olunmuş Şah İsmayılın qoşunu da 12 yarıqlı qırmızı *Heydəri papağı* qoyub «*qızılbaş*» adlandılar. Şah Təhmasib bu papağı çox sevdiyi üçün öz adı ilə adlandırmış və əmr vermişdi ki, hamı *Təhmasibi papaq* qoymalıdır. 12 yarıqlı qırmızı papaq böyük şöhrət qazandığından qızılbaş adı iranlılar üçün qəbul olunmuş və demək olar ki, indiyə qədər də Hindistan və Osmanlı ölkəsində iranlıları *qızılbaş* adı ilə çağırırlar...

XIX əsrin sonu və XX əsrin əvvəllərində Qafqazda **10**-dan çox **Qacar** adlı kənd olub. *Qacarlar* Qarabağın köklü əhalilərindən biridir.

**Qacar** sözü türk ulusunun adı ilə bağlıdır. A.Bakıxanova görə qacarlar İran və Azərbaycanda orta əsrlərdə ağalıq edən cəlairlərin bir qoludur.

Qacarın şəxs adı kimi işlədildiyi məlum olan **Qaracarın** qısaldılmış şəkli olması da ehtimal olunur...

Məlumdur ki, Hülaku sülaləsinə mənsub olan Arqun xanın müəllimi Xorasan və Astrabad hakimi Sırtaq Noyan xanın oğlunun adı **Qacar** imiş. Onun adı ilə öz qəbiləsi **qacar** adlandırılmışdır. **Qacar** türklərinin Şirvana, Qarabağa, İrəvana, Gəncəyə Əmir Teymur tərəfindən köçürülməsi artıq elmi dəlillərlə sübut olunmuşdur. Sonralar *qacarlar* Azərbaycanın müxtəlif yerlərinə yayılmışlar. Gəncə xanı Cavad xan *qacar* nəslindən idi.

İ.Petruşevskiyə görə, *qacarlar* monqolların yürüşləri zamanı Orta Asiyadan gəlmiş, bir müddət İranda, sonralar isə Azərbaycanda yaşamışlar.

Hazırda Füzuli rayonundakı *Qacar kəndi*, Quba rayonunda *Qacar Zeyid kəndi*, Qəbələ rayonunda *Qacar meşəsi* və s. Vardır. Xızı rayonunda qeydə alınmış "*Qacar meşəsi*", "*Qacar dərəsi*" mikrotoponimləri də ***Qacar*** etnonimləri ilə bağlıdır.

Tarixi sənədlərə görə, İran şahı Ağa Məhəmməd şah Qacar XVIII əsrin 90-cı illərində Qarabağa, Şuşaya (Pənahabada) hücum edən ərəfədə onun atları Füzuli rayonunun Qacar kəndi ərazisində saxlanılırdı...

Səfəvilərin hakimiyyəti zamanı hərbi işlər əsasən *Qacarlara* həvalə edilərdi. 1926-cı ilə qədər *qacarlar* İranda hakimiyyətdə olublar. XVI əsrin sonlarına aid olan bir mənbədə kəndin adı Şıxqayıb kimi göstərilmişdir. Tarixi qaynaqlarda indiki Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi yaxınlığında **İva Qacar** yaşayış məntəqəsi yeri də göstərilir...





Əsas **kai** tayfaları *qacarlar, əfşarlar, zülqədərlər, çobanlar, padarlar, baharlılar, işamlılar, ustaclılar (ustacallılar), ləaklar, xəlillilər, sorsorlar, şaqaqlar, ossalular, zəngənələr, armalılar* və s. Hesab olunurdu. Onlardan Azərbaycanın dövlətçilik tarixində bayatlarla birlikdə İranda bəzi siyasi çevrilişlərdə iştirak edən qacarlar, əfşarlar, baharlılar, işamlılar, ustaclılar, padarlar, çobanlar daha çox və mühüm rol oynamışlar. Səfəvi sülaləsi İran taxtında yalnız onların razılığı ilə bərqərar olardı. İranda qacarlar, əfşarlar sülalələri onların arasından çıxıblar və həm çobanilərin, həm də cəlairlərin hülakülərlə olduğu kimi, birini devirə, başqasını bərpa edə biliblər.

Bu tayfaların müxtəlif yerlərdə sakin olması vaxtı cəlair türklərindən törəyən qacarlar əvvəlcə Kiçik Asiyada və Suriyada məskunlaşmışdılar. Sonralar Topal Teymur onları Mərv və Mazandarana (İran), eləcə də Qarabağ, Gəncə, İrəvan ərazilərinə köçürmüşdür. Burada – Azərbaycanda onlar yavaş-yavaş artmış və bütün ölkədə məskən salmışdılar. Amma bəzi qacarları, xüsusi ilə də Gəncə qacarlarının böyük hissəsini Nadir şah sonralar Xorasana köçürmüşdür (məlumdur ki, onlar Nadir şahın taxta çıxması arzusuna qarşı çıxmışdılar).

**Qacar** tayfasının böyük əmirlərindən biri Tozqoparan ləqəbli Piri bəy Qacar I Şah İsmayılın yaxın silahdaşlarından olub. O, 1501-ci ildə Əlvənd Ağalı oğlunun əmiri Osman bəy Mosullunu, 1503-cü ildə isə Sultan Murad Ağqoyunlu ilə döyüşdə onun tərəfində vuruşan Qum hakimi Əsilməz bəy Türkmanı məğlub etmişdi; 1513-cü ildə Nəcmi Sani ilə birlikdə Qicduvanda öldürülüb. Tayfanın başqa bir əmiri Qudurmuş xan adı ilə məşhur olan Dəracə Sultandır ki, o da Urfada Sultan Murad ibn Yaqubu məğlub edib, onu qətlə yetirib; Mardin

yaxınlığındakı Qoruqtəpədə Qara xan Ustaclı ilə birlikdə Mustafa paşa *"Bığlı Çavuş"*la döyüşdə həlak olub...

Tayfanın əmirlərindən biri Şahverdi Sultan Ziyadoğludur ki, o da Qarabağ bəylərbəyi idi. O, çoxlu şanlı-şərəfli döyüş yolları keçmişdi. Şah Təhmasib ona "Müsahib" deyirdi. Şahverdi Sultan Ziyadoğlu Gürcüstan padşahı Ləvasanı (Kartli hakimi Luarsab (1534-1558) öldürmüş, Tiflis hakimi Georgi (Qorgin) Dadianini (1548-1582) və Ləvasanın oğlu Simaonu (Simon 1558-1560) məğlub etmişdi. O, Türkiyənin şərqində, Vandan 77 kilometr məsafədə yerləşən Bargiri şəhərində Süleyman bəy kürdü ilə döyüşdə öldürülmüşdü...

Bu tayfanın böyük əmirlərindən biri ***Budaq xan*** idi. O, şah Təhmasibin təvaçisi olub. Təhmasib Budağı Qəndahara hakim təyin etmişdi. Amma az sonra Baburun oğlu Kamran Mirzə Qəndaharı tutmuşdu. Bundan sonra Qəndahar əldən-ələ keçmişdi. İgid əmir olan Budaq Nişapurda özbək Saru Quzğanla döyüş zamanı həlak olmuşdur. Van qalasının hakimi Gökcə Sultan da qajar tayfasının sayılıb-seçilən əmirlərindən olmuşdur. İsmayıl Mirzənin lələsi və Nişapur valisi olan Gökcə Sultan Astrabadda vəfat etmişdir.

Şahverdi Sultan Ziyadoğlunun oğlu Xəlil Sultan da qajar tayfasının hörmətli əmirlərindən olmuşdur. Pəhləvan Xəlil Sultan bir neçə il Astrabadın hakimi olub və dəfələrlə Yaxa-Türkman tayfasını məğlub edib, deyilənlərə görə, o, vəzifədən çıxarılaraq öldürülüb. Onun qardaşı İbrahim bəy Arran əmir əl-ümərası idi və həyata Gəncədə əlvida dedi.

Şah Təhmasibin zamanında Gəncə hakimi Yusif Xəlifə, Xorasan hakimi Qubad bəy, Şirvan hakimi Hüseyn bəy, paytaxt Qəzvinin hakimi Süleyman bəy,





ordu sərkərdəsi Mirzə Əli Sultan da **qacar** tayfasına mənsub olan adlı-sanlı əmirlər olmuşlar...

XIX əsrdə Göyçay, Quba, Şuşa qəzalarında *Qacar kəndi* mövcud idi. Otuziki (Cavad qəzası), Ziyadlı (Gəncə qəzası), Cəlairli (Lənkəran qəzası) kəndlərinin əhalisi nəsil etibarı ilə qajar tayfası tirələrinə məxsusdurlar. Qacarlar öz adlarını Arqun xan Hülakünün müəllimi, Sirtak Noyan xanın oğlu *Qacarın* adından (Xorasan və Astrabad hakimi) götürmüşlər.

Vaxtilə indiki Qarabağ bölgəsindəki Qacar kəndi Vərəndə mahalına bağlı olub. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*"ndə Qacar kəndinin adı nədənsə **Əszor** formasında qeyd olunmuşdur. 1823-cü ildə kəndin vergi ödəyicilərinin sayı 38 tüstü təşkil edirdisə, 1842-ci il siyahıyaalınmasında bu rəqəm 54 tüstüdən ibarət olmuşdur.

**Qacar** elinin *Ağcalı, Ağcaqoyunlu, Qovanlı, Qoyunlu, Qolsuzlu, Dəvəli, Ziyadlı* (Ziyadoğlu), *Yıvalı* (Yıva 24 oğuz boyundan, üç oxlara daxil olan Dəniz xan oğullarından biridir), *Şambayatı* (Qulu xan), *İzzəddinli* adlı oymaqları da olmuşdur...

Füzuli, Xızı, Zərdab, Qəbələ və digər rayonların ərazilərində **Qacar dərəsi** coğrafi adına rast gəlirik...

## QAĞARTSİ KƏNDİ

**Qağartsi kəndi** Xocavənd rayonunda rayon mərkəzindən 18 kilometr qərbdə, Xonaşen çayının sahilində, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və bostançılıqla məşğul olur.

Oykonimlə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Güman etmək olar ki, oykonim **qaq** («*yumru*»), **art** («*dağ*») və **si** («*su*») sözlərindən ibarət olub, «*yumru başlı dağdan axan su*» mənasındadır və bu, Xonaşen çayına işarədir...

**Qağartsi** coğrafi adı mənası məlum olmayan oykonimlərdəndir. Toponimin elmi izahı hələlik tam dəqiqləşdirilməyib. **1727**-ci ilə aid «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi qaynaqda Vərəndə nahiyəsinə tabe olan yaşayış məntəqələri içərisində adı **Qağazca** kimi çəkilmişdir...

## QALA DAĞI

Oronimiyamızda bəzi coğrafi adlar relyef formalarını bildirən terminlərin yaşayış məntəqə tiplərini ifadə edən sözlərlə (***qala, bürc, binə, qışlaq, oba, vəng və s.***) birləşməsi nəticəsində yaranmışdır. Bunların içərisində öncül yeri daha çox populyar olan iranmənşəli ***qala*** termini tutur. Adının tərkibində ***qala*** termini iştirak edən oronimlərin sayı Azərbaycanda **600**-dən çoxdur. Onlardan biri də Xocavənd rayonunun Dağdöşü kəndi ərazisində qeydə alınmış **Qala dağı** oronimidir.

Məlumdur ki, hələ erkən orta əsrlərdə Azərbaycanın qalaları əsasən dağlarda və dağətəyi yerlərdə təbii müdafiə əhəmiyyətli ərazilərdə tikilmişdir. Tarixi mənbələrdə Azərbaycanda çoxlu *qala* adları çəkilir, amma zaman keçdikcə bu *qalalar* dağıdılmış və aradan çıxmış, unudulmuşdur. Sonralar onlar sadəcə olaraq adsız qalalara çevrilmişdir. Daha sonralar isə əhali onları **Qaladağ** (***Qala dağı***) adlandırmışdır. Toponim «*qala olan dağ*» mənasındadır. Astara rayonunun Miki, Cəbrayıl rayonunun Havuslu, Kəlbəcər rayonunun Çaykənd kəndləri ərazilərində də **Qala dağı** oroqrafik obyekti qeydə alınmışdır.





Məlumdur ki, Azərbaycan toponimiyasında ***qala*** sözü ***dağ***, burun, baş, dağ, dərə, quzey, tap və digər relyef formalarını bildirən terminlərlə birləşərək bəzi oronimləri əmələ gətirmişdir...

## QALİB ÇUXURU

Azərbaycan dilinin dialektlərində **çuxur** sözü «*yer səthinin aşağı çökmüş oyulan sahəsi*», «*ətrafı müxtəlif şəkildə yüksəkliklərlə əhatə olunmuş dərinlik*», «*oyuq*», «*çökək*» mənalarında işlədilir. Respublika ərazisində **çuxur** termini ilə bağlı **600** oronim qeydə alınıb. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınmış **Qalib çuxuru** oroqrafik obyektidir. Oronim **Qalib** şəxs adından və **çuxur** mənfi relyef forması bildirən coğrafi termindən, eləcə də **–u** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. **Qalib çuxuru** toponimi «*Qalibə mənsub olan dərin oyulmuş çökəklik*» mənasındadır.

## QAMIŞ BULAQ

Axullu kəndi ərazisində qeydə alınmış hidronimlərdən biri **Qamış bulaq** adlanır. Hidronim **qamış** və **bulaq** sözlərindən ibarətdir. **Bulaq** olan sahədə çoxlu, sıx **qamış** bitkisi olduğu üçün el arasında hidronim belə ad almışdır. Bu tipli hidronimlərə digər rayonların ərazilərində də rast gəlirik...

## QAMIŞLIQ

Xocavənd rayonunun Kuropatkino kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri **Qamışlıq** adlanır. Oronim orada bitən **qamış** bitkisinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Quruluşca düzəltmə **Qamışlıq** oronimi etnotoponimdir.

## QANLI GƏDİK

Məlumdur ki, coğrafi obyektlər ad verilmə səbəblərinə görə müxtəlif variantlarda təsnif olunur. Oronimik nominasiyada əsas məsələ coğrafi obyektin nə, hansı adı daşıması, onun coğrafi xüsusiyyəti, spesifikliyi, metaforik və ya digər əlamətlərə görə adlandırılmasıdır. Xocavənd rayonu ərazisində Quzeyçartar kəndi yaxınlığında qeydə alınmış **Qanlı gədik** oroqrafik obyekti həmin **gədik** ərazisində baş vermiş **qanlı** hadisə ilə əlaqədar olaraq belə ad almışdır.

Astara, Füzuli, Qəbələ, Gədəbəy, Qubadlı (Yuxarı Cibikli kəndi), Laçın (Hoçaz kəndi), Masallı, Yardımlı, Zəngilan rayonları ərazilərində də baş vermiş *qanlı*, bədbəxt hadisə ilə bağlı ad almış **Qanlı gədik** coğrafi adına rast gəlinir...

## QARA BULAĞI

Tuğ kəndi ərazisində, Qaradağ silsiləsində rayon mərkəzindən 41 kilometr cənub-qərbdə, gözəl təbiət qoynunda qeydə alınan hidronimlərdən biri **Qara bulağı** adlanır.





Qara bulağının gözyaşı kimi dumduru, şəffaf, bal kimi şirin və buz kimi soyuq suyu var. Deyilənə görə, onun şəfalı suyunun insanlar üçün müalicəvi əhəmiyyəti vardır.

**Qara bulağı** hidronimi **Qara** və **bulaq** sözlərindən və **-ı** məhsubluq şəkilçisindən ibarətdir. **Qara** sözü şəxs adı bildirir. O, vaxtilə bu bulağı təmir etdirdiyi üçün bulaq onun adı ilə adlandırılmışdır. Hirdronimin tərkibindəki **bulaq** apelyativi *«yeraltı suların yerin üstünə təbii çıxışı»* anlamındadır. Bulaqlar, ümumiyyətlə, temperaturlarına görə 1) *soyuq*; 2) *ılıq*; 3) *termal* (*isti*) və 4) *hipotermal* (*çox isti*) olurlar. **Qara bulağı** toponimi *«Qaraya məxsus olan bulaq»* mənasındadır.

## QARA XATUNABAD KƏNDİ

*Vaxtı ilə Xocavənd bölgəsində qeydə alınan əski yurd yerlərindən biri* ***Qara Xatunabad kəndi*** *adlanırdı. Bu kənd Dizaq nahiyəsi tabeliyində mövcud olmuşdur. Hazırda bu kənd mövcud deyil. 1593-cü ilə aid olan Osmanlı qaynağına görə Arazbar nahiyəsində iki* ***Xatunabad mülkü*** *var idi. Sonrakı tarixi dönəmlərdə bu mülklərdən biri sıradan çıxmış, biri isə Dizaq nahiyəsi tərkibində olmuşdur. 1727-ci ilə aid olan başqa bir Osmanlı qaynağında Cavanşir tayfasının Göyəhmədli (Göyməhəmmədli) oymağının Qaraxatunabad çayı kənarında əkinçiliklə məşğul olmaları ilə bağlı məlumat da öz əksini tapmışdır...*

*Toponimiyada qara sözünün müxtəlif məna çalarları («böyük», «nəhəng», «qaranlıq», «rəng», «xalq», «qəm», «sevinc», «pis», «bədbəxt», «güclü», «tünd», «ağır», «çoxluq», «qərb», «sıx», «Tanrı» və s.) vardır. Oykonimin adındakı* ***xatun*** *sözü ilə bağlı müxtəlif fikirlər mövcuddur. Mahmud Kaşğari* ***xatun*** *sözünü «xan qadını» kimi məna-*

*landırır. Ona görə **Xatun (Katun)** Əfrasiyabın qızlarından birinin adıdır...*

*Tanınmış coğrafiyaçı-toponimçi alim E.M.Murzayevə görə, **xatun** sözü toponimiyada «çay» anlamı daşıyır. N.Q.Dobrodomov isə E.M.Murzayevin bu fikrinə qarşı çıxaraq **xatun (katun)** sözünü «qadın» mənasında izahlandırır. İ.S.Məlikov katun sözünü **kat/katta** («od-ocaq sahibi») və **un** («qədim və müasir türk dillərində sifət düzəldən şəkilçi») hissəciklərinə ayırır. M.C.Təhməzova görə **katun** sözü **kat** və **unq** (onq) sözlərinin birləşməsindən əmələ gəlib «su, göl» mənası bildirir.*

*Tarixi qaynaqlara görə **Qara Xatunabad kəndi** orta əsrlərdə hərbi-köçəri əmirlərin ara savaşları dönəmində dağıdılmış, əhalisi isə oradan köçürülmüşdür. XVIII əsrin ikinci yarısında **Qara Xatunabad mülkü** Məraxatun adlanmışdır. **1797**-ci ildə Ağaməhəmməd şah Qovanlı – Qacarın hücumu zamanı yandırılan yurd yerlərinin siyahısında Məraxatun mülkünün də adı var...*

*«Kitabi-Dədə Qorqud» dastanında Xatunbəyli, Xatunbulaq adlarına da rast gəlirik. Azərbaycanda adının tərkibində **xatun** sözünün iştirak etdiyi çoxlu sayda toponimlər qeydə alınmışdır. Onlara nümunə olaraq Qara Xatınbəyli kəndi (hazırda mövcud deyil), **Xatınbulaq kəndi** (Füzuli rayonu), **Xatunbəyli kəndi** (Ağdam rayonu), **Xatınlı kəndi, Xatıncan kəndi, Xatınçay çayı** (Tovuz rayonu) və başqalarını göstərmək olar...*

## QARA QAYA

Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri **Qara qaya** adlanır. Bu oroqrafik obyekt rəng bildirən **qara** sözündən və müsbət relyef forması ifadə edən **qaya** coğrafi termi-





nindən ibarətdir. Adətən tünd rəngli süxurlardan yaranmış oronimlərdə ***qara*** sözü rəng mənasında işlədilir. Deməli, **Qara qaya** toponimi süxurlarının tünd **qara** rəngdə olduğuna görə belə ad almışdır. ***Qara*** sözünün toponimiyada çoxlu sayda məna çalarları (*«böyük»*, *«uca»*, *«yüksək»*, *«hündür»*, *«qərb»*, *«daş»*, *«bədbəxtlik»*, *«şər»*, *«düşmən»*, *«qara»* və s.) vardır.

Babək, Cəbrayıl, Füzuli, Kəlbəcər, Yardımlı, Şərur, Şuşa, Gədəbəy, Xocavənd, Laçın, Lerik, Qaradağ, Qubadlı, Qusar rayonları ərazisində də **Qara qaya** coğrafi adına rast gəlmək mümkündür.

## QARAARXAC DƏRƏSİ

**Qaraarxac dərəsi** rayon mərkəzindən 9 km şərqdə, Kuropatkin kəndinin ərazisində böyük bir dərənin adıdır. Bu oronimdəki "***qara***" sözü *Qaradağ* adından "*dağ*" komponentinin düşməsinin nəticəsidir. **Arxac** sözü "*qoyun*", "*mal-qara yatağı*" mənasındadır. **Qaraarxac** oronimi əslində "Qaradağdakı arxac" mənasındadır.

**Arxac** - "*otlaq şəraitində qoyunların və qaramalın dincəlməsi üçün*" yer mənasındadır. Qarabağın köçmə maldarları qoyunları ilin 8 ayını təsərrüfat binasından istifadə etmədən arxacda saxlayırdılar. ***Arxac*** elə yerdə salınırdı ki, onun topoqrafik vəziyyəti qoyunların binaya olan tələbatını ödəsin.

**Arxac** komponenti ilə bağlı bir çox oronimlər mövcuddur: **Arxaclar düzü** (Qax rayonu, Almalı kəndi), **Qaraarxac zirvəsi** (Gədəbəydə, Şahdağın zirvəsi, 3062 m), **Qaynararxac** (Oğuz rayonu), **Qaraarxac dərəsi** (Füzuli rayonu, Qorqan kəndi) və s.

İrəvan quberniyasının Novobayazid qəzasının ərazisində də **Qaraarxac** adlı dağ var...

## QARABAĞ

Azərbaycanda Kiçik Qafqaz dağlarından başlamış Kür və Araz çayları arasındakı ərazini əhatə edən tarixi vilayət **Qarabağ** adlanır. **Qarabağ** ən qədim insan məskənlərindən biridir. Yaşı **1,2-1,5** milyon olan ***Quruçay mədəniyyəti***, **400 000** ilə qədər yaşı olan ***Azıxantrop***, ***Azıx*** və ***Tağlar mağaraları***, Tunc dövrünün mədəniyyət abidəsi sayılan ***Xocalı-Gədəbəy abidələri*** və daha neçə-neçə qədim abidələr burada aşkarlanmışdır.

**Qarabağ** qədim dövrdən Qafqaz Albaniyasının tərkib hissəsi olmuşdur. IV əsrdə Qarabağda xristianlıq yayılmağa başlamışdır. V əsrdə hunlar, VII əsrdə isə xəzərlər **Qarabağda** məskunlaşmışlar. VII-VIII əsrlərdə ərəb işğalından sonra burada islam dini yayıldı. Ərəb xilafətinin zoru və erməni kilsəsinin təzyiqi nəticəsində Qarabağın Xocavənd rayonunun da daxil olduğu dağlıq ərazisində (*Arsaxda*) yaşayan əhali tədricən qriqorianlaşdı (*xeyli sonralar onlar erməniləşdi*). Arranda yaşayan əhali isə islam dinini qəbul etdi. IX əsrdən Babəkin başçılıq etdiyi azadlıq hərəkatı Qarabağı da bürümüşdü.

X əsrdə **Qarabağ** Şəddadilərin, XI əsrdə Səlcuqilərin, XII əsrdə Eldəgəzlər dövlətinin tərkibində olmuşdur. XIII əsrdə monqollar Azərbaycanı işğal edirlər. XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olan **Qarabağ** 1501-ci ildə Səfəvilər dövlətinin tərkibinə keçir. Səfəvilər dövlətinin ən böyük ərazi inzibati bölgülərindən biri ***Qarabağ bəylərbəyliyi*** idi.

XVIII əsrin 40-cı illərində, Nadir şahın ölümündən sonra Azərbaycanda yaranan ən güclü feodal dövlətlərindən biri **Qarabağ xanlığı** idi. 1813-cü ildə bağlanmış *«Gülüstansülh müqaviləsi»*nə əsasən ***Qarabağ*** da Rusiyaya birləşdirilir.





Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin **7 iyul 1923**-cü il tarixli dekretinə əsasən Qarabağın dağlıq hissəsində Azərbaycanın tabeliyində olmaq şərti ilə **Dağlıq Qarabağ Muxtar Vilayəti** (*1923-1991-ci illər*) yaradılır...

**Qarabağ** adı mənbələrdə **1284**-cü ildən çəkilir. Erkən orta əsrlərdə **Qarabağ düzü** alban tayfası olan qarqarların adı ilə **Qarqar düzü** adlanırdı. Bəzi tarixçilər Qarabağ düzünün öz adını vaxtilə Qarabağda, Araz çayı kənarında, indiki Füzuli rayonunun ərazisində mövcud olmuş **Qarabağ şəhərinin** adından aldığını göstərirlər. Onlar bu fikirdə Həmdullah Qəzviniyə (*XIV əsr*) əsaslanırlar. Adam Oleari (*XVIII əsr*) öz xəritəsində indiki Horadiz dəmiryol stansiyasından şərqdə **Qarabağ** adlı yaşayış məntəqəsinin adını qeyd etmişdir.

**Qarabağ** adının **qara** (*«böyük»*) və **baq** (*qədim türk dillərində «el», «tayfa», «soy»*) sözlərindən ibarət olduğunu güman edənlər də var.

Məlum olduğu kimi qədim kəngər-peçeneqlərin tərkibində **qarabağ** adlı tayfa da olmuşdur. Peçeneqlər hələ eramızın əvvəllərindən Azərbaycanda yaşamışlar. Məhz buna görə də bu adı (***Qarabağ***) həmin tayfanın adı ilə əlaqələndirirlər.

**Qarabağ** toponimi geniş areala malikdir. Türkdilli xalqların toponimiyasında **Qarabağlı** (*Özbəkistan*), **Qarabağ** (*Türkmənistan, Əfqanıstan, Şimali Qafqaz, Tacikstan, Türkiyə*) və s. toponimlər qeydə alınmışdır.

Əlavə məlumatlar üçün bax: **Müqəddəs Qarabağım** və **Qarabağ düzü**.

## QARABAĞ ATLARI

Azərbaycanın ən qədim dağ minik cinslərindən olan **Qarabağ atlarının** şöhrəti bütün dünyaya yayılmışdır. Qarabağda yetişdirilən bu atların süysüyünün hündürlüyü **148,5** sm, döş qucumu **165,8** sm, əldarağının çevrəsi **18, 3** sm-dir. *Qarabağ atları* əsasən, qızılkürən və kəhər atlardır. Onlar ortaboylu, mütənasib bədən quruluşlu, ilxı şəraitinə davamlı və ümumiyyətlə, çox dözümlü olurlar.



**Qarabağ atları** vaxtilə baxış (*yarış*) üçün Rusiyaya, Polşaya, İngiltərəyə, Almaniyaya və s. ölkələrə aparılmış və hamını heyran etmişdir. Zaqafqaziyada və Şimali Qafqazda müxtəlif at cinslərinin, o cümlədən, Don atının yaxşılaşdırılmasında Qarabağ atlarının böyük təsiri olmuşdur.

**1946**-cı ildən başlayaraq Azərbaycanın Ağdam Atçılıq zavodunda (*Eyvazxanbəyli kəndində*) cinslə damazlıq işi aparılır.



XX əsrin Sovet dönəmində Ağdam ərazisində 2 yerdə Qarabağ atları yetişdirilmişdir. Eyvazxanbəyli kəndi ərazisində yaradılan atçılıq təsərrüfatında Qarabağ atları cinsinin qorunması, yaxşılaşdırılması üçün çox işlər görülmüşdür. Vaxtilə SSRİ rəhbəri N.S.Xruşşov burada bəslənmiş **Zaman** adlı atı 1957-ci ildə İngiltərə kraliçasına bağışlamışdır (həmin at vətən həsrətindən qəribsəyərək vaxtsız dünyasını dəyişmişdir). XX əsrin 70-ci illərindən başlayaraq, İtaliya, Almaniya, Hollandiya, Avstraliya kimi ölkələrə onlarla Qarabağ atı satılıb və zavoda 100 min dollarla xeyir gəlib.

1992-ci ildə zavodda 85 cins at var idi. Ağdam işğal ediləndə **Qarabağ atları** da didərgin düşdü. Hazırda bu atlar Bərdə rayonunun Ləmbəran kəndi yaxınlığındakı qışlaqda çöl şəraitində saxlanılır. İndi onlar da vətəndən kənarda köçkün həyatı yaşayır...

Bu atlar Qarabağda bəslənib-yetişdirildiyi üçün onlara **Qarabağ atları** deyilir.





## QARABAĞ BƏYLƏRBƏYİLİYİ

Tarixdən məlumdur ki, Səfəvilər dövlətinin inzibati vahidlərindən biri də **Qarabağ bəylərbəyiliyi** olmuşdur. Bəzi sənəd və materiallarda onun adı ***Gəncə bəylərbəyiliyi*** kimi də qeyd olunmuşdur. Mərkəzi Gəncə şəhəri olan bu bəylərbəyiliyin ərazisinə indiki Xocavənd rayonunun əraziləri də daxil idi. Şirvan, Təbriz, Çuxursəd bəylərbəyilikləri, Kartli və Kaxeti ilə həmsərhəd olan **Qarabağ bəylərbəyiliyi** XVI əsrin I yarısında yaradılmışdır.

*Qarabağ bəylərbəyiliyini* **qacar** tayfasından olan ***Ziyadoğulları*** nəsli idarə edirdi. Şahverdi Sultan ilk bəylərbəyi olmuşdur. **1588**-ci ildə Səfəvi-Osmanlı müharibələri zamanı Osmanlı qoşunları Qarabağ bəylərbəyiliyinin ərazilərini tutdular. Gəncədə və digər şəhərlərdə Osmanlı qarnizonları yerləşdirildi. Şah Abbas (1587-1629) bir neçə dəfə Qarabağ bəylərbəyiliyini geri almağa səy gös-



tərmişdir. **1606**-cı ildə Şah Abbas Gəncəni alandan sonra Məhəmməd xanı Qarabağa ***bəylərbəyi*** təyin etdi. Şah Abbas hakimiyyətinin son illərində sərkərdə Allahverdi xanın oğlu Davud xanı *bəylərbəyi* təyin etdi. Bununla da Ziyadoğluları bəylərbəyilikdən kənar olundular. Amma Şah Abbasın vəfatından sonra Qarabağ bəylərbəyiliyinin idarəsi yenidən Ziyadoğullarına qaytarıldı.

***Xocavənd*** rayonunun da daxil olduğu **Qarabağ bəylərbəyiliyi** ərazisində əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf etmişdir. Gəncə və digər şəhərlər mühüm ticarət və sənətkarlıq mərkəzləri idi. Qarabağ bəylərbəyiliyində pul da kəsilirdi. XVIII əsrin 40-cı illərində **Qarabağ bəylərbəyiliyi** ərazisinin çox hissəsində ***Qarabağ*** və *Gəncə* xanlıqları yaradıldı...

## QARABAĞ DÜZÜ

Xocavənd rayonunun da əhatə etdiyi Kür-Araz ovalığının bir hissəsi **Qarabağ düzü** adlanır. Hündürlüyü dağətəyi ərazidə **500** metrdir. Şimal-qərbdən Gəncə-





Qazax düzənliyi, qərbdən Kiçik Qafqazın Murovdağ və Qarabağ silsilələri, cənubdan və cənub-şərqdən Mil düzü ilə əhatələnmişdir ***Qarabağ düzü*** Kür çayı vasitəsilə Şirvan düzündən ayrılır. Cənub-şərq kanalında okean səviyyəsindən aşağıdır. **Qarabağ düzü** Qarabağ tarixi ərazisinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

**Qarabağ düzü**nün səthi zəif dalğavari və terraslıdır. Dağətəyi üzrə relyef hissədə dərə və yarğanlıqdır. Düz faydalı qazıntılarla zəngindir. İqlimi mülayim isti və quru subtropikdir. Orta temperatur yanvarda **-1°C**, iyulda **+28°C**-dir. İllik yağıntısı **300** mm-dir. Çayları (İncəçay, Tərtər, Xaçın, Qarqar və s.) Kür hövzəsinə aiddir. Yuxarı Qarabağ kanalı Qarabağ düzündən keçir. Mil-Qarabağ kollektoru Qarabağ düzündən başlanır.

Yarımsəhra, quru-çöl və kolluq-çöl landşaftı **Qarabağ düzü** üçün xarakterikdir. Ərazidə düzən meşələri, Kür çayı sahilində isə seyrək tuqay meşələri, eləcə də, kolluqlar var. Qış otlaqları ilə zəngin olan Qarabağ düzündə heyvandarlıq geniş inkişaf etmişdir. Burada üzüm, pambıq, taxıl, bostan bitkiləri və quru subtropik meyvələr yetişdirilir.

**Qarabağ** Azərbaycanda tarixi ərazinin adıdır. Kiçik Qafqaz dağlarından başlayaraq Kür və Araz çayları arasındakı geniş ərazini əhatə edən **Qarabağ** ən qədim insan məskənlərindəndir. Xocalı-Gədəbəy mədəniyyətinin abidələri də ilk dəfə burada aşkarlanmışdır. Ta qədimlərdən Qafqaz Albaniyasının tərkib hissəsi olan Qarabağda alban, arraz, qoroz, uti, qarqar, peçeneq və başqa tayfalar yaşamışdır. Qarabağ bir neçə tarixi vilayət və əyalətlərə bölünürdü...

IV əsrdə Qarabağda xristianlıq (dünya dinlərindən biri) yayılmağa başladı. V əsrdə hunlar, VII əsrdə isə xəzər-

lər Qarabağda məskunlaşmışlar. Ərəblər Qarabağı işğal etdikdən sonra - VIII əsrdən başlayaraq burada islam dini geniş yayılmağa başladı, Qarabağın dağlıq ərazisində, xüsusilə, Artsaxda yaşayan əhali tədricən qriqorianlaşdı. Şəhərlərdə yaşayan əhali isə islam dinini qəbul etdi.

IX əsrdə Babək hərəkatı Qarabağı da bürümüşdü. Orta əsrlərdə xəzərlərin kəbər, tərnə, bizal, qaraçur və s. tayfalarının adları ilə bağlı olaraq Qarabağda Kəbirli, Tərnəvüt, Bizallar, Qaraçorlu yaşayış məntəqələri vardı...

X əsrdə ***Qarabağ*** Şəddadilərin, XI əsrdə isə Səlcuqların hakimiyyətinə keçdi, XII əsrin 2-ci yarısından ***Qarabağ*** Eldəgəzlər dövlətinin mühüm əyalətlərindən biri idi. XIII əsrin 30-cu illərində Qarabağı monqollar işğal etdi. XV əsrdə əvvəl Qaraqoyunlu, sonralar isə Ağqoyunlu dövlətinin tərkibində olan ***Qarabağ*** 1501-ci ildə Səfəvilər dövlətinin hakimiyyətinə keçdi. Bu dövrdə mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyini qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi. 1736-cı ildə Ziyadoğulları Nadirin şahlığı əleyhinə çıxdılar. Nadir şah onların iqtisadi və hərbi qüdrətini sarsıtmaq məqsədilə bəzi əyalətləri, eləcə də, Qarabağın Xəmsə məliklərini onlardan alıb öz tabeliyinə keçirdi.

XVIII əsrin 40-cı illərində Azərbaycanda yaranan ən güclü feodal dövlətlərdən biri Qarabağ xanlığı idi. ***Qarabağ xanlığı*** Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Şuşa şəhəri olan ***Qarabağ xanlığı*** Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın (1759-1806) dövründə xeyli möhkəmləndi. Şəki xanı Hacı Çələbi ilk dəfə Qarabağ xanlığına hücum etsə də, qələbə çala bilməmişdi. 1795-ci ilin yayında Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücum etdi. 33 gün Şuşanı mühasirədə saxlasa da,





şəhəri ala bilməyib Gürcüstana hücum etdi. 1797-ci ildə Ağa Məhəmməd şah yenidən Qarabağ xanlığına hücum edib Şuşanı tutdu. Amma tezliklə sui-qəsd nəticəsində orada öldürüldü, İran qoşunları Qarabağdan çəkildi...

**1805**-ci ilin **14** mayında ("**Kürəkçay**" müqaviləsi) İbrahimxəlil xan mövcud şəraitlə əlaqədar olaraq Rusiyanın hakimiyyətini qəbul etdi. 1813-cü ildə bağlanmış "**Gülüstan**" sülh müqaviləsinə əsasən **Qarabağ** Rusiyaya birləşdirildi. **1822**-ci ildə çar fərmanı ilə **Qarabağ xanlığı** ləğv olundu. **1828**-ci ildə "**Türkmənçay**" müqaviləsi imzalandı. Bu illərdən etibarən Qarabağ əhalisinin etnik tərkibi ermənilərin xeyrinə kəskin dəyişməyə başladı. İran və Türkiyədən on minlərlə erməni ailəsi bu ərazilərdə məskunlaşdırıldı...

XIX əsrin əvvəllərinə aid olan bir mənbədə Qarabağda Dilağarda, İmirli, Kəbirli, Kolanı, Gəgili, Kəngərli, Bayat, Əfşar, Muğanlı, Sarcalı, Sofulu, Təklə, Xocamusaqlı, Cəbrayıllı, Cinli, Qaradolaq, Otuzikilər və başqa ellərin yaşadığı göstərilir...

XIX əsrin II yarısında Qarabağ ərazilərində Şuşa, Cəbrayıl (Qaryagin) və Cavanşir qəzaları yarandı. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan MİK-nin **7 iyul 1923**-cü il tarixli dekreti ilə Qarabağın dağlıq hissəsində **DQMV** yaradıldı. Qarabağın digər əraziləri **1930**-cu ildə ayrı-ayrı inzibati rayonlara bölündü...

**Qarabağ** adı VII əsrdən, bir əyalət kimi isə mənbələrdə XII-XIII əsrlərdən başlayaraq çəkilir (Anili Samuel: "Sev ayqi", Tovma Ardsruni **Qarabağ**, İbn əl-Əsir "***Qarabağ***"). **1284**-cü il mənbəsində də ***Qarabağ*** adı çəkilir.

Erkən orta əsrlərdə **Qarabağ düzü** alban tayfalarından olan qarqarların adı ilə **Qarqar düzü** adlanmışdır. Adın-

dan da göründüyü kimi, **Qarabağ** toponimi türk mənşəlidir. Bu toponim haqqında müxtəlif mülahizələr mövcuddur. Əcəmlər lap qədimdən Qarabağa **Sisaqan** deyərdilər. Sonralar səlcuqlar ona **Qarabağ** adı verdi.

**Qara** sözünün toponimiyada **20**-dən çox anlamı var (*"böyük", "geniş", "uca", "ağır", "qalın", "qərb", "qoçaq", "əzəmətli", "qüdrətli", "hündür", "pis", "nəhəng", "qaranlıq", "bədbəxt", "güclü", "başçı", "qəm", "xalq", "yaraşıq", "sevinc", "sıxlıq", "keyfiyyətsiz", "şimal", "çox", "rəng"* və s.). **Qarabağ** toponimini bir qrup araşdırıcılar *"böyük, bağlı-bağatlı yer"* kimi mənalandırır.

X əsr müəllifi Konstantin Baqryanarodnı **Qarabağ** terminini peçeneq tayfalarından biri kimi səciyyələndirir. Azərbaycan alimi Qiyasəddin Qeybullayev də bu fikrə tərəfdar çıxır.

İ.Şopen Qarabağ terminini **Xaraba** sözü ilə əlaqələndirir. Bu sözü **xaraba** sözü kimi yozanlar da var. S.Aşurbəyli **Qarabağ** toponiminin **baq** komponentini baq (bak, bağı) qəbiləsinin adı ilə bağlayır. Ş.Sədiyev **Qarabağ** sözünü **qara** (*rəng*) və **bağ** (*bağça, bağat*) hissələrinə ayırır. Ə.Fərzəli **qara** sözünü *"böyük, sevinc, xalq, qəhrəman"*, **bağ** sözünü isə *"tanrı"* kimi mənalandırır. M.Seyidov **qara** sözünü *"rəng, pis, bədbəxt, güclü, başçı"*, **bağ** komponentini isə *"düyün, ip", "meyvə ağacı əkilmiş sahə"* anlamı ilə səciyyələndirir...

Bəzi tədqiqatçılar **Qarabağ düzü**nün adını vaxtilə mövcud olmuş **Qarabağ şəhəri**nin adı ilə əlaqələndirir. Onlar bu fikirdə Həmdullah Qəzviniyə (XIV əsr) və A.Olearinin *"İran səltənəti"* xəritəsinə əsaslanırlar. Tarixdən məlumdur ki, A.Olearinin (XVII əsr) xəritəsində 39° şimal en dairəsi, 82° 21' şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə ***Qarabağ şəhəri*** (Füzuli rayonunun Horadiz





dəmir yol stansiyasından azacıq aralıda – Mollaməhərrəmli, Babı, Arayatlı kəndləri yaxınlığında) göstərilir. İran Azərbaycanında Kiçik Qafqaza gedən Böyük ticarət yolu da Qarabağ şəhərindən keçirmiş. Böyük bir mahalın bu şəhərin adı ilə adlanması **Qarabağ** şəhərinin böyük bir şəhər olduğundan xəbər verir...

Əksər araşdırıcılar toponimin **qara** (*"böyük"*) və **bağ** (qədim türk dillərində *"soy", "tayfa", "el"*) sözlərindən ibarət olduğunu ehtimal edirlər. Məlum olduğu kimi, qədim gəngər-peçeneqlərin tərkibində **Qarabağ** adlı tayfa da olmuşdur...

Ərəb salnaməçisi İbn əl-Əsir (XII əsr) 1064-cü ildə oğuzların Ruma hərbi səfəri ilə əlaqədar olaraq Şərqi Anadoluda **Qarabağ** toponiminin də adını qeyd etmişdir. Bir çox mənbələrdə Qars əyalətinin Ərdahan nahiyəsində **Qarabağ şəhər xarabalığının** adı da çəkilmişdir. Vaxtilə Qərbi Azərbaycanın Eçmiadzin, Ağcaqala, Maku, Dərəkənd - Parçenis, Vedi, Sürməli, Kərai ərazilərində də ***Qarabağ, Qarabağlar, Qarabağlı, Qarabağlı Kəbir, Qarabağlı Sıqır*** və s. yaşayış məntəqələri mövcud olmuşdur...

XIX əsrdə Qafqazda noqaylarda, Moldovada qaqauzlarda **qarabağ** adlı tayfa olmuşdur. Həmin zamanlarda Qazax mahalında yaşayan ***qarabağlı*** adlanan bir el də vardı...

**Qarabağ** toponiminin yayılma arealı, göründüyü kimi, çox genişdir. Əfqanıstan, Özbəkistan, Türkmənistan, İran, Şimali Qafqaz və digər ərazilərdə də ***Qarabağ*** toponimləri qeydə alınmışdır. Elə bütün bunlar da **Qarabağ** toponimini etnonimlə əlaqələndirməyə bizə haqq qazandırır.

Əlavə məlumat üçün bax: **Müqəddəs Qarabağım** fəsli...

## QARABAĞ ELLƏRİ

Tarixdən məlumdur ki, **Qarabağ** ərazilərində ta qədimdən eramızın X əsrinə qədər *hunlar, barsillər, savırlar, avarlar, bulqarlar, albanlar, xəzərlər, qıpçaqlar* və s. tayfalar yaşamışlar. X əsrdən sonra burada *oğuzlar, monqollar, qacarlar, avşarlar, bayatlar, bayandurlar, şamlılar, bəydililər, qaramanlar, şahsevənlər, hacılar, əhmədlilər, iyirmidördlər, otuzikilər, xurcunlular, cavanşirlər, kəbirlilər, kəngərlilər, kolanılar qaraçorlular, püsyanlılar, cəbrayıllılar, təklələr, muğanlılar, dəmirçihəsənlilər, qaradolaqlar, abdallar, cəmillilər, əbdürrəhmanlılar, seyidəhmədlilər, zərgərlər, dilağardalılar, hacıəlililər, sarıcalılar, bəhmənlilər, mərzililər, mərcanlılar, qaradağlılar, qazaxlar, xalaclar* və s. onlarla **el**, *tayfa, tirə* məskunlaşmışdır...

## QARABAĞ XALÇALARI, QARABAĞ KİLİMİ

Azərbaycan xalçaçılıq məktəblərindən biri də **Qarabağ xalçaçılıq məktəbi** hesab olunur.

Şuşa, Bərdə, Ağcabədi, Cəbrayıl, Füzuli və s. **xalça** məntəqələrində xovlu və xovsuz xalçalar, eləcə də, xurcun, məfrəş, heybə, çuval, çul və s. toxunmuşdur. Bu xalçalarda rəmzi xarakterli rəsmlər, həndəsiləşdirilmiş nəbati naxışlar dekorativ və təsviri sənətin müxtəlif sahələrini əhatə edən kompozisiyalar və s. öz əksini tapmışdır. *"Açmayumma", "Aran", "Bağçada güllər", " Balıq", "Bərdə", "Bəhmənli", "Buynuz", "Qarabağ", "Qasımuşağı", "Qoca", "Ləmbərani", "Ləmpə", "Malıbəyli", "Muğan", "Xanqərvənd", "Xanlıq", "Xan-tirmə",*





*"Çələbi", "Şabalıdbuta"* və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.





Hələ XVI-XVII əsrlərdə Bərdə xalçaçılarının ipək zilləri (Berlin İncəsənət Muzeyi) və XVIII əsrdə Ləmbəran kəndində toxunan xovsuz vərni (Nyu-York, Metropoliten-muzey) dünya şöhrəti qazanmışdır. XIX əsrdə Ağdamda, Ağcabədidə, Füzulidə, Şuşada yaradılmış həndəsi ornamentli cecimlər, şəddələr xovsuz xalçaların gözəl nümunələri hesab olunur.

Qarabağ xalçalarının forması uzunsov, rəngləri isə şux və əlvandır. Bu rənglər içərisində alqırmızı, dəliqırmızı, qızılı, çəhrayı, palıdı və sarı rənglər üstünlük təşkil edir. Qarabağ evlərinin interyerlərinə uyğunlaşdırılmış 4 xalçadan ibarət məşhur dəst xalı-gəbə də geniş yayılmışdır. Qarabağ xalçalarında təbiət mənzərələri, ov səhnələri, insan və heyvan təsvirləri, müxtəlif tarixi qəhrəmanların obrazları məharətlə əks olunmuşdur.

XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Təbriz xalçaçılıq məktəbinin təsiri ilə *"Ləçəklürünc"* çeşnili xalçalar və eləcə də, *"Bulud", "Bağçadagüllər", "Saxsıdagüllər"* xalçaları və s. sücetli xalçalar toxunurdu. Berlin, Vyana, Moskva, Paris və Peterburqda açılmış incəsənət sərgilərində Qarabağ xalçaları dəfələrlə qızıl, gümüş və bürünc medallara layiq görülmüşdür...



Xovsuz xalça növü olan **kilim** Azərbaycanda, eləcə də Qarabağda qədim dövrlərdən məlumdur. **Kilim** Qafqaz, Orta Asiya, İran, Türkiyə, Misir, Bolqarıstan, Ukrayna və s. Yerlərdə müxtəlif adlarla (*kilim, qilam, qilem, kerim, kerem, qız qiləm* və s.) istehsal edilmişdir. Miladdan öncə V əsrə aid olan ən qədim kilim nümunəsi Dağlıq Altay Muxtar Vilayətinin Pozırık kurqanlarından tapılmışdır.

Azərbaycanda toxulmuş kilimlər **5** qrupa bölünür:



*Abşeron*
*Qarabağ*
*Qazax*
*Muğan*
*Şirvan*

Ümumi üslub xüsusiyyətlərini özündə birləşdirən bu kilimlər kompazisiya, naxış və rəng koloritinə görə fərqlənirlər. Qarabağ kilimləri üçün *nəbati motivli göllər, rombvarı, qarmaqlı elementlər, şux rənglər, iri ölçülər, bəzəkli naxışlar, incə toxunuş* səciyyəvidir. Kilimlərin hər iki üzündən istifadə olunur. Yaxşı kilimlərin nümunələri Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənətinin Dövlət Muzeyində qorunub saxlanılır və nümayiş etdirilir...





## QARABAĞ XANLIĞI

*1823*-ci ildə «*Qarabağ əyalətinin həqiqi dövlət müşaviri Mogiyyevski və polkovnik Yermolov tərəfindən tərtib edilmiş təsviri*» (Tiflis, 1866) vergi reyestrinə görə **1822**-ci ildə xanlıq ləğv edilən zaman orada **90.000** əhali (*20.095* ailə; **15.729** – azərbaycanlı ailə, **4366** erməni ailə) yaşayır. *Xanlıq* dönəmində **1** şəhər, **610** kənd (cəmi **140** kənddə erməni yaşayırdı) vardı. Şuşa şəhərində **1048** ailə vardı ki, bunun da cəmisi **474**-i erməni ailəsi idi. Kəndlərdə **12.902** ailə (**43.311** nəfər) yaşayırdı.



XIX yüzilin 20-ci illərində Yermolovun tələb v təkidi ilə keçirilən siyahıyaalmada Qarabağ regionunda yaşayan **18.563** ailədən yalnız **1559**-u (8%-i) erməni ailəsi olmuşdur. Bundan cəmi bir neçə il sonra **1832**-ci ildəki kameral əhali sayına görə, İran və Türkiyədən köçürülən erməni ailələrinin hesabına Qarabağda ermənilərin sayı artdı...

XVIII əsrin 40-cı illərində Azərbaycanda yaranan ən güclü feodal dövlətlərdən biri ***Qarabağ xanlığı*** idi. ***Qa-***

*rabağ xanlığı* Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Şuşa şəhəri olan **Qarabağ xanlığı** Pənahəli xanın (1747-1759) və onun oğlu İbrahimxəlil xanın (1759-1806) dövründə xeyli möhkəmləndi. Şəki xanı Hacı Çələbi ilk dəfə Qarabağ xanlığına hücum etsə də, qələbə çala bilməmişdi...

**1795**-ci ilin yayında Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücum etdi. O, 33 gün Şuşanı mühasirədə saxlasa da, şəhəri ala bilməyib Gürcüstana hücum etdi. **1797**-ci ildə Ağa Məhəmməd şah yenidən Qarabağ xanlığına hücum edib Şuşanı tutdu. Amma tezliklə sui-qəsd nəticəsində orada öldürüldü. Başsız qalan İran qoşunları Qarabağdan çəkildi...

**1805**-ci ilin **14** mayında ("**Kürəkçay**" müqaviləsi) İbrahimxəlil xan mövcud şəraitlə əlaqədar olaraq Rusiyanın hakimiyyətini qəbul etdi. **1813**-cü ildə bağlanmış "***Gülüstan***" sülh müqaviləsinə əsasən **Qarabağ** Rusiyaya birləşdirildi. **1822**-ci ildə çar fərmanı ilə ***Qarabağ xanlığı*** ləğv olundu...

XIX əsrin əvvəllərinə aid olan bir mənbədə Qarabağda Dilağarda, İmirli, Kəbirli, Kolanı, Gəgili, Kəngərli, Muğanlı, Sarcalı, Sofulu, Təklə, Xocamusaqlı, Cəbrayıllı, Cinli, Qaradolaq, Otuzikilər və başqa ellərin yaşadığı göstərilir...

## QARABAĞ SİLSİLƏSİ

**Qarabağ silsiləsi** Kiçik Qafqazda, Azərbaycanda Xocavənd rayonunun da bir hissəsini əhatə edən dağ silsiləsidir. O, şimal-qərbdən cənub-şərqə doğru təxminən **120** km bir məsafədə uzanır. Ən hündür zirvələri *Qızqala*





(**2843** m), *Böyük Kirs* (**2775** m), *Alaqaya* (**2583 m**) dağlarıdır. ***Qarabağ silsiləsi*** ərazisində üzüm, tərəvəz, tütün, taxıl, meyvə, barama və s. yetişdirilir. Ərazidə meşə landşaftı geniş yer tutur; yay otlağı vardır. **Qarabağ silsiləsi** ərazisində heyvandarlıq geniş inkişaf etmişdir. *Xaçınçay, Köndələnçay, Qarqarçay, Qozluçay* və başqa çaylar öz mənbələrini **Qarabağ silsiləsindən** götürür. ***Qarabağ dağ silsiləsi*** oronimi öz adını **Qarabağ** tarixi ərazisinin adından götürmüşdür.



Böyük məsafədə müəyyən xətt istiqamətində uzanan və əks tərəflərə düşən yamacları ilə səciyyələnən dağ qurğusuna *dağ silsiləsi* deyilir. Dağ silsilələri aydın nəzərə çarpan və üzərində yüksək zirvələr yerləşən vahid suayrıcı xəttinin olması ilə xarakterizə olunur...

## QARABAĞ ŞİKƏSTƏSİ

Azərbaycan zərbi muğamlarından biri; ağır tempdə oxunan **Qarabağ şikəstəsi** muğamının ölçüsü 2/4, məqam əsası isə segahdır. Xanəndə və müğənnilər tərəfindən

oxunan hər bənddən sonra müxtəlif melodiyalı araçalğı (instrumental epizod) ifa olunur. Ü.Hacıbəyov *"Əsli və Kərəm"*, M.Maqomayev *"Şah İsmayıl"*, Z.Hacıbəyov *"Aşıq Qərib"*, R.Qliyer *"Şahsənəm"* operalarında *"Qarabağ şikəstəsi"*ndən istifadə etmişlər. Xalqımız tərəfindən çox sevilən şikəstələr - vokal-instrumental zərbi muğam deməkdir. Şikəstələrin ***"Qarabağ şikəstəsi"*** ilə yanaşı, *"Kəsmə şikəstə"*, *"Şirvan şikəstəsi"* və başqa növləri də var.

## QARABULAQ

Xocavənd rayon mərkəzindən 15 kilometr qərbdə, Tuğ kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də **Qarabulaq** adlanır. **Qarabulaq** buradakı yerin və bulağın adıdır. ***Qarabulaq*** oroqrafik obyekti **qara** və **bulaq** sözlərindən ibarətdir. ***Bulaq*** - hidronimik apelyativdir. **Qara** sözü isə burada "*rəng*" və "***böyüklük***" anlamı ifadə edir.

Bu tipli coğrafi adlara Azərbaycanın çox ərazilərində rast gəlirik. Onlara nümunə olaraq, Gədəbəy, Oğuz, Göygöl, Füzuli, Xocalı rayonlarındakı ***Qarabulaq kəndi***, İsmayıllı rayonu ərazisindəki ***Qarabulaq dağı***, Qazax rayonu ilə Gürcüstan sərhəddində yerləşən ***Qarabulaqbaşı dağı***, Kəlbəcər rayonunun ərazisindəki ***Qarabulaq yeri*** və başqa coğrafi adları göstərmək olar. Füzuli şəhərinin əvvəlki adı da yaxınlığındakı soyuq və təmiz sulu bulağın adı ilə əlaqədar olaraq **Qarabulaq** (1827-ci ildən) olmuşdur...





## QARAÇI BULAĞI

Xocavənd rayonunun Əmirallar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Qaraçı bulağı** adlanır. Hidronim **Qaraçı** və **bulaq** sözlərindən ibarətdir. Sayları təxminən **3** milyondan çox olan və **qaraçı** dilində danışan *qaraçılar xalqı* demək olar ki, dünyanın bütün ölkələrində yaşayırlar. Vaxtilə bu bulaqdan **qaraçı** xalqından olan adamlar su içdiklərinə görə **bulaq** belə adlanmışdır.

Azərbaycanda, Xaçmaz rayonunda **Qaraçı kəndi**, Abşeron rayonunun Pirəkəşkül kəndi yaxınlığında orta əsr memarlıq abidəsi hesab olunan **Qaraçı karvansarası** (*Miəcik karvansarası*), Ağsu rayonunun Nuran kəndi yaxınlığında **Qaraçıbulaq** və s. coğrafi adlar da qeydə alınmışdır.

«*Qaraçı*» adlı sazda ifa olunan segah məqamlı, mülayim templi aşıq havası da vardır...

## QARAÇUQ DAĞI

Qarabağ silsiləsinin Mil düzünə doğru uzanan hissəsində, Xocavənd rayonu ərazisində, Kuropatkino kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Qaraçuq dağı** adlanır. Bu dağın adını bəzi sənəd və materiallarda **Qaraçuqun çobanı, Qaraçoban, Qaraçuq çoban dağı, Qaraçıq dağı, Qaraca çoban dağı** kimi də göstərirlər.

**Dağ** coğrafi termini müsbət relyef forması bildirir. «*Kitabi-Dədə Qorqud*» dastanında **Qaraçuqun** adı çəkilir. Əsərin baş qəhrəmanı Qazan xan Qaraçuqun qaplanı adlanır. Dastanın əsas qəhrəmanlarından biri **Qaraçuq** (***Qaraca***) çobandır. Dağın yerləşdiyi ərazidə *Qaraçuq*

*taxıl yeri, Qaraca çobanın ağılı, Qaraçuq çobanın köç yolu, Qaraçq çobanın sapand daşları, Qaraçuq çobanın qəbri* və s. adlı müxtəlif toponimlər də mövcuddur. Yerli rəvayətə görə Muğanlı kəndindən şərqdə, Kəmərqayanın belində yerləşən *Qaraca çobanın ağılı «Kitabi-Dədə Qorqud»*da adı çəkilən *Qaraca çobanın* yurd yeri olmuş, nə səbəbdənsə qoyunları sonradan daşlaşmışdır. Həmin ərazidə qoyuna bənzər çoxlu qara daş indi də mövcuddur. Rəvayətə görə, ***Qaraçuq dağı*** vaxtilə **Qaraca Çoban**ın qoyun ağılının yeri olmuşdur. Bu oronimi antroponimdən (***Qaraca Çoban***) törəyən mürəkkəb toponim hesab edirlər...

1973-cü ildə **Qaraçuq** dağının şimal-şərq yamacında yaşayan Cümşüd Quliyev belə bir rəvayət söyləyirdi: «Deyirlər ki, Qaraca Çoban o qədər nəhəng adam imiş ki, susayanda **Qaraçux** dağından qoyun-quzunun uzaqlaşmadan dizlərini dağda yerə qoyub əyilər və **Xanuşun** (***Xonaşın***) çayından su içərmiş. Günlər keçir, aylar ötür, illər dolanır və günlərin bir günü **Qaraca Çoban** ölür. Camaat onu Nərgiztəpə qəbiristanlığına aparmaq üçün 4 yerə bölüb, 4 qəbirdə basdırır. Nərgiztəpə qəbiristanlığı Xocavənd bölgəsində, Muğanlı və Kuropatkino kəndlərinin 5 kilometrliyində, Haramı düzündədir. XX əsrin 70-ci illərinə kimi həmin qəbiristanlıqdan istifadə olunurmuş...»

**Qaraçuq** (***Qaraçıq***) sözünün hərfi mənası *«böyük olmayan»* deməkdir.

**Qaraçux** toponiminin tərkibi **qara, üç** və **ox** komponentlərindən ibarətdir. Tarixi sənədlərdə «üç ox» tayfa adına rast gəlirik. *«Üç ox»* tayfasını bildirən toponimin əvvəlindəki ***qara*** sözü, qədim türk dillərində çoxmənalı söz kimi məşhurdur.





**Qara** obrazı haqqında professor Ağamusa Axundov da toponimlərlə bağlı araşdırmalarında öz fikrini bildirmişdir. Türk dillərində ***qara*** obrazı, xüsusilə *«Kitabi-Dədə Qorqud»* dastanlarında müxtəlif semantik tutumla işlədilmişdir. Əsərin qəhrəmanı Qazan xan *Qaraçuqun qaplanı* adlandırılır...

**Qara** sözünün türk dillərində *«böyük»*, *«qüdrətli»*, *«geniş»*, *«nəhəng»*, *«çox»*, *«sıx»*, *«aşağı təbəqə»*, *«şimal»*, *«dörd»*, *«rəng»* və s. mənaları vardır. ***Qaraçuq*** adında bu söz ilkin anlamda *«böyük»* məası verir. Təəssüflər olsun ki, indiyədək **Qaraçuq** etnotoponimi haqqında geniş məlumatlar yoxdur.

*«Kitabi-Dədə Qorqud»*da **Qaraçuq** sözü 3 mənada işlənib: *Qarağuc, Qaraqoca, Qaraqoç*. Bu söz dastanda həm 1) at adı kimi, həm 2) qara camaatın, hamının mindiyi və minə biləcəyi at kimi, həm də 3) yer adı, toponim kimi işlənmişdir. Əksər tədqiqatçılar göstərirlər ki, **Qarağuc** sözü ***qaraçuq*** sözünün yerdəyişmə (metateza) nəticəsində dəyişmiş formasıdır. Əksər araşdırıcılar belə hesab edirlər ki, **Qaraçuq** toponiminin açımı *«üç ox»* etnonimi ilə bağlıdır.

Onu da qeyd etmək lazımdır ki, son zamanlara qədər müxtəlif obalarda, elat yerlərində nazik çubuqlardan quzu qatmaq üçün **cığ/cuğ** düzəldilirdi. Yaşamaq üçün çubuqlardan toxunan, çadırı əvəz edən ***qalacaq*** da *alaçıq* adlanır. Bu məqsədlə düzəldilən və hər hansı yaşamaq üçün olan yerə ***qaracığ*** adı qoyulmamışdır. Elə ona görə də **Qaraçuq** sözü etnotoponim kimi təsdiqlənmişdir...

Naxçıvan Muxtar Respublikasının Babək rayonunda, rayon mərkəzindən 9 km şimal-qərbdə, Naxçıvan şəhərinin 3 kilometrliyində **Qaraçuq** (1970-1999-cu illərdə adı ***Cavidabad*** olub) adlı kənd və göl də var. 1963-cü ildə bağlanmış *«Sovet-İran»* müqaviləsi əsasında (Araz su

qövşağının tikintisi ilə əlaqədar olaraq) əhalisi yeni əraziyə köçürülmüşdür. Naxçıvan şəhərinin mərkəzindən 4 km cənub-şərqdə, **Qaraçuq kəndi** yaxınlığında Tunc və orta əsrlər dövrlərinə aid *Qaraçuq nekropolu* arxeoloji abidəsi də mövcuddur.

Xaçmaz rayonunda **Qaracıq** və **Qaracıq Zeyd** adlı kəndlər də var...

## QARAÇUQ KƏNDİ
## (Bax: Kuropatkino kəndi)

## QARADAĞLI KƏNDİ

**Qaradağlı kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolu kənarında, dağətəyi ərazidə, Xonaşen çayının sahilində yerləşir. Kəndin əhalisinin sayı 1507 (354 ailə) nəfərdir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, üzümçülük və bostançılıqla məşğul olur. Kəndin *vərəndəli, mirzəli, məmmədsəfili, mirzəxanlı, alılı, tağlı, məşəmmədli, qaradağlı, hacısuflu, məşədihüseynli, məmmərzəli, gəmcilli, gülpərilər, əbülhəsənli* adlı tirə və nəsilləri var.

Kəndin ərazisində *Qaranlıq dərə, Kotan dərəsi, Pambıqlı, Qəfər dərəsi, Şuşu, İtuçan qaya, Nağı meşəsi, Heydər bağı, Kar daş, Namaz ölən yol, Şirinin meşəsi, Manas dərəsi, Manas düzü, Musa dərəsi, Pişikli dərə, Dəhnə dərəsi, Bəylik bağı, Baba bulağı, Məmməd bulağı, Bəylik bulağı, Kar daş bulağı, Çanaq bulağı, Fındıqlı bulaq* və s. coğrafi adlar qeydə alınıb. **17 fevral 1992**-ci il tarixdə





**Qaradağlı kəndi** ermənilər tərəfindən işğal edilib. Qarabağ müharibəsində kənd üzrə **43** ailə öz başçısını itirib. Kənd **77** nəfər şəhid verib...

**1951**-ci ildə **Vərəndəli kəndi** bir neçə kolxozda (***Qaradağlı***, *Vərəndəli, Qağarza, Paravatumb*) birləşdirildi. **1956**-cı ildə **Vərəndəli** torpağının xeyli hissəsi Spitakşen və Müşkabad kəndlərinə (?) paylandı. **Vərəndə** Dağlıq Qarabağın **5** tarixi mahalından (***Vərəndə, Dizaq, Cəraberd, Xaçın, Talış***) birinin adıdır. Məlumdur ki, mənşəcə qıpçaq tayfa birliyinə daxil olan tayfalardan biri də ***vərəndələr*** olmuşdur.

Kənd bir müddət **Xonaşen Qaradağlısı** da adlanmışdır.

**Qaradağlı** toponimi XVI əsrdə qızılbaş tayfa birliyinə daxil olan **qaradağlı** tayfasının adındandır. Bu tayfa Səfəvilər hakimiyyəti uğrunda mübarizədə böyük rol oynamışlar. Tayfa öz adını Cənubi Azərbaycanın **Qaradağ** mahalından almışdır. Səfəvilər hakimiyyətə gələndən sonra **qaradağlı** tayfaları müxtəlif ərazilərə yayılmışlar. Azərbaycan Respublikasında olan **Qaradağlı** adlı kəndlər də məhz həmin tayfalara məxsus nəsillərin, ailələrin etnik adını özündə əks etdirir.

Kəndin əsasını Cənubi Azərbaycanın **Qaradağ** mahalından gələn nəsil və tirələr qoymuşlar. **Qaradağlılar** türkdilli tayfa birliyi olan oğuzların *kəngərli* tayfasının *qaraxanbəyli* tirəsindəndir. Onlar XIII əsrdə Orta Asiyadan Cənubi Azərbaycanın **Qaradağ** mahalına gələrək orada məskunlaşmışlar.

Qaradağlılar əvvəl *ağqoyunluların, səfəvilərin, şahsevənlərin*, XVI əsrin əvvəllərində isə *qızılbaşların* tərkibində olmuşlar. Səfəvi şahı I Şah Abbas (*1587-1629*) qaradağlıları şahsevənlərlə birlikdə Şimali Azərbaycan ərazisinə köçürmüş, Şirvan hakimini onlardan təyin etmişdir. ***Qaradağlı*** adlı kəndlər məhz belə yaranmışdır.

Cənubi Azərbaycanda **Qaradağ** tarixi vilayəti hazırda **Arasbaran** adlanır. Bəzz qalası Qaradağın ərazisindədir. XVIII əsrin ortalarında Azərbaycanda yaranan xanlıqlardan biri **Qaradağ xanlığı** idi; o, İranla Rusiya arasında bağlanmış *«Gülüstan sülh müqaviləsi»*nə (*1813-cü il*) əsasən İranın hakimiyyəti altında qalmışdır.

**Qaradağ** toponimi **qara** və **dağ** sözlərinin birləşməsindən əmələ gəlmişdir. **Qara** sözü qədim türk dilində *«böyük»* və *«rəng»* anlamları daşımışdır. Deməli, **Qaradağ** sözü *«böyük, uca dağ»*, *«süxurlarının rəngi qara olan dağ»* anlamındadır. **Dağ** (***tağ***) sözünə VI-VIII əsrlər qədim türk yazılı abidələrində, XI əsr Mahmud Kaşğari lüğətində, XI-XII əsr *«Kitabi-Dədə Qorqud»* dastanlarında da rast gəlinir...

M.Vəliyev (Baharlı) göstərir ki, **Qaradağlı** etnonimi səlcuq tayfasına daxil olan bir qoldur. **Qaradağlı** toponimi ***qara*** və ***dağ*** leksemlərindən, eləcə də ***-lı*** şəkilçisindən ibarətdir. Azərbaycanda (Ağdam, Ağdaş, Balakən, Beyləqan, Bərdə, Füzuli, Goranboy, Xaçmaz, Xocalı, Xocavənd, Şəki, Tərtər, Ucar) **Qaradağlı** adlı **14** kənd vardır. Bu oykonimin paralellərinə İran, Qərbi Azərbaycan (Ermənistan), Türkiyə və digər ərazilərdə də rast gəlirik. Keçən əsrin 30-cu illərinə qədər Laçın rayonunun Güləbird kəndi yaxınlığında da ***Qaradağlı*** adlı kənd olmuşdur. Bu kəndin adı Sarı Aşığın bir bayatısında da çəkilir. XX əsrin 60-cı illərinədək Qərbi Azərbaycan (*Ermənistan*) ərazisində də **Qaradağlı** adlı kənd qeydə alınmışdır...

## QARADƏRƏ

Respublikamızın ərazisində çöl materialları içərisində *30.000*-dən çox adında ***dərə*** termini olan oroqrafik obyekt qeydə alınmışdır. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınan **Qaradərə** coğrafi adıdır. Oronim ***qara*** sözündən və ***dərə*** mənfi relyef forması bildirən coğrafi terminindən əmələ gəlib. **Qaradərə** toponimi *«böyük dərə»* mənasındadır. Toponimiyada ***qara*** sözünün *«böyük»*, *«rəng»*, *«uca»*, *«hündür»*, *«yüksək»*, *«daş»*, *«qərb»*, *«düşmən»*, *«bədbəxtlik»*, *«güclü»*, *«şər»* və s. məna çalarları vardır.

*Qara* formantının iştirakı ilə oronimlərlə yanaşı, çoxlu sayda oykonimlər, hidronimlər, zoonimlər, fitotoponimlər də yaranmışdır. Coğrafi adların yaranmasında ***qara*** apelyativi çox fəal iştirak edir. Oronimiyamızda tərkibində ***qara*** termini ilə bağlı rəng anlayışı ifadə edən **450** coğrafi ad qeydə alınıb.

Cəbrayıl, Füzuli, Qazax və s. rayonların ərazilərində də **Qaradərə** oroniminə rast gəlirik. Babək rayonunun Böyük Dizə, Cəbrayıl rayonunun Karxulu, Culfa rayonunun Qaradərə, Füzuli rayonunun İşıqlı, Qazax rayonunun Qızılı kəndlərinin ərazilərində də **Qaradərə** coğrafi adı qeydə alınıb...

## QARADOLAQ MƏZRƏSİ

Xocavənd rayonunun Kuropatkin kəndindən 7 kilometr şimal-şərqdə qeydə alınan oroqrafik obyektlərdən biri **Qaraqolaq məzrəsi** adlanır. **Qaraqolaq məzrəsi** oronimi **qaradolaq** etnonimindən, **məzrə** sözündən və mənsubluq ifadə edən **–si** şəkilçisindən ibarətdir. Ərəb mənşəli **məzrə** sözü *«əkin üçün yararlı yer»*, *«əkin yeri»*, *«tarla»*, *«əkin yerləri əsasında yaranan məntəqə, oba»*, *«kiçik yaşayış məntəqəsi»* mənasındadır.

**Qaradolaq məzrəsi** XX əsrin əvvəllərinədək əsasən yarımköçəri həyat tərzi keçirmiş *qaradolaqlar* Azərbaycan tayfasının adı ilə əlaqədar yaranmışdır. Kəngərlilər tərkibində olmuş qaradolaqlar keçmişdə Kür çayı sahillərində Çılpaqqaya, İcqan, Qaraca, Küratan, Canavar yeri, Mehmanhəsən yeri, Axmaz arası və başqa ərazilərdə yaşamışlar.

*Qaradolaq* tayfaları 1900-1905-ci illərdə oturaqlaşaraq müəyyən tirələrə parçalanmış və *İmamqulubəyli, Məmmədbəyli, Məşədiismayıllı, Əbişbəyli, Əmirxanlı, Qaradolaq* və s. kəndlər yaratmışlar. Qaradolaq camaatı öz qonaqpərvərliyi ilə seçilir.

Azərbaycanımızın Cəbrayıl, Qubadlı, Ordubad rayonlarında **Məzrə**, İmişli rayonunda **Məzrəli** adlı kəndlər var. Bu söz ilə bağlı İran, İraq, Türkiyə, Rusiya, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Əfqanıstan, Ərəbistan, Pakistan və digər ölkələrin ərazilərində də çoxlu sayda toponimlər qeydə alınmışdır.

**Qaradolaq** *kəngərlilərin* tərkibinə daxil olmuş Azərbaycan tayfalarından biridir. **1820**-ci ildə Qarabağ xanı Mehdiqulu xan (*1806-1822-ci illər*) İrəvandan gətirdiyi qaradolaqları (*onların bir hissəsini*) tarixçi Mirzə Adıgözəlbəyə bağışlamışdır. **18** ailədən ibarət olan qaradolaqlar **Əskikür**, yaxud **Küratan** adlı yerdə yerləşdirilmişdir...

Bəzi araşdırıcılar qaradolaqları (*Cavad qəzası ərazisində yaşayan qaradolaqları*) təklə tayfaları ilə eyniləşdirir. Təklələr səlcuq-oğuz tayfalarındandır. Sonra bəzi mənbələrdə onlar şahsevənlərin tirəsi kimi göstərilir. İ.P.Petruşevskiyə görə əvvəllər Türkiyədə yaşamış *təklə tayfası* başda Qazi xan olmaqla 1540-ci ildə şah I Təhmasibin yanına gələrək ona öz itaətlərini bildirdikdə şah onlara yaşamaq üçün indiki Salyan və Mahmudabad ərazilərini vermişdir...





M.Avdeyevin məlumatına görə XIX əsrin əvvəllərində Mil-Qarabağ düzündə yaşayan təklələr **14** tirədən və müxtəlif nəsillərdən ibarət olmuşdur: *aşıqlı, əlipənahlılar, avdallar, əliqulular, budaqlar, bulutlu, talıbxanlı, boşçalar, hacılı, evdələr, xəlfəqulular, ağamalılar, murtulu, muradxanlı* və s. Bu zonalarda təklə tayfası ən böyük tayfalardan hesab olunmuş, eyvazlılar tayfası da onun bir qolunu təşkil etmişdir. Təklənin özü isə böyüyərək I, II və III təklə qollarına ayrılmışdı.

**Qaradolaqlar** qədimdə Naxçıvan ərazisində yaşamış və bir qismi kəngərlərin tərkibində XVIII əsrdə Pənahəli xanın Qarabağa köçürdüyü tirələr arasında olmuşdur. *Qaradolaq kəndi* (Ağcabədi rayonu) XX əsrin 30-cu illərində maldar qaradolaqların bir hissəsinin burada məskunlaşması nəticəsində yaranmış kəndlərdəndir...

*Qaradolaqlar* bu ərazilərə əsasən Qərbi Azərbaycandan və Naxçıvandan gəliblər. Bu camaat əvvəlcə Qazax rayonu ərazisinə gəlmiş, sonralar Ağcabədi, Bərdə, Yevlax, Qax, Zərdab rayonlarına da köçmüşlər. *Qaradolaqlar* Naxçıvan və Qərbi Azərbaycana həm də Cənubi Azərbaycan ərazisindən gəlmişlər. Qərbi Azərbaycandan köçüb gələn qaradolaqların bir hissəsi Xocavənd, Xonaşen və Kuropatkin kəndlərində də məskunlaşmışlar. Sonralar dava zəminində ədavətlə əlaqədar olaraq onlar *Küratana* gəlmişlər...

Rus tarixçisi İvan Şopen XIX əsrin ortalarında Naxçıvan və ona yaxın ərazilərdə məskunlaşan tayfalardan bəhs edərkən kəngərli tayfasının tirələrinin (*qızıllı, xalxallı, salahlı, ağabəyli, yurdçu, sarbanlar, pirhəsənli, qarabağlar, qaraxan, halar, biliçi, cağatay, cəmşidli, qurdlar, şabanlı, qızılqışlaq, kəlfir, qadağlı, qaraköysərli, ərəfsəli, bəydili, bolqarlı, ərgüşadlı, pənahlı, ləkbli, sofulu, dilivarlı, əriyanlı, kürdmahmudlu, ziyadlı, qaradolaq*) bəzi-

sinin qaradolaq adlandığını göstərmişdir. Hazırda Türkiyə və İranda çoxlu *qaradolaq* nəsilləri yaşayır. **Qaradolaq** elinin tirə və nəsillərindən *avaslılar, alxanuşağı, qarallar, quluuşağı, hacıvəlilər, qaradolaqlar, ağaməmmədlilər, fərəməzoğlu, keçəlilər, şahverdilər, məməişdiuşağı, əmirxanlılar, tanrıverdilər, allahverənlər, mehdiuşağı, avastuşağı, hacıkərimuşağı, kalvacəfəruşağı* və başqalarını göstərmək olar. İrili-xırdalı 30 kənddən ibarət olan *Qaradolaq eli* yayı yaylaqlarda, qışı qışlaqlarda, Kürün sağ sahillərində, Nəcəfqulubəylidən Zərdab rayonunun ərazilərinə qədər uzanan torpaqlarda keçirərdilər. **Qaradolaq** camaatının bir hissəsi köçəri həyat, bir hissəsi isə oturaq həyat tərzi keçirirdi.

*Şahsevən, Cahangirli, Mollavəlilər, Hacıvəlilər, Mirzələr, Həzrələr, Mənsimli, Tatarlı, Hacı Əkbərli, Qulamlı, Həşimli, Əmrahlı, Hacı Qurbanlı, Alıverdilər, Hacılar, Qarağantəftlı, Çılpaqqayalı (Ağaməmmədli), Təhməzli, Şəvədli* kəndləri **köçəri həyat tərzi**; *İmamqulubəyli, Adıgözəlbəyli, Məmmədbəyli, Nəcəfqulubəyli, Sadıqbəyli, Atakişibəyli, Abışbəyli, Mehrablı, Cancan, Tağılar, Döylər, İmirli* kəndləri **oturaq** həyata keçmişdilər...

Qaradolaqların *mollavəlili, qazaxməmmədli, bayraməliuşağı, cəngirri, qulamlı, tatarlı, mehrablı, cancanlı, hacıqurbanlı, dollər, döylər, cahangirli,tağılar, mirzələr, həşimli, ağaməmmədli, hacıbədəlli, hacıməmmədhüseynli, həzrələr, hacıvəlili, isgəndərli, kərbəlayı abbaslı, məşədişirinli, nəsirlilər, kərbəlayi-əhmədli, hacıəmrahlı, dərvişqulubəyli, imamqulubəyli, adıgözəlli, nəcəfqulubəyli, sadıqbəyli, məmişbəyli, səmədbəyli, əmioğlular, abışbəyli, atakişibəyli* və başqa tayfa və tirələri vardır.

**Qaradolaq** toponimi **qara** və **dolaq** sözlərindən əmələ gəlib. *Qaradolaqlılar* çox-çox əvvəllər həmişə başlarına və qollarına ***qara dolaq*** bağlayarmışlar. Bu, onları digər





tayfalardan fərqləndirirdi. Elə bu səbəbdən də onlara ***qaradolaqlar*** deyilmişdir.

***Qaradolaqlar*** Qarabağa gələndən sonra Təklə Qaradolaq adlanırdılar. Onların başçısı *Adıgözəl bəy İmamqulu bəy oğlu Təklənski* olub...

Ağcabədi rayonunda **qaradolaq** tayfasının adı ilə bağlı **2** oykonim – ***Qaradolaq kəndi*** və onun yaxınlığında ***Yeni Qaradolaq kəndi*** də qeydə alınmışdır.

Məşhur **Qaradolaq qoyun cinsi** də bu tayfanın adı ilə bağlıdır...

## QARAGÖL

Qaradağlı kəndindən 10 kilometr məsafədə, Xocavənd-Xankəndi avtomobil yolunun kənarında, həmin şose yolun 18-ci kilometrliyində, gözəl təbiət qoynunda qeydə alınan hidronim **Qaragöl** adlanır. Hidronim **qara** və **göl** sözlərindən ibarətdir. Bu gölün suyu şirindir. ***Gölün*** suyundan suvarmada geniş istifadə edilir. ***Gölə*** həm ətrafındakı süxurların **qara** rəngə çalmasına, həm də suyunun *qaramtul* olmasına görə belə ad verilmişdir.

İsmayıllı, Kəlbəcər, Laçın, Zəngilan və digər rayonlarımızın ərazilərində də **Qaragöl** adlı göl var. Zəngilan rayonunda **Qaragöl kəndi** də var...

## QARAĞANTƏPƏ DAĞI

Xocavənd rayonunun ərazisində qeydə alınmış maraqlı oronimlərdən biri də **Qarağantəpə dağı** adlanır. Respublikamız ərazisində özündə **qarağanlı** etnoniminin adı-

nı əks etdirən onlarla toponim qeydə alınmışdır. Bunlara nümunə olaraq aşağıdakı coğrafi adları göstərmək olar:

**Qarağanlı dağı**, **Qarağanlı dərə** (Cəbrayıl rayonu, Aşağı Sirik kəndi), **Qarağanlı taxta** (Cəbrayıl rayonu, Şükürbəyli kəndi), **Qarağanlı dağı** (Masallı rayonu), **Qarağanlı dərə** (Zəngilan rayonu, Məmmədbəyli kəndi), **Qarağanlı təpə** (Lerik rayonu, Ağqışlaq kəndi), **Qaraqan Saatlı kəndi, Qaraqan Sədi kəndi, Qaraqan Şıxlar kəndi** (Ağdaş rayonu), **Qarağan təpəsi** (Füzuli rayonu, Horadiz kəndi) və s. Bu coğrafi adlar orta əsrlərdə Qarabağda yaşamış **qarağanlı** tayfasının adını özündə əks etdirir. **Qaraqan** sözünün "*otlaq üçün az yararlı yer*", "*yovşanlı sahə*" mənaları da var...

Məlumat üçün bildirim ki, Füzuli rayonunun Horadiz kəndində ilk yaşayış məskəni sonralar **Qarağan təpəsi** adlanan ərazidə mövcud olmuşdur. Buranın sakinləri vaxtilə 2-3 kilometr məsafədə yerləşən *İmam Piri* deyilən ərazidən gəlmişlər...

## QARAHONC KƏNDİ
## (Bax: Qarazəmi kəndi)

## QARAKƏND KƏNDİ

**Qarakənd kəndi** Xocavənd rayonunda, Qarakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 km şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, Sarenxart dağı (*958 m*) yaxınlığında yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıq və üzümçülüklə məşğul olur. Kənddə şərab zavodu, məktəb, kitabxana, klub, mədə-





niyyət evi, kinoqurğu, doğum evi, tibb məntəqəsi, avtomat telefon stansiyası, park və s. var.

Rayon ərazisində **Qarakənd kəndi** adına 2 yerdə rast gəlirik. Arxiv sənədlərinin dili ilə desək, çox güman ki, bu kəndlərin ərazisində rayonun indiki **Muğanlı** kəndinin əcdadları yaşamışlar...

Yaşayış məntəqəsinin keçmiş adı **Qızqala** olub. Bəzən sənədlərdə bu kəndin adı indi də **Qızqala** şəklində yazılır. Kəndin yerləşdiyi ərazidə doğrudan da böyük qayalıqda ***Qız qalası*** adlanan *qala xarabalıqları* vardır. Bu *Qız qalası* ilə bağlı müxtəlif əfsanələr də mövcuddur...

Kəndin **Qarakənd** adlandırılması onu bura gəlmə ermənilərin **Karaşen** (***kar*** - «*qaya*», ***şen*** - «*kənd*») adlandırmalarına görə, başqa sözlə, ***şen*** sözünün ***kənd*** sözü ilə əvəz edilməsi ilə əlaqədardır. **Qarakənd** toponimi ***qara*** və ***kənd*** sözlərindən ibarət olub «*böyük, nəhəng kənd*» mənası daşıyır. Toponim türk dilində «böyük» mənasında işlənən ***qara*** sözünə ***kənd*** coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb olan **Qarakənd** oykonimi relyef əsasında yaranmışdır.

**1933**-cü ildə Gədəbəy rayonunda da **Qarakənd** adlı yaşayış məntəqəsi qeydə alınmışdır. Vaxtilə Qərbi Azərbaycanın Zəngəzur qəzasında, Qafan rayonu ərazisində azərbaycanlılar yaşayan **Qarakənd** adlı kənd mövcud olmuş, sonralar XIX əsrdə ermənilər tərəfindən dağıdılmışdır...

## QARAQAYA DAĞI

Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 11 km məsafədə qeydə alınmış coğrafi adlardan biri

**Qaraqaya dağı** adlanır. Oronim **qara**, **qaya** və dağ sözlərindən ibarətdir; toponimin tərkibindəki –ı şəkilçisi mənsubluq ifadə edir. **Dağ** qayalarının tünd **qara** rəngə çalması ilə əlaqədar olaraq belə ad almışdır. **Qaraqaya dağı** oronimi mürəkkəb quruluşlu toponimdir.

Azərbaycan Respublikasının İsmayıllı və Yardımlı rayonlarında **Qaraqaya** adlı *kənd*, Abşeron, Babək, Gədəbəy, Göygöl, Kəlbəcər, Laçın, Lerik, Qax, Qubadlı, Qusar, Masallı, Şamaxı, Şuşa, Yardımlı rayonlarının ərazisində isə **Qaraqaya** adlı dağ vardır...

## QARANLIQ DƏRƏ

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndinin yaxınlığında, kənddən 2 kilometr şərqdə qeydə alınan oroqrafik obyektlərdən biri **Qaranlıq dərə** adlanır.

**Dərə** - mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada **dərə** termini relyefin əsasən dar və çökək formasını ifadə edir. Azərbaycanda adının tərkibində **dərə** termini olan **30.000**-dən çox oronim qeydə alınmışdır. Dərənin ***qaranlıq*** adlanması ərazinin bəzən günəşli günlərdə **qaranlıq** olması, oranı *gün tutmaması* ilə bağlıdır...

## QARATELİN BAĞI

Qaradağlı kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri **Qaratelin bağı** adlanır. Oronim **Qaratel** şəxs adından və **bağ** sözündən ibarətdir. **Qaratel** bu meyvə bağını salan şəxsin adıdır. Bu bağda çoxlu sayda meyvə ağacları vardır. Toponim «*Qaratelə məxsus olan bağ*» mənasındadır.





## QARATƏPƏ KƏNDİ

**Qaratəpə kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 17 km qərbdə, Xocavənd-Xankəndi avtomobil yolu kənarında, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq, bostançılıq və üzümçülüklə məşğul olur.

**Qaratəpə** oykonimi qədim türk dillərindəki **qara** və **təpə** sözlərindən ibarətdir. **Qara** sözü «*böyük*» anlamı ifadə edir; **təpə** coğrafi termini isə müsbət relyef forması bildirir. **Qaratəpə** toponimi «*böyük təpə*» deməkdir

XIX əsrin 20-ci illərində İrandan köçüb gəlmiş erməni ailələrinin burada məskunlaşmasından sonra bu yaşayış məntəqəsi onlar tərəfindən **Paravatumb** adlandırılmışdır. Bu ad **Qaratəpə** adının ermənicə kalkasıdır (***parava*** – «*qədim, köhnə*», ***tumb*** – «*təpə*» *anlamındadır*). 1992-ci ildə kəndin əvvəlki adı özünə qaytarılmışdır.

Mil düzünün şimal-şərq hissəsində, Bərdə, Qazax, Tərtər və digər rayonlarımızın ərazilərində də **Qaratəpə** coğrafi adına rast gəlirik. Bərdə rayonunda **Qaratəpə** adlı kənd də var.

Türkmənistanın cənubunda, Artik dəmiryol stansiyasından 4 km şimalda encolit dövrünə (*m.ö.5-3-cü minilliklər*) aid yaşayış yeri, Türkiyənin Qədirli şəhərindən 22 km cənub-şərqdə, Ceyhun çayı sahilindəki təpə də **Qaratəpə** adlanır. XX əsrin 30-cu illərinə qədər Gürcüstanda, Qardabani rayonunda **Qaratəpə** adlı yaşayış məntəqəsi də mövcud olmuşdur...

## QARAZƏMİ KƏNDİ

**Qarazəmi kəndi** Xocavənd rayonunda, Sos inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 22 kilo-

metr cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, üzümçülük və taxılçılıqla məşğul olur.

**Qarazəmi** yaşayış məntəqəsi salındığı ərazinin adı ilə adlanmışdır. Oykonim ***qara*** (*«böyük»*, *«rəng»*) və ***zəmi*** sözlərindən ibarətdir. XIX əsrin əvvəllərində ermənilər burada yerləşdikdən sonra toponim tərkibindəki **zəmi** sözü erməni dilinə çevrilərkən ***honc*** (*«zəmi»*, *«biçənək»*) şəklinə düşmüş və kəndin adı **Qarahonc** kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə kəndin keçmiş adı (*Qarazəmi*) bərpa edilmişdir.

**Qarazəmi** oykonimi *«geniş əkin yeri»* mənasındadır. Toponimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bildiyimiz kimi ***qara*** sözü oxlu sayda məna çalarlarına malikdir. Burada isə **Qarazəmi** toponimi zəminin böyüklüyü və torpağın rəngi ilə əlaqədar olaraq yaranmışdır...

## QARXUT DAĞI

Xocavənd rayonu ərazisində, Qarabağ silsiləsi ətəyində qeydə alınan oronimlərdən biri **Qarxut dağı** adlanır. Bu **dağın** adındakı **qar/kar** coğrafi termini qədim bulqar dilində *«şəhər»*, *«qala»*, Orta Asiya toponimikasında isə *«mağara»*, *«təpə»*, *«zirvə»* mənalarında işlədilir. Udmurtiyada *34* toponimdə, habelə *Şupaşkar* (Çuvasiya), *Sıktıvkar* (Komi), *Babakar* (Qazax rayonu) yer adlarında ***kar*** komponenti iştirak edir. Bu coğrafi adların tərkibindəki ***kar*** komponenti iştirak edir. Qut komponenti isə qədim İran dillərində *«qala»* deməkdir...

**Qarxut dağı** toponiminin izahı *«dağda qala-istehkam»* anlamına uyğun gəlir...





## QARITƏPƏ YATAĞI

**Qarıtıpı yatağı** Xocavənd rayonunda, rayon mərkəzindən 17 kilometr qərbdə, dağətəyi ərazidə yerləşir.

**Qarıtəpə** oronimindəki **təpə** sözü müsbət relyef forması bildirən coğrafi termindir. **Yataq** tarixən əvvəllər **Qarıtəpə** deyilən ərazidə salındığı üçün belə adlanmışdır.

Bu tipli toponimlərə Azərbaycan Respublikası ərazisində Laçın rayonunda (**Qarıkaha kəndi**, **Qarıqışlaq kəndi**), Gədəbəy rayonunda (**Qarıkənd kəndi**), Füzuli rayonunda (**Qarıköpəktəpə dağı**) və digər bölgələrdə rast gəlirik...

## QARQAR DÜZÜ

Azərbaycanda, Qarabağda, Milin böyük bir hissəsi tarixən **Qarqar düzü** adlanır. Erkən orta əsr müəllifləri öz əsərlərində Qafqaz Albaniyası ərazisində *qarqarların* adı ilə bağlı olan **Qarqar düzü** oroniminin adını çəkmişdir.

Qədim Qafqaz tayfalarından olan *qarqarlar* Albaniyada (M.Xorenli, M.Kalankatlı), Qafqaz Albaniyasının şimalında (Strabon) yaşamışlar. Alban əlifbası qarqarların dili əsasında tərtib olunub (M.Xorenli, M. Kalankatlı). Çox güman ki, Azərbaycan ərazisində qeydə alınan ***Qarqar*** toponimləri ***qarqar tayfası*** adı ilə əlaqədardır (Trever K.V., Krupnov E.İ., Budaqov B.Ə., Vəlişov N.T.).

**Qarqar** toponim qədim Qafqaz Albaniyasının ***qarqar*** tayfasının adı ilə əlaqələndirirlər. V əsrə aid mənbələrdə Albaniyada **qarqarların** adı, III əsrdə isə, onların burada yaşadıqları qeyd olunmuşdur. Alban tarixçiləri M.Xorenli və M.Kalanqatlı da qarqarların Albaniyada

yaşamaları haqqında məlumat vermişlər. Bu müəlliflərə görə, alban əlifbası qarqarların dili əsasında tərtib olunmuşdur. M.Xorenli (V əsr) Mil düzünün bir hissəsini ***Qarqar çölü*** kimi vermişdir.

Qarqarların Mil və Qarabağ düzlərində yaşadıqlarına görə həmin düzlər erkən orta əsrlərdə ***Qarqar düzü*** adlanmışdır. Yaqut Həməvi (XIII əsr) Mil düzündə ***Karkar*** adlı şəhərin adını çəkir. XIX əsrdə Azərbaycanın müxtəlif qəzalarında ***Qarqar*** adlı bir neçə yaşayış məntəqəsi olmuşdur. A.Bakıxanov da *"Gülüstani-İrəm"* əsərində Müşkür düzündə yerləşən *Karkar* şəhərinin adını çəkir...

Hələ miladdan **1200** il əvvələ aid olan Assuriya mixi yazılarında qədim Azərbaycan ərazisində yaşayan xalqlardan birinin adının ***Xarxarlar*** olduğu göstərilir. Qədim yunan tarixçi və coğrafiyaşünası Strabonun (*e.ə. 64 - e. 24-cü illər*) verdiyi məlumata əsasən ***Xarxarlar (Qarqarlar)*** indiki Beşbarmaq dağının ətrafında yaşamışlar. Tarixdən məlumdur ki, **qarqarlar** oturaq və köçəri həyat keçirmişlər. Qədim Qarabağda ***Qarqar*** ellərinin çoxlu maddi, mənəvi dəyərləri vardır. M.Kalanqatlıya görə, **qarqarlar** şimal-qərbi Albaniya ərazisində yaşamışlar. ***Qarqarlar*** Azərbaycan türklərinin soykökünü təşkil edən boylardandır. Manna, Mada və Alban dövlətlərinin qurulmasında *Qarqar* boylarının böyük rolu olmuşdur.

Qaynaqlarda türkman **ərsari/ersari** tayfa qrupunun birinin adının **qarqar** olması da göstərilir. O da məlumdur ki, qıpçaqlarda ***Qarqar*** adam adı mövcud imiş...

Dillərində boğaz səsləri çox olan **qarqarların** Qafqaz tayfalarından biri olması güman edilir...

**Qarqar** etnonimi indiki formasına qədər uzun evolyusiya dövrü keçib.Etnonim öncə **qırqır** formasında olmuş, sonra zaman - zaman dəyişikliyə uğrayaraq





indiki *Qarqar* şəklinə düşmüşdür.Bəzi mənbələrdə göstərilir ki, ***qırğı/kərki*** yırtıcı quşunu türk tayfaları içərisində onqon hesab edən qəbilələr olub. **Ərsarlar** (**-ər** - *"igid", "kişi"*, **sar**-*"tayfa")* xristianlığı qəbul edəndən sonra da **qırğı** onqonunu unutmamışdır. Belə ehtimal da etmək olar ki, ***qarqar*** sözünün əsası **qırqırdir.** ***Qarqar*** çayının sol sahilində yerləşən ***Kərkicahan/ Qırqıçahan*** yaşayış məntəqəsi də bu fikrimizi tamamlayır. *Qar/qor* komponentinin *"od"* anlamı da məlumdur. Bu mənada **Qırqır** toponimini **"od kimi ər"** anlamında da qəbul etmək olar.

Əfsanəvi qədim yunan şairi Homerin *" İliada"* əsərində ***Qarqar*** sözü türk boyunun adı kimi dəfələrlə çəkilir. Həmin mənbə göstərir ki, *qarqarlar* hələ çox-çox əvvəllər – eramızdan təxminən min il qabaq Yunanıstana, Balkanlara köç edərək, o yerlərin təbiətini, məhsuldar torpaqlarını bəyənib orada da məskən salmışlar.

Tarixdən mə'lumdur ki, III Ur sülaləsi (XXII-XXI əsrlər) çarlarının tutduqları yaşayış məskənləri sırasında *Karxar* yaşayış məntəqəsinin də adı var. Qarqarların bir hissəsinin Livanın quzeyindəki Oront çayı hövzəsində *Karkar* adlı yeni yurd yeri salmaları haqqında tarixi mənbələrdə məlumatlar verilmişdir. Miladdan əvvəl II minillikdə bəzi **qarqar** boyları Kiçik Asiyanın batı və Güney-batı ərazilərində yaşamışlar. III Salmanasarın **853**-cü il yürüşü tarixə *"Karkar döyüşü"* kimi də düşmüşdür. Şumer və assur mənbələrinə görə, *Qarqar* tayfalarının ata yurdu Urmu hövzəsi olmuşsa, sonralar onlar tarix boyu Avrasiyanın müxtəlif ərazilərində görünmüşdülər.

*Kanqar* etnik qrupu haqqında X əsr müəllifi Konstantin Boqryanarodnı və XIII əsr müəllifi Rubruk da müəyyən məlumat vermişlər. Bəzi orta əsr müəllifləri *qarqar* etnonimi ilə bağlı mənbələrdə *Xarxar* adlı

yaşayış məntəqələrinin adlarını da çəkmişdir.

**Qarqar** toponimi X əsrdə **Gərəgər** şəklində də qeydə alınıb. ***Gərgərlər*** vaxtilə qədim Qafqaz Albaniyasında yaşamış **qarqar** tayfasının adını özündə əks etdirir. Bu adı çox sonralar burada məskunlaşan ermənilər **herher** kimi qəbul etmişlər...

Bəzi tədqiqatçılar qarqarların etnik mənsubiyyətini araşdıraraq Azərbaycandakı **qarqar** tayfalarının müasir çeçen-inquşların, bəzisi isə rutul saxurların ulu babaları olmasını güman edirlər. Qarqarların dil cəhətdən türkdilli olmaları öncə **qarqar** etnonimi ilə əlaqədar toponimlərin arealına türk xalqları məskən salan ərazilərdə rast gəlinməsi ilə də təsdiq olunur.

Xalqımızın islamaqədərki tarixi qədim türk boylarının tarixi ilə sıx əlaqədardır. Miladdan öncə Urmu gölü hövzəsində yaşayan ***qarqar uruqları*** da belə boylardandır. Bir çox dillərdə yazılan qaynaqlarda adı müxtəlif şəkildə yazılmış bu boy adına *(qarqar, xarxar, karqar, kərkər, kerker, herher, qarqara və s.)* qədim mənbələrdə Urmu gölü və Dəclə çayı sahillərində, Kiçik Asiya ölkələrində rast gəlirik. Antik, orta əsr və sonrakı dövr mənbələrində **qarqarlara** Güney və Quzey Qafqazda, İranda, Mərkəzi Asiya ölkələrində və digər ərazilərdə də rast gəlinir. Azərbaycan xalqının formalaşmasında oğuzlarla bərabər *qarqar, kəngər, gögər* tayfaları da fəal iştirak etmişlər...

Şumeri idarə edən qutilərin son elbəyi Tirikan **qarqar** boyuna mənsub olmuşdur. Boğazgöy mətnlərində ***Karkar, Qarqara*** adları da çəkilir. IX əsr ərəb tarixçi-səyyahı ibn Xordadbeh Mil düzündə - indiki Beyləqan və Ağcabədi rayonları ərazisində ***Karkar (Kərkər)*** adlı şəhərin adını da çəkmişdir. Məşhur şərqşünas V.V.Bartold XVII-XIX əsrlərə aid mənbələrdə Orta Qazaxıstanda, Tyan-Şanda ***Qarqar*** adlı toponimlərin olmasını qeyd





edir. X əsrə aid olan *"Hüdud əl-Aləm"* mənbəsində Orta Asiyada **qarqar** əyalətinin adı çəkilir. Qədim Qafqaz Albaniyasında yaşayan **qarqar** tayfalarının adı bəzi məxəzlərdə **gərgər** kimi qeyd olunur.

***Qarqar*** etnonimi ilə bağlı çoxlu sayda oronim, oykonim, hidronim mövcuddur.Mosul türkmanları içərisində və Mardində **qerqeri** adlı boy da vardır. V.V.Bartold və S.M.Abramzon bu ***qarqarları*** qıpçaq soylu hesab edirlər.

Miladdan öncə VIII əsrin sonunda Assur hökmdarı II Sarqonun (*722-705-ci illər*) Dir-Şarrukkin sarayında ***Xarxar*** bölgəsinin mərkəzi qalası olan ***Xarxar qalası*** mövcud olmuşdur...

Tanınmış alim, tədqiqatçı - arxeoloq R. Göyüşov *"Qarabağın keçmişinə səyahət"* kitabında göstərir ki, Albaniya ərazilərindəki küp qəbir mədəniyyətinin sahibləri *qarqarlardır...*

Güney Azərbaycanda, Xarzardan yuxarıda *Karkari-Hundir* adlı bir qala da var. Yuxarıda adı qeyd olunan I əsr yunan coğrafiyaşünası Strabon *qarqarların* Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. Qafqaz Albaniyası dövlətinin tədqiqatçılarından biri olan K.V.Trever III əsrdə Albaniyada ***Qarqar düzü*** adlı yerin mövcud olduğunu qeyd edir.

Tarixçi alim Kamal Əliyev *qarqarların* türkdilli olmasını göstərir. Ümumiyyətlə, *qarqarlar* türkdilli, qafqazdilli etnos hesab olunur. Azərbaycanlıların *etnogenezində* qarqarların müəyyən rolu olmuşdur. Respublikamızda *Qarqar, Xarxar, Karkar, Herher, Gərgər* toponimləri həmin qədim tayfanın izləridir. *Qarqar* toponimi çox geniş areala malikdir. Mərkəzi Asiya və Yaxın Şərqdə çoxlu sayda bu tip coğrafi adlara rast gəlinir.

Bütün bu deyilənlərə ümumi bir yekun vuraraq demək olar ki, **qarqarlar** uti, alban və digər türkdilli xalqlarla birlikdə Qarabağın qədim sakinləri hesab olunurlar...

Qarabağda *Qarqar dağ silsiləsi, Qarqar çayı* (Xocalı rayonu), *Qarqar düzü, Qarqar (Herher) kəndi (Xocavənd rayonu),* Gədəbəy rayonundakı *Xarxar (Gərgər)* kəndi, Qəbələ bölgəsindəki *Xarkar xaraba yeri,* eləcə də, Qazaxıstandakı *Karkarlı dağı*, Türkmənistandakı *Qarqar çayı* və bu tip digər toponimlər ***qarqar*** etnotoponimi ilə əlaqədar olaraq yaranmışdır...

Əlavə məlumat üçün bax: **Qarqar kəndi.**

## QARQAR KƏNDİ

**Qarqar kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 25 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olur.

Tarixi mənbələrdə görürük ki, bu yaşayış məntəqəsinin adı X əsrdə **Gərgər** formasında qeydə alınmışdır. **Gərgər** – qədim Qafqaz Albaniyasında yaşamış ***qarqar*** tayfasının adını özündə əks etdirir. Sonralar burada yaşayan ermənilər kəndin adını **Herher** kimi rəsmiləşdirərək sənədləşdirmişlər. **1992**-ci ildən kənd Qarqar adlanır...

V əsrə aid olan tarixi mənbələrdə Albaniyada qarqarların adı, II əsrdə onların burada yaşamaları qeyd olunur. Strabon qarqarların Qafqaz Albaniyasından şimalda yaşamalarını göstərmişdir. Qarqarların Mil və Qarabağ düzlərində yaşadıqlarına görə həmin düzlər erkən orta əsrlərdə (V-IX əsrlərdə) **Qarqar düzü** adlanmışdır. XIII əsr müəllifi Yaqut Həməvi Mil düzündə ***Karkar*** adlı şəhər adını çəkir.





XIX əsrdə Azərbacyanın müxtəlif qəzalarında **Qarqar** adlı bir neçə yaşayış məntəqəsi vardı. Azərbaycanda, Qarabağda uzunluğu **115** km olan, Zarıslı və Xəlfəli çaylarının birləşməsindən əmələ gələn **Qarqar çayı** da var...

Movses Xorenli və Movses Kalankatlı qarqarların aborigen kimi Albaniyada yaşamaları haqqında məlumat vermişlər. Onlar Alban dili əsasında tərtib olunduğunu da söyləmişlər. ***Qarqar*** toponimləri təbii ki, qarqarlarla bağlıdır...

Əlavə məlumat üçün bax: **Qarqar çayı, Qarqar düzü.**

## QARQULUTƏPƏ DAĞI

**Qarğutəpə dağı** Xocavənd rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, Xocavənd, Füzuli və Ağcabədi rayonlarının sərhədində, onların birləşdiyi ərazidə yerləşir. Dağın maksimal hündürlüyü **226** metrdir. O, Qızılqayadan şərqdədir. Oronim tərkibindəki **təpə** və **dağ** sözləri müsbət relyef forması bildirən coğrafi terminlərdir.

**Qarqulutəpə dağı** coğrafi adındakı **qarqu** sözünü ilk baxışda **qarğı** (***qamış***) ilə əlaqələndirmən mümkündür. Amma araşdırmalar sübut edir ki, **Qarqulu** toponimi türk dillərində **qereqe**, monqol dilində **kəruqə** sözlərindən olub, *«köçəri maldarların qış evləri»*, *«keçə ilə örtülmüş alaçıqlar»* mənasındadır. Bu tipli toponimlər Respublikamız ərazisində **40**-dan çoxdur. **Qarqulu təpə**, **Qarğulu dağ** (Şəmkir rayonu), **Qarğulu dərə** (Zəngilan rayonu), **Qarğulu dərəsi**, **Qarğulu təpə**, **Qarğulu örüşü** (Cəbrayıl rayonu, Alıkeyxalı kəndi) və s. bu kimi oronimlər çöl materialları əsasında yaranmış bu qəbildən olan toponimlərdəndir...

## QARYAĞİN QƏZASI

Vaxtilə Xocavənd rayonunun bir hissəsinin də əhatə etdiyi *Qaryagin qəzası* **1 iyul 1883**-cü il tarixdə (Cavanşir qəzası ilə bir yerdə) yaradılıb.

**30 avqust 1918**-ci il tarixdə qəzanın adı dəyişdirilərək ***Cəbrayıl qəzası*** adlandırılıb. Tarixdən adları bizə məlum olan və olmayan ***Cəbrayıl elləri*** bu qəzanın tərkibində yaşamışlar...

Qəzanın əvvəlki adı **Cəbrayıl** olmuşdur. **1905**-ci ildə "*Kürəkçay*" müqaviləsinin **100** illiyi ilə əlaqədar olaraq çar fərmanı ilə qəzanın adı dəyişdirilərək Rus-İran müharibəsinin fəal iştirakçısı, polkovnik **Qaryaginin** şərəfinə **Qaryagin** (***Karyagin***) adlandırıldı. Qəzanın mərkəzi də ***Qaryagin*** şəhərinə köçürüldü.

***Pavel Mixayloviç Karyagin*** **1761**-ci ildə Poltavada zadəgan ailəsində anadan olub. **1778**-ci ildə hərbi məktəbi bitirib. 1781-ci ildə praporşik rütbəsi alıb. 1783-cü ildən Qafqazdakı "*Yeqor polku*"nda xidmət edir. 1784-91-ci illərdə Türkiyəyə qarşı Rus ordusunda döyüşür. P.P.Rumyantsevin təqdimatı ilə ona mayor rütbəsi verilir və o, "*Georgi*" Xaç ordeni ilə təltif edilir. 1796-cı ildə V.Zubovun Azərbaycana yürüşü zamanı P.M.Karyagin Gəncə, Şəmkir, Şirvan, Qarabağ, Dərbənd, Bakı və s. ərazilərdə gedən döyüşlərdə fərqlənir. V.Zubov Azərbaycandan geri çağırılarkən Qarabağdakı hərbi hissəni P.M.Karyaginə etibar edir. **1800**-cü ildə ona Qafqaz Ali Baş Komandanlığı tərəfindən polkovnik rütbəsi verilir.

XIX əsrin ilk illərində Karyaginin Qarabağda törətdiyi zülmlərdən qəzəblənən İbrahim xanın İranda yaşayan oğlu Əbdül Fəttah ağa **21 iyun 1805**-ci il tarixdə Karyaginin qoşunu ilə Əsgəran yaxınlığında döyüşür,





döyüşdə Karyaginin qoşunu məğlub olur, özü isə yaralanır. P.D.Sisiyanovun göstərişi ilə Gəncədə müalicə olunan **Karyagin** sağaldıqdan sonra bir müddət Gəncədə mülki işlərdə çalışır. **17 mart 1807**-ci il tarixdə yenidən Şuşaya qayıdan **Karyagin** orada hərbi işlərini davam etdirir. **14 oktyabr 1807**-ci il tarixdə Şuşada bərk xəstələnən Karyagin **2** ay sonra vəfat edir.

Qəza idarəsinə qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları, şəhər polisi daxil idi. Hakimiyyət qəza rəisinin əlində cəmlənmişdir. Qəza rəisini Yelizavetpol (Gəncə) qubernatoru təyin edirdi. Adətən, qəza rəisləri rus zabitindən olurdu. Qəzada Cəbrayıl, Horadiz, Bəhmənli, Bartaz polis məntəqələri fəaliyyət göstərirdi. Yaşayış məntəqələrini qəza rəisinin təyin etdiyi kəndxudalar, yüzbaşılar, bəylər, polis məntəqələrini isə yenə də qəza rəisinin təyin etdiyi pristavlar idarə edirdilər. Qəzada yaradılmış məhkəmə qəzanın idarə olunmasında da iştirak edirdi.

**3332** kvadrat kilometr sahəsi olan Qaryagin qəzasının (buraya indiki Füzuli, Beyləqan, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarının əraziləri daxil idi) əhalisinin sayı 66 min nəfərdən (1897-ci ilə aid olan statistikaya görə 66.360 nəfər) çox olmuşdur. Təsərrüfatında maldarlıq, əkinçilik, baramaçılıq, bağçılıq, ipəkçilik və s. əsas yer tuturdu. Qəza ərazisində xalçaçılıq, pambıqçılıq və üzümçülük də inkişaf etmişdir. Ticarət, boyaqçılıq, dəmirçilk, çəkməçilik, nalbəndlik, dərzilik və s. sahələr də inkişafda idi...

Qəzada çarizmin müstəmləkəçilik siyasətinə, bəy və xanların zülmünə qarşı dəfələrlə kəndli çıxışları baş vermişdir. **30 avqust 1918**-ci il tarixdə Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə **Qaryagin**

**qəzasının** adı dəyişdirilərək əvvəlki **Cəbrayıl qəzası** adı ilə adlandırıldı. **Qaryagin** yaşayış məntəqəsinin (kəndinin) adı da əvvəlki adı olan ***Qarabulaq*** adı ilə əvəz edildi. **Qəza** ərazisində 12 azərbaycanlı, 3 erməni icması (*inzibati ərazi vahidi kimi*) var idi...

**7 iyul 1923-cü il** tarixində **DQMV** yarananda Bünyadlı, Zamzur, Əmirallar, Kuropatkin, Muğanlı, Xocavənd, Qaradağlı, Tuğ, Axullu, Salakətin, Vəng, Dolanlar, Edilli, Hadrut, Hərəkül, Bulutan, Məlikcanlı, Düdükçü və s. kəndlər Cəbrayıl qəzasından alınıb DQMV tabeliyinə keçirildi. **1929**-cu ildə **Cəbrayıl** (*Qaryagin*) **qəzası** ləğv olundu...

**Cəbrayıl qəzası** orta əsrlərdə burada yaşamış **Cəbrayıl Ata** (o, Alıpaşa dağının görümlü bir yerində dəfn olunub) adlı nüfuzlu bir şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. **Cəbrayıl** adını ***cəbrayıllı*** türk mənşəli tayfanın adı ilə də əlaqələndirənlər var. Tarixdən adları bizə məlum olan və olmayan Cəbrayıl elləri də bu qəzanın tərkibində yaşamışlar. Tarixi məlumatlara görə, cəbrayıllı tayfası son orta əsrlərdə müvafiq olaraq Qaraqoyunlu və Ağqoyunlu, Qızılbaş, Şahcevən, XVIII əsrdə isə Əfşar və Cavanşir tayfa ittifaqlarının tərkibinə daxil olmuşdur. Əlbəttə, bütün bunlar mövcud siyasi vəziyyətlə əlaqədar baş vermişdir...

## QASIM BƏYİN BAĞI

Axullu kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Qasım bəyin bağı** adlanır. Bu ***bağ*** sahəsində çoxlu sayda müxtəlif növ meyvə ağacları vardır. **Bağ** onun yaradıcısı olan **Qasım bəyin** adı ilə bağlıdır. Toponim «*Qasım bəyə məxsus olan bağ*» mənasındadır.





## QATIRÇI MEŞƏSİ

Qaradağlı kəndinin yaxınlığında qeydə alınmış oronimlərdən biri **Qatırçı meşəsi** adlanır. Bu coğrafi ad **qatır, meşə** sözlərindən, eləcə də **-çı** və **–si** mənsubluq şəkilçilərindən ibarətdir. **Qatır** – 40 ilədək yaşayan at (*madyan*) ilə erkək eşşəyin hibridi olan və hər iki növün əlamətlərini daşıyan yük heyvanıdır. Çox yük götürməsi, sıldırım dağ yolları ilə asan getməsi dağ şəraitində ***qatırı*** ən sərfəli nəqliyyat vasitəsinə çevirmişdir. Bu səbəbdən də onu atdan yüksək qiymətləndirirlər. Vaxtilə ***qatırçılar*** tez-tez bu ***meşə*** ərazisindən keçdikləri üçün toponim **Qatırçı meşəsi** adlandırılmışdır...

## QAZAN (QAZANÇI) YERİ

Xocavənd rayonunun Muğanlı kəndindən 3 km aralıda qeydə alınmış coğrafi adlardan biri **Qazan** (***Qazançı***) **yeri** adlanır. Azərbaycan ərazisində bu tipli toponimlərə Goranboy (***Qazançı, Qazanbulaq***), Zəngilan (***Qazançı***), Culfa (***Qazançı***), Ağcabədi (***Qazan təpə***), Ağdam, Ağdərə (***Qazançı***), Zaqatala (***Qazangül***), Cəbrayıl (***Qazanzəmi***), Göygöl (***Qazandurmaz***), Hacıqabul (***Qazan Qara yaylağı***), İsmayıllı (***Qazandərə***), Masallı (***Qazança təpə***), Saatlı (***Qazanbutan***), Şamaxı (***Qazandağ***), Şəmkir (***Qazandağ***), Yevlax (***Qazanlı dağı***), Cəlilabad (***Qazanqoşa zirvəsi***), Ordubad, Tovuz (***Qazangöl***) və digər rayonlarının ərazilərində rast gəlirik.

Ümumiyyətlə, tərkibində **qazan** komponenti iştirak edən toponimlərin yaranması, semantikası ilə bağlı müxtəlif fikirlər mövcuddur. **Qazan** tərkibli ya tayfa, ya **qab** (***qazan***), ya da şəxs adı kimi yozulur.

Q.Qeybullayev **qazan** komponentli toponimləri bolqar etnonimi kimi tədqiq edir. Bir qrup araşdırıcılar bu tipli toponimləri **qazana**, qaba oxşadığı səbəbi ilə izah edir. **Qazan** toponiminin arealı çox geniş coğrafi əraziləri əhta edir. Məsələn: Rusiyadakı **Qazan** (*Kazan*) şəhərinin adı təxminən 700 il bundan əvvəl, **Kazan** (*ka*) çayının orta axınının hündür sahilində yerləşən **İske Kazan** (*Köhnə Kazan*) şəhərinin adındandır. **Kazan** (*ka*) hidronimi **kaz** tayfasının adını özündə əks etdirir.

Tarixi qaynaqlardan məlumdur ki, **kazan** tayfası vaxtilə Azov dənizi sahillərində yaşamış bir bulqar tayfasının adıdır. **Kazan** etnosu ilə bağlı yer-yurd adlarına mənbələrdə Güney Qafqaz ərazilərində erkən orta əsrlərdə də rast gəlirik. Məşhur «*Kitabi-Dədə Qorqud*» dastanında **Salur Qazan** adı da vardır...

Əksər araşdırıcılar **Qazan** onomastik vahidindəki **qaz/kaz** komponentini tayfa adı ilə əlaqələndirirlər. Makroonomastik vahidlərin tərkibində iştirak edən bu komponent *Qafqaz dağı* oronimində **qaz**, eləcə də *Qazaxıstan, Qazax* makrotoponimlərində **qaz**, *Xəzər* tayfa və dəniz adında **xəz** (*Kaspi tayfa və dəniz adında kas*) hissələrinin hamısı tədqiqatçılar tərəfindən artıq tayfa adı kimi öyrənilmişdir. **Qazan** (*Kazan*) adındakı **qaz/kaz** formantı da həmin tayfa adları ilə eyni kökdəndir.

Qədim türkdilli tayfa bulqarlarından olan **kazanlar** (*qazanlar*) Azərbaycana orta əsrlərdə xəzərlərin və suvarların tərkibində gəlmişlər. Azərbaycanda olan **Qazançı** (*Ağdam, Ağdərə, Culfa, Goranboy, Zəngilan rayonları*), **Qazanbatan** (*Saatlı rayonu*), **Qazanbulaq** (*Goranboy rayonu*), **Qazanzəmi** (*Cəbrayıl rayonu*), **Qazangül** (*Zaqatala rayonu*) yaşayış məntəqələri, **Qazankol** və **Qazanqala** mikrotoponimləri, **Qazanlı dağı** (*Yevlax rayonu*), **Qazandağ** (*Şamaxı rayonu*), **Qazangöl** (*Tovuz və Ordubad rayonları*), **Qazanqoşa zirvəsi** (*Cəlilabad rayonu*) və digər coğrafi adlar çox ehtimal ki, **qazanlarla** əlaqədar yaranmışdır.





**Qazanların** daxil olduğu bulqar tayfasının miladdan öncə II əsrdə Şimali Qafqazdan İrəvan ərazisinə, oradan da Azərbaycana gəldikləri tarixi məlumatlar vardır. M.İsmayılova görə bulqarlar miladdan öncə və miladın I yüzilində ərazimizdə məskunlaşmışlar.

**Qazançı** toponimi **qazan** («*qədim türk tayfası*») və **–çı** mənsubluq bildirən şəkilçidən ibarətdir. **Qazan** (***Qazançı***) yeri toponimi «*qazan tayfasına aid, ona məxsus olan yer*» mənasındadır.

## QƏHRƏMAN BULAĞI

Muğanlı kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri **Qəhrəman bulağı** adlanır. Hidronim **Qəhrəman** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Toponim «*qəhrəmana məxsus olan bulaq*» mənasındadır.

## QƏLƏM DƏRƏSİ

Salakətin kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri **Qələm dərəsi** adlanır. Oronim **qələm** sözündən, **dərə** terminindən və **–si** mənsubluq bildirən şəkilçidən ibarətdir. **Dərə** coğrafi termini mənfi relyef forması bildirir. O, relyefin uzunsov başlanğıcından qurtaracağına doğru meyillik forması ifadə edir. Türk, türkmən, özbək, tacik dillərində də **dərə** termini işlədilir. Bu termin türk dillərindən balqar və ləzgi dillərinə də keçmişdir. Azərbaycanda çöl materialları içərisində adının tərkibində

dərə termini iştirak edən 30.000-dən çox coğrafi ad qeydə alınıb. **Qələm dərəsi** toponimi həmin dərədə çoxlu sayda calaq olmuş ağaclarla əlaqədar olaraq belə adlanmışdır...

## QƏTL YERİ

Xocavənd rayonunun Xocavənd yaşayış məntəqəsi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Qətl yeri** adlanır. Bu yerin ətrafında vaxtilə burada ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş adamlara, azərbaycanlılara xatirə əlaməti olaraq günbəzlər də ucaldılmışdır. Bu ***yer*** vaxtilə burada ***qətlə*** yetirilən insanların şərəfinə **Qətl yeri** adlandırılmışdır.

## QIRĞIN DƏRƏ

Axullu kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Qırğın dərə** adlanır. Toponimin tərkibindəki **dərə** coğrafi termini mənfi relyef forması bildirir. **Qırğın dərə** oronimi ilə bağlı yerli əhali müxtəlif əfsanə və rəvayətlər danışmaqdadır. Çox güman ki, həmin **dərə** ərazisində nə vaxtsa **qırğın** törədilib...

## QIRMIZI BAZAR QƏSƏBƏSİ

**Qırmızı Bazar qəsəbəsi** Xocavənd rayonunda, eyniadlı qəsəbə inzibati ərazi vahidində, rayon mərkəzindən 30 km cənub-qərbdə, Qarabağ silsiləsi ətəyində, Füzuli-Xankəndi avtomobil yolu kənarında, dağarası çökəklikdə,





Arazın qolu olan Köndələnçayın sol sahilində yerləşir. Əhalisi əsasən taxılçılıq, üzümçülük, heyvandarlıq, sənətkarlıq və ticarətlə məşğul olur. *Qırmızı Bazar* şəhər tipli qəsəbəsində şərab və yağ-pendir zavodları, üzümçülük təsərrüfatı, orta məktəb, kitabxana, klub, uşaq bağçası, kinoteatr, xəstəxana, rabitə şöbəsi, avtomat telefon stansiyası, park, stadion, diametri 600 sm, hündürlüyü 25 m, yaşı 2000 il olan Şərq çinarı və s. var.

Bu şəhər tipli yaşayış məntəqəsinin ərazisi keçmişdə **bazar** yeri olmuşdur. Yerli məlumata görə, 1924-cü ildə ilk dəfə burada *1 May Həmrəylik günü* keçirilmiş və elə həmin zamandan da bu yaşayış məntəqəsi **Qırmızı Bazar** (***Qərmürbazar***) adlanmışdır. Sonralar tədricən yaxın və uzaq kəndlərdən – Mavas, Sıxtoraşen, Bilbilək, Şıxer və Tağaverd yaşayış məntəqələrindən köçüb gələnlər burada məskunlaşdıqdan sonra bura daimi yaşayış məntəqəsinə çevrilmişdir.

**Qırmızı Bazar** oykonimi etnonimdən törənmiş toponimdir. Tarixi mənbələrdən aydın olur ki, ***bazar, basel*** adlı etnonimlər mövcud imiş. **Bazar** komponentinin əvvəlində işlədilən **qırmızı** rəng adı, həm də münasibət ifadə edir. Yəni, ***qırmızı*** sözü ***bazar*** etnoniminə «*çoxluq*», «*müsbətlik*», «*xoş əməl*», «*üstün gələn qırmızı*» anlamı vermək üçün əlavə edilmişdir. **Qırmızıbazar** etnotoponimi «*xoş əməl*», «*üstün gələn qırmızı*» anlamı ilə də mənalandırılır...

## QIRMIZI MƏBƏD

Tuğ kəndi ərazisində qeydə alınan və X əsr abidəsi hesab olunan tarixi memarlıq incilərindən biri **Qırmızı**

**məbəd** adlanır. **Məbəd** – ibadət və dini mərasimlər keçirilməsi üçün nəzərdə tutulan tikililərdir. **Məbəd** tikililəri (ibadətgahlar, kilsə, məscid və sinaqoqlar) memarlığın inkişafına müvafiq olaraq tarixən formasını dəyişmiş və demək olar ki, milli xüsusiyyət bildirmişdir. İctimai yığıncaq, təntənəli mərasim yeri olmuş və memorial xarakter daşımış məbədlərin əhəmiyyəti həyata keçirdiyi dini ideyalardan, icra etdiyi dini funksiyalardan daha genişdir. Milli memarlıq abidəsi hesab olunan və dövlətimiz tərəfindən qorunan **Qırmızı məbəd** erməni işğalından sonra (30.10.1991-ci il) müxtəlif dağıntılara məruz qalmışdır. Məbədin **Qırmızı** adlanması onun bina tikilisinin **qırmızı** rəngdə olması ilə bağlıdır...

## QIRMIZIQAYA KƏNDİ

(Bax: **Kemraquç kəndi)**

## QIŞLAQ BAĞI

Axullu kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Qışlaq bağı** adlanır. Adından göründüyü kimi toponim **qışlaq** və **bağ** sözlərindən ibarətdir. Həmin **qışlaq** ərazisində **bağ** salındığı üçün toponim belə adlandırılmışdır. **Qışlaq** – mal-qaranın qışladığı ərazi, otlaq sahəsidir. Qarabağ ərazisi qoyunçuluğun qədim qışlaqları hesab edilir. 6 minillik tarixi olan **qışlaqlardan** indi də heyvandarlıq təsərrüfatında geniş istifadə olunur...





## QIZARAN DÜZ

Tuğ kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Qızaran düz** adlanır. Toponimin tərkibindəki **düz** komponenti mənfi relyef bildirən coğrafi termindir. Oronimiyada enişi, yoxuşu, təpəsi, çuxuru olmayan, ümumi fondan çox da kənara çıxmayan hamar relyef səthinə **düz** deyilir. **Qızaran düz** toponimi haqqında müxtəlif rəvayətlər uydurulmuşdur. Coğrafi adın tərkib elementi olan **qızaran** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr var. Yaz aylarında həmin *düz* lalə və digər güllərlə *qızardığından* toponim belə ad almışdır.

## QIZIL DƏRƏ AYAĞI

**Ayaq** metafor termini oronimiyada *«dağın düzənliklə birləşdiyi zolaq», «dağın düzənliklə birləşməsi», «dağın, dərənin, çayın qurtaracağı»* və s. mənalar bildirir. Tərkibində **ayaq** termini iştirak edən coğrafi adların sayı **40**-dır. Onlardan biri də Xocavənd rayonunun ərazisində qeydə alınmış **Qızıl dərə ayağı** oronimidir. Oronim **qızıl** (*«qırmızı»*) sözündən, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və ***ayaq*** formantından ibarətdir. Toponim *«qırmızı dərənin qurtaracağı»* mənasındadır.

Şərur rayonu ərazisində də **Qızıl dərə ayağı** oroqrafik obyekti qeydə alınıb...

## QIZILDƏRƏ

Oronimiyada *qırmızımtıl* rəng bildirən sözlərdən biri də **qızıl** (***altın***) terminidir ki, bu da relyefin süxurunun

rəngini ifadə edir. Oronimlərdə **qızıl** (*qırmızı*) sözü qayaların vulkan mənşəli şlak konuslardan ibarət olması ilə bağlıdır. Respublikamızın ərazisində rəng bildirən **qızıl** (*qırmızı*) sözü ilə əlaqədar **400** oronim qeydə alınmışdır. Onlardan biri də Xocavənd rayonunun Banazur kəndi ərazisində qeydə alınan **Qızıldərə** oronimidir. **Qızıldərə** coğrafi adı rəng mənası bildirən ***qızıl*** sözündən və mənfi relyef forması ifadə edən ***dərə*** coğrafi termininin birləşməsindən əmələ gəlmişdir. Toponim «*süxurlarının rəngi qırmızımtıl olan dərə*», «*qızılı rəngli dərə*» mənasındadır.

Şərur rayonunun Qarahəsənli kəndi ərazisində də **Qızıldərə** oroniminə rast gəlirik...

## QIZILQAYA

Azərbaycan oronimiyasında işlədilən ***qızıl*** sözü ***qırmızı*** mənasını verir. Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə qeydə alınmış **Qızılqaya** coğrafi adının tərkibindəki ***qızıl*** sözü də *qırmızı* anlamını ifadə edir. Oronimin tərkibindəki ***qaya*** coğrafi termini müsbət relyef forması ifadə edir. Bu qayanın maksimal hündürlüyü 443 metrdir.

Qayanın süxurlarının rəngi *qırmızıya* çaldığı üçün oroqrafik obyekt belə ad almışdır. **Qızılqaya** toponimi «*qırmızı rəngli qaya*» mənasındadır. **Qızılqaya** toponiminə Ağdam, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Xocalı, Qazax, Qubadlı, Laçın, Ordubad, Şuşa, Tovuz, Zəngilan və digər rayon və şəhər ərazilərində də rast gəlinir...





## QIZILQIŞLAQ KƏNDİ

İndiki Xocavənd rayonunun ərazisində vaxtilə mövcud olmuş yaşayış məntəqələrindən biri **Qızılqışlaq kəndi** adlanırdı. Kəndin başqa bir adı ***Həkənur şenliyi*** olub. **1593**-cü ilə bağlı olan Osmanlı qaynağında ***Həkənur*** kəndinin adı çəkilmir. **1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi qaynaqda isə yazılır ki, **Həkənur** kəndində **8** qeyri-müsəlman ailəsi yaşayır. Kəndin gəlirir **6000** axçadır. Camaat əkinçiliklə məşğul olur. Dənli bitkilərdən buğda, arpa və pərinc əkilir. Baramaçılıqla da ilgilənənlər var...

Xanlıq dönəmində **Qızılqışlaq kəndi** xəzinə mülki idi. Mehdiqulu xan sonralar bu kəndi *Əsəd bəy Rüstəm bəy oğlu Sarıcalı-Cavanşirə* verdi.

**1823**-cü ilə aid olan sənəddə kəndin adı **Qızılqışlaq**, **1842**-ci ildə isə **Həkəri** kimi yazılaraq mötərizədə **Qızılqışlaq** kimi qeyd olunmuşdur. **1851**-ci ilə aid olan qaynaqda kənddə Mirzə Camal bəyin də torpağı olduğu göstərilmişdir...

## QIZILTƏPƏ

**Qızıltəpə** oronimi Xocavənd rayonu ərazisində, Tuğ kəndi yaxınlığında qeydə alınmışdır. Oronim **qızıl** və **təpə** sözlərindən ibarətdir. Toponim «*qırmızı təpə*» mənasındadır. Doğrudan da, təpənin süxurlarının rəngi qırmızıya çalan, **qızılı** rəngdədir. Toponimin tərkibindəki **qızıl** sözü «*qırmızı*» anlamındadır. Bəzi yerli məlumatlara görə vaxtilə bu təpədə **qızıl** basdırıldığı üçün o, belə adlandırılmışdır...

Təpə – yamacları az meylli, zirvəsi girdə və ya oval şəkilli, nisbi hündürlüyü 200 metrə qədər olan müsbət relyef formasıdır. Bəzən təpələrin ətəkləri ətraf sahələrdən az seçilir. Çox zaman qədim tikili qalıqları və mədəni təbəqələrlə örtülmüş 30-40 metr hündürlüyü olan yüksəkliyə də *təpə* deyirlər.

*Qızıltəpədə* arxeoloji qazıntı işləri aparılmışdır. Buradan eramızdan əvvəl II əsrə, eləcə də, sonrakı əsrlərə aid küp qəbirlər tapılaraq aşkar olunmuş və tədqiq edilmişdir. **Qızıltəpədən** müxtəlif dövrlərə aid bəzək əşyaları, gil qabları və s. də tapılmışdır.

Azərbaycanın Qaradağ, Qubadlı, Qusar, Zəngilan, İmişli, Füzuli, Kəlbəcər, Gədəbəy, Goranboy, Laçın, Şəki, Şəmkir, Şuşa, Ucar və s. rayonlarında da ***Qızıltəpə*** oronimino rast gəlirik...

## QİŞİ KƏNDİ
(Bax: **Kiş kəndi**)

## QOBU YAMACI

Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Qobu yamacı** adlanır. Oronim ***qobu*** və ***yamac*** sözlərindən ibarətdir. **Qobu** termini mənfi relyef forması ifadə edir. Bu terminin dialektlərimizdə ***qobı, kobı, qovu, qobi, kovu*** tələffüz formaları var. **Qobu** komponenti dilimizdə «*dərə*», «*çökəklik*», «*su basan yer*», «*quru dərə*», «*susuz çay dərəsi*», «*dərin arx*» və s. mənalarda işlədilir.





Bəzi araşdırıcılara görə, **Qobu yamacı** oronimi XIII əsrdə Orta Asiyadan monqolların tərkibində Azərbaycana gəlmiş türk tayfasının adı ilə bağlıdır. Ümumiyyətlə, tədqiqatçılar ***qobu*** terminini monqol əsilli söz hesab edirlər. Bu terminin iştirakı ilə Azərbaycan oronimiyasında **900** coğrafi ad qeydə alınmışdır...

Dağın və ya təpənin ətəyindən zirvəsinədək olan hissəsinə ***yamac*** deyilir. Adının tərkibində ***yamac*** termini iştirak edən oronimlərin sayı Azərbaycanda **1000**-dən çoxdur...

## QOCABAĞ

Axullu kəndi ərazisində, kənddən 1 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri **Qocabağ** adlandırılmışdır. Bağın yerləşdiyi ərazidə çoxlu sayda müxtəlif meyvə ağacları vardır. Bağın **Qocabağ** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bəziləri oronimin mənasını bu bağın çoxdan salınması, çox-çox əvvəllərdən mövcud olması ilə əlaqələndirirlər...

## QOÇ GƏDİYİ, QOÇ YALI

Qoyunçuluq sahəsinin inkişaf etdiyi rayonların ərazisində **qoç**, **qoyun** sözləri ilə düzəlmiş oronimlər çoxdur. Bunlardan biri də Xocavənd rayonunun Salakətin kəndi ərazisində qeydə alınmış **Qoç gədiyi** və ya **Qoç yalı** oroqrafik obyektidir. **Qoç** – damazlıq keyfiyyətlərinə görə qoyunların törədicisidir. **Gədik** – «*dağ belində aşırım*», «hündür dağarası yol» mənasındadır. Bu söz türk dillərində «*dağ keçidi*» anlamını ifadə edir. ***Gədik*** və **yal**

coğrafi terminləri müsbət relyef forması bildirir; «i» və ya «ı» şəkilçiləri mənsubiyyət ifadə edir. Toponim *«qoç olan gədik»* və ya *«qoç olan yal»* mənasındadır.

Daşkəsən rayonunun Quytul və Kəlbəcər rayonunun Mozkənd kəndləri ərazisində də **Qoç gədiyi**, **Qoç yalı** oronimi qeydə alınmışdır...

## QOÇBƏYLİ KƏNDİ

**Qoçbəyli kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 43 kilometr cənubda, Qarabağ silsiləsi ətəyində yerləşir. Əhalisi heyvandarlıq, üzümçülük, taxılçılıq, baramaçılıq və bostançılıqla məşğul olur. 1727-ci ilə aid *«Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»* adlı tarixi mənbədə kəndin adı **Köşbək** kimi çəkilmişdir.

Yaşayış məntəqəsinin qədim adı **Qoçbək** (***Köçbək***) olub. Ermənilər onun adını **Qoçbek** kimi rəsmiləşdirmişlər. **Qoçbəy** – bu yaşayış məntəqəsinin əsasını qoymuş şəxsin adıdır. Oykonimin tərkibindəki **–li** şəkilçisi mənsubluq ifadə edir. 1992-ci ildə kəndin adı dəyişdirilərək **Qoçbəyli** adlandırılmışdır.

**Köçbək** toponimini bəzi araşdırıcılar *«köç yeri»*, *«müvəqqəti yurd yeri»* kimi mənalandırır. ***Qoç/kuç*** tayfalarını *təkəlilər* və *qıpçaqlarla* da bağlayanlar var. Orta əsr qaynaqlarında ***qoç (kuç)*** qəbilə adına da rast gəlirik. Belə bir fikir də yürütmək olar ki, **Qoçbəy** toponimi ***qoç*** etnonimindən və ***bəy*** titul bildirən apelyativindən ibarətdir. Bu etnonim *«qoç qəbiləsi adamı»* mənasındadır.

Qubadlı rayonu ərazisində **Qoçdərə**, Yuxarı Qarabağda **Qoçaqod**, Qərbi Azərbaycanda *(Ermənistanda)* **Qoçbəy**, İranda **Koş** və s. bu kimi oykonimlərə də rast gəlirik.





## QORQALI DƏRƏ

Qaradağlı kəndindən bir qədər aralıda qeydə alınmış oroqrafik obyektlərdən biri **Qorqalı dərə** adlanır. Oronim **qorqa** (***qovurqa***) sözündən, **-lı** ifadə edən şəkilçidən və **dərə** mənfi relyef forması bildirən coğrafi termindən ibarətdir. Bu bərəkətli torpaqda əkilən taxıl bol məhsul verdiyindən toponim belə ad almışdır.

## QOŞA BULAQ

**Qoşa bulaq** hidronimi Xocavənd rayonu ərazisində qeydə alınmış coğrafi adlardandır. Bu bulağın çox soyuq və şəffaf suyu var. Hidronim **qoşa** və **bulaq** sözlərindən ibarətdir. **Bulaq** apelyativi ilə bağlı Azərbaycanda yüzlərlə hidronim qeydə alınıb. Toponimin tərkibindəki **qoşa** sözü həmin bulaqla yanaşı, ərazidə digər bulağın da olmasını ifadə edir.

## QOŞADƏRƏ

Sayına gör ad verilən oronimlər çoxdur. Tərkibində **qoşa** termini olan oroqrafik obyektlər də az deyildir. Xocavənd rayonunun Tağaser kəndi ərazisində qeydə alınmış **Qoşadərə** oronimi də bu tipli coğrafi adlardandır. **Qoşadərə** toponimi say bildirən **qoşa** sözündən və mənfi relyef forması ifadə edən **dərə** terminindən ibarətdir. Toponim *«yanaşı iki dərə»* mənasındadır.

Goranboy rayonunun Tap kəndi, Kəlbəcər rayonunun Göydərə kəndi, Yardımlı rayonunun Havalar kəndi, Zəngilan rayonunun İçəri Muşlan və digər ərazilərdə də **Qoşadərə** oronimi qeydə alınıb...

## QOŞAGİRMƏ DAGI

Dağlıq Qarabağ ərazisində, Xocavənd rayonunda qeydə alınan oronimlərdən biri **Qoşagirmə dağı** adlanır. Quruluşca mürəkkəb oronim olan **Qoşagirmə** toponimi **qoşa** və **girmə** sözlərinin birləşməsindən əmələ gəlmişdir. **Girmə** sözü dilimizdə «*dar*», «*daralmış*», «*sıx*» mənalarını ifadə edir. Çox güman ki, dağın sıldırım qayalarının arası sıx olduğundan və o yerlərdən keçməyin çətinliyindən ona belə ad verilmişdir. **Dağ** coğrafi termini müsbət relyef forması bildirir...

## QOTUR BULAQ

Rayon ərazisində, Tuğ kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri **Qotur bulaq** adlanır. Bu bulağın suyunun müalicəvi əhəmiyyəti var. Bulağın suyu bəzi xəstəliklər, o cümlədən, ***qoturluq*** xəstəliyi üçün yararlı olduğu üçün el arasında bu **bulaq** belə adlandırılmışdır...

Türk dillərində **qotur** sözünün "*dalğavarı yüksəklik*" mənası da var. **Qotur** sözü ilə bağlı Azərbaycanda onlarla toponim meydana gəlib...

## QOZLU BULAQ

Qaradağlı kəndinin təxminən 6 kilometrliyində qeydə alınan hidronimlərdən biri **Qozlu bulaq** adlanır. Bu **bulaq** onun yaxınlığındakı **qoz** bitkisinin adı ilə əlaqədar olaraq belə ad almışdır. Bulağın kənarında çoxlu sayda **qoz** ağacları vardır. Hidronmin tərkibindəki **–lu** şəkilçisi mənsubluq ifadəedir.





Bu tipli toponimlərə Azərbacanın bir çox ərazilərində də rast gəlirik. Füzuli rayonu ərazisində **Qozluçay, Qozlu dərə**, Şuşa rayonunun Xəlfəli və Şırlan kəndləri yaxınlığında **Qozlu yer**, Ağdam rayonunun Abdal-Sulablı yaşayış məntəqələri yaxınlığında **Qozlu** şəhər xarabalığı və s. toponimlər bu qisimdən olan coğrafi adlardandır. Vaxtilə İrəvan xanlığının Dərələyəz mahalında **Qozluca** adlı kənd də mövcud olmuşdur...

## QOZLUÇAY, QOZLUÇAY AŞIRIMI

Xocavənd və Füzuli rayonlarının ərazilərində qeydə alınan hidronimlərdən biri **Qozluçay** adlanır. O, Arazın sol qoludur. Güclü sel zamanı Qozluçayın suyu Araza çatır. Hidronim **qozlu** və **çay** sözlərindən ibarətdir.

Tərkibində **çay** termini olan hidronimləri əks etdirən oronimlər çoxdur. Hidronimik oronimlər müxtəlif su mənbələrinin adlarının əks etdirdiklərinə görə başqa növlərə nisbətən üstünlük təşkil edir. Xocavənd rayonu ərazisində qeydə alınmış **Qozluçay aşırımı** oroqrafik obyekti ***Qozluçay*** və ***aşırım*** sözlərindən ibarətdir. **Qozluçay** adı ***qoz*** və ***çay*** sözlərindən, **-lu** şəkilçisindən əmələ gəlib. Sahilində **qoz** bitkisi, **qoz** ağacları çox olduğundan hidronim **Qozluçay** adlandırılmışdır.

Səfəvi-Osmanlı müharibələri zamanı *Qozluçay* sahillərin də çoxlu qanlı döyüşlər baş vermişdir. **1604**-cü ildə Gəncə bəylərbəyi Davud Paşa **7.000** nəfərlik qoşunu ilə I Şah Abbas tərəfindən Qarabağa göndərilən Hüseyn xan Qacarı *Qozluçay* ətrafında məğlub edib onu geri çəkilməyə məcbur etmişdir.

**Qozluçay** vadisində çoxlu sayda qiymətli tarixi əhəmiyyət daşıyan maddi mədəniyyət abidələri aşkar olunmuşdur.

Şamaxı rayonu ərazisində də **Qozluçay çayı** var.

**Aşırım** – dağ massivində və ya silsilənin yalında keçid üçün əlverişli alçaq sahədir. Adətən dağ belindən aşmaq üçün istifadə edilən yola **aşırım** deyirlər...

## QULDUR DƏRƏSİ

Xocavənd rayonunun Muğanlı kəndindən 2 kilometr aralıda qeydə alınmış oroqrafik obyekt **Quldur dərəsi** adlanır. Oronim **quldur** sözündən, **dərə** mənfi relyef forması bildirən coğrafi terminindən və **–si** mənsubiyyət şəkilçisindən ibarətdir. Bu dərədə çoxlu sayda qanlı hadisələr baş verdiyindən, orada *qaçaq-quldur* dəstələrinin çox olmasından toponim belə ad almışdır...

## QURBAN KƏL KEÇƏN DƏRƏ

Əmirallar kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Qurban kəl keçən dərə** adlanır. **Dərə** – mənfi relyef forması bildirən coğrafi termindir. Bu termin relyefin uzunsov başlanğıcından qurtaracağına doğru meyillik forması bildirir. Azərbaycan dili ilə yanaşı türk, türkmən, özbək, tacik (*dora*) dillərində də **dərə** termini işlədilir. Azərbaycan oronimiyasında **dərə** sözü ilə əlaqədar **30 000**-dən çox coğrafi ad qeydə alınıb...

Yerli əhalinin verdiyi məlumata görə, Xocavənd rayonunun Əmirallar kəndinin yaxınlığında yerləşən **dərədən** vaxtilə ***qurbanlıq kəl keçdiyi*** üçün həmin **dərə** belə adlandırılmışdır...





## QURD DƏRƏSİ

Kurt kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri **Qurd dərəsi** adlanır. Oronim **qurd** və **dərə** sözlərindən və **–si** mənsubluq şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki **dərə** komponenti mənfi relyef forması bildirən coğrafi termindir. **Qurd** kultu türklərin etnik yaddaşında dərin iz qoyub. Əski türk inamına görə, yuxuda və gerçəkdə **qurd** görmək uğurlu əlamət sayılırdı. **Qurd dərəsi** toponimi «*qurd olan dərə*» mənasındadır.

Laçın rayonunun Güləbird kəndi ərazisində də **Qurd dərəsi** oroniminə rast gəlirik...

## QURU DƏRƏ

Bir qrup oronimlər var ki, onlara oradakı suyun rejiminə, yəni ilin yay aylarında suyunun qurumasına görə ad verilmişdir. Belə oroqrafik obyektlərin əksəriyyətinin adında ***quru*** sözü işlənir. Xocavənd rayonunun Mülküdərə kəndi ərazisində qeydə alınan **Quru dərə** oronimi də bu tipli coğrafi adlardandır. **Quru dərə** toponimi «*suyu quruyan dərə*» anlamındadır.

Goranboyun Gürzalılar, Gədəbəyin Kiçik Qaramurad, Göygölün Topal Həsənli, Xocalının Saruşen, Qazaxın Kəmərli, Qubadlının Padar, Kəlbəcərin Ağdaban, Laçının Minkənd, Ordubadın Parağaçay, Tovuzun Dönük Qırıqlı, Şəmkirin Əhmədli, Zəngilanın Kolluqışlaq

kəndləri ərazilərində də **Quru dərə** oronimi qeydə alınmışdır...

## QURU QOBU

Axullu kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Quru qobu** adlanır. Oronim **quru** və **qobu** sözlərindən ibarətdir. **Qobu** coğrafi termini oronimiyada mənfi relyef forması bildirir. Bu terminin dialektlərimizdə **qobu, kobı, kovu, qobi, qovu** kimi tələffüz formaları da vardır. Dilimizdə **qobu** termini *«dərə»*, *«çökəklik»*, *«su basan yer»*, *«susuz çay dərəsi»*, *«dərin arx»*, *«quru dərə»* və s. mənalarda işlədilir. Bəzi tədqiqatçılar **qobu** terminini qədim türk-monqol əsilli söz hesab edirlər. Azərbaycan oronimiyasında çöl materialları içərisində **qobu** termininin iştirakı ilə **900**-dən çox coğrafi ad qeydə alınmışdır. **Quru qobu** toponimi *«susuz, çökək sahə»* mənasındadır.

Əlavə məlumat üçün bax: **Ağ qobu**.

## QURUÇAY, QURUÇAY MƏDƏNİYYƏTİ

Füzuli və Xocavənd rayonlarında çay. Araz çayının sol qolu, uzunluğu **82** km, hövzəsinin sahəsi **512** kv. km-dir. Quruçay öz mənbəyini **2725** metr hündürlükdən – Böyük Kirs dağından götürür. Quruçay əsasən yağış suyu ilə qidalanır. Allı, İgah və İşxan çaylarının birləşməsindən əmələ gələn Quruçayın suyundan suvarmada geniş istifadə olunur. Yay aylarında çayın suyu azalır, bəzən də tamamilə ***quruyur***. Bəlkə də, bu səbəbdən çay belə adlanır...







İki milyon il bundan əvvəl **Quruçay** bəşər tarixində ilk ikiayaqlının yeriməsinin, bu canlının ayaq üstdə irəliləməsinin *"şahidi olub"*. Quruçayın sol sahilində yarımtüklü bədənləri tam çılpaq, qolları müasir insan qolundan uzun, çənəsi irəli çıxan, meymundan daha çox insana oxşayan ikiayaqlılar məskən salmışlar. Ölkəmizin ən qədim sakinləri (Azıx mağarası sakinləri - *N.Tapdıqoğlu*) yüz min illər bundan əvvəl *Quruçay vadisində* yaşamışlar.

Azıx paleolit düşərgəsinin 7-10-cu təbəqələrindən tapılmış arxeoloji tapıntıların mühüm elmi əhəmiyyəti vardır. Bu elmi materiallar Azıx paleolit düşərgəsində ibtidai insanların ilk məskunlaşdığını söyləməyə imkan verir. Aparılan kompleks elmi tədqiqatlar zamanı müəyyən edilmişdir ki, ibtidai insanların həyatında Azıx paleolit düşərgəsinin yaxınlığından axan Quruçayın mühüm rolu olmuşdur. Çünki, Qarabağın *Quruçay vadisi* ibtidai insanların əmək alətləri hazırlamaq, ovçuluq və yığıcılıqla məşğul olmaları üçün xammal mənbəyi olmuşdur. **Quruçay** dərəsində əmək alətləri hazırlamaq üçün kvars, kvarsit, bazalt, çaxmaq, felzit, yaşma və digər

çay daşları mövcud olmuşdur. Aparılan elmi tədqiqatlar zamanı məlum olmuşdur ki, **Quruçay vadisi** ibtidai insanların məskunlaşmaları üçün zəruri olan bütün təbii nemətlərə malik olmuşdur. Ona görə də ibtidai insanlar bu vadidə məskunlaşaraq çaydaşılarından əmək alətləri hazırlamış, özlərinin iqtisadi tələbatlarını ödəmək üçün ovçuluq və yığıcılıqla məşğul olmuşlar. Çoxtəbəqəli Azıx paleolit düşərgəsinin VII-X təbəqələrindən tapılmış daş məmulatlarının texniki-tipoloji xüsusiyyətləri, kobud çapma alətlərinin hazırlanma cəhətləri və dünyanın heç bir paleolit abidələrindən belə alətlər qeydə alınmadığı üçün düşərgənin ən aşağı təbəqələrindən tapılmış maddi mədəniyyət qalıqlarına **Quruçay arxeoloji mədəniyyəti** adı verilmişdir.

Azıx paleolit düşərgəsinin VII-X təbəqələrindən tapılmış daş məmulatının elmi tədqiqi ilə M.M.Hüseynov və Ə.Q.Cəfərov məşğul olmuşlar. Onların apardıqları elmi araşdırmalar zamanı Quruçay mədəniyyətinin bir neçə inkişaf mərhələsi müəyyən edilmişdir. Aparılan elmi tədqiqatlar zamanı məlum olmuşdur ki, Quruçay arxeoloji mədəniyyətinin ilkin inkişaf mərhələsində çaydaşılarından hazırlanmış əmək alətləri olduqca kobud və primitiv hazırlandığı halda, sonrakı inkişaf mərhələlərində isə əmək alətlərinin hazırlanma texnikası təkmilləşmiş və yeni əmək alətləri hazırlanaraq istifadə olunmuşdur. **Quruçay arxeoloji mədəniyyətinə** aid daş məmulatının elmi tədqiqi zamanı məlum olmuşdur ki, əmək alətlərinin əksəriyyəti mağara düşərgəsindən kənarda hazırlanmış və sonradan Azıx Paleolit düşərgəsinə gətirilmişdir. Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, bir əmək aləti hazırlanarkən 5-7 tullantı əmələ gəlir. Deməli, qədim Azıx düşərgəsinin sakinləri mağarada məskunlaşmamışdan əvvəl **Quruçay** vadisində yaşayıb fəaliyyət göstərmiş, burada çay daşlarından əmək alətləri hazırlamış və müəyyən dövrdən sonra Azıx düşərgəsində yaşamağa başlamışlar.





Çoxtəbəqəli Azıx paleolit düşərgəsinin X təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı tapılan daş məmulatları aşağıdakı tiplərə ayırmaq olar:

1. Kobud çapma alətləri – 3 ədəd.
2. Limaca bənzər alət – 1 ədəd.
3. Qaşov tipli alət – 3 ədəd.
4. Üzərində ikinci işlənmə izi olmayan qəlpələr – 3 ədəd.
5. İstehsal tullantıları – 4 ədəd.
6. Çaydaşıları – 3 ədəd.

Azıx düşərgəsinin X təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı 17 ədəd daş məmulatı tapılmışdır. X təbəqənin daş məmulatı düşərgədə və Quruçay sahillərində qədim insanların məskunlaşma tarixini müəyyən etməyə imkan verir. X təbəqənin daş məmulatının **Quruçay mədəniyyətinə** aid olması müəyyən olunmuşdur. X təbəqənin sakinləri əmək alətləri hazırlamaq üçün çaydaşılarının müəyyən hissəsini Quruçay dərəsindən toplayıb Azıx düşərgəsinə gətirmişlər.

Azıx paleolit düşərgəsinin IX təbəqəsində aparılmış arxeoloji qazntılar zamanı 90 ədəd daş məmulatı tapılmışdır ki, onları da aşağıdakı qruplara bölmək olar:

1. Kobud çapma alətləri – 8 ədəd.
2. Kubşəkilli alətlər – 5 ədəd.
3. Nüvəşəkilli alətlər – 5 ədəd.
4. Limasşəkilli alət – 1 ədəd.
5. Qaşov tipli alətlər – 18 ədəd.
6. Qəlpələr - 11 ədəd.
7. İstehsal tulantıları – 8 ədəd.
8. Çaydaşılar – 31 ədəd.
9. Gəzli alətlər – 3 ədəd.

IX təbəqədən aşkar olunmuş kobud çapma alətləri çaydaşılarından hazırlanmışdır və bunlar X təbəqənin kobud çapma alətlərindən daha mükəmməldir. IX təbəqənin daş məmulatları arasında qaşov tipli alətlər daha çox diqqəti cəlb edir. Qaşov tipli alətləri bir neçə qrupa ayırmaq olar ki, onların da içərisində bir və ya iki işlək ağıza malik olanlar çoxluq təşkil edir. IX təbəqədən tapılan qəlpələrin üzərində zərbə düyünü və zərbə səthi olduqca yaxşı saxlanmışdır. IX təbəqənin daş məmulatları içərisində ən çox təbii çaydaşıları qeydə alınmışdır. Düşərgənin IX təbəqəsindən tapılan çaydaşıların hamısı quru çaydan toplanmış və düşərgəyə gətirilmişdir.

Düşərgənin VIII təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı 60 ədəd daş məmulatı aşkar olunmuşdur ki, onları da aşağıdakı qruplara ayırmaq olar:

1. Kobud çapma alətləri – 8 ədəd.
2. Çoppinq-qiqantollit – 3 ədəd.
3. Nüvəşəkilli alətlər – 5 ədəd.
4. Qaşov tipli alətlər – 3 ədəd.
5. Qəlpələr – 9 ədəd.
6. İstehsal tullantıları – 11 ədəd.
7. Təbii çaydaşıları – 15 ədəd.
8. Kubşəkilli alətlər – 6 ədəd.

IX-X təbəqələrdən aşkar olunmuş kobud çapma alətlərinə nisbətən VIII təbəqənin həmin qrupuna aid olan alətlər daha mükəmməl hazırlanmışdır. VIII təbəqənin daş məmulatı içərisində 5 ədəd nüvəşəkilli alətlər qeydə alınmışdır ki, onların da əksəriyyəti çaydaşı üzərində hazırlanmışdır. Bu təbəqənin qaşov tipli alətləri kvarsit daşından hazırlanmışdır. Tipoloji cəhətdən onların içərisində bir işlək ağızlı və iki işlək ağızlı alətlər müəyyən olunmuşdur.





Azıx düşərgəsinin VII təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı 45 ədəd daş məmulatı tapılmışdır ki, onları da aşağıdakı qruplara ayırmaq olar:

1. Kobud çapma alətləri – 2 ədəd.
2. Çoppinq - iki tərəfdən işlənmiş kobud çapma alətləri– 2 ədəd.
3. Kubşəkilli alətlər – 2 ədəd.
4. Nüvəşəkilli alətlər – 8 ədəd.
5. Qaşov tipli alətlər – 4 ədəd.
6. Qəlpələr - 8 ədəd.
7. İstehsal tullantıları – 9 ədəd.
8. Təbii çaydaşı – 8 ədəd.

VII təbəqənin daş məmulatı düşərgənin Quruçay mədəniyyətinə aid ən sonuncu təbəqəsinin arxeoloji materialıdır. Bu təbəqədən aşkar olunmuş kub və nüvəşəkilli alətlər əsasən kvars və kvarsit daşlarından hazırlanmışdır. Həmin alətlərn bir hissəsi birüzlü, digər hissəsi isə ikiüzlü işlənmişdir. Buradan qeydə alınmış qaşov tipli alətlər bir neçə tipə bölünür. Onların içərisində sadə bir ağızlı, iki işlək ağızlı və gəzli qaşovlar müəyyən olunmuşdur. VII təbəqədən 8 ədəd təbii çaydaşı da qeydə alınmışdır ki, onların da üzərində qopuq izləri yoxdur. Onlar **Quruçay** sahillərindən toplanıb Azıx düşərgəsinə gətirilmişdir.

**Azıx** qədim insan düşərgəsində aparılan arxeoloji tədqiqat işlərində əvvəllər ancaq Azərbaycan alimləri iştirak edirdilərsə, sonralar onlarla birlikdə Moskva, Leninqrad və Fransanın mütəxəssisləri də iştirak etməyə başladılar. Abidədə elmi tədqiqat işləri aparan M.Hüseynov, Ə.Cəfərov, D.Hacıyev, Ə.Məmmədov, N.Şirinov, A.Veliçko, V.Hacıyev, S.Əliyev, M.Süleymanov və başqa

alimlərin işləri nəticəsində uzaq keçmişimizə aid zəngin elmi məlumatlar əldə edilmişdir.

Qədim insanların həyatında Azıx paleolit düşərgəsinin yaxınlığından axan Quruçayın mühüm fəaliyyəti olmuşdur. Çoxtəbəqəli qədim insan düşərgəsinin VII-X təbəqələrindən aşkar olunmuş Quruçay mədəniyyətinin əmək alətləri Şərqi Afrikanın **Olduvay mədəniyyəti** kompleksi ilə yaxınlıq təşkil edir.

Azıx düşərgəsində aparılan kompleks elmi tədqiqatlar nəticəsində Quruçay mədəniyyətinin **2-2,5** milyon il bundan qabaq başlayıb və **700 000** il əvvəllər sona çatması müəyyən edilmişdir. Ə.Q.Cəfərovun 2001-2003-cü illərdə Avropa alimləri ilə birlikdə apardığı elmi tədqiqatlar nəticəsində **Quruçay arxeoloji mədəniyyətinin 2,5 milyon** il bundan əvvəl başlanması və ibtidai insanların Azıx düşərgəsində həmin tarixdən məskunlaşması müəyyən edilmişdir. Arxeoloji mənbələr əsasında sübut olunmuşdur ki, Azərbaycan ərazisində ibtidai icma quruluşunun ilk mərhələsi **Quruçay arxeoloji mədəniyyəti** dövründən başlanmışdır. Aparılan kompleks tədqiqatlar zamanı aydın olmuşdur ki, ilk ibtidai insanlar əvvəlcə **Quruçay dərəsində** məskunlaşmış və müəyyən vaxt keçəndən sonra təbii coğrafi şəraitdən asılı olaraq **Azıx** mağarasına köçüb orada yaşamışlar.

Çoxtəbəqəli Azıx paleolit düşərgəsinin **Quruçay** mədəniyyətinə aid əmək alətlərinin elmi tədqiqi zamanı məlum olmuşdur ki, o dövrün ibtidai insanları **Homo-erektus** tipli adamlar olmuşlar. Azıx düşərgəsində qədim Aşel dövrünün ibtidai insanları ***pitikantrop, sinantrop*** və ***azıxantrop*** tipli adamlardan ibarət olmuşdur. Quruçay mədəniyyətinə aid olan maddi mədəniyyət qalıqlarının elmi tədqiqi zamanı müəyyən edilmiş maraqlı xüsusiyyətlərdən biri də əmək alətlərinin inkişafında baş verən





inkişafın izlənməsi ilə yanaşı, bu mədəniyyətə xas olan texniki-tipoloji ənənələrin sonrakı dövrlərdə saxlanmasının müşahidə edilməsidir. Əmək alətlərinin hazırlanmasında əsas texniki ənənələrin qalması göstərir ki, **Quruçay arxeoloji mədəniyyəti** burada inkişaf etmiş olan sonrakı mədəniyyətlərin əsasını təşkil etmişdir.

Aparılan kompleks elmi tədqiqatlar göstərir ki, Qafqaz və Yaxın Şərqdə **Quruçay arxeoloji mədəniyyəti** qədim paleolitin ən ilkin mədəniyyəti olmaqla yanaşı, onun özülünü təşkil edir. Tədqiqatlar göstərir ki, qədim paleolit dövründə ibtidai insanların çaydaşılarından hazırladıqları əmək alətləri olduqca bəsit və primitiv olmuşdur. Bu, ibtidai insanların inkişaf səviyyəsi ilə əlaqədar idi. Zaman keçdikcə ibtidai insanların hazırladıqları əmək alətləri təkmilləşdirilməyə başlamış və yeni-yeni çaydaşılarından hazırlanmış alətlər meydana gəlmişir. İbtidai insanların şüuru, təvəkkürü inkişaf etdikcə, bu inkişaf özünü əmək alətlərinin təkminləşdirilməsində göstərmişdir...

Azıxantropun məskəni Azıx mağarası ***Quruçayın*** sol sahilində yerləşdiyinə görə mağaradan aşkar edilən qədim daş dövrü nümunələrinin təhlilini tədqiqatçılar *"Quruçay mədəniyyəti"* adlandırırlar. Quruçay arxeoloji mədəniyyəti uzun bir tarixi dövrü əhatə edir. Yaxın Şərq və Qafqazda o, qədim paleolitin demək olar ki, özülünü təşkil edir.

XX əsrin 20-ci illərinin ortalarında görkəmli arxeoloq, etnoqraf alimimiz Ə.Ələkbərov yerli əhalinin həyat tərzini öyrənmək məqsədilə Quruçay vadisində tədqiqat işləri apararkən, ölkəmizin ərazisində ilk dəfə küp qəbirlərinə rast gəlmiş və bununla da əvvəllər mövcud olan ehtimalları xeyli dəqiqləşdirmişdir. **Quruçay dərəsi** bir tərəfdən Qarabağın dağətəyi ərazisi ilə, digər tərəfdən isə Mil düzü ilə əhatələnmişdir.




Quruçay mədəniyyəti. Azıx paleolit düşərgəsi. Əmək alətləri. X təbəqə





**Quruçay vadisi**, Azıx və Tağlar mağaraları yerləşən ərazidən ibtidai insanlar əmək alətləri hazırlamaq üçün xammal mənbəyi kimi istifadə etmişlər. Ölkəmiz ərazisində **Quruçay mədəniyyəti** ən qədim arxeoloji mədəniyyət hesab olunur. Tədqiqatlar nəticəsində Quruçay mədəniyyəti dövründə qədim insanların ovçuluq və yığıcılıqla məşğul olmaları müəyyən edilmişdir. Azərbaycan ərazisində bəşər tarixi *Quruçay mədəniyyəti* dövründən başlanır.

*Quruçay mədəniyyətinin* əmək alətləri Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. Aparılan kompleks elmi tədqiqatlar nəticəsində Quruçay mədəniyyətinin **1,2** milyon (*bəzən mənbələrdə 2-2,5 milyon il də göstərilir*) il bundan əvvəl başlayıb, **700** milyon il əvvəl sona çatması müəyyən edilmişdir.

Azıx mağarasının qədim və orta aşel mədəniyyətlərinə aid tapılmış arxeoloji materialları arxeoloqların, paleocoğrafiyaçıların, antropoloqların, paleontoloqların, paleogeomorfoloqların və geoloqların diqqətini özünə cəlb etmişdir. Onlar da məhz azixantrop ilə birlikdə məşğul olmuş və insanların formalaşdıqları dövrə aid zəngin elmi materiallar əldə etmişlər. Aparılan kompleks tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, ilk ibtidai insanlar əvvəlcə Quruçay dərəsində məskunlaşmış və müəyyən müddət keçəndən sonra təbii coğrafi şəraitlə əlaqədar Azıx mağarasına köçərək burada yaşamağa başlamışlar...

**Quruçay** hidronimi suyunun rejim xüsusiyyətlərinə görə adlandırılan toponimlərdəndir. **Quruçay** oroqrafik obyektinin adındakı *"quru"* sözü yayda *çayın qurumasına* işarə olaraq *"susuz çay"* mənasındadır.

İsmayıllı, Xaçmaz və Quba rayonlarının ərazilərində də **Quruçay** adlı çay vardır...

## QURUDƏRƏ DAĞI

Xocavənd rayonunun ərazisində qeydə alınan oronimlərdən biri **Qurudərə dağı** adlanır. **Dağ** müsbət relyef forması bildirən coğrafi termindir. Oronim dağın ətəyindəki **quru dərənin** adı ilə əlaqədardır. Azərbaycanda və digər türkdilli ölkələrdə tərkibində **quru** komponentli coğrafi ad olan çoxlu sayda toponimlərə rast gəlmək mümkündür.

**Qurudərə** coğrafi adına Azərbaycanın Ağdaş, Cəbrayıl, Əsgəran, Gədəbəy, Goranboy. Göygöl, Kəlbəcər, Laçın, Qazax, Qubadlı, Tovuz, Zəngilan və s. rayonlarında da rast gəlirik. Gədəbəy, Tovuz və Zəngilan rayonlarında **Qurudərə** adlı kəndə də var...

## QUŞÇULAR DAĞI

Xocavənd rayonunun Tyan kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biir **Quşçular dağı** adlanır. Bu oronim erkən orta əsrlərdə Azərbaycanda məskunlaşmış quşçu tayfasının adı ilə bağlıdır. Ümumiyyətlə, Azərbaycanda **quşçu** etnonimi ilə bağlı toponimələr ilk orta çağlarda ortaya çıxmışdır. XIX əsrdə Qafqazda **quş** komponenti ilə bağlı **38** toponim qeydə alınmışdır. Hazırda Azərbaycanda tərkibində **quşçu** etnonimi iştirak edən onlarla coğrafi ad mövcuddur.

**Dağ** coğrafi termini müsbət relyef forması bildirir.

## QUZEYÇARTAR KƏNDİ

**Quzeyçartar kəndi** Xocavənd rayonunda, Quzeyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən 11





kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olur.

Yerli məlumata görə, **Quzeyçartar** yaşayış məntəqəsini Şəmkir nahiyəsinin Çardaqlı (*indiki Çənlibel*) kəndindən köçüb gəlmiş ailələr salmışlar. Keçmiş tarixi sənəd və materiallarda yaşayış məntəqəsinin adı **Çartaz** formasında da yazılmışdır. Kəndin adındakı ***çartar*** komponenti haqqında müxtəlif fikir və mülahizələr var. Bəzi türk dillərində **çar** sözü «*üçurum*», «*yarğan*», «*sıldırım*» mənasında işlədilir. ***Tar/taz*** komponenti əski türk dillərində «*dağ*», «*daş*», «*dağətəyi*», «*yüksəklik*» alnlamını ifadə edir.

**Quzey** coğrafi termini «*həmişə kölgəli yer*», «*dağın, binanın və s.-nin günəş düşməyən tərəfi*», «*guneyin əksi*», «*şimal*» mənasındadır. Coğrafi adların tərkibində **quzey** terminınə tez-tez rast gəlmək olar. *Qaraquzey zirvəsi* (Böyük Qafqaz), *Quzeyxırman kəndi, Quzeyçartar kəndi* (Xocavənd rayonu), *Quzey kəndi* (Ağsu rayonu), *Quzeyçirkin kəndi* (Kəlbəcər rayonu) və s.

**Quzeyçartar** toponimi «*günəşin az düşdüyü sıldırımlı dağ*», «*şimaldakı dağ*» deməkdir. Tərkibində **quzey** termini iştirak edən coğrafi adların sayı respublikamızın ərazisində **2750**-dir.

Əlavə məlumat üçün bax: **Quzeyxırman kəndi.**

## QUZEYXIRMAN KƏNDİ

**Quzeyxırman kəndi** Xocavənd rayonunda, Güneyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən 13 km cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi üzümçülük, taxılçılıq, heyvandarlıq, baramaçılıq və

balıqçılıqla məşğul olur. Kənddə orta məktəb, klub, kitabxana, kinoqurğu və s. var.

**Quzeyxırman** toponiminin mənası «*şimal xırmanı*» deməkdir. **Quzeyxırman** oykonimi ***quzey*** və ***xırman*** sözlərindən ibarətdir. **Quzey** coğrafi termini «*günəş az düşən yer*», «*dağın və s.-nin günəş tutmayan tərəfi*», «*şimal*» mənasını bildirir. **Xırman** «*taxıl döymək, onu təmizləmək və qurutmaq üçün hazırlanmış düzən yer, meydança*» deməkdir. Azərbaycanda adının tərkibində ***xırman*** termini iştirak edən yaşayış məntəqələri çoxdur: **Xırmançıq, Quzeyxırman** (Xocavənd rayonu), **Xırmandalı** (Biləsuvar və Masallı rayonları), **Xırmanlar** (Laçın rayonu), **Xırmanqaynarbinə** (Zaqatala rayonu) və s.

**Quzeyxırman** toponimi «*quzeydə olan xırman*» mənasındadır. Bu yaşayış məntəqəsi yerləşdiyi coğrafi mövqeyə görə – *quzeydə* yerləşən ***xırman*** yerində salındığı üçün belə adlandırılmışdır. XIX əsrdə burada erməni ailələri məskunlaşdıqdan sonra kəndin adı dəyişdrilərək **Quzeyqaler** (yəni, ***Quzeyqışlaq***) şəklinə düşmüşdür. 1992-ci ildə kəndin əsl tarixi adı olan – **Quzeyxırman** bərpa edilərək özünə qaytarılmışdır...

## QUZEYQALER KƏNDİ
(Bax: **Quzeyxırman kəndi**)

## QUZUMKƏND KƏNDİ

**Quzumkənd kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 20 km cənub-qərbdə, Qarabağ silsiləsinin şimal-şərq ətəyində, səfalı təbiət qoynunda yerləşir. Əhalisi





əsasən əkinçilik, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olur. Kənddə orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi, kitabxana, rabitə şöbəsi və s. var.

XIX əsrin əvvəllərində müxtəlif ərazilərdən gəlmə erməni ailələri burada yerləşdirildikdən sonra yaşayış məntəqəsinin adı **Kert** kimi rəsmiləşdirildi. Ermənilərin mənimsədikləri ***kert*** sözü Hind-Avropa dillərində «*şəhər*», «*qala*», «*kənd*», «*tikili*» deməkdir. 1992-ci ildə kəndin keçmiş adı bərpa olunmuşdur. **Quzumkənd** oykonimi **quzum** («*payızlıq əkin yeri*») və **kənd** sözlərindən ibarət olub, «*payızlıq əkin yeri olan kənd*» mənasındadır.

**Quzumkənd** toponimi ilə bağlı müxtəlif fikir və mülahizələr də vardır...

## MAÇKALAŞEN KƏNDİ

**Maçkalaşen kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 21 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq, bostançılıqla məşğul olur.

Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr var. **Maç** sözünün əski türk dillərində «*sarmaşıq bitkilərin sarılması üçün yerə dikilən ağac*», «*cütçü*» mənası vardır. Bəzilərinə görə **Maçkalaşen** oykonimi «*cütçü kəndi*» deməkdir. Oykonimin tərkibindəki ***şen*** termini «*kənd*», «*yurd*» anlamı bildirir. Toponimin elmi şərhi hələlik tam dəqiqliklə izah olunmayıb...

1992-ci ildə yaşayış məntəqəsinin adı **Cütçü** kimi rəsmiləşmişdir...

## MANAS DƏRƏSİ

Qaradağlı kəndindən bir neçə kilometr aralıda qeydə alınan **Manas dərəsi** oronimi **Manas** sözündən, **dərə** coğrafi terminindən və **–si** mənsubluq bildirən şəkilçidən ibarətdir. **Dərə** mənfi relyef forması ifadə edən terminin iştirakı ilə Azərbaycanda çöl materilları içərisində **30.000**-dən çox coğrafi ad qeydə alınıb.

Məlumdur ki, qırgız torpağını yadelli işğalçılardan qoruyan, xalq mənafeyinin müdafiəçisi olan **Manas** adlı türk oğlunun şərəfinə qırğız-türk xalqı dünyada ən iri eposlardan biri, Qırğız şifahi xalq ədəbiyyatının zirvəsi sayılan *«Manas»* qəhrəmanlıq dastanını yaratmışdır. **Manas** sözü qədim türk şəxs adıdır. Toponim *«Manasa məxsus olan dərə»* anlamındadır.

## MARALTƏPƏ

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 5 km aralıda qeydə alınan zooronimlərdən biri **Maraltəpə** adlanır. Heyvan adı ilə gələn coğrafi adlardan bəhs edən sahəyə **Zootoponimika** deyilir.*Maraltəpə* coğrafi adı da zootoponimdir.

**Maraltəpə** oronimi **maral** və **təpə** sözlərindən ibarətdir. **Maral** cütdırnaqlılar dəstəsindən məməlilər fəsiləsinə aid olan quyruğu qısa,ayaqları hündür,adətən hər il buynuzunu dəyişən yaraşıqlı heyvandır. Azərbaycanda nəcib maral, Qafqaz maralı, xallı maral, cüyür geniş yayılmışdır. Maralların **40** növü əhatə edən **17** cinsi məlumdur. **Maraltəpə** toponimi vaxtilə bu təpədə çoxlu **maralların** olması ilə əlaqədar belə ad almışdır.





**Təpə** coğrafi termini müsbət relyef forması bildirir. Adətən,ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü 200m-dək olan yüksəkliyə **təpə** deyilir. Oronimiyamızda **təpə** termini ilə əlaqədar **4000**-dən çox coğrafi ad qeydə alınıb.

**Maral** heyvan adı ilə əlaqədar Azərbaycanda Qazax rayonunun ikinci Şıxlı kəndi yaxınlığında, Kəkildağın ətəyində Mustye dövünə aid qədim ***Maralh yaşayış yeri***, Göygöl (Xanlar) rayonu ərazisində, Murovdağ silsiləsinin şimal yamacında, Göygöldən cənubda yerləşən ***Maralgöl***, Ağcabədi rayon mərkəzinin 4 kilometrliyində ***Maraltəpə*** coğrafi adı və s. toponimlər qeydə alınmışdır.

## MARKUŞİN DAĞI

Yuxarı Qarabağda, Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Markuşin dağı** adlanır. **Dağ** coğrafi termini müsbət relyef forması bildirir. **Markuşin** oronimi türk dillərindəki **mar** və **keşin** sözlərinin birləşməsindən əmələ gəlmişdir. **Mar** sözü *«təpə»*, **keşin** (***kuşin***) termini isə *«düşərgə»*, *«dayanacaq»* deməkdir. **Markuşin** toponimi *«düşərgə, dayanacaq olan təpə»* mənasındadır.

## MARTUNİ RAYONU, QƏSƏBƏSİ

**Martuni rayonu** Azərbaycanda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində **1930**-cu ildə təşkil edilmişdir. **779** kvadrat kilometr sahəsi olan bu rayonun ərazisində **40** yaşayış məntəqəsi (**2** qəsəbə, **38** kənd) vardı...

Rayon ərazisi qərbdə Qarabağ silsiləsinin cənub-şərq qollarını təşkil edən alçaq dağlıq sahə və şərqdə Mil düzünün dağətəyi hissəsi ilə əhatələnmişdir. Hündürlüyü **100** metrdən **1000** metrə qədərdir. Səthi Yura və Tabaşirin vulkanagen – çökmə, Oliqosen və Antropogenin çökmə süxurlarından təşkil olunmuşdur.

Rayonun iqlimi çox yerdə yayı quraq keçən mülayim istidir. Orta temperatur yanvarda -1°S, iyulda 25°S-dir. illik yağıntı **400-500** mm-dir. Əsas çayları, Köndələnçay və Xonaşen Araz hövzələrinə aiddir. Rayon ərazisində şabalıdı və qəhvəyi dağ-meşə torpaqları geniş yayılmışdır. Yarımsəhra və quru çöl bitkiləri üstünlük təşkil edir. Ərazidə kolluqlar və enliyarpaqlı meşələr var. Meşələrin ümumi sahəsi **3,6** min hektardır. Heyvanları əsasən tülkü, çaqqal, dövşan, çölsiçanı, quşları isə kəklik, göyərçin və s.-dir.

İri yaşayış məntəqələri ***Martuni qəsəbəsi, Qırmızı Bazar qəsəbəsi, Güneyqaler, Qarakənd*** və ***Quzeyqaler*** kəndləridir. **Martuni rayonu** əsasən kənd təsərrüfatı rayonudur. İqtisadiyyatında üzümçülük, taxılçılıq, heyvandarlıq mühüm yer tutur. Əhalisi quşçuluq və baramaçılıqla da məşğul olur. Şərabçılıq da geniş inkişaf etmişdir.

Rayon ərazisində çoxlu sayda qədim tarixi əks etdirən memarlıq abidələri vardır. Onlara nümunə olaraq Hatek kəndindəki türbəni (yaşı dəqiq bilinmir), Martini qəsəbəsindəki XVII əsrə aid olan türbəni və başqalarını göstərmək olar.

**1960**-cı ildən **qəsəbə** statusu alan **Martuni** yaşayış məntəqəsi eyni adlı rayonun inzibati mərkəzi idi. **Martuni qəsəbəsi** Ağdam-Füzuli avtomobil yolu kənarında, Xonaşen çayının sahilində, dağətəyi düzənlikdə yerləşir. Yaşayış məntəqəsinin əvvəlki adı ***Xonaşen*** olub. Müxtəlif tarixi sənəd və materiallardan aydın olur ki, rayonun tarixi adı **Aşağı Qaranlıq** olub. Sadəcə olaraq ermənilər heç bir rəsmi sənəd olmadan, tələm-tələsik yaşayış yerinin öz tarixi adını **Martuni** adı ilə əvəzləyiblər. Beləcə milli qaynaqlarla bir-birinə bağlı olan **Aşağı Qaranlıq** və **Qaranlıq** kəndlərinin taleləri «*qaranlıq*» tarixi oykonimlər sırasına düşmüşdür...

**Martuni** adı **40** yaşında təyyarə qəzasında həlak olmuş sovet dövlət və partiya xadimi, erməni əsilli ədib Aleksandr Fyodoroviç Myasnikovun (Myasnikyanın) təxəllüsü olan **Martuni** sözü ilə əlaqədardır. A.F.Myasnikov (09.02.1886-22.03.1925) Belorusiya SSR MİK-nin sədri, Belorusiya K(b)P Mərkəzi bürosunun sədri, Qərb cəbhəsi siyasi idarəsinin rəisi, Ermənimtan SSR XKS-nin sədri və xalq hərbi işlər komissarı, ZSFSR İttifaq Sovetinin sədri, Rusiya K(b)P Zaqafqaziya Ölkə Komitəsinin birinci katibi və digər vəzifələrdə işləmişdir. SSRİ HİŞ-nin və SSRİ MİK Rəyasət Heyətinin üzvü olan A.F.Myasnikov Rusiya K(b)P-nın XII və XIII qurultaylarında MK üzvlüyünə namizəd seçilmişdir. **Martuni rayonu** və **Martuni qəsəbəsi** A.F.Myasnikovun **Martuni** adlı təxəllüsü ilə adlandırılmışdır.

***26 noyabr 1991***-ci il tarixli, 279-XII nömrəli Azərbaycan Respublikasının qanununa əsasən **DQMV** statusu ləğv edilərək **Martuni** və **Hadrut** rayonlarının bazaları əsasında **Xocavənd rayonu** yaradılmışdır, **Martuni qəsəbəsi** də **Xocavənd qəsəbəsi** adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Xocavənd rayonu** və **Xocavənd qəsəbəsi**.

## MAVAS KƏNDİ

**Mavas kəndi** Xocavənd rayonu ərazisində, Qırmızı Bazar inzibati ərazi vahidində, Köndələnçayın sahilində, dağətəyi ərazidə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

Türk dillərində mavas sözü «*mavi gözlü, sarışın*» mənasında işlənir. Oykonimin etnotoponm olması da da ehtimal olunur. Bu coğrafi adın elmi izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin hələlik dəqiq şərhi verilməyib. **Mavas** oykonimi mənası aydın olmayan coğrafi adlardandır...

## METSTAĞLAR KƏNDİ
## (Bax: Böyük Tağlar kəndi)

## MEHDİNİN BAĞI

Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Mehdinin bağı** adlanır. Bu bağda çoxlu sayda meyvə ağacları və kol bitkiləri vardır. **Bağ** onun yaradıcısı, qurucusu olan **Mehdi** adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toopnim «*Mehdiyə məxsus olan bağ*» mənasındadır. Bu tipli coğrafi adlara Azərbaycanın digər ərazilərində də rast gəlmək olar...

## MƏDƏ BULAĞI

Xocavənd rayonunun Qaradağlı kəndindən 6 kilometr aralıda, qeydə alınan hidronimlərdən biri **Mədə bulağı**





adlanır. Hidronim ***mədə*** sözündən və ***bulaq*** hidronimik vahidindən ibarətdir. Gözyaşı kimi dumduru, buz kimi soyuq suyu olan bu şəfa bulağına həkim məsləhəti ilə yaxın və uzaq ellərdən çoxlu adamlar gələrdi. Suyu **mədə** xəstəliyinin dərmanı olan bu *bulaq* neçə illərdir erməni əsarətində zillət çəkir...

## MƏDƏDKƏND

Xocavənd rayonunda qeydə alınmış oykonimlərdən biri **Mədədkənd** adlanır. Bu coğrafi ad **Mədəd** şəxs adından və **kənd** sözündən ibarətdir. Oykonim antroponim əsasında formalaşmış toponimdir. O, ***Mədəd*** antroponimi ilə ***kənd*** coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Bu tipli toponimlərə Azərbacyanın demək olar ki, bütün bölgələrində rast gəlmək mümkündür...

## MƏHƏRRƏMİN BAĞI

Axullu kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Məhərrəmin bağı** adlanır. Bu bağda çoxlu sayda müxtəlif meyvə ağacları vardı. **Bağ** el arasında onun yaradıcısı, sahibi olan **Məhərrəm** adlı bir şəxsin adı ilə adlandırılmışdır. Toponim «*Məhərrəmə məxsus olan bağ*» mənasındadır. Azərbaycan rayonları ərazisində bu tipli toponimlərə çox rast gəlmək olar.

## MƏLİKCANLI KƏNDİ

**Məlikcanlı kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 41 kilometr cənubda, Qarabağ silsiləsi ətəyində yerləşir. Əhalisi taxılçılıq, heyvandarlıq, üzümçülük, baramaçılıq və bostançılıqla məşğul olur.

Bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş ***məlikcanlı*** nəslinə mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. **Məlikcanlı** oykonimi antroponim əsasında formalaşan toponimdir. Maraqlıdır ki, **1727**-ci ilə aid olan *«Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»* adlanan tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri içərisində ***Məlikcan kəndi*** adı çəkilir, lakin orada heç kimin yaşamadığı da göstərilir...

## MƏMMƏD BULAĞI

Tuğ kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri **Məmməd bulağı** adlanır. Bu bulağın buz kimi soyuq, göz yaşı tək dumduru və bal kimi şirin suyu var. Bulağı **Məmməd** adlı şəxs təmir etdirdiyi üçün hidronim onun adı ilə də adlanmışdır. Toponim *«Məmmədə məxsus olan bulaq»* mənasındadır. Bu tipli toponimlərə digər rayonlarımızın ərazilərində də rast gəlirik.

## MƏMMƏDADZOR KƏNDİ

(Bax: **Məmməddərə kəndi**)





## MƏMMƏDDƏRƏ KƏNDİ

**Məmməddərə kəndi** Xocavənd rayonunda, Çirağuz inzibati ərazi vahidində, rayon mərkəzindən 42 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşir. Əhalisinin əsas məşğuliyyəti heyvandarlıq, əkinçilik, taxılçılıq, üzümçülük və tərəvəzçilikdir.

Yaşayış məntəqəsinin keçmiş adı **Məmmədkənd** (***Məmməddərə***) olub. XX əsrin əvvəllərində müxtəlif yerlərdən gəlmə erməni ailələri burada yerləşdirildikdən sonra kəndin adı onlar tərəfindən (onların təşəbbüsü ilə) dəyişdirilərək **Məmmədadzor** (*«**Məmməd dərəsi**»*) qoyulmuşdur. Erməni dilində ***dzor*** sözü *«dərə»* deməkdir, **«-a»** bitişdirici saitdir. **Məmmədadzor** adının özü də tərkibində Azərbacyan sözü olan oykonimdir, qarışıq toponimdir. Toponimin mənası *«Məmməd dərəsi»* deməkdir. **1992**-ci ildə kəndin **Məmməddərə** adı bərpa olunmuşdur. Toponim ***Məmməd*** (şəxs adı) və ***dərə*** sözlərindən ibarətdir. Bu tipli oronimlərə Azərbaycanın digər bölgələrində də rast gəlmək mümkündür.

**1727**-ci ilə aid *«Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»* adıl tarixi sənəddə yaşayış məntəqəsinin adı **Məhəmmədzur** kimi çəkilmişdir...

## MƏMMƏDİN BAĞI

Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Məmmədin bağı** adlanır. Toponim **Məmməd** şəxs adından, **bağ** sözündən və **–ın** şəkilçisindən ibarət olub *«Məmmədə məxsus olan bağ»* mənasındadır. **Məmməd** bu bağın qurucusu olan şəxsin adıdır. Bu bağda çoxlu sayda meyvə ağacları vardır...

## MƏNGƏLƏNATA DAĞI

Edilli kəndindən 5 kilometr aralıda, Xocavənd və Füzuli rayonlarının sərhədində qeydə alınan oronimlərdən biri **Məngələnata dağı** adlanır. Oronimin tərkibindəki **dağ** coğrafi termini müsbət relyef forması bildirir.

**Dağ** özünün ən hündür yerində indi də xarabalığı qalan orta əsr abidəsi **Mingələn** (***Məngələn***) ata adlı qəbirpirin adını daşıyır. "*Min*", "*Minq*" türkdilli tayfaları vaxtilə burada məskən salmışlar. Onların Azərbaycanda məskunlaşması Teymurləngin hücumları ilə əlaqələndirilir. ***Məngələnata dağı*** oronimi "*minq*" tayfasının adını bir tarixi abidə kimi yüz illərdir ki, qoruyub saxlayır.

Qədim bir əfsanəyə görə **Məngələn ata** tilsimli bir kişi imiş. Bir neçə yüz yaşı olan bu kişinin gözünün ağı-qarası bircə qızı varmış. Bir gün bərk susuzlayan ***Məngələn ata*** qızına deyir:

- Qızım, get bulaqdan mənə su gətir, yanıram, çalış tez gəl. Qızın başı rəfiqələri ilə bulaq başında bərk söhbətə qarışdığından gecikir. Susuzluğa dözə bilməyən kişi bulağa gəlir, qızını rəfiqələri ilə söhbət edən görüb hirslənərək ucadan ona deyir:

- Səni görüm daş olasan, qızım, niyə gəlmirsən? Bilmirsən ki, susuzam?

Atanın bu qarğışından sonra qız elə o dəqiqə çiynində cürdək böyük daşa dönür...

## MƏNSUR YALI

Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş müsbət relyef formaları mühüm yer tutur. Bu oronimlərin əksəriyyəti mikrooronimlərdir. Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında qeyd alınmış oroqrafik obyektlərdən biri **Mənsur yalı** adlanır. Bu antroponimik oronim **Mənsur** şəxs adı ilə bağlıdır. ***Yal*** coğrafi termini müsbət relyef forması bildirir, «**-ı**» mənsubiyyət şəkilçisidir. Toponim «*Mənsura məxsus olan yal*» anlamındadır. Bu tipli antroponimik oronimlərə Respublikamızın demək olar ki, bütün bölgələrində rast gəlmək mümkündür.





## MƏRƏÇÜYÜDLÜK

Salakətin kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Mərəçüyüdlük** adlanır. Bu oronim həmin ərazidə çox bitən **mərəçüyüd** bitkisinin adı ilə bağlıdır. El arasında buna **məröycə** də deyirlər. **Mərəçüyüd** – zanbaqçiçəklilər fəsiləsindən olan sıxbudaqlanan çoxillik ot, yarımkol və ya lianalardır. Bu bitki cinsinin başqa bir adı **qulançar**dır. Onun xırda çiçəkləri ayrıcinsiyyətli, meyvəsi qırmızı giləmeyvədir. Mərəcüyüdün **300**-dək növü var. Azərbaycanda onun **7** növü məlumdur. Ən əhəmiyyətli növü *dərman mərəçüyüdüdür*. Mərəçüyüdün bəzi növləri dekorativ bitkidir.

## MƏRƏKLƏR

Qarabağ ərazisində **mərək** inşasında qarğı, qamış, cil, civir, cəyən, lığ, daş və ağacdan istifadə edilərmiş. **Mərək** dördkünc formada 3,5-4 metr hündürlükdə, 4-5 metr enində, 10-15 metr uzunluğunda tikilərdi. Mərəyin divarı

qarğı və civirlə çitənər, çitəmənin başı qurşaqlanardı. Çöl tərəfindən 1,5-2 metrdən bir çitəmə hündürlükdə *pərdilər* basdırılıb çitəməni pərdilərə bağlayardılar. Belə mərəyin üstünün sürülməsi və döşənməsi küzlə eynidir. Adətən dağətəyi zonalarda **mərək** yerdən qazılardı.

Xocavənd rayonunun Tuğ, Günəşli, Xətai, Qaradağlı, Muğanlı kəndləri ərazilərində müxtəlif ölçülü **mərəklər** qeydə alınmışdır...

## MƏSCİD YERİ

Xocavənd rayonunun Axullu kəndi ərazisində, kənddən 3,5 kilometr aralıda. Körpüdən 100 metr sağda qeydə alınan coğrafi adlardan biri də **Məscid yeri**dir. **Məscid** sözü ərəb dilində «*ibadət etmək*», «*səcdə qılmaq*» anlamı ifadə edir. Müsəlmanların ibadət yeri olan **məscidlər** onlar üçün çox əziz hesab edilir. Rəvayətə görə ilk *məscid* Məhəmməd peyğəmbərin dövründə Mədinədə tikilmişdir. Sonralar Yaxın və Orta Şərqdə, Mərkəzi Asiyada, Azərbaycanda, Hindistanda, İspaniyada və s. ölkələrdə geniş yayılmışdır. Məkkədəki «*Məscidil-Həram*» («*Beyt-ül-Lah*» - «*Allahın evi*») müsəlman aləmində *ən müqəddəs Məscid* hesab olunur...

Axullu kəndinin ərazisindəki *yerdə* vaxtilə **məscid** inşa olunduğu üçün toponim el arasında **Məscid yeri** kimi ad almışdır. Buradakı **Məscid** yerli əhalinin dediklərinə görə 1959-cu ilə qədər mövcud olmuşdur. Bu məscidi kolxoz sədri erməni Aşot Kasparov sökdürmüş, yerində üzümlük saldırmışdır...





## MƏŞƏDİ BULAĞI

Axullu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Məşədi bulağı** adlanır. Hidronim **məşədi** və **bulaq** sözlərindən ibarətdir. **Məşədi** (*Məşhədi*) İranın *Məşhəd* şəhərində şiələrin 8-ci imamı İmam Rzanın qəbrini ziyarət edən şiə müsəlmanlarına verilən ad və ya tituldur. Kənddəki bu **bulağı** və onun suyunu təmir etdirib üzə çıxaran **Məşədi** titullu şəxs olduğu üçün hidronim belə adlandırılmışdır. **Bulaq** sözü hidronimik apelyativdir. *Məşədi bulağının* göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır

## MISMINA KƏNDİ
(Bax: **Ağbulaq kəndi)**

## MİNANIN BAĞI

Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Minanın bağı** adlanır. Oronim **Mina** şəxs adından, **bağ** sözündən və **–nun** şəkilçisindən ibarətdir. **Mina** bu bağın qurucusunun, onu yaradanın adıdır. Toponim «*Minaya məxsus bağ*» mənasındadır. Bu tipli coğrafi adlara Azərbaycanın demək olar ki, bütün rayonlarında rast gəlmək mümkündür...

## MİNƏNİN TUT BAĞI

Xocavənd rayonunun Qaradağlı kəndindən bir neçə kilometr kənarda qeydə alınan oroqrafik obyektlərdən

biri **Minənin tut bağı** adlanır. Oronim **Minə** şəxs adından, **tut** və **bağ** sözlərindən, eləcə də **–nin, -ı** şəkilçilərindən ibarətdir. Bu bağda çoxlu sayda müxtəlif növ ***tut*** ağacları var. Toponim *«Minəyə məxsus olan tut bağı»* mənasındadır. **Minənin tut bağı** mikrooronimi antroponimik oronimdir. Bu tip oronimlər mənsubiyyət bildirən sonluqla bitirlər. Azərbaycanda bu qəbildən olan antroponimik oronimlər yüzlərlədir...

## MİRİKƏND KƏNDİ

**Mirikənd kəndi** Xocavənd rayonunda, Mirikənd inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr qərbdə, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq, üzümçülük, baramaçılıq və bostançılıqla məşğul olur. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, avtomat telefon stansiyası və s. var.

Kəndin qədim adı **Takır** olub. XIX əsrdə Çar Rusiyası Azərbaycanın şimalını işğal etdikdən sonra burada gəlmə erməni ailələri yerləşdirilmişdir. Bundan sonra yaşayış məntəqəsi bir müddət ***Mirikənd*** adlandırılsa da, sonralar oykonim erməniləşdirilərək **Miruşen** formasına düşmüşdür. 1992-ci ildə kəndin keçmiş adı bərpa olunmuşdur. **Mirikənd** toponimi *«Mirinin kəndi»*, *«Miriyə məxsus kənd»* mənasındadır.

Şamaxı rayonunda da **Mirikənd kəndi** var...

## MİRUŞEN KƏNDİ
(Bax: **Mirikənd kəndi**)





## MİRZƏCAN DƏRƏSİ

Quzeyçarter kəndində qeydə alınan coğrafi adlardan biri **Mirzəcan dərəsi** adlanır. Oronim **Mirzəcan** şəxs adından, **dərə** sözündən və **–si** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. **Dərə** – mənfi relyef forması bildirən coğrafi termindir. **Mirzəcan dərəsi** toponimi *«Mirzəcana məxsus dərə»* mənasındadır...

## MOLLA DƏRƏSİ

Axullu kəndinin 2 kilometrliyində qeydə alınan oronimlərdən biri **Molla dərəsi** adlanır. Bu coğrafi ad **molla** dini titulundan, **dərə** sözündən və **–si** mənsubluq ifadə edən şəkilçidən ibarət olub, *«Mollaya mənsub olan dərə»* anlamındadır. **Dərə** coğrafi termini mənfi relyef forması ifadə edir. Azərbaycan ərazisində çöl materialları içərisində tərkibində **dərə** komponenti iştirak edən **30.000**-dən çox coğrafi ad qeydə alınıb...

## MOLLA NƏSRƏDDİN YOLU

Xocavənd rayonu ərazisindən keçərək Füzuli rayonu ilə Şuşa şəhərini birləşdirən avtomobil yolu el arasında **Molla Nəsrəddin yolu** adlanır. Füzuli şəhərindən Qacar və Qırmızı Bazardan keçməklə Şuşa şəhərinə qədər olan bu kəsə yolun uzunluğu **49** kilometr idi. Bu **yol** qısa olduğu üçün camaat onu **Molla Nəsrəddin yolu** adlandırmışdır. Yolun belə adlanması ilə bağlı müxtəlif rəvayətlər də uydurulmuşdur...

# MUĞANLI KƏNDİ

***Muğanlı kəndi*** Xocavənd rayonunda, Muğanlı inzibati ərazi vahidində, rayon mərkəzindən 7 km şimal-şərqdə, Qarqar çayının sahilində, Qarabağ düzündə yerləşir. Kəndin əhalisinin sayı 1000 nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq, baramaçılıq və pambıqçılıqla məşğul olur. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, Böyük Vətən müharibəsində həlak olmuş həmyerlilərin şərəfinə qoyulmuş abidə, stadion, ticarət obyektləri və s. vardır.

Kəndin ərazisində ***Alı təpəsi, Bəylik bulağı, Çobanuçan, Elçi daşı, Əppəklik, Çirişli, Xanhüseyn dərəsi, Kəmər qaya, Kərəm yeri, Qara qaya, Qəhrəman bulağı, Quldur dərəsi, Narlı dərə, Şah yolu, Şəfi yeri, Şorluca, Üzərlik dərə, Yaryurdu*** və s. coğrafi adlar qeydə alınmışdır.

***Muğanlı*** toponimi türk mənşəli **muğanlı** etnonimi əsasında əmələ gəlmişdir. *Muğanlı* etnotoponimi sadə quruluşlu etnotoponimdir. Gürcüstanın Bolnisi, Qardabani, Saqareco rayonlarında da *Muğanlı* adlı kəndlər var. Borçalıda ***Muğanlı düzü*** oroqrafik obyekti də qeydə alınıb. Vaxtilə İrəvan əyalətinin Karbi, Xınzirək, Dərələyəz, Ərmus nahiyələrində də **Muğanlı kəndi** adlı oykonimlər mövcud idi...

Mil-Muğan tərəkəmələri iki qola ayrılır.Birinci qola **təklələr** deyirlər. İkinci qol isə ***Muğanlı*** adlanır. Obaları oymaq-oymaq olan **təklələr** tirələrə bölünüblər.Bu tirələr, *bulutlu, talıbxanlı, boşçalar, hacılı, avdallar, xəlfəqulular, əlipənahlı, sarıxanlı, əliqulular, tarıqulular, budaqlı, ağamalılar, aşıqlı, muradxanlı* və *murtulu* adlanırlar.

***Muğanlılar*** da bir neçə tirədən ibarətdir. Bu tirələr *nurəhmədli, təmişli, allahmədətli, əxicanlı, bayramlı, təhmirazlı, oruclu, əliyetməzli* kimi tanınırlar.





Ötən çağlarda **təklə** və **muğanlı** obaları bir-birlərinə ayama qoşar, bir-birlərini cırnadardılar. Təklələr öz uşaqlarını ağırlayıb əzizləyəndə deyirlər:«Balama qurban muğanlı, sarımsaqlı, soğanlı...»; Muğanlılar isə öz övladlarını bu cür əzizləyirlər: «Balama qurban buludlu, şorşəpəkli, qurudlu...». «Balama qurban aşıqlı, əli çömçəli, qaşıqlı...». «Balama qurban hapıttı, öküz çülün çapıttı...». «Balama qurban murtulu, balam haçan qurtulu?..»

Yazılanlara görə, **təklə** oymaqlarına **öncələr təkəli** deyirmişlər. Qədimdən qoyunçuluqla bağlı olan oğuz oymaqları sürünün önünə ***təkə*** salarmışlar. Bu uruq da saxladıqları heyvanın adıyla çağrılmışlar. Oğuz ellərində dana-davar adı ilə bağlı oymaqlar çoxdu. Dəvəli, ağqoyunlu, qaraqoyunlu, keçili, danaçı, axtaçı adlı türk tayfaları var.

Orta çağda Anadoluda Təkə eli adlı bir vilayət varmış. ***Təkə vilayəti*** Məntəşa, Aydın, Sərxan, Həmid, Kermiyan və Ədəsya şəhərlərini birləşdirirdi. Bu vilayətdən çıxan tərəkəmələrə **təkəlilər** deyirmişlər. **Təkə** adlı başqa böyük bir oymaq Türkmənistan bozqırlarında yaşayırdı. Ünlü qızılbaş tayfa birliyinin bir qolu **təkəli** adlanırdı. Bu tayfadan çoxlu adlı-sanlı əmirlər çıxmışdır. Qızılbaş tayfa birliyinə qatılan ***təkəlilər*** türkmanlılarla birgə gün-güzəran keçirirdilər. Ona görə də bu birliyə qonşu oymaqlar **təkə-türkman** deyirdilər. Böyük türk bahadırı Koroğlu ***təkə-türkman*** tayfasından çıxmışdı. Qoç Koroğlu yağılarına hərbə-zorba gələndə deyirdi:

*Koroğluyam,Təkəli tək elim var,*
*Düşmən üstə uzun-uzun dilim var,*
*Gör dalımca neçə dəstə dəlim var,*
*Girmə mənim meydanıma, Ağaxan...*

***Təkə-türkman eli*** orta çağda Təbriz çevrəsində ömür-gün keçirdiyindən səfəvi şahları Azərbaycan bəylərbəyini bu eldən təyin edirdilər. Üləma Sultan Təkəli Təbriz hakimi olmuşdu. Sonra eldöndülük edib Osmanlı torpağına qaçmışdı. Orda paşa ünvanı alıb böyük bir orduya başçılıq etmişdi...

***Təkəli*** əmirlərindən Qazi xan da Osmanlı torpağına qaçmışdı. Amma orda duruş gətirməyib qızılbaş məmləkətinə qayıtdı. Şah Təhmasib Qazi xanı bağışlayıb uruq-turuqu ilə birlikdə Muğan düzündə yerləşdirdi...

Təkəlilərin Türkman elinin Mosullu oymağından olması ehtimalı da var. *Mosullu* oymağının adlı əmirlərinin (*Gülabi bəyin, Əmir bəyin, Məhəmmədəmin bəyin*) isimləri Təklə antroponimiyasında tez-tez təkrarlanır.

«***Tərəkəmə-tərə kəmə***» - yəni, «*ot- ələf yoxluğu*» ifadəsindən yaranıb. Qonar-köçər el olan tərəkəmələr yaz, yay, payız, qış otlaqlarında dana-davar hərlədiklərindən **ot-yaşıl** ardınca yer-yurdlarını tez-tez dəyişərmişlər... ***Tərəkəmə*** «*tərki məkan*» ifadəsindən törəyib, tez-tez örüş-otlaqlarını dəyişib başqa məkanı tutduqlarından bu ad əmələ gəlib. ***Tərəkəmə*** adını «***tərki-iman***» («*imanı tərk edənlər*») kimi yozanlar da var.

Dürlü qaynaqlarda yazılıb ki, türkmənlərə, ərəblərə cəm halda «***təraikəmə***» demişlər. Bu söz deyilişdə get-gedə ***tərəkəmə*** sözünə çevrilib.

**Təklə-tərəkəmə elləri** dalaşqan və döyüşkən camaatdırlar:

*Mən aşıq Təklədənəm,*
*Tək evli Təklədənəm.*
*Arasbar tərlanıyam,*
*Sonalar təklədənəm.*





**Təklə** obasının böyük oymaqlarından biri ***Aşıqlı*** adlanır. Aşıqlılar Mil düzündə qərar tutublar. Allahtanıyan abdəstli camaatdılar. Tərəkəmə elləri içində deyirlər: «*İbadətdə aşıqlı, səxavətdə murtulu*».

**Dəmirçihəsənli eli.** Qədim-qayım Qarabağda dövran keçirən ellərdən biri də Dəmirçihəsənlidir. Dəmirçihəsənli elinin əksər oymaqları Qarabağa XVIII yüzilin ikinci yarısında Gürcüstan ağzından gəlib. Gürcüstan ağzında yaşayarkən bir neçə oymaq, oba və camaatdan təşkil olmuşdu. 1728-ci ilə bağlı Osmanlı qaynağında el nahiyə kimi göstərilib və orada nahiyəyə bağlı şenliklərin adları, əhalisi verilib.

Dəmirçihəsənli nahiyəsinin oymaqları və pərakəndə camaatları: dəmirçihəsənli tayfasının qoluqaralı camaatı, yüzbaşı camaatı, yüzbaşı tayfasının arıxlı camaatı, yüzbaşı tayfasının saatlı camaatı, yüzbaşı tayfasının qaramanlıhəsən camaatı, kəpənəkçi tayfasının qaraçılar camaatı, sarvan camaatı, şərəfəddin camaatı, şərəfəddin tayfasının qaramanlı-vəli camaatı, dəmirçihəsənli tayfasına tabe olan dəmirçihəsənli camaatı, kəpənəkçi camaatı, ***muğanlı camaatı***, bayəhməd camaatı, sarı sabunçu camaatı, cığallı camaatı, yüzbaşı tayfasının qəmərli camaatı, əmirəhmədli camaatı, pirməhəmməd tayfası, keşalı camaatı, əmirhəsili tayfası, mustafaağalı camaatı, muğançı-məhəmməd camaatı, qərarza camaatı, siraclı camaatı, qacarlı camaatı, sofulu camaatı, nəzərli camaatı...

Pənahəli xan Sarıcalı-Cavanşir Gürcüstan ağzından Dəmirçihəsənli, Cinli ellərini, Borçalı, Baydar və Qazax nahiyələrindən bir çox oymaqları köçürüb Qarabağda yerləşdirdi. Onları Xonaşendən tutmuş, şərqdən Kür qırağına, cənub-şərqdən Araz çayına çatan ərazilərdə

yerləşdirdi. Bu ərazi az sonra **Dəmirçihəsənli mahalı** adlandı.

Qarabağda yerləşən ***Dəmirçihəsənli*** elinin əhalisi **təklə** adlanırdı. Bu ad Gürcüstanın Ağcaqala nahiyəsində qərar tutan **təkəli oymaqları** ilə bağlıydı. ***Təkəli*** oymaqlarından da bir neçə camaat Qarabağa köçürülmüşdü.

XIX yüzilin birinci yarısında Dəmirçihəsənli elinin oymaqları: I Təklə, II Təklə, III Təklə, Təklə-Qaradolaq, Təklə-Muğanlı, Təklə-Xalaç, Təklə-Kərbalayıəhmədli, Təklə-Məhəmmədəli yüzbaşı obası (Təklə-Zəkrəşin), Təklə-Allahverən yüzbaşı və Hacıəliyüzbaşılı, Saatlı, Yümürlü, Mamayı, Əskiparalı, Xanməhəmmədsərkarlı və başqaları. Elə yerli Avşar, Xocavənd, Vərəndəli, Şahsevən obaları da bu oymağa qatıldılar.

Dəmirçihəsənli elinin nümayəndələri xanlığın siyasi yaşamında mühüm rol oynamışdılar. Molla Pənah Vaqif İbrahimxəlil xanın öncə eşikağası, sonra baş vəziri olmuşdur. ***Təklə-Muğanlı*** obasından Cəmil ağa Manaf ağa oğlu xanın oğlu Əbülfət ağanın lələsi idi. ***Muğanlı*** obasından Məhəmmədqulu bəy Hacı Mustafa bəy oğlu İbrahimxəlil xanın saray ərkanları arasındaydı...

İbrahimxəlil xanın hakimiyyətinin son dönəmlərində, Mehdiqulu xanın ağalıq çağında Dəmirçihəsənli elinin minbaşısı, mahal naibi Əlimərdan bəy Məhəmmədəmin bəy oğlu Təklə olmuşdu. Əlimərdan bəy 1822-ci ildə Mehdiqulu xanla bərabər İrana qaçmışdı. Ondan sonra İmamqulu bəy Dərvişqulu bəy oğlu Qaradolaq elinə və mahala başçılıq etmişdi. Rus üsul-idarəsi dönəmində göstərdiyi xidmətə görə o, praporşik rütbəsi almışdı.

***İbrahimxəlil xanın dönəmində oba başçıları:*** Cahangir bəy Məmmədəmin bəy oğlu Təklə, Əmiralı bəy Əlimərdan bəy oğlu Təklə, Məmmədvəli bəy Əlimərdan bəy oğlu Təklə, Dərvişqulu bəy Məmmədqulu bəy oğlu Qaradolaq, Kərbəlayı Allahyar ağa Muğanlı, Qəmbər bəy Muğanlı, Qasım bəy Muğanlı, Xəlil bəy Xanıməli bəy oğlu Xalaç, Hacı Şərif bəy Abdulla bəy oğlu Mamaylı, Mürsəlqulu bəy Murtuzaqulu bəy oğlu Mamaylı və başqaları...





**Mehdiqulu xanın dönəmində oba başçıları:** Məmmədəli bəy Əmiralı bəy oğlu, Qəhrəman bəy Qasım bəy oğlu Təklə, Hacı Əli bəy Məmmədvəli bəy oğlu Təklə, Allahverən bəy Süleyman bəy oğlu Təklə, Əli bəy Cahangir bəy oğlu Təklə, İmamqulu bəy Dərvişqulu bəy oğlu Qaradolaq, Adıgözəl bəy Dərvişqulu bəy oğlu Qaradolaq, Vəli ağa Kərbəlayı Allahyar ağa oğlu Muğanlı, Məşədi Abbas bəy Qəmbər bəy oğlu Muğanlı, Məmmədəli bəy Muğanlı, Hüseyn bəy Muğanlı, Əlinağı bəy Xəlil bəy oğlu Xalaç, Kərim bəy Eyvaz bəy oğlu Xalaç, Rza yüzbaşı Əskiparalı, Niftalı yüzbaşı Əskiparalı, Hacı Məhəmməd bəy Hacı Şərif bəy oğlu Mamaylı, Cəfərqulu bəy Mürsəlqulu bəy oğlu Mamaylı və başqaları...

Rus üsul-idarəsi dönəmində Adıgözəl bəy Dərvişqulu bəy oğlu Qaradolaq Qarabağ atlı alayının 4-cü yüzlüyünün sultanı olmuşdu. Praporşik hərbi rütbəsi almışdı. Qarabağ atlı alayında Dəmirçihəsənli mahalından 4-cü yüzlükdə 40 süvari, 5-ci yüzlükdə 10 süvari xidmət edirdi. Məhəmmədəmin bəy Əlimərdan bəy oğlu Təklə və Abbas bəy Qəmbər bəy oğlu Muğanlı 3-cü yüzlüyün vəkilləri idilər. Şahhüseyn bəy Ocaqverdi bəy oğlu Təklə kavaler idi. Bir çox döyüş ordenləri ilə təltif olunmuşdu.

Xanlıq dönəmində Dəmirçihəsənli mahalından bir neçə oba köçürülüb İyirmidörd mahalının ərazisində yerləşdirilmişdi. Bir neçə ailə də Şuşa şəhərində yaşayırdı. Mamaylı obası bütünlüklə şəhərə köçmüşdü. Əlimərdan

bəyin oğlu Potu bəy obası ilə köçüb Muğanda məskunlaşdı. Həmin oba hazırda Potubəyli adlanır.

Qarabağda Dəmirçihəsənli elinin əhalisinə **Tərəkəmələr** deyilir. Sonrakı dönəmdə ***Dəmirçihəsənli eli*** (*tərəkəmələr*) **6 camaat**dan (icmadan) ibarət idi. Bu camaatların ayrıntısı:

**Əmiralılar camaatı**: *eyvazalılar, tatalılar, imamverdilər, allahyarlı, əmiralılar, aşıqlı, savalanlı, mollabinnətli...*

**Təklə camaatı:** *talıbxanlı, boşçalar, budaqlı, bulutlu, hacılı, avdallar, xəlfəqulular, ağamollalar, əlipənahlı, sarıxanlı, əliqulular, tarıqulular, muradxanlı, murtulu.*

**Xalaç camaatı:** *bərəzlər, fərzəlilər, hüseynlər, aşqalılar, bəylik, körpəbəylik, dünyamalılar, hacıallılar, hacıqurbanlı, hacıpaşalar* (*hüseynlərin qolu*), *əhmədli, gödəkli* (*hacıqurbanlı qolu*).

**Çəmənli camaatı:** *birinci çəmənli, ikinci çəmənli.*

**Qaradolaq camaatı:** *mehrablı, şahsevənli, adıgözəlli, ismayılbəyli, cahangirli, qulamlı, cancanlı, atakişibəyli, səfəralılar.*

**Muğanlı camaatı**: *nurəhmədli, təmişli, allahmədətli, cəfərli, kürdlər, mollalar, məhəmmədli, əxicanlı, bayramlı, təhmirazlı, oruclu, əliyetməzli.*

***Təklə-Muğanlı oymağı*** Qarabağda qərar tutan Dəmirçihəsənli elinin bir qoludur. Təklə-Muğanlı camaatının XVIII yüzilin ortalarında Gürcüstan ağzındakı Dəmirçihəsənli nahiyəsindən gəldiyi haqqında da fərziyə var...

Hazırda Dəmirçihəsənli elinin əhalisi kənd biçimində Ağcabədi, Beyləqan, *Xocavənd* və İmişli bölgələrində yaşam sürürlər...

**Muğanlı** yaşayış məntəqələri əsasən *Muğan* düzündə yaşayan Türk- Azərbaycan tayfası olan **muğanlıların** adı ilə bağlı yaranmışdır. Araşdırmalardan da bəllidir ki, bu camaat çox qədim tarixə malikdir. **Muğanlı** tayfa adı kimi isə XVI yüzildən məlumdur. *Muğanlılar* İ.H.Herberin məlumatlarına görə, Araz çayı boyunca,**Muğan** düzündə yaşayırdılar ki,buna görə də belə adlanırmışlar. Bu tayfalar yaylaq-qışlaq maldarlığı ilə məşğul olurdular,onların qışlaqları Xəzərsahili zolaqda yerləşirdi, Araz çayı ətrafının düzən sahillərində olan otlaqlar isə Osmanlı zonasına daxil idi. Rusiya-Osmanlı sərhəd çəkilməsindən sonra şahsevən və muğanlıların böyük hissəsi osmanlı işğal zonasında qalmışdı. Osmanlı hökuməti onların tayfa hakimini-Səfiqulu xanı öz vəzifəsinə təsdiq etmiş,ancaq muğanlılar və şahsevənlər üzərinə vergilər qoymaqla onların narazılığına səbəb olmuşdu.

**Muğanlıların** bir qolu XVIII yüzilin ikinci yarısında şahsevənlərin tərkibində müstəqil tayfa kimi qeyd olunmuşdur. XIX yüzilin sonlarında Qarabağdakı *muğanlılar* **12** tirədən ibarət olmuşlar. Dəmirçihəsənli mahalı ləğv olduqdan sonra **muğanlılar** Şuşa qəzasının Kəbirli sahəsinə bağlandılar. Bir az sonra muğanlıların bir hissəsi qədim qışlaqlarında, Muğan düzündə məskunlaşdılar. Bu ərazi **Mustafaxanlı pristavlığı** adlandı. Pristavlıq da ləğv olunandan sonra ərazini Cavad qəzasına bağladılar...

Belə qənaətə gəlirik ki, ***Təklə-Muğanlı*** tayfası orta çağda Muğan düzündə yaşadığına görə, həmin düzün adı ilə tanınmışdır. Azərbaycandakı **Muğanlı** kəndlərinin adı muğanlılarla bağlıdır. Bir fikrə görə, hələ orta əsrlərdə Qarabağ düzlərində *muğanlı* tayfasının tirələrinə məxsus nəsillər yaşamışlar.

Azərbaycanın *Ağcabədi, Ağdam (2 kənd), Ağstafa, Bərdə, Xocavənd, Kürdəmir, Qubadlı, Şamaxı, Şərur, Zaqatala, Zəngilan (2 kənd)* rayonlarında **Muğanlı** adlı kəndlər var. Sabirabad rayonunda **Muğan Gəncəli**, Şərur

rayonunda **Muğancıq Mehrab** və **Muğancıq Müslüm** adlı kəndlər də vardır. Vaxtilə Qərbi Azərbaycanda - Karbi, Xınzirək, Ərmus və Dərələyəz nahiyələrində **Muğanlı**, Eçmiədzin rayonunda **Muğan**, Zəngəzur qəzasında **Muğancıq** adlı kəndlər də mövcud olmuşdu...

Hazırda təkcə Şimali Azərbaycan ərazisində bu adda **17** kənd və qəsəbə vardır. Qərbi Azərbaycanda (Ermənistanda) **Muğan**, Gürcüstan ərazisində **Muğanlı** (Muğanlo), Tacikistanda ərazisində *Muğ qalası*, Özbəkistan ərazisində **Muğan, Muqon**, Türkiyədə **Moğancığ**, Cənubi Azərbaycanda *Muğan* və *Muğancuq* adlı yaşayış məntəqələri vardır. Lakin **Muğan**-Azərbaycanda tarixi ərazi və böyük bir düzün adı kimi daha çox məşhurdur.

Azərbaycanda vaxtilə *Muğan* adlı şəhər də mövcud olmuşdur. Tarixi ədəbiyyatlarda **Muq/muğ** etnonimini, **Muğan** oykonimi və oronimini hələ miladdan qabaq IV əsrdə yaşamış Hekatey Miletli və yenə miladdan öncə VI yüzillikdə yaşamış Herodotun qeyd etdikləri **muk/muğlar** soyunun adı ilə bağlayırlar.

Məlumdur ki, mənbələrdə **393**-cü ildən ***Muğan düzü***nün də adı çəkilmişdir. IX əsr ərəb müəllifi İbn-Xordadbeh Xəzər dənizi sahilində, Dərbəndlə Ərdəbil arasında ***Muğan*** şəhərinin adını çəkib. Bir sıra digər mənbələrdə də XI-XIII yüzillərdə **Muğan** adlı şəhərin olması göstərilmişdir. Ümumiyyətlə, orta əsrlərdə tarixi hadisələrlə əlaqədar **muğanlılar** müxtəlif ərazilərə səpələnmişlər. XVIII-XIX yüzillərdə **muğanlı** adlı böyük bir oymaq Qazax-Borçalı bölgəsində də yaşamışdır. Gürcüstandakı *Yor-Muğanlı* (Saqareceo rayonu), *Taş-Muğanlı, Kirəc-Muğanlı* (Marneuli rayonu), *Muğanlı* (Qardabani və Bolnisi rayonları) kəndləri, Tiflis əyalətindəki Ağcaqala və Dəmirçihəsənli nahiyələrində yaşayan ***muğanlı camaatı***,





Borçalı bölgəsindəki ***Muğanlı qışlağı, Muğanlı düzü*** toponimləri də **muğanlı** tayfasının adı ilə bağlıdır.

Hekati Miletski və Herodot **muk/muğ** tayfasının adını onun yaşadığı ərazi ilə birlikdə çəkir. Elmi ədəbiyyatda bu barədə müxtəlif fikirlər söylənmişdir.

B.A.Nikonov «*Muğan*» toponiminin əsasını «***muğ***» (*atəşpərəst*) sözü ilə bağlayır. S.Karayev də Özbəkistandakı **Muğan** və **Muğat** yaşayış məntəqəsi adlarındakı «***muğ***» komponentini «*atəşpərəst*» mənasında izah edir. Tədqiqatçıların bəziləri **Muğan** toponimini şəxs adı,daha doğrusu, VI əsr Hun sərkərdəsi *Muqan* xanın adı ilə əlaqələndirirlər. Məncə bu fikir dəqiq deyildir. Çünki Muğan xanın yaşadığı dövrdən düz min il əvvəl (eradan əvvəl VI əsrdə) *Muğ/Muk* tayfasının adı antik mənbədə çəkilir.

Əksər araşdırıcıların fikrincə, Oğuz elinin bir qolu olan ***Muğ/Muk*** və İran dilində cəm göstəricisi **-an** («*yer*») sonluğunun birləşməsindən **Muğan** toponimi və adonimi yaranmışdır. Bu şəkilçinin türk dillərinə məxsus olduğunu yuxarıda qeyd etmişdik. **Muğanlı** toponiminin tərkibindəki **–lı** məxsusluq bildirən şəkilçidir. Deməli, **Muğanlı** toponimi «*muğ tayfalarının yaşadıqları yer*» anlamındadır.

Professor A.Qurbanov **Muğan** toponimindən və **Muğ** etnonimindən danışarkən onun türk mənşəli söz olması fikrini irəli sürür və «***Maq/Muq***» sözünün Azərbaycan dilində yaranmış derivatlarını qeyd edir. Müəllifə görə, dilimizdəki **mağar, muğam, müğənni** sözləri **muq/müğ/mağ** komponentinin müxtəlif variantıdır. Bu deyilənlərdən belə bir nəticəyə gəlmək olur ki, **Muğan** Azərbaycan dilinin kökündə dayanan toponimdir və bir söz kimi iki hissədən ibarətdir.

**Muğan** sözü haqqında söhbət gedərkən ilk öncə onun **muğlar** vətəni olduğu göstərilir. Amma elmdə muğların kim olması hələ də demək olar ki, mübahisəlidir. Məlumdur ki, *muğlar* İranın şimalında yaşamış, ancaq İran dillərində danışmamışlar. Onların danışıq dilləri də bizə tam məlum deyil. Onlardan bizə yadigar yalnız etnik qruplarının adıdır.

**Muğal** ( və ya **Muğan**) adlı qədim türk tayfası da olub. Bu tayfa sonralar türk xalqlarının içərisində (əsasən özbəklərdə) əriyib – getmişdir. **Muğan** sözü iki hissədən ibarətdir. Sözün kökü **muğ** (və ya **mağ**) komponentidir. *Muğ* (*mağ*) sözü qədim türk yazılı abidələrində « *şöhrət*», «*fəxr*» anlamında işlədilib. Görünür, sonrakı dövrlərdə ərəb dilinə məxsus «*şöhrət*» sözü *maq/muğ* sözünü dildən çıxarmışdır. Maraqlıdır ki, Qafqaz xalqları, o cümlədən, ləzgilər azərbaycanlıları bəzən *moğol/muğal* adlandırırlar.

Tarixdən məlumdur ki, bəzi qədim türk bağaları (rəisləri) özlərinə titul götürmüşlər. Bu tipli titullardan biri **maq/muğ, muğan**dır. Məsələn: **552** -ci ildə Qara İssıq xanın qardaşı Qutu ***Muğan xan*** titulu ilə taxta çıxmışdır.

A.Fazili ***Muğan*** toponimi haqqında yazır: «*Azərbaycanın tərkib hissələrindən olan* ***Muğan*** *ta qədimdən aşağıdakı yerlərlə həmsərhəd olmuşdur: Şimaldan Şirvan və Aran, cənubdan Ucar, Üngüt və Ərəş mahalı, şərqdən Talış dağı və Xəzər dənizi, qərbdən Dərzərt çayı və Qarabağ mahalı*».

Antik müəlliflərin əsərlərində **Muğan** adına **Moxoena** (*Ammian Marselin*), ərəb mənbələrində *Muğan, Muqan*, gürcü mənbələrində **Müvakan** formalarında rast gəlirik.

Bəzi tədqiqatçılara görə, **Muğan** adı **Mükan** formasında olmuşdur. **Mükan** sözü *mük* etnonimindən, məkan və cəmlik ifadə edən **–an** şəkilçisindən ibarətdir. Oykonimi *maq* ünsürü ilə də bağlayanlar var. Ərəb müəllifləri hələ erkən orta çağlarda **Muğan şəhəri**nin varlığı haqqında yazmışlar. Məsələn: İbn Hardibəy Azərbaycan şəhərləri haqqında danışaraq Dərbəndə gedən yolun kənarında, Xəzər dənizinin sahilində ***Muğan*** *şəhəri*nin adını çəkir. Əl-Kufi əsərlərində **Muğan** adonim və oykonimi ilə yanaşı **Muğan** hidroniminin (çayının) də adını çəkir.





K.Əliyev **Muğan** etnotoponiminin *muğ* etnonimindən yarandığını qeyd edir, onu *myukan* paleotoponiminə aid edir. R.M.Yüzbaşov və N.Q.Məmmədov bu fikirlərlə nədənsə razılaşmırlar...

*Muğan* türk toponimidir. Çünki, indiki Muğan zonasında V əsrdən bəri hunlar yaşayıblar. Çox ola bilsin ki, onların bir hissəsi **Muq** və ya **Muğan** adlanmışdır. Bir qisim tədqiqatçılar belə hesab edirlər ki, ***Muğan*** Azərbaycan dilinin kökündə dayanan dilə aid toponimdir. Belə ki, **Muğan** etnonimi hunların tərkib hissəsi olmuş, IV-V əsrlərdə Azərbaycanın indi **Muğan** və **Mil** deyilən düzlərində məskunlaşmışlar. Orta əsrlərdə **muğanlılar** həqiqətən də **Muğan** çölünün ərazisində yaşamışlar. **1086**-cı ildə səlcuq Məlikşah bu zonaya çoxlu sayda türk köçürmüşdür. Hazırda Azərbaycanımızda **Muğanlı** adlı **14** kənd (*Ağdam-2, Ağcabədi, Ağstafa, Bərdə, Xocavənd, Kürdəmir, Qubadlı, Şamaxı, Şərur, Zaqatala, Zəngilan-2 rayonları*) vardır.

**Muğan** sözü «***Muq***» etnonimindən və **–an** topoformantından ibarətdir. «*Muqan*» leksik vahidi uzun müddətli tarixi prosesdə bir növ sadələşərək toponimik adların tərkibində müasir dövrə gəlib çıxmışdır. Zonanın ərazisindəki **Muğancıq** adlı toponim etnotoponimdir və *muq/muğ* etnosunun adı ilə bağlıdır. Qarabağdakı Dəmir-

çihəsənli mahalında XVIII yüzilin sonlarında, XIX yüzilin önlərində, **Muğanlı** adlı bir neçə oba vardı. Bunların biri *Birinci Muğanlı*, ikincisi *İkinci Muğanlı*, Üçüncüsü isə *Üçüncü Muğanlı* adlanırdı.

**Birinci Muğanlı** obasına Kərbəlayı Allahyar bəy və qardaşları Qəmbər bəy, Qasım bəy və Həsən bəy başçılıq edirdilər. **İkinci Muğanlı** obasına isə Məmmədəli bəy, Hüseyn bəy və başqaları rəhbərlik edirdilər. **Üçüncü Muğanlı** obası isə Məmmədqulu bəy Hacı Mustafa bəy oğlunun idarəsində idi. Tahir bəyin oğulları da obaya başçılıq edirdilər.

Təklə-Muğanlı obalarının birinə də *Cəmil ağa Manaf* oğlu başçılıq edirdi...

**Muğanlı** oykonimi **muğ** etnonimi əsasında formalaşmış etnotoponimdir. *Muğanlı* tayfa adı kimi XVI əsrin əvvəllərindən məlumdur. Mənbələrdə onlar şahsevənlərin tərkibində **300** ailədən ibarət müstəqil tayfa kimi qeyd olunmuşdur. M.Avdeyev bu tayfanın XX əsrin əvvəllərində **275** ailədən ibarət *musanlılar, əlicanlı, oruclu, təmişli, qarabayramlı, telemanlı, çilovxanlı, əliyerməzli, cəfərli, allahmədədli, mamışlı, təmrazlı, nurəhmədli* nəsillərindən ibarət olduğunu göstərmişdir. **Muğan** adına ərəb salnaməçisi Yaqub Həməvilin yazılarında da rast gəlirik.

Araşdırıcılar **muğan** sözünü ***muğ*** və ***an*** hissələrinə ayırırlar. **Muğ** qədim Oğuz elinin bir qolunun adıdır. Toponimin tərkibindəki **an** komponenti «*yer*» anlamındadır; -**lı** mənsubluq ifadə edən şəkilçidir. ***Muğanlı*** toponimi «*muğ tayfalarının yaşadıqları yer, məkan*» mənasındadır.

Miletli Hekatey (miladdan öncə IV yüzillikdə yaşayıb) yazılarında **muğ** (***muq, maq***) adını çəkmişdir. A.Bakıxanov göstərir ki, «**Muğanın – Muğan bin Asəf** adı ilə





təsmiyə olunması rəvayət edilir». M.A.Dandayev hesab edir ki, ***maq*** tayfa adıdır. Mənbələrdə ***muq/maq*** etnonim adına çox raft gəlirik. **293-cü** ilə aid *Payqulu* (İran) yazılarında **Muğan** toponimi ilə də rastlaşırıq.

Böyük Türk xaqanlığında (553-cü il) İlxan Butının ikinci oğlunun adı **Muğan** (***Kuşu***) olub. Erkən orta əsrlərdə hun türklərinin **Muğan** və **Arma Muğan** adlı titulları var idi. Hun şanyusu olan ***Muqan*** V əsrdə yaşamışdır...

İ.Şopen qazaxlı tayfaları içərisində ***muğanlı*** adını da çəkmişdir...

Sasanilər dönəmində Azərbaycanda tayfa ənənəsini saxlayan **Muğan şahı vilayəti** var idi. A.Şirakatsinin yazdığına görə Arsaxda **Muğan** adlı vilayət varmış. Əl-

XIX əsrdə Azərbacyanda olmuş fransız səyyahları Karney və Bron göstərirlər ki, Kür və Araz çayları *Muğan* ölkəsini Şirvandan ayırır...

**Muğanlı** toponimi türkdilli Azərbaycan tayfasından olan **muğanlıların** adı ilə əlaqədar yaranmışdır. Bəzi araşdırıcılara görə **muğanlı** tayfa adı kimi XVI əsrin əvvəllərindən məlumdur. Onun adı az sonra mənbələrdə *şahsevənlərin* tərkibində müstəqil tayfa kimi qeyd olunmuşdur. XIX əsrin əvvəllərində ***muğanlılar*** **8** tirədən ibarət olmuşlar. Bu tayfa vaxtilə **Muğan düzü** ərazilərində yaşadıqlarına görə həmin düzün adı ilə tanınmışdır. Comərdliyi, döyüşkənliyi ilə məşhur olan bu tayfa demək olar ki, şah ordusunun aparıcı qüvvələrindən biri hesab olunurdu.

Məlumatlara görə, indiki Xocavənd rayonunun **Muğanlı** kəndinin binə yerləri vaxtilə rayonunun Qarakənd kəndinin ərazisində mövcud olmuşdur. Bəzi sənədlərdə rast gəldiyimiz **Qarakənd Muğanlısı** ifadəsi də bunu təsdiq edir...

## MUXRANES DAĞI

Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Muxranes dağı** adlanır. **Dağ** sözü müsbət relyef forması ifadə edən coğrafi termindir. Dağın əsl adının ***Möhrədağ*** olması güman edilir. Görünür ermənilər bu adı təhrif edərək **Muxranes** şəklində rəsmiləşdirmişlər.

**Möhrə** sözü «*hövzə*», «*qab*» deməkdir. Çox güman ki, bu oronim dağın ərazisindəki su hövzələrinə görə belə ad almışdır...

## MURĞUZLU YALI

Axullu kəndindən 5 kilometr aralıda, Füzuli şəhəri ilə Axullu kəndi arasında, Qarabağ silsiləsinin ətəklərində qeydə alınan oronimlərdən biri **Murğuzlu yalı** adlanır. Bəzi ehtimallara görə yüksəkliyin adı ona görə belə adlanmışdır ki, həmin ərazidə taxıllar fəsiləsindən olan və sucaq yerdə bitən qarğıya bənzər **murğuz** bitkisi yayılıb...

**Yal** komponenti müsbət relyef forması bildirən coğrafi termindir. ***Yal*** təbii-coğrafi mövqeyə görə belə adlanmışdır. Qazax rayonunda ***Murğuzdağ***, Zaqatala rayonu ərazisində ***Murğuztala*** kəndi coğrafi adları da bu qəbildəndir.

Bəzi mülahizələrə görə isə "*murğuz*" sözü "*dərisi sarı və ya bur-nunun üstü ağ rəngli dağ keçisi*" deməkdir. Güman ki, **yal** orada vaxtilə təsadüf edilən dağ keçisinin (***murğuzun***) adını daşıyır.

Vaxtilə Gəncə quberniyasının Zəngəzur qəzasında (*indiki Sisyan rayonunda*) **Murquz** adlı kənd vardır...





## MUSA DƏRƏSİ

Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Musa dərəsi** adlanır. Oronim **Musa** şəxs adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və **–si** mənsubiyyət şəkilçisindən ibarətdir. **Musa dərəsi** toponimi «*Musaya məxsus olan dərə*» mənasındadır. Bu tipli toponimlərə Azərbaycanın müxtəlif bölgələrində də tez-tez rast gəlirik.

## MÜLKÜDƏRƏ KƏNDİ

**Mülküdərə kəndi** Xocavənd rayonunda, rayon mərkəzinən 15 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyin yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, bağçılıq, bostançılıq, üzümçülüklə məşğul olur.

Bu yaşayış məntəqəsi iki dağ arasında salınmışdır. Bəzi tədqiqatçılara görə **Mülküdərə** toponimi güman ki, keçmişdə kəndin yerləşdiyi **dərədə** çoxlu sayda **mülk** olduğu üçün belə adlar ışdır. Oykonim **mülk** və **dərə** sözlərindən ibarətdir. **Dərə** sözü mənfi relyef forması bildirən coğrafi termindir.

Oykonimi **Müll** adlı şəxsin adı ilə də əlaqələndirirlər. Bu anlamda **Mülküdərə** toponimi «*Mülkinin dərəsi*», «*Mülkiyə məxsus olan dərə*» mənasını ifadə edir...

## MÜŞKABAD KƏNDİ

**Müskabad kəndi** Xocavənd rayonunda, Kəndxurd inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr

cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi taxılçılıq, heyvandarlıq, üzümçülük, bağçılıq, bostançılıqla məşğul olur.

Tarixi sənəd və materiallara əsasən XIX əsrdə çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra bu yaşayış məntəqəsi ərazisində Türkiyənin **Muş** əyalətindən gələn erməni ailələri yerləşdirilmişdir. Oykonimin tərkibi **müşk** (fars dilində bitki və heyvan mənşəli, ətriyyatı sabitləşdirmə xassəsi olan xoş iyli maddə; adına bəzən ***mişk*** də deyirlər) və ***abad*** sözlərindən ibarətdir. Coğrafi adın tərkibindəki **müşk** sözü bəzi araşdırıcılara görə **Muş** sözündən təhrifdir. Oykonimin **Müşqapat**, **Muşqapat** variantlarına da tsadüf olunur. **Müşkabad** toponimi «*Muş kəndi*» mənasını daşıyır. Bəzi sənədlərdə kəndin adı **Müşkapat** kimi də yazılmışdır.

**Abad** komponenti Azərbaycan, eləcə də əksər türk xalqlarının toponim yaradıcılığında geniş arealda işlənən topoformantlardan biridr. Fars dilində **abad** sözü «*yaşayış üçün hər cür şəraiti olan*», «*müntzəm*», «*səliqəli*», «*yaxşı*», «*mədəni*», «*yaxşı vəziyyətdə olan*», «*yaxşı təchiz və təmin ollunmuş*», «*gözəl tərtibli*», «*çiçəklənən*», «*çiçək açan*» və s. anlamlarda işlədilir. Azərbaycan toponimiyasında tərkibində ***abad*** termininin iştirak etdiyi yüzlərlə coğrafi ad qeydə alınmışdır. Ümumiyyətlə, **abad (*abat*)** apelyativi fars mənşəli söz olsa da, türk xalqlarının toponimiyasında bu topoformant ilə əlaqədar minlərlə toponim yaranmışdır...

**Müskabad** oykonimi antroponimlə ***abad*** coğrafi termininin birləşməsindən əmələ gələn toponimdir. Bu tipli oykonimlərə Azərbaycanın digər bölgələrində, rayonlarında da rast gəlirik...

Əlavə məlumat üçün bax: **Anabat düzü**.





## MÜŞKABADÇAY

Xocavənd rayonunun ərazisində, Müşkabad kəndinin yaxınlığında qeydə alınan hidronim **Müskabadçay** adlanır. Mürəkkəb tərkibli toponim olan ***Müşkabadçay*** hidronimi yaxınlıqda yerləşən **Müşkabad** oykonimindən və **çay** komponentindən yaranmışdır. Hidronim «*Müşkabad kəndinin çayı*», «*Müşkabad kəndindən axan çay*» mənasını ifadə edir.

Əlavə məlumat üçün bax: **Müşkabad kəndi**.

## NAHİD TAPI

Qədim türk sözlərindən olan **tap** termini dilimizdə bir çox mənalarda («*dağətəyi düzənlik*», «*dağ üstündə düz*», «*terraslararası geniş düzənlik*», «*dağ ətəyində su çıxmayan yer*», «*su çıxmayan yer*», «*təpə*» və s.) işlədilir. Azərbaycan oronimiyasında **tap** termini ilə bağlı çoxlu sayda (**500**-dən artıq) oronimlər qeydə alınıb. Bunlardan biri də Xocavənd rayonunun Qarakənd kəndi ərazisində qeydə alınmış ***Nahid tapı*** coğrafi adıdır. Bu oroqrafik obyekt **Nahid** şəxs adından, **tap** komponentindən və «**i**» şəkilçisindən ibarətdir. Toponim «*Nahidə məxsus olan dağətəyi düzənlik*» mənasındadır. **Nahid tapı** toponimi antroponimik oronimdir.

## NARLI DƏRƏ

Xocavənd rayonu ərazisində, Muğanlı kəndinin 2 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri

**Narlı dərə** adlanır. Oronim **nar** ağacı adından, **-li** mənsubiyyət şəkilçisindən və **dərə** mənfi relyef forması bildirən coğrafi termindən ibarətdir. Həmin *dərədə* ***nar*** meyvə ağaclarının çoxluğu ilə əlaqədar olaraq toponim belə ad almışdır. Toponim «*nar bol olan dərə*» mənasındadır.

Adında ***nar*** sözü olan coğrafi adlara nümunə olaraq **Narlı dərə** (Ağdam, Ağcabədi, Cəbrayıl, Füzuli, Xocavənd, Goranboy, Qubadlı, Tovuz, Yevlax rayonları), **Narlı qobu** (Ağdam rayonu, Gülablı kəndi), **Narlı çökək** (Goranboy rayonu, Qaraxlar kəndi), **Narlı qaya, Narlı yal** (Zəngilan rayonu), **Narlı zirvə** (Qax rayonu), **Narlıq düzü** (Qobustan rayonu) və başqalarını göstərmək olar...

## NƏRGİZLİ BAĞ, NƏRGİZLİK

Xocavənd rayonunun Axullu kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Nərgizli bağ** və **Nərgizlik** adlanır. **Nərgizli bağ** coğrafi adı adından da göründüyü kimi, **nərgiz** və **bağ** sözlərindən ibarətdir; **-li** şəkilçisi mənsubiyyət bildirir. **Nərgiz** - nərgizçiçəklilər fəsiləsindən yarpağı xətvari, çiçəyi adətən açıq-sarı və ya ağ olan soğanaqlı bitki cinsidir. Bəzi növünün çiçəklərində çox ətirli efir yağı var. Həmin **bağ** sahəsində çoxlu nərgiz bitkisi olduğu üçün toponim belə ad almışdır.

## NƏRGİZTƏPƏ

Xocavənd rayon mərkəzindən 10 kilometr şərqdə, Kuropatkino kəndi yaxınlığında, Ağcabədi rayonu ilə Xocavənd rayonu sərhədi ərazisində qeydə alınmış qədim





yaşayış yeri **Nərgiztəpə** adlanır. Bu təpənin 1 hektardan çox sahəsi var. Nərgiztəpədən müxtəlif qədim tarixi dövrlərə aid maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Buradan tapılmış müxtəlif saxsı qabların,bəzək əşyalarının bir qismi *küp qəbirləri mədəniyyəti*, digər hissəsi isə *orta Tunc dövrü mədəniyyətini* (miladdan öncə II minilliyin I yarısı) əhatə edir. Nərgiztəpənin orta Tunc dövrü materialları içərisində boyalı və cilalı qablar **Uzərliktəpə** maddi mədəniyyət nümunələri ilə oxşarlıq təşkil edir. **Nərgiztəpə** tapıntıları müxtəlif tarixi dövrlərin maddi-mədəniyyət nümunələrinə məxsus xarakterik əlamətləri ilə Azərbaycanın digər bölgələrindən tapılmış nümunələrdən fərqlənir.

Yerli məlumata görə, «*Kitabi-Dədə Qorqud*» dastanında bəhs olunan hadisələrin bəzisi (Qaraca çobanın qıpçaq Şöylü Məliyin adamları ilə döyüşü, onun nələri isə sapanda qoyub atması) *Nərgiztəpə* yaxınlığında baş vermişdir...

**Nərgiztərə** oronimi ***nərgiz*** və ***təpə*** sözlərindən ibarətdir. **Nərgiz** – nərgizçiçəklilər fəsiləsindən yarpağı xətvarı, soğanaqlı bitki cinsidir. Azərbaycan ərazisində onun 1 yabanı, 3 becərilən növü məlumdur. Nərgizin (bəzən ona ***nərgizgülü*** də deyirlər) soğanağında alkaloidlər olur. Bu bitki cinsi əsasən park və bağlarda becərilir.

Oroqrafik obyektin adının tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması bildirir. Ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü **200** metrədək olan yüksəkliyə təpə deyilir. Azərbaycan oronimiyasında **təpə** termini ilə əlaqədar **4000**-dən çox coğrafi ad qeydə alınıb. Toponim həmin təpədə **nərgiz** bitkisinin olması ilə əlaqədar olaraq belə **Nərgiztəpə** («*nərgizgülü bitən təpə*») adlandırılmışdır.

## NİNKİ KƏNDİ
(Bax: **Cəmiyyət kəndi**)

## NOXUDLU BULAQ

Salakətin kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri **Noxudlu bulaq** adlanır. Hidronim **noxud** sözündən, **bulaq** hidronimik apelyativindən və **-lu** şəkilçisindən ibarətdir. *Bulaq* qaynayan yerdə **noxuda** bənzər çoxlu daş parçaları olduğu üçün yerli sakinlər bulağı **Noxudlu bulaq** adlandırmışlar. **Noxud** – paxlalılar fəsiləsindən olan birillik və ya çoxillik bitki cinsidir. Dünyada **27** növü olan noxudun **3** növü Azərbaycanda geniş yayılmışdır. Noxudun *P.sativum* növü Azərbaycanda daha çox becərilir...

## NORAŞEN KƏNDİ
(Bax: **Günəşli kəndi**)

## NOVLU BULAQ

Xocavənd rayonunun Qaradağlı kəndindən 5 kilometr aralıda qeydə alınmış hidronimlərdən biri **Novlu bulaq** adlanır. Hidronim **nov** və **bulaq** sözlərindən, eləcə də **-lu** şəkilçisindən ibarətdir. **Bulaq** sal daşın içərisində **nova** bənzəyən çıxıntı olduğu üçün beləcə – **Novlu bulaq** adlandırılmışdır.

Şuşa rayonunun Malıbəyli kəndi ərazisində də quberniyasının Şərur-Dərələyəz qəzasında **Novlu** adlı kənd də





mövcud olmuşdur. 1918-ci ildə ermənilər tərəfindən azərbaycanlı əhali buradan qovulduqdan sonra kənd dığalaraq yandırılmışdır...

## NURULAR DƏRƏSİ

Patronimik oronimlər müxtəlif tayfa və ya nəsillərin adlarını əks etdirən oroqrafik obyekt adlarıdır. Patronim dedikdə şəxs adlarından və ona qoşulan cəm, ya da mənsubiyyət bildirən şəkilçilərdən yaranmış nəsil və tirə adları nəzərdə tutulur. Adətən hər bir nəsil və ya tirə müəyyən ərazidə qışlayır və eyni ərazidə yayı keçirdiyinə görə onun yaşadığı ərazi də o adla bağlı adlandırılır. Xocavənd rayonunun Xocavənd yaşayış məntəqəsi ərazisində qeydə alınmış **Nurular dərəsi** coğrafi adı da patronimik oronimdir. Oronimin tərkibindəki **Nuru** şəxs adı, **-lar** cəmlik ifadə edən şəkilçi, **dərə** – mənfi relyef forması ifadə edən coğrafi termin, **-sı** mənsubluq bildirən şəkilçidir. Toponim *«nurular nəslinə mənsub olan dərə»* mənasındadır.

## ORTA BULAQ

Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Orta bulaq** adlanır. **Bulaq** gözəl bir yerdə, füsunkar təbiətə malik olan ərazidə yerləşir. Suyu çox soyuq və şəffafdır.

Hidronim **orta** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Ondan **aşağıda** və **yuxarıda** başqa bulaqlar da olduğu üçün hidronim belə ad almışdır. Topo-

nim *"ortada yerləşən bulaq"*, *"ortadakı bulaq"* mənasındadır...

Bu tipli coğrafi adlara respublikamızın digər bölgələrində də rast gəlirik.

## ÖRƏNSAHƏ

*Qorqan kəndinin yaxınlığında yerli əhali tərəfindən* ***Örənsahə*** *adlandırılan bir ərazi var. Bu coğrafi ad örən sözü ilə əlaqədar yaranmışdır.* ***Örən*** *termini "dincə qoyulmuş əkin yeri", "xam torpaq" mənasındadır. Adının tərkibində* ***örən*** *termini iştirak edən toponimlərə Azərbaycanın Ağcabədi, Beyləqan, Füzuli, Zəngilan, Zərdab rayonları ərazilərində də rast gəlirik...*

## PAĞILDIYAN ÇAY

Xocavənd rayonunun ərazisində qeydə alınmış hidronimlərindən biri **Pağıldıyan çay** adlanır. Hidronim **paqqıldayan** sözünün yerli tələffüz forması olub, çayın yeraltı suların, bulaqların **paqqıltılı** ilə qaynayaraq üzə çıxması nəticəsində əmələ gəldiyini bildirir...

## PALANTÖKƏN DAĞ SİLSİLƏSİ, PALANTÖKƏN YOXUŞU

Azərbaycanda – Tovuz, *Xocavənd* və Şəmkir rayonlarının ərazilərində qeydə alınan *dağ silsiləsi* **Palantökən dağ silsiləsi** adlanır. ***Dağ silsiləsi*** buradakı **Palantökən yoxuşu** adlanan oroqrafik obyektin adı ilə bağlıdır.





Keçmişdə maldar ellərin yaylaq yolu olmuş bu *aşırım* köç zamanı ***yoxuşla*** qalxdıqda yük heyvanlarının ***palanının*** aşması, yüklərin ***tökülməsi*** ilə əlaqədar olaraq belə adlandırılmışdır...

## PAMBIQLI DƏRƏ

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Pambıqlı dərə** adlanır. Oronim ***pambıq*** sözündən, **-lı** mənsubluq ifadə edən şəkilçidən və ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən əmələ gəlmişdir. **Pambıqlı dərə** toponimi «*dərədə bitən pambıq*» mənasındadır.

## PARAVATUMB KƏNDİ

**Paravatumb kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 17 kilometr qərbdə, dağətəyi ərazidə yerləşir. Bəzi sənədlərdə yaşayış məntəqəsinin adı Qaratəpə kimi yazılır. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

Bəzi məlumatlara görə, **Paravatmb** kəndinin ilkin əhalisi vaxtilə Zəngəzurdan köçüb buraya gəlmişlər. Yaşayış məntəqəsinin adı ilə bağlı çoxlu fikir və mülahizələr var. Oykonimin tərkibindəki **para** («*hissə*») formantı qərb dialektlərində «*dənli və bostan bitkiləri üçün ayrılmış sahə*» anlamındadır. Əski türk dillərində ***parav*** (***parağ***) sözünün «*heyvan saxlamaq üçün çəpərlənmiş yer*», «*böyük, qədim*» mənaları var. ***Tumb*** *(təpə, tumbul)* sözünün «*şişman*» anlamı da vardır.

Bəzi araşdırıcılar **Paravatumb** oykoniminin izahını «*qara təpə*», «*qarı təpəsi*» mənası ilə də yozurlar.

Əlavə məlumat üçün bax: **Qaratəpə kəndi**.

## PAŞA BAĞI

Salakətin kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Paşa bağı** adlanır. Bu coğrafi ad **Paşa** şəxs adından və **bağ** sözündən olub, «*Paşaya məxsus olan bağ*» mənasındadır. **Paşa** bu bağın sahibi, onu yaradıcısının adıdır. Bağın ərazisində çoxlu sayda meyvə ağacları vardır...

## PEVALTÖKƏN DAĞI

Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Pevaltökən dağı** adlanır. **Pevaltökən** oronimi **peval** («*beşik*») və **tökən** («*aşan*», «*düşən*») komponentlərindən biarət olub, keçmişdə maldarların köçəri həyatı ilə əlaqədar yaranmışdr. Oronimin tərkibindəki **dağ** sözü müsbət relyef forması bildirən coğrafi terindir.

## PƏLƏNG QAYASI

Respublikamızda çöl heyvan adlarını əks etdirən oronimlər geniş yayılmışdır. Xocavənd rayonu ərazisində qeydə alınmış **Pələng qayası** oroqrafik obyekti də bunlardan biridir. **Pələng qayası** oronimi pişikkimilər fəsiləsindən yırtıcı məməli ***pələng*** heyvanının adından və





müsbət relyef forması bildirən ***qaya*** coğrafi terminindən yaranmışdır; oronimin tərkibindəki **–sı** şəkilçisi mənsubluq ifadə edir. Bu tipli oronimlərə *Pələng dağı, Pələng quzeyi* (Zəngilan rayonu), *Pələng dərəsi* (Astara, Kəlbəcər və Laçın rayonları), *Pələng qayası* (Kəlbəcər, **Xocavənd** rayonları) və başqalarını göstərmək olar...

## PIRIXLI

Tuğ kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri **Pırıxlı** adlanır. Bu coğrafi ad ilə bağlı yerli əhali müxtəlif rəvayətlər danışır. Ümumiyyətlə **Pırıxlı** sözü ilə əlaqədar olaraq çoxlu fikir və mülahizələr mövcuddur. Hətta toponimin tərkibindəki **pır** komponentini **pir** sözü ilə də bağlayanlar var. Toponimin tam elmi izahı hələlik verilməmişdir...

## PİR

Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Pir*** adlanır. ***Pir*** - dini etiqad və inamla bağlı ibadət yeridir. Yerli əhali onu müqəddəs tapınaq yeri hesab edir. Azərbaycanın bəzi zonalarında pir əvəzinə ocaq ifadəsi də işlədilir. Müqəddəs din xadimlərinin, təriqət başçılarının qəbir və türbələri də **pir** hesab edilir.

Azərbaycanda ***pir-ocaq kultu***, inanışı tarixin çox-çox qədim çağlarına gedib çıxır. Pir inamının tarixi çox qədimdir; onun coğrafiyası da çox genişdir. Azərbaycanda pirlərin miladdan öncəki (*III-I əsrlər*) dövrünü araşdırmış

görkəmli tədqiqatçı Zelik Yampolski yazır ki, Azərbaycanın qədim və müasir əhalisi arasındakı etnik əlaqənin qırılmazlığı, etnik ardıcıllığın pozulmazlığı pirlər üzərindəki elmi tədqiqatda aydın görünür. O, qeyd edir ki, *qədim Misir piramidası* **pereme** (*"müqəddəs təpə"*) sözü ilə əlaqədar yaranmış ifadədir.

Tanrıçılıq dünyagörüşünün ayrılmaz hissəsi olan ***pir-ocaq inanışı*** öz mayasını təbiətdən aldığı üçün sonralar Azərbaycanda yaranan (*Atəşpərəstlik*) və buraya kənardan gətirilən (*Xristianlıq, İslam*) dinlərin təsirinə də məruz qalmışdır. Əgər **pir** sözünün etimologiyası tam açılarsa, onda türkmən dilində **qam** (*şaman*) əvəzinə işlədilən purxan termini də aydınlaşar. Xalqımızın etnogenezinə, dünyagörüşünün inkişafına, qamçılıq inanışına aydınlıq gətirə bilən ***pir*** və ***ocaq*** tapınaqlarımızın hərtərəfli, əhatəli öyrənilməsi özünün layiqli vətənpərvər tədqiqatçılarını gözləyir...

**Pir** sözü ilə bağlı Azərbaycan Respublikasında **39** kənd adı, yüzlərlə müsbət və mənfi relyef formalı oronimlər və s. coğrafi adlar qeydə alınmışdır...

Əlavə məlumat üçün bax: ***İmam Piri***.

## PİRAĞ BULAQ

Xocavənd rayonu ərazisində, Muğanlı kəndindən 6 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri **Pirağ bulaq** adlanır. Hidronim **pir** və **ağ** sözlərindən, **bulaq** hidronimik vahidindən əmələ gəlmişdir. Bu bulaq və onun adı ilə bağlı müxtəlif fikirlər, mülahizələr və rəvayətlər mövcuddur. Hətta yaxınlıqdakı kəndlrin sakinləri bulağın adını da müxtəlif variantlarla tələffüz edirlər.





**Pir** - *«dini etiqadla bağlı ibadət yeri»* deməkdir. Müqəddəs din xadimlərinin, təriqət başçılarının qəbir və türbələri ***pir*** hesab edilir. **Pirağ bulaq** yaxınlığında *tək qəbir* deyilən yer var. Buranı yaxın ərazidə yaşayan bəzi insanlar müqəddəs hesab edir. Çox güman ki, **bulaq** da bu müqəddəslik rəmzinə görə belə ad almışdır...

## PİRƏHMƏD TAPI

**Tap** qədim türk sözü dilimizdə *«dağ ətəyində olan düzənlik»*, *«terraslararası geniş düz»*, *«dağüstü düzənlik»*, *«təpə»*, *«su çıxmayan yer»* və s. anlamlarda işlədilir. Oronimiyamızda **tap** termini ilə bağlı çoxlu sayda (**500**-dən artıq) oronimlər qeydə alınmışdır. Onlardan biri də Xocavənd rayonunun Yemişcan kəndi ərazisində qeydə alınmış **Pirəhməd tapı** oronimidir. ***Pirəhməd tapı*** antroponimik toponimi **Pirəhməd** şəxs adından, **tap** terminindən və bir də «ı» şəkilçisindən ibarətdir. Toponim *«Pirəhmədə məxsus olan su çıxmayan dağətəyi düzənlik»* mənasındadır.

## PİRİCAN DAĞI

Xocavənd rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Pirican dağı** adlanır. Coğrafi adın tərkibindəki **dağ** termini müsbət relyef forması ifadə edir. **Dağ** ərazisində mövcud olan müqəddəs sitayiş yerinin - **pirin** adı ilə əlaqədar olaraq belə adlanmışdır. Yerli məlumata görə vaxtilə burada ***Pirican*** adlı kənd də mövcud olmuşdur...

## PİŞİKLİ DƏRƏSİ

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndindən 3 km aralıda qeydə alınan oroqrafik obyekt **Pişikli dərəsi** adlanır. Oronim **pişik** heyvan adından, **dərə** mənfi relyef bildirən coğrafi termindən və mənsubluq ifadə edən **–li, -si** şəkilçilərindən ibarətdir. Həmin dərədə *pişikkimilər* fəsiləsindən olan ***pişik*** yırtıcı məməli heyvan cinsinə çox rast gəlindiyi üçün toponim belə ad almışdır. Bu tipli oronimlərə Azərbaycanın bir sıra bölgələrində də rast gəlirik.

## PLOV DÖŞÜ

Adətən «*dağın, təpənin yuxarı hissəsi ilə ətəyi arasındakı sahə*», «*dağ yamacının yuxarı və orta hissələri arasında qalan sahə*», «*yamacın yuxarı yarısı*» Azərbaycan dilində **döş** adlanır. **Döş** termini ilə bağlıçöl materialları içərisində **200** oronim tonlanmışdır. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınan ***Plov döşü*** oronimidir. Yerli məlumata görə, toponim zahiri görkəminə görə belə ad almışdır.

## *POLUZURO PARAT DAĞI*

*Xocavənd rayonunun ərazisində qeydə alınmış oronimlərdən biri* ***Poluzuro Parat dağı*** *adlanır. Mürəkkəb quruluşa malik olan* ***Poluzuro Parat dağı*** *oronimini əksər tədqiqatçılar türk dillərindəki* ***polıştır*** *(«köməkçi») və* ***parot*** *(«qol») komponentlərinə ayırırlar. Oronim «köməkçi qol» anlamına uyğun gəlir. Toponimin adındakı* ***dağ*** *coğrafi termini müsbət relyef forması ifadə edir.*





## *PÖRNƏK YERİ*

*İndi də ara-sıra Azərbaycanın ayrı-ayrı bölgələrində tez-tez işlədilən* ***pörnək*** *sözünə rast gəlirik.* ***Pörnək*** *sözü tərəkəmə yaşamı ilə əlaqədardır. Özündən güclü olan müstəqil boyların himayəsində yaylaq-qışlağa köçüb onların istifadəsində olan örüş yerlərində mal-qaranı otaran kiçik soylar* ***pörnək*** *adlanır.*

*Tarixi qaynaqlardan o da məlum olur ki,* ***pörnək*** *adlı azərbaycanlıların etnik qrupu, tayfası mövcud olmuşdur. Ağqoyunlu tayfalarına bağlanan* ***pörnəklər*** *Azərbaycanın ictimai-siyasi və mədəni həyatında önəmli rol oynamışlar. Son orta əsrlər tarixi dönəmində onlar qızılbaşların tərkibinə qatılmışlar. Qızılbaş birliyi içində onlar mosullularla bərabər* ***türkmanlar*** *adlanırdılar...*

## *RABAT*

Vaxtilə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələrindən biri **Rabat** (*bəzi mənbələrdə* ***Rəbənd***) adlanırdı. **1593**-cü ilə bağlı olan Osmanlı qaynağında kəndin adı çəkilir. **1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı qaynaqda isə yazılır: «*Kənddə heç kim yaşamır. Dənli bitkilərdən əldə olunan gəlir – 6 000 ağça*».

XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində **Rabat** kəndinin ərazisində Cəbrayıllı elinin Əbdürrəh-

manbəyli obası yerləşmişdir. Kəndin ərazisindən **Rabat** (*bəzi mənbələrdə **Rəbənd***) adlı arx keçirdi.

**Rabat** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bartolda görə bu söz «*at bağlanan yer*» anlamındadır; **rabat** sözü «*sərhəd məntəqəsi*», «*istehkam*», «*qala*», «*saxlov*», «*qəsr*» mənalarında da işlədilir.

Qafurova görə X əsrdə **rabat** sözü «*yaşayış sarayı*», «*mehmanxana*» anlamında işlənmişdir. Orta əsrlərdə bu söz «*karvasara tipli yaşayış yeri*» mənasını da daşıyıb. Ərəb sözü olan ***rabat*** «*şəhər divarlarından kənarda olan yaşayış məntəqəsi*» mənasındadır...

## RİTİŞ QALASI

Tuğ kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Ritiş qalası** adlanır. **Ritiş qalası** erkən orta əsrlərə (V-VIII əsrlər) aid tarixi memarlıq abidələrindən hesab olunur. Bu alban dövrü abidəsi qorunan mədəniyyət incilərimiz sırasındadır. Erməni işğalından sonra (**30.10.1991**-ci il) bu **qala** da dağıntıya məruz qalmışdır.

Qalanın **Ritiş** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin bitkin, tam və dəqiq elmi izahı hələlik verilməyib...

## RUS KƏHRİZİ

Kuropatkino kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri **Rus kəhrizi** adlanır. Hidronim vaxtilə onun suyundan istifadə etmiş **rus** millətindən olan adamlara görə belə adlandırılmışdır...





**Kəhriz** – yeraltı su yolu və ya su kəməridir. Qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğular **kəhriz** adlanır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsilə birləşdirilir. Kəhrizlər adətən peşəkar kankanlar tərəfindən qazılır. Məlumatlara görə, XX əsrin ortalarında Azərbaycanda **1000**-ə yaxın **kəhriz** olub...

## RUS TAĞI

Xocavənd rayonunun mərkəzində, Xocavənd qəsəbəsinin qərb hissəsində qeydə alınan oroqrafik obyektlərdən biri **Rus tağı** adlanır. **Rus tağı** adlandırılmış bu ərazidə daha çox azərbaycanlılar yaşayırdılar. Burada azərbaycanlılarla yanaşı eyni zamanda rus və ermənilər də məskunlaşmışlar. Toponim məhz rus millətinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bəzən yerli əhali toponimi **Rustak** formasında da işlədir.

Əlavə məlumat üçünbax: **Rustak**.

## RUSTAK

Xocavənd ilə Vərəndə yaşayış məntəqələri arasında qeydə alınmış coğrafi adlardan biri **Rustak** adlanır. M.Kalankatuklu «*Albaniya tarixi*» əsərində bu adı çəkmişdir: «*Bu da Böyük Kolmank vilayətinin **Rustak** mahalında idi*». **Rustak** toponimini İran dillərindəki **rusta** (*kənd, qəsəbə, bazarı olan mahal mərkəzi*) sözü ilə əlaqələndirirlər. Erkən orta əsrlərdə hökmdarlara məxsus torpaqlara ***rustak*** deyilirdi. XII-XIV əsrlərdə İranda bölgü vahidi **rustak** idi...

Bəzi araşdırıcılara görə ***Rustak*** toponiminin kökü **Əziztağ** olmuşdur ki, bu da dilimizin qədim qatlarında işlənmiş sözlərdəndir. Bu yozumda toponimi «*Əziz tayfasının yaşadığı tağ*» kimi mənalandırmaq olar. **Tağ** termini «*təpə*», «*alçaq yal*» anlamı ifadə edir. **Rustak** toponimini **urus** tayfası adı ilə bağlayanlar da var...

## RZAQULU BƏY TÜRBƏSİ

Düdükçü kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Rzaqulu bəy türbəsi** adlanır. Bu **türbə** XIII əsrə aid olan tarixi memarlıq abidələrindən hesab olunur. **Türbə** adından da göründüyü kimi **Rzaqulu bəy** adlı şəxsə aiddir. Məhz bununla əlaqədar olaraq bu coğrafi ad belə rəsmiləşdirilmişdir. Respublikamızın demək olar ki, bütün bölgələrində bu tipli coğrafi adlara rast gəlirik...

## SAGSAGAN DAG SİLSİLƏSİ

Xocavənd rayonunun bir hissəsinin də əhatə etdiyi Qarabağın dağlıq ərazisindəki *dağ silsiləsi* **Sağsağan dağ silsiləsi** adlanır. ***Sağsağan dağ silsiləsi*** Qarabağ sıra dağlarından şimal-şərq istiqamətində ayrılan qoldur. O, əsasən Xaçın və Qarqar çaylarının suayrıcısını təşkil edir. Bu *dağ silsiləsi* vulkan və çöküntü süxurlarından ibarət olan gözəl yay otlaqlarıdır. Oronim eyniadlı quşun (***saxsağan***) adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Kəlbəcər rayonunun ərazisində eyniadlı dağ silsiləsinin zirvəsi də **Sağsağanlı dağ** adlanır...





## SALAKƏTİN KƏNDİ

**Salakətin kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 41 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə, Azıx mağarasının yaxınlığında, Azıx inzibati ərazi vahidində yerləşir. Əhalisinin sayı 650 nəfərdir. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük, baramaçılıq və tərəvəzçiliklə məşğul olur. Kənddə orta məktəb, kitabxana, yaxınlığında daş dövrünə aid Azıx mağarası və s. var. Salakətin kəndinin ərazisində *Qədim Alban kilsəsi, Rizvan məscidi, Ovçu yeri, Qoç gədiyi, Kənd yeri, Mərəçüyüdlük, Dırbanabənd, Dəmirçi dərəsi, Paşa bağı, Dağdağan ocağı, Qələm dərəsi, Dəmirov dağı, Cəfərin yeri, Həzər bulağı, Kötük bulaq, Noxudlu bulaq, Soyuq bulaq* və s. toponimlər qeydə alınmışdır. Salakətin kəndində *hüseynlilər, zeynallılar, ağalar, əlililər* və s. adlı tirə və nəsillər yaşamışdır. Kənd **3 oktyabr 1991-ci il il** tarixdə ermənilər tərəfindən işğal olunmuşdur...

**1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi mənbədə Dızaq nahiyəsinə tabe olan kəndlər içərisində **Salakətin** kəndinin də adı var.

Çox güman ki, **Salakətin** oykoniminin adında səs dəyişikliyi baş verib. Əksər araşdırıcılar oykonimi **Salatəkin** kimi qəbul edir. Toponimin tərkibindəki **sal** komponenti hun tayfa birliyinə daxil olan tayfalardan biri hesab olunur. **Sal** sözü türk dillərində «*hündür*», «*yüksək*», «*uca*» anlamı ifadə edir.

Quruluş etibarı ilə mürəkkəb toponim olan **Salakətin** oykonimi türk dillərindəki **sala** («*sıra dağlardan ayrılan qol*») və **tin/din** («*düşərgə*», «*məskən*») komponentikdən düzəlib (**kə** – *istiqamət halının əlamətidir*), «*sıra dağlardan ayrılan qol üzərində məskən*» anlamını daşıyır...

Mənası türk dillərində «*bənzər*», «*oxşar*» hesab edilən **təkin** sözü dilimizdə bir zamanlar «*şahzadə*», «*vəliəhd*» mənasında işlənmişdir. Bu terminə digər onimlərdə də rast gəlirik. «*Kültekin*» abidəsində rastlaşdığımız ***tekin*** komponenti ***təkin*** («*şahzadə*», «*vəliəhd*», «*oxşar*») sözünün azacıq təhrif edilmiş bir variantıdır.

Qeyd olunan fikirlərimizi ümumiləşdirsək, **Salakətin** (***Salatəkin***) toponimini «*bənzərsiz şahzadə*», «*uca vəliəhd*», «*yüksək şahzadə*», «*hündürəbənzər*», «*sıra dağlardan ayrılan qol üzərində məskən*» və s. anlamlarla izah edə bilərik...

## SALMAN BULAĞI

Füzuli şəhərindən 15 kilometr qərbdə, Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Salman bulağı** adlanır. Hidronim Salman şəxs **adından** və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Salman** bu bulağı təmir edib (etdirib) üzə çıxaran adamın adıdır. **Salman bulağının** göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır...

## SAPAND DAŞI DÜŞƏN YER

Xocavənd rayonunun mərkəzindən 12 km şərqdə, Muğanlı kəndindən 5 km aralıda, Nərgiztəpə yaxınlığında qeydə alınmış toponimlərdən biri **Sapand daşı düşən yer** adlanır. Yerli əhalinin söylədiklərinə görə bu yer Qaraca Çobanın atdığı **sapand daşı** ilə əlaqədar olaq





belə ad almışdır. Maraqlıdır ki, **sapand daşının düşdüyü yerdə** indi də heç nə bitmir...

Atma silah növü olan **sapand** ta qədimlərdən dünyanın bir sıra xalqları arasında geniş yayılmışdı. ***Sapand*** adətən dəridən, qayışdan və hörülmüş ipdən hazırlanırdı. **Daş** qoymaq üçün olan mərkəzi hissə (*aya*) qollarına nisbətən enli toxunurdu. Qolun bir ucundakı ilgə barmağa keçirilirdi; ikinci ucu eyni əldə saxlamaqla ayasına **daş** qoyulurdu. ***Sapand*** dairəvi şəkildə fırladılaraq ilgəhsiz qolu buraxmaqla **daş** müəyyən məsafəyə (*100-200 m*) atılırdı...

## SARENXART DAĞI

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 12 kilometr şimal-qərbdə, Yemişcan kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri **Sarenxart dağı** adlanır. Sənədlərdə adı bəzən Sarenxut kimi də yazılır. Dağın hündürlüyü **958** metrdir. termini müsbət relyef forması bildirir. **Sarenxart** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır.

**Sarenxut** oronimi türkdilli xalqların toponimiyasında işlənən **saran** («*çəmən*», «*tala*») və qafqazdilli xalqların (*abxazların*) toponimiyasında təsadüf olunan **xut** komponentlərindən əmələ gəlib «*çəmənliyi olan dağ*» mənasındadır. Adının tərkibində **saran** sözü iştirak edən **Saransk** şəhərinin (*Mordva Respublikası*) adını da bu qisim toponimlərə aid etmək olar...

**Sarenxart** toponiminin dəqiq mənası, izahı məlum deyildir...

## SARI BULAQ

Axullu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Sarı bulaq** adlanır. Hidronim rəng bildirən **sarı** sözündən və hidronimik formant ifadə edən **bulaq** apelyativindən ibarətdir. Bu bulağın göz yaşı kimi dumduru, şəffaf və buz kimi soyuq suyu vardır.

**Sarı bulaq** coğrafi adına Ağdam, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Şəki, Zaqatala və s. rayonların ərazilərində də rast gəlmək olar...

## SARI QAYA

Çöl materialları içərisində Azərbaycan oronimiyasında tərkibində **qaya** coğrafi termini iştirak edən **2800**-dən çox oronim toplanmışdır. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınmış **Sarı qaya** oroqrafik obyektidir. Oronim rəng bildirən **sarı** sözündən və müsbət relyef forması ifadə edən **qaya** terminindən ibarətdir. **Sarı qaya** toponimi «*sarı rəngə çalan qaya*» mənasındadır. **Qaya** termini «*sıra dağlardan ayrılmış qol*», «*dağın müəyyən yerində çətin keçilən yer*» anlamı bildirir.

**Sarı qaya** coğrafi adına Daşkəsən, Gədəbəy, Göygöl, Füzuli, Kəlbəcər, Lerik, Lənkəran, Ordubad, Qax, Qaradağ, Qazax, Qubadlı, Şahbuz, Şəmkir, Şərur, Şuşa, Yardımlı, Zəngilan rayonlarının ərazilərində də rast gəlirik.

**Qaya** termini «*daşlıq*», «*uçurum*», «*çox iri sərt dağ*» anlamındadır. VI-VIII əsrlərə aid qədim türk yazılı abidələrində, Mahmud Kaşğarinin (XI əsr) lüğətində, «Kitabi-Dədə Qorqud» dastanında və digər qaynaqlarda **qaya** sözünə rast gəlirik...





## SARININ BAĞI

Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Sarının bağı** coğrafi adıdır. Oronim **Sarı** və **bağ** sözlərindən, **-nın** və **–ı** şəkilçilərindən ibarətdir. Sarı bağın yaradıcısı olan şəxsin adıdır. Toponim «*Sarıya məxsus olan bağı*» mənasındadır. Bu tipli coğrafi adlara Azərbaycanın demək olar ki, bütün rayonlarının ərazilərində də rast gəlmək olar...

## SEBİNİN MEŞƏSİ

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndindən bir qədər aralıda qeydə alınan oroqrafik obyektlərdən biri **Sebinin meşəsi** adlanır. Bu meşədə çoxlu kol bitkiləri və meyvə ağacları var. Oronim **Sebi** şəxs adından, **meşə** sözündən və mənsubluq bildirən **–si** şəkilçisindən ibarətdir. Toponim «*Sebiyə məxsus olan meşə*» mənasındadır. **Sebinin meşəsi** coğrafi adı antroponimik oronimdir. Bu tipli oronimlərə Azərbaycanın digər bölgələrində də rast gəlmək mümkündür.

## SEYİD GÖLÜ

Axullu kəndi ərazisində qeydə alınmış hidronimlərdən biri **Seyid gölü** adlanır. Hidronim **seyid** və **göl** sözlərindən ibarətdir. **Seyid** – dini titul bildirən sözdür. Seyidlər özlərini Məhəmməd peyğəmbərin mənsub olduğu «*Qureyşi*» tayfasından hesab edirlər. Ərəbistanda qəbilə və tayfa aristokratiyası nümayəndələrinə vaxtilə **seyid** deyilirdi.

Böyük əksəriyyəti İran Azərbaycanından türkləşmiş halda gələn seyidlər özlərini **seyid, mir, ağa** adlandırmaqla tanınırlar.

Coğrafi adın tərkibindəki **göl** sözü hidronimik apelyativdir. Vaxtilə bu göldə **seyid** yuyunub-çimdiyinə görə, gölün kənarında istirahət etdiyi üçün toponim belə adlandırılmışdır...

## SEYİD GÖLÜ ŞIRRANI

Axullu kəndi ərazisində qeydə alınan maraqlı toponimlərdən biri **Seyid gölü şırranı** adlanır. Məlumdur ki, Azərbaycanda oykonim, oronim, hidronimlərin bir qismi tarixən müqəddəs hesab edilmiş, sitayiş obyekti olmuşdur. Bu mənada respublikamızın ərazisində müxtəlif zaman kəsimlərində yaşayan *seyidlərə,* şeyxlərə, ruhanilərə, xalq təbiblərinə bir növ hörmət və sitayiş əlamətləri olaraq yaranmış çoxlu sayda coğrafi adlar mövcuddur.

**Seyid gölü şırranı** coğrafi adındakı **seyid** sözü titul bildirir. Azərbaycanda **seyid** sözü ilə bağlı yüzlərlə coğrafi adlar qeydə alınıb: ***Seyidlər kəndi*** (Ağdam, Xaçmaz, Salyan, Samux rayonları), ***Seyidyurd kəndi*** (Şəki rayonu), ***Seyidbazar kəndi, Seyidsadıqlı kəndi*** (Cəlilabad rayonu), ***Seyidbəyli kəndi*** (Xocalı rayonu), ***Seyidan kəndi, Seyidsadıqlı kəndi*** (Salyan rayonu), ***Seyidqışlaq kəndi*** (Qəbələ rayonu), ***Seyidoba kəndi*** (Saatlı rayonu), ***Seyidəliqulu təpəsi*** (Beyləqan rayonu), ***Seyidlər yurdu, Seyidlər bulağı, Seyidəhmədli kəndi, Seyidmahmudlu kəndi*** (Füzuli rayonu) və s.

**Seyid gölü şırranı** coğrafi adındakı **şırran** sözü gölün suyunun *şırıltılı* axıb tökülməsinə görə belə ad almışdır. Yerli əhali tərəfindən bu yer müqəddəs tutulurdu...





## SEYİD RZA GÜNBƏZİ

Erməni təcavüzü nəticəsində Xocavənd rayonunun dağıntıya məruz qalmış mədəni və dini abidələri çoxdur. Onlardan biri də Muğanlı kəndinin ərazisində qeydə alınan **Seyid Rza günbəzi** adlanır. **Seyid** – dini titul və zümrəni bildirir. **Rza** şəxs adıdır. Oronim **seyid** dini titul daşıyan **Rza** adlı şəxsin məzarı üzərində ucaldılan türbə (**gınbəz**) ilə əlaqədar olaraq belə ad almışdır. Azərbaycanda bu tipli coğrafi adlara çox yerdə rast gəlmək mümkündür.

## SƏKİ ÇALASI

Azərbaycan ərazisində adının təkibində **çala** termini iştirak edən **400** coğrafi ad toplanmışdır. Onlardan biri də Xocavənd rayonunun ərazisində qeydə alınmış **Səki çalası** oroqrafik obyektidir. Oronim **səki** sözündən, «*çökək yer*» anlamında işlədilən **çala** mənfi relyef forması bildirən coğrafi termindən və –sı mənsubiyyət şəkilçisindən ibarət olub, «*səkiyə məxsus çökək yer*», «*səkidəki çökək çala*» mənasındadır.

## SƏNGƏRTƏPƏ YAŞAYIŞ YERİ

Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Səngərtəpə*** adlanır. ***Səngərtəpə*** arxeoloji abidəsi bəzi araşdırıcılara görə antik və orta əsrlər dövrlərinə aid qədim **yaşayış yeri** hesab edilir.

Qədim türk dillərindəki **səngər** (*sənqır*) sözü Azərbaycan dilinin dialektlərində *səngər* formasında yazılmışdır. Türk dillərində **səngər** «*dağ çıxıntısı*», «*dağ burnu*» deməkdir. Bu söz (*cənqər*) farsca «*müdafiə səddi*» mənasındadır. **Təpə** coğrafi termini müsbət relyef forması bildirir. Azərbaycan oronimiyasında **təpə** ilə bağlı 4000-dən çox coğrafi ad qeydə alınmışdır. ***Səngərtəpə*** oronimi *səngər* və *təpə* sözlərindən ibarət olub, «*müdafiə təpəsi*», «*səngər olan təpə*» mənasındadır.

Azərbaycanda bu tipli toponimlərə *Abşeron, Ağdaş, Astara, Cəbrayıl, Dəvəçi, Goranboy, Füzuli, İsmayıllı, Laçın, Lerik, Qax, Qazax, Quba, Qubadlı, Şuşa, Yardımlı, Zəngilan* və başqa rayonların ərazilərində də rast gəlirik.

## SƏRKİSAŞEN KƏNDİ

(Bax: **Çağadüz kəndi**)

## SOR KƏNDİ

**Sor kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 50 kilometr cənubda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, üzümçülük, taxılçılıq, bağçılıq, baramaçılıq və bostançılıqla məşğul olur.

Bu qədim yaşayış məntəqəsi XIX əsrin 20-ci illərində İrandan gəlmiş erməni ailələrinin burada məskunlaşmasından sonra ermənicə **Tsur** adlanmışdır. 1992-ci ildə kəndin əvvəlki adı olan **Sor** oykonimi bərpa edilmişdir.

**Sor (sori)** türk dillərində «*alçaq dağ beli*», «*iki dağı və ya zirvəni birləşdirən dağ beli*», «*aşağı yer, ətək*», «*kiçik göl*», «*duzlu göl*», «*bataqlıq*», «*dağ keçidi*» mənasında işlədilir.





Tarixi mənbələrdə Azərbaycanda yaşayan **sor (sor-sor, sor-sur)** tayfasının adı çəkilir. Bəzi araşdırıcılar onların Elxanilər dövründə Azərbaycana gəldiklərini güman edirlər. **Sor-sorlar** (***sorsorlar***) XV əsrin sonlarında və sonralar Səfəvi hökmdarı I Şah İsmayıl Xətainin hakimiyyətə gəlməsində və Səfəvilər dövlətinin möhkəmlənməsində yaxından iştirak etmiş qızılbaş tayfalarından biri olmuşdur. Sonralar onlar Azərbaycanın müxtəlif ərazilərində məskunlaşmışdılar. XVI əsrdə onların bir qismi Qarabağda və Şirvanda yaşayırdı. **Sor** oykonimi çox güman ki, həmin tayfanın adı ilə əlaqədardır.

Kürdəmir rayonunda **Sorsor**, Lerik rayonunda **Soru** adlı kənd də var...

## SOS KƏNDİ

**Sos kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 20 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən taxılçılıq, üzümçülük, heyvandarlıq, bağçılıq, tərəvəzçilik və ipəkçiliklə məşğul olur. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana, avtomat telefon stansiyası və s. var.

Bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Cənubi Azərbaycandan (İran) və Xocavənd rayonunun Tuğ kəndindən köçüb gəlmiş müxtəlif ailə və nəsillərin burada məskunlaşması nəticəsində yaranmışdır. Yerli məlumata görə, oykonim kənd ərazisinin dumanlı, çiskinli, sisli olmasına görə belə adlanıdırılmışdır. Türk dillərində **sos** sözü «*yağmurlu yer*», «*nəm və rütubətli yer*» mənasındadır. Bəzi mənbə və ədəbiyyatlarda oykonimin adına **Suz, Sus** formasında da rast gəlinir.

Qax rayonunda bu qəbildən olan **Sus çayı, Suskənd,** Quba rayonunda **Susay kəndi, Susayqışlaq kəndi**, Quba və Xaçmaz rayonları ərazisində **Susay çayı**, Xaçmaz rayonunda **Susayqışlaq kəndi**, Xocavənd rayonunda **Susanlıq kəndi** və s. coğrafi adlar da vardır...

## SOYUQBULAQ

Axullu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Soyuqbulaq** adlanır. Hidronim **soyuq** və **bulaq** sözlərindən ibarətdir. Suyunun buz kimi **soyuq** olması ilə əlaqədar olaraq hidronim belə ad almışdır. **Soyuqbulaq** toponimi dilimizdə «*sərin*» mənasında işlənən **soyuq** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Soyuqbulaq hidronimi** quruluş etibarı ilə mürəkkəb toponimdir.

Ağstafa, Gədəbəy, Kəlbəcər və Laçın rayonlarında **Soyuqbulaq** adlı kənd var. Laçının Ağcakənd ərazisində də **Soyuqbulaq** adlı hidronimə rast gəlirik. Ümumiyyətlə, Azərbaycan ərazisində çoxlu sayda bu tipli toponimlər qeydə alınmışdır.

## SÖYÜDLÜ BULAQ

Xocavənd rayonu ərazisində qeydə alınan **Söyüdlü bulaq** oroqrafik obyekti **söyüd** sözündən, **bulaq** hidronimik apelyativindən və mənsubluq ifadə edən **-lü** şəkilçisindən ibarətdir. Hidronim bulağın qaynadığı ərazidə bitən **söyüd** ağacının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu tipli coğrafi adlara Azərbaycanın başqa ərazilərində də rast gəlmək olar...





## SÖYÜDLÜ DƏRƏ

Respublikamız ərazisində ağac növləri adlarını bildirən sözlərdən düzələn yüzlərlə, minlərlə oroqrafik obyektlər qeydə alınıb. Onlardan biri də Xocavənd rayonu ərazisindəki **Söyüdlü dərə** oronimidir. Bu coğrafi ad **söyüd** ağac adından və **dərə** mənfi relyef forması bildirən coğrafi terminindən əmələ gəlmişdir; **-lü** şəkilçisi mənsubluq ifadə edir.

Eroziyanın qarşısını almaq məqsədilə əsasən kanal, çay və arx kənarlarında əkilən və yaşıllaşdırmada geniş istifadə olunan balverən **söyüd** bitkisinin adı ilə bağlı Azərbaycanda çoxlu sayda coğrafi ad qeydə alınıb: *Söyüdlü dağ* (Kəlbəcər rayonu), *Söyüdlü dərə* (Cəbrayıl, Laçın, Tovuz rayonları), *Söyüdlü düz* (Qax rayonu), *Söyüdlü güney* (Tovuz rayonu), *Söyüdlü təpə* (Lənkəran rayonu, Siyaku kəndi), *Söyüdlüdərə dağı* (Göygöl rayonu), *Söyüdağacı dağı* (Gəncə şəhəri yaxınlığında), *Söyüdlər kəndi* (Kürdəmir rayonu), *Söyüdlü kəndi* (Gədəbəy və Oğuz rayonları) və s.

## SPİTAKŞEN KƏNDİ
(Bax: **Ağkənd kəndi**)

## SUQOVUŞAN

Axullu kəndi ərazisində eydə alınan toponimlərdən biri **Suqovuşan** adlanır. Bu mürəkkəb quruluşlu toponim **su** və **qovuşan** sözlərindən ibarət olub, iki *su* arxının *qovuşması* ilə əlaqədar belə ad almışdır.

**Suqovuşan** coğrafi adına Sabirabad rayonunun ərazisində (Kür və Araz çaylarının qovuşduğu yer) və digər yerlərdə də rast gəlirik...

## SUSANLIQ KƏNDİ

**Susanlıq kəndi** Xocavənd rayonunda, Tuğ inzibati ərazi vahidində, rayon mərkəzindən 57 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq, tərəvəzçiliklə məşğul olur.

Bəzi araşdırmalara görə, **Susanlıq** yaşayış məntəqəsini orta əsrlərdə İranın **Zuzan** əyalətindən köçüb gəlmiş azərbaycanlı ailələr salmışlar. Oykonimin mənası ilə bağlı başqa fikir və mülahizələr də var. **Susanlıq** toponimi «*Zuzandan gələnlər*», «*zuzanlılar*» anlamındadır.

**1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələrinin adları içərisində **Susalıq kəndi** də özünə yer tapmışdır. Həmin «*dəftərdə*» göstərilir ki, bu kənddə adları qeyri-müsəlman adı olan **8** nəfər «*bennak və subay vergisi*» ödəyir. Qeyri - müsəlman adları daşımalarına baxmayaraq, onlar müsəlmanlar kimi «*bennak və subay vergisi*» ödəyirlərsə, çox güman ki, bu şəxslər müsəlmanlığı qəbul etmişdilər...

## ŞAH YOLU

Muğanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Şah yolu** adlanır. Oronim **şah** və **yol** sözlərindən ibarətdir. Bu toponimlə bağlı müxtəlif rəva-





yətlər, fikir və mülahizələr mövcuddur. Deyilənə görə orta əsrlər dönəmində hansısa bir **şah** bu **yoldan** gəlib keçmiş, o ərazidə karvanı əyləndirib dincəlmişdir. Elə bu səbəbdən də sonralar həmin **yol** el arasında **Şah yolu** adlandırılmışdır.

## ŞAHRÜVƏNYAL DAĞI

Xocavənd rayonunun Füzuli rayonu ilə sərhədində Zoğalbulaq (Xocavənd rayonu) kəndi ilə Qacar (Füzuli rayonu) kəndi arasında, Qarabağ silsiləsində qeydə alınan oronim **Şahrüvənyal dağı** adlanır. Onun maksimal hündürlüyü **746** metrdir. **Şahrüvənyal dağı** coğrafi adının tərkibindəki **yal** və **dağ** sözləri müsbət relyef forması bildirən coğrafi terminlərdir. **Şahrüvən** sözünə gəldikdə isə, bu sözlə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin dəqiq izahı hələlik məlum deyil...

## ŞAHYERİ KƏNDİ

**Şahyeri kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 52 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağlıq ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bostançılıq və bağçılıqla məşğul olur.

Bu yaşayış məntəqəsinin adı XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş erməni ailələrinin burada məskunlaşmasından sonra dəyişdirilərək **Şaqax** şəklinə düşmüşdür. 1992-ci ildə kəndin əvvəlki **Şahyeri** adı bərpa edilmişdir. **Şahyeri** oykonimi **şah** və **yer** sözlərindən ibarətdir. ***Şahyeri*** toponimi

«*yüksək yer*» mənasındadır. Doğrudan da kəndin yerləşdiyi coğrafi mövqe bu izaha uyğundur. Kənd dəniz səviyyəsindən **1691** metr hündürlükdə yerləşir.

Əlavə məlumat üçün bax: **Şaqax kəndi**.

## ŞAQAX KƏNDİ

**Şaqax kəndi** (*Şahyeri kəndi*) Xocavənd rayonunda, dağlıq ərazidə yerləşir. Kəndin əhalisini əsasən Cənubi Azərbaycanın (İran) Qaradağ mahalından vaxtilə köçüb gələn ailələr təşkil edir...

Toponimi **şaq** (*saq*) və **ax** komponentlərinə ayırmaq olar. Oykonim **saq** (*şaq*) etnonimi ilə əlaqədar olaraq belə adlanmışdır. Toponimin tərkibindəki **ax** hissəciyi isə **ağ**dan törəmədir. Buradan belə çıxır ki, **Şaqax** sözünün ilk forması **Şaqağ** olub. **Şaqax** (*Şaqağ, Şakağ*) etnotoponimi «*uca, yüksək saklar*» mənasındadır...

## ŞAPARTI, ŞAPARTI ÇAYI

Xocavənd rayonu ərazisində qeydə alınan oykonim və hidronimlərdən biri də **Şapartı, Şapartı çayı** adlanır. *Ağcaqoşun* çayının sağ qolu olan **Şapartı çayı** Xocavənd rayonu ərazisi ilə bərabər, Ağcabədi rayonunun da ərazisindən axır.

Əksər tədqiqatçılara görə, **Şapartı** hidroniminin əsasını «*gil, palçıq, bataqlıq, bataqlıqlı çəmən*» və s. mənalarda işlədilən türk-monqol mənşəli **şabar** coğrafi termini təşkil edir. Coğrafi adın tərkibindəki **–tı** formantı **–lı** şəkilçisinin fonetik variantıdır. **Şapartı** çayının adı «*gilli, bataqlıq olan çay*», «*çamurlu çay*» kimi izah olunur.





Qazaxıstan Respublikası ərazisində də **Şapartı** adlı çay və dağ vardır.

**Şapartı** sözünü bəzi sənədlərdə **Şıbartı** şəklində də yazırlar. **Şıpartı** sözü «*iti axan su*» mənasındadır. Amma bu da məlumdur ki, orada «*iti axan çay*»dan əlamət yoxdur.

O.Süleymanov göstərir ki, **şıba** şumer dilində «*çoban*» anlamı ifadə edir. Belə bir mülahizə də var ki, **şıbartı-şuba-ər-utu** şəklində yaranıb və günümüzə **Şıbartı** formasında çatıb. Bu söz «*igid çobanlar allahı*» anlamına uyğun gəlir. Bu yozum Şıbartının «*çobanlar qışlağı*» olması ilə səsləşir. Başqa bir yozuma görə **Şıbartı** (***Subərti***) toponimi (**subərutu**) **subər** etnonimi və **tco** komponentindən ibarət olub, «*subər tayfasının allahı, tanrısı*» mənasındadır...

## ŞƏKƏR KƏNDİ

**Şəkər kəndi** Xocavənd rayonunda, Qırmızı Bazar inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Yaşayış məntəqəsinin adı bəzi sənədlərdə Şəhər kimi də yazılır. Əhalisi heyvandarlıq, taxılçılıq, tərəvəzilik, bağçılıq, üzümçülük və baramaçılıqla məşğul olur.

Bu yaşayış məntəqəsi ***Şəkər*** adlı şəxs tərəfindən salındığı üçün belə adlandırılmışdır. **Şəkər** oykonimi quruluşca sadə toponimdir. Yerli məlumatlara görə, yaşayış məntəqəsini ***Şəkər*** adlı bir şəxs bina etdiyi üçün kənd belə adlanmışdır. **Şəkər** oykonimini **şək** və **ər** hissələrinə də ayırıb izah edənlər var. Göyçay rayonunda da **Şəkər kəndi** var...

**Şək** komponentini **sak** (*saq*) etnonimi ilə də izahlandırırlar. **Saq** qəbilə birləşməsi tarixin bir sıra məqamlarında ictimai-siyasi hadisələrdə böyük rol oynamış,

nəhəng imperiyanın yaranmasında müstəsna xidmət göstərmişdir. R.Ördək miladdan əvvəl VII əsrdə İran hökmdarı Keyxosrovun Turan hökmdarı Alp ər Tunqanı məğlub etməsini Firdovsinin «Şahnamə» əsərində təsvir etdiyini göstərərək bildirir ki. Turan hun dövlətindən əvvəl yaranmış türk dövlətidir. Bu dövlətin **Saka** türk dövləti olduğunu söyləyənlər çoxdur...

M.Vəliyev (Baharlı) göstərir ki, iranlılar skifləri **sak** və ya *turanlılar* adlandırırdılar. M.İsmayılov qeyd edir ki, İran şahı Daranın məqbərəsi üzərindəki kitabədə ***3 sak*** kütləsinin adı (*tiqraxaur, xaumvarka, saka-tiay-tara-darayya*) çəkilir; axırıncının mənası «*dənizin o tayındakı saklar*» deməkdir. Tarixçi-alim M.İsmayılov V.B.Lukinin və Q.A.Stratanovskinin **massagetlərin** «*böyük saklar*» mənası verdiyini söyləmələrini qeyd edir.

Görkəmli türk tarixçisi Bahəddin Ögəl yazır: «***Saka*** *adını daşıyan tayfalardan yunan və İran qaynaqları miladdan öncə VI əsrdən sonra söz açmağa başlamışdır. İlk məlumatlar İran şahı Daranın sakalara qarşı etdiyi axınlar dolayısı ilə görünməyə başlamışdır. Sakalar daha əvvəllər İran şahı Koruşu məğlubiyyətə uğratmış və böyük bir qüvvəyə sahib olduqlarını sübut etmişdir. Bəzi məlumatlara görə isə bunların Fərqanə zonasının hər halda dağlıq əhatəsində yaşamaları tez-tez təkrar olunmuşdur. Bəzi araşdırmaçılar isə sakaların Sır-dəryanın arxasında da yayıla biləcəklərini irəli sürmüşdür. Sakaların qərbə köçü ancaq yuecilərin basqını ilə başlamışdır. Amma Orta Asiya sakaları qərbə və Hindistana tamamilə köçməmişdilər*» (B.Ögəl: «Böyük Hun imperiyası», I kitab, Bakı, «Gənclik», 1992).

B.Ögəlin məlumatı ilə sakaların miladdan öncə VI əsrdən mənbələrdə - xüsusən İran, yunan mənbələrində qeyd edildiyinin göstərilməsidir. Qarabağ ərazisinin bir





hissəsinin **Arsak** (***Ərsak***) adlanması haqqında XVII əsr müəllifi Həsən Cəlal Yesayidə də rast gəlirik (H.C.Yesayi: «Alban ölkəsinin qısa tarixi 1702-1722», Bakı, «İşıq», 1992).

İ.M.Dyakonov m.ö.VI əsrdə sakların ermənilərin də etnogenezində müəyyən rol oynadığını göstərir. Tarixdən məlumdur ki, ermənilər uzun müddət sakların hakimiyyəti altında yaşamışlar.

T.Əhmədov V.F.Minorskiyə əsaslanaraq göstərir ki, Şəkinin meydana gəlməsi saklarla əlaqəlidir. Orta əsrlərdə Azərbacyanın Kür-Araz ovalığının şimal-qərb hissəsi, o cümlədən Qarabağın çox hissəsi **Sakasena** (***Sisakan***) adlanmışdır...

M.Seyidova görə *Arsaq* **Ərsaq** anlamndadır. Mənası «*saq qəbiləsi birləşməsindən olanlar*» deməkdir. Q.Qeybullayev göstərir ki, **saka** türkdilli qəbilədir və toponimlərdə onun böyük izi var. Ə.Fərzəli qeyd edir ki, **saqlar** (***saqoq***) Qarabağın ən qədim sakinləridir. Ə.Sumbatzadə göstərir ki, **saklar** Kürün sağ sahilində yaşamışlar.

**Şəkər** oykoniminin **Sakər** etnonimindən formalaşdığını əsas gətirərək ahəng qanununa tabe olma nəticəsində **Şakər** sözünün **Şəkər** sözünə çevrilməsini deyə bilərik...

## ŞIBARTI, ŞIBARTI ÇAYI

(Bax: **Şapartı, Şapartı çayı**)

## ŞIX DURSUN KƏNDİ

**Şıx Dursun kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 28 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerlə-

şir. Əhalisi üzümçülük, heyvandarlıq, taxılçılıq, bostançılıq və bağçılıqla məşğul olur.

XIX əsrin 20-ci illərində İrandan köçüb gəlmiş erməni ailələri burada məskunlaşdıqdan sonra bu yaşayış məntəqəsi **Sıxtoraşen** (*sxto* erməni dilində «*sarımsaq*» deməkdir) adlanmışdır. 1992-ci ildə kəndin əvvəlki **Şıx Dursun** adı bərpa edilmişdir. **Şıx Dursun** oykonimi **Şeyx Dursun** adlı şəxsin adındandır.

## ŞIXER

Xocavənd rayonunun Əmirallar kəndindən 4 kilometr aralıda qeydə alınmış coğrafi adlardan biri **Şıxer** adlanır. Bu söz bir qədər təhrifə məruz qalmışdır. Əslində bu oroqrafik obyektin adı **Şah yeri** şəklində olmalıdır. Oronim tərkibindəki **şıx** komponenti **şah** sözünün yerli dialekt və şivədə işlənmiş təhrifidir. Yerli məlumata görə, qədim dönəmdə **şah** bu ərazidəki yoldan keçdiyi və həmin **yerdə** məskən saldığı üçün toponim belə ad almışdır. **Şıxer** deyilən ərazidə taxıl əkilmiş sahələr var. Bu ərazinin bərəkətli, münbit torpağı var...

## ŞIXƏLİ GÜNEYİ

Azərbaycan oronimiyasında antroponimik toponimlər üstünlük təşkil edir. Ümumiyyətlə, oronimiyamızda şəxs adlarından düzəlmiş relyef formaları mühüm yer tutur. Bu tipli antroponimik oronimlərin sonluqları adətən mənsubiyyət şəkilçisi ilə bitir. Xocavənd rayonunun Ağdam kəndi ərazisində qeydə alınmış **Şıxəli güneyi**





coğrafi adı da bu qəbildəndir. Oronimin tərkibi **Şıxəli** şəxs adından və müsbət relyef forması ifadə edən **güney** coğrafi terminindən ibarətdir.

Dilimizdə «*dağın və ya təpənin cənuba, cənub-şərqə baxan hissəsi*», «*Günəş* şüası çox düşən tərəf» **güney** adlanır. **Guney** sözünün qədim türk dillərində «*cənub*» anlamı da var. Bu terminin türkdilli xalqlarda **günay**, **günoy, günəvər, günqey** formaları da var. **Şıxəli güneyi** toponimi «*təpənin cənuba, Şıxəli yurduna baxan hissəsi*» mənasındadır. Azərbaycanda adının tərkibində **güney** termini iştirak edən coğrafi adların sayı **2700**-dən çoxdur.

## ŞIXTORAŞEN KƏNDİ
**(Bax: Şıx Dursun kəndi)**

## ŞIR-ŞIR BULAQ

Qaradağlı kəndi yaxınlığında, kənddən 6 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri **Şır-şır bulaq** adlanır. **Bulaq** suyunun bir qədər hündürdən **şırıldayıb** töküldüyü üçün belə ad almışdır.

Füzuli rayonu ərazisində, rayon mərkəzindən 2 kilometr şimalda, Qaraköpəktəpə yaxınlığında, Köndələnçay sahilində də **Şır-şır bulaq** hdronimi qeydə alınıb...

## ŞİNDİ MEŞƏSİ

Xocavənd rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Şindi meşəsi** adlanır. Bu ***meşə*** Qara-

dağlı kəndindən 2 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. Meşənin yerləşdiyi ərazidə suyu dumduru sərin bulaqlar, müxtəlif ağac və kollar (alma, armud, nar, tut, çiyələk, moruq, böyürtkən və s.) vardır. Oronimin adındakı **–si** şəkilçisi mənsubluq bildirir. Araşdırıcılar toponimin izahını müxtəlif fikir və mülahizələrlə əsaslandırırlar...

## ŞİŞ DAĞ

Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən cənubda, Qarabağ silsiləsində qeydə alınan oroqrafik obyektlərdən biri **Şiş dağ** adlanır. **Dağın** hündürlüyü **1315** metrdir.

***Dağ*** coğrafi termini müsbət relyef forması bildirir. ***Dağa*** belə ad zirvəsinin ***şiş*** olmasına görə verilmişdir...

## ŞİŞDAĞ

Xocavənd rayonu ərazisində, Qaradağlı kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri **Şişdağ** adlanır. Bu oroqrafik obyektə ad zirvəsinin **şiş** olmasına görə verilmişdir. Oronimin tərkibindəki **dağ** coğrafi termini müsbət relyef forması bildirir. Rayon mərkəzindən 10 km cənubda, Xocavənd rayonunun ərazisində, hündürlüyü **1315** m olan başqa bir **Şişdağ** (***Şiş dağ***) oronimi də qeydə alınmışdır. ***Dağa*** ad zirvəsinin **şiş** görkəminə görə verilmişdir. Bu qisim coğrafi adlara Azərbaycanın bir sıra rayonlarının ərazilərində də rast gəlirik.

Zahiri görünüş formasına görə **Şişdağ** adı almış oronimə Ağdam rayonunun Çərəktar, Kəlbəcər rayonunun Bağlıpəyə, Tovuz rayonunun Hacıalılı, Göygöl rayonunun Yeni Əlibayramlı, Şəmkir rayonunun Göyməmmədli kəndləri, eləcə də Ağsu və Gədəbəy rayonlarının ərazilərində də rast gəlirik.





## ŞOR BULAQ

Tuğ kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri **Şor bulaq** adlanır. Hidronim **şor** və **bulaq** sözlərindən ibarətdir. *Bulaq* hidronimik apelyativinin iştirakı ilə Azərbaycanda yüzlərlə, minlərl coğrafi ad qeydə alınmışdır. Bulağın **Şor** adlanması onun suyunun duzlu, **şor** olması ilə əlaqədardır. Bu tipli toponimlərə digər rayonlarımızın ərazilərində də rast gələrik...

## ŞORGÖL

Mil-Qarabağ düzündə, Xocavənd rayonu ərazisində, Muğanlı kəndindən 4 km cənub-şərqdə qeydə alınan hidronim **Şorgöl** adlanır. Hidronim **şor** və **göl** sözlərindən ibarətdir. Mürəkkəb toponimlərdən olan **Şorgöl** hidronimi suyunun duzlu olduğu üçün belə adlandırılmışdır.

Ağcabədi, Hacıqabul, Kürdəmir, Suraxanı və digər rayonların ərazilərində də **Şorgöl** hidronimlərinə rast gəlirik...

## ŞORRUCA

Muğanlı kəndindən 2 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri **Şorruca** adlanır. Yerli dialek-

tə uyğun olaraq bu coğrafi adı **Şorca** kimi də səsləndirirlər. Oronim Azərbaycan dilində *«duzlu, şoranlıq yer»* mənasında işlənən **şor** sözünə **–ca** şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. **Şorruca** toponimi *«Şoranlıq və duzlu olan kiçik yer»* anlamını ifadə edir.

Bəzi tədqiqatçılara görə, **Şorruca** toponimi **şorcalı** tayfa adının əsasında yaranmış (**-lı** ixtisar edilmiş şəkilçidir) etnotoponimdir.

Azərbaycanın Qarabağ, Şirvan bölgələrində **Şorruca** (***Şorca***) adlı onlarla coğrafi ad qeydə alınmışdır. Vaxtilə Qərbi Azərbaycanın (Ermənistan) Keşişkənd (Yeğeqnadzor) və Çəmbərək (Krasnoselo) rayonlarında azərbaycanlıların yaşadıqları **Şorca** adlı kənd də olmuşdur. XX əsrdə bu kəndlər ermənilər tərəfindən ləğv edilmişdir...

## ŞUŞA BULAĞI

Qaradağlı kəndindən bir neçə kilometr aralıda qeydə alınan hidronimlərdən biri **Şuşa bulağı** adlanır. Hidronim **Şuşa** sözündən və **bulaq** hilronimik vahidindən ibarətdir. Toponimin tərkibindəki **-ı** şəkilçisi mənsubluq bildirir. Bulağın buz kimi soyuq və göz yaşı kimi dumduru suyu var. **Bulaq** Xocavənd rayonunun **Şuşa** sərhəddinə yaxın, **Şuşa** rayonu üzü istiqamətində yerləşdiyi üçün belə adlandırılmışdır. Altay dil qəbiləsinə daxil olan **şuş/şoşu/sosu** tayfası adından formalaşıb əmələ gəlmiş **Şuşa** etnotoponiminin mənası *«hündür nəm yer»* deməkdir...

II əsr müəllifi Tatsit Şimali Qafqazda dondarlarda mərkəzi şəhərin **Şoşu** (latın dilində «ş» səsi olmadığı üçün müəllif bu sözü **Sosu** şəklində qeyd etmişdir) adlandığını göstərmişdir. Çox ehtimal ki, dondarlar hunların bir





hissəsi ilə Azərbaycana gəlib burada məskən saldıqda yaratdıqları bəzi yaşayış məntəqələrinə **Şoşu** şəhərinin adını vermişlər. Qubadlının Dondarlı kəndi yaxınlığında da vaxtilə **Şoşu** adlı yaşayış məntəqəsi mövcud olmuşdur.

**1727**-ci ilə aid olan tarixi qaynaqda Qarabağ düzündə **Şuşu**, Zəngəzurun Çulundur mahalında **Şoşu**, Xocavənd rayonunun Cəbrayıl rayonu ərazisi ilə sərhədi yaxınlığında **Susalıq**, **Susanlıq**, Dağlıq Qarabağda **Şuşalıqışlaq**, XIX əsrdə Şimali Qafqazda **Şuşi**, **Şuşanova** və **Şuşanay** adlı kəndlərin adı çəkilir. Bəzi araşdırıcılara görə, **Şuşa** sözü **şiş** komponenti ilə bağlı olub, *«uc»*, *«yüksək»* və s. mənasını daşıyır. **Şuşa** şəhərinin (8 may 1992-ci il tarixdən ermənilər tərəfindən işğal edilmişdir) adı mənbələrdə **Pənahabad, Qala** və **Şişə** kimi də çəkilir. Xocavənd rayonundakı **Sos** kəndinin adı da **Şuşa** etnonimi ilə əlaqədardır...

## ŞUŞA QƏZASI

Vaxtilə Xocavənd rayonunun böyük bir hissəsinin də əhatə etdiyi **Şuşa qəzası** çar hökumətinin Qafqazda 1840-cı il 10 aprel tarixli inzibati islahatına əsasən **1 yanvar 1841-ci il** tarixində Kaspi vilayətinin tərkibində yaradılmışdır. Qəzanın ərazisi Cavanşir, Göyçay, Cavad, Cəbrayıl (Qaryagin), Zəngəzur qəzaları ilə həmsərhəd idi. Qəzanın inzibati mərkəzi **Şuşa** şəhəri olmuşdur. **Qəza** 1846-cı ildən Bakı, 1867-ci ildən isə Gəncə (Yelizavetpol) quberniyasının ərazisinə daxil edilmişdir. Qəzanın inzibati ərazi bölgüsü **4911** kvadrat kilometr, əhalisinin sayı **140· 740** (1897-ci il üçün) nəfər olmuşdur. 1840-cı il

islahatından sonra **Şuşa qəzası** Xəzər vilayətinin tərkibində idi.

XIX əsrin 60-90-cı illərində **Şuşa qəzası** ərazisində yüzlərlə xırda emalatxana ipək açmaqla məşğul idi. İpək sapdan müxtəlif növ məmulatlar hazırlanırdı. Bu dövrdə mülkədar malikanələrinin yaradılması, kəndli və qaçaq hərəkatı Şuşa qəzasında da kütləvi hal almışdı.

Digər yerlərdə olduğu kimi, Şuşada da gildiya ticarət müəssisələri açılmışdı. 1866-cı ildə islahatla əlaqədar Bakı, Tiflis, İrəvan qəzaları ilə birlikdə Şuşada da bəy komissiyaları yaradılmışdı...

Tarixi sənədlərdən aydın olur ki, XIX əsrdə Şuşada Avropa tipli teatr tamaşaları (1848 və 1882-ci illər) göstərilmişdir. **Şuşa** qəzasından yüzlərlə tanınmış ziyalı - elm, mədəniyyət və incəsənət xadimləri çıxmışdır. 1830-cu ildə Şuşada ilk Qəza məktəbi açılmışdır.

**Şuşa qəzası** 1929-cu ildə ləğv edilmişdir... **Şuşa** sözü Altay dil qəbiləsinə daxil olan **şoşu** tayfa adından əmələ gəlmişdir. **Şoşu/sosu** etnotoponimi «*hündür, nəm yer*» deməkdir...

## TAĞ KƏNDİ
## (Bax: Dağdöşü kəndi)

## TAĞASER KƏNDİ

**Tağaser kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 45 kilometr cənubda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.





Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Coğrafi adın tərkibindəki farsdilli **tağ** sözü «*məhəllə*», «*dairə*», «*qübbə*», «*günbəz*» anlamlarındadır, **ser** isə «*baş*» mənasını ifadə edir. **Tağaser** toponimi «*günbəzin başında (yəni yuxarı hissəsində) yerləşən kənd*» mənasındadır. Toponimin tam elmi izahı hələlik dəqiqləşdirilməyib. **Tağaser** oykonimi mənası aydın olmayan coğrafi adlardandır. **1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında **Tağaser** kəndinin adı **Təğasir** kimi əks olunmuşdur.

## TAĞAVERD KƏNDİ

**Tağaverd kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 33 kilometr cənub-qərbdə, Füzuli-Xankəndi avtomobil yolu kənarında, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur. **1727**-ci ilə aid olan «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı tarixi qaynaqda Vərəndə nahiyəsinə tabe olan kəndlər sırasında **Təğavert** adına da rast gəlirik...

**Tağaverd** oykonimi mürəkkəb toponimdir. Yerli məlumata görə yaşayış məntəqəsini Şuşa qəzasının keçmiş *Şüşülü, Dırnavas, Tuğ* və *Domu* kəndlərindən köçüb gəlmiş ailələr salmışlar. Kəndin keçmiş adı **Aşağı Tağaverd** olub. Xocavənd rayonunun indiki Zərdanaşen kəndi isə **Yuxarı Tağaverd** adlanmışdır.

Bəzi tədqiqatçıların araşdırmalarına əsasən ***Tağaverd*** oykonimi «*qala məhəlləsi*» mənasını ifadə edir. Bir qisim araşdırıcılar isə oykonimi ***tağavarat*** («*güllük, çiçəklik*»)

sözü ilə bağlayırlar. Ümumiyyətlə, oykonim haqqında müxtəlif fikir və mülahizələr mövcuddur. **Tağaverd** sözü **tağ** və **verd** sözlərindən, eləcə də «**a**» bitişdirici saitindən ibarətdir. **Tağ** sözünün «*məhəllə*» mənası məlumdur. Yaşayış məntəqəsinin konkret tayfaya, şəxsə və yerə mənsubluğu, aidliyi bildirilir. **Tağaverd** coğrafi adı **tağ** sözü və qədim alban mənşəli **verd** (***berd***) topoformatı əsasında formalaşan oykonimdir. **Tağaverd** sözünün «*güllük*» anlamı da var…

## TAĞLAR MAĞARASI

Azərbaycanda, Xocavənd rayonu ərazisində, Tuğ və Tağlar kəndlərinin arasında, Quruçayın sol sahilində Paleolit dövrünə aid arxeoloji abidə **Tağlar mağarası** adlanır. Bu **mağara** stratiqrafik planına, buradan tapılmış maddi mədəniyyət qalıqlarına görə Yaxın Şərqdə mustye abidələri içərisində çoxtəbəqəli nadir düşərgələrdəndir. Bir-birinə bağlı olan gözlərdən (salonlardan) ibarət olan **Tağlar mağarası** 1964-cü ildən etibarən öyrənilir. Mağaranın şərq salonunda torpaq çöküntüsü müəyyən edilmişdir. Görünür, bura yaşayış üçün əlverişli olduğu üçün ibtidai insanlar məhz bu salonda yaşamışlar. Mağaranın qərb salonu isə açıq qayadan ibarətdir.

**Tağlar mağarası** abidəsində 6 mədəni təbəqə (2, 3, $4^a$, $4^b$, 5 və 6) aşkar olunub. İkincidən başqa bütün təbəqələrdə ocaq layları var. Mədəni təbəqələrdən 5 minə yaxın daş məmulatı və 6 mindən çox fauna qalıqları tapılmışdır. Levallua və mustye itiucluları, qaşov tipli alətlər çoxluq təşkil edir. **Tağlar mağarası** materialları Azərbaycan, Qafqaz və Yaxın Şərqin mustye mədəniyyətlərinin səciy-





yəvi xüsusiyyətlərini müəyyən etməkdə, onların əlaqələrnin tədqiqində çox zəngin mənbədir.



Mağaranın **Tağlar** adlanması yaxınlıqdakı kəndin adı ilə əlaqədardır. O, **Tağlar kəndi** yaxınlığında yerləşdiyi üçün belə ad almışdır. **Tağlar mağarası** mustye mədəniyyətinə aid ən möhtəşəm və zəngin maddi mədəniyyət qalıqlarına malik olan qədim insan düşərgəsidir.

**Mağara** 1960-cı ildə arxeoloq alim M.Hüseynov tərəfindən qeydə alınmış, az sonra burada M.Hüseynov və Ə.Cəfərov arxeoloji tədqiqat işləri aparmışlar. **Tağlar** mustye düşərgəsi öz maddi mədəniyyət qalıqlarına, stratiqrafiyasına və yaşayışın uzunmüddətli olmasına görə keçmiş SSRİ və Yaxın Şərq abidələri içərisində çox mühüm yer tutur.

**Tağlar** paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı düşərgənin D-M sahəsində **6** mədəni təbəqə qeydə alınmışdır.

**Birinci təbəqə** qara çürüntülü torpaq təbəqəsindən ibarətdir. Tədqiq olunan sahədə təbəqənin qalınlığı **6-10**

sm-dir. 1963-1965-ci illərdə aparılan arxeoloji qazıntılar zamanı düşərgənin qeyd olunan təbəqəsindən Eneolit, Tunc və Orta əsrlərə aid maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur.

**İkinci təbəqə** sarı gillicə torpaq təbəqəsindən ibarətdir. Bu təbəqənin tərkibində mağaranın tavanından düşmüş qaya qırıqları suyun və əhəngin qarışığından əmələ gəlmiş stalaktit və stalaqmit hissələri qeydə alınmışdır. Sonuncular təbəqənin içərisində əmələ gəlmişdir. Bu da mağaranın tavanından düşən su damcıları vasitəsilə yaranmışdır ki, geoloji ədəbiyyatda bunlar stalaktit və stalaqmitlər adlandırılır. 1973-cü ildə Tağlar düşərgəsinin D-M sahəsində aparılan arxeoloji qazıntılar zamanı ikinci təbəqənin tərkibində qaya daşlarının sayının olduqca az olması müşahidə olunmuşdur. Qazıntı aparılan sahədə ikinci təbəqənin qalınlığı **28-44 sm**-dir.

**Üçüncü təbəqə** açıq-sarı rəngli gillicə torpaq təbəqəsindən ibarətdir. Burada da qaya qırıqları ikinci təbəqədəki kimi azdır. Bu sahədə təbəqənin qalınlığı **38-52 sm**-dir.

**Dördüncü təbəqə** sarı gillicə torpaq təbəqəsindən ibarətdir. Təbəqənin içərisində kiçik qaya daşlarının qırıqları qeydə alınmışdır. Dördüncü təbəqədə bir neçə ocaq layı da aşkarlanmışdır. Bu tədqiqat sahəsində təbəqənin qalınlığı **65-80 sm**-dir. 1973-cü ildən düşərgənin dördüncü təbəqəsində aparılan qazıntılar zamanı maddi-mədəniyyət qalıqlarının zənginliyinə və təbəqənin rənginə görə iki hissəyə – 4a və 4b təbəqələrinə ayrılmışdır. Həmin ilin tədqiqatları zamanı D-M sahəsində dördüncü təbəqənin qalınlığı **0,8-1,2 m** olmuşdur.

**Beşinci təbəqə** nisbətən açıq-sarı gillicə torpaq təbəqəsindən ibarətdir. Tədqiqatlar zamanı təbəqədən çoxlu





maddi-mədəniyyət qalıqları, ocaq layları qeydə alınmışdır. Ocaq layları əsasən təbəqənin yuxarı hissəsind qeydə alınıb. Beşinci təbəqənin içərisində üç kiçik lay da qeydə alınmışdır. Həmin layların ümumi qalınlığı **3-5 sm**, **5-7 sm** və **7-12 sm**-ə bərabər olmuşdur. Bu layların içərisindən arxeoloji tapıntı qeydə alınmamışdır. Beşinci təbəqənin ümumi qalınlığı **45-85 sm**-dir.

**Altıncı təbəqə** tünd gillicə torpaq təbəqəsindən ibarətdir. Arxeoloji qazıntılar zamanı bu təbəqədən tək-tək qaya qırıqları qeydə alınmışdır. Altıncı təbəqədə bir neçə ocaq layları da qeydə alınıb. Bu təbəqənin qalınlığı **54-59 sm**-dir.

***Tağlar*** mustye düşərgəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində düşərgənin stratiqrafiyasının olduqca zənginliyi müəyyən edilmişdir. Düşərgənin bütün təbəqələrindən zəngin maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Tağlar mustye düşərgəsinin D-F kəsiyində çöküntünün qalınlığı **9 m**-dən bir qədər artıq olmuşdur. **Tağlar mustye düşərgəsi** nəinki bütün Qafqazda, eyni zamanda Yaxın Şərq ərazisində özünün stratiqrafiyası və maddi-mədəniyyət nümunələrinin zənginliyinə görə ən möhtəşəm bir tarixi abidədir...

*Tağlar mağarası* haqqında müxtəlif əfsanə və rəvayətlər uydurulmuşdur. Bəziləri mağaranın daha böyük, ucsuz-bucaqsız olduğunu və onun bir hissəsinin İran ərazisinə gedib çıxmasını, digərləri buranın müqəddəs bir yer olmasını söyləyirlər. Yerli sakinlər arasında belə bir şayiə yayılmışdır ki, vaxtilə guya bir çobanın iti mağaraya girmiş və həmin it gedib Şuşadan çıxmışdır. Yerli əhali bu ərazilərdə qoyun otararkən ehtiyatla hərəkət edər və sürünün mağaraya yaxınlaşmasına imkan verməzdilər. Çünki onlarda belə fikir formalaşmışdır ki, sürü mağaraya girərsə, onu geri qaytarmaq çox çətin olar...

**Tağlar mağarası** əsasən **2** böyük salondan (şərq salonu və qərb salonu) ibarətdir. *Şərq salonu* torpaq çöküntüsündən, *qərb salonu* isə qaya döşəməsindən ibarətdir. Arxeoloji tədqiqat işləri nəticəsində düşərgədən **6.000**-dən çox daş məmulatı, **10.000**-dən çox qədim insanların ovladıqları heyvanların sümükləri aşkarlanmışdır. Bu daş məmulatları içərisində əmək alətləri, istehsal tullantıları və nüvələr əsas yer tutur. Təhlillər göstərir ki, Tağlar mağarasının qədim sakinləri əmək alətlərini əsasən düşərgədə hazırlamışlar. Əmək alətləri içərisində əsas yeri levallua və mustye itiucluları tutur.

Düşərgənin çöküntülərində **6** mədəni təbəqə qeydə alınmışdır. Aparılan arxeoloji tədqiqatlar zamanı birinci təbəqədən eneolit, tunc və orta əsrlər dövrlərinə aid gil qab qırıqları, ikinci və bütün aşağı təbəqələrdən isə mustye mədəniyyətinə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Buradan tapılmış əmək alətlərinin çoxu çaxmaq daşından hazırlanıb. Onlar qırmızı, sarı, yaşıl və başqa rəngdədirlər. Əmək alətləri içərisində əsas yeri itiuclu və qaşov tipli alətlər tutur. Daş alətləri içərisində bıçaq, kəsici, biz, dişli və gözlü alətlər qeydə alınmışdır. **Tağlar əmək aləti** olduqca zərif və incəliklə hazırlanmış və bir neçə işlək ağıza malikdirlər.

Buradan eyni zamanda çoxlu ovlanmış heyvan sümükləri də aşkar edilmişdir. Bu, onu göstərir ki buradakı insanların əsas fəaliyyəti ovçuluq olmuşdur. Heyvan sümükləri arasında maral, mağara ayısı, ibtidai at sümüklərinin qırıqları üstünlük təşkil edir. Mağaradakı sümük məmulatlarının əksəriyyəti ocaqda yandırılmış formadadır. Buradan bu nəticəyə gəlirik ki. Qədim insanların həyatında **ocaq** mühüm yer tutmuşdur.








Tağlar paleolit düşərgəsi. Üst paleolit mədəniyyəti. Əmək alətləri. II təbəqə

Tağlar düşərgəsində arxeoloji qazıntı işlərini M.Hüseynov və Ə.Cəfərov aparmışlar. Mağaranın bir neçə metrliyindən axan Quruçay Tağlar düşərgəsində yaşayan qədim insanların həyatında mühüm rol oynamışdır. **Tağlar paleolit düşərgəsi** özünün maddi mədəniyyət qalıqlarına, stratiqrafiyasına və yaşayışın uzunmüddətli olmasına görə ölkəmizin və Yaxın Şərqin mustye düşərgələri içərisində mühüm yer tutur. 1963-cü ildən başlayaraq 1986-cı ilədək müəyyən fasilələrlə **Tağlar paleolit düşərgəsində** aparılan arxeoloji qazıntı işləri nəticəsində **8000**-dən artıq daş məmulatı və **500 000**-dən çox qədim insanların ovladıqları heyvanların sümükləri tapılmışdır.

Tağlar düşərgəsinin daş məmulatları içərisində əmək alətləri, istehsal tullantıları və nüvələr əsas yer tutur. Daş məmulatının elmi təhlili göstərir ki, Tağlar mağarasının qədim sakinləri əmək alətlərini əsasən düşərgədə hazırlamışlar. Qafqaz və Yaxın Şərq paleolit düşərgələri içərisində **Tağlar mustye düşərgəsi** yeganə abidədir ki, buradan tapılan əmək alətləri zəngin tarixə malik olmaqla bərabər, yeni-yeni əmək alətlərinin meydana gəlmə xüsusiyyətlərini öyrənməyə geniş imkanlar yaradır.

**Tağlar düşərgəsindən** tapılmış daş məmulatının texniki-tipoloji tədqiqi zamanı paleolit dövrü üçün yeni tipli əmək alətləri qeydə alınmış və onlara **Tağlar tipli əmək alətləri** adı verilmişdir. Tağlar düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı ən maraqlı tapıntılardan biri düşərgədə çoxlu ocaq laylarının qeydə alınmasıdır. Bu, onu göstərir ki, Tağlar düşərgəsində **Mustye mədəniyyəti** dövründə sakin olan neandertal tipli insanların həyatında ocaq mühüm yer tutmuşdur. Tağlar düşərgəsinin daş məmulatının texniki və tipoloji tədqiqi zamanı düşərgənin özünəməxsus xüsusiyyətləri müəyyən olunmuşdur. Düşərgədən aşkar olunmuş daş məmulatının 90%-dən çoxu





çaxmaq və slanes daşlarından hazırlanmışdır. Bu, düşərgənin yaxınlığında qeydə alınan daşların əsas mənbələri olduğunu göstərir.

Tağlar düşərgəsinin daş məmulatı içərisində 95 ədəd nukleus (*nüvə*) qeydə alınmışdır. Daş məmulatının texniki xüsusiyyətlərinin tədqiqi burada levallua texnikasının mühüm yer tutduğunu göstərir. Burada daş məmulatı içərisində müəyyən olunmuş **5763** ədəd hazırlıq materialı daşların, **1585** ədədi levallua texnikası əsasında hazırlanmışdır. Düşərgənin daş məmulatının təbəqələr üzrə tədqiqi zamanı müəyyən olunmuşdur ki, təbəqələrin levallua indeksi **44,6** ilə **46,2** arasındadır. Bu da düşərgədə hazırlanmış daş alətlərinin əsasən levallua texnikası əsasında hazırlanmasını söyləməyə əsas verir. **Tağlar paleolit düşərgəsində** aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunan daş məmulatını aşağıdakı qruplara ayırmaq olar:

1. Nukleuslar.
2. Levallua itiucluları.
3. Levallua qəlpələri.
4. Dişəklənmiş levallua itiucluları.
5. Mustye itiucluları.
6. Limas tipli alətlər.
7. Sadə bir işlək ağızlı qaşovlar.
8. İki işlək ağızlı qaşovlar.
9. Konvergent qaşovlar.
10. Künclü qaşovlar.
11. Enli qaşovlar.
12. Əks dişəkli qaşovlar.
13. Tağlar tipli qaşovlar.
14. Qaşovcuqlar.
15. Kəsicilər.
16. Bizlər.

17. Gəzli alətlər.
18. Dişli alətlər.

Qeyd olunan alətlərdən başqa Tağlar düşərgəsinin daş məmulatı içərisində dişəksiz lövhələr, qəlpələr və çoxlu istehsal tullantıları aşkar olunmuşdur.

***Nüvələr.*** **Tağlar paleolit düşərgəsində** aparılan arxeoloji qazıntılar zamanı **95** ədəd nüvə tapılmışdır. Bu nüvələr mağara sakinlərinin əmək alətləri hazırlanması texnikası haqqında elmi məlumatlar əldə etməyə imkan verir. Nüvələri tipoloji cəhətdən bir neçə qrupa ayırmaq olar: *disk şəkilli, bir neçə səthli, iki səthli* və *prizma şəkilli.* Maraqlıdır ki, nüvələr içərisində əsas yeri diskşəkillilər tutur. Onların sayı 45 ədəddir.

***Levallua itiucluları.*** **Tağlar paleolit düşərgəsində** aparılan arxeoloji qazıntı işləri zamanı **242** ədəd levallua itiucluları tapılmışdır. Tağlar düşərgəsinin levallua itiucluları əsasən birinci və ikinci qoparma üsulu ilə hazırlanmışdır.

***Dişəklənmiş levallua itiucluları.*** Bunlar əmək alətləri içərisində diqqəti daha çox cəlb edən alətlərdən ibarətdir. Onlar çaxmaq və sianes daşlarından hazırlanmışdır. Alətlərin işlək ağızları və ucluqları incə dişəklənmişdir. Dəstək hissələrinin bəziləri kiçik qopuqlarla nazildilmişdir.

***Mustye itiucluları.*** Mustye itiucluları levallua itiuclularına nisbətən qısa, qalın, enli lövhə və qəlpələr üzərində hazırlanmışdır. Tağlar düşərdəsində aşkar olunan mustye itiucluları üzərində ikinci dəfə işlənmə əməliyyatı əsasən yanvari, hündür, yarım hündür və bəzən dik dişəklə aparılmışdır. Bir neçə mustye itiuclusu subparalel dişəklə işlənmişdir. Mustye itiuclularının əksəriyyəti birinci və ikinci qoparma üsulu ilə hazırlanmışdır. Tağlar düşərgəsinin V və IV təbəqələrindən tapılmış **mustye itiucluları**





II-IV təbəqələrdən aşkar olunanlara nisbətən qalın və enlidir.

***Limaslar.*** Düşərgədən tapılmış **10** ədəd limasdan **8** ədədi dəvəgözü daşından hazırlanmışdır. **2** ədəd limas isə çaxmaqdaşı üzərində hazırlanmışdır. Limaslar əsasən qalın və qısa lövhələr üzərində hazırlanmışdır.

***Sadə bir işlək ağızlı qaşovlar.*** Tağlar düşərgəsinin əmək alətləri içərisində ikinci yeri qaşov tipli alətlər tutur. Qaşov tipli alətlərin əksəriyyəti levallua lövhələri üzərində hazırlanmışdır. Tipoloji cəhətdən sadə bir işlək ağızlı qaşovları **3** qrupa bölmək olar:

1. Düz ağızlı.
2. Batıq ağızlı.
3. Qabarıq ağızlı.

***İki işlək ağızlı qaşovlar.*** Alətlərin əksəriyyəti çaxmaqdaşından hazırlanmışdır. İki işlək ağızlı qaşovları aşağıdakı qruplara ayırmaq olar:

1. Düz ağızlı – 59 ədəd.
2. Qabarıq ağızlı – 38 ədəd.
3. Batıq ağızlı – 10 ədəd.
4. Qabarıq-batıq işlək ağızlı – 16 ədəd.
5. İki qabarıq ağızlı qaşovlar – 29 ədəd.

***Konvergent qaşovlar.*** Qaşov tipli alətlər içərisində bunlar xüsusi yer tutur. İtiuclulardan fərqli olaraq konvergent qaşovlar işlək ağızlarının nisbətən küt, ucluq hissələrinin isə nisbətən qabarıq olması ilə fərqlənir.

***Künclü qaşovlar (58 ədəd).*** Bu tip alətlərin əsas xüsusiyyətləri iki işlək ağızlarınküncdə birləşməsindən ibarətdir. Onların əksəriyyəti çaxmaqdaşından hazırlanmışdır. Tağlar düşərgəsinin bütün təbəqələrindən künclü qaşovlar qeydə alınmışdır.

***Tağlar tipli əmək alətləri (16 ədəd).*** **Tağlar orta paleolit düşərgəsində** aparılan arxeoloji qazıntılar zamanı qeydə alınan daş məmulatı içərisində yeni daş alətlər müəyyən olunmuş və həmin alətlərə ***Tağlar tipli əmək alətləri*** adı verilmişdir. Texniki və tipoloji cəhətdən onlar xüsusi tədqiq olunmuşdur. Maraqlıdır ki, onların əksəriyyəti dəvəgözü daşından hazırlanmışdır. Tağlar tipli əmək alətlərinin bir neçə işlək ağızları vardır. **Azıx paleolit düşərcəsinin** III təbəqəsindən bir neçə ədəd **Tağlar tipli əmək alətləri** qeydə alınmışdır.

Yaxın Şərq və Qafqaz ərazisində **Tağlar paleolit düşərgəsi** yeganə abidədir ki, burada əmək alətlərinin uzunmüddətli inkişafını və yeni-yeni əmək alətlərinin meydana gəlməsi xüsusiyyətlərini öyrənmək, tədqiq etmək olur.

**Tağlar paleolit düşərgəsində** kompleks şəkildə elmi tədqiqat işləri aparılmışdır. Burada arxeoloqlarla yanaşı, paleontoloqlar, paleogeoloqlar, paleocoğraflar, paleobotaniklər və başqa elm sahələrinin mütəxəssisləri tədqiqat işləri aparmışlar. Bu tədqiqatlar nəticəsində düşərgə ətrafının erkən Xvalın əsrindəki təbii iqlim şəraiti müəyyən olunmuşdur. Həmin dövrdə Kiçik Qafqazın cənub-şərq hissəsində bütün müasir landşaft qurşaqları mövcud olmuşdur. Lakin onların sərhədləri indikindən alçaqda, dəniz səviyyəsindən 800-1000 m yüksəklikdə yerləşmişdir. Bu da qeyd olunan dövrdə iqlimin çox soyuq olması ilə əlaqədardır. Ərazinin iqlimi istiləşmə və soyuqlaşma istiqamətind inkişaf etmişdir. İqlimin bu inkişaf fonunda üç nisbi istiləşmə fazası: birinci **64-63** min il, ikincisi **58** min il, üçüncüsü **50** min il müəyyən olunur. Bu, Qərbi Avropanın Vyurun buzlaşma dövründə qeydə alınmış broyuron, odderade və mojershofd isti fazaları ilə müqayisə olunur. Yaxın Şərq ərazisində **Tağlar** düşərgəsinin əsas arxeoloji mədəniyyət mərkəzi olması və





Tağlarda hazırlanmış əmək alətlərinin hələ Mustye mədəniyyəti dövründə Yaxın Şərq ölkələri ərazisində yayılması müəyyən olunmuşdur.

**Azıx** paleolit düşərgəsində aparılan elmi tədqiqat işləri Azərbaycan ərazisində ibtidai insanların uzun müddət yaşadıqlarını göstərirdisə, **Tağlar** *mustye düşərgəsi* ərazisindəki arxeoloji tədqiqatlar neandertal tipli adamların inkişaf edib, müasir insanların ulu əcdadlarının bu ərazidə yaşayıb formalaşmasını bir daha elmi əsaslarla təsdiq etmiş oldu. Düşərgənin kompleks tədqiqi ilə M.Hüseynov, D.Hacıyev, Ə.Məmmədov, Ə.Cəfərov, N.Şirinov, A.Veliçko, S.Əliyev, M.Süleymanov və başqa alimlər ciddi şəkildə məşğul olmuşlar.

Aparılan arxeoloji kompleks elmi tədqiqat işləri nəticəsində **Tağlar** mustye düşərgəsində qədim insanların **120.000-90.000** il bundan əvvəldən **35.000** ilə qədər müddətdə yaşadıqları müəyyən olunmuşdur.

## TAMASAN ÇAYI

Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri **Tamasan çayı** adlanır. Hidronim türk dillərindəki **tam** və İran dillərindəki **san** komponentlərinin birləşməsindən yaranmışdır. **Tam** *«çay yatağı»*, *«çay qolu»* deməkdir; **san** komponenti isə ***səng*** sözündən olub, *«daş»* anlamı ifadə edir. **Tam** və **san** sözlərini birbirinə bitişdirərək bağlayan **–a** hərfi mənsubluq bildirir. Mürəkkəb toponım olan ***tamasan*** hidronimi *«daşlı yatağı olan çay»* mənasındadır. Bəzi sənədlərdə bu çayın adı **Tamasansan** formasında da yazılmışdır.

Çayın suyundan suvarmada geniş istifadə olunur...

## TEY DAĞI

Qədim türk dillərində **tey** termini *«təpə»*, *«təpəlik»*, *«dağ silsiləsi»*, *«kiçik dağ»*, *«dağ vadisi»* anlayışını ifadə edir. Azərbaycan oronimiyasında tərkibində **tey** termininin iştirak etdiyi çoxlu sayda toponimlər mövcuddur. Onlardan biri də Xocavənd rayonunun ***Dolanlar kəndi*** yaxınlığında qeydə alınmış **Tey dağı** oronimidir. **Teydağ** silsiləsinə aid edilən bu **dağ** bəzi sənəd və materiallarda **Teydağ** kimi də yazılır. Onun maksimal hündürlüyü **1912** metrdir.

Bu coğrafi ad **tey** komponentindən və müsbət relyef forması bildirən **dağ** coğrafi terminindən ibarət olub, *«kiçik dağ silsiləsi»* mənasındadır. Qədim türk mənşəli **tey** sözü Azərbacyan dilinin dialektlərində *«uca»*, *«hündür»*, *«qılınc»*, *«təpə»*, *«dağ»*, *«xəncər»*, *«neştər»*, *«kiçik dağ»*, *«dağ vadisi»*, *«dağ silsiləsi»* və s. anlamları ifadə edir.

Cəbrayıl rayonu ərazisində də **Teydağ** oronimi qeydə alınıb. Adında **tey** termini olan oroqrafik obyektlərə nümunə olaraq **Teydağ** (Cəbrayıl rayonu, Sirik kəndi) **Tey düzü** (Cəbrayıl rayonu, Şıxlar kəndi), **Teyfə tapı** (Cəbrayıl rayonu, Şəybəy kəndi), **Teytəpə** (Culfa rayonu, Teyvaz kəndi), **Tey dərə** (Laçın rayonu, Əhmədli kəndi), **Teydərə** (Sədərək rayonu) və başqalarını göstərmək olar...

## TƏK QƏBİR

Xocavənd rayonunun Muğanlı kəndindən 5 kilometr aralıda qeydə alınmış oroqrafik obyektlərdən biri **Tək qəbir** adlanır. Bu coğrafi ad burada baş vermiş bədbəxt hadisə ilə əlaqədardır. Vaxtilə burada qızıl (qırmızı) əsgərlərlə yerli adamların arasında atışma baş vermiş və öldürülən bir neçə əsgər sonra bir qəbirdə basdırılmışdır. Yerli məlumata görə elə o zamandan bu məzar **Tək qəbir** adlanır.





## TƏK TƏPƏ

Xocavənd rayonunun Cəmiyyət kəndinin ərazisində qeydə alınan oronimlərdən biri **Tək təpə** adlanır. Oronim **tək** sözündən və **təpə** coğrafi terminindən ibarətdir. **Təpə** coğrafi termini müsbət relyef forması bildirir. Oronim düzənlik ərazidə ***tək təpə*** olduğu üçün belə adlandırılmışdır.

Ağcabədi, Ağdam, Füzuli, Tovuz və digər rayonların ərazilərində də ***Tək təpə*** coğrafi adına rast gəlirik...

## TİMƏRRİ DAĞI

Xocavənd rayonu ilə Kəlbəcər rayonu arasında yerləşən dağ **Timərri dağı** adlanır. **Dağın** hündürlüyü **2336** metrdir. Oronim ***Timerri*** variantında da qeydə alınmışdır. Çox güman ki, dağın adı **təmiri** (***«sönmüş»***) sözü ilə əlaqədar yaranmışdır. Görünür ki, bu ərazidə vaxtilə sönmüş vulkan olduğu üçün dağ da **Timərri** adlanmışdır...

## TOXQAR DAĞI

Xocavənd rayonu ərazisində rayon mərkəzindən 75 kilometr cənub-qərbdə, Çaxmaqçay sahili yaxınlığında,

Qarabağ silsiləsində rayonun Ağcakənd və Mülküdərə kəndləri arasında qeydə alınan oronimlərdən biri **Toxqar dağı** adlanır. Bu dağın zirvəsinin maksimal hündürlüyü **1721** metrdir. Oronimin tərkibindəki **dağ** sözü müsbət relyef forması bildirən coğrafi termindir.

Toponimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Hətta *toxqar* sözünü miladdan öncə II əsr və miladın I minilliyində Orta Asiyada yaşamış *toxar xalqı* ilə də əlaqələndirənlər var...

**Toxqar** toponiminin izahı hələlik dəqiq müəyyənləşdirilməyib...

## TOPAĞAC DAĞI

Xocavənd rayonu ilə Qubadlı rayonunun sərhədində, Qarabağ dağ silsiləsində yerləşən coğrafi adlardan biri **Topağac dağı** adlanır. Dağın zirvəsinin hündürlüyü 2011 metrdir.

Dağın yerləşdiyi ərazidə çoxlu **topa** şəklində **ağaclıq** meşə sahələri olduğu üçün oronim belə ad almışdır. **Topağac** toponimi «*topa ağaclığı olan dağ*» mənasındadır.

Qubadlı rayonunun ərazisində də **Topağac dağı** coğrafi adı qeydə alınıb...

## TOPAL AĞACIN BULAĞI

Axullu kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri **Topal ağacın bulağı** adlanır. Burada kəsilmiş («*topal*») bir *ağacın* içindən qaynayan suya görə hidronim belə ad almışdır. Bu *bulağın* suyu dumduru və soyuqdur. **Bulaq** olan bu ərazinin kənardan çox gözəl və qəribə görkəmi vardır...





## TRAXTİK KƏNDİ

(Bax: **Zoğalbulaq kəndi**)

## TSAKURİ KƏNDİ

**Tsakuri kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 44 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin elmi izahı hələlik dəqiq məlum deyil. **Tsakuri** oykonimi mənası aydın olmayan coğrafi adlardandır. Əslində kəndin adı ***Zakirli*** olmalıdır. Ermənilər buraya gələndən sonra kəndin bu adını **Tsakuri** formasında rəsmiləşdirmişlər.

Əlavə məlumat üçün bax: **Zakirli kəndi**...

## TSUR KƏNDİ

**Tsur kəndi** Xocavənd rayonunda, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

**Tsur** toponimi ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bəzi araşdırıcıların ehtimallarına görə, toponimin əsasını erməni dilində «*sərin, soyuq*» mənasında işlədilən **surt** sözü təşkil edir. **Tsur** oykonimi mənası aydın olmayan coğrafi adlardandır...

## TUCLUQAYA DAĞI

Yuxarı Qarabağda, Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Tucluqaya dağı** adlanır. Dağın adı əslində **Tuncluqaya** olmalıdır. **Dağ** bu ərazidəki ***Tunclu qaya*** adlı qayanın adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Qayaya bu ad onun kimi qızılı-qəhvəyi rəngdə olmasına, möhkəmliyinə və bərkliyinə görə verilmişdir...

## TUĞ DAĞI, TUĞ ÇÖKƏKLİYİ

**Tuğ dağı, Tuğ çökəkliyi** Xocavənd rayonunun Tuğ kəndi yaxınlığındadır. **Tuğ dağı** (*bəzən adını* ***Tuğdağ*** *kimi də yazırlar*), **Tuğ çökəkliyi** kəndin qərbində yerləşir. Dağın hündürlüyü **1475** m-dir. ***Tuğ dağı*** oronimi eyniadlı yaşayış məntəqəsinin adından yaranmışdır.

Tarixdən məlumdur ki, XII-XIII əsrlərə aid rus mənbələrində qıpçaq tayfalarından biri **Tuk** (***Tuq, Tuğ***) adlanmışdır. Şimali Qafqazda və Azərbaycanda **tuğ** tayfasının adı ilə əlaqədar çoxlu sayda etnotoponimlər vardır. Respublika ərazisində çöl materiallarının toplanması zamanı **Tuğ** (***Tuk***) etnoniminin adını daşıyan aşağıdakı toponimlər qeydə alınmışdır:

**Tuğ kəndi, Tuğ dağı, Tuğ çökəkliyi, Tuğ yalı** (Xocavənd rayonu), **Tuğ güneyi** (Tovuz rayonu, Böyük Qşılaq kəndi), **Tuğ gədiyi** (Ağdam rayonu) və s. XIX əsrə aid olan xəritələrdə Yelizavetpol (Gəncə) quberniyasının Şəki qəzası ərazisində **Tuğdağ**, həmin quberniyanın Şuşa qəzasında **Tuqyurd dağı** oroqrafik obyektlərinin adları da çəkilmişdir...







**Dağ** coğrafi termini müsbət relyef forması bildirir. **Çökəklik** termini isə mənfi relyef forması ifadə edir.

Əlavə məlumatlar üçün bax: **Tuğ kəndi, Tuğ yalı**.

## TUĞ KƏNDİ

**Tuğ kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 53 kilometr cənub-qərbdə, Yuxarı Qarabağın cənub-qərbində, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1400-1500 m yüksəklikdə yerləşir. Əhalisinin sayı 2000 nəfərdir. Əhalisi əsasən üzümçülük, taxılçılıq, heyvandarlıq, tərəvəzçilik, bağçılıq və baramaçılıqla məşğul olur. Kənddə 100 yaşı olan orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana və s. var. Tuğ kəndinin *məlikyeqanovlar, məlikaslanovlar, cahangirlilər, mehdibəylilər, aslanbəylilər, gülməmmədlilər, talıbxanlılar, səlimbəylilər, cəfərlilər, vəliuşağılar* və s. adlı tayfa, tirə və nəsilləri vardır.

Azərbaycanda və dünyada məşhur olan *Azıx mağarası* və *Tağlar mağarası* Tuğ kəndi yaxınlığındadır. Aparılmış

son tədqiqatlar burada insanların hələ təqribən 1,5 milyon il əvvəl məskunlaşdığını göstərir. Kəndin ərazisində erkən orta əsrlərə aid olan bir neçə alban (Qafqaz) xristian abidəsi, *Garrav - Qırmızı məbəd* (1000-ci il) , eləcə də - *Hamam dərəsi, Atayurd dərəsi, Pırıxlı, Dəyirman dərəsi, Aşağı bulaq, Baş bulaq, Orta bulaq, Qara bulağı, Məmməd bulağı, Qotur bulaq, Şor bulaq, Qızaran düz, Kənd yeri, Garrav vadisi, Dırbanabənd, Bayram bulağı, Gəmi qayası, Dəhliz, Güngörməz, Salman bulağı, Hacı tut bağı* və s. coğrafi adlar vardır. Bu coğrafi adların hər biri sırf türk mənşəli adlardır.

**Tuğ kənd**inin sakinləri tarixən öz qəhrəmanlıqları ilə seçilmişlər. Təkcə onu qeyd etmək kifayətdir ki, II Cahan və onun tərkib hissəsi olan Böyük Vətən müharibəsi zamanı döyüşən orduya **600** nəfər tuğlu getmiş və onlardan **400** nəfəri geri qayıtmamışdır…



**Tuğ kəndi** Azərbaycanın qədim kəndlərindən biri hesab olunur. Kəndin qədimliyi onun tarixi abidələri ilə sübut olunmuşdur. Kənd ərazisindəki ***K-Tiş vəngi***, Tuğ





dağının zirvəsindəki **məbəd**, kənddəki **3** *məbəd*, miladdan öncəyə aid olan üstü yazısız olan qəbiristanlıq və s. bunlara əyani sübutdur. Bu kənddən çoxlu sayda Azərbaycanın görkəmli şəxsiyyət və ziyalıları çıxmışdır. «Qarabağnamə» müəlliflərindən biri olan *Mir Mehdi Xəzani* buradakı türbədə dəfn olunub. İşğaldan sonra məcburi köçkünə çevrilmiş Tuğ kəndinin əhalisinin 70%-i Beyləqan rayonunun Haramı ərazisində salınmış Yeni Tuğ kəndində, 30%-i isə Azərbaycanın 20 inzibati rayonunda məskunlaşmışdır.

**Tuğ** oykonimi türkdilli qıpçaqların **tuğ** tayfasının adı ilə bağlıdır. Türk dilində **tuğ** sözü «*ucuna at quyruğunun saçağı bənd olunan mizraq*», «*müharibədə qoşunun önündə aparılan bayraq*», «*çiçək*», «*hakimiyyət rəmzi*», «*Tuğra şah fərmanı; gerb, dövlət nişanı*», «*ələmə bənzər dini mərasimlərdə istifadə edilən bayraq*» anlamı ifadə edir. Orta əsrlər dönəmində bir ***tuğu*** olmaq cancaqbəyini, iki ***tuğ*** bəylərbəyini, üç ***tuğ*** paşanı göstərirdi.

Həqiqətən də **tuğ** indi bizim anladığımız ***bayraq*** olmayıb, at quyruğundan düzəldilir və dördkünc sayrılan taxtaya vurulur. Onun üz və arxa tərəfi materialla örtülür, üzərinə güzgü, bürüncdən beşbarmaq, hər güncdən ipək yaylıq asılır. Keçmişdə ***tuğu*** dini mərasimlərdə ələmlə yanaşı gəzdirərdilər. Bu adət müəyyən mənada indi də qalmışdır…

Azərbaycan dilində **tuq** sözü «*bayraq*» mənasında hazırda da işlədilir. Bayraqlar haqqında yazan A.P.Okladnikov öz məqaləsində D.Banazorova əsaslanaraq yazır ki, monqollar xanın şəxsiyyətinə onun təbəsini gözəgörünməz şəkildə qoruyub ilahi bir şey, xüsusi qadir bir qüvvə kimi baxırdılar. Bu keyfiyyətə **sulde** deyirlər. Monqol suldesinin təcəssümü *xan bayrağı* idi, hər şeydən

qabaq imperiyada hakim dinastiyanın əsasını qoyan Çingizin ***Sulde*** adlanan **9** buncuqdan ibarət olan *bayrağı* idi. A.P.Okladnikovun yazdığına görə ***bayraq*** hakimiyyət rəmzidir. *Bayrağı ələ keçirmək* qalib gəlmək, *bayrağı itirmək* isə məğlub olmaq deməkdir...

VI əsrdə Türküstanda, sonralar isə Qıpçaq çölündə yaşayan *tuğlar* tədricən geniş bir əraziyə yayılmışdılar. Türkmənistanda ***Tuğ dağı***, Şimali Qafqazda ***Tuk çayı***, Xızı və Dəvəçi rayonlarında ***Tuğ çayı***, Xocavənd rayonu ərazisində ***Tuğ dağı, Tuğ kəndi, Tuğ yalı*** və s. adlar **tuğ** etnonimi əsasında yaranan toponimlərdir.

M.Kaşgarlı «*Divani-lüğət-it-türk*» əsərində **tuqer** qəbiləsinin adını da çəkib. M.C.Cavanşir Qarabağlı **Tuğ** toponimini **Tuq** şəklində işlətmişdir. Ə.Əliyev göstərir ki, ***duk/tuq*** qədim türk dilində «*min nəfərlik döyüşçü*» deməkdir. Professor A.Qurbanov da **düyər** sözünü «*minbaşı*» anlamı ilə izah edir. Ə.Fərzəli qeyd edir ki, oğuz dillərindəki **dağ** (***tau, tao***) variantına **Tuğ** sözünü də əlavə etmək olar. Q.Qeybullayev **tuk** adlı qıpçaq qəbiləsinin də adını çəkir.

Fars dilində **tuk** sözü «*dağın başı*» deməkdir. Mənşəcə İran dilli söz olan **tuq** komponenti «*qala*» mənasında da işlədilir.

Tarixi qaynaqlardan məlum olur ki, **216**-cı ildə həbs olunaraq Çinə aparılmış Tanhu Mətənin qəbiləsi **Tuku** olub...

***Tuğ*** etnonimini özünə soy adı götürən türk hakimi və ***Tuğluq*** sülaləsi *1321*-ci ildən *1913*-cü ilə qədər Hindistandakı *türk* dövlətini idarə etmişdir.

Akademik Ziya Bünyadov «Azərbaycan VII-IX əsrlərdə» əsərində **Tuğ** kəndinin də adını çəkmişdir...





XVIII əsr «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*» adlı mənbəsində **Tuğ kəndi**nin də adı çəkilir. 1727-ci ilə aid olan bu mənbədə Qarabağda **Toqan** (Dizaq mahalı) adına da rast gəlirik. Bu ad **tuq** və **–an** hissələrindən ibarətdir. Göygöl rayonu ərazisindəki **Toğanalı kəndi** də həmin kökdəndir.

Qaynaqlar xəbər verir ki, XII əsrdə **tuq** (***toq***) tayfası və **vərəndə** (***verende***) artıq arsakda yaşayırdılar...

**Tuğ** etnotoponimi **tuq** (***duk***) sözünün təhrif variantıdır. O, «*min*», «*çoxluq*» anlamı bildirir. Çox ehtimal ki, **Tuğ** sözü ulularımızın ***mini*** ən çox say hesab etdikləri dövrdə etnonimləşibdir...

Hazırda Ermənistan deyilən Qərbi Azərbaycanda (**Tuqyurd**), eləcə də, Şimali Qafqazda, Orta Asiyada, Əfqanıstanda (***Toxar, Toğar və s.***) və digər ərazilərdə bu qisimdən olan coğrafi adlar vardır...

Xızı rayonunun ərazisində Yan silsiləsindən başlayan və Xəzər dənizinə tökülən **Tuğ çayı** adlı hidronim də qeydə alınmışdır. **Tuq** toponiminə Quba qəzasında (***Tuq kəndi***), Şuşa qəzasında (***Tuq dağı, Tuğ kəndi***), Zəngəzur qəzasında (***Tuqyurd dağı***), Dağıstanda (***Aşağı Tuq, Yuxarı Tuq***), Şimali Qafqazda (***Tuk, Tudaq, Tok, Tukova***), Türkmənistanda (***Tuk***) coğrafi adları daxildir (Tağıyev D.D. Alfavitnoy ukazatel v pyatniverstnoy kate Kafqazkoqo kraya, Tiflis, 1913).

T.A.Jdankoya görə **tuk** sözü «*kök*», «*rişə*» deməkdir. L.Budaqova görə isə **tuk** fars dilində «*dağın başı*» anlamındadır. N.A.Baskakov belə hesab edir ki, **tuğ** «*hakimiyyət rəmzi*» mənasındadır.

Ensiklopedik lüğətdə **tuğ** sözünün mənası «*bayraq*» anlamında izah olunur. Qədim türk tayfaları arasında hakimiyyət kateqoriyasından asılı olaraq **1** qotazlı **tuq**

(*qotazı at quyruğu əvəz edirmiş*) sancaqbəyin, **2** qotazlı **tuq** bəylərbəyin, **3** qotazlı **tuq** is paşanın rəmzi hesab edilirmiş. Azərbaycan toponimiyası ilə məşğul olan əksər mütəxəssislər Yuxarı Qarabağın **Tuğ** kəndinin adını məhz əslən türk sözü olan **tuğ** («*bayraq*») sözü ilə izahlandırırlar...

Yuxarıda dediklərimizdən bu nəticəyə gələ bilərik ki, ***bayraq*** anlamlı **tuğ** sözü türk dillərində əvvəlcə apelyativ leksik vahid kimi işlənmiş, sonra isə etnonim və toponimlərdə sabitləşmişdir.

Qədim tarixə malik olan cənnətməkan **Tuğ kəndi** ***31 oktyabr 1991***-ci il tarixdə ermənilər tərəfindən işğal olunmuşdur...

## TUĞ MİNERAL BULAQLARI

Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınmış bulaqlar **Tuğ mineral bulaqları** adlanır. Bunlar az debitli, soyuq bulaqlardır. Onun suyu duzlu olub əhali tərəfindən içilir. ***Tuğ mineral bulaqları*** hidronimi etnonim mənşəlidir.

## TUĞ YALI

Rayon mərkəzindən 33 km cənub-qərbdə, Füzuli rayonu ilə sərhəd ərazilərdə, Qarabağ silsiləsinin ətəyində. Quruçayın sağ sahilində yerləşən yüksəklik **Tuğ yalı** adlanır. Yüksəkliyin arxasında eyniadlı kənd də yerləşir. **Tuğ yalı** boyunca kəndə qədər çoxlu sayda suyu buz kimi soyuq, bal kimi şirin olan *Aşağı bulaq, Baş bulaq, Orta*





*bulaq, Qara bulağı, Qoşa bulaq, Salman bulaq, Şor bulaq, Məmməd bulağı, Qotur bulaq, Qara bulaq* adlı biri birindən gözəl bulaqlar vardır. Təbiət bu yerlər üçün mövcud olan gözəl sərvətlərindən heç nə əsirgəməyib. Bu yerlərin adamları meyvəçilik, tərəvəzçilik, heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olur.

Ölkəmizin ən məşhur paleolit düşərgələri olan Azıx və Tağlar mağaraları Tuğ yalının ətəklərində yerləşir. Orada aparılan arxeoloci tədqiqatlar zamanı aydın olmuşdur ki, 1,5 milyon il bundan əvvəl bu ərazilərdə insanlar yaşamışdır. **Tuğ yalı** ətəklərində qədim və orta əsrlər dövrlərinə aid çoxlu maddi-mədəniyyət abidələri, mininci ilə aid Qırmızı məbəd, daş alətlər, gil qab nümunələri və s. aşkar edilmişdir. **Yal** coğrafi termini müsbət relyef forması bildirir.

**Tuğ** haqqında bədii əsərlərdə, o cümlədən, M.F.Axundovun *"Hacı Qara"*, N.Nərimanovun *"Bahadır və Sona"*, C.Cabbarlının *"1905-ci ildə"* əsərlərində məlumatlar verilmişdir. Tuğ yalının ətəklərində yerləşən Tuğ kəndini (bu kənd dəfələrlə erməni-müsəlman münaqişəsinin şahidi olub) rus ordu hissələri ilə erməni hərbi birləşmələri **30 oktyabr 1991**-ci il tarixdə işğal edərək yandırmışlar. *"Qarabağnamə"* müəlliflərindən biri Mir Mehdi Xəzaninin məqbərəsi Tuğdadır. Azərbaycanda tanınmış Məlikaslanovlar, Cahangirovlar, Məlikyeganovlar, Yeganlılar, Soraqlılar, Budaqlar, Cəfərovlar tuğludurlar. Tuğlular bu ərazilərə XVI əsrdə Loridən (Lorudan) gəliblər...

*"**Tuğ**"* sözü türkcə hakimiyyət rəmzi olaraq ucuna at tükü və at quyruğu saçağı bəndləndirilmiş **mizraq**, yaxud metaldan düzəldilmiş iti, deşici **silah**, **nizə** mənasında

işlədilir. Orta əsrlərdə **bir tuğ** sancaqbəyini, **iki tuğ** bəylərbəyini, **üç tuğ** paşanı mənalandırarmış.

Ümumiyyətlə, **tuğ** *"at boynuna bağlanan"* bəzək mənasını verir. XV-XVIII əsrlərdə türk paşalarının da Ukrayna və Polşa getmanları, Rus kazak qoşunu atamanları kimi saçaqları at tükündən və iki gümüş qotazı olan iki metrdən uzun sivri uclu dəstəkləri olardı ki, buna da *"tuğ"*, *"bunçzak"* və ya *"buncuk"* deyilərdi. Bunlar hakimiyyət rəmzini ifadə edirdi. **Tuğ, buncuq** sözləri Ukrayna dilində *"muncuq"*, *"bəzək əşyası"* deməkdir. **Bunçzak** sözü isə polyak dilində *"bəzək"* anlamındadır. Tuğ sözünü **tikər**, **düyər** komponentləri ilə də bağlayanlar var. Boynuna dolanan Quruçaya işarə ilə kəndi *"Boyunbağı"*, yüksəklikdə yerləşdiyinə görə isə bəzən *"Bayraq"* da adlandıranlar olub...

**Tuğ** sözünün mənası haqqında müxtəlif fikirlər mövcuddur. L.Budaqov belə hesab edir ki, **tuğ** (***tuk***) fars dilində *"dağın başı"* deməkdir. T.A.Cdankoya görə **tuk** *"kök"*, *"rişə"* anlamındadır. N.A.Baskakova görə isə **tuğ** sözü *"hakimiyyət rəmzi"* mənasındadır. Böyük ədibimiz M.F.Axundov **Tuğun** tatarca *"bayraq"* anlamlı söz olduğu fikrində olmuşdur. M.Seyidov *"tuğ"*un *"bayraq"* mənası ifadə etdiyini qəbul edir. Tuğ - bayraq və sancaqdan fərqli nişan idi. Tuğların sayı vəzifədən asılı olaraq artırdı. İrəli çəkilənlərə bayraqdan savayı **tuğ** da təqdim olunurdu. Tarixi bilgilərə görə **tuğ** - başında at və ya çöl öküzü quyruğu bağlanan bir nizədir...

Ensiklopedik lüğətdə **tuğ** sözünün mənası *"bayraq"* anlamı ilə izah olunur. Qədim türk tayfalarında hakimiyyət kateqoriyasından asılı olaraq bir qotazlı **tuğ** sancaqbəyi, iki qotazlı bəylərbəyi, üç qotazlı paşa rəmzi hesab olunmuşdur. Azərbaycanın coğrafi adlar üzrə





terminologiyası ilə məşğul olan mütəxəssislərin əksəriyyəti Yuxarı Qarabağın (Xocavənd rayonu) **Tuğ kəndinin** adını məhz əslən türk sözü olan **tuğ** - *"bayraq"* mənası ilə izahlandırırlar.

**Tuğ** sözü dilimizin Oğuz bölgə danışığında həm də *"qamış saçaqlarından hazırlanmış yumşaq süpürgə"* anlamındadır. Böyük hərbi orkestrlərdə küylü musiqi aləti bəzəyinə də tuğ deyilirdi. **Tuğ** - *"at boynuna bağlanan bəzək"* kimi də mənalandırılır. **Tuğ** və **buncuk** sözlərinin hər ikisi türklərdən ali hakimiyyət nişanı olaraq ruslara keçmiş, rus ədəbi dilində də *"hakimiyyət nişanı, rəmzi"* mənası ifadə etmişdir.

**Tuk** (***tok***) adlı qıpçaq tayfası da olmuşdur. XII-XIII əsrlərə aid rus mənbələrində də buna rast gəlirik. Çox güman ki, həmin tayfadan bu ərazilərdə yaşayanlar da olub. Bəlkə də, **Tuğ** toponiminin adının mənasını bu qıpçaq tayfasının adı ilə əlaqələndirmək daha düzgün olardı. Qafqazda bu tayfanın adı ilə çoxlu etnotoponimlər vardır. Böyük türk hökmdarı, sərkərdə Mete (Mətə) tarixi bilgilərə görə **tuk** (***tuku***) qəbiləsindəndir. Tarixi sənədlərdən aydın olur ki, 1321-ci ildən 1913-cü ilə qədər Hindistandakı türk dövlətini **tuğlar** (***tuğluq***) sülaləsi idarə etmişdir. Orta əsr mənbələrində XII əsrdə Arsakda yaşamış bir sıra tayfalar içərisində **tuq** (***toq***) tayfasının da adı çəkilir. Çox güman ki, **Tuğ** etnotoponimi **tuq** (***duk***) sözünün çoxluq, *"minə qədər say"* məzmunu kəsb edən təhrif olunmuş elementidir...

*"Qarabağnamə"* müəllifi M.C.Cavanşir Qarabaği **Tuğ** toponimini **Tuq** şəklində vermişdir.

**Tuğ** (Tuk) etnonimi ilə bağlı aşağıdakı toponimlər mövcuddur: **Tuğ yalı, Tuğ kəndi, Tuğ dağı, Tuğ güneyi, Tuğ çayı** (Füzuli, Xızı, Xocavənd, Tovuz, Ağdam, Abşeron rayonları və s.).

## TUMİ MİNERAL BULAQLARI

Xocavənd rayonunun Domı kəndi ərazisində qeydə alınan bulaqlardan biri **Tumi mineral bulaqları** adlanır. Bu **bulaq** İgah çayının dərəsində yerləşir. ***Tumi mineral bulaqları*** bir neçə soyuq bulaqdan ibarətdir. Yerli əhali bu bulağın suyundan içmək üçün istifadə edir. **Bulağın** suyu çox şirin və soyuqdur. Bulağın adı onun fəaliyyəti ilə əlaqədardır. Qazaxıstan toponimiyasında **tum/tuma/tıma** komponenti *«yavaş-yavaş axaraq bataqlıq əmələ gətirən bulaq»*, *«çay qolunu əmələ gətirən bulaq»* mənalarında işlənir. **Tomi** mireral bulağının yaxınlığında **Tomı** (***Domı***) adlı yaşayış məntəqəsi də vardır...

## TURŞSU MİRERAL BULAĞI

Qırmızı Bazar yaşayış məntəqəsinin yaxınlığında qeydə alınmış hidronimlərdən biri **Turşsu mineral bulağı** adlanır. Çox debitli soyuq sulu bulaqdan ibarətdir. Bulağın suyunun tərkibində karbon qazı vardır. Suyundan əhali içmək üçün istifadə edir. Suyunun dadı *turşməzə* olduğu üçün hidronim belə adlandırılmışdır.

Gədəbəy, İsmayıllı, Şuşa və digər rayonların ərazilərində də **Turşsu** adlı hidronim qeydə alınmışdır...

## TYAK KƏNDİ

**Tyak kəndi** Xocavənd rayonunda, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq. bostançılıq və üzümçülüklə məşğul olur.





**Tyak** oykonimi ilə bağlı müxtəlif fikir və mülahizələr var. Bu oykonim mənası aydın olmayan coğrafi adlardandır. Toponimin tam elmi izahı hələ dəqiqləşməyib. Bəziləri bu adı türk dillərində *«sığınacaq»*, *«oba»*, *«köçəbə»* mənasında işlədilən **töyək** sözü ilə əlaqələndirir. Kəndin adı **Dağdöşü** kimi də rəsmiləşdirilmişdir...

## ULABLI

Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Ulablı** adlanır. Bu toponim antroponimlər əsasında formalaşan toponimlərdəndir. **Ulablı** toponimi antroponimə **-lı** şəkilçisi əlavə edilməklə əmələ gəlmişdir. Toponim əslində azacıq təhrifə məruz qalmışdır. Əksər araşdırıcıların fikrincə, bu coğrafi ad **Ulubablı** şəklində yazılmalıdır.

## ULUQAYA

Xocavənd rayonunun Cəmiyyət kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri **Uluqaya** adlanır. Toponim **ulu** və **qaya** sözlərindən biarətdir. **Ulu** sözü dilimizdə *«böyük»*, *«müqəddəs»*, *«qədim»* və *«əziz»* anlamlarında işlədilir. **Qaya** komponenti müsbət relyef forması bildirən coğrafi termindir. **Uluqaya** toponimi *«böyük qaya»*, *«böyük daş»* mənasındadır.

## URANDAĞ

Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri **Urandağ** adlanır. Oronim **uran** və **dağ** sözlərindən biarətdir. **Dağ** coğrafi termini müsbət relyef forması bildirir.

Bir qisim tədqiqatçılar oronimin tərkibindəki **uran** sözünü **uryan/üryan** sözü ilə əlaqələndirirlər. Onlar bunu dağın bitkisiz, çılpaq olması ilə izah edirlər. Başqa bir qisim araşdırıcılar isə **uran** komponentini **aran**, **uran** sözü ilə izahlandırırlar. Məlumdur ki, vaxtilə qıpçaqlarda **uran** (***aran***) adlı tayfa da mövcud olmuşdur.

Türk dillərində **aran** (***uran***) sözü *«düzənlik»*, *«isti yer»*, *«qışlaq yeri»*, *«tövlə»* və s. mənalarda işlədilir. Qədim Azərbaycan dilində də **aran** (***uran***) sözü *«isti düzən yer»*, *«qışlaq yeri»* anlamı ifadə edir.

Azərbaycanda **Aran** adlı böyük düzənlik (*Kür-Araz, Samur-Dəvəçi, Lənkəran ovalıqları, Gəncə, Qazax, Araz-boyu düzənliklər və s.*), Tovuz rayonunda dağ, Qəbələ rayonunun ərazisində dağ silsiləsi, Kəlbəcər rayonunda (*Mozkənd*) təpə, Masallı rayonunda (*Yelocaq kəndi*) dərə, Lerik rayonununda təpə, dərə, Lerik və Tovuz rayonlarında kənd və s. vardır...

## UZUN DÖŞ

*«Dağ yamacının yuxarı və orta hissələri arasında olan sahə»*, *«dağın, təpənin yuxarı hissəsi ilə ətəyi arasındakı ərazi»*, *«yamacın yuxarı yarısı»* mənalarını ifadə edən metafor strukturlu terminə **döş** deyilir. Toponimiyamızda adının tərkibində **döş** termini iştirak edən **200** oronim





toplanmışdır. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınmış **Uzun döş** oroqrafik obyektidir. **Uzun döş** oronimi xarici görünüşünə görə belə adlandırılmışdır.

## UZUN ZƏMİ

Axullu kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Uzun zəmi** adlanır. Oronim **uzun** və **zəmi** sözlərindən ibarətdir. **Uzun zəmi** toponimi zahiri görkəminə görə belə ad almışdır...

## ÜÇBULAQ DAĞI

Yuxarı Qarabağda, Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Üçbulaq dağı** adlanır. Oronim **üç**, **bulaq** və **dağ** sözlərindən ibarətdir. Coğrafi adın tərkibindəki **–ı** saiti mənsubluq ifadə edir. **Dağ** coğrafi termini müsbət relyef forması bildirir. ***Dağ*** ərazidəki mövcud olan ***üç*** gözlü ***bulağın*** (*Üçbulaq*) adı ilə belə adlanmışdır.

## ÜÇTƏPƏ

Axullu kəndindən 3 kilometr məsafədə qeydə alınan coğrafi adlardan biri **Üçtəpə** oronimidir. Toponim **üç** və **təpə** sözlərindən ibarət olub, *«üç hündür təpə»* anlamındadır. Toponimin tərkibindəki **üç** sözü say bildirir, **təpə** coğrafi termini isə oronimiyada müsbət relyef forması ifadə edir. Azərbaycanın bir sıra rayonlarının ərazilərində

(Cəbrayıl, Füzuli, Şamaxı, Şəmkir və s.) də **Üçtəpə** oroniminə rast gəlmək mümkündür...

## ÜRYANDAĞ

Xocavənd rayon mərkəzindən 9 kilometr cənubda, Füzuli rayonunun Dilağarda kəndi ilə həmsərhəd ərazidə qeydə alınan coğrafi adlardan biri **Üryandağ** adlanır. **Dağ** coğrafi termini müsbət relyef forması ifadə edir. Dağın maksimal hündürlüyü 580 metrdir. Oronim tərkibindəki **üryan** sözü ərəb dilində *«lüt, çılpaq»* anlamındadır. Dağda ağac, kol bitmədiyi və yaşıllıqdan heç bir əlamət olmadığı üçün toponim belə ad almışdır...

## ÜZƏRLİKDƏRƏ

Xocavənd rayonunun Muğanlı və Qaraçuq (Kuropatkin) kəndləri yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri **Üzərlikdərə** adlanır. Yerli sakinlərin dediklərinə görə **Üzərlikdərə** ərazisində tunel-mağara xarabalığı mövcuddur. Oronimin tərkibindəki **dərə** komponenti mənfi relyef forması bildirir. **Dərə** coğrafi termininin iştirakı ilə Azərbaycanda **30.000**-dən çox coğrafi ad qeydə alınıb.

**Üzərlikdərə** toponiminin tərkibindəki **üzərlik** sözü həlməkimilər fəsiləsindən olan bitki cinsinin adını özündə əks etdirir. Qədim əcdadlarımız **üzərlik** bitkisini müqəddəs hesab etmişlər. Ümumiyyətlə, ta qədimdən şərq xalqları, o cümlədən azərbaycanlılar arasında guya gözdəymədən saxlamaq məqsədi ilə *üzərlik yandırmaq adəti* varmış.





Ağdam, Füzuli, Xocalı rayonları ərazisində, eləcə də Naxçıvan Muxtar Respublikasında bu qəbildən olan **Üzərliktəpə** toponiminə rast gəlirik.

## VƏNG KƏNDİ

**Vəng kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 41 kilometr cənub-qərbdə, dağlıq və dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

**Vəng** oykoniminin izahı ilə bağlı müxtəlif mülahizələr var. Bəzi sənədlərdə oykonimin adına **Vanq, Vanklu** formalarında da rast gəlirik. **Vank** (***Vanq, Vəng***) sözü *«kilsə»*, *«monastr»* mənasındadır. **Vanklu** coğrafi adı *«kilsəli»* anlamındadır. **Vəng** yaşayış məntəqəsi oradakı XIV-XV əsrlərə aid xristian məbədinə (***Vəng***) görə belə adlandırılmışdır.

İsmayıllı və Kəlbəcər rayonlarında **Vəng** adlı kəndlər vardır...

*1727*-ci ilə aid olan *«Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»* adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında **Vəng kəndi** adına da rast gəlirik. Ancaq nədənsə həmin *«dəftər»*də kənddə heç kimin yaşamadığı göstərilir...

## VƏRƏNDƏ MAHALI, VƏRƏNDƏ MƏLİKLİYİ

Yuxarı Qarabağın tarixi *«**Vərəndə mahalı** ərazisi Kirs dağından başlayaraq Əlibaba düzənliyinə qədər uzanır. Eni Kirs dağından Şuşakən çayına və Xəlfəliyə qədərdir. Bu*

*mahalın torpağı çox məhsuldardır. Burda buğda və başqa dənli bitkilər çox yaxşı yetişir»* («Qarabağnamələr», II kitab, Bakı, «Yazıçı», 1991, səh.13).

Mahalın başçısı 1650-ci ildən Məlik Şahnəzər Məlik Bağı oğlu olmuşdur. 1708-ci ildə Gəncə-Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu-Qacar təliqə ilə III Məlik Şahnəzəri **Vərəndə** mahalının məliyi təsdiq edir. III Məlik Şahnəzərdən sonra **mahala** qardaşı Məlik Mirzəbəy başçılıq etmişdir. 1722-ci ildə II Təhmasib Səfəvinin fərmanı ilə Vərəndə mahalına Məlik Bağır Məlik Mirzə bəy oğlu başçı təyin olunur. 1727-ci ildə II Təhmasib Məmməd Hüseyn bəy Məlik Şahnəzər oğlunun mahala məlik təyin edir. Sonra mahala Məlik Mirzəbəy Məlik Bağır oğlu başçılıq etmişdir. Nadir şah Qırxlı-Avşar Məlik Mirzəbəyi edam etdirir. Onun qardaşı Həsən bəy Vərəndə mahalına **məlik** təyin olunur. 1747-ci ildə Məlik Hüseynin oğlu Şahnəzər bəy əmizadəsi Məlik Həsəni öldürüb Vərəndə mahalının hakimi olur. IV Məlik Şahnəzər Qarabağ xanı Pənahəli xana itaət edir. O, 1791-ci ilədək Vərəndəyə başçılıq edir.

İbrahimxəlil xan arvadı Hürzad xanımın (*Məlik Şahnəzərin Sona xanımdan olan qızı*) xatirinə qardaşı Hüseyn bəyi mahala başçı təyin edir. Xanın bu seçimi varislər arasında dartışmaya səbəb olur. Cahanbəxş bəy (*Məlik Şahnəzərin digər oğlu*) İrana qaçaraq Ağaməhəmməd xandan məliklik fərmanı alır. Qarabağa qayıdanda təklənir. Hüseyn bəy qardaşının evinə hücum edib onun əmlakını mənimsəyir. Cahanbəxş bəy qardaşı Cahangir bəylə Şirvana, Mustafa xan Xançobanlının yanına qaçır.

1791-ci ildə İbrahimxəlil xan işin yoğunlaşdığını görüb Məlik Şahnəzərin başqa bir oğlu Cümşüd bəyi Vərəndə mahalına **məlik** təyin edir. Məlik Cümşüd yerini möhkəmləndirdikdən sonra asi olan yağı məliklərlə (*Məcnun, Abov, Rüstəm*) bir araya gəlib, İbrahimxəlil xanın əleyhinə blok yaratmağa başlayır. İbrahimxəlil xan onu Qarabağdan qovur. 1805-ci ildə Məlik Cümşüd Qarabağa, Vərəndə mahalına qayıdır və çox keçmir ki, öyrətməsi ilə İbrahimxəlil xanın axırına çıxır...





**Vərəndə mahalı** tərkibinə daxil olan yaşayış məntəqələri və kəndlər aşağıdakılardan ibarət olmuşdur;

*Vərəndə, Çanaxçı, Keşişkəndi, Cəmiyyət, Kaqarza, Dəhraz, Şaşin (Saşin), Xaşin (Haşin), Əşrəflu (Əsrəflu), Şıx-Əlilli, Hacı-Özü, Güney Çartaz, Arpadöşü, Qalakəndi, Yemişcə, Siznik (Seynik), Meşka, Xaçmaz, Ağbulaq, Kutahis, Sarıbəyli, Təfavrən (Nefavrən), Keki (Koki), Şeyx Dursun, Qaraxan, Kəndxurd, Müşkabad, Keşin, İsfahancıq, Quzey Çartaz, Behrikəndi (Beynikəndi, Pirokəndi), Şuşi, Müşkənək, Beycan (Yeycan), Yenicə, Didyan, Muşaşyar, Dardan, Ağcaberd, Sərkələp, Kiratak, Xaşendam, Abdal, Caqadüz, Balacıq, Taxtadaşı, Xaitan, Vərəndəcik, Qaraqışlaq, Kandira, Qanlı Gədik, Qaraçuq, Sökütlü, Rudxanaye-Pirəhməd, Keçiqıran, Dövlətyar, Müsəlləm, Korlayı, Hərnəgərək (Xərnəgərək)...*

Orta əsrlərdə Qarabağın dağlıq ərazisində yaranmış kiçik feodal hakimliyindən biri **Vərəndə məlikliyi** adlanır. Səfəvilər zamanında **Vərəndə məlikliyi** Qarabağ bəylərbəyiliyinə daxil idi. XVIII əsrin ortalarından **Vərəndə məlikliyi** Qarabağ xanlığının vassalına çevrildi. Tarixi sənədlərdə qeyd olunur ki, əslən Göyçə əsilzadələrindən olan **Vərəndə** *məliyi* Şahnəzər Qarabağdakı digər məlikləri özünə tabe etməyə çalışan Pənahəli xana köməkliklər göstərmişdir...

Əlavə məlumat üçün bax: **Vərəndəli kəndi, Vərəndəli bulaq.**

## VƏRƏNDƏLİ KƏNDİ, VƏRƏNDƏLİ BULAQ

Xocavənd rayonu ərazisində **Vərəndəli** sözü ilə bağlı bir neçə ad qeydə alınıb. **Vərəndəli** adlı yaşayış məntəqəsi XX əsrin ortalarında Qaradağlı kəndinin ərazisinə birləşib. Qaradağlı kəndindən 5 kilometr aralıda, **Vərəndəli** adlanan sahədə fermalar da vardır. Ərazidə **Vərəndəli bulaq** adlı hidronim də qeydə alınmışdır.

Tarixdən məlumdur ki, Xocavənd rayon mərkəzinin, Xocavənd qəsəbəsinin cənub-qərb hissəsi **Vərəndəli** adlanır. Uzun əsrlərdir ki, burada yaşayan azərbaycanlılar özlərini **vərəndəli** nəsli, **vərəndəli** tayfasının nümayəndələri adlandırırlar.

Z.Kanakertsi «*Xronika*» əsərində **vərəndəli** adını çəkir: «Qarabağ xanlığının mövcudluğu dövründə bu bölgə **Vərəndə məlikliyi** adlanmışdır. XVII əsr müəllifi A.Davrişetsinin «*Tarix kitabı*»nda da *Vərəndə* adı xatırlanmışdır. D.D.Paqirevin göstərdiyi kimi XIX əsrdə Qafqazda mövcud olmuş *Berenda çayı, Berenda kəndi, Varanda Bolşoy, Varanda Malıy, Varanta uçuqluğu* **vərəndə** adı ilə əlaqədardır.

M.C.Cavanşir də **Vərəndə** haqqında məlumat vermişdir; «İranda olan cənnətməkan Səfəvi sultanlıqlarının dövründə Qarabağ vilayəti və Dizaq, **Vərəndə**, Xaçın, Giləberd, Talışdan ibarət olan erməni *Xəmsə* mahalları və elləri rəhmətlik Nadir şahın zamanına qədər Gəncə bəylərbəyiliyinin hökmünə tabe olmuşdur».

XX əsrin Sovetlər dönəmində **Vərəndə** toponimi sıxışdırılaraq **Martuni** adı ilə əvəzlənib rəsmiləşdirildi...

Toponimçi-tarixçi alim Q.Qeybullayev **vərəndə** onimi haqqında məlumat verərək göstərir ki, rus salnamələrində peçeneqlərlə bağlı **berendey** tayfalarının adı elə **vərəndə** adının variantıdır və **Vərəndə** toponimi mənbələrdə ***Pazkank*** adlanan ***Peçeneq*** mahalında mövcud olmuşdur.

Oljas Süleymanov **vərəndə/berendey** tayfası haqqında məlumat verərək göstərir ki, **vərəndə/berendey** tayfası peçeneqlərdən ayrılmadır. Peçeneqlər rusların tərəfinə keçən həmtayfalarını **berindi** «*satılmış*», «*özünü vermiş*», «*ayrılmış*» adlandırmışlar. Çox güman ki, peçeneqlərdən ayrılan **vərəndə** tayfası «*getmiş*», «*varmış*», «*ayrılmış*» mənasından törənən bir addır...

XII əsrdə yaşamış **berendey/vərəndə** başçılarından Dudar Satmazoviçin, Karakoz Miyuzoviçin və Koraz Kokeyin adlarını knyaz Mstislavla bağlı olaraq çəkir. Onlar Mstislava xidmət təklif edib əvəzində şəhər istəyirlər, knyaz razılıq verir. İndiki Jitomur vilayətindəki Bordiçev şəhəri XVIII əsrə qədər **Berendiçev** adlanmışdır...

Peçeneqlərdən ayrılan **vərəndə** tayfası «*ayrılmış*» mənasından törənən addır. **Vərəndə** formasında toponimləşmiş etnonim sənəd və materiallarda **Varanda, Vərəndəcik, Baranda, Vərəndəli** şəklində də işlədilmişdir...

Yerli sakinlərin dediklərinə görə, ***Vərəndə kəndi*** XIX əsrdə mövcud imiş. 1918-1920-ci illərdə Vərəndənin bəzi əkin sahələri, üzüm bağları qonşuluqdakı *Ağkənd* (Spitakşen) kəndinin torpaqlarına qatılıb. XX əsrdə bu kəndin 270 hektar sahəsi, 250 nəfər əhalisi olub. O zamanlar kənddə xeyli sayda xüsusi təsərrüfatlar fəaliyyət göstərmişdir. 1930-cu illərdə **Vərəndəlidə** «*Qırmızı Oktyabr*» adlı kolxoz (*1951-ci ilədək müstəqil olub*) yaradılıb. 1951-ci ildən **Vərəndəli**, Qağarza, Qaradağlı, Paravatumb kolxozları birləşdirildi. 1956-cı ildə isə **Vərəndəli** torpağının bir hissəsi alınıb Spitakşen və Müskabad

erməni kəndlərinə verildi. Nəhayət, erməni siyasəti nəticəsində **Vərəndəli** bir kənd kimi *«ömrünü başa vurur»*. Əhalisi Qaradağlı kəndinə köçürülür.

Erməni xəyanətinin qurbanı olan **Vərəndəli kəndi** həmin tarixi dönəmdə Martuni rayonunda məhv edilmiş Xanlıq kəndinin, Bəhrəmli kəndinin (*bu kəndin əhalisi yaxınlıqdakı Muğanlı kəndinə və digər yaşayış məntəqələrinə köçmüşdür*) aqibətini yaşamışdır...

## YARYURDU

Muğanlı kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Yaryurdu** adlanır. Toponim **yar** və **yurd** sözlərinin birləşməsindən əmələ gəlib. **Yaryurdu** coğrafi adı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur...

## YAZ YURDU

Xocavənd rayonunun Muğanlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Yaz yurdu** adlanır. Toponim bir qədər təhrifə məruz qalıb; əslində **Yazı yurdu** olmalıdır. Azərbaycan oronimiyasında rast gəldiyimiz **yazı** sözü qədim türk dillərində *«çay kənarı çöl, düzən»* anlamındadır. **Yaz yurdu** toponimi *«çay kənarındakı çöldə yurd yeri»* mənasındadır.

Tərkibində xalq coğrafi termini olan **yazı** sözü iştirak edən coğrafi adlara nümunə olaraq ***Yazı düzü, Ağyazı*** (Zəngilan rayonu), ***Ağyazı, Qarayazı*** (Qubadlı rayonu. Xələc kəndi), ***Ağyazı çölü*** (Zaqatala rayonu), ***Ağyazı çölü, Ağcayazı dağı, Ağcayazı təpəsi*** (Laçın rayonu, Ağcayazı





kənd), ***Ağcayazı düzü*** (Laçın rayonu, Zabux kəndi), ***Ağcayazı çuxuru, Ağcayazı dərəsi*** (Qax rayonu, Ağcayazı kəndi), ***Qarayazı çölü*** (Qazax rayonu), ***Yazı çalası*** (Oğuz rayonu), ***Ağyazı Xəzri dağı*** (Abşeron rayonu), ***Ağyazı vadisi*** (Zaqatala rayonu) və başqalarını göstərmək olar...

## *YEDDİQARDAŞ DAĞI*

Rayon mərkəzindən cənubda, Qarakollu kəndi yaxınlığında dağ. **Yeddiqardaş** spesifik oronimi say bildirən sözdən (***yeddi***) və oronimik termindən (***qardaş***) ibarətdir. Belə toponimlər başqa rayonlarda da var: Şamaxıda *Yeddikünbəz dağı*, Ağdamda *Yeddixırman dağı*, Siyəzəndə *Beşbarmaq dağı* və s.

**Yeddiqardaş dağı** ilə bağlı maraqlı bir rəvayət də vardır: Bir el ağsaqqalının boya-başa çatmamış 7 oğlu varmış. Özü də qocalmışdı. Yağılar tez-tez basqın edib eli talayırmışlar. Günlərin bir günü yağılar hücum edəndə, bu **yeddiqardaş** qoşun düzəldib onların qabağına çıxır. Azyaşlı olan bu qardaşlar görürlər basılacaqlar, yağılar kəndi, eli çapıb-talayacaqlar, üzlərini göyə tutub Tanrıya yalvarırlar ki, Ulu Tanrı bizi keçilməz dağa döndər, qabağı kəsək, yağılar elimizə toxunmasınlar. Tanrı onları eşidib yan-yana **yeddi dağa** döndərir. Yağılar keçməyə yol tapmayaraq, qayıdıb birdəfəlik gedirlər...

## YEGƏGUR ÇAYI

Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri **Yegədgur çayı** adlanır. Bu çayın suyundan

suvarmada geniş istifadə olunur. Hidronim **yekət** və **gur** sözlərindən ibarət olub, *«böyük, yoğun, gur sulu çay»* mənasındadır. **Yekət** komponenti *«böyük, yoğun»* anlamını ifadə edir...

## YEL PİRİ

Qaradağlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Yel piri** adlanır. Bu **pir-ocaq** yerli əhali tərəfindən müqəddəs ziyarət yeri hesab olunurdu. Camaat bu müqəddəs tapınaq yerini əziz tutur, ona niyyət tutaraq nəzir verirdilər. Çox əfsuslar olsun ki, erməni təcavüzü nəticəsində rayonunun dağıntıya məruz qalmış mədəni və dini abidələri içərisində ***Yer piri*** də vardır.

**Pir** sözü fars dilində *«müqəddəs»*, *«dini icmanın başçısı»*, *«nurani qoca»* və s. mənalarındadır.

**Yel piri** tarixi, mədəni və dini abidəsi də erməni işğalından (**17.02.1992**-ci il) sonra dağıntıya məruz qalmışdır. Azərbaycanda *37* oykonim və ***300*** oronim **pir** sözü ilə bağlıdır...

## YEMİŞCAN KƏNDİ

**Yemişcan kəndi** Xocavənd rayonunda, Qarakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, tərəvəzçilik, bağçılıq, bostançılıq və baramaçılıqla məşğul olur.

**1727**-ci ilə aid olan *«Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»* adlı tarixi qaynaqda Vərəndə nahiyəsinə daxil





olan kəndlər sırasında **Yemişcə** kəndinin də adı var. Bəzi tədqiqatçılara görə, **Yemişcan** oykonimi azacıq təhrifə məruz qalmışdır. 1727-ci ilə aid *«Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri»*ndə kəndin adı **Yemişcə** kimi çəkilmişdir.

Bəzən kəndin adı fitonimlərdən əmələ gələn makrotoponim kimi **Yemişçi** formasında da çəkilir. Əslində yaşayış məntəqəsinin adı **Yemişan** olmalıdır. Kənd orada bitən **yemişan** ağacının çoxluğuna görə belə adlandırılmışdır. **Yemişan** sadə oykonimdir.

**Yemişan** - gülçiçəklilər fəsiləsindən budaqları tikanlı, yarpaqları lələkvarı dilimli və ya bölümlü, çiçəkləri ağ və ya qırmızı olan kol, nadir hallarda isə alçaqboylu ağac cinsidir. **Yemişan** bitkisinin ətli meyvəsi dəyirmi, yumurtavarı, rəngi isə qırmızı, bəzən narıncı-qonur və ya qara olur. Azərbaycanda yemişanın 10-dan çox növü var. Azərbaycanda **beşyuvalı** yemişanın və başqa növlərində çiçək və meyvələri tədarük edilir. Yemişanın bir sıra növü dekorativ bitkidir. **Yemişçi** (*Yemişan*) toponimi *«yemiş, qovun yetişdirənlərin kəndi»* mənası ilə izah edənlər də vardır...

Qəbələ və Oğuz rayonlarında **Yemişanlı** adlı kənd də var...

## YENİ XOCAVƏND QƏSƏBƏSİ

Məcburi köçkünlərin məişət şəraitinin nisbətən yaxşılaşdırılması üçün rayonun istifadəsində olan *Haramı* adlı Dövlət Fond torpaqlarında **2** böyük və **5** kiçik **qəsəbə** salınmışdır ki, onlardan da biri **Yeni Xocavənd** adlanır. Əhalisinin sayı 1000 nəfərdir. Qəsəbə əhalisi heyvandar-

lıq, taxılçılıq, bağçılıq və bostançılıqla məşğul olur. Qəsəbədə orta məktəb, kitabxana, şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksi, ticarət, məişət, iaşə obyektləri və s. var.



**Yeni Xocavənd qəsəbəsi** yaşayış məntəqəsi **yeni** salındığı üçün rəmzi olaraq belə adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Xocavənd şəhəri**.

## YENİ QARADAĞLI QƏSƏBƏSİ

**Yeni Qaradağlı qəsəbəsi** yaşayış məntəqəsi **yeni** salındığı üçün rəmzi olaraq belə adlandırılıb. Əlavə məlumat üçün bax: **Qaradağlı kəndi**.

## YENİ TUĞ QƏSƏBƏSİ

**Yeni Tuğ qəsəbəsi** yaşayış məntəqəsi **yeni** salındığı üçün rəmzi olaraq belə adlanmışdır. Əlavə məlumat üçün bax: **Tuğ kəndi**.





## YENİKƏND KƏNDİ

**Yenikənd kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 19 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük və bostançılıqla məşğul olur.

XIX əsrin 20-ci illərində Cənubi Azərbaycanın Qaradağ mahalından və digər yerlərdən köçüb gəlmiş erməni ailələri burada məskunlaşmış və sonralar onlar kəndin adını erməni dilinə tərcümə olunmuş formada **Norşen** (*Yenikənd, Təzəkənd*) adlandırmışlar. 1992-ci ildə kəndin əvvəlki **Yenikənd** adı bərpa edilmişdir. Yenikənd oykonimi quruluş etibarı ilə mürəkkəb toponimdir.

Azərbaycan Pespublikası ərazisində Ağdaş, Ağstafa, Ağsu, Dəvəçi, Gədəbəy (3), Goranboy, Göyçay, Xocavənd, Kəlbəcər, Kürdəmir, Qəbələ, Quba, Neftçala, Oğuz, Sabirabad, Salyan, Samux, Şahbuz, Şamaxı, Şərur, Zəngilan rayonlarında da **Yenikənd** adlı kənd vardır...

## YORĞAN DƏRƏSİ

Azərbaycanda çöl materialları içərisində adının tərkibində **dərə** termini olan **30.000** coğrafi ad toplanmışdır. Onlardan biri də Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınan **Yorğan dərəsi** oroqrafik obyektidir. **Dərə** coğrafi termini mənfi relyef forması bildirir, -**si** şəkilçisi mənsubiyyət ifadə edir. Toponim zahiri formasına görə belə ad almışdır.

## YUXARI BULAQ

Xocavənd rayonunun Cəmiyyət kəndinin yaxınlığında qeydə alınmış hidronimlərdən biri **Yuxarı bulaq** adlanır. Hidronimin tərkibindəki **yuxarı** komponenti onu coğrafi mövqeyinə görə ərazidəki digər bulaqdan fərqləndirmək üçün işlədilmişdir. Bu ***bulağın*** şirin və soyuq suyu vardır. Əhali bu bulağın suyundan içmək üçün istifadə edir.

## YUXARI QIŞLAQ

Xocavənd rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri **Yuxarı Qışlaq** oroqrafik obyektidir. Bu toponim iqtisadi həyatla bağlı formalaşan coğrafi adlardandır. **Yuxarı Qışlaq** toponimi heyvandarlıqla əlaqədar olaraq formalaşaraq belə ad almışdır. Bu tipli coğrafi adlara Azərbaycanımızın müxtəlif bölgələrində tez-tez rast gəlirik...

## ZAKİRLİ KƏNDİ

Xocavənd rayonunda, Çiraquz inzibati ərazi vahidində, Qarabağ silsiləsində, rayon mərkəzindən **44** km cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd **Zakirli** adlanır. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq və bostançılıqla məşğul olur.

XIX əsrə aid olan rus mənbələrində yaşayış məntəqəsinin adı **Zakurlı** variantında qeydə alınıb. Oykonimin ***zakirli*** tirəsinin adı ilə bağlılığı ehtimal olunur. Gəlmə ermənilər burada məskunlaşdıqdan sonra kənd **Tsakuri**





(***tsaqor*** *erməncə «əzgil» deməkdir*) adı kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə kəndin indiki adı bərpa edilmişdir...

Tarixi sənədlərdən o da məlumdur ki, 1933-cü ildə Laçın rayonunda Zəkir adlı yaşayış məntəqəsi qeydə alınmışdır...

Əlavə məlumat üçün bax: **Tsakuri kəndi**...

## ZAMZUR KƏNDİ

(Bax: **Dərəkənd kəndi**)

## ZARISLI ÇAYI

Şuşa və Xocavənd rayonlarının ərazilərində qeydə alınan hidronimlərdən biri **Zarıslı çayı** adlanır. ***Zarıslı çayı*** Qarabağ silsiləsindən, **2080** m yüksəklikdən başlanır. O, Xocalı şəhəri yaxınlığında Xəlfəli çayı ilə birləşərək *Qarqar çayını* əmələ gətirir. Onun Şuşa şəhərinin kənarından axan hissəsi **Daşaltı** adlanır. **Zarıslı** mürəkkəb toponimdir.

***Zarıslı*** hidronimi **sarısu** adının monqol dilinin təsiri ilə dəyişmiş bir variantı olması ehtimal edilir. Monqol dilinin dialektlərində **s-z** əvəzlənməsi mümkün variantdır.

Mənbələrdə bu toponimin adı XIII əsrdən çəkilir. Yəqin ki, monqollar bu coğrafi adı **Zarıs** formasında qeydə almışlar. Çaydan bir qədər aralıda, Şuşa rayonunun tabeliyində olan ***Zarıslı*** adlı kənd də var.

**Zarıslı** etnoniminin **zar/sar** (*«Allaha inanan»*) və **ıs** (*«el»*) sözləri ilə əlaqədar yarandığını ehtimal edənlər də var. Bu anlamda ***zarıslı*** sözü *«Allaha inanan el»*, *«dindar*

*el*» mənasındadır. Digər bir fikrə görə, vaxtilə Qafqazda da yaşamış **zar** adlı tayfa da mövcud olmuşdur.

Vaxtilə Qərbi Azərbaycanda, İrəvan qəzasında, eləcə də Qırxbulaq və Zarzəmin nahiyələrində **Zar** adlı kəndlər mövcud idi...

## ZAVADIQ KƏNDİ

**Zavadıq kəndi** (*bəzən də adı **Zavadıx** kimi də yazılır*) Xocavənd rayonunda, Herher inzibati ərazi vahidində, rayon mərkəzindən 24 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin əsas məşğuliyyəti heyvandarlıq, taxılçılıq, üzümçülük, tərəvəzçilik və baramaçılıqdır.

**Zavadıq** – mürəkkəb toponimdir. Bir sıra tədqiqatçıların fikrincə, **Zavadıq** oykoniminin əsli qədim türk dillərindəki **sav/suv/su** sözündən ibarət olub, «*su, göl yanındakı kənd*» mənasındadır. Oykonimin əsli **Zabadeh** olub, fars dilindəki **zab** («*çeşmə, bulaq*») və **deh** («*kənd*») sözlərindən ibarətdir. Yaşayış məntəqəsinin adı «*bulaqlı, çeşməli kənd*» anlamındadır. XIX əsrdə gəlmə erməni ailələri burada məskunlaşdıqdan sonra toponim təhrifə uğrayaraq indiki şəklinə düşmüşdür. Coğrafi adın izahı ilə bağlı digər fikir və mülahizələr, izahlar da vardır...

## ZƏKİ BULAĞI

Xocavənd rayonunda, Qaradağlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Zəki bulağı** adlanır. Bu bulağın göz yaşı kimi dumduru, müalicə əhəmiyyətli





soyuq şəffaf suyu vardır. Hidronim **Zəki** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir; **-ı** mənsubluq bildirən şəkilçidir. **Bulaq** vaxtilə onu təmir etdirib suyunu üzə çıxaran adamın adı ilə əlaqədar olaraq belə adlandırılmışdır...

## ZƏRDANAŞEN KƏNDİ

**Zərdanaşen kəndi** Xocavənd rayonunda, rayon mərkəzindən 35 kilometr cənub-qərbdə, Xocalı rayonu ilə həmsərhəd ərazidə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bağçılıq və bostançılıqla məşğul olur.

Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr var. Əski türk dilində **zərd** sözünün «*sarı*» mənası var; **şen** termini «*kənd*» anlamındadır. **Zərdənaşen** toponimi «*sarı yerli kənd*» mənasındadır.

## ZƏRDANAŞEN MİNERAL BULAQLARI

Yuxarı Qarabağda, Xocavənd rayonunun ərazisində, **Zərdanaşen** kəndinin cənubunda, Kirs dağının şərq yamacında qeydə alınan bulaqlar **Zərdanaşen mineral bulaqları** adlanır. Bu bulaqların suyu soyuq, dadı isə turşdur. Onun müalicəvi əhəmiyyəti vardır. Bulaqlar keçmiş ***Zərdanaşen*** kəndinin adı ilə əlaqədar olaraq belə ad almışdır.

Əlavə məlumat üçün bax: **Zərdanaşen kəndi**...

## ZİYARƏT DAĞI

Xocavənd rayonu ərazisində, rayon mərkəzindən təxminən 63 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin cənub-şərq ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri **Ziyarət dağı** adlanır. Dağın maksimal hündürlüyü **2478-2480** metrdir. Ərazisində subalp çəmənlikləri olan **Ziyarət dağı** Orta Yuranın vulkanogen-çökmə süxurlarından təşkil olunmuşdur.

Alban tarixçisi M.Kalankatlının «*Alban tarixi*» əsərində bu yaşayış məntəqəsinin adı **Dizapayt** kimi çəkilir. Müəllifin yazdığına görə, maskut hökmdarı Sanatrukun 337-ci ildə öldürtdüyü ilk alban yepiskopu Qriqoris burada dəfn edilmişdir. Onun dəfn edildiyi məbəd azərbaycanlılar arasında **Ağoğlan piri** kimi məşhurdur. **Dağ** məhz bu sitayiş yeri olan məbədə görə **Ziyarət dağı** adlanmışdır. Toponim «*ziyarət, sitayiş edilən yer, pir*» mənasındadır.

Daşkəsən və Göygöl rayonları ərazisində də **Ziyarət dağı** adlı coğrafi ad qeydə alınıb.

## ZOĞALBULAQ KƏNDİ

**Zoğalbulaq kəndi** Xocavənd rayonunda, Azox inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr cənub-qərbdə, dağətəyi ərazidə, Quruçayın sahilində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, tərəvəzçilik və bağçılıqla məşğul olur.

XIX əsrdə erməni ailələri burada yerləşdikdən sonra **Zoğalbulaq** yaşayış məntəqəsinin adı onlar tərəfindən **Traxtik** kimi rəsmiləşdirilmişdir. **Traxtik** sözü erməni





dilində «*cənnət yeri*», «*cənnət guşəsi*» deməkdir. 1992-ci ildə kəndin keçmiş və indiki **Zoğalbulaq** adı bərpa edilmişdir. Oykonim **zoğal** və **bulaq** sözlərindən ibarətdir. Yaşayış məntəqəsinin yerlşdiyi ərazidə **zoğal** ağacları və zoğallara yaxın yerdə suyu dumduru, soyuq **bulaq** olduğuna görə kənd belə adlandırılmışdır. Kənd ərazidəki eyniadlı bulağın adını daşıyır...

## ZÜLQƏDƏR TƏPƏSİ

Xocavənd rayonunun Qarakənd kəndi ərazisində qeydə alınmış oronimlərdən biri **Zülqədər təpəsi** adlanır. **Zülqədər təpəsi** oronimi **zülqədər** tayfa adından, **təpə** müsbət relyef forması bildirən coğrafi termindən və **–si** mənsubluq ifadə edən şəkilçidən ibarətdir.

Oronim özündə qədim **zülqədər** tayfasının adını əks etdirir. Tarixdən məlumdur ki, XIII əsrdə Səlcuq dövləti dağıldıqdan sonra Ön Asiyada türk tayfalarının yenidən qüvvətlənməsi və qruplaşması nəticəsində bəzi tayfa birlikləri yaranmışdır. ***Zülqədər tayfası*** da belə tayfalardan biri idi.

XV əsrdə **zülqədər** tayfasının bir hissəsi Ağqoyunlu tayfa birliyinin tərkibinə daxil olmuşdur. Sonralar isə *zülqədərlər* **qızılbaşların 7** əsas tayfalarından birinə çevrilmişdir. Hərbi xidmətlərinə görə Səfəvilər onlara geniş torpaq sahələri bağışlamışdılar. **Zülqədər** tayfasının ***hacılı, şəmsəddinli*** (*şəmşədil*), ***xəzərli*** və s. adlı tirələri müxtəlif yaşayış məntəqələrinin əsasını qoymuşlar.

Tovuz rayonunun ərazisində ***Zülqədər dağı*** adlı oronim də qeydə alınmışdır...

## XOCAVƏND RAYONUNUN OYKONİMLƏRİ

Abdal qışlağı, Ağbaş yeri, Ağbulaq kəndi, Ağcakənd, Ağdam kəndi, Ağkənd, Axırlı, Axurlu kəndi, Akaku, Alıqulu qışlağı, Arakül kəndi, Aran, Arçazur, Arpadüzü kəndi, Arpagədik kəndi, Arsax, Ataqud kəndi, Avdur kəndi, Avşar tağı, Aydın, Azıx kəndi, Badar oymağı, Balaqan, Balatır, Balxaş, Banazur kəndi, Başə, Bayrambəyli kəndi, Baysunsur, Bəhrəmli kəndi, Bəhrəmli qışlağı, Bəylik qışlağı, Binə kəndi, Binədərəsi kəndi, Bosis, Böyük Tağlar kəndi, Bulutan kəndi, Bükrəköç, Bünyadlı kəndi, Cağadüz kəndi, Cəltelli, Cəmiyyət kəndi, Cərəguş, Cəyirli kəndi, Cilən kəndi, Cütçü kəndi, Çavdar, Çaylaqqala kəndi, Çəkənur, Çəmənli, Çıraquz kəndi, Çörəkli kəndi, Dağ Pərixan, Dağdöşü kəndi, Daşbaşı kəndi, Daştəpə, Davgərək, Dəmirçilər, Dərəaxunlu, Dərəkənd kəndi, Dərətünüb, Dərəyi Pətəklan, Dərgah, Dırbanabənd, Dizaq, Doqquzpərçim, Dolanlar kəndi, Domı kəndi, Dursun kəndi, Düdükçü kəndi, Edilli kəndi, Edişə kəndi, Eyvazlılar yatağı, Ədilşah, Əmirallar kəndi, Ərəkül, Ərgünəş, Gavahın kəndi, Gülbar, Güneyçartar kəndi, Güneyxırman kəndi, Günəşli kəndi, Hacı Əlikərəm yatağı, Hadrut qəsəbəsi, Hapıtlı, Hatək, Hatsi kəndi, Heşan kəndi, Herher kəndi, Hetas, Heyvanlıq, Həkəki, Həkənür, Hərəkül kəndi, Hintağlar kəndi, Horter, Xanəhmədli, Xanoğlan kəndi, Xərxan kəndi, Xətai kəndi, Xırmancıq kəndi, Xnuşinak kəndi, Xocavənd qəsəbəsi, Xonaşen, Xoşvəxt, Xuc, Xtsabert kəndi, İsxan, İstabuzlar, Kamallı, Kavallı, Keçidərə, Kemraquc kəndi, Kəndxurd kəndi, Kərabı, Kiliççi, Kiş kəndi, Kolatağ kəndi, Kolxozaşen kəndi, Köçbək kəndi, Köçkəbə, Köhnətağlar kəndi, Könül Şadlı, Kuxırı, Kurda, Kuropatkino kəndi, Küpül, Qaç, Qağartsi kəndi, Qarabağ, Qaradağlı kəndi, Qarahonc kəndi, Qaraxatunabat, Qarakəlli, Qarakənd kəndi, Qaratəpə kəndi, Qarazəmi kəndi, Qarıtəpə, Qarqar kəndi, Qaryagin, Qırmızı Bazar qəsəbəsi, Qızılqışlaq kəndi, Qoçbəyli kəndi, Qorzulu, Quzeyçartar kəndi, Quzeyxırman kəndi, Quzumkənd kəndi, Leylə, Maçkalaşen kəndi, Martuni qəsəbəsi, Mavas kəndi, Meticahan, Metstağlar kəndi, Mədədkənd kəndi, Məlikcanlı kəndi, Məmmədadzor kəndi, Məmməddərə kəndi, Məraxatun, Mərdəmeşkin, Mısmına kəndi, Mixad, Mirikənd kəndı, Misak, Miyan, Muğanlı kəndi, Mülküdərə kəndi, Müsəlmanlar, Müşkabad kəndi, Narcaq, Nəmxoş, Ningi kəndi, Noraşen kəndi, Oxçu, Oxzaberd, Palıdlı, Paravatumb kəndi, Pul, Rabat, Rizvan, Rus tağı, Salakətin kəndi, Sədək, Sərkiskənd, Sıznik, Sitaruz, Siyavuşan, Sor kəndi, Sos kəndi, Spitakşen kəndi, Sur, Susanlıq kəndi, Şahyeri kəndi, Şaqax kəndi, Şəvədinli, Şəkər kəndi, Şıx Dursun kəndi, Şıxer, Şıxımlı, Şıxtaraşen kəndi, Şıpartı, Tağ kəndi, Tağaser kəndi, Tağan, Tağasir, Tağaverd kəndi, Tənək, Təsbik, Tomu, Traxtik kəndi, Tsakuri kəndi, Tsur kəndi, Tuğ kəndi, Tunc, Türkeş, Tyak kəndi, Ulablı, Vəng kəndi, Vərəndə, Vərəndəli kəndi, Yaryurdu, Yaycılı, Yemişcan kəndi, Yengicəli, Yeni Xocavənd qəsəbəsi, Yeni Qaradağlı qəsəbəsi, Yeni Tuğ qəsəbəsi, Yenikənd kəndi, Yuxarı Qışlaq, Zakirli kəndi, Zamzur kəndi, Zavadıq kəndi, Zərdanaşen kəndi, Zoğalbulaq kəndi, Zülfüqarlı, Zürdəxaç...

# XOCAVƏND RAYONUNUN ORONİMLƏRİ

